

İSMAYIL
HACIYEV

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI MÜSTƏQİLLİK YOLLARINDA

İSMAYIL HACIYEV

105279

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI MÜSTƏQİLLİK YOLLARINDA

Azərbaycan Milli Kitabxanası

"Elm və təhsil"
Bakı - 2016

T3(2A-6Na)7a9

Elmi redaktor: **İsa Həbibbəyli**
*Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, Akademik*

Rəyçilər: **Fəxrəddin Səfərli,**
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor*
**Oktay Sultanov,**
*Tarix elmləri doktoru, professor*
**Ədalət Qasımov,**
*Tarix elmləri doktoru*

*İsmayıl Hacıyev.* ***Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında,*** *Bakı, "Elm və təhsil", 2016, 360 səh.*

*Monoqrafiyada Naxçıvan Muxtar Respublikasının müstəqillik illərindəki inkişaf yolu tədqiq edilmişdir. Kitabda XX əsrin 80-ci illərinin sonlarında başlanan milli oyanış, demokratik hərəkat, erməni təcavüzü, ulu öndər Heydər Əliyevin Naxçıvana qayıdışı, demokratik dəyişikliklər, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi, müdafiənin təşkili, Naxçıvanın blokadadan çıxarılması istiqamətində həyata keçirilən tədbirlər, müstəqilliyin möhkəmləndirilməsi sahəsində əldə olunan uğurlar, muxtar respublikanın mədəni inkişafı arxiv sənədləri, dövrü mətbuat materialları və mövcud elmi ədəbiyyat əsasında şərh olunur.*

ISBN 978-9952-8142-9-3

© «Elm və təhsil», 2016

ARXİV



***Müstəqilliyimiz haqqında hamı böyük iftixar hissi ilə danışır... Müstəqilliyi möhkəmləndirmək üçün xalqımızın, millətimizin qədim tarixini, keçdiyi yolu elmi surətdə tədqiq edib əsərlər, illyüstrativ materiallar, kinotelelentlər yaratmaq bunu həm öz xalqımıza, həm də bütün dünya xalqlarına göstərmək lazımdır.***

*Heydər ƏLİYEV,*

*Azərbaycan xalqının ümummilli lideri*

*Müstəqil Azərbaycan Respublikasının*

*memarı və qurucusu,*

*Azərbaycan xalqının ümummilli lideri*

*Heydər ƏLİYEVİN*

*əziz xatirəsinə*

# GİRİŞ

Azərbaycan Respublikasının tarixinin ən yeni mərhələsinin başlandığı dövrün – dövlət müstəqilliyinin bərpa edilməsinin iyirmi beş ili tamam olur. İyirmi beş il bundan əvvəl – 1991-ci il oktyabrın 18-də Azərbaycan xalqı "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın[1] qəbul olunması ilə öz tarixinin ən yeni dövrünə qədəm qoydu. Sovetlər Birliyinin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait və taleyin bəxş etdiyi imkanlar nəticəsində xalqımız XX əsrdə artıq ikinci dəfə idi ki, müstəqillik arzularına qovuşurdu. Bu, siyasi tariximizin XX əsrdəki ikinci parlaq səhifəsi idi. Konstitusiya Aktının qəbul edilməsi ilə Azərbaycan tarixinin yeni bir dövrü başlandı. Xalqımız öz taleyinin, torpaqlarının, öz ölkəsinin sahibi oldu. Artıq iyirmi beş ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır, dünyada rol və fəaliyyətini uğurla artırır və söz sahibinə çevrilir.

Dövlət müstəqilliyinin bərpa edilməsi ərəfəsində və müstəqilliyin ilk illərində Azərbaycan Respublikası üçün heç də asan olmamışdır. Çünki həmin dövrdə məkrli qonşularımızın ərazi iddiaları və silahlı müdaxilələri, Azərbaycan rəhbərlərinin səriştəsiz siyasəti, hakimiyyət uğrunda kəskin çəkişmələr, özbaşınalıq və anarxiyanın hökm sürməsi, iqtisadiyyatın dağıdılması, ölkənin maddi sərvətlərinin vəhşicəsinə talan edilməsi kimi hallar baş verirdi.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə ölkədə hakimiyyət dəyişikliyindən sonra Azərbaycan dövlətçiliyinə, onun müstəqilliyinə, ərazi bütövlüyünə qəsd edənlər cəmiyyətdən təcrid edildilər, ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr ləğv edildi, vətəndaş müharibəsinin qarşısı alındı, Milli Ordunun formalaşdırılmasına başlanıldı. Cəbhədəki vəziyyətdə ciddi dönüş əldə edildi və nəticədə Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Müharibənin

[1] "Həyat" qəzeti, 1991, 7 noyabr

dayandırılması, ictimai-siyasi sabitliyin bərqərar edilməsi Azərbaycanın müstəqil dövlət kimi yaşaması və sonrakı inkişafı üçün möhkəm zəmin yaratdı. "Əsrin müqaviləsi"nin bağlanması ilə islahatların həyata keçirilməsinə başlanıldı. 1995-ci ilin noyabrında müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olundu. Azərbaycanda dövlət çevrilişlərinə cəhdlərin qarşısı alındı, zorakı vasitələrlə hakimiyyətə gəlmək praktikasına birdəfəlik son qoyuldu. 1996-cı ildən başlayaraq həyata keçirilən uğurlu və məqsədyönlü daxili və xarici siyasət kursu həyatın bütün sahələrində əsaslı dəyişikliklərin baş verməsinə gətirib çıxardı. Bu uğurların əldə edilməsində müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin əvəzolunmaz böyük tarixi xidmətləri olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciətində dövlət müstəqilliyinin əldə edilməsinin tarixi əhəmiyyətini qiymətləndirərək demişdir: "XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti, şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur".[2]

1993-2003-cü illəri xarakterizə edən Ölkə başçısı İlham Əliyev demişdir: "Bu illər inkişaf, sabitlik illəri oldu. Məhz o illərdə dövlətçiliyimizin əsasları qoyuldu, milli ideologiya – azərbaycançılıq ideologiyası xalq tərəfindən dəstəkləndi. Bu gün biz o illərdə həyata keçirilən işlərin bəhrəsini görürük, əlbəttə ki, Azərbaycanı bu möhkəm təməl üzərində uğurla, inamla irəliyə aparırıq".[3]

İlham Əliyevin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər dövlət müstəqilliyinin möhkəmlənməsi, Azərbaycanın dünyadakı nüfuzunun artması, rol və mövqeyinin genişlənməsi, dayanıqlı olması, milli iqtisadiyyatın dəfələrlə artması, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması, Azərbaycan Respublikasının qaz və elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilməsi kimi amillərlə diqqəti cəlb edir. Bu gün Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada lider dövlətə çevrilməsi, iqtisadi sahədə keçid dövrünü başa vurması ilə xarakterizə olunur.

[2] Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Naxçıvan: Əcəmi NPB, 2001, s.10
[3] "Azərbaycan" qəzeti, 2016, 28 may



Azərbaycanın ayrılmaz bir parçası olan Naxçıvan Muxtar Respublikası da dövlət müstəqilliyinin bərpası və möhkəmləndirilməsi istiqamətində uğurlu fəaliyyət göstərmişdir.

Ermənistanın Azərbaycana hərbi təcavüzü, Dağlıq Qarabağ münaqişəsi Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatına əsaslı təsir göstərmişdir. Həmin illərdə ermənilər Naxçıvana da basqınlar edir, muxtar respublikanı blokadada saxlayır, Naxçıvana gələn bütün kommunikasiyaları kəsirdilər. Sovet rəhbərlərinin ikiüzlü siyasəti burada da özünü göstərirdi. Naxçıvanlılar buna etiraz olaraq 1990-cı il yanvarın 19-da Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması haqqında qərar qəbul etdi.

Naxçıvanda baş verən hadisələr tədqiqatçıların diqqətini cəlb etmiş, bununla əlaqədar müəyyən əsərlər yazılmışdır. "Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011)", "Sərhəd hərəkatı: milli birlik və həmrəylik", "Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər)", "Naxçıvan: tarixi və abidələri", "Şərur fəryadı", "80-cı illərin sonu – 90-cı illərin əvvəllərində Naxçıvanda milli-demokratik hərəkat", "Sədərəkdə yazılan gündəlik", "Sədərək şəhidləri", "Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan", "Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri)" və başqa əsərlərdə Naxçıvanda baş verən hadisələr geniş tədqiqata cəlb edilmişdir. Kitabda ilk dəfə olaraq Dağlıq Qarabağ münaqişəsinin Naxçıvanın ictimai-siyasi, sosial-iqtisadi həyatına təsiri, diyara erməni təcavüzü və ona qarşı mübarizə,

Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması, Heydər Əliyevin Naxçıvana qayıdışı, xalq hərəkatının başlaması və demokratik dəyişiklərin həyata keçirilməsi sistemli şəkildə araşdırılmışdır.

Azərbaycan tarixində 1991-1993-cü illər "itirilmiş illər" kimi xarakterizə olunur. Bu sözləri Naxçıvana aid etmək olmaz, çünki ulu öndər Heydər Əliyevin Naxçıvanda yaşaması, Naxçıvan Muxtar Respublisı Ali Məclisinin Sədri işləməsi Naxçıvanı gözləyən bəlalardan xilas etdi və qoruyub saxladı. Azərbaycanın dövlət müstəqilliyinin əsasları məhz Naxçıvanda qoyulmuş, Naxçıvanda Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan xalq Cümhuriyətinin üçrəngli bayrağı dövlət bayrağı elan edilmişdir. Sovet İttifaqının saxlanması ilə bağlı referendum Naxçıvanda keçirilməmişdir.

Monoqrafiyada 1991-ci ilin sentyabrından 1993-cü ilin iyun ayınadək olan dövrün geniş təhlili verilmişdir. Bu dövrün xarakterik xüsusiyyəti SSRİ-nin süqutu və Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin elan edilməsi ilə daha çox bağlıdır.

Müstəqil Azərbaycan Respublikası ilk günlərdən böyük çətinliklərlə qarşılaşmışdı. Azərbaycanda müəyyən qüvvələr arasında hakimiyyət çəkişməsi respublikanı siyasi, hərbi, iqtisadi böhran həddinə gətirib çıxarmışdı. Kitabda bu dövrdə Naxçıvan Muxtar Respublikasında baş verən proseslər tədqiqata cəlb olunmuşdur.

Burada Naxçıvan Muxtar Respublikasının müstəqillik illərindəki inkişaf tarixi öz əksini tapmışdır. Bu illər Naxçıvanın həyatında inkişafın "Naxçıvan modeli" kimi xarakterizə olunmuş, inkişafdan intibaha yüksəldiyi qeyd edilmişdir.

1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycan sanki özünə gəldi, səriştəsiz rəhbərlərdən yaxa qurtardı. Qısa müddətdə dəyişikliklər özünü göstərdi, böhran aradan qaldırıldı, silahlı dəstələr buraxıldı, Milli Ordu yaradıldı, atəşkəsə nail olundu. Ümummilli liderin qətiyyətli qərarları ilə vətəndaş qarşıdurmasına son qoyuldu, ölkənin parçalanmasına yönəldilmiş təhdidlərin və dövlət çevrilişi cəhdlərinin qarşısı alındı. Düzgün daxili və xa-



rici siyasət həyata keçirildi. Demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna başlandı. Əsaslı iqtisadi islahatlar inkişafa səbəb oldu. Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyası və sosial siyasəti müəyyən edildi və müvəffəqiyyətlə yerinə yetirilməyə başlandı. Azərbaycan Respublikası görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin on illik ikinci hakimiyyəti dövründə çox böyük inkişafa nail oldu. Əsrin müqaviləsi inkişafa stimul yaratdı.

Azərbaycanın müstəqillik dövr tarixi tədqiqatçıların maraq dairəsindədir. İlk növbədə kollektiv əsərlərdə, eləcə də "Azərbaycan tarixi"nin VII cildində on illik bir dövr əks olunmuşdur. Həmin əsərin III bölməsinin II və III fəsilləri müstəqil Azərbaycan dövlətçiliyinin qurulması və möhkəmləndirilməsinə, əsaslı iqtisadi islahatların aparılmasına və sosial dirçəlişə həsr olunmuşdur. Kollektiv müəlliflər tərəfindən hazırlanmış "Azərbaycan Respublikası 1991-2001-ci illər" əsəri də Azərbaycanın müstəqilliyinin bərpasının 10 illik yubileyinə həsr olunmuşdur. Ulu öndər Heydər Əliyev haqqında yazılan əsərlərdə həm də "Azərbaycan tarixi"nin müəyyən dövrləri əks olunur. Bu cəhətdən "Heydər Əliyev: şəxsiyyət və zaman" roman-tədqiqatının 6-cı kitabının hər iki hissəsi 1993-2003-cü illəri əhatə edir. Tədqiqatçıların kitab və monoqrafiyalarında da bəhs olunan dövrün tarixi səciyyəsi təhlil edilmişdir.

Naxçıvan Muxtar Respublikasının 1995-ci ildən sonrakı dövrünün tarixi kitabın III fəslində geniş və dolğun işlənilmişdir. Burada Naxçıvanın ictimai-siyasi həyatı, Naxçıvan Muxtar Respublikasında Yeni Konstitusiyasının qəbul edilməsi, Ali Məclisə seçkilərin keçirilməsi, sosial-iqtisadi inkişafda baş vermiş dəyişikliklər əhatəli şəkildə verilmişdir. Bu məsələlərlə bağlı Naxçıvanın tədqiqatçı alimlərinin əsərləri bəhs olunan dövrün tarixi və iqtisadi təhlilinə həsr edilmişdir.

Monoqrafiyada müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının mədəni inkişafından da bəhs edilir. Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı mədəniyyət sahəsində də özünü göstərmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə yaradılmış mədəni infrastruktur, qazanılmış uğurlar keçən əsrin 90-cı illərində ölkədə yaranmış özbaşınalıq, xaos nəticəsində tam sıradan çıxmaq təhlükəsi ilə qarşılaşmış, maddi-mədəniyyət abidələrinin bir çoxu baxımsızlıq üzündən dağılmışdır. Bu problemlər Azərbaycan xalqının ümummilli lideri, mədəniyyət və incəsənətimizin hamisi Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra öz həllini tapdı.

Mədəniyyətin inkişafı və milli-mədəni irsimizin qorunması sahəsində ümummilli liderin böyük səyləri olmuşdur. Azərbaycan artıq öz mədəniyyəti, ədəbiyyatı, incəsənəti və şəxsiyyətləri ilə dünya meridianlarına çıxır. Ümummilli lider dəfələrlə qeyd etmişdir ki, hər bir xalqı mədəniyyət qədər dünyada tanıdan ikinci bir vasitə yoxdur. Müstəqillik illərində dünyanın onlarla ölkəsində, yüzlərlə şəhərlərində Azərbaycanla və Naxçıvan Muxtar Respublikası ilə bağlı mədəniyyət tədbirləri həyata keçirilmişdir.

Naxçıvan Muxtar Respublikasında mədəniyyət ən inkişaf etmiş sahələrdən biridir. Bu da səbəbsiz deyildir. Ulu öndər Heydər Əliyevin mədəniyyət siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir. Muxtar Respublikada da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu sahələrin inkişafını prioritet hesab etmiş, mədəniyyətin inkişafına yüksək diqqət və qayğı göstərmişdir. Təhsil, elm, mədəni-maarif müəssisələri, ədəbiyyat, mətbuat, incəsənət heç bir vaxt indiki kimi dövlət qayğısı ilə əhatə olunmamışdır. Yeni təhsil ocaqları, mədəniyyət obyektləri, elmi-tədqiqat müəssisələri yaradılmış, onların maddi-texniki bazası möhkəmləndirilmişdir.

Beləliklə, qəti əminik ki, Naxçıvan Muxtar Respublikasının müstəqillik yollarında əldə etdiyi uğurlar, keçdiyi tarixi inkişaf yoluna bələd olmaq istəyən hər bir ziyalı, tariximizin bu dövrünü öyrənmək istəyən hər bir kəs bu kitabın imkanlarından faydalanacaq, dövlət müstəqilliyinin möhkəmləndirilməsi, davamlı və dönməz olması üçün bütün səylərini sərf edəcəklər.



# I FƏSİL

# NAXÇIVANIN İCTİMAİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ HƏYATI (1988-1990-cı illər)

## 1.1. Dağlıq Qarabağ münaqişəsi və bunun Naxçıvanın ictimai-siyasi həyatına təsiri

XX əsrin 80-ci illərinin ortalarında sovet ölkəsinin ictimai-siyasi, iqtisadi və mədəni həyatında böhran yaranmışdı. Böhranın əsas səbəbi 1970-ci illərin ortalarından başlayaraq ölkəni idarə edə biləcək səriştəli, bacarıqlı, liderlik keyfiyyətlərinə malik olan görkəmli tarixi şəxsiyyətlərin, nüfuzlu dövlət xadimlərinin olmaması idi. 1985-ci ildən sovet imperiyasına rəhbərlik edən Sov. İKP MK-nın Baş katibi M.S.Qorbaçov "yenidənqurma" siyasətini, "sürətləndirmə konsepsiyası"nı irəli sürsə də bu, özünü doğrultmadı. Partiyanın 1987-ci il (Yanvar) plenumunda yeni siyasi xətt – "aşkarlıq və demokratiya xətti"nin qəbul edilməsinə, "insan amilinin rolunun yüksəldilməsi"nə baxmayaraq ölkə iflasa doğru gedirdi.

Ölkə rəhbərliyində SSRİ-nin taleyi ilə bağlı fikir ayrılıqları olsa da, milli respublikalara münasibətdə daha çox yekdillik var idi. Məqsəd hətta ictimai-iqtisadi sistem və dövlət idarəçiliyinin üsulları dəyişilsə də, imperiyanın ərazi bütövlüyünü qorumaq idi. İttifaq rəhbərliyi mərkəzdənqaçma qüvvəsini zəiflətmək üçün ənənəvi siyasətdən ("parçala, hökm sür" – İ.H.) daha geniş istifadə edir, milli münaqişələri qızışdırır, xalqlar arasında qanlı nifaq salırdı.[4] Nəticədə keçmiş ittifaqın müxtəlif bölgələrində münaqişə ocaqları daha da alovlanırdı.

Ermənipərəst M.S.Qorbaçov siyasətdə qərəzli və təsadüfi adam olduğundan ümummilli lider Heydər Əliyevin SSRİ-nin

[4] Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001, s.60

idarə olunmasında söz sahibi olmasını heç cür qəbul edə bilmirdi. Bütün Sovet ölkəsində görkəmli siyasi xadim kimi nüfuz qazanmış Heydər Əliyev SSRİ-nin yüksək dövlət və partiya rəhbərliyində mühüm vəzifələrdən birini tuturdu. Lakin M.S.Qorbaçov bundan özü üçün təhlükə hiss edirdi. Ona görə də bütün vasitələrlə Heydər Əliyevi Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavinliyindən uzaqlaşdırmağa çalışırdı. Bu işdə M.S.Qorbaçovun ətrafında, dövlət, hökumət strukturlarında vəzifə tutan ermənilər də ciddi-cəhdlə çalışır, partiya, dövlət və hökumət orqanlarına anonim məktublar göndərirdilər. 1987-ci ilin oktyabrında Heydər Əliyevin Sov. İKP MK Siyasi Bürosu üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verməsi erməniləri daha da həvəsləndirdi.

Yaranmış siyasi şəraitdən faydalanan, SSRİ rəhbərlərinin havadarlığından ruhlanan erməni millətçiləri Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağa və Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edərək bu torpaqları ələ keçirmək üçün təcavüzkar hərəkətlərə başladılar. 1987-ci ilin oktyabrında İrəvanın Puşkin meydanında "Qarabağ Komitəsi"nin ilk açıq mitinqi keçirildi.[5] Rəsmi Moskva 1987-ci ilin noyabrında Parisdə M.S.Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri olan akademik Abel Aqanbekyanın dili ilə Qarabağ hərəkatına müsbət münasibətini, qeyri-rəsmi olsa da, bütün dünyaya bildirməkdən çəkinmədi. A.Aqanbekyan Fransanın "Humanite" qəzetinin 1987-ci il 18 noyabr tarixli sayında dərc olunmuş müsahibəsində Dağlıq Qarabağın Ermənistana verilməsinin məqsədəuyğun olmasını və bu barədə dövlət başçısına təklif verdiyini bildirdi.[6]

[5] Помпеев Ю. А. Кровавый омут Карабаха. Баку, 1992,с. 24
[6] Yenə orada, s. 20



Erməni millətçiləri Dağlıq Qarabağı Ermənistan SSR-yə birləşdirmək üçün geniş fəaliyyətə başladılar. "Qarabağ Komitəsi"nin DQMV-də gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk" (Durna) açıq fəal mübarizəyə başladı. Dağlıq Qarabağ erməniləri arasında Ermənistana birləşmək uğrunda "Miatsum" (birləşmə) hərəkatı genişlənirdi. Ona iri müəssisə rəhbərlərini birləşdirən "55-lər komitəsi" adlı xüsusi orqan rəhbərlik edirdi.[7]

Ermənilərin Dağlıq Qarabağı ələ keçirmək üçün başladıqları hərəkatın ilk dövründə, 1988-1991-ci illərdə Ermənistan SSR ərazisindən, öz dədə-baba yurdlarından (185 kənddən və başqa yaşayış məntəqələrindən) 230 min azərbaycanlı qovuldu, onlara məxsus 31000 ev, şəxsi təsərrüfat, 165 kolxoz və sovxozun əmlakı talandı, 225 nəfər öldürüldü, 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncə verildi, bədən əzaları kəsildi, gözləri çıxarıldı.[8] Bunun üçün əvvəlcədən xüsusi silahlı dəstələr hazırlanmışdı. Ermənistan SSR-in Qafan və Mehri rayonlarında bu cinayətkarların vəhşi əməllərindən yaxa qurtaran ilk qaçqınlar 1988-ci il yanvarın 25-də Azərbaycana pənah gətirdilər.[9]

1988-ci il fevralın 12-də İrəvanda böyük antitürk mitinqi keçirildi. "Ermənistan türklərdən təmizlənməli!", "Ermənistanda ermənilər yaşamalıdır!" kimi millətçi şüarlar səslənirdi.[10] Fevralın 21-də erməni vandalları İrəvanda qalmış son məscidə hücum edib onu dağıtdılar. Dağlıq Qarabağda ermənilər SSRİ rəhbərliyindəki havadarlarından istifadə edərək, 1988-ci il fevralın 20-də Xalq Deputatları Sovetinin yalnız erməni deputatlarının iştirakı ilə keçirilən növbədənkənar sessiyasını çağıraraq vilayə-

[7] "Бакинский рабочий" qəzeti, 1988. 26 mart
[8] Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI – Yeni Nəşrlər Evi, 2001, s. 66; Azərbaycan Respublikası Milli Məclisinin Arxivi (AR MMA), f. 2941, siy.1, iş 274, v.54
[9] Трагедия длиною в два года. Баку, 1990, с. 33
[10] Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi (ARPİİ SSA), f.1, siy.83, iş 205, v.2

tin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdilər.[11]

Ermənistan SSR Ali Soveti 1988-ci il 15 iyun tarixli qərarı ilə kobudcasına Azərbaycanın daxili işlərinə qarışaraq, DQMV-ni Ermənistanın tərkibinə qəbul etməyə razılıq verdi.[12] XI çağırış Azərbaycan SSR Ali Sovetinin VII sessiyası 1988-ci il 17 iyun tarixli qərarı ilə DQMV Xalq Deputatları Sovetinin 20 fevral tarixli qərarını qeyri-qanuni akt kimi qiymətləndirdi.[13] İyunun 21-də DQMV Sovetinin fövqəladə sessiyası SSRİ Ali Sovetinə müraciətlə Dağlıq Qarabağın Ermənistan SSR-ə verilməsini xahiş etdi. İyulun 12-də vilayət sovetinin sessiyasında DQMV-nin Azərbaycan SSR tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul olundu.[14]

SSRİ Ali Soveti Rəyasət Heyəti vəziyyəti nizama salmaq adı ilə Azərbaycanın hüquqlarını yenidən kobud sürətdə pozaraq 1989-cu il yanvarın 12-də "Azərbaycan SSR-in DQMV-nin xüsusi idarəçilik formasının tətbiqi haqqında" qərar qəbul etdi. A.Volskinin başçılığı ilə muxtar vilayət xalq deputatları Soveti, onun İcraiyyə Komitəsi hüququnda birbaşa Moskvaya tabe olan müvəqqəti Xüsusi İdarə Komitəsi (XİK) təşkil edildi, bütün dövlət və ictimai orqanların səlahiyyəti dayandırıldı.[15] Bununla da, SSRİ Ali Soveti Rəyasət Heyətinin bu qərarı DQMV-ni Azərbaycana bağlayan iqtisadi əlaqələrin tam qırılmasına, azərbaycanlıların buradan qovulmasına və ermənilərin silahlanmasına şərait yaratdı.

Azərbaycanın demokratik qüvvələrinin təkidli tələbi ilə SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1989-cu ilin 28 noyabrında

[11] Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, s.11

[12] Нагорный Карабах: разум победит. Документы и материалы. Баку, 1989, с. 84

[13] "Kommunist" qəzeti, 18 iyun, 1988.

[14] Трагедия длиною в два года. Баку, 1990, с. 34

[15] ARPİİ SSA, f.1. siy. 83, iş 16, v.1



Dağlıq Qarabağda XİK-i ləğv etdi. Vilayətin idarə olunması SSRİ Ali Sovetinin xüsusi komissiyasının nəzarəti altında Azərbaycan SSR-in təşkilat komitəsinə tapşırıldı. Lakin yenə də mərkəz tərəfindən qəti tədbirlərin görülməməsi erməniləri yeni təhrikçi hərəkətlərə şirnikləndirirdi.

Erməni millətçiləri üçün azərbaycanlıların öz ata-baba yurdlarından – etnik torpaqlarından qovulması strateji məqsədlərinin ilkin mərhələsi idi. Ermənistanda qanlı antitürk hərəkatı genişlənirdi. Məhv olmaq təhlükəsi ilə üz-üzə qalan azərbaycanlılar öz yurd-yuvalarını tərk etməyə məcbur oldular. Onlar Azərbaycanın Ermənistanla sərhəd rayonlarına axışırdılar. Azərbaycanlıların ümid yeri, arxa bildiyi ərazi Naxçıvan Muxtar Respublikası idi. Naxçıvan əhalisi XX əsrin əvvəllərində olduğu kimi, əsrin sonlarında da erməni millətçilərinin təqiblərindən qaçıb canını qurtarmış soydaşlarına sığınacaq vermiş, onlara pənah gətirənlərə qayğı göstərmişdir.

Ermənistan SSR-in Ararat, Əzizbəyov, Yexeqnadzor, Artaşat rayonlarının, eləcə də Qarmraşen və Xalisə kəndlərinin azərbaycanlı əhalisi erməni daşnaklarından xilas olaraq Naxçıvana gələ bilmişdilər. 1988-ci ilin mart ayının ikinci yarısından başlayaraq Naxçıvan əhalisi İrəvandan, Göyçədən, Vedibasardan, Zəngəzurdan gələn yüzlərlə soydaşını qəbul edirdi. Onları qarşılamaq, yerləşdirmək, minimum tələbatlarını ödəmək üçün hər bir naxçıvanlı ayağa qalxmışdı.

Naxçıvana qovulmuş didərginlərin hamısına erməni yaraqlıları tərəfindən divan tutulmuş, onların bir hissəsi işgəncələrə məruz qalmış, ölən və yaralananlar da olmuşdu. Yaralılar xəstəxanalara çatdırılır, onlara ilk tibbi yardım göstərilirdi.

1988-ci ilin ilk üç ayı ərzində Ermənistan SSR-dən Naxçıvan Muxtar Respublikasına 9088 nəfər qaçqın (1853 ailə) gəlmişdi ki, onlardan 2493-ü (427 ailə) müvəqqəti olaraq Sədə-

rək kəndində, yerli sakinlərin evlərində, müxtəlif ictimai binalarda, məktəblərdə yerləşdirilmişdi.[16]

1988-ci ilin aprel ayından başlayaraq Ermənistan SSR-də yerli azərbaycanlılara qarşı təqiblərin güclənməsi ilə qaçqınların yeni, daha böyük kütləsi Naxçıvan Muxtar Respublikasına gəldi. Aprel-iyul ayları ərzində muxtar respublikaya əlavə olaraq 8 mindən çox qaçqın gəlmişdi.[17]

Əvvəllər qaçqınların qəbulu və onların yerləşdirilməsi yerli əhalinin iştirakı ilə həyata keçirilirdisə, sonradan bu işlə muxtar respublikanın əlaqədar təşkilatları məşğul olmağa başladı. Bunun üçün xüsusi komissiya yaradıldı. Komissiyaya Naxçıvan Muxtar Respublikası Nazirlər Soveti sədrinin birinci müavini başçılıq edirdi.[18] Muxtar respublikanın rayonlarında da belə komissiyalar yaradılmışdı. Muxtar respublikaya gəlmiş hər bir ailəyə maddi yardım göstərilmiş, onlar yaşayış yerləri, ərzaq məhsulları ilə təmin olunmuşdular.

Ermənistan SSR-dən qaçqın düşmüş azərbaycanlılar əvvəllər kənd təsərrüfatı ilə məşğul olduqlarından onlara torpaq sahələri ayrılmış və kəndlərdə yaşamalarına köməklik göstərilmişdir.

Ermənistan SSR-dən qovulan soydaşlarımızın qəbulu və onlara yardım göstərilməsi sahəsində əsas ağırlıq Şərur rayonunun üzərinə düşmüşdü. 1988-ci ilin sonları üçün bu rayonun 60-a yaxın kəndində 800 ailəni təmsil edən 2100 nəfərlik qaçqın yerləşdirilmişdi. Qısa müddət ərzində qaçqınların əksəriyyəti yaşayış yerləri və işlə təmin edilmiş, onlara torpaq sahələri ayrılmış

[16] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 95, siy.37, bağ.306, iş 33, v 2-6
[17] Yenə orada, f. 95, siy.37, bağ.307, iş 56, v.19-21
[18] Yenə orada, f. 95, siy.37, bağ.317, iş 177, v.13



və uzunmüddətli ssudalar verilmişdi. Rayonda yerləşən qaçqınlara 430 min manatlıq pul və ərzaq yardımı göstərilmişdi.[19]

Muxtar respublikanın Babək, Ordubad, Culfa, Şahbuz rayonlarında da Ermənistan SSR-dən qovulmuş soydaşlarımızın qəbul edilməsi və yerləşdirilməsi üçün müvafiq tədbirlər görülmüşdü. Babək rayonunda 2500, Ordubad rayonunda 500, Culfa rayonunda 300, Şahbuz rayonunda isə 1500 qaçqın qəbul edilmiş və yerləşdirilmişdi. Babək rayonuna gəlmiş qaçqınların 757-si rayonda qeydiyyata alınmış, 1462-si Çalxanqalada, 115-i isə Kültəpə, Zeynəddin və Kərimbəyli kəndlərində yerləşdirilmiş, köçkünlərə 31328 manat vəsait ödənilmişdi.[20] Rayonun Böyükdüz kəndinin yaxınlığında "Ceyran bulağı" adlanan ərazidə 380 qaçqının yerləşdirilməsi üçün yeni yaşayış məntəqəsi yaradılmışdı. Burada hər bir ailə üçün fərdi ev, məktəb, klub, mağaza və digər məişət və sosial obyektlər tikilmişdi. Hər bir ailəyə 1200 kv.m torpaq sahəsi ayrılmışdı.[21] Ordubad rayonuna gəlmiş qaçqınlar rayonun bir sıra kəndlərində, ermənilərin tərk etdikləri evlərdə yerləşdirilmişdi. Qaçqın uşaqlar üçün Parağa kəndində yeni məktəb açılmışdı.[22] Rayonda daimi yaşamaq arzusunda olanlar üçün ssuda ayrılmış, onlar işlə təmin edilmişdilər. Qaçqınlar üçün dövlət bankının şöbəsində açılmış xüsusi hesaba rayonun müxtəlif əmək kollektivləri, ayrı-ayrı şəxslər tərəfindən 150 min manat vəsait köçürülmüşdü. Rayonun Ağdərə kəndinin qaçqınlar tərəfindən məskunlaşdırılması qərara alınmışdı.[23]

[19] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 101
[20] NMR DA, f. 103, siy.10, bağ.63, iş 53, v. 39-45
[21] "Şərq qapısı" qəzeti, 20 may, 1990
[22] NMR DA, f. 98, siy.16, bağ.175, iş 1, v. 1-5
[23] "Kommunist" qəzeti, 1988, 8 dekabr

Culfa rayonuna gəlmiş qaçqınlar əsasən, Culfa şəhərində və rayonun Xanağa, Əbrəqunus, Şurud, Milax və başqa kəndlərində yerləşdirilirdi.[24]

Şahbuz rayonuna Ermənistan SSR-in Əzizbəyov, Yexeqnadzor və Sisyan rayonlarından 1500 nəfərdən çox qaçqın gəlmişdi. Rayonun əhalisi qaçqın düşmüş soydaşlarının vəziyyətini qismən də olsa yüngülləşdirmək üçün əllərindən gələni etmişdilər. Qaçqınlar rayonun Nursu, Mahmudoba, Badamlı, Gömür, Ayrınc və başqa kəndlərində müvəqqəti yerləşdirilmişdi.[25] Rayonun Gömür kəndində 35 qaçqın ailəsi yerləşdirilmişdi.[26] Sonradan qaçqınların bir hissəsi Azərbaycanın başqa bölgələrinə getmişdi. 1989-cu ilin ortaları üçün Şahbuzda cəmi 362 qaçqın qalmışdı.[27]

Naxçıvan MSSR-ə gəlmiş qaçqınların yerləşdirilməsi, onların zəruri vasitələlə təmin edilməsi üçün hər bir rayonda xüsusi komissiyalar və qərargahlar yaradılmışdı. Komissiyalara ya rayon partiya komitələrinin birinci katibləri, ya da XDS İK-in sədrləri başçılıq edirdilər.[28]

1988-1989-cu illərdə muxtar respublika rəhbərliyi bütün əhali ilə birgə öz doğma yurd-yuvalarından didərgin düşmüş soydaşların vəziyyətini qismən yüngülləşdirmək üçün bütün zəruri tədbirləri görmüşdülər. Onlara ərzaq, paltar, pul, yanacaq və digər yardımlar göstərilmiş, yaşayış yerləri, işlə, tibbi və digər sosial-məişət xidmətləri ilə təmin edilmiş, məktəbyaşlı uşaqlar təhsilə cəlb edilmişdilər.

[24] NMR DA, f. 96, siy.12, bağ.149, iş 15, v. 29-30
[25] Yenə orada, f. 97, siy.12, bağ.115, iş 26, v. 1-30
[26] "Şərq qapısı" qəzeti, 1989, 19 dekabr
[27] NMR DA, f. 97, siy.12, bağ.115, iş 26, v. 84
[28] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 99, 100, 103-105, 107-108



Lakin 1989-cu ilin sonlarından başlayaraq Ermənistandan qaçqın düşərək Naxçıvanda məskunlaşmış əhalinin əksəriyyəti Bakı şəhərinə köçməyə başladı. Muxtar respublikada daimi məskunlaşmaq qərarına gəlmiş qaçqınlar isə burada daimi pasport qeydiyyatına alınaraq, evlə, şəxsi təsərrüfat sahələri və daimi işlə təmin edildilər. Təkcə Naxçıvan şəhərində 825 qaçqın daimi qeydiyyata alındı.[29] Naxçıvan MSSR-də yaşayan qaçqınlara şəhər və rayon XDS İK-nın müvafiq qərarları ilə müavinətlər verildi.

SSRİ rəhbərlərinin ikili siyasəti, Azərbaycan SSR-in dövlət və hakimiyyət orqanlarının passiv mövqeyi, ermənilərin özbaşına, azğın hərəkətlərinə qarşı heç bir tədbir görülməməsi, Azərbaycan SSR-in suveren hüquqlarının pozulması, Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların öz doğma yurd-yuvalarından vəhşi yollarla didərgin salınması Azərbaycan xalqının dərin hiddətinə səbəb oldu.

105779

Dağlıq Qarabağ hadisələri Naxçıvan MSSR-nin ictimai-siyasi və iqtisadi həyatına da ciddi təsir göstərdi. Qarabağ münaqişəsi, Ermənistan SSR-dən qovulan azərbaycanlıların Naxçıvana axını, Naxçıvanın sərhəd kəndlərinə erməni yaraqlılarının silahlı basqınları əhalini fəal mübarizəyə qaldırdı. "Daşnak təcavüzünün gücləndiyi bir şəraitdə satqın ölkə rəhbərliyinin cinayətkarcasına fəaliyyətsizliyi" [30] minlərlə naxçıvanlını küçələrə, meydanlara çıxardı. Onlar Sovet imperiyasına, onun muxtar respublikadakı dayaqlarına, vilayət, şəhər və rayon partiya komitələrinə qarşı etiraz mitinqləri və yürüşləri keçirirdi.

Ermənistanda və Dağlıq Qarabağda ermənilərin azərbaycanlılara qarşı azğın hərəkətlərinin cavabsız qalması, öz yurd-yuvalarından didərgin düşərək Naxçıvana pənah gətirmiş qaçqınların acı taleyi, muxtar respublika əhalisinin dərin hiddətinə

[29] NMR DA, f. 101, siy.7, bağ.2202, iş 16, v.24-30
[30] Naxçıvan Muxtar Respublikası 75. "Bakı Universiteti Xəbərləri"nin xüsusi buraxılışı. Bakı: Bakı Universiteti nəşriyyatı, 1999, №3, s.181

səbəb olmuşdu. 1988-ci ilin may ayının 20-də Naxçıvan şəhərində ermənilərin özbaşınalıqlarına və cinayətlərinə son qoyulması tələbi ilə muxtar respublika ictimaiyyətinin mitinqi keçirildi.[31] Mitinq iştirakçıları SSRİ, Azərbaycan SSR və Naxçıvan MSSR rəhbərliyindən qəti tədbirlər görülməsini, Azərbaycan xalqının suveren hüquqlarının qorunmasını təkidlə tələb etdilər.

Dağlıq Qarabağda baş verən hadisələr, Azərbaycan rəhbərliyinin cinayətkar fəaliyyəti xalqı hiddətləndirmiş, nəticədə 1988-ci il noyabr ayının ortalarından başlayaraq Bakıda və digər şəhərlərdə etiraz mitinqlərinin yeni, daha yüksək mərhələsi başlanmışdı. Noyabrın 18-də Bakının mərkəzi meydanında keçirilən mitinqdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılması, Dağlıq Qarabağda antiazərbaycan siyasəti yeridən Xüsusi İdarə Komitəsinin ləğv edilməsi, Ermənistana iqtisadi sanksiyalar tətbiq edilməsi və başqa qanuni tələblər irəli sürüldü.

Bakı şəhərində keçirilən mitinq iştirakçıları ilə həmrəylik olaraq 1988-ci il 22 noyabrda Naxçıvan şəhərində 30 mindən çox insanın iştirak etdiyi mitinq keçirildi. Mitinq iştirakçıları Vilayət Partiya Komitəsinin birinci katibi N.Mustafayevi mitinqə dəvət etmişdilər. Lakin birinci katib mitinqçilərlə dialoqa girmək əvəzinə onların üzərinə tank və "BTR"-lər yeritmiş, nəticədə yaralananlar olmuşdu. Mitinq iştirakçıları Vilayət Partiya Komitəsinin binasına və hərbi texnikaya ziyan vurmuşlar. Mitinqdə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı qaldırılmışdı.[32] Bunları bəhanə edən hökumət 24 noyabrda Naxçıvan şəhərində (Bakıda və Gəncədə də - İ.H.) xüsusi vəziyyət və komendant saatı tətbiq

[31] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.7

[32] Allahverdiyev Q.V. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında (1988-1990-cı illər) // "Dirçəliş – XXI əsr" jurnalı, Bakı, 2000, № 7-8, s. 157



etdi. Küçələrə ağır silahlı qoşun hissələri yeridildi.[33] General-leytenant A.Makaşov Naxçıvan şəhərinə hərbi komendant təyin edildi.[34]

Azərbaycanın və Naxçıvan Muxtar Respublikasının rəhbərliyi xalqın haqlı etirazlarına qoşulmaqdan çəkinərək, müəyyən manevrlər etməklə vəziyyəti nəzarət altına almağa çalışırdı. Bu məqsədlə də Vilayət Partiya Komitəsinin II katibi A.M.Qolubevin sədrliyi ilə xüsusi qrup yaradılmış və bu qrupa "vəziyyəti sabitləşdirmək" məqsədilə "zəruri tədbirləri" həyata keçirmək vəzifəsi tapşırılmışdı.[35] Noyabrın 23-də Naxçıvan Vilayət Partiya Komitəsinin fövqəladə plenumunda birinci katib N.Musatafayev vəzifəsindən azad edilmiş, onun yerinə Heydər İsayev seçilmişdi.[36]

Naxçıvan şəhərində xüsusi vəziyyətin elan edilməsinə baxmayaraq, mitinqlər yenə də davam edirdi. Həmin günlərdə muxtar respublikanın rayon mərkəzlərində kütləvi mitinqlər keçirilirdi. Mitinqlərdə iştirak edənlər təqib olunur, həbs edilirdilər. Ümumiyyətlə, mitinqdə iştirak etdiklərinə və "ictimai qaydaları pozduqlarına" görə 49 nəfər həbs olunmuşdur ki, onlardan 14-ü Şərur, Babək, Şahbuz və Culfa rayonlarından idi.

Ermənilər mütəmadi olaraq Naxçıvanın sərhəd kəndlərinə silahlı hücumlar edir, Naxçıvana gələn qatarların yolunu kəsir, ona zərər yetirir və mane olurdular. 1989-cu il iyulun 5-də Naxçıvan şəhərində, Şərur, Ordubad və Culfa rayonlarında minlərlə adamın iştirak etdiyi mitinqdə əhali respublika hökumətindən Naxçıvanın müdafiəsi üçün konkret tədbirlər görülməsini tələb edirdi. Bunun nəticəsində 1989-cu il iyulun 18-də Naxçıvan

[33] Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi (AMEA TİEA), f. 1, siy.19, iş 8953, v. 28, 30-31

[34] "Sovet Naxçıvanı" qəzeti, 1988, 23 noyabr

[35] NMR DA, f. 95, siy.37, bağ.307, iş 76, v. 11-13

[36] Yenə orada, f. 100, siy.8, iş 320, v.76

MSSR Ali Soveti Muxtar Respublikanın təhlükəsizliyini təmin etmək üçün Müdafiə Komitəsi yaradılması barədə qərar qəbul etdi.

Respublikanın sosial-iqtisadi vəziyyətinin gərgin olmasına baxmayaraq demokratik hərəkat getdikcə genişlənirdi. 1989-cu ilin birinci yarısında Azərbaycan Xalq Cəbhəsinin müxtəlif yerlərdə dayaq dəstələri yaradılmış, həmin ilin iyulunda isə AXC-nin Naxçıvan şöbəsi təşkil edilmişdi. Həmin dövrdən başlayaraq Naxçıvanda xalq hərəkatına AXC-nin Naxçıvan şöbəsi rəhbərlik etməyə başladı. Radikal tədbirlərə üstünlük verən bu təşkilat artıq muxtar respublikada qeyri-rəsmi hakimiyyətə malik idi. Muxtar respublika rəhbərliyi qərar qəbul edərkən cəbhə rəhbərliyi ilə hesablaşmalı olurdu.[37] AXC Naxçıvan şöbəsinin fəalları Naxçıvanda oktyabr inqilabının 72-ci ildönümünün keçirilməsinin qarşısını almış, əhalini tədbiri baykot etməyə çağırmışdılar. 1989-cu il 22 oktyabrda Naxçıvan şəhərində AXC-nin təşkil etdiyi mitinqdə bu barədə xüsusi qətnamə qəbul edilmişdi.[38]

Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin sədri S.Əliyeva və Naxçıvan Vilayət Partiya Komitəsinin II katibi A.Bolotinin noyabrın 1-i və 2-sində AXC-nin fəalları ilə tədbirin baş tutmaması üçün apardıqları müzakirələr heç bir nəticə verməmiş, AXC tədbirin keçirilməsinə mane olacağını bildirmişdi.[39] Noyabrın 3-də Naxçıvan şəhərində keçirilmiş mitinqdə Moskvanın Azərbaycan və Naxçıvandakı canişinləri V.Polyaniçkonun və A.Bolotinin istefaları və respublikadan qovulmaları, muxtar respublikada "7 noyabr" tədbirinin keçirilməməsi ilə bağlı radikal tələblər irəli sürüldü. Mitinq iştirakçıları həmçinin muxtar respublikada komendant saatının ləğv edilməsini, özünümüdafiə

[37] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.14
[38] NMR DA, f. 99, siy.12, bağ.192, iş 127, v. 55-56
[39] Yenə orada, f. 99, siy.37, bağ.314, iş 233, v.2-16



dəstələrinin təşkili üçün əhaliyə silahların verilməsi tələblərini də səsləndirirdi.[40]

AXC-nin Ordubad rayon şöbəsi 1989-cu il 18 dekabrda rayonda mitinq keçirərək təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər görülməsini, əhalidən və orta məktəblərdən yığılmış silahların geri qaytarılmasını tələb etmişdi.[41]

Demokratik hərəkatda AXC-nin aparıcı təşkilata çevrilməsinə baxmayaraq, xalq arasında Heydər Əliyevin nüfuzu daha böyük idi. Mitinqlərdə Heydər Əliyevin şəkilləri qaldırılır, onun respublikaya dəvət edilərək xalq hərəkatına rəhbərlik etməsi barədə çağırışlar edilirdi. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsi sədrinin Moskvaya göndərdiyi 1990-cı il 3 yanvar tarixli məlumatında yazılırdı: "Əvvəlki kimi... Heydər Əliyevin mövqeləri güclüdür. Əhali indiyədək Heydər Əliyevin adını ehtiramla çəkir. Heydər Əliyevin Azərbaycan SSR Ali Sovetinə Ordubad rayonundan deputatlığa namizədliyini irəli sürməyi, əlverişli şərait yarandığı halda isə onu Ali Sovetin Rəyasət Heyətinin sədri vəzifəsinə seçməyi planlaşdırırlar".[42] Mitinq və nümayişlərə yüzlərlə insan əllərində Heydər Əliyevin portreti ilə çıxırdı.

Göründüyü kimi, Dağlıq Qarabağ münaqişəsinin başlanması, erməni millətçilərinin Dağlıq Qarabağı Ermənistan SSR-ə birləşdirmək arzusu, azərbaycanlıları öz ata-baba yurdlarından zor gücünə çıxarılması, onların qaçqına çevrilməsi, Moskvanın ikili siyasəti və başqa məsələlər Azərbaycanda olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ictimai-siyasi vəziyyəti kəskinləşdirmiş, naxçıvanlıları mübarizəyə qaldırmışdı.

[40] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.14
[41] NMR DA, f. 99, siy.37, bağ.314, iş 233, v.12-13
[42] "Xalq qəzeti", 1999, 28 mart

## 1.2. Sosial-iqtisadi həyat

Ötən əsrin 80-ci illərinin ikinci yarısından başlanan siyasi hadisələr Azərbaycanın iqtisadiyyatına və sosial-mədəni həyatına ağır zərbələr vurdu. Azərbaycanın iqtisadiyyatında ciddi geriləmə prosesi başlandı. Azərbaycanın ictimai-siyasi həyatının, təsərrüfat sisteminin ahəngi 1987-ci ildə erməni millətçilərinin "Dağlıq Qarabağ" ətrafında başladıqları fitnəkarlıqla pozuldu. Sovet İttifaqının səlahiyyətli orqanlarında yüksək vəzifələr tutan erməni millətçiləri Azərbaycan iqtisadiyyatına zərbələr endirmək üçün öz xəyanətkar fəaliyyətlərini genişləndirdilər.

Azərbaycanda üzümçülük-şərabçılıq komplekslərinin inkişafı respublika iqtisadiyyatının və əhalisinin maddi rifahının xeyli yüksəlməsini şərtləndirirdi. Azərbaycana düşmən qüvvələr 1985-ci ildə alkoqolizmə qarşı mübarizə pərdəsi altında üzümçülüyün ləğvinə çalışırdılar. Nəticədə 1985-ci ilə nisbətən, 1990-cı ildə üzüm bağlarının sahəsi 107 min hektar azaldı.[43] Bu ümumi sahənin 40 faizi demək idi. Respublikaya 4 milyard manatdan çox ziyan dəydi.[44]

SSRİ Dövlət Plan Komitəsində, bir sıra başqa nazirliklərdə və partiya-dövlət orqanlarında kök salmış erməni millətçiləri Azərbaycan iqtisadiyyatının gələcək yüksəlişi üçün müstəsna əhəmiyyət kəsb edən mühüm sənaye müəssisələrinin maliyyələşdirilməsini azaltdılar, iqtisadiyyatın inkişafına yönəldilən əsaslı vəsaiti ildən-ilə məhdudlaşdırdılar. Əsas fondların istifadəyə verilməsi 1990-cı ildə 1985-ci ilə nisbətən 55 faiz aşağı düşdü.[45] İqtisadiyyatın dinamik artımına nail olan Azərbaycan 1986-1990-cı illərdə buna nail ola bilmədi. Belə ki, respublikada sənaye məhsulunun ümumi həcmi, 1990-cı ildə 1985-ci ilin səviyyəsinin

[43] Azərbaycan tarixi. Yeddi clddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s. 199
[44] "Бакинский рабочий" qəzeti, 1990, 12 dekabr
[45] Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s.200



99,1 faizini, kənd təsərrüfatı məhsulunun isə 96,2 faizini təşkil etmişdi.[46]

Neft istehsalının azalması davam edirdi, təbii qazın çıxarılması sürətlə aşağı düşürdü. Pambığın respublikada yığımı azalaraq, 788-dən 543 min tona, üzüm 1790-dan 1196 min tona qədər azalmışdı.[47]

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 1980-ci illərin ikinci yarısında müəyyən dərəcədə inkişaf etmişdir. 1987-ci ildə Naxçıvan şəhərində xalça kombinatı, 1986-cı ildə meyvə-tərəvəz konserv zavodu, 1989-cu ildə çörək zavodu tikilib istifadəyə verildi.[48] 1990-cı ildə 94 mln. kvt. saat elektrik enerjisi (1985-ci ildə 68,7 mln. kvt. saat), 568 ton qənnadı məhsulları (1985-ci ildə 314 ton), 24028 ton çörək (1985-ci ildə 22438 ton), 20 min ton tərəvəz (1985-ci ildə 14,2 min ton) istehsal olundu. 152,7 mln. yarım litrlik butulka mineral su doldurulmuşdu ki, bu da əvvəlki hər hansı ildə olduğundan xeyli çoxdur. Lakin ölkədə baş verən ictimai-siyasi hadisələr həyatın bütün sahələrinə öz mənfi təsirini göstərdi.

Dağlıq Qarabağ münaqişəsi iqtisadiyyatda böhranı daha da dərinləşdirdi. Siyasi sabitliyin olmaması tikinti işinə də ciddi təsir göstərdi.

Azərbaycan SSR-nin sosial-iqtisadi həyatında baş verən geriləmələr Naxçıvanda da özünü göstərdi. 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində muxtar respublikanın iqtisadiyyatı böhran vəziyyətinə düşdü. Muxtar respublikanın əsas inkişaf sahələrinin inkişaf sürəti kəskin surətdə azalmışdı. 1989-1991-ci illərdə sənaye istehsalı 26,6 faiz, kənd təsərrüfatında məcmu

[46] Nadirov A. Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri. Bakı, 2001, s.47
[47] Народное хозяйство Азербайджанской ССР. В 1985 г. Стат. ежегодник. Баку, 1986, с. 61, 72
[48] Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, s.46

məhsul 25,5 faiz, heyvandarlıqda isə 34 faiz azalmışdı. Qaramalın sayı 10,9 min baş, davarların sayı 31,1 min baş, quşların sayı 372,2 min baş azalmışdı.[49] Bütün bunlar istehsal olunan milli gəlirin də təqribən 5 dəfə aşağı düşməsinə gətirib çıxarmışdı.[50] Naxçıvan MSSR-də ümumi məhsulun həcmi 1990-cı ildə 1985-ci illə müqayisədə 92,6 faiz olmuşdu.[51]

Muxtar respublikanın Ermənistan tərəfdən nəqliyyat və iqtisadi blokadaya alınması Naxçıvan iqtisadiyyatına ağır zərbə vurdu. 1988-ci ilə nisbətən 1989-cu ilin birinci yarısında tikintidə iş vaxtı itkisi 3,6 dəfə artmışdı. 1990-cı ildə 1985-ci ilə nisbətən dəmir-beton məmulatı istehsalı 47,7 min kubmetrdən 40 min kubmetrə, xam ipək istehsalı 107 tondan 83 tona, duz istehsalı 118 min tondan 99 min tonadək azalmışdı.[52] 1988-ci ilin birinci yarısı ilə müqayisədə 1989-cu ildə sənayedə boşdayanmalar 6,3 faiz, tikintidə 79,3 faiz artmışdı. Sənaye məhsulları 90,4 min rubl, tikinti-quraşdırma işləri 45,8 min rubl kəsirlə yerinə yetirilmişdi.[53] Alt trikotaj fabrikində, xalçaçılıq fabrikində, ət kombinatında, Ordubad baramaçılıq fabrikində, Naxçıvan su tikinti idarəsində daha çox iş vaxti itkisi olmuşdu.

Azərbaycan dəmir yolunun Qarçevan-Mehri hissəsinin işləməməsi, avtomobil yollarının bağlanması, Bakı və Azərbaycanın rayonları, eləcə də ittifaq respublikaları ilə əlaqələrin kəsilməsinə, idarə, müəssisə, tikinti təşkilatlarının fəaliyyətlərinin dayanmasına səbəb olmuşdu. 1989-cu ilin birinci yarısında tək

[49] Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998, s.104
[50] Yenə orada
[51] Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, s. 47
[52] Yenə orada
[53] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s.17



istehsal müəssisələri 1,1 mln. rubl az məhsul istehsal etmiş, tikinti təşkilatları 1,5 mln. rubl dəyərində məhsul ala bilməmişdi.[54]

Dəmir yol nəqliyyatında vəziyyətin gərginləşməsi Naxçıvan MSSR-in iqtisadiyyatına ağır zərbə vurmaqla yanaşı, əhalinin mənəvi-psixoloji vəziyyətinə də təsir edir, onsuz da ağır olan ictimai-siyasi vəziyyətin daha da ağırlaşmasına səbəb olurdu.

Azərbaycan KP MK 1989-cu il sentyabrın 25-də "Azərbaycan dəmir yolunun Naxçıvan hissəsində vəziyyətin qaydaya salınması haqqında" qərar qəbul etdi. Qərarda qeyd edilirdi ki, sentyabrın 4-dən dəmir yolunun Naxçıvan hissəsində 578 mln. ton yük daşınmamış, 4520 vaqon yüklənməmiş, 232 min ton yük göndərilməmiş, 5834 vaqon boşaldılmamışdır. Satılmış dəmir yolu biletlərindən dəyən zərər 2,5 mln rubl olmuşdur. Dəmir yolunun işləməməsi nəticəsində 5№-li Tikinti tresti 6000 min rubl, Aqrosənaye tikinti idarəsi 500 min rubl, Naxçıvan su meliorasiya tikinti tresti 300 min rubl zərər çəkmiş, çörək məmulatları kombinatı 13 min ton taxıl ala bilməmişdir.[55]

1990-cı ilin əvvəlindən DQMV və onun ətrafında baş vermiş hadisələrlə əlaqədar Naxçıvanda vəziyyət kəskin surətdə dəyişmiş, muxtar respublikanın iqtisadiyyatı iflic vəziyyətinə düşmüşdü. Həmin ilin birinci rübündə tək Ordubad rayonuna 1 mln. rubldan çox zərər dəymişdi. Baramaaçan fabrikinə 600 min rubl dəyərində zərərə görə fabrikin işçiləri 134 min rubl az əmək haqqı almışdır.

1990-cı ildə Ordubad rayonunda yaranmış vəziyyətlə əlaqədar 2,7 ton az xam ipək istehsal edilmiş, parça istehsalı planı isə cəmi 78,3 faiz yerinə yetirilmişdir. Tərəvəz-konserv istehsalı planına 75 faiz əməl olunmuş, hər hektardan 20 sentner əvəzinə

[54] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s.22
[55] Yenə orada, s.27

14,5 sentner məhsul götürülmüşdür. Təsərrüfatlarda 249 ton əvəzinə 109 ton kartof istehsal olunmuş və ya plana 44 faiz əməl olunmuşdur. 1990-cı ildə tərəvəz istehsalı planına 46 faiz, bostan məhsulları istehsalına 18 faiz əməl olunmuşdur. Meyvəçiliklə məşğul olan 15 təsərrüfatdan 11-i istehsal planına əməl etməmişdir.

1990-cı ilin yanvar ayından Babək rayonunda olan sənaye müəssisələrinin heç biri işləmirdi. Nəticədə, sənayedə 12528 adam əmək günü itirilmiş və 2029 min rubl dəyərində sənaye məhsulu az istehsal edilmişdir. Sənaye müəssisələrində istehsal edilən 6 növ sənaye məhsulundan 5 növü üzrə planlar tam kəsirlə yerinə yetirilmişdir. 1990-cı ilin 4 ayı ərzində müqavilə öhdəliklərinə görə mal göndərilməsi planı 3 mln. 368 min rubla qarşı 2 mln.736 min rubl, yaxud 81,2 faiz, mənfəət planına 779 min rubla qarşı 627 min rubl, yaxud 80,4 faiz əməl edilmişdir.

1990-cı ilin yanvar ayının ikinci yarısından Azərbaycan dəmir yolunun Naxçıvan hissəsində qatarların işləməməsi xalq təsərrüfatı məhsullarının daşınmasında çətinlik törətmişdir. Muxtar respublikaya xammal və materialların daşınmaması nəticəsində sənaye müəssisələri, tikinti təşkilatları işləmir, əhalinin gündəlik tələbat məhsulları ilə təminatı çətinləşmişdi. Dəmir yolunun Naxçıvan şöbəsinin işləməməsi nəticəsində 643 min ton yük daşınmamış, 4704 vaqon yüklənməmiş, 235 min ton yük göndərilməmiş, 11757 vaqon boşaldılmamışdır. Dəmir yolu şöbəsinə dəyən zərər 2,5 mln rubl olmuşdur.[56]

1990-cı ildə muxtar respublikada 52 sənaye müəssisəsi fəaliyyət göstərirdi. Lakin 1991-1993-cü illərdə 8 sənaye müəssisəsi öz fəaliyyətini tamamilə dayandırmışdı. 1986-cı ildə

[56] *Cəfərov H., Mustafayev A.* Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil. 2012, s. 41



muxtar respublikada istehsal olunmuş sənaye məhsulunun həcmi 1985-ci ilin müvafiq göstəricisinin 77,6 faizinə bərabər idi.[57]

1980-ci illərin ikinci yarısında manatın alıcılıq qabiliyyətinin aşağı düşməsi əhalinin real gəlirlərinin azalmasına səbəb olmuşdu. Əhalinin ərzaq və qeyri-ərzaq mallarına olan tələbatı tam ödənilmirdi. Respublika əhalisinin sosial-siyasi həyatında, milli tərkibində, məişətində, rifahında mühüm dəyişikliklər baş vermişdi.

1980-ci ildə əhalinin sayı 248,5 min nəfər idisə, 1990-cı ildə bu göstərici 307,2 min nəfərə çatmışdı.[58] Yəni 10 il ərzində əhali 59,7 min nəfər artmışdı.

Ümumiyyətlə, erməni millətçilərinin Dağlıq Qarabağ ətrafında yaratdıqları fitnəkarlıq, iqtisadi və nəqliyyat əlaqələrinin blokada səbəbindən kəskin qırılması, müqavilə öhdəliklərinin yerinə yetirilməməsi, daxildə ictimai-siyasi sabitliyin pozulması səbəbindən muxtar respublika iqtisadiyyatı və əhalinin sosial vəziyyəti 1990-cı ilin əvvəlində Azərbaycanın digər regionlarına nisbətən daha ağır vəziyyətə düşmüşdü.

### 1.3. "Sərhəd hərəkatı"

Azərbaycan milli-azadlıq hərəkatının mühüm mərhələsini təşkil edən "Sərhəd hərəkatı" məhz Naxçıvanda başlamışdır. Azadlıq hərəkatının ilk günlərindən başlayaraq Azərbaycan SSR-in suverenliyi, ərazi bütövlüyünün təmin edilməsi, demokratik islahatların həyata keçirilməsi ilə yanaşı, İranın azərbaycanlılar yaşayan bölgələri ilə gediş-gəlişin təmin edilməsi tələbləri də

[57] *Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M.* Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı. 2000, s.47

[58] *Cəfərov H., Mustafayev A.* Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil. 2012, s. 69

irəli sürülməyə başlanmışdı.[59] "Cənub həsrəti" Azərbaycanın digər bölgələrinə nisbətən Naxçıvanda daha çox hiss olunurdu. İranla sərhədboyu ərazilərdə çəkilmiş tikanlı məftillər bir millətin iki hissəyə parçalanmasının "simvoluna" çevrilmişdi.

"Sərhəd hərəkatı" adı ilə tarixə dönmüş hadisələr sərhədlərin açılması ilə əlaqədar ortaya çıxdı. Bu məsələ 1988-ci ilin noyabr ayında Naxçıvanda ümumrespublika mitinqində əhalinin tələbi kimi irəli sürüldü. Həmin mitinqdə İran İslam Respublikasında yaşayan azərbaycanlılarla əlaqələrin yaradılması məsələsi qoyuldu. 1988-1989-cu illərdə Naxçıvanda, Ordubadda, Culfada, Şərurda, Sədərəkdə, hətta kəndlərdə keçirilən mitinqlərdə də əlaqələrdən geniş söhbət getsə də, əməli işə keçilməsi 1989-cu ilin noyabr ayında qərarlaşdırıldı. Rəsmi dairələrə, sərhəd qoşunlarının rəhbərliyinə müxtəlif vasitələrlə, xüsusən çoxminli mitinqlərdə tikanlı məftillərin yığışdırılması tələbləri verilməklə yanaşı, hər dəfə göstərilirdi ki, əks halda xalq öz gücü ilə bunu həyata keçirəcəkdir.

Naxçıvan MSSR-də 17 min kv.m. münbit torpaq sahəsi sərhədlə tikanlı məftillər arasında qalmışdı, onlardan istifadə olunmurdu.[60] Bu zonadakı qədim qəbiristanlığa və ziyarətgaha getmək mümkün deyildi. Vəziyyəti düzgün qiymətləndirməyən rəhbər dairələr tədbir görməyə tələsmirdilər, "Sərhəd hərəkatı" isə genişlənirdi.[61]

1989-cu ilin dekabr ayında keçirilən Azərbaycan SSR Ali Sovetinin sessiyasında Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyeva Naxçıvan əhalisinin sərhəd səddi ilə əlaqədar tələblərini sessiyaya çatdırdı və xahiş etdi ki, bu məsələ rəsmi yolla təcili həll edilsin.[62]

AXC-nin Naxçıvan Vilayət şöbəsinin 1989-cu ilin noyabrında keçirilmiş məclisi xalqın iradəsini ifadə edərək zorakılıqla ikiyə bölünmüş Güney və Quzey Azərbaycan arasında humanitar, mədəni, iqtisadi əlaqələri bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinin götürülməsi və mühəndis texniki qurğuların sökülməsi haqqında qərar qəbul etdi. SSRİ-nin və Azərbaycan SSR-in kommunist rəhbərliyi, yerli hakimiyyət orqanları, sərhəd qoşunlarının rəhbərliyi buna mane olmaq üçün bütün hərbi-siyasi təsir vasitələrinə əl atdılar. Lakin buna baxmayaraq AXC Naxçıvan Vilayət şöbəsi ardıcıl olaraq "Sərhəd hərəkatı" adı ilə bir sıra siyasi aksiyalar həyata keçirdi.[63]

Dekabrın 4-də və 12-də bütün sərhəd boyu məşəllər qaldırmaqla və tonqallar yandırmaqla aksiyalar keçirildi. Bu zaman Naxçıvan MSSR-də sərhəd boyu 9 minə qədər adam toplanmış, çadırlar qurulmuş, tonqallar qalanmışdı.[64] Dekabrın 12-də keçirilən sərhəd aksiyasından sonra qəti qərarlaşdırıldı ki, Cənubi Azərbaycanla əlaqələrin yaradılması məqsədilə Araz kənarındakı torpaqların əhalinin istifadəsinə verilməsi üçün tikanlı məftillər sökülsün.[65]

Aksiya iştirakçıları hökumət qarşısında 4 tələb irəli sürdü: 1. 1921-ci il Qars müqaviləsi gündəmə gətirilsin. 2.Naxçıvan üzərində Türkiyənin himayəsi bərpa olunsun. İranla danışıqlar aparılıb Naxçıvana şose və dəmiryolu çəkilsin. 3. Cənubi Azərbaycanla sadələşdirilmiş gediş-gəliş təşkil olunsun. 4. Tikanlı çəpərlə Araz çayı arasındakı sahə camaatın istifadəsinə verilsin.

[59] *Məmmədov M.* Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.15

[60] Azərbaycan tarixi. Yeddi clddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s.253

[61] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 216



[62] "Şərq qapısı" qəzeti, 1992, 2 yanvar

[63] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 216

[64] "Azərbaycan" qəzeti, 1991, 28 may

[65] "Şərq qapısı" qəzeti, 1991, 31 dekabr

Sərhəd zolağının bir sıra hissəsində - Ordubadda, Culfada, Şahtaxtıda və b. yerlərdə insanlar sərhəd məftillərini sökərək, Arazın o tayında toplanmış həmvətənləri ilə görüşürdülər. AXC Naxçıvan Vilayət şöbəsi dekabrın 23-də sərhəd dəstəsinin komandirinə ultimatum verərək dekabrın 31-dək sərhəddən adamların müəyyən qaydalarla keçməsinə, qohum-qardaşları ilə əlaqə saxlamasına imkan yaratmağı tələb etdi. Lakin razılıq əldə olunmadı.[66]

Sovet imperiyasının rəhbərliyi haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini qaldıran xalqa divan tutmağa hazırlaşırdı. Sərhədlərin pozulması bəhanəsi də onların planlaşdırdığı qanlı qırğına bəraət ola bilərdi. Buna görə də sərhədçilərə müqavimət göstərməmək əmri verilmişdi.[67]

Dekabrın 29 və 30-da Naxçıvan MSSR Ali Sovetinin sədri S.Əliyevanın kabinetində Azərbaycan SSR Xarici İşlər naziri H.Sadiqov, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədr müavini R.Sadiqov, Azərbaycan SSR Ali Sovetinin göndərdiyi deputat qrupunun üzvləri M.Nəsirov, Ə.Şəkinski, M.Məmmədov və b. ilə aparılan danışıqlar bir daha göstərdi ki, AXC üzvləri, Naxçıvan əhalisi sözlərində qətidir və onların işi haqq işidir.

Dekabrın 30-da axşam Naxçıvan sərhəd qoşunlarının komandiri, polkovnik V.Jukov Naxçıvan televiziyası ilə SSRİ sərhədlərinin toxunulmaz olması və sərhəddi sökmək istəyənlər barəsində ciddi tədbirlərin görüləcəyini bəyan etdi.

Dekabrın 31-də saat 12-də Araz çayı boyu 137 km Sovet-İran sərhəddində həyəcanlar başlandı, minlərlə adam tikanlı məftillərə doğru yürüş etdi, insanlar ölümü belə gözlərinin qarşısına

[66] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 216
[67] Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s. 254



alaraq sərhəd qurğularını dağıtdı.[68] Nəticədə, SSRİ-nin dövlət sərhəddi boyunca çəkilən tikanlı məftillər elliklə söküldü. Hər iki tərəfdən sahildə toplanmış adamlar Arazı keçib görüşdülər. İlk dəfə olaraq Arazın hər iki sahilində olan insanların ünsiyyət imkanları yarandı, sadələşdirilmiş keçid məntəqələri təşkil edildi. Beləliklə, 1989-cu il 31 dekabr dünya Azərbaycanlılarının həmrəyliyi bayramına çevrildi. 1990-cı ildə isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd edildi. 1990-cı il yanvarın 7-də isə SSRİ ilə Türkiyə Respublikası arasındakı sərhədlərdə həyəcanlar baş verdi.[69] Yanvarın 18-də Biləsuvar və Cəlilabad rayonlarında sərhəd qurğuları dağıdıldı.[70]

Naxçıvan Muxtar Respublikasından başlanıb Azərbaycanın digər sərhəd rayonlarına da yayılan bu ümumxalq hərəkatına hegemonluq mövqeyindən yanaşan SSRİ və Azərbaycanın kommunist rəhbərliyi, hərbi dairələr qara yaxaraq onu antidemokratik, bir qrup ekstremistin və cinayətkar ünsürün əməli kimi qiymətləndirib, dünya ictimaiyyətinin gözündən salmağa çalışırdılar.[71] 1990-cı il yanvarın 2-də axşam Moskva televiziyasının "Zaman" xəbərləri belə bir məlumat yaydı: "Azərbaycanın Naxçıvan MSSR ərazisində bir qrup ekstremist İranla sərhədi pozub, sərhəd zolağını, avadanlıqları məhv edib və sərhədçilərlə kobud davranaraq onlara hədə-qorxu gəlib".

Moskvanın təzyiqi altında Azərbaycan KP MK-sı 1990-cı il yanvarın 2-də "Naxçıvan MSSR-də dövlət sərhəddində kütləvi nizamsızlıq haqqında" qərar qəbul etdi. Qərarda sərhəd qurğularının sökülməsi pislənilmiş və bunun respublikamızda yenidənqurma prosesinə ciddi zərbə vurduğu göstərilmişdir.[72]

[68] NMR DA, f. 95, siy.37, bağ.306, iş 33, v.71
[69] "Известия" qəzeti, 1990, 9 yanvar
[70] AMEA TİEA, f. 1, siy.19, iş 8953, v. 76
[71] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 217
[72] "Kommunist" qəzeti, 1990, 5 yanvar

Azərbaycan rəhbərliyi Naxçıvan Vilayət Partiya Komitəsinin rəhbərliyindən və Naxçıvan MSSR sərhəd rayonlarının partiya komitələrinin işindən narazı qalmışdı. Ona görə də 1990-cı il yanvarın 3-də Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Heydər İsayev tutduğu vəzifədən azad edildi. Onun yerinə Afiyəddin Cəlilov seçildi.[73] Rayonların birinci katiblərinə isə (M.C.Abbasova (Şərur), Ə.F.Əliyevə (Babək), Ə.M.Hüseynova (Culfa), T.P.Xudaverdiyevə (Ordubad)) ciddi xəbərdarlıq edildi.[74]

Bu hadisələrlə əlaqədar Sov.İKP MK-nın katibi A.N.Girenko, SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.N.Nişanov, Azərbaycan KP MK-nın birinci katibi Ə.X.Vəzirov, SSRİ DTK-sı sədrinin birinci müavini, ordu generalı Babkov, ordu generalı Varennikov, general-polkovnik Şatalin, general-mayor Şirokin 1990-cı il yanvarın 4-də Naxçıvana gəldilər. Sərhəd hərəkatı ilə bağlı vəziyyəti sabitləşdirmək məqsədi ilə gəlsələr də, bu işlə bacara bilmədilər, alovlanmış milli azadlıq hərəkatını söndürə bilmədilər. Əksinə, Naxçıvandakı görüşlərində onlar əhalinin tələblərinin haqlı olduğunu etiraf etməli oldular.[75]

Naxçıvan MSSR rəhbərliyi mövcud vəziyyətdə bir qədər ehtiyatlı tərpənərək hərəkat iştirakçılarına qarşı cəza tədbirləri görülməsini tələb edən Mərkəzin əmrlərini yerinə yetirmədi. "Sərhəd hərəkatı" SSRİ XİN-nin Naxçıvanla İran arasındakı sərhəd zonasında yaşayan əhalinin ünsiyyətini genişləndirmək üçün əməli addımlar atmağa vadar etdi. Həmin nazirliyin bir qrup əməkdaşı 1990-cı il yanvarın 4-6-da Bakıya gələrək sərhəd zonasında sadələşdirilmiş keçid sisteminin yaradılması məsələsini müzakirə etdi.[76]

---

[73] "Şərq qapısı" qəzeti, 1990, 18 noyabr
[74] NMR DA, f. 98, siy. 37, bağ.317, iş 275, v. 4-5
[75] "Kommunist" qəzeti, 1990, 7 yanvar
[76] Yenə orada, 1990, 9 yanvar



İran İslam Respublikası XİN-in nümayəndələri 1990-cı il yanvarın 9-da Bakıda, Azərbaycan XİN-də sərhəddə ünsiyyət qaydalarının sadələşdirilməsi barədə danışıqlar apardı. Əldə olunan razılığa əsasən həftənin bir günü sərhədboyu ərazidə yaşayan vətəndaşların İranın sərhədboyu regionlarına sərbəst gedişi üçün sadələşdirilmiş viza tətbiq edilirdi.

SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1990-cı il yanvarın 10-da "SSRİ-nin Dövlət Sərhədi haqqında qanunun Naxçıvan MSSR ərazisində kobud surətdə pozulması haqqında" qərar qəbul etdi. Qərarda sərhəd rejiminin pozulması faktı pislənilsə də, bu hadisənin baş verməsinin obyektiv səbəbləri üstüörtülü də olsa etiraf olunurdu. Belə ki, qərarın ikinci bəndində SSRİ Nazirlər Sovetinə "sərhədyanı rayonlarda əhalinin qaldırdığı konkret məsələlərin həlli üçün Azərbaycan SSR-in respublika və yerli dövlət orqanlarının iştirakı ilə tədbirlər görülməsi" tapşırıldı.[77]

Zaqafqaziya Sərhəd Dairəsinin Komandanlığı Naxçıvan MSSR-in sərhəd rayonlarında fövqəladə vəziyyət tətbiq etmək məqsədiylə Naxçıvan rəhbərliyinə məktub da göndərmişdi. Lakin Naxçıvan MSSR rəhbərliyi buna imkan vermədi.[78]

Beləliklə, 1988-ci ildən Azərbaycanda başlanan milli-azadlıq hərəkatının şanlı səhifələrindən olan Naxçıvanın "Sərhəd hərəkatı" uzun illərin həsrətinin nəticəsi kimi meydana çıxmışdır. Bu hadisə "Səhər" qəzetinin 1990-cı il 13 yanvar tarixli nömrəsində "Oda düşdü, oda salan" başlıqlı məqalə ilə geniş şərh edilmiş, respublika ictimaiyyətinə ilk dəfə olaraq obyektiv məlumat verilmişdi.

1989-cu ilin 31 Dekabrı Dünya Azərbaycanlılarının Həmrəyliyi bayramına çevrildi. 1990-cı ildən isə həmin günün ildönümü respublikanın demokratik qüvvələri tərəfindən geniş qeyd

---

[77] "Kommunist" qəzeti, 1990, 11 yanvar
[78] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası 90. Naxçıvan, Əcəmi NPB, 2014, 184 s.

edildi. "Sərhəd hərəkatı" rəsmi səviyyədə siyasi və tarixi qiymətini ilk dəfə məhz Naxçıvanda, ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr 1991-ci il tarixli sessiyasında almışdı. Ulu öndər Dünya Azərbaycan türklərinin Milli Həmrəylik və Birlik günü haqqında məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunmasını, siyasi əhəmiyyətli qərar qəbul edilməsini, Azərbaycan türklərinin uzun illər ayrıldıqdan sonra birləşməsi yolunda ilk addım kimi qiymətləndirmişdi.[79]

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 16 dekabr tarixli sessiyasında 31 Dekabrın Azərbaycanda Milli Həmrəylik və Birlik Günün kimi elan edilməsi, hər il bayram edilməsi, həmin günün Naxçıvan Muxtar Respublikası ərazisində iş günü hesab edilməməsi haqqında tarixi qərar qəbul edildi. Sessiyada qeyd edildi ki, "...Naxçıvanın mütərəqqi qüvvələri tərəfindən "Sərhəd hərəkatı" adı altında həyata keçirilən tədbirlər indi artıq özünün siyasi və tarixi qiymətini alır və dünya Azərbaycan türklərinin həmrəyliyinin və birliyinin nə qədər zəruriyyət kəsb etdiyini nümayiş etdirir".[80]

### 1.4. Naxçıvana erməni təcavüzü. Naxçıvanlıların ermənilərə qarşı mübarizəsi

Dağlıq Qarabağ münaqişəsi başlayandan erməni işğalçıları Naxçıvanın sərhəd kəndlərini atəşə tutur, kommunikasiyaları kəsir, dəmiryol qatarlarının hərəkətinə mane olurdular. 1989-cu il aprelin əvvəllərində ermənilərin Naxçıvana hücumu nəticəsində Sədərək kəndində vəziyyət gərginləşdi. Buna səbəb kəndə məxsus "Həsənqulu bağı" adlanan yerə ermənilər tərəfindən istifadə

[79] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 208
[80] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 265



edilmək üçün texnikanın gətirilməsi oldu. 94 hektardan bir qədər artıq olan bu ərazidən[81] Sədərək əhalisi istifadə etmişdir. Ancaq tarixi faktları araşdırarkən aydın olur ki, Azərbaycan MİK-nin 1938-ci il 5 may tarixli qərarı ilə Naxçıvan MSSR-in Kərki kəndi ətrafındakı torpaqların bir hissəsi Ermənistan SSR-ə verilmiş, daha sonra 1969-cu il 7 mayda yenə də Naxçıvan əhalisindən gizli şəkildə və beynəlxalq Qars müqaviləsinə zidd olaraq Azərbaycan SSR Ali Soveti Mərkəzi orqanlarının təsiri və səyi nəticəsində Naxçıvan MSSR-in Ermənistan SSR ilə sərhədləri barədə yeni bir qərar qəbul edilmişdir. Bu qərar əsasında Naxçıvan MSSR ərazisindən 191,9 hektar əkinə yararlı torpaq sahəsi Ermənistan SSR-ə verilmiş və bunun müqabilində Ermənistan SSR-dən 319,5 hektar əkinə tam yararsız torpaq sahəsi alınmışdır.[82] Həmin qərar nəticəsində Naxçıvan MSSR ərazisindən təcrid olunmuş Kərki kəndinin ermənilər tərəfindən işğal edilməsi üçün şərait yaranmışdır.

1969-cu ilin iyulunda Heydər Əliyev Azərbaycan KP MK-ın birinci katibi seçilmiş və həmin fərmanın icrasına imkan verməmişdir. Ulu öndər Moskvaya yüksək vəzifəyə getdikdən 3 il sonra, yəni 1985-ci ildə sərhəd rayonlarından xeyli ərazi, o cümlədən Sədərək ərazisindəki "Həsənqulu bağı" ermənilərə verilmişdir. Bunun müqabilində Ermənistan SSR başqa yerdən Azərbaycan SSR-ə torpaq sahəsi ayırıb verməli olsa da, bu icra olunmamışdır. Göründüyü kimi, müxtəlif yollarla muxtar respublikanın bir sıra torpaqları Ermənistan SSR-ə verilmişdir.

1988-ci ilin mart ayından başlayaraq Azərbaycan dəmiryolunun Qarçevan- Mehri hissəsində ermənilər sərnişin və yük qatarlarının hərəkətinə mane olur, sərnişinlərə, lokomotivlərin

[81] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 19-20
[82] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 22

sürücülərinə və qatarlara zərər yetirirdilər. Təkcə 1988-ci ilin martından 1989-cu ilin iyulunadək dəmiryolunun Ermənistan SSR-dən keçən ərazisində 27 dəfə qatarların hərəkətinə maneələr törədilmişdi.[83]

Naxçıvan MSSR-ə gələn qatarlar Mehri stansiyasında saxlanılmış, onların sürücüləri döyülmüşdür. 1989-cu il 24 iyulda dəmiryolu partladılmış, nəticədə qatarların hərəkəti dayanmışdı. İyulun 28-də Ermənistan SSR və Naxçıvan MSSR nümayəndələrinin danışıqları isə heç bir nəticə verməmişdir. Dəmiryolunda baş vermiş hadisələrlə bağlı Culfa şəhərində üç günlük mitinq keçirilmişdir. Rayonda yaranmış vəziyyətlə əlaqədar olaraq Azərbaycan KP MK-nın II katibi V.Y.Polyaniçko, respublikanın bir sıra məsul işçiləri, Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi H.İ.İsayev rayona gələrək mitinq iştirakçıları ilə görüşdülər. Görüş zamanı mitinq iştirakçılarının tələbi ekstremistlər haqqında ciddi tədbir görmək, lokomotivçilərin tələbi isə Mehri rayonu ərazisindən keçən dəmiryolunun təhlükəsizliyini təmin etməkdən ibarət olmuşdur.[84]

Ermənistan və muxtar respublika rəhbərlərinin yeni görüşü keçirilmiş və vəziyyətin normal hala salınması üçün qarşılıqlı tədbirlər müəyyənləşdirilmişdir. Bu tədbirlər nəticəsində 1989-cu il avqustun 1-dən qatarların hərəkəti qısa müddətə bərpa olundu.

1989-cu ilin oktyabr ayının əvvəllərində Mehri və Qarçevan stansiyalarının ərazisində ermənilər maşinistlərə atəş açmış, qatarlara qarşı təxribatlar törətmiş, lakin bunların qarşısı alınmışdır. 1989-cu il iyulun əvvəllərindən ermənilər Naxçıvandan Bakı, Gəncə, Yevlax və Naftalana gedən sərnişin avtobuslarının qarşısını kəsərək buraxmamışlar.

[83] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 23
[84] Yenə orada, s. 25



Erməni yaraqlıları sərhəd kəndləri yaxınlığında olan xeyli sayda qoyun və mal-qaranı oğurlayıb aparırdılar. Ermənilər 1989-cu il 15 iyulda Şərur rayonunun Günnüt kəndi ərazisindən 219 baş, Keçəldağ yaylağında olan 1286 baş xırdabuynuzlu, 39 baş iribuynuzlu heyvanı oğurlayıb aparmışlar. 1989-cu ilin avqust-sentyabr aylarında erməni silahlı quldurları Şahbuz rayonunun yaylaqlarından 300 başa qədər xırdabuynuzlu, 20 baş iribuynuzlu heyvanı və 60-a yaxın at, ulağı silah tətbiq etməklə Ermənistana aparmışlar.

Dekabrın 14-də Şərurun Sədərək, Günnüt və Havuş kəndləri ermənilər tərəfindən güclü atəşə tutuldu.[85] 1990-cı il yanvarın 15-də üç minə yaxın erməni quldurları Kərki kəndinə basqın etdilər. Kənddə olan cəmi 19 nəfər kərkili, 3 nəfər rayon DİŞ əməkdaşı, 6 hərbçi 3 minlik müasir silahlarla silahlanmış erməni quldurlarının qarşısını kəsdilər. Yanvarın 17-də kənddə vəziyyət daha da ağırlaşdı. Buna görə də Kərkini müdafiə edən 34 mülki vətəndaş və 2 polis işçisi rus hərbçilərinin tələbi ilə kəndi tərk etdilər.[86] Daxili xidmət qoşunları kəndin müdafiəsini öz üzərinə götürdü. Ordu nümayəndələrinin göstərişi ilə kəndi qoruyan daxili xidmət qoşunları da Kərkidən çıxarıldı. Yanvarın 18-19-da Kərki kəndi SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olundu.[87] Beləliklə, təqribən iki il ərzində ermənilərə qarşı layiqli müqavimət göstərən Kərki kəndi xəyanətin və biganəliyin qurbanı oldu. Kərki kəndinin işğalından sonra ermənilərin Sədərəyə, Gərməçatağa, Buzqova, Şadaya, Günnütə, Cağazirə və başqa yaşayış məntələrinə hücumları artdı.

1990-cı il yanvarın 17-də erməni işğalçıları muxtar respublikaya qarşı daha bir cinayətə əl atdılar. Onlar Gorus rayo-

[85] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan. 1996, s. 757
[86] NMR DA, f. 98, siy. 37, bağ.317. iş 275, v 44
[87] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan. 1996, s. 757

nunda yerləşən Üçtəpə radioteleötürücü stansiyasına gələn xətləri kəsməklə Naxçıvan Muxtar Respublikasına ötürülən televiziya və radio verilişlərini dayandırdılar. Muxtar respublika tam informasiya blokadasına alındı.[88]

Sovet qoşunlarına arxalanan ermənilər Sədərək kəndinin sərhəddə yerləşən mebel sexi və şərab zavoduna hücum etdilər. Lakin Naxçıvanın igid müdafiəçiləri qeyri-bərabər döyüşdə düşmənin qarşısını almağa və onları çoxlu itki verərək geri çəkilməyə məcbur etdilər. İşğalçılıq niyyətindən əl çəkməyən düşmən Sədərəyi raket, top, pulemyot, avtomat atəşinə tutmaqla yenidən hücuma keçdilər. Düşmən böyük itki vermişdi. Buna baxmayaraq, geri çəkilmək istəmirdi. 1990-cı il yanvarın 19-da Sədərəyin müdafiəsi təmin olunsa da, ölən və yaralananlar da var idi. Kapitan Azər Seyidov mühasirəyə düşmüşdü. Onu azad etmək üçün Məhərrəm Seyidov yenidən döyüşə atılır. O, güllə yağışı altında özünü Azərə yetirir. İndi onun özü də düşmən əhatəsində qalmışdı. Çətinliklə olsa da, öz döyüş yoldaşını mühasirədən çıxarır, lakin özü qəhrəmancasına həlak olur. Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı fərmanı ilə kapitan Seyidov Məhərrəm Mirəziz oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Qırğınların qarşısını almaq məqsədilə 2-3 saat ərzində 7-8 min dinc əhali kənddən təhlükəsiz yerə çıxarılır, kənddə yalnız əli silah tutanlar qalırdı. Bu döyüşdə Naxçıvan, Şərur, Şahbuz, Culfa, Babək və digər rayon və kəndlərdən gələn mərd oğullar Sədərəyə kömək göstərirlər.

1990-cı ilin martından başlayaraq Naxçıvanın Ermənistanla sərhəddində vəziyyət yenidən gərginləşməyə başladı. Ermənilər Novruz bayramı günü Naxçıvana hücum etmək niyyətində idilər. 1990-cı il 17-21 martda sərhədyanı rayonlarda daxili işlər

[88] "Şərq qapısı" qəzeti, 1990, 19 yanvar



orqanları lazımi tədbirlər görürdü. 16 sərhəd kəndində milis postları yaradıldı ki, hər postda 48 milis işçisi gündəlik fəaliyyət göstərirdi. Nizami ordu kimi fəaliyyət göstərən erməni quldurları martın 24-dən Sədərək kəndinə, Şahbuz rayonunun Şada, Babək rayonunun Yuxarı və Aşağı Buzqov, Gərməçataq kəndlərinə aramsız basqınlar edirdilər. Həmin gün Şərur-Bakı sərnişin qatarı Mehri rayonundan keçərkən ermənilər tərəfindən partladıldı. Mərkəzdən muxtar respublikaya "vəziyyətlə tanış olmaq və zəruri tədbirlər görmək" adı ilə saysız-hesabsız nümayəndələr gəlsələr də, bu səfərlərin heç bir nəticəsi olmadı.

1990-cı il martın 26-da SSRİ Daxili İşlər nazirinin müavini, daxili qoşunların komandanı, general-polkovnik A.Şatalinin Naxçıvana gələrək sərhəddəki gərgin vəziyyətlə tanış olması da vəziyyəti dəyişmədi. Martın 26-27-də ermənilər Şada kəndini ələ keçirmək üçün yeni hücum təşkil etdilər. Lakin yerli əhalinin, muxtar respublikanın müxtəlif yerlərindən gələn könüllülərin və milis əməkdaşlarının köməkliyi ilə quldurların qarşısı alındı.

Döyüşdə həm polis işçilərindən, həm də könüllülərdən ağır yaralananlar var idi. Yaralananların bəzilərini döyüş meydanından çıxarmaq mümkün olmurdu. Həmin dövrdə Naxçıvan VPK-nın birinci katibi Afiyəddin Cəlilovun Naxçıvan Muxtar Respublikasında yerləşən diviziya komandiri ilə döyüş bölgəsinə getməsi və vertolyot gətirməsi sayəsində mühasirədə olan yaralıları döyüş meydanından çıxarmaq mümkün oldu. Azğınlaşmış ermənilər martın 27-də pulemyot və artilleriyanın köməyi ilə Şada kəndini daha amansız şəkildə atəşə tutdular. Bu döyüşlərin nəticəsində 6 nəfər ağır yaralandı.[89] Yaralıları döyüş meydanından çıxaran zaman 2 təcili yardım maşını, 3 UAZ-469 markalı maşın, bir BTR atəşə tutuldu.

[89] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçıvan səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 43; Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 758

Mart döyüşlərində muxtar respublikanın Sədərək, Gərməçataq, Günnüt, Buzqov kəndlərinin işğalı təhlükəsini nəzərə alaraq əhali oradan çıxarılmışdı. Kəndlərdə yalnız döyüş qabiliyyətli cavanlar qalmışdı.

Martın 28-də Babək rayonunun Aşağı Buzqov və Ermənistanın Gülüstan kəndi ərazisində Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi A.Cəlilovun Ermənistan SSR Nazirlər Soveti sədrinin I müavini V.Doyanla görüşü oldu. Görüşdə Y.Şatalin və digər yüksək rütbəli zabitlər iştirak edirdi.[90] Lakin bu danışıqlar bir nəticə vermədi. Əksinə, ermənilər Gərməçatağa hücum edib 10-dan çox evi yandırdılar. Kəndə 494012 rubl məbləğində ziyan vuruldu.[91]

Sədərək kəndinin müntəzəm atəşə tutulması nəticəsində burada 60 ev dağılmış, kəndə xeyli maddi ziyan dəymişdi. Kənd əhalisi arasında çoxlu sayda yaralananlar var idi. Sədərəklə ermənilər arasında sovet hərbçilərindən ibarət təhlükəsizlik zonası yaradılsa da, ermənilər asanlıqla bu zonanı dəf edərək kəndə yaxın ərazilərə daxil olmuş, əlverişli mövqe tutmuşdular.[92]

Sərhədyanı kəndlərin müdafiəsini möhkəmləndirmək üçün martın 29-da Bakıdan Naxçıvana daxili qoşunların 150 nəfərdən ibarət bölməsi gətirildi və Ermənistanla sərhəd kəndlərində yerləşdirildi.

1990-cı il aprelin 1-də Sədərək kəndində Naxçıvan Vilayət Partiya Komitəsinin I katibi A.Cəlilov, Naxçıvanın hökumət, hüquq-mühafizə orqanlarının nümayəndələri ilə Ermənistan KP MK katibi M.Serobyan, Ermənistanın hökumət, hüquq-mühafizə orqanları nümayəndələri arasında danışıqları oldu. Danışıqlarda Y.Şatalin və digər yüksək rütbəli hərbçilər də iştirak edirdi. Görüş zamanı Azərbaycan dəmir yolunun normal işləməsinin təmin

[90] NMR DA, f. 95, siy.37, bağ.316, iş 264, v.3-8
[91] Yenə orada, f. 103, siy.10, bağ.64, iş 78, v.37
[92] Yenə orada, f. 95, siy.37, bağ.316, iş 264, v.3-8



edilməsi, Ermənistan SSR-in Azərbaycanla sərhədyanı rayonlarda, habelə Azərbaycan dəmir yolunun Ermənistandan keçən ərazisində fövqəladə vəziyyət elan edilməsi məsələsi müzakirə olundu. Lakin əvvəlki görüşlər kimi, bu görüş də heç bir nəticə vermədi.[93]

Erməni quldurları aprelin 21-23-də Şərur rayonunun Günnüt kəndi yaxınlığındakı əraziyə soxularaq, orada çəkilməkdə olan yolda istifadə edilən texnikaların bəzilərini aparmış, apara bilmədiklərini isə dağıdaraq sıradan çıxarmışlar.

1990-cı il mayın 24-də Naxçıvan Vilayət Partiya Komitəsinin bürosunda Sədərək kəndinin Ermənistanla sərhəddə yerləşməsini, sosial-iqtisadi inkişafının sürətləndirilməsinin əhəmiyyətini, əhalinin çoxsaylı müraciətlərini, onun muxtar respublikanın mərkəzindən uzaqda yerləşməsini nəzərə alaraq Şərur rayonunun Sədərək, Dəmirçi və Maxta kənd sovetliklərinin bazasında Sədərək rayonunun yaradılmasının zəruriliyi haqqında qərar qəbul edilmiş və bu məsələ ilə əlaqədar Azərbaycan SSR Ali Sovetinə müraciət olunmuşdu.[94] Həmin il 28 avqustda Azərbaycan SSR Ali Soveti Sədərək rayonunun təşkili haqqında qərar qəbul etdi.[95]

Erməni quldurları Naxçıvan Muxtar Respublikasının kolxoz və sovxozlarının, şəxsi təsərrüfatların iribuynuzlu və xırdabuynuzlu heyvanlarını oğurlayır və Ermənistana aparırdılar. 1990-cı il iyunun 9-da Ermənistan SSR-in Vayk rayonu ərazisindən 30 nəfər silahlı quldur dəstəsi Şahbuz rayonunun "Qanlı göl" yaylağından C.Cabbarlı adına sovxozun 105 baş malını Ermənistana aparmışlar. İyunun 11-də yenə bir qrup erməni silahlı dəstəsi Ararat rayonunun Sovetaşan kəndi istiqamətindən Günnüt kəndinə (Şərur rayonu) hücum edərək mal-qaranı

[93] "Kommunist" qəzeti, 1990, 3 aprel
[94] NMR DA, f. 95, siy.37, bağ.317, iş 293, v.5
[95] Naxçıvan ensiklopediyası. İki cilddə. c.2. İstanbul: Bakanlar Medya, 2005, s. 256

aparmağa cəhd göstərsələr də, kəndi qoruyan milis əməkdaşları buna imkan verməmişlər.[96]

1990-cı il avqustun 29-da Azərbaycan SSR Ali Soveti "Naxçıvan MSSR-in təhlükəsizliyini və ərazi bütövlüyünü təmin etmək və Ermənistan tərəfindən zəbt olunmuş Kərki kənd Xalq Deputatları Sovetinin ərazisini azad etmək tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda Ermənistan SSR-in Mehri rayonu ərazisində avtomobil və dəmir yolunun bağlanması nəticəsində muxtar respublikada yaranmış çətin və ağır vəziyyətdən, Şərur rayonunun Kərki kəndinin işğal edilərək sakinlərinin didərgin salınmasından, kəndin adının dəyişdirilməsindən və başqa məsələlərdən bəhs edilir.

Sentyabrın 5-də Sədərəkdəki yoxlama-buraxılış məntəqəsində Ermənistan nümayəndələri ilə Naxçıvan nümayəndələri arasında danışıqlar oldu. Danışıqlarda sərhəd kəndlərinin atəşə tutulmasının qarşısının alınması, sərhəddə əmin-amanlığın yaradılması, erməni silahlı dəstələrinin tərksilah edilməsi, Kərki kəndinin boşaldılması məsələləri müzakirə edildi. Erməni tərəfinin yenə də qeyri-müəyyən mövqeyi üzündən danışılan məsələlərdə razılığa gəlmək mümkün olmadı.

### 1.5. Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması

XX əsrin 90-cı illərinin əvvəlində bütün respublikada olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da vəziyyət olduqca gərgin idi. Ölkədə yaranmış şəraitdən istifadə edən Ermənistan hakimiyyət dairələri Azərbaycana, o cümlədən Naxçıvana qarşı iddialarını açıq silahlı təcavüz yolu ilə gerçəkləşdirmişdi. Naxçıvan diyarı çətin sınaqlar qarşısında qalmışdı. Əhali mərkəzin ikili siyasətindən və Azərbaycan rəhbərliyinin ögey münasi-

[96] "Şərq qapısı" qəzeti, 1990, 14 iyun



bətindən ciddi narazı idi. Ona görə də burada fasiləsiz izdihamlı mitinqlər keçirilirdi. Mərkəz Naxçıvanda xalqa divan tutmaq məqsədilə fövqəladə vəziyyət elan edilməsi üçün təzyiqlər göstərirdi. Lakin bütün cəhdlərə baxmayaraq buna nail ola bilmədi.

Ermənistan silahlı qüvvələri tez-tez Naxçıvan MSSR-nin sərhəd kəndlərinə basqınlar edir, Naxçıvan MSSR Ermənistan SSR-dən zorla qovulan azərbaycanlıları qəbul edir və yerləşdirirdi. Muxtar respublika Ermənistan tərəfindən blokadaya alınmışdı. Ermənilər Azərbaycan dəmir yolunun Ermənistanın Mehri rayonu ərazisindən keçən hissəsində qatarların hərəkətinə mane olur, onları atəşə tuturdular. Ermənilərin təcavüzkar hərəkətlərinin qarşısını almaq, muxtar respublika əhalisinin təhlükəsizliyini qorumaq üçün heç bir real addım atılmadığını görən xalq özü təşkilatlanır, özünümüdafiə və könüllü dəstələri yaradırdı.

Şərur rayonunun Kərki kəndi 18-19 yanvar 1990-cı ildə sovet ordusunun köməyi ilə ermənilər tərəfindən işğal olunaraq[97] kəndin 320 sakini qovulub çıxarıldı. Kərki kəndinin işğalı vəziyyəti daha da gərginləşdirdi.

Naxçıvanın ərazi bütövlüyünün pozulması, ermənilərin Naxçıvan MSSR-ə bütün sərhəd boyunca silahlı hücum etməsi, əhalinin həyatının təhlükə qarşısında qalması, bunlarla bağlı ittifaq orqanlarının tədbir görməməsi Naxçıvan əhalisini ən radikal addımlar atmağa məcbur etdi. Naxçıvan MSSR Ali Sovetinin binası qarşısında toplanmış 20 mindən çox əhali Muxtar Respublika Ali Sovetinin fövqəladə sessiyasının çağırılmasını tələb edirdi. Xalqın tələbi və təzyiqi altında 1990-cı il yanvarın 19-da çağırılmış sessiya Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında məsələni müzakirə etdi.

Naxçıvan MSSR Ali Sovetinin fövqəladə sessiyası muxtariyyət statusundan istifadə edərək SSRİ adlı bir imperiyaya qarşı

[97] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s.757

kəskin etiraz formasını seçdi. Bu etiraz bütün dünyaya səs saldı. Müttəfiq respublikanın tərkibində olan Naxçıvan Muxtar Respublikasının Ali Soveti sovet rejiminə qarşı yönəldilən və onun müəyyən mənada iç üzünü açan cəsarətli bir qərar qəbul etdi. SSRİ-nin Əsas Qanununun (Konstitusiyasının) 81-ci maddəsinə əsaslanan Naxçıvan parlamenti Azərbaycan SSR-in, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən mühüm tarixi qərar qəbul etdi. Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynaya bildi.[98]

"Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə "Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan" Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi. Bununla əlaqədar qəbul edilmiş qərarda deyilirdi:

"1. Naxçıvan MSSR SSRİ tərkibindən çıxaraq özünü müstəqil respublika elan edir. 2. Qars müqaviləsinin şərtlərinə uyğun olaraq Naxçıvan Respublikasının ərazi bütövlüyünü qorumaq və kütləvi insan qırğınlarının qarşısını almaq məqsədilə Türkiyə Respublikasına müraciət edilsin. 3. Yaranmış vəziyyətlə əlaqədar Birləşmiş Millətlər Təşkilatına, İran İslam Respublikasına və dünyanın bütün dövlətlərinə kömək məqsədilə müraciət olunsun. 4. Naxçıvan Muxtar Respublikası ərazisində olan Sovet qoşun hissələri respublikadan çıxarılsın. 5. SSRİ Ali Sovetindən tələb edilsin ki, Naxçıvan Muxtar Respublikasına edilən təcavüzə son

[98] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s.757



qoyulsun. 6. Qərar Azərbaycan SSR və SSRİ dövlətlərinin nəzərinə çatdırılsın".[99]

Eyni zamanda, Ali Sovetin 19 yanvar 1990-cı il tarixli sessiyası Naxçıvan MSSR Ali Sovetinin qərarını dünya ictimaiyyətinə çatdırmaq, qonşu və dost ölkələrdən kömək istəmək məqsədilə İran və Türkiyə ilə danışıqlar aparmaq üçün xüsusi nümayəndə heyətinin tərkibini təsdiq etdi. İran İslam Respublikasına gedəcək nümayəndə heyətinin tərkibinə T.Əliyev, R.Axundov, Q.Allahverdiyev, S.Axundov və b., Türkiyə Cümhuriyyətinə gedəcək nümayəndə heyətinə isə E.İbrahimov, Y.Babayev, Ə.Şamilov, S.Əkbərov və b. daxil idi. Nümayəndələrin bir qismi gedə bilməsə də, bəziləri qeyri-leqal şəkildə İrana keçə bildilər.[100]

Naxçıvanlılar öz azadlıqsevərliklərini bir daha nümayiş etdirərək Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağını Naxçıvan MSSR Ali Sovetinin binasının üzərinə sancdı. Bu müqəddəs bayraq orada bir həftə dalğalandı. 1990-cı il yanvarın 27-də Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında qərarını ləğv etsə də,[101] həmin qərarın Naxçıvanın taleyi üçün böyük əhəmiyyəti oldu. SSRİ tarixində ilk dəfə olaraq muxtar qurumun özünü müstəqil elan etməsi faktı dünya ictimaiyyətinin diqqətini Sovet imperiyasının və onun əlaltısı olan Ermənistanın Azərbaycana, onun tərkib hissəsi olan Naxçıvana qarşı təcavüzkarlıq hərəkətlərinə yönəltməyə nail oldu. Bu aksiyadan sonra mərkəz Bakıda törətdiyi cinayəti Naxçıvanda təkrar edə bilmədi. Ermənilərin muxtar respublikaya hücumları müvəqqəti də olsa dayandı.

[99] "Şərq qapısı" qəzeti, 1990, 20 yanvar
[100] Allahverdiyev Q.V. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında (1988-1990-cı illər) // "Dirçəliş – XXI əsr" jurnalı, Bakı, 2000, № 7-8, s. 68
[101] "Kommunist" qəzeti, 1990, 28 yanvar

Sonralar Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması haqqında Naxçıvan MSSR Ali Sovetinin məlum qərarını nəzərdə tutan ümummilli lider Heydər Əliyev qeyd edirdi ki, "Mən Moskvada olarkən... eşitdim ki, naxçıvanlılar Naxçıvan Muxtar Respublikasının Sovetlər İttifaqının tərkibindən çıxması haqqında qərar qəbul ediblər.

İndi Sovetlər İttifaqı dağılıb. O vaxtdan çox illər keçib, çox şeylər unudulub. Sovetlər İttifaqına mənsub olmuş ölkələr öz müstəqilliyini əldə ediblər. Ancaq naxçıvanlıların bu cəsarətli addımı o vaxt Sovetlər İttifaqında yeganə bir addım idi. Bu xəbər bütün dünyaya yayıldı ki, Naxçıvan Muxtar Respublikası Sovetlər İttifaqından çıxmaq barədə qərar qəbul etdi. Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevən və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi, nümayiş etdirdi".[102]

Naxçıvan MSSR Ali Sovetinin 19 yanvar tarixli sənədlərinin yerli teleradio vasitəsilə 7 dildə dünya ictimaiyyətinə çatdırılması, dünyanın bir sıra informasiya agentliklərinin diqqətini cəlb etmişdi. Buna görə də imperiya rəhbərliyi Dövlət Təhlükəsizliyi Komitəsi və Müdafiə Nazirliyinin Naxçıvandakı nümayəndələri vasitəsi ilə muxtar respublikanın rəhbərlərinə və xalq hərəkatına təzyiq göstərməyə başladılar. Aparılan danışıqlar nəticəsində Naxçıvana gətirilmiş və xalqa divan tutmaq üçün istifadə edilməsi nəzərdə tutulmuş əlavə qoşun hissələrinin çıxarılmasına nail olundu.

Beləliklə, Naxçıvan Muxtar Respublikası müxtariyyət statusunun verdiyi qanuni imkanlardan istifadə edərək öz sözünü dedi və bununla SSRİ rəhbərlərinin ikili siyasətini və Ermənistanın təcavüzkar hərəkətlərini dünyaya bəyan etdi. "Muxtar Respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə

[102] Ömrün üç günü. Naxçıvan 29-31 oktyabr 1996-cı il. Bakı: Ergün. 1997. s. 33



qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan onun SSRİ tərkibindən çıxması haqqında" qərar qəbul etməsində əsas məqsəd Azərbaycan SSR-də, o cümlədən Naxçıvan MSSR-də baş verən hadisələrə, Sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu, müəyyən rol oynadı.

## 1.6. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı

1990-cı il 20 Yanvar faciəsi Azərbaycanın əsl rəhbərinin olmamasından baş verdi. Xalq başsız qalmışdı, vahimə içində idi. Azərbaycan xalqı birmənalı şəkildə etiraf edirdi ki, Heydər Əliyev Azərbaycan rəhbərliyində olsa idi, nə Dağlıq Qarabağ məsələsi, nə də 20 Yanvar faciəsi olmayacaqdı.

Yanvarın 21-də ümummilli lider Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək burada təşkil olunmuş 6 minədək adamın iştirak etdiyi izdihamlı yığıncaqda iştirak etdi, bu ağır günlərdə doğma xalqı ilə birgə olduğunu bildirdi. O, çıxışında və verdiyi müsahibələrdə 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi. Ölkə rəhbərliyini ciddi tənqid etdi, imperiya rəhbərlərini "qatillər" adlandırdı.[103] Ulu öndər Sovet dövlətinin səhv siyasətinə qarşı açıq və kəskin etirazını bildirdi. SSRİ kimi nəhəng bir imperiyada 90-cı illərin əvvəllərində belə çıxış hədsiz dərəcədə böyük cəsarət tələb edirdi. Dünya siyasətçiləri onu uzaqgörən, müdrik, səriştəli dövlət adamı kimi qiymətləndirir, azərbaycanlılar isə millətin qüruru, lideri kimi sevirdilər.

[103] Ülki İ. Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994, s. 45

Azərbaycan xalqının böyük əksəriyyəti rastlaşdığı mövcud problemlərin yalnız ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə öz həllini tapa biləcəyinə inanaraq, onun respublika rəhbərliyinə qaytarılmasını təkidlə tələb edirdi. Bu hərəkatın ən fəal iştirakçısı isə naxçıvanlılar idi. 1988-ci ildən muxtar respublikada geniş vüsət alan mitinq və yürüşlərə xalq ulu öndər Heydər Əliyevin portreti ilə çıxır, öz milli liderinə qarşı aparılan haqsız təqib kampaniyalarına son qoyulmasını tələb edirdilər. 20 Yanvar faciəsi ilə əlaqədar çıxışından sonra isə ona təzyiqlər daha da artmışdı. Bütün qadağa və təzyiqlərə baxmayaraq ulu öndər 1990-cı ilin martın 17-də keçirilən Naxçıvan şəhər Partiya Təşkilatının növbəti konfransında Azərbaycan KP XXXII qurultayına nümayəndə seçildi.

Moskvada ciddi təqiblər və nəzarət altında yaşayan Heydər Əliyev doğma Azərbaycana qayıtmaq qərarına gəlmişdi. SSRİ və Azərbaycan rəhbərləri bundan bərk narahat olmuşdular. Onun Azərbaycana qayıtmasına mane olmağa çalışırdılar. Ayaz Mütəllibov Moskvaya Heydər Əliyevə xəbər göndərib bildirmişdi ki, onun qayıdışı ilə "Azərbaycanda böyük qarışıqlıqlar baş verə bilər".[104] Bakı hava limanında ulu öndər Heydər Əliyevi qarşılayacaq şəxslərdən biri, görkəmli naşir Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi.[105]

1990-cı il iyulun 20-də Moskvadan Bakıya qayıdan ümummilli lider Heydər Əliyev əslində ölkənin paytaxtında yaşamalı idi. Çünki o, Moskvaya Bakıdan getmişdi. Bakıdakı ən mötəbər sarayları, binaları, mikrorayonları məhz o tikdirmişdi və SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri kimi Bakıda yaşamağa tam mənəvi haqqı var idi. Nəinki haqqı vardı, hətta dövlət bunu öz öhdəsinə götürməliydi. Çünki "Sovet Azərbaycanının tarixində "Əliyev dövrü" ən məhsuldar dövr olub. Nə nailiyyətlərin miqyasına, nə də sosial-iqtisadi yekunlarına görə XX əsrdə bu dövrün bərabəri yoxdur. Bunu təkcə Azərbaycanın müxtəlif siyasi baxışlara malik tarixçiləri və iqtisadçıları deyil, bir çox ölkələrin görkəmli dövlət xadimləri və alimləri də etiraf edirlər".[106]

20 Yanvar faciəsində tökülən qanların üstündən adlayaraq hakimiyyətə gələn Ayaz Mütəllibov ulu öndər Heydər Əliyevin Bakıda yaşamasına imkan vermədi.

İqtidardan fərqli olaraq xalq ümummilli lider Heydər Əliyevin Bakıya qayıdışını böyük ümid və sevinclə qarşıladı. Ulu öndər bununla əlaqədar demişdir:"..O vaxtkı mürtəce qüvvələr, Azərbaycan xalqının milli mənafeyinə zidd olan qüvvələr mənə Bakıda yaşamağa imkan vermədilər. Mən Naxçıvana gəldim".[107]

Xalqımızın yenilməz oğlu iyulun 22-də vətəninə - Naxçıvana gəldi. Gəlişi haqqında heç kimə xəbər verməsə də, bu xəbər tez bir zamanda bütün muxtar respublika əhalisinə məlum oldu. Həmin gün o, Naxçıvanın Azadlıq meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən mitinqə dəvət olundu və orada çıxış etdi.[108] Ulu öndər Heydər Əliyev çıxışında dedi: "Hələlik Naxçıvandayam. Əgər bütün naxçıvanlılar mənim burada yaşamağımı arzu edirsə, buna etiraz etmirəm. Mənim başlıca arzum Azərbaycanı siyasi və iqtisadi cəhətdən müstəqil, demokratik respublika kimi görməkdir".[109]

Naxçıvanlılar ümummilli lider Heydər Əliyevin gəlişini çox böyük sevinc və coşqu ilə qarşıladılar, onun ayaqları altında

[104] Ülki İ. Qızıl ulduzdan hilala doğru: Heydər Əliyevin fırtınalı həyatı. Bakı, 1994, s. 46
[105] Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, s. 8



[106] Zenkoviç N. Heydər Əliyev. Tale yolları. Bakı: Azərbaycan, 2007, s. 414
[107] "Xalq qəzeti", 2003, 22 iyul
[108] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan. 2008, s. 29
[109] "Xalq qəzeti", 2003, 22 iyul

qurbanlar kəsdilər. Naxçıvana qayıdışı ilə o, bu bölgəni və bütün Azərbaycanı real təhlükədən xilas etdi.

Naxçıvan MSSR Ali Sovetinin Rəyasət Heyəti ulu öndər Heydər Əliyevin Rəyasət Heyətinin sədri A.Cəlilova yazdığı 10 avqust 1990-cı il tarixli ərizəsini müzakirə edərək 21 avqustda qərara aldı: "Naxçıvan şəhərində anadan olduğunu, təhsil aldığını, uzun illər xidmət etdiyini və hazırda Ümumittifaq təqaüdçüsü olub Naxçıvan şəhərində yaşadığını nəzərə alaraq, 1923-cü ildə anadan olmuş, Azərbaycan pasportu olan, azərbaycanlı Heydər Əliyev - Heydər Əlirza oğlu Əliyev yoldaş Naxçıvan MSSR vətəndaşı sayılsın".[110]

Naxçıvanda yaşayan Heydər Əliyevə böyük ehtiram və hörmət, el sevgisi və xalq məhəbbəti onun vətən, xalq qarşısında gördüyü işlərə, etdiyi xidmətlərə görə idi və bu gündən-günə artırdı. O, muxtar respublikanın müxtəlif bölgələrindən gələn nümayəndələrlə görüşlər keçirir, onları müstəqillik uğrunda axıradək mübariz olmağa çağırırdı.

Dünya şöhrətli siyasətçinin Naxçıvanda olması və yaşaması Naxçıvan Muxtar Respublikasını Dağlıq Qarabağın aqibətinə düşməsinə imkan vermədi. Heydər Əliyev müdrikliyi, xalqa inamı, Heydər Əliyev – xalq birliyi Naxçıvanı xilas etdi.

### 1.7. Naxçıvanda xalq hərəkatı

XX əsrin 80-ci illərində Sovet imperiyasının süquta getdiyi, Azərbaycana qarşı daşnak təcavüzünün gücləndiyi bir şəraitdə satqın ölkə rəhbərliyinin cinayətkarcasına fəaliyyətsizliyi milyonları küçələrə, meydanlara çıxaranda onların ön sıralarında

[110] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 101



Naxçıvan əhalisi də vardı.[111] 1989-cu il dekabrın sonlarında başlanan "sərhəd hərəkatı", sərhəd qurğularının dağıdılması xalq hərəkatının yüksəlişindən və inkişafından xəbər verirdi. "Sərhəd hərəkatı" Azərbaycanda, o cümlədən Naxçıvanda gedən milli-azadlıq hərəkatının tərkib hissəsi idi".[112] Hərəkatın tarixi əhəmiyyəti ondan ibarət idi ki, bu hadisə bütün Azərbaycanda milli-azadlıq hərəkatının daha da genişlənməsinə təsir etdi.

1980-ci illərin axırı – 1990-cı illərin əvvəllərində Naxçıvanda xalq hərəkatı özünün ən yüksək mərhələsinə qalxdı. Demək olar ki, 1990-cı ilin yanvar ayında Naxçıvanda inqilabi proseslər gedirdi. İmperiyanın dayağı olan partiya komitələri iflic vəziyyətinə düşmüşdü. Hakimiyyət praktiki olaraq xalqın əlində idi.

Azərbaycanın, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in ərazi bütövlüyünün pozulması, ermənilərin muxtar respublika ərazisinə silahlı hücum etməsi, ölkə rəhbərlərinin tədbir görməməsi və Qarabağ münaqişəsinin həll olunmaması Naxçıvanda Xalq hərəkatının artmasına səbəb oldu.

1988-1990-cı illərin əvvəllərində gedən ictimai-siyasi proseslərin təhlili göstərir ki, bu dövrdə Azərbaycanda, eyni zamanda Naxçıvanda xalq hərəkatı irəliləyən xarakter daşıyırdı. Bu sahədə Naxçıvan bölgələrinin əhalisi daha fəal idi. Ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, o illər, xüsusən, 1990-1991-ci illərdə, Naxçıvanda xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda mübarizə aparan adamlar Naxçıvan əhalisinin, demək olar ki, əksəriyyətini təşkil edirdi. "Naxçıvanın müstəqillik, milli-azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan çox ciddi addımlar atır və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilli-

[111] Məmmədov V. Sədərək şəhidləri. Bakı: Şirvannəşr, 1998, s. 181
[112] Allahverdiyev Q.V. Naxçıvanda xalq hərəkatının bəzi məsələləri haqqında (1988-1990-cı illər) // "Dirçəliş –XXI əsr" jurnalı, Bakı, 2000, № 7-8, s. 67

yinin əldə edilməsində öz xidmətlərini göstərirdi".[113] Bu illərdə Heydər Əliyevin Naxçıvanda xalqın mübarizəsini azadlığa, müstəqillik qazanılmasına, dövlətçilik ənənələrinin bərpa və inkişaf etdirilməsinə yönəldilən fəaliyyəti olduqca mühüm rol oynamışdı.

Naxçıvanda gedən ictimai-siyasi proseslərin təsiri altında bütün milli nə varsa ona maraq xeyli artmışdı. Mitinq və yürüşlərdə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının qaldırılması Naxçıvanda milli şüurun artmasını göstərən mühüm təzahürlərdən biri idi. Mülli şüurun intensiv işləməsinə Azərbaycan-Ermənistan münaqişəsi təsir edirdi.

Muxtar respublika əhalisinin davranışları tədqiqatçılar tərəfindən təhlil edilmiş və həmin dövrdə naxçıvanlıların nəinki həm ağılları, həm də hissləri ilə öz millətinə, məişətinə, ənənəsinə bağlılığı göstərilmişdir. Həmin illərdə millət, milli hiss hər bir naxçıvanlının qəlbində və şüurunda idi. Məhz buna görə də Naxçıvan əhalisi o dövr Azərbaycandakı milli-azadlıq hərəkatının önündə gedirdi.

Azərbaycanda, eləcə də Naxçıvanda xalq hərəkatının içində Xalq Cəbhəsi deyilən qurum da var idi. Bu qurumun xalq hərəkatında rolu və yeri çox ziddiyətlidir. Xalq hərəkatının rəhbəri kimi meydana atılan və müəyyən tarixi dövrdə xalqın rəğbətini qazanan bu qurumun əsil mahiyyəti onun xalq hərəkatı dalğası üstündə hakimiyyətə gəlməsindən sonra açıldı. Azərbaycan Xalq Cəbhəsi xalq hərəkatının yeni, daha mühüm və məsuliyyətli mərhələsinə rəhbərlik etmək gücündə deyildi. Onun ictimai bazası üç dəfəyə qədər azalmışdı. Hakimiyyət bölgüsü üçün iqtidarla sövdələşməyə başlamışdı. 1990-cı ilin mayında Məşvərət Şurası təsis olunmuşdu.[114]

[113] Ömrün üç günü. Naxçıvan 29-31 oktyabr 1996-cı il. Bakı: Ergün, 1997, s.45
[114] Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, s. 5



Ulu öndər Heydər Əliyev isə xalqı azadlıq, müstəqillik uğrunda sonacan mübariz olmağa çağırırdı. Ulu öndər qeyd edirdi ki, "Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır".[115]

Göründüyü kimi, Heydər Əliyev dahi siyasətçi və müdrik bir el ağsaqqalı kimi özünəməxsus soyuqqanlılıqla hadisələrə obyektiv qiymət verir, coşub-daşan xalq hərəkatının düzgün istiqamətlənməsinə çalışırdı.

## 1.8. Naxçıvanda həyata keçirilən ilk demokratik dəyişikliklər

Heydər Əliyevin Naxçıvana qayıdışı Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçki kampaniyası ilə bir vaxtda düşdü. Azərbaycan SSR, Naxçıvan MSSR xalq deputatları sovetlərinə seçkilərin başlaması ilə əlaqədar 28 iyulda respublika demokratik qüvvələrinin forumunda 20-dən artıq ictimai təşkilatın iştirak etdiyi "Demokratik Blok" yaradıldı. Seçki komissiyalarına cəbhənin və başqa ictimai təşkilatların nümayəndələri də salındı. Seçkilər alternativ əsasda keçirildi. 360 Azərbaycan SSR Xalq deputatı mandatını almağa 1200 nəfər namizəd irəli sürülmüşdü.[116] Seçkilər sentyabrın 30-da keçirildi. Bəzi dairələrdə oktyabrın 14-də və dekabrın 16-da təkrar seçkilər oldu. "Demblok"un cəmi 30 nümayəndəsi Azərbaycan SSR xalq deputatı seçildi.

[115] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 47-48
[116] Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları – XXI əsrin əvvəlləri. Bakı: GİSO Enterprise KRİNB, 2005, s. 59

Naxçıvanın müxtəlif şəhər və kəndlərindən gələn nümayəndələr Heydər Əliyevi görüşlərə dəvət edir, onu xalq deputatlığına namizəd irəli sürürdülər. Heydər Əliyevin əhali ilə görüşləri əsl xalq bayramına çevrildi. Babək rayonunun Nehrəm kəndindəki sovxozun əkinçiləri ilə görüşdə Heydər Əlirza oğlu Əliyevin 34 nömrəli Nehrəm seçki dairəsi üzrə Azərbaycan SSR xalq deputatlığına namizədliyi irəli sürüldü. 1990-cı il 25 iyulda Heydər Əliyev seçki komissiyasının sədrinə və sovxozun əmək kollektivinə göndərdiyi məktubda həmin dairədən deputatlığa namizədliyə razılıq vermiş və seçicilərini əmin etmişdi ki, o, bütün səyini, bacarığını, təcrübəsini respublikamızın konstitusiya hüquqlarının, suverenliyinin və ərazi bütövlüyünün qorunmasına, iqtisadi, sosial, mədəni yüksəlişinin təmin olunmasına, seçicilərin göstərdiyi yüksək etimadı doğrultmağa sərf edəcək.[117] O, həmçinin 2 nömrəli Naxçıvan şəhər M.F.Axundov adına seçki dairəsi üzrə Naxçıvan MSSR xalq deputatlığına namizəd göstərildi.[118] Hər iki dairədə onun seçicilərlə görüşü çox yüksək fəallıq şəraitində keçirdi. Nehrəm seçki dairəsi seçiciləri ilə görüşündə ümummilli lider Heydər Əliyev öz platforması haqqında məlumat verərək qeyd etmişdi ki, "Azərbaycanın ərazi bütövlüyü qorunmalı və Azərbaycan hakimiyyəti respublikanın bütün ərazisində bərqərar edilməlidir. Azərbaycan milli dövlət kimi inkişaf etdirilməlidir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır... Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır".[119]

1990-cı il sentyabrın 30-da Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetinə elan olunan seçkilər baş tutdu. Ümummilli

[117] Qaffarov T. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları – XXI əsrin əvvəlləri. Bakı: GİSO Enterprise KRİNB, 2005, s. 50-51
[118] "Şərq qapısı" qəzeti, 1990, 1 avqust
[119] Yenə orada, 1990, 26 sentyabr



lider Heydər Əliyev tam yekdilliklə Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanına üzv seçildi.[120]

Naxçıvan MSSR Ali Sovetinə seçilmiş deputatların 1990-cı il noyabrın 17-də ilk sessiyası keçirildi. Həmin sessiyaya sədrlik etmək ümummilli lider Heydər Əliyevdən təkidlə xahiş edildi. O ərəfədə Azərbaycanda ictimai-siyasi vəziyyət həddindən artıq mürəkkəb olduğundan sessiyaya sədrlik etmək müdriklik və siyasi uzaqgörənlik tələb edirdi.

Ümummilli liderin sədrlik etdiyi həmin sessiya təkcə Naxçıvanda yox, bütün Azərbaycanda tarixi bir hadisə oldu. Sessiyanın qəbul etdiyi siyasi əhəmiyyətli qərarlar müstəqillik tariximizə qızıl hərflərlə yazıldı. Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul etdi.[121]

Azərbaycanda ilk dəfə olaraq bu sessiyada milli dövlətçilik ənənələrinin dirçəldilməsi baxımından, müstəqilliyə can atan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir sıra qərarlar qəbul edildi.

Sessiya Naxçıvan MSSR adından "Sovet", "Sosialist" sözlərinin çıxarılması, Naxçıvanın Ali Sovetinin adını dəyişərək onun bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar qəbul etdi.[122] Sovetlər birliyinin yaşadığı bir dövrdə muxtar respublikanın adında belə dəyişiklik etmək həqiqətən də böyük cəsarət və uzaqgörənlik tələb edirdi.

[120] Məmmədov M. Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, s. 45
[121] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 129-131, 148-150
[122] NMR DA, f. 95, siy.37, bağ.307, iş 56

Naxçıvan parlamentinin həmin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında məsələyə baxdı. 1990-cı il noyabrın 17-də həmin bayraq alqış sədaları altında sessiya keçirilən zala gətirildi. Üçrəngli bayraq Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edildi. Bununla bərabər Naxçıvan Muxtar Respublikasının parlamenti qanunvericilik təşəbbüsü ilə Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldıraraq Azərbaycan Respublikasının dövlət rəmzlərinə yenidən baxılmasını təklif etdi.[123]

1990-cı il noyabrın 21-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 20 yanvar hadisəsini müzakirə etdi. 20 yanvar faciəsinin respublika rəhbərliyi tərəfindən araşdırılmadığı, heç bir tədbir görülmədiyi, günahkarlar aşkar edilmədiyi bir şəraitdə sıravi deputat kimi Heydər Əliyev "1990-cı ilin yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" qərar layihəsini işləyib Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə təqdim etmiş və müzakirələrdən sonra qəbul olunmuşdur. Bu qərarda ilk dəfə Bakıda baş vermiş Yanvar faciəsinə siyasi qiymət verilmiş, qanlı hadisələri törədən şəxslərin məsuliyyətə cəlb olunması tələb edilmişdir. Həmin tarixi sənəddə deyilirdi: "Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə və sonrakı günlərdə Bakıda baş vermiş hadisələrə münasibətini bildirərək qeyd edir ki, sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərini işğal etmiş, dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törədərək silahlı təcavüz göstərmişlər. Azərbaycan xalqının demokratiya və

[123] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s.153



milli azadlıq uğrunda mübarizəsini boğmaq məqsədi daşıyan bu işğalçı hərəkət nəticəsində görünməmiş vəhşiliklərə yol verilmiş, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar qətlə yetirilmiş, yüzlərlə adam yaralanmışdır. Respublika rəhbərliyi əvvəlcədən xalqa xəyanət yolu tutaraq bu qəsdin qarşısını almaq üçün heç bir əməli tədbir görməmiş, səbatsızlıq göstərmiş, yol verilən cinayətin iştirakçısı ola-ola zahirən hadisələrdən kənarda qalmağa çalışmışdır.

Qanlı yanvar hadisələrinin günahkarlarını üzə çıxarmaq, onu təhlil etmək və siyasi qiymət vermək üçün respublika əhalisinin təkidli tələbinə baxmayaraq, faktiki olaraq heç bir tədbir görülməmişdir.

Yanvar ayının 22-də çağırılan Azərbaycan SSR Ali Sovetinin fövqəladə sessiyası öz işini yarımçıq qoymuş, yanvar hadisələrinə siyasi qiymət verməli olan həmin sessiya bu günədək öz işinə başlamamış, sonrakı sessiyalarda da bu məsələyə baxılmamışdır. Qəribədir ki, respublika Ali Sovetinin yanvar hadisələrini təhqiq etməli olan komissiyanın işi də başa çatdırılmamışdır".[124]

Sənəddə ilk dəfə olaraq 20 Yanvar gününün hər il Naxçıvan Muxtar Respublikasında milli matəm günü kimi qeyd edilməsi qərara alındı.[125]

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Bakı şəhərində fövqəladə vəziyyətə də öz münasibətini bildirdi: "Hüquqi əsas olmadan 1990-cı ilin yanvar ayında Bakı şəhərində fövqəladə vəziyyət elan olunması qeyri-qanuni hesab edilsin və pislənilsin". Fövqəladə vəziyyətin elan olunması, ən adi hüquq normalarına əməl edilməsi, qırğının qarşısının alınması

[124] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 148-149
[125] Yenə orada, s. 150

mümkün və zəruri olduğu halda kütləvi insan tələfatı ilə nəticələndiyi qeyd edilirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində, keçmiş Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış ağır vəziyyətə də öz münasibətini bildirmiş, SSRİ və Azərbaycan SSR rəhbərliyinin bu sahədə yol verdikləri konkret səhvlər göstərilmiş və qeyd edilmişdi ki, məhz bu səhv addımların nəticəsində DQMV hüquqi cəhətdən Azərbaycanın tərkibində olmasına baxmayaraq, faktiki olaraq onun dövlət idarəçiliyinə tabe olmur və Ermənistanla geniş siyasi-iqtisadi və mənəvi əlaqələr həyata keçirir.

Azərbaycan SSR-in bu bölgəsində yaranmış qeyri-normal vəziyyətə öz ciddi narahatçılığını bildirən Ali Məclis DQMV-nin Azərbaycanın ayrılmaz tərkib hissəsi, tarixən Azərbaycan torpağı olduğunu bir daha vurğulayaraq, ittifaq və respublika rəhbərliyindən Ermənistan Respublikasının Azərbaycan SSR-in daxili işlərinə qarışmasına son qoymasını, Azərbaycana qarşı torpaq iddialarının qarşısını almasını, Dağlıq Qarabağda vəziyyətin normal hala salınması üçün təcili tədbirlər görülməsini tələb etmişdi.[126]

Ali Məclisin 1991-ci il 14 yanvar tarixli sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi də müzakirə olundu. Məsələ ilə bağlı çıxış edən ulu öndər Heydər Əliyev bildirdi ki, yeni ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi və xüsusən M.Qorbaçov tərəfindən bütün Sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür. Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımız qarşısında

[126] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 88-95



cinayət etmək deməkdir. Son üç ildə başımıza gələnlər tam açıq şəkildə göstərdi ki, bizim bu ittifaqdan nicatımız yoxdur.[127]

Naxçıvanda bu cür gözlənilməz addımların atılması bilavasitə ulu öndərin təşəbbüsünün nəticəsi idi. Hələ Bakıda əyləşənlər ölkənin müstəqilliyi barədə qərarın qəbul edilməsi üçün tərəddüdlərdən qurtula bilmədiyi bir vaxtda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi artıq milli dövlətçilik ənənələrinin bərpasına istiqamətlənmiş qəti qərarlar qəbul edirdi.

Azərbaycanın müstəqilliyini istəməyən, hələ də SSRİ-nin boyunduruğunda qalmaq istəyindən əl çəkməyən ölkə rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarları "dövlətçiliyə qəsd" adlandırdı və Naxçıvanın blokada vəziyyətinə düşməsi daha kəskin xarakter aldı.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə olmuşdu. Demokratik qüvvələrin tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası bir sıra tarixi qərarlar qəbul etdi. Dövlətin adı dəyişdirilib "Azərbaycan Respublikası" adlandırıldı. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi təsdiq olundu.[128]

SSRİ-nin saxlanılması ilə əlaqədar imperiya rəhbərliyinin ortaya atdığı referenduma mövcud siyasi qüvvələrin münasibəti müxtəlif idi. Ulu öndər Heydər Əliyev milli respublikaların müstəqilləşməsinin qarşısını almağa yönəldilmiş bu siyasəti ifşa etdi, xalqı bu oyunda iştirak etməməyə çağırdı. O, respublika Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında SSRİ-nin saxlanılmasına münasibət bildirməsi üçün keçirilməsi nəzərdə tutulan ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum

[127] Yenə orada, s. 102-109
[128] NMR DA, f. 95, siy.37, bağ.317, iş 293, v. 153

keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm. Bu, bütün seçicilərimin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının yekdil fikridir. Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam. ...Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bu müqaviləyə girmək, ona müsbət rəy göstərmək xalqımız qarşısında cinayət etmək deməkdir..."[129].

SSRİ-nin saxlanılmasına münasibət bildirmək üçün kommunist deputatlar birləşib referendumda Azərbaycanın iştirakı haqqında qərar qəbul etdilər.[130] Ulu öndər Heydər Əliyevin təşəbbüsü və siyasi iradəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il martın 14-də referendumda iştirak etməmək haqqında qərar qəbul etdi.[131] Sessiyada Heydər Əliyev referendumun əleyhinə çıxış etdi və müvafiq qərarın qəbul olunması da məhz onun təşəbbüsü ilə baş tutdu. İqtidarın bunu "separatşılıq" kimi qiymətləndirməsi, muxtar respublikaya təzyiqlər göstərməsi əhalini yolundan döndərə bilmədi. Lakin Naxçıvan Muxtar Respublikasının kommunist rəhbərliyi referendumun keçirilməsi barədə mövqeyindən çəkilmədi. Ancaq Naxçıvan Muxtar Respublikasında əhalinin 20,6 faizi səsvermədə iştirak etmişdir.[132] Səsvermədə iştirak edənlərin 3/2 hissəsindən çoxu hərbçilər olmuşdur.

Saxta referendumda iştirak etməyən Naxçıvana qarşı təzyiq və hücum başlandı. 1991-ci il aprelin 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Afiyəddin Cəlilov vəzifədən azad edildi. Həmin gün Muxtar Respublika parlamenti yalnız

[129] Naxçıvan Muxtar Respublikası. Məqalələr toplusu. Bakı: Elm, 1999, s. 6-7; "Səs" qəzeti, 1991, 15 mart
[130] "Şərq qapısı" qəzeti, 1991, 6 fevral
[131] AR MMA, f.2941, siy. 1a, iş 236, v. 100
[132] Məmmədov M. Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, s. 49



kommunist deputatların iştirakı ilə yetərsay olmadan sessiya keçirərək Ə.F.Əliyevi Ali Məclisin sədri seçdi.[133]

Ümummilli lider Heydər Əliyev imperiyanı qoruyub saxlamağa çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına, Sovet dövlətinə, Azərbaycan iqtidarına açıq etirazını bildirdi, onların riyakar siyasətini ifşa etdi və 1991-ci il iyulun 19-da Kommunist Partiyasının sıralarından çıxdı. Böyük dövlət xadiminin, dahi siyasətçinin bu cür hərəkəti minlərlə insanın sovet imperiyasına nifrət bəsləməsinə və Kommunist Partiyasından istefa verməsinə böyük təkan oldu.

1991-ci il avqustun 19-da Moskvada M.S.Qorbaçovun paytaxtda olmamasından istifadə edən bir qrup yüksək vəzifəli məmur dövlət çevrilişi edərək Dövlət Fövqəladə Vəziyyət Komitəsi (DFVK) yaratdılar. Lakin avqustun 21-də qiyam yatırıldı. DFVK-nı yaradanlar həbs edildi.

1991-ci il Avqust dövlət çevrilişi cəhdi və Azərbaycan rəhbərliyinin tutduğu mövqe əhalinin ciddi narazılığına səbəb oldu. Avqust ayının 22-dən başlayaraq respublikanın bir sıra şəhərlərində mitinqlər keçirildi. Naxçıvanda da mitinqlər səngimək bilmirdi. Üç gün davam edən, 60 mindən çox adamın iştirak etdiyi izdihamlı mitnq və nümayişlər nəticəsində xalq avqustun 26-da muxtar respublika Ali Məclisinin fövqəladə sessiyasının çağırılmasına nail oldu. Sessiya Naxçıvan Muxtar Respublikasında kommunistlərin hakimiyyətini ləğv etdi. Muxtar respublika ərazisində Azərbaycan KP-nin və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu.[134] Mitinq və nümayişlərdə respublikada prezident seçkilərinin dayandırılması, Kommunist Partiyası hakimiyyətinin ləğv edilməsi, muxtar respublikada Milli Müdafiə Komitəsinin yaradılması, Bakıda fövqə-

[133] Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, s. 122
[134] "Həyat" qəzeti, 1991, 28 avqust

ladə vəziyyət rejiminin ləğv olunması, V.İ.Leninin abidələrinin sökülməsi kimi məsələlər tələb edilirdi.

Sessiyada Ali Məclisin yetərsay olmadan keçirilmiş 05 aprel 1991-ci il tarixli sessiyasının qəbul etdiyi qərar ləğv olundu və Əkbər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisin sədrliyindən azad edildi.[135]

[135] Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Arxivi (NMR AMA), f. 1, siy.1, iş 1, v.13



# II FƏSİL

# NAXÇIVAN MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ (1991-1993-CÜ İLLƏR)

## 2.1. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi

1991-ci il sentyabrın əvvəllərində Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında mühüm hadisələr baş verdi. Sentyabrın 2-də Naxçıvan şəhərində çoxminli mitinqdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yarımçıq qalmış növbədənkənar sessiyasının (növbədənkənar sessiya avqustun 26-da çağırılmışdı – ***red***.) çağırılmasını və Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsini tələb edirdilər. Bir gün sonra deputatlar toplandı və yetərsay olduğundan sessiya öz işinə başladı. Bu vaxt Naxçıvan Muxtar Respublikasının bütün bölgələrindən Ali Məclisin və şəhər İcra Hakimiyyətinin binaları qarşısına toplanan əhali deputatlardan xahiş və tələb edirdi ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr Heydər Əliyevi seçsinlər. AXC Naxçıvan Vilayət şöbəsinin fəallarının əksəriyyəti isə bildirirdilər ki, Heydər Əliyev sədr seçilərsə, onun əleyhinə geniş kampaniyaya başlayacaqlar.

Şəhərin Azadlıq meydanında bir neçə gün ara vermədən davam edən və 60-70 min nəfərin iştirak etdiyi mitinqlərdə xalq öz qəti tələbindən dönmürdü. Nəhayət, onların bu haqlı və təkidli tələbi sentyabrın 3-də keçirilən və tariximizdə özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasında yerinə yetirildi.[136] Ümummilli lider Heydər Əliyev həqiqətən də hakimiyyət arzusunda olmadığını bir daha bəyan etdi: "Mənim razılığım olmadan, mən bunu qətiyyətlə deyirəm və bunu hamı bilməlidir, məni Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçdilər. Sədr seçiləndən sonra da mən sessiyaya

[136] "Şərq qapısı" qəzeti, 1991, 5 sentyabr

sədrlik etməkdən imtina etdim. İclası axıra qədər sədrin müavini aparırdı...". Heydər Əliyev həmin sessiyada dəfələrlə söz alıb çıxış edərək deputatlardan mümkünsə onun yerinə başqa adamın namizədliyinə baxmağı xahiş etmişdi.[137] Lakin dəfələrlə namizədliyini geri götürməsinə baxmayaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Heydər Əliyevi xalqın təkidli tələbi ilə Ali Məclisin sədri seçdi.

Amma bununla birlikdə böyük siyasətçi bölgənin ağır sosial-iqtisadi vəziyyətində, xüsusən də torpaqlarına düşmən təcavüzünün genişləndiyi bir dövrdə onun taleyinə də biganə qala bilmədi: "Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim... Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin dövründə üzərimə düşən vəzifənin icrasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm".[138]

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi. Ümummilli lider ilk növbədə Naxçıvanda fəal və peşəkar fəaliyyəti ilə milli dövlətçiliyə inam hissini formalaşdıra bildi.[139]

Sentyabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyası öz işini davam etdirdi. Sessiyaya Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev sədrlik edirdi. Heydər Əliyev təklif etdi ki, Ali Məclisin rəhbərliyini gücləndirmək üçün əlavə olaraq iki sədr müavini seçilsin. Bu təklif qəbul edildi. Açıq səsvermə yolu ilə

[137] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 191

[138] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 194

[139] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s. 53



demokratik bloku təmsil edən Q.Y.Məmmədov və A.S.Kələntərli muxtar respublika Ali Məclisi Sədrinin müavinləri seçildilər.[140]

Beləliklə, doqquz aydan artıq iflic vəziyyətinə salınmış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyası səmərəli fəaliyyətə başladı. Ulu öndər Heydər Əliyev bəyanatında bildirdi ki, Ali Məclisin bu vəziyyətə düşməsinin çox dərin səbəbləri var. O, bu səbəbləri izah edərkən 1990-cı il sentyabrın 30-da Naxçıvan Muxtar Respublikası ali hakimiyyət orqanlarına seçkiləri, noyabrın 17-də keçirilən sessiyanın mühüm qərarlar qəbul etməsini deputatlara xatırlatdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qəbul etdiyi qərarların Azərbaycan Respublikasının hakimiyyət strukturlarının işinə təsir etdiyini və mühüm qərarların qəbul edilməsində Azərbaycan rəhbərliyinin məcburiyyət qarşısında qaldığını vurğuladı.

Sonra Ali Məclis Naxçıvan Muxtar Respublikasının ərazisində Azərbaycan Respublikası Prezident seçkilərinin dayandırılması haqqında yekdilliklə qərar qəbul etdi. Qərarda deyilirdi: "1. Azərbaycan Respublikası prezidenti seçilməsi üçün 8 sentyabr 1991-ci il tarixə təyin edilmiş seçkilərin Naxçıvan MR ərazisində keçirilməsi dayandırılsın. 2. Azərbaycan Respublikası Ali Sovetindən respublika prezidentliyinə seçkilərin daha sonrakı müddətə keçirilməsi xahiş edilsin".[141]

Sessiyada həmçinin "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında" məsələ müzakirə edildi. Müzakirədən aydın oldu ki, muxtar respublikanın Ali Məclisi Naxçıvan Vilayət Partiya Komitəsinin təzyiqi altında olmuş və onun qəbul etdiyi demokratik ruhlu qərarlar Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsində narazılıqla qarşılanmışdır. Mərkəzi Komitə Vilayət Komitəsinə təzyiq göstərmiş, vilayət rəhbərləri bu təzyiqə dözə bilməmiş və bununla da, sessiyanın işində pozuntular əmələ gəlmişdi. Ali

[140] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 193

[141] Yenə orada, s. 140

Məclisdə Azərbaycan Kommunist Partiyasının və onun tərkib hissəsi olan Naxçıvan Vilayət Partiya Komitəsinin mürtəce mövqeyi pisləndi və qeyd edildi ki, Ali Məclisin işinə məhz diktatorluq, inzibati-amirlik üsuli-idarəsi mane olmuşdur.[142] Sessiyada Azərbaycan KP və onun Mərkəzi Komitəsinin fəaliyyətini dərhal dayandırmaq haqqında qərar qəbul edilməsi barədə Ali Sovetə müraciət olundu.[143]

Azərbaycanın kommunist rəhbərliyi Naxçıvanda baş verən prosesləri gözdən salmaq, ona "separatçılıq" xarakteri vermək üçün bütün çirkin vasitələrə əl atır, müxtəlif üsullarla Ali Məclisin işinə mane olmaq istiyirdilər. Bu qanunsuz hərəkətlərdə Azərbaycan KP Mərkəzi Komitəsi, Azərbaycan Respublikası Ali Soveti və Nazirlər Kabineti bilavasitə iştirak edirdi. Özlərini naxçıvanlı adlandıran, əslində isə Naxçıvanda gedən proseslərdən xəbərsiz olan və Bakıda yaşayan bəzi ziyalılar 1991-ci il sentyabrın 6-da Azərbaycan televiziyasının "Aktual ekran" verilişində çıxış edərək Ali Məclis və onun sədrinin fəaliyyəti haqqında yalnış fikir formalaşdırmağa cəhd göstərmiş, muxtar respublika əhalisinə müraciət edərək onları A.Mütəllibov hakimiyyəti ətrafında birləşib prezident seçkilərində iştirak etməyə çağırmış, bununla da muxtar respublikada sabitliyi pozmağa çalışmışlar.

Hələ 30 mart 1991-ci ildə bir qrup naxçıvanlının "Kommunist" qəzetində "Naxçıvan Muxtar Respublikasının əhalisinə" müraciəti verilmişdi. Sentyabrın 2-də parlament deputatlarından, zabitlərdən ibarət böyük bir dəstə Naxçıvana göndərildi ki, yerli hakimiyyət orqanlarını qərarı dəyişməyə məcbur etsin.[144] Lakin Ali Məclisin Sədri Heydər Əliyev yerli televiziya ilə bəyanat verib xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr buranı tərk etməlidirlər, əks təqdirdə bütün əhali ayağa qalxacaqdır.[145] İqtidar geri çəkilməyə məcbur oldu, lakin hədə-qorxu gəlməkdən, səhv informasiya yaymaqdan əl çəkmədi.

[142] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 196
[143] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 140-141
[144] Yenə orada, s. 148



Sentyabrın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev bəyanat verdi. Ali Məclisin respublika prezidentinin seçkiləri ilə əlaqədar qəbul etdiyi qərara aydınlıq gətirən böyük siyasətçi yaranmış şəraitdə normal seçkilərin keçirilməsinin qeyri-mümkün olduğunu və xalqın maraqlarını əsas tutaraq seçkiləri təxirə salmağı, hərtərəfli hazırlıq apardıqdan sonra, alternativ namizədlərin iştirakı ilə seçki keçirməyi təklif etdi.[146]

Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti 1991-ci il 6 sentyabrda Muxtar Respublika Ali Məclisinin bu qərarını pisləyən bəyanatla çıxış etmiş, A.Mütəllibov isə Ali Məclisin ünvanına hədələyici ifadələr işlətmişdi.

Naxçıvan MR-in Ali Məclisi bu bəyanata, qərəzli fikirlərə və hədə-qorxulara qarşı özünün 7 sentyabr və 10 sentyabr tarixli cavab bəyanatında, 3 sentyabr tarixli əvvəlki bəyanatının prinsipial xarakter daşıdığını, A.Mütəllibovun alternativsiz qaydada seçkiyə buraxıldığını, seçki komissiyalarının Kommunist Partiyasının birbaşa göstərişi ilə təyin olunduğunu, A.Mütəllibovun dövlət çevrilişi ilə bağlılığını, Azərbaycan KP MK-nın diktatura rejiminin davam etdirdiyini və digər amilləri diqqətə çatdırmış, anti-demokratik, diktatorluq təzahürlərinə, Ali Məclisin qəbul etdiyi qərarların qəsdən təhrif edilməsinə qəti etirazını bildirmişdi.

Ali Məclis həmçinin Azərbaycan Kommunist rəhbərliyi tərəfindən Naxçıvan Muxtar Respublikasına qarşı informasiya blokadasının təşkil olunduğunu bəyan edərək bu cür antidemokratik hərəkətləri muxtar respublikada gedən demokratik prosesləri boğmaq cəhdi kimi qiymətləndirmişdir.[147]

[145] Şabanov M.S. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, 7 sentyabr 1991
[146] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 206-207
[147] AR MMA, f.2941, siy. 1a, iş 1, v. 79

Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri baykot etdilər. Prezident seçkiləri Naxçıvan MR ərazisində keçirilmədi.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin Sədri seçilməsi onun siyasətə dönüşünün əsası oldu. Bunun nəticəsində Azərbaycanın bu strateji bölgəsinin əhalisi ağır məhrumiyyətlərdən və çətinliklərdən xilas ola bildi, muxtar respublikada həyat tədricən öz axarına düşməyə başladı.

## 2.2. İqtisadi islahatlar

Böyük dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən sonra Naxçıvan MR Azərbaycanın ictimai-siyasi həyatında mühüm və əhəmiyyətli rol oynamağa başladı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi.

Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə, əhalinin ərzaqla təmin edilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına və başqa bir sıra vacib məsələlərin həllinə yönəlmişdi.

Azərbaycan iqtisadiyyatı planlı təsərrüfat əsasında qurulmuşdu. SSRİ dağıldığından, sosialist iqtisadiyyatını kapitalist təsərrüfat sistemi, planlı təsərrüfatı bazar iqtisadiyyatı əvəz etdiyindən aqrar sahədə islahatların həyata keçirilməsi günün tələbi idi.

Azərbaycanda ilk dəfə olaraq iqtisadi islahatlar Naxçıvanda başlandı. 1992-ci il aprelin 6-da Naxçıvan MR Ali Məclisinin sessiyasında aqrar islahatlarla bağlı məsələlər müzakirə edildi: "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında".[148]



Zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında Naxçıvan MR Ali Məclisinin qərarında deyilir: "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların ləğv edilməsi və onların əsasında şəxsi təsərrüfatların yaradılması haqqındakı tövsiyyələr bəyənilsin".[149] Qərarın 5-ci bəndinə uyğun olaraq, yeni yaradılan təsərrüfatlar taleyin ümidinə buraxılmırdı. Kənd təsərrüfatı və Ərzaq Nazirliyinə, Meliorasiya və Su Təsərrüfatı Nazirliyinə, "Azərkimya" Birliyinə, aqrar-sənaye kombinatlarına və digər təşkilatlara tapşırılırdı ki, şəxsi təsərrüfatlar toxum, gübrə, texnika ilə təmin edilsin, onlara digər zəruri yardım göstərilsin.[150] İlk növbədə də Culfa rayonunun Şurud və Gal kimi sərhəd kəndlərində eksperimental qaydada torpaq islahatına başlanıldı. Torpaqlar pay norması əsasında həmin kənddə yaşayan əhaliyə paylandı. Sosial ədalət və bərabərlik prinsipi bu prosesin ana xəttini təşkil edirdi.

İqtisadi islahatların birinci növbədə kənd təsərrüfatında, xüsusilə də dağ və dağ ətəyi ərazilərdə yerləşmiş kolxoz və sovxozlarda aparılması muxtar respublikanın gələcək iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvanın mürəkkəb iqlim və relyef şəraiti, kənd təsərrüfatı müəssisələrinin əsasən dağ və dağ ətəyi ərazilərdə yerləşməsi, pərakəndə xarakter daşıması və coğrafi şəraitdən irəli gələn başqa iqtisadi, texniki çətinliklər onunla nəticələnirdi ki, təsərrüfatların böyük əksəriyyəti zərərlə işləyir, nəinki heç bir mənfəət əldə etmirdi, hətta çəkdiyi xərcləri belə ödəyə bilmirdi. Belə iqtisadi nəticələr bazar münasibətlərindən irəli gələn tələblərə cavab vermirdi. Eyni

[148] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan. 2008, s. 300-302
[149] Yenə orada, s. 300
[150] Axundova E. Heydər Əliyev: şəxsiyyət və zaman. Ömrün Naxçıvan aşırımları. 5-ci kitab. Bakı: CBS, 2013; Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan. 2008, s. 300-301

zamanda xüsusi təsərrüfat formalarının yaradılması obyektiv zərurətə çevrilirdi.

Görünür bütün bunları və yerli şəraitdən irəli gələn başqa amilləri böyük uzaqgörənliklə nəzərə almaqla Ali Məclisin Sədri belə nəticəyə gəlmişdir ki, iqtisadiyyatın başqa sahələrində olduğu kimi və xüsusilə də kənd təsərrüfatında bizim nicat yolumuz iqtisadi islahatların aparılmasındadır. Ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyilə iqtisadi islahatlar muxtar respublikada kənd təsərrüfatının gələcək inkişafının strateji istiqaməti kimi müəyyənləşdirildi. Muxtar Respublika Nazirlər Kabinetinin və Ali Məclisin kəndin sosial quruculuğu və aqrar sənaye daimi komissiyasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi, onların əsasında şəxsi təsərrüfatlar yaradılması haqqında tövsiyələr işlənib hazırlandı.[151] Bu tövsiyələri geniş müzakirə edərək zərərlə işləyən kolxoz və sovxozlar ləğv edildi və onlar əsasında şəxsi təsərrüfatlar yaradıldı.

Muxtar Respublika Ali Məclisinin qəbul etdiyi bu qərar yerli şəraitə uyğun olaraq verilmiş və elmi cəhətdən əsaslandırılmış tövsiyyələrin həyata keçirilməsini nəzərdə tutur və öz əhatəliliyinə görə kənd təsərrüfatında əsaslı islahat proqramıdır. Bu proqrama uyğun təkcə muxtar respublikanın deyil, həm də bütövlükdə Azərbaycanın kənd təsərrüfatında müvəffəqiyyətli islahatlar aparılması və onun bazar münasibətləri şəraitində səmərəli inkişafı üçün böyük strateji əhəmiyyəti vardır.[152]

1992-ci il aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci bir qərarı da qəbul edilmişdir. Bu qərarda rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər verilmişdir. Həmin təkliflər aşağıdakılardan ibarət idi:

[151] Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, s. 59

[152] "Azərbaycan" qəzeti, 1998, 15 avqust



- Rentabelli işləyən kolxoz və sovxozların ictimai malqarasının zəruri olan halda kolxoz üzvlərinə, sovxoz fəhlələrinə və ya kənd sakinlərinə satılması məqsədəuyğun hesab edilsin;
- Rentabelli işləyən kolxoz və sovxozlarda ictimai malqaranın satılması məsələsi həmin təsərrüfatların təklifləri və rayon xalq deputatları məclisinin qərarları ilə həyata keçirilsin;
- Mal-qara kolxoz üzvlərinə, sovxoz fəhlələrinə və ya kənd sakinlərinə balans dəyərindən 5 dəfədən az olmamaq şərti ilə satıla bilər;
- Rayon xalq deputatları məclisinə tapşırılsın ki, ictimai mal-qaranın satılması işinin lazımi səviyyədə təşkilinə nail olsun, kolxozların, sovxozların bu sahədəki fəaliyyətini ciddi nəzarətdə saxlasın və bu işin həyata keçirilməsində qanun-qaydalara tam riayət olunmasını təmin etsinlər.[153]

Qəbul edilmiş qərarlara uyğun olaraq sonrakı illərdə maşın və mexanizmlərin başlıca olaraq sürücülərə və mexaniklərə satılması nəzərdə tutuldu. Bu, onsuz da kifayət qədər olmayan maşın və mexanizmlərdən səmərəli istifadə etmək üçün müstəsna əhəmiyyət kəsb edirdi. Bununla yanaşı kənd təsərrüfatında əmlakın özəlləşdirilməsi və torpaq islahatlarının yanaşı aparılması, kolxoz və sovxozların əmlakının bir hissəsinin özəlləşdirilməsi, bir hissəsinin yerli icra hakimiyyəti orqanlarına (bələdiyyələrə) verilməsi nəzərdə tutulurdu. Muxtar Respublika Ali Məclisinin və Nazirlər Kabinetinin tapşırığı ilə dağlıq və dağ ətəyi bölgələrdə özəlləşdirməyə və torpaq islahatlarının aparılmasına xüsusi diqqətlə yanaşılır, Muxtar Respublika Aqrar islahat komissiyası dağlıq və dağ ətəyi kolxoz və sovxozlarda torpaq islahatlarının aparılmasını daim nəzarət altında saxlayır və sürətləndirilməsi üçün tədbirlər görürdü.[154]

[153] Əliyev A., Qasımov Ə. Naxçıvan Muxtar Respublikası: nailiyyətlər və problemlər (I cild). Bakı: Azərbaycan, 2001, s. 172-173; Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 301-302

[154] Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, s. 62

Ali Məclisin qərarları qısa müddət ərzində öz müsbət nəticələrini göstərdi, muxtar respublikada kənd təsərrüfatının inkişafı, əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması üçün əlverişli zəmin yaratdı.[155]

Naxçıvan MR-in bütün rayonlarında aqrar sahənin yenidən qurulması istiqamətində xeyli işlər görüldü. Dağ və dağ ətəyi kəndlərdə torpaq islahatı demək olar ki, 1998-ci ilin axırlarında başa çatdırıldı. Muxtar respublikada satılması nəzərdə tutulan kolxoz və sovxoz əmlakının dəyəri 67.1 milyard manat hesab olunurdu.[156]

Muxtar respublikada olan 139 təsərrüfatın 119-da və ya 86 faizində, 208 kəndin 158-də və ya 76 faizində torpaq islahatı aparılmışdır. İslahat nəticəsində 43,3 min ailə torpaq payı almış, 12,4 min ailəyə dövlət torpaq aktları paylanmışdır.

Beləliklə, ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən iqtisadi islahatlar muxtar respublikada kənd təsərrüfatı və heyvandarlıq məhsullarının artmasına, nəticədə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşmasına əsaslı təsir göstərmişdir.

### 2.3. Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən müdafiəsi

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi muxtar respublikanın mürəkkəb, eyni zamanda ağır dövrünə təsadüf edirdi. "Qarabağ problemi ətrafında yayılan dalğanın zərbə qüvvəsinə məruz qalan", sərhədyanı kəndləri ermənilər tərəfindən qarət və işğal olunan, dincliyi əlindən alınan Naxçıvan Muxtar Respublikası "tarixin ümidinə buraxılmış tənha bir adanı" xatırladırdı.[157]

[155] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 300-302

[156] Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, 2000, s. 62

[157] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 8



Tale Heydər Əliyevi bu regiona göndərməklə Naxçıvanı Dağlıq Qarabağın və Azərbaycanın digər işğal olunmuş rayonlarının acı aqibətindən qorudu, "Azərbaycanın bu qədim torpağını xilas edən dahi şəxsiyyət özünə Naxçıvan boyda əbədi, həmişəyaşar abidə ucaltdı".[158]

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasını Ermənistanın hərbi təcavüzündən qorumaq, əhalisinin təhlükəsizliyini təmin etmək məqsədilə Ali Məclisin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı.[159]

Ulu öndər Azərbaycan üçün taleyüklü olan bu qərarı imzalayarkən hüquqi müstəvi çərçivəsində "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 30 avqust 1991-ci il tarixli bəyannaməsinə, "Azərbaycan Respublikasının milli özünümüdafiə qüvvələrinin yaradılması haqqında" qərarına və Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 1991-ci il tarixli fərmanına istinad etməyi zəruri hesab etmişdir.[160] Belə bir münasibət ulu öndərimizin müdrikliyi ilə yanaşı onun dövlətçilik siyasətinə sadiqliyinin daha bir təzahürü idi.

Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə Sədr seçilməsindən bir neçə gün sonra erməni millətçiləri muxtar respublikaya qarşı yeni təcavüzkar hərəkətlərə əl atdılar. 1991-ci il sentyabrın 10-dan 11-nə keçən gecə erməni silahlı quldur dəstələri Naxçıvan MR ərazisinə basqın edərək Şahbuz rayonunun Güney Qışlaq kəndindən 1033 baş, Ordubad rayonunun Tusi adına kolxozundan 1054 baş qoyun aparmış və həmin rayonun sakinləri olan iki çobanı - Xəlil Xəlilovu və Əşrəf Abbasovu girov götürmüşdülər. Çobanların və sürülərin geri qaytarılması ilə bağlı Ermənistan hüquq-mühafizə

[158] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 9

[159] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 544

[160] Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: Turxan NPB, 2013, s. 159

orqanlarına edilən tələblər yerinə yetirilmədiyindən Ordubad rayonunun əhalisi Qafan-İrəvan sərnişin qatarını saxlamışlar.

Sentyabrın 12-də Ermənistan Respublikası Ali Sovetinin sədri Levon Ter-Petrosyan Muxtar Respublika Ali Məclisinin Sədri Heydər Əliyevə zəng edərək onu parlamentin başçısı seçilməsi münasibətilə təbrik etmiş və Ermənistanla Naxçıvanın sərhəd rayonlarında baş verən münaqişəli məsələləri qarşılıqlı anlaşma və konstruktiv danışıqlarla həll etmək niyyətində olduğunu söyləmişdir.[161] O, Ordubad stansiyasında saxlanılan sərnişin qatarının yola salınmasına köməklik göstərilməsini Heydər Əliyevdən xahiş etmiş, aparılmış çobanların və qoyun sürüsünün qaytarılması, baş vermiş cinayətin araşdırılması üçün tədbirlər görəcəyini vəd vermişdi. Ümummilli lider Heydər Əliyev ona "verilən vədlər vaxtında yerinə yetirilsə, sərnişin qatarını buraxmaq zərurətini Ordubad rayonu əhalisini inandırmaq imkanının olduğunu" bildirmişdi.[162] Lakin Ermənistan rəhbərliyi verdiyi sözə əməl etməmiş, dörd gün davam edən danışıqlar nəticəsində yalnız qoyunların bir hissəsini qaytarmışdılar. Sonradan məlum olmuşdur ki, ermənilər hər iki çobanı vəhşiliklə qətlə yetirmişlər. Erməni quldurlarının qurbanlarını dəfn etdikdən sonra ordubadlılar X.Xəlilov və Ə.Abbasovun Ordubad rayonu ərazisində vəhşiliklə qətlə yetirildiyini nəzərə alaraq həbs edilməsi elan edilmiş dörd cinayətkarın Naxçıvan MR hüquq-mühafizə orqanlarına verilməsini, Dağlıq Qarabağda və Goranboy rayonunda ermənilər tərəfindən girov götürülmüş azərbaycanlıların geri qaytarılmasını, Mehri rayonu ərazisində lokomotiv briqadalarının və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsini tələb etmişdilər. Ulu öndər L.Ter-Petrosyanla telefon danışığında bu tələbləri tam müdafiə etmiş, eyni zamanda törədilmiş cinayət barədə Ermənistan mətbuat orqanlarına rəsmi məlumat verilməsi, Ermənistan rəhbərliyi adından günahsız həlak olan azərbaycanlıların

[161] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 547

[162] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 482-483



ailələrinə başsağlığı verilməsi tələblərini irəli sürmüşdü.[163] Bu şərtlər vasitəçilik missiyası ilə regiona gəlmiş RSFSR Ali Sovetinin deputatları A.Şabat və V.Popova da çatdırılmışdı. Onlar da öz növbəsində ulu öndər Heydər Əliyevin bu təkliflərdən ibarət məktubunu Ermənistan tərəfinə çatdırmışlar.[164] Ermənistan tərəfi nəinki bunları yerinə yetirmiş, əksinə gərginliyi daha da artırmış, yeni silahlı basqınlar etmişlər. Sentyabrın 19-da erməni yaraqlıları Gorus rayonunun Üçtəpə ərazisində yerləşən teleradio ötürücüsündə Naxçıvan Muxtar Respublikası istiqamətində bütün kanallarda teleradio verilişlərinin buraxılmasını dayandırmış və telefon xəttinin bir hissəsini kəsmiş, nəticədə muxtar respublika Azərbaycan televiziyası və radiosunun verilişlərini qəbul etmək imkanından məhrum edilmişdi.

Sentyabrın 20-də Ermənistanın Sisyan rayonu tərəfindən 50-60 nəfərlik silahlı erməni quldur dəstəsi Şahbuz rayonunun Biçənək teleradio ötürücü stansiyasına basqın edərək binanı dağıtmış, transformator stansiyasını yandırmış, bütün avadanlıqlar dağıdılaraq sıradan çıxarılmışdır. Beləliklə, muxtar respublika ərazisinə verilən teleradio verilişləri şəbəkəsi tamamilə dağıdılmışdı. Elə həmin gün erməni quldurları Babək rayonunun Yuxarı Buzqov kəndinin sakinləri olan iki çobana hücum etmiş və onlardan birini Eyvaz Eyvazovu özləri ilə aparmışdılar. Bu hadisələrlə əlaqədar ümummilli lider Heydər Əliyev yenidən L.Ter-Petrosyana zəng edərək muxtar respublika ərazisinə Ermənistan ərazisindən silahlı quldur hücumlarına son qoyulmasını, quldurlar tərəfindən aparılmış çoban E.Eyvazovun qaytarılmasını, 10 sentyabrdan 20 sentyabradək muxtar respublika ərazisində cinayət törədən Ermənistanın silahlı basqınçılarının muxtar respublikanın istintaq orqanlarına verilməsini tələb etmiş, teleradio ötürücü stansiyasına dəymiş maddi ziyanın dəyərini müəyyənləşdirmək üçün Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti

[163] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 483-488

[164] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 556

tərəfindən yaradılan komissiyanın işində Ermənistan nümayəndələrinin iştirakını təmin etməyi təklif etmişdi.[165]

Ulu öndər Heydər Əliyevi münaqişədən zərər çəkən hər bir azərbaycanlının taleyi narahat edir, erməni quldurları tərəfindən girov götürülmüş soydaşlarının azad olunması və öz ailələrinə qaytarılması üçün bütün imkan və vasitələrdən istifadə edirdi. Məhz onun Ermənistan rəhbərliyi ilə apardığı gərgin və intensiv danışıqlar nəticəsində Şahbuz rayon sakinləri E.Mədətov, E.Hüseynov, Goranboy rayon sakinləri U.Bayramov, S.Bədəlov əsirliyindən azad edilmişdi. Girov düşmüş insanların qohumları da son ümidgahları kimi Heydər Əliyevi görür, öz yaxınlarını erməni əsirliyindən xilas etmək üçün ona müraciət edirdilər. Ulu öndər Heydər Əliyevin sədrliyi ilə Ali Məclisin Rəyasət Heyətinin iclaslarında muxtar respublikanın sərhəddindəki vəziyyət mütəmadi müzakirə edilir, müvafiq orqanların nümayəndələrinin iştirakı ilə operativ tədbirlər müəyyən edilirdi.

1991-ci il oktyabrın 2-də Naxçıvan MR Ali Məclisin sessiyasında Ali Məclis sədrinin təşəbbüsü ilə müdafiə məsələləri qapalı iclasda müzakirə edilmiş və müvafiq qərar qəbul edilmişdi. Sessiyada həmçinin Azərbaycanın Xocalı şəhərində yaranmış gərgin vəziyyət də müzakirə olunmuşdu.

1991-ci ilin sentyabrında Rusiya və Qazaxıstan prezidentləri B.Yeltsin və N.Nazarbayev Azərbaycanın DQMV-də vəziyyətin normallaşdırılmasında vasitəçilik missiyasını yerinə yetirmək məqsədilə bölgəyə səfər etmiş, bu səfərdən sonra sentyabrın 23-də Rusiyanın Jeleznovodsk şəhərində RSFSR, Qazaxıstan, Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanat imzalamışdılar.

Bəyanata münasibət bildirən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycanın Dövlət Suverenliyi və ərazi bütövlüyünün müdafiəsi naminə Dağlıq Qarabağda vəziyyətin sabitləşdirilməsi, onun bütün ərazisində Azərbaycanın tam suverenliyinin bərpası və münaqişəli məsələlərin həllinə doğru atıl-

[165] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 491-494



mış bütün addımları bəyəndiyini bildirmiş, lakin həmin sənəddə Azərbaycan Respublikasının milli mənafeyinə toxunan gözlənilməz nəticələrə gətirə biləcək müddəaların olduğunu diqqətə çatdırmağı lazım bilmişdi. Muxtar respublikanın ali orqanı rəsmi məlumatda işğal edilmiş Azərbaycan kəndi Kərkinin qaytarılmasının öz əksini tapmadığından təəccübləndiyini bildirmişdi.[166]

Naxçıvan-Ermənistan sərhəddində baş vermiş hadisələr, Ermənistanın Mehri rayonu ərazisindən keçən dəmir yolu sahəsində erməni quldur dəstələrinin törətdikləri təxribatlar nəticəsində sentyabrın 11-dən (1991) Naxçıvan Muxtar Respublikasını Azərbaycanın qalan hissəsi ilə birləşdirən dəmir yolunda qatarların hərəkəti növbəti dəfə dayandırılmışdı. Ulu öndər Heydər Əliyevin L.Ter-Petrosiyanla intensiv danışıqları nəticəsində qatarların hərəkətinin bərpa edilməsi haqqında razılıq əldə edilmiş, yük qatarlarının hərəkəti noyabrın 5-də bərpa edilmişdi.[167] Qatarların Mehri ərazisindən təhlükəsiz hərəkətinə şəxsən Ermənistan prezidenti L.Ter-Petrosiyan səviyyəsində təminat verilsə də, 1991-ci il dekabrın 9-da həmin ərazidə iş aparan Ordubad dəmir yol stansiyasının 12 nəfərdən ibarət təmirçilər briqadası erməni quldurları tərəfindən oğurlanmışdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gərgin fəaliyyəti, onun Ermənistan prezidentinə təkidli müraciətləri nəticəsində girovlar dörd gündən sonra qaytarılmışdı.[168]

1991-ci ilin axırlarında Ermənistan və Rusiya arasında "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə" imzalandı.[169] Beynəlxalq ictimaiyyət tərəfindən, demək olar ki, heç bir müqavimətə rast gəlməyən, Rusiyanın himayəsini açıq-aşkar hiss edən erməni millətçiləri və separatçıları daha da azğınlaşdılar. Erməni millətçiləri dekabrın 16-da növbəti cinayətə əl ataraq Mehri stansiyasında Bakı-Şərur qatarının 113 sərnişinini

[166] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 498-500
[167] Yenə orada, s. 506-507
[168] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 576-577
[169] Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s. 294

girov götürmüşdülər. Ulu öndərin L.Ter-Petrosiyanla telefon danışıqları nəticəsində girovlardan 111-i Naxçıvana qaytarılsa da, iki sərnişin 20 gün ərzində ermənilərin əlində girov qalmış, onlar təhqir və işgəncələrə məruz qalmışdılar. Bu müddət ərzində dəmir yolunun fəaliyyəti yenidən dayanmışdı. Yalnız 1992-ci il yanvarın 6-da girovlar azad edildikdən sonra yük qatarlarının hərəkəti bərpa edilmişdi.[170]

Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin martın 10-da (1992) Ermənistan Respublikası Ali Sovetinin sədri Babken Arakçyanla görüşü oldu. Görüş zamanı Ermənistanla Naxçıvan Muxtar Respublikası arasındakı bütün sərhəddə sabitliyin və təhlükəsizliyin bərqərar edilməsi, Ermənistanın Mehri rayonu ərazisindən keçən bütün kommunikasiya xətlərinin normal işləməsi haqqında razılıq əldə olunsa da, Ermənistan rəhbərliyi bu sazişin müddəalarına əməl etmədi.

1992-ci ilin may ayı Azərbaycanın, eləcə də Naxçıvan Muxtar Respublikasının müasir tarixinin ən mürəkkəb və gərgin dövrünü təşkil edir. May ayında Bakıda siyasi qüvvələrin başı hakimiyyət mübarizəsinə qarışdığından və Qarabağı sanki yaddan çıxardıqlarından istifadə edən ermənilər Azərbaycana qarşı hücumlarını genişləndirərək Şuşa və Laçın şəhərlərini ələ keçirmişdilər.[171] Ulu öndər Heydər Əliyevin Ermənistan rəhbərliyi ilə apardığı gərgin danışıqlar nəticəsində hərbi münaqişələr müvəqqəti dayandırılsa da, ermənilər yaranmış şəraitdən istifadə edərək Naxçıvanı ələ keçirmək üçün mayın 1-dən muxtar respublikaya qarşı hərbi təcavüzə başladılar. Erməni silahlı birləşmələri qısa fasilədən sonra mayın 5-də sərhədi keçərək Naxçıvan MR-in sərhədyanı yaşayış məntəqələrinə yenidən basqın etdilər. Sədərək qəsəbəsi üzərinə hücumda piyadaların 5 döyüş maşını, 2 zirehli transportyoru və tankın köməyi ilə 700-ə yaxın silahlı erməni hərbi qulluqçusu iştirak edirdi. Sədərək qəsəbəsi, Havuş, Günnüt,

[170] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 498-500, s. 523-524
[171] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s. 80



Yuxarı Yaycı kəndləri yaxınlığındakı döyüşlər zamanı 42 nəfər yaralanmış, 3 nəfər həlak olmuşdu. Mayın 7-də səhər tezdən Sədərək qəsəbəsi və Havuş kəndi müxtəlif toplardan atəşə tutulmuş, 20 nəfər yaralanmışdı. Sədərəkdə böyük dağıntılar olmuşdu.[172]

Mayın 5-də Naxçıvan şəhərində, mayın 7-də Şərur rayonunun mərkəzində mitinqlər keçirildi. Heydər Əliyev hər iki mitinqdə iştirak və çıxış etmiş, sabitliyi saxlamaq naminə bütün qüvvələrin birləşməsini zəruri hesab etmişdi. Azərbaycan ərazisindən buraya elektrik enerjisi və yanacaq verilməsini təmin edən kommunikasiya xətləri Ermənistanda bağlanılmışdı. Telefon və teleqraf rabitəsi pozulmuş, dəmir yolunda hərəkət dayanmışdı. Naxçıvan Muxtar Respublikası yenə işıqsız və qazsız qalmışdı.

Mayın 8-də "Milliyyət" qəzetində Naxçıvandakı vəziyyətlə bağlı məlumatlar verilmişdi. Türkiyənin Baş naziri Süleyman Dəmirəl ABŞ prezidenti Corc Buş ilə telefon danışıqlarında bildirmişdi ki, Ermənistan Naxçıvana hücumları davam etdirsə, Türkiyə kənar müşahidəçi kimi qala bilməyəcəkdir.[173]

Sədərək rayonunda təhlükəsizliyi təmin etmək məqsədilə orada hərbi vəziyyət elan edildi, əhali təhlükəsiz yerə köçürüldü. Düşmən Naxçıvan tərəfdən hücum olacağından ehtiyatlanaraq oradakı hərbi hissələrin başını qatmaq, həm də Azərbaycanda yaranmış xaosdan bəhrələnərək yeni torpaqlar ələ keçirmək niyyətində idi. Mayın 18-də muxtar respublikanın Sədərək, Günnüt, Havuş, Yuxarı Buzqov, Şada, Biçənək və s. qəsəbə və kəndlərinə güclü hücumlar başlandı. Erməni daşnakları hətta zəhərli kimyəvi silahdan da istifadə edirdilər. Sədərəkdə qanlı döyüşlər 40 gün davam etdi. Naxçıvan əhalisi Sədərəyin müdafiəsinə qalxdı. Onlar qəhrəmanlıqla vuruşurdular. Düşmən hər cür silahla silahlanmışdı, lakin naxçıvanlıların silahları belə yox idi. Qəsəbənin yüz metrliyindəki Mil dağında 10 gün müddətində 17 şəhidin cəsədini götürmək mümkün deyildi. Ulu öndər Heydər Əliyevin

[172] Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, s. 289
[173] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mə-dəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, s. 45

şəxsi nüfuzu bir günlük atəşkəs yaratmağa kömək etdi, şəhidləri 1992-ci il mayın 28-də döyüş zonasından götürüb dəfn etmək mümkün oldu.[174] Sədərəyə, kəndlərə xeyli ziyan dəymiş, evlər və inzibati binalar dağıdılmışdı. On minlərlə insan çadırlarda, meşələrdə ağır şəraitdə yaşamağa məcbur olmuşdu.

Erməni təcavüzünün qarşısını almaq üçün Heydər Əliyev dünya ictimaiyyətinə, Türkiyə hökumətinə müraciət etdi. Türkiyənin o zamankı rəhbərliyi Baş nazir Süleyman Dəmirəl, xarici işlər naziri Hikmət Çətin, baş nazirin birinci müavini Ərdal İnönü Heydər Əliyevə telefon etmiş, Naxçıvana Ömər Ərsun başda olmaqla xüsusi nümayəndə heyəti göndərmişdilər. Türkiyə hökuməti mayın 18-də gecəyarısı toplaşaraq Naxçıvanla bağlı geniş bəyanat vermişdi.

Ümummilli lider Heydər Əliyevin müraciətindən sonra bir çox ölkələrin, o cümlədən Rusiyanın informasiya agentliklərinin, mətbuat orqanlarının nümayəndələri Naxçıvana gələrək buradakı vəziyyət haqqında dünya ictimaiyyətini məlumatlandırdılar. Bu, son dörd il ərzində Dağlıq Qarabağ müharibəsinin xarici və Rusiya mətbuatında birtərəfli, ermənipərəst mövqeyindən işıqlandırılması nəticəsində Azərbaycanın əleyhinə yaradılmış informasiya blokadasının yarılması sahəsində də atılmış mühüm addım idi. Ümummilli liderin səylərinin nəticəsi olaraq dünya informasiya orqanları Ermənistanın Naxçıvana hücumu barədə məlumatlar vermiş, 57 dövlət Ermənistanın təcavüzkarlığını pisləmiş, NATO xüsusi bəyanatla çıxış etmişdi.[175] Heydər Əliyevin fəaliyyəti nəticəsində dünya ictimaiyyətində obyektiv təsəvvür yaradılmış və Ermənistanın təcavüzkarlıq mövqeyi ifşa edilmişdi.[176] Bütün bu addımlar öz bəhrəsini verməyə başlamış, Ermənistanın müdafiə naziri V.Sarkisyan mayın 24-də ümummilli lider Heydər Əliyevə müraciət edərək danışıqlar yolu ilə münaqişəni aradan qaldırmaq arzusunu bildirmişdi.[177] Mayın 24-də

[174] "Şərq qapısı" qəzeti, 1992, 28 may
[175] "Şərq qapısı" qəzeti, 1992, 28 may
[176] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 531
[177] Yenə orada, s. 530



Ermənistanın təklifi ilə danışıqlar başlandı və sabitlik təmin edildi.[178]

Naxçıvanın bütün əhalisi muxtar respublikanın müdafiəsini möhkəmləndirmək üçün öz köməyini göstərirdi. Muxtar respublikanın bütün yaşayış məntəqələrində könüllülərdən ibarət özünümüdafiə dəstələri yaradılmış və onlar sərhəd kəndlərində yerləşdirilmişdi. Babək rayonunun Yuxarı Buzqov kəndi ətrafında fəaliyyət göstərən özünümüdafiə qüvvələri erməni yaraqlılarına layiqli cavab verir, torpaqlarımızı yağı düşməndən qoruyurdular. Könüllü olaraq Yuxarı Buzqov kənd özünümüdafiə taborunun tərkibində vuruşan Mirəsgər Seyidov igidliyi və cəsurluğu ilə fərqlənirdi. M.Seyidov bir neçə dəfə, ən çətin məqamlarda döyüşçü dostlarının köməyinə çatmışdı. Onun son döyüşü isə 1992-ci il iyunun 14-də oldu. M.Seyidov bu dəfə yoldaşlarını xilas edərkən ağır yaralandı və şəhidlik zirvəsinə yüksəldi. Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 1992-ci il tarixli 367 saylı fərmanı ilə Seyidov Mirəsgər Mirabdulla oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi.

Ulu öndər erməni təcavüzünün qarşısını almaq üçün Naxçıvanın imkanlarının səfərbər edilməsi, bütün idarə və müəssisələrin, təşkilatların, muxtar respublikanın hər bir vətəndaşını Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkilinə, sosial-iqtisadi problemlərin həllinə cəlb edilməsi üçün yollar axtararaq Naxçıvanın vahid inkişaf və müdafiə fondunun yaradılması təklifi ilə çıxış etmişdi.[179] Həmin təklif Ali Məclisin Rəyasət Heyətinin 25 may 1992-ci il tarixli iclasında müzakirə edilmiş və bəyənilmişdi. Ali Məclisin Rəyasət Heyəti Naxçıvanın İnkişafı və Müdafiə Fondunun yaradılması haqqında qərar qəbul etdi. Bütün Naxçıvan əhalisinə, dövlət və təsərrüfat orqanlarına, təşkilatlara, vətəndaşlara Naxçıvanın inkişafı və müdafiə fondunun təşkilində iştirak etmək barədə müraciət edildi. Müvafiq müraciət həmçinin muxtar respublikanın hüdudlarından kənarda yaşayan

[178] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 530-548
[179] Yenə orada, s. 533-534

bütün azərbaycanlılara və türklərə də edilmişdi.[180] Fondun təşkil olunması, toplanacaq vəsaitin istifadəsinə nəzarət üçün ulu öndər Heydər Əliyevin sədrliyi ilə komissiya yaradılmışdı.

Naxçıvan ərazisində olan SSRİ Silahlı Qüvvələrinin, sonra isə Rusiya Federasiyasının tabeliyində olan hərbi hissələrin və sərhəd qoşunlarının ləğv olunması və onların muxtar respublikadan çıxarılması, onların sərəncamında olan silah və sursatların təhvil verilməsinin çox böyük tarixi və hərbi əhəmiyyəti oldu.

Muxtar respublikada fəaliyyət göstərən qeyri-rəsmi silahlı qüvvələrin, xüsusən Xalq Cəbhəsinə məxsus hərbi dəstələrin buraxılması və onların da vahid komandanlığa tabe edilməsi məsələsi həll edildi. Bu dəstələr yarandığı ilk vaxtlarda muxtar respublikanın erməni təcavüzündən qorunmasında, əhalinin təhlükəsizliyinin təmin edilməsində müsbət rol oynasalar da, sonralar onların fəaliyyəti getdikcə başıpozuq xarakter daşımağa başlamış, onlar bəzi siyasi qüvvələrin əlində hakimiyyətə qarşı təzyiq vasitəsinə çevrilmişdi.

Ali Məclisin Rəyasət Heyəti Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasının ərazisində yeni, vahid hərbi hissələrin yaranması, bütün müdafiə məsələlərinin bu hissələr tərəfindən təşkil olunmasını nəzərə alaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Xalq Cəbhəsi silahlı qüvvələrinin buraxılmasını, bütün silahların, sursatların Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən hərbi hissəsinə təhvil verilməsini məqsədəuyğun hesab etdi. Qəbul edilmiş qərarda Naxçıvan Muxtar Respublikasının ərazisində mövcud olan bütün silahlı dəstələrin ləğv edilməsi, iyirmi gün müddətində əhalidə olan bütün qeyri-qanuni silahların yığılması tələb edilirdi. Bu tədbirlərin həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinə həvalə olundu.[181]

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Nazirlər Kabinetinə və Daxili İşlər Nazirliyinə Naxçıvan

[180] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 533-535
[181] Yenə orada, s 554-555



ərazisində yeni yaranan Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrinin təşkil olunmasında və fəaliyyət göstərməsində lazımi köməklik göstərməyi tapşırmışd.[182]

1992-ci il oktyabrın 9-da Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının bir ili tamam olmuşdu. Bu münasibətlə Naxçıvan şəhərində hərbi parad keçirilmiş, ulu öndər Heydər Əliyev əsgərlər və əhali qarşısında çıxış etmişdi. O, indiyədək Naxçıvan torpaqlarını cəsarətlə qorumuş bütün vətənpərvər Naxçıvan oğullarına, könüllü dəstələrə öz minnətdarlığını bildirərək, onların gördükləri işləri layiqincə qiymətləndirmiş və bəyan etmişdi ki, "...artıq Naxçıvanda nizami Milli Azərbaycan ordusunun hərbi hissələri mövcuddur. Bu hissələr lazımi gücə malikdirlər və Naxçıvan torpaqlarını müdafiə etməyə qadirdilər. Eləcə də, Naxçıvanın sərhədlərini mühafizə etmək üçün öz milli sərhəd dəstəmiz var. Ona görə də bütün könüllü dəstələrə minnətdarlığımızı bildirməklə, onlara tövsiyə edirik ki, bundan sonra öz vətəndaşlıq vəzifələri ilə məşğul olsunlar. Torpaqlarımızın düşməndən müdafiəsini ancaq və ancaq Azərbaycan Silahlı Qüvvələrinin Naxçıvanda yaradılmış hissələri həyata keçirməlidir" [51, s. 620-621].[183]

Naxçıvanın müdafiəsinin təşkili, ordu quruculuğu prosesi, ümummilli lider Heydər Əliyevin muxtar respublika rəhbəri kimi daim diqqət mərkəzində saxladığı məsələlər idi. Ermənilərin hücumlarına məruz qalmış kəndlərin, o cümlədən Sədərək kəndinin əhalisinin vəziyyəti daim diqqət mərkəzində saxlanılır, kəndlərin təhlükəsizliyinin təmin olunması, əhalinin normal şəraitdə yaşaması üçün bütün imkanlardan istifadə edilirdi.

Ümummilli lider Heydər Əliyev 1992-ci ilin dekabrında və 1993-cü ilin mayında Sədərəkdə Ermənistan nümayəndələri ilə görüşə gedərkən bu kəndin əhalisi ilə də görüşmüş, problemləri ilə maraqlanmış, sədərəkliləri əmin etmişdi ki, biz bir qarış da

[182] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan. 1996, s. 555
[183] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan. 2008, s. 620-621

olsa, torpağımızı əldən verməyəcəyik, nəyin bahasına olursa-olsun özümüzü müdafiə edəcəyik, düşmənin qarşısını alacağıq.[184]

1993-cü il mayın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin Ermənistan Ali Soveti sədrinin birinci müavini Ara Saakyanla Sədərək və Ararat rayonları arasındakı sərhəd zastavasında görüşü keçirildi. Görüşdə sərhəd məntəqələrində təhlükəsizliyin və sabitliyin təmin olunması məsələsi müzakirə edildi. İki tərəf arasında mayın 9-10-da sərhəd zonasında baş vermiş atışma nəticəsində yaranmış gərginliyin aradan qaldırılması barədə razılıq əldə edildi. Heydər Əliyev həmçinin dəmir yolunun işinin, bütün kommunikasiya xətlərinin bərpası təklifini irəli sürmüş, müvafiq bəyannamə imzalanmışdı.

Lakin bu görüş və orada imzalanmış bəyannamə Azərbaycan Respublikasının rəsmi dairələrində və mətbuat orqanlarında əsassız söz-söhbətlərə səbəb olmuşdu. Bəzi qəzetlər bununla əlaqədar qərəzli materiallar dərc etmiş, ictimai fikri azdırmağa çalışmışlar. Heydər Əliyevin tapşırığı ilə Ali Məclisin mətbuat xidməti xüsusi məlumat yaymış və həmin görüşün son vaxtlar Naxçıvanın Ermənistanla bəzi sərhəd məntəqələrində yaranmış gərginliyi aradan qaldırmaq, sabitliyi təmin etmək zəruriliyindən irəli gəldiyini bildirmişdir. Eyni zamanda, imzalanmış bəyannamənin məzmunu təhrif olunduğu üçün bəyannamə kütləvi informasiya vasitələrində dərc edildi.[185]

Beləliklə, Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi 1991-1993-cü illərdə müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi və xalqın ona olan sarsılmaz inamı və dəstəyi sayəsində bölgəni real erməni işğalından xilas etdi. Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyinin təmin edilməsi, müdafiəsinin təşkili, rus qoşunlarının silah-sursatın, texnikanın, əmlakın Azərbaycana təhvil verilməsi şərti ilə çıxması Naxçıvanı çox böyük fəlakətdən və faciələrdən qurtardı. Naxçıvan haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, münaqişənin əsl mahiyyəti haqqında informasiya vasitələri agentliklərinə geniş və obyektiv məlumatlar verilməsi də erməni təcavüzünün qarşısının alınmasında mühüm rol oynadı. Naxçıvanda müdafiə və hərbi quruculuq sahəsində həyata keçirilmiş tədbirlər bölgənin təhlükəsizliyinin möhkəm təməlini qoydu. Təəssüf ki, 1991-1993-cü illərdə bu istiqamətdə Bakıda heç bir iş aparılmadı. Ermənistanın təcavüzü ilə yanaşı, Azərbaycanda daxili ictimai sabitlik də pozulmuş, müxtəlif qanunsuz silahlı dəstələr yaradılmış və respublikanın daxilində qızğın hakimiyyət çəkişməsi gedirdi. Təbiidir ki, müxtəlif qüvvələrin özlərinə məxsus silahlı dəstələrdən istifadə edərək apardığı bu hakimiyyət mübarizəsi Azərbaycana böyük zərbələr vurdu. 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər hesab olunur, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı.[186]

184 Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 570

185 Yenə orada, s. 577-578



### 2.4. Naxçıvandan rus qoşunlarının çıxarılması və milli ordunun formalaşması

Azərbaycan 1991-ci il oktyabrın 18-də müstəqillik aktını qəbul etsə də, hələ əsl müstəqilliyə gedən yol çox uzun idi. Özgə ordusunu yedirdən bir ölkə özünü müstəqil hesab edə bilməzdi. Bunun üçün ilk növbədə sovet imperiyasının işğalçı qoşun hissələri ölkədən çıxarılmalı idi. Azərbaycanın o vaxtkı rəhbərləri isə buna nail olmağa tələsmirdilər. Bu addımı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev atdı. Ümummilli lider Heydər Əliyev muxtar respublika ərazisindəki sovet qoşun hissələrinin dincliklə oradan çıxarılması, onlara məxsus silah-sursatın, texnikanın, əmlakın tamamilə Azərbaycanın ixtiyarına verilməsinə nail oldu.

186 Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il. Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. Naxçıvan: Əcəmi NPB, 2001, s. 103-104, 113

1991-ci il oktyabrın 26-da Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin sessiyasında Naxçıvan MR ərazisindəki qoşun hissələrinin statusu haqqında məsələ müzakirə olundu və müvafiq qərar qəbul edildi.[187] Bu məsələnin müzakirəsinin zəruriliyi ondan irəli gəlirdi ki, son vaxtlar hərbi hissələr yerli hakimiyyət orqanları ilə kifayət qədər əlaqə saxlamır, əhali ilə münaqişələrə gətirib çıxaran hərəkətlərə yol verirdilər. Hərbi hissələr tərəfindən hərbi texnikanın və silahın respublikadan kənara aparılması barədə şayiələr yayılır, ayrı-ayrı hərbi qulluqçuların hüquqa zidd hərəkətləri yerli əhali arasında böyük narazılığa səbəb olurdu. Sessiyada Naxçıvanda qulluq edən hərbçilərin erməni quldurları ilə Azərbaycanın əleyhinə pozuculuq əlaqələri haqqında çoxlu faktlar göstərildi. Belə bir narahatlıq doğuran məqama da diqqət yetirildi ki, Naxçıvandakı Sədərək və Ordubad zastavaları gizli şəkildə Ermənistandakı sərhəd dəstəsinə tabe edilib. Ali Məclisin Sədri həmin məsələnin üç gün ərzində həll edilməsi və qeyd olunan zastavaların Naxçıvan sərhəd dəstəsinə tabe etdirilməsi haqqında 41-ci sərhəd dəstəsinin komandiri V.Jukova tapşırıq verdi. Ulu öndər Heydər Əliyevin qətiyyətli mövqeyi sayəsində bu məsələ öz müsbət həllini tapdı.

1991-ci il noyabrın 6-da SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini N.A.Şam və SSRİ Baş Dövlət Sərhəd İdarəsinin şöbə rəisi A.A.Bessonov, eləcə də Zaqafqaziya hərbi dairəsindən, sərhəd qoşunları qərargahından yüksək rütbəli zabitlər Naxçıvana gəldilər.[188] Ali Məclisin Sədri Heydər Əliyev onları qəbul etdi. Hərbçilərin hüquqazidd, qarşılıqlı münasibətlərə xələl gətirən hərəkətləri haqqında qonaqlara ətraflı məlumat verən ulu öndər Heydər Əliyev bildirdi ki, Naxçıvan Muxtar Respublikası ərazisindəki qoşun hissələri öz funksiyalarını bu regionda yaranmış real vəziyyətə uyğun həyata keçirməli, yerli orqanlarla və əhali ilə qarşılıqlı əlaqənin yaxşılaşdırılmasına səy göstərməlidirlər. Noyabrın 7-də Ali Məclisin Sədri Heydər

[187] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 509-510
[188] Səmədov A. Azərbaycanın qurtuluş tarixi. Dörd clddə I cild. Bakı: Ozan, 2004, s. 311



Əliyevin muxtar respublika ərazisində yerləşən bütün hərbi hissələrin komanda heyəti ilə görüşü oldu. Ali Məclisin qəbul etdiyi "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin təşkili ilə əlaqədar bəzi məsələlər haqqında" qərarı bu sahədə aparılan bütün danışıqlara bir nöqtə qoydu. Qərarda deyilirdi ki, Naxçıvan Muxtar Respublikasının ərazisindəki bütün yeraltı və yerüstü sərvətlər Azərbaycan xalqına, muxtar respublika əhalisinə məxsusdur. Muxtar respublika ərazisində yerləşən silahlı qüvvələrin bütün hərbi və təsərrüfat tikililəri, əmlakı, silahlar və hərbi sursatları, hərbi və mülki texnikası Naxçıvan Muxtar Respublikasına məxsusdur və Ali Məclisin icazəsi olmadan respublika ərazisindən aparılmamalıdır.[189]

1991-ci ilin dekabr ayında SSRİ-nin dağılması vahid silahlı qüvvələrin bölünməsi məsələsini ortaya çıxardı. Azərbaycan Respublikası Ali Sovetinin "Azərbaycan Silahlı Qüvvələrinin yaradılması haqqında" 9 oktyabr 1991-ci il tarixli qərarı, Azərbaycan hökumətinin "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" 225 №-li sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə və yerli XDS İK-nə tapşırılmışdı ki, Azərbaycan ərazisində xüsusi icazə olmadan hərbi texnika, silah, avadanlıq və digər hərbi əmlakın öz bölgələrinin hüdudlarından kənara çıxarılmasını qadağan etsinlər.

Naxçıvan MR Ali Məclisinin 26 oktyabr 1991-ci il tarixli qərarının qeyri-qənaətbəxş yerinə yetirilməsi, muxtar respublika ərazisində yerləşən hərbi hissələrin statusunun dəqiqləşdirilməsi, həmin hissələrin Naxçıvan Muxtar Respublikası ərazisində qalmalarının məqsədəuyğunluğunun araşdırılması və muxtar respublikada ali hakimiyyət orqanlarına tabeçilik məsələlərinin həll edilməsi üçün Naxçıvan MR Ali Məclisi 16 dekabr 1991-ci il tarixdə qərar qəbul etdi. Qərarda deyilirdi: "...Ali Məclisin sessiyası 26 oktyabr tarixli iclasında yaradılmış Ali Məclisin sədr müavini Qafar Məmmədovun başçılıq etdiyi xüsusi komissiyaya tapşırılsın ki, 75№-li mexanikləşdirilmiş motoatıcı diviziyasının

[189] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 522

komandanı R.Slaboşeviç və digər hərbi hissələrin rəhbərləri ilə birgə müstəqil Azərbaycan dövlətinin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ərazisində yerləşən hərbi hissələrin statusu haqqında on gün müddətində konkret təkliflərini müəyyən edib Ali Məclisə təqdim etsinlər.[190]

Muxtar respublika rəhbərliyinin məsələni qarşılıqlı güzəşt və qanuni yolla həll etmək istəyinə baxmayaraq yerli hakimiyyət orqanlarına rus hərbçilərinin yerli əhali ilə münaqişələrinə səbəb olan hərəkətləri, onların hərbi texnikanı və avadanlıqları respublikadan çıxarmaq, sökərək yararsız hala salmaq cəhdləri haqqında çoxlu məlumatlar daxil olurdu. Bütün bunlara dair konkret faktlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin hərbi hissə komandirlərinin də iştirak etdikləri 1992-ci il yanvarın 2-də keçirilən iclasında geniş müzakirə olundu. İclasda çıxış edən ümummilli lider Heydər Əliyev hərbçilərlə yerli əhali arasında baş vermiş münaqişələri təhqiq etmək üçün xüsusi komissiyanın yaradılması ilə bağlı təklif irəli sürdü. O, hərbi texnikanın və avadanlığın muxtar respublikadan çıxarılması haqqında faktlara münasibət bildirərək dedi: "Yadda saxlamaq lazımdır ki, Sovet ordusu və onun hərbi texnikası keçmiş ittifaqın bütün respublikalarının xərci ilə yaradılmış və saxlanılırdı. Ona görə də hərbçilərdə olan silahlar, hərbi texnika və avadanlıq onların yerləşdiyi hər bir respublikanın payına düşməlidir. Biz muxtar respublikadan silahların, hərbi texnikanın və avadanlığın aparılmasına heç cür yol verə bilmərik. Suveren respublikalar birliyinin yaranması ilə əlaqədar hər bir respublikada, o cümlədən Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələr yerli hakimiyyət orqanlarına tabe olmalıdırlar. Hərbçilər yerli əhaliyə, onun adət və ənənələrinə hörmətlə yanaşmalıdırlar. Əhali ilə hərbçilər arasında normal qarşılıqlı münasibətlər bərqərar olmalıdır".[191]

[190] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 522, s. 515-516
[191] "Şərq qapısı" qəzeti, 1992, 11 yanvar



Ümummilli lider Heydər Əliyevin Rusiya Federasiyasının Müdafiə Nazirliyi, Cənubi Qafqaz Hərbi Dairəsinin və 75-ci diviziyanın komandanlıqları ilə apardığı danışıqlar nəticəsində diviziyanın ləğv edilməsi və onun bütün əmlakının Azərbaycan Respublikasının sərəncamına verilməsi haqqında razılıq əldə olundu. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 25 iyul tarixli iclasında Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin ləğvi və onun əsasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tərkibində müvafiq strukturun yaradılması zəruri hesab edildi.[192] İyulun 22-dən avqustun 15-dək 75-ci diviziyanın əmlakı, silah-sursatı Azərbaycan Milli Ordusuna təhvil verildi. Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin və təhvil alınan 75-ci diviziyanın hərbi hissələrinin bazasında Azərbaycan Müdafiə Nazirliyinin Naxçıvanda 5-ci əlahiddə motoatıcı briqadası yaradıldı. Azərbaycanda birinci olaraq Rusiya qoşun hissələrinin hərbi və təsərrüfat əmlakı Azərbaycan Müdafiə Nazirliyinin yeni yaradılan hərbi hissəsinin sərəncamına verildi.

1992-ci il avqustun 18-də 75-ci diviziyanın əmlakının, silahlarının, hərbi texnikasının Azərbaycan Milli Ordusuna verilməsi haqqında sənədlərin imzalanması ilə Rusiya Ordusunun hərbi hissələri avqustun 18-də Naxçıvan Muxtar Respublikasını tərk etdi.[193] Sənədlərin imzalanması mərasimində çıxış edən Ali Məclisin Sədri Heydər Əliyev bu günü müstəqil Azərbaycan Respublikasının və onun tərkib hissəsi olan Naxçıvan MR-in həyatında əlamətdar, tarixi gün adlandırdı.[194] Beləliklə, 1946-cı ildən Naxçıvanda yerləşən bu diviziya Azərbaycanda öz ömrünü başa vurdu.

1992-ci ilin avqust-sentyabr aylarında 41-ci Sərhəd Dəstəsinin ləğv edilməsi, onun əmlakının Azərbaycan Respublikasının 1-ci Sərhəd Dəstəsinə verilməsi barədə razılaşma əldə olundu.

[192] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı. Azərbaycan. 1996. s. 522. s. 542
[193] Yenə orada, s. 771; "Şərq qapısı" qəzeti, 1998, 24 iyun
[194] "Səs" qəzeti, 20 avqust 1992

Bundan sonra Azərbaycan Respublikası ilə qonşu dövlətlər – İran və Türkiyə arasında muxtar respublika ərazisindəki 215 km məsafədə olan dövlət sərhəddi Rusiya Silahlı Qüvvələri tabeliyində olan 41-ci Sərhəd Dəstəsi tərəfindən deyil, Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının 1-ci Sərhəd Dəstəsi tərəfindən mühafizə ediləcəkdi. Sentyabrın 29-da sərhəd dəstəsinin sonuncu zabit və əsgərləri təntənəli şəkildə Naxçıvan Muxtar Respublikasından yola salındılar.[195] İlk milli sərhəd qoşunlarının yaradılması da Naxçıvandan başlandı. Sərhəd qoşunları dəstəsində Azərbaycanın milli bayrağı qaldırıldı.

Bu hadisə ilə əlaqədar 1992-ci il sentyabrın 29-da Sərhəd Dəstəsi qərargahının ərazisində Azərbaycan Respublikası Sərhəd Qoşunlarının 1-ci Sərhəd Dəstəsi hissələrinin Naxçıvan şəhər ictimaiyyətinin iştirakı ilə mitinqi oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev mitinq iştirakçıları qarşısında çıxış etdi və onları bu əlamətdar hadisə münasibəti ilə təbrik etdi.

Bütün keçmiş müttəfiq respublikalar içərisində ilk dəfə olaraq sovet imperiyasının ordu hissələri bütünlüklə Naxçıvandan, ondan bir müddət sonra isə Azərbaycandan çıxarıldı. Naxçıvanda təxminən iki əsr müddətində mövcud olmuş əcnəbi ölkənin hərbi iştirakına son qoyuldu.

### 2.5. Blokadanın aradan qaldırılması və Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələri

Dağlıq Qarabağ hadisələrinin başlanması, Ermənistanın təcavüzkar mövqeyi nəticəsində Naxçıvana gələn yük və sərnişin qatarları atəşə tutulur, yollar dağıdılır, qatarların Naxçıvana hərəkətinə hər cür maneçilik törədilirdi. Sərhədlərinə müntəzəm hücumlar edilən muxtar respublikanı ölkə ilə - Azərbaycanla bağlayan yeganə dəmiryolu 1992-ci il aprelin 24-də, qalan kommunikasiyalar isə iyulun 13-də kəsildi, şose yolu bağlandı. 1991-

[195] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 522, s. 557



ci ilin dekabrından qaz, 1992-ci ilin iyunundan Naxçıvan MR-ə elektrik enerjisi verilməsi dayandırıldı, muxtar respublika blokada vəziyyətinə düşdü.

Ermənistan tərəfdən iqtisadi və nəqliyyat blokadasının yaratdığı obyektiv çətinliklər, digər tərəfdən keçmiş iqtisadi münasibətlərin pisləşməsinə gətirib çıxarmışdı. Dəmir yolunun işləməməsi nəticəsində muxtar respublikanın sənaye, kənd təsərrüfatı, tikinti müəssisələri lazım olan xammalla, avadanlıqlarla, inşaat materialları ilə təmin edilmədiyindən onların əksəriyyətinin fəaliyyəti tamamilə dayanmışdı.[196]

İqtisadi əlaqələrin kəsilməsi ucbatından həmin dövrdə muxtar respublikaya məhsul gətirilməsi tamamilə kəsilmişdi. Həmin illərdə Naxçıvan MR-də adambaşına düşən mal dövriyyəsi orta respublika göstəricisinin 74,8 faizini təşkil edirdi.[197] Muxtar respublikada işsizlərin sayı 50 min nəfərdən çox idi.[198]

Muxtar respublikada vəziyyət mürəkkəb və gərgin olaraq qalırdı. Çünki yanacağı, ərzaq məhsullarının çox hissəsini, bəzi tikinti materiallarını Bakıdan alan Naxçıvan son dərəcə çətin bir vəziyyətdə qalmışdı. Ermənistan ərazisindən keçən dəmir yolunun işləməməsi nəticəsində həmin məhsulların Naxçıvana gətirilməsi qeyri-mümkün idi. Belə bir ağır vaxtda Bakı ilə əlaqə yalnız hava yolu vasitəsilə saxlanılırdı ki, hava yolu ilə də Naxçıvanın tələbatını ödəmək olmazdı. O zaman Naxçıvan MR Ali Məclisi vəziyyətdən çıxmaq üçün Naxçıvana gələn avtobusların, yük maşınlarının Xudafərindən İran ərazisinə keçib oradan Culfaya gəlmələri təklifi ilə çıxış etsə də, bu təklifin həyata keçirilməsi istər Azərbaycanda, istərsə də İranda bəzi qüvvələrin günahı, Naxçıvana ögey münasibəti ucbatından mümkün olmadı.

Böyük dövlət xadimi Heydər Əliyevin Naxçıvanda yaşaması, daha sonra Naxçıvan MR Ali Məclisinə rəhbərlik etməsi

[196] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 522, s. 265
[197] Nağıyev Ə., Novruzov V., Allahverdiyev H., Əlirzayev Ə. Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı. Bakı: Azərnəşr, 1998. s. 109-111
[198] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçı-van səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 119

Naxçıvanın blokadadan qurtarmasına, onun beynəlxalq əlaqələrinin yaranmasına və genişlənməsinə imkan verdi.

Ağır blokada illərində Naxçıvanda yaşayan ulu öndər Heydər Əliyevin nüfuzu və uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası və Türkiyə Respublikası ilə əlaqələri yaradıldı, Naxçıvanın həyati tələbatını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün danışıqlar aparıldı, protokollar imzalandı. Dahi şəxsiyyət muxtar respublikanı sosial-iqtisadi böhrandan çıxarmaq üçün ciddi tədbirlər görməyə başladı. Onun sədrliyi ilə Ali Məclisin sessiyasında diyarın sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti ətraflı təhlil edildi, təcili tədbirlər görmək üçün muxtar respublika hökumətinə müvafiq tapşırıqlar verildi. Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi iki ilə yaxın müddətdə ümummilli lider Heydər Əliyev əsasını qoyduğu xarici əlaqələr sayəsində bölgəni gözlənilən fəlakətdən xilas etdi.[199]

**Naxçıvan-Türkiyə əlaqələri.** Heydər Əliyev 1991-ci ildə Ali Məclisin sədri seçildikdən sonra Naxçıvan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu. "Naxçıvan türk-islam dünyasına bir qapıdır", - deyən ulu öndər bu istiqamətdə ardıcıl, məqsədyönlü fəaliyyət göstərməyə başladı.

1991-ci il yanvarın 29-da Naxçıvanda Azərbaycanla-Türkiyə arasında əməkdaşlıq haqqında protokol imzalandı. Sazişdə sərhəd çayı Araz üzərində avtomobil və dəmir yolları tikmək, sərhəddə buraxılış məntəqəsi açmaq nəzərdə tutulurdu.

1991-ci il sentyabrın 30-da Naxçıvan MR Ali Məclisinin növbədənkənar sessiyasında Naxçıvanın blokadası və yaranmış vəziyyətdən çıxış yolları müzakirə edildi. Türkiyənin Qars əyalətinin nümayəndə heyəti ilə danışıqlar aparıldı və əməkdaşlıq haqqında protokol imzalandı. 1991-ci il oktyabrın 25-də Türkiyə Respublikası Naxçıvana 1 milyard lirəlik ərzaq yardımı göndərmək qərarına gəldi.

[199] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s. 111



Həmin il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycan-Türkiyə arasında Araz çayı üzərində müvəqqəti körpünün açılışı oldu.[200] Körpünün rəsmi açılış mərasimində Ali Məclisin sədri Heydər Əliyev, Türkiyə hökumət dairələrinin nümayəndələri, Azərbaycanın görkəmli elm və mədəniyyət xadimləri iştirak etdilər. Azərbaycanın Türkiyə ilə birbaşa nəqliyyat əlaqəsi qurmasını o zamankı SSRİ rəhbərliyi qısqanclıqla qarşılamış, rəsmi informasiya vasitələri səhv məlumatlar yaymağa başlamışdır. Müvəqqəti körpünün açılması muxtar respublikanın dost ölkə ilə əlaqələrinin inkişafında mühüm mərhələ oldu. Körpünün açılması ilə Türkiyə Respublikası hökumət nümayəndələrinin, iş adamlarının Naxçıvana səfərləri intensiv xarakter almağa başladı.

1991-ci il noyabrın əvvəllərində Türkiyə Nəqliyyat Nazirliyinin nümayəndə heyəti muxtar respublikaya səfər etmiş, səfər zamanı Araz çayı üzərində avtomobil körpüsünün tikilməsi, keçid məntəqəsi yaradılması haqqında nazirliklə Muxtar Respublika Nazirlər Kabineti arasında protokol tərtib edilmişdi.[201]

Müvəqqəti körpü istifadəyə verildikdən sonra Türkiyə hökuməti nümayəndələrinin, iş adamlarının, qonşu vilayətlərin nümayəndələrinin Naxçıvana səfərləri genişlənmiş, muxtar respublikaya göstərilən yardımların həcmi artmışdı. 1991-ci il noyabrın 9-da Türkiyənin "Qızıl Ay" cəmiyyətinin xətti ilə muxtar respublikaya 126 ton ərzaq gətirilmişdi. Noyabrın 18-də Türkiyənin Konya şəhərindən ərzaq dolu maşın karvanı Naxçıvana gəldi. Noyabrın 29-da İğdır şəhərinin əhalisi və valiliyi Naxçıvana 19 yük maşını ərzaq göndərdi. Yardımı gətirən İğdır Bələdiyyə İdarəsinin rəisi ulu öndər Heydər Əliyevlə görüşündə bildirdi ki, Naxçıvan Muxtar Respublikasına göstərilən yardım davam edəcəkdir.[202]

[200] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 585-586
[201] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 590-591
[202] Səmədov A. Azərbaycanın qurtuluş tarixi. Dörd cilddə. I cild. Bakı: Ozan, 2004, s. 283

Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin təşəkkül tapmasında Ali Məclis Sədrinin 24 fevral 1992-ci il tarixdə verdiyi fərmanla yaradılan Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi mühüm rol oynamağa başladı. O, Naxçıvanı blokadadan çıxarmaq üçün Naxçıvan – Türkiyə əlaqələrinin inkişafına xüsusi əhəmiyyət verirdi. Əlaqələrin inkişafında ulu öndərin başçılığı ilə Naxçıvan Muxtar Respublikasının nümayəndə heyətinin qonşu ölkəyə rəsmi səfərləri mühüm rol oynayırdı.

1992-ci ilin martın 22-25-də ulu öndər Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə dost ölkədə səfərdə oldu. Ankarada onu Türkiyə Cümhuriyyətinin prezidenti Turqut Özal qəbul etmiş, Baş nazir Süleyman Dəmirəl ilə əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məsələləri müzakirə edilmişdir. Rəsmi görüşdə çıxış edən Baş nazir bildirdi ki, keçmiş Sovetlər İttifaqında baş verən proseslərə Türkiyə öz münasibətini bildirməlidir. Qars müqaviləsinə görə Naxçıvanın statusunda əmələ gələcək dəyişikliklərə də Türkiyənin münasibət göstərməsinin vacib olduğunu qeyd edən Baş nazir bildirdi ki, bu məsələ ilə əlaqədar Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev Türkiyəyə dəvət edilmişdir.

S.Dəmirəl dünya siyasətində möhtərəm şəxs kimi qəbul edilən Heydər Əliyevi Türkiyədə görməkdən məmnun olduğunu dedi: "Biz görürük ki, Naxçıvanda sabitlik var. Hörmətli Heydər Əliyev bu sabitliyi yaradandır, onun sahibidir. Naxçıvan bu sabitliyə görə ona borcludur. Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir. Şəxsən mən bunu təqdirəlayiq böyük iş kimi qiymətləndirirəm".[203]

Naxçıvan Muxtar Respublikasının iqtisadi çətinliklərindən danışan Baş nazir bildirdi ki, bu çətinlikləri aradan qaldırmaq üçün Naxçıvana kömək ediləcəkdir. Səfərin gedişində - martın 24-də 13 maddədən ibarət əməkdaşlıq haqqında protokol imzalandı.

[203] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s. 668



Sənəddə Türkiyə ilə Naxçıvan arasında iqtisadiyyat, təhsil, nəqliyyat və rabitə sahəsində əlaqələrin inkişaf etdirilməsi nəzərdə tutulurdu. Protokolda həmçinin bank işi, turizm, informasiya sahəsində geniş əməkdaşlıq əlaqələrinin yaradılması, muxtar respublikadan olan 100 tələbənin Türkiyədə təhsil alması haqqında razılığa gəlindi. Türkiyə Naxçıvan Muxtar Respublikasına 100 milyon dollar kredit ayırdı[204] və bunun hesabına ərzaq, əkin üçün toxum, avadanlıq göndərdi. Sədərək-Türkiyə yolu tikildi. Qarşılıqlı avtonəqliyyat əlaqələri yarandı. "Türksat" rabitə şirkəti Naxçıvanın Bakı ilə telefon əlaqəsini bərpa etdi.

Türkiyə ilə Naxçıvanın yaxınlaşmasında ulu öndərin xidmətləri əvəzsiz idi. Naxçıvan tədricən türk dünyasına qovuşurdu. Heydər Əliyev deyirdi: "Qədim türk diyarı olan Naxçıvan Azərbaycanın ayrılmaz hissəsidir. Qarşılaşdıqları çətinliklərə dözə-dözə naxçıvanlılar Azərbaycanın bütövlüyü, müstəqilliyi uğrunda mübarizə aparırlar. Rusiyanın əsarətindən çıxdıqdan sonra Azərbaycan türk, islam aləminə yaxınlaşıb qovuşmalıdır. Bu mənada Naxçıvan türk dünyasına bir qapıdır".[205]

Türkiyə Cümhuriyyəti ilə Naxçıvan arasında imzalanan Əməkdaşlıq Protokolu iki respublika arasında tarixi və mədəni əlaqələri inkişaf etdirmək sahəsində çox böyük əhəmiyyətə malik tarixi sənəd oldu. İmzalanan bu protokol eyni zamanda ağır iqtisadi böhran vəziyyətində olan Naxçıvan Muxtar Respublikasına böyük maliyyə, maddi-texniki yardım göstərməklə onun böhran vəziyyətindən çıxmağı üçün geniş imkanlar yaratdı. Bu məsələ ətrafında Naxçıvan MR Ali Məclisinin 4 aprel tarixli iclasında geniş danışıldı və qərar qəbul edildi. Qərarda göstərilirdi ki, Ali Məclisin daimi komissiyaları, muxtar respublika Nazirlər Kabineti, rayon və şəhər xalq deputatları məclisləri, onların icraiyyə komitələri Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respub-

[204] Heydər Əliyev Muzeyi (HƏM). Eksponat 198, sənəd 136; Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan. 2008. s. 286-287

[205] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011.

likası arasında imzalanan Əməkdaşlıq Protokolunun icrası ilə əlaqədar konkret təkliflər hazırlasınlar.

Azərbaycan – Türkiyə arasında əməkdaşlığın artması ilə yeni dövr başlandı. Bu Türkiyə Respublikası ilə Azərbaycan Respublikasının Naxçıvan MR arasında Türkiyənin məşhur "Matsandış" Yol Tikinti Şirkəti ilə Naxçıvan Təmir Tikinti İdarəsinin birgə inşa etdiyi, uzunluğu 288 metr olan Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi ilə əlaqədar idi. Bu körpü iki qardaş xalqın həsrətinə son qoymaqla yanaşı, iki respublika arasında iqtisadi, mədəni əlaqələrin genişlənməsi və inkişaf etməsi baxımından çox böyük əhəmiyyətə malik idi.

1992-ci il mayın 28-i Azərbaycan tarixinə əlamətdar bir gün kimi daxil oldu. Sədərək-Dilucu körpüsünün rəsmi açılışında iştirak etmək üçün həmin gün Türkiyənin Baş naziri S.Dəmirəl Naxçıvana gəldi. Mayın 28-də ulu öndər Heydər Əliyevin və Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin iştirakı ilə Araz çayı üzərində Azərbaycanla Türkiyə Cümhuriyyətini birləşdirən körpü istifadəyə verildi. Körpünün açılış mərasimində çıxış edən ümummilli lider dedi ki, bu bizim ümid və arzularımızın körpüsüdür və türk dünyasına pəncərədir. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi.[206]

Naxçıvanlıların "Həsrət körpüsü", türklərin "Könül körpüsü" adlandırdıqları "Ümid körpüsü"nün açılması ilə Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında iqtisadi və mədəni əlaqələr daha da genişləndi. Naxçıvan MR Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 9 iyul tarixli qərarı ilə bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd keçid qapısı elan edildi.[207] Qısa müddətdə İğdır-Naxçıvan elektrik xətti çəkildi. Naxçıvan Türkiyənin elektrik şəbəkəsinə qoşuldu. Türkiyə Cüm-

[206] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan. 1996, s. 637-638

[207] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, s.704



huriyyətindən Naxçıvana 63 meqavat elektrik enerjisi nəqlinə başlanıldı.

1992-ci il iyunun 1-5-də Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevin başçılıq etdiyi nümayəndə heyəti Türkiyə hökumətinin dəvəti ilə Ankara və İzmirdə olmuşdur.[208] Türkiyənin rəsmiləri ilə görüşlərdə Naxçıvanda yaranmış gərgin vəziyyətdən danışan Heydər Əliyev demişdir ki, muxtar respublikada kəskin ərzaq və yanacaq qıtlığı yaranmışdır, cəmi 3-4 günlük yanacaq ehtiyatı qalmışdır. 24 mart 1992-ci il protokoluna əsasən ayrılacaq 100 milyon dollar kreditdən istifadə edilməsi məsələləri müzakirə edilmişdir. 10 milyon dollarlıq ərzaq almaq üçün razılıq əldə edilmişdir. İyunun 4-də İzmir şəhərində keçirilən III beynəlxalq Milli İqtisadi Konqresin iclasında ümummilli lider Heydər Əliyev iştirak və çıxış etmişdir. Səfər müddətində Naxçıvanda Türkiyənin konsulluğunun açılması məsələsi də öz həllini tapmışdır.[209] 1993-cü il fevralın 5-də Naxçıvanda Türkiyənin konsulluğu fəaliyyətə başladı. Türkiyə ilə Naxçıvan arasında gediş-gəlişin sadələşdirilməsi məsələsi də müzakirə edilmişdir. Heydər Əliyevin xahişinə əsasən bir qrup naxçıvanlı döyüşçünün Türkiyə xəstəxanalarında müalicə olması üçün razılıq əldə edildi.

Ulu öndər Heydər Əliyevin Türkiyəyə üçüncü rəsmi səfəri 1992-ci ilin avqustun 10-14-də olmuşdur.[210] O, İğdır şəhərində Türkiyənin yeni İğdır vilayətinin yaranması ilə əlaqədar rəsmi mərasimdə çıxış etmiş, sonra Qars və Ankara şəhərlərində olmuşdur.

Səfər zamanı Heydər Əliyev 24 mart 1992-ci ildə imzalanmış əməkdaşlıq protokolunun həyata keçirilməsi tədbirləri haqqında Süleyman Dəmirəl və dövlət nazirləri ilə danışıqlar aparmış, bu danışıqlarda Naxçıvanın iqtisadi blokada şəraitində yaşadığı və Türkiyənin köməyinə ehtiyacı olduğu qeyd olunmuş-

[208] Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər. 1995, s. 316-317

[209] "Şərq qapısı" qəzeti. 1992, 17 iyun

[210] Şabanov M.S. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, s. 115

dur.[211] Danışıqlardan sonra Türkiyə Respublikası tərəfindən ayrılan kreditdən istifadə olunmasına başlanılmışdır. Kredit hesabına 1992-ci il sentyabrın 15-dən muxtar respublikaya 600 ton makaron, 200 ton zeytun yağı, 100 ton kərə yağı, 282 ton quş əti, 117 ton düyü gətirilmişdir.[212] "Qızıl Ay" cəmiyyəti vasitəsi ilə də 1992-ci ilin avqustun 15-dən başlayaraq 100 ton un, 700 kq günəbaxan yağı, 7850 kq şəkər tozu, 9300 kq makaron, 1630 kq qovurma, 810 kq toyuq əti gətirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 7 dekabr 1992-ci il tarixli qərarında göstərilir ki, Türkiyə Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına ərzaq malları alınması üçün ayrılmış kredit hesabına son dörd ayda muxtar respublikaya 293 ton mal əti, 250 ton kərə yağı, 700 ton marqarin, 363 ton günəbaxan yağı, 460 ton toyuq əti, 2283 ton şəkər tozu, 400 ton düyü, 600 ton makaron, 6000 ton un gətirilmişdi.[213]

Ümummilli lider Heydər Əliyevin Türkiyə Respublikasına dövlət səfəri 1993-cü il aprelin 19-25-də oldu. Bu səfər Türkiyə Respublikasının prezidenti Turqut Özalın vəfat etməsi ilə əlaqədar idi. Ulu öndər Heydər Əliyev keçirilən matəm tədbirlərində iştirak etmiş, aprelin 23-24-də Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişaf etdirilməsi və blokadadan çıxarılması məsələlərini Baş nazir S.Dəmirəl ilə müzakirə etmişdir. Əməkdaşlıq protokoluna əsasən veriləcək 100 milyon dollardan 25 milyonundan yaxın günlərdə istifadəyə başlanacağı barədə qərar qəbul edildi. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2 min ton buğda və "Qızıl Ay" cəmiyyəti tərəfindən 2330 ton ərzaq malları gətirilməsi haqqında razılıq əldə edildi.[214]

[211] "Şərq qapısı" qəzeti. 1992, 26 sentyabr
[212] Şabanov M.S. Azərbaycan tarixində Heydər Əliyev mərhələsi. Bakı: Nurlan, 2005, s. 116
[213] Hüseynova İ.M. Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, s. 151; Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 306
[214] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 737



Naxçıvanın blokadada olduğu vaxtlarda Türkiyə ilə Naxçıvanın əlaqələri əsasən qonşu dövlətin muxtar respublikaya maddi və ərzaq yardımı formasında həyata keçirilirdi. Lakin həmin dövrdə Naxçıvan Muxtar Respublikasının Türkiyə Respublikası ilə mədəni əlaqələri də qurulmuşdu.

Heydər Əliyevin səyləri nəticəsində iki tərəfin mədəniyyət kollektivlərinin qarşılıqlı qastrolları təşkil edilirdi. 1991-ci ilin I yarısında Naxçıvan Dövlət Filarmoniyasının 20 nəfərlik heyəti Türkiyənin müxtəlif şəhərlərində qastrol səfərində olmuşdu. Daha sonra Naxçıvanın özfəaliyyət kollektivlərinin qonşu ölkədə çıxışları olmuşdu. 1992-ci ilin avqust-sentyabr aylarında Türkiyənin Atatürk Tanıtım Mərkəzi ilə birgə muxtar respublikada "Ümid körpüsü" adı altında bayram şənliyi təşkil olunmuş, 1993-cü ilin aprelində isə Naxçıvan Dövlət Filarmoniyası və Musiqili Dram Teatrının heyətləri Qars şəhərində səfərdə olmuşlar.

İki tərəfli mədəni əlaqələrdə təhsil əlaqələri də mühüm yer tuturdu. Təhsili millətin gələcəyi hesab edən Heydər Əliyev muxtar respublikada maarifin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması üçün bütün imkanlardan istifadə etməyə çalışırdı. Məhz onun təşəbbüsü ilə Türkiyə Respublikası ilə 24 mart 1992-ci ildə bağlanmış protokolda 100 nəfər naxçıvanlı gəncin qonşu dövlətlərin ali məktəblərində təhsil almasını nəzərdə tutan müddəa öz əksini tapmışdı.[215] Həmin müqaviləyə uyğun olaraq Türkiyə Yüksək Öyrətim Seçim Qurumunun nümayəndələri muxtar respublikada 357 gəncin içərisindən Türkiyənin müxtəlif universitetlərində təhsil almaq üçün 75 abituriyent seçmişdi.[216]

1992-ci il oktyabrın 5-də Türkiyədə təhsil almağa gedən tələbələrlə görüşən Heydər Əliyev bunu Naxçıvanın həyatında mühüm hadisə adlandıraraq, naxçıvanlı gənclərə azərbaycanlı adını yüksək tutmağı, yüksək elmə, ixtisasa yiyələnməyi, türk dili ilə yanaşı əcnəbi dilləri də öyrənməyi tövsiyyə edirdi.[217]

[215] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 617
[216] Yenə orada, s. 283
[217] "Şərq qapısı" qəzeti, 1992, 7 oktyabr

Təhsil əlaqələrində Naxçıvan Dövlət Universitetinin xüsusi yeri vardır. 1991-93-cü illərdə Naxçıvan Dövlət Universiteti Türkiyə Respublikasının İstanbul, Ankara, Ərzurum, Qars universitetləri ilə əlaqə yaratmış, rəsmi protokol imzalamışdı.

**Naxçıvan-İran əlaqələri.** Naxçıvan Muxtar Respublikasının blokadadan çıxmasında, sosial-iqtisadi problemlərinin həllində İran İslam Respublikası ilə əlaqələrin yaradılması da müsbət rol oynadı. Azərbaycanın müstəqilliyinin ilk dövründə İran İslam Respublikası ilə münasibətlərdə müəyyən soyuqluq yaransa da, Heydər Əliyevin müdrik siyasəti, Naxçıvanla İranın əlaqələrinin inkişaf etdirilməsi bölgənin düşdüyü böhrandan çıxmasına, həm də Azərbaycan-İran əlaqələrində tarazlığın təmin edilməsinə şərait yaratdı.

Naxçıvan Azərbaycan-İran siyasi, iqtisadi, mədəni münasibətlərində mühüm rol oynayırdı. Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı düşməsi və buna görə də kommunikasiya-nəqliyyat əlaqələrinin İran ərazisi vasitəsi ilə həyata keçirilməsi Naxçıvanı Azərbaycan-İran əlaqələrində təkanverici amilə çevirmişdir.[218]

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə əlaqələri 1991-ci ildən daha intensiv xarakter almışdı. Həmin ildə İran İslam Respublikasının, onun vilayətlərinin nümayəndələrinin Naxçıvana gəlməsi, Ali Məclisin Sədri Heydər Əliyevlə görüşləri tərəflərin daha da yaxınlaşmasına şərait yaratmışdı.[219]

Ulu öndər Heydər Əliyevin nüfuzu İranda çox böyük idi. Ali Məclisin Sədri seçildikdən sonra İranla Naxçıvan arasında siyasi, iqtisadi, mədəni əlaqələr genişlənməyə başladı. İranın "Hilal Əhmər" xeyriyyə cəmiyyəti, "İmam Xomeyni" fondu və digər təşkilatları Naxçıvana humanitar yardım göstərir, bir sıra iqtisadi layihələr həyata keçirirdilər.

[218] Rəhimov R.V. Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri (1991-2001-ci illər). Tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Naxçıvan: Qeyrət. 2002. s. 16-17

[219] "Şərq qapısı" qəzeti, 1991. 12 noyabr



Heydər Əliyev Ali Məclisin Sədri kimi fəaliyyətə başladığı ilk dövrlərdə Mərənd fərmandarı və Şərqi Azərbaycan ostandarı Rza İbadini və Əkbər Pəhrizkarı qəbul etmiş, Naxçıvana qaz, elektrik enerjisi verilməsi və digər məsələlər müzakirə edilmişdi.[220]

1991-ci il oktyabrın 1-də İran hökumət orqanları ilə aparılan danışıqlar nəticəsində Naxçıvan Muxtar Respublikasının əhalisi üçün ərzaqla və yanacaqla yüklənmiş avtomobil karvanlarının öz ölkəsinin ərazisindən buraxılmasına razılıq verildi. Oktyabrın 8-də İran İslam Respublikasına məxsus iri tonnajlı 20-yə yaxın avtomaşın Culfa körpüsündən keçərək Naxçıvana 200 tona qədər kənd təsərrüfatı məhsulları gətirdi. Oktyabrın 16-da Naxçıvan MR üçün ilk avtomobil karvanı Astaradan İran ərazisi vasitəsilə Culfaya daxil oldu.

Dekabrın 4-də İran İslam Respublikası Şərqi Azərbaycan vilayətinin ostandarı Əkbər Pəhrizkarı Naxçıvanda Ali Məclisin Sədri ilə görüşdü. Söhbət zamanı iki qonşu xalq arasında ictimai, mədəni əlaqələri və ticarət əlaqələrini genişləndirməyin əhəmiyyətindən danışıldı. Həmin əlaqələr çərçivəsində İran İslam Respublikası ərazisindən dəmir yolu və rabitə xətlərinin çəkilməsi nəzərdə tutulurdu.

İran İslam Respublikasının ən iri şirkətlərindən olan "Azərlab"ın başçısı doktor Zeynalabdin Mücahidi dekabrın 11-də Naxçıvana gəldi və Ali Məclisin Sədri Heydər Əliyevin qəbulunda oldu. Z.Mücahidinin məqsədi muxtar respublika ilə mal mübadiləsi aparmaq, naxçıvanlıların dərman, tibb ləvazimatı və cihazlara olan ehtiyaclarını ödəməyə kömək etmək idi.[221]

Dekabrın 30-da İran İslam Respublikasının Maku şəhərinin fərmandarı Məhərrəm Allahverdizadə, Mərənd şəhəri fərmandarının müavini Cəfər Firuzi və fərmandarın müşaviri Əli Sabunçu Naxçıvan MR Ali Məclisinin Sədri ilə görüşdə sərhəd-

[220] "Şərq qapısı" qəzeti, 1991. 12 noyabr; 1991, 6 dekabr

[221] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçı-van səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil. 2012. s. 123-124

yanı ticarətin təşkilini müzakirə etdilər və Naxçıvan sakinlərinə hər cür kömək göstərməyə hazır olduqlarını bildirdilər.

İran İslam Respublikasının ən iri şirkətlərindən olan "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" nümayəndə heyəti 1992-ci ilin yanvarında Naxçıvana gəldi və Heydər Əliyevlə görüşdülər. Qonaqlar Naxçıvanda şirkətin sənaye və ticarət nümayəndəliyini açmaq, müxtar respublikanı azad iqtisadi rayona çevirmək üçün proqram hazırlamaq və onu həyata keçirmək, burada yeni kərpic zavodu tikmək, sənaye müəssisələrini modernləşdirmək niyyətində olduqlarını bildirmişlər.

1992-ci il yanvarın 23-də İran İslam Respublikasının Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliyinin əməkdaşları və yanvarın 29-da "Qırmızı Aypara" Cəmiyyətinin sədrinin səlahiyyətli nümayəndəsi Əhməd Rəfiyi Ali Məclisin Sədri tərəfindən qəbul edildi. Naxçıvana göstəriləcək köməyin yolları müzakirə edildi. Naxçıvanda və Təbrizdə konsulluqların yaradılması haqqında razılıq əldə olundu. 1992-ci il martın 8-də İran İslam Respublikasının Naxçıvanda konsulluğu açıldı.[222] İran İslam Respublikasının müxtəlif şirkətləri Naxçıvana kənd təsərrüfatı və ərzaq məhsulları, generatorlar, özünümüdafiə dəstəsinin əsgərləri üçün qış geyimləri, ət, kolbasa məmulatları gətirmişdilər.

Ümummilli lider Heydər Əliyev İranın rəsmi nümayəndələri ilə görüşlərində onların diqqətini Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinə, Dağlıq Qarabağ münaqişəsinə, Naxçıvanın düşdüyü ağır hərbi-siyasi, iqtisadi vəziyyətinə yönəldir, İranı Azərbaycanın ədalətli mövqeyini müdafiə etməyə və Ermənistana təsir göstərməyə çağırırdı.

1992-ci ilin aprelində İran İslam Respublikasının XİN-in müşaviri Şeyx Əttar Qarabağ münaqişəsinin həllində İranın vasitəçilik missiyası ilə əlaqədar Naxçıvana gələrək ulu öndərlə görüşmüşdü. Heydər Əliyev İranın bu təşəbbüsünün faydalı olacağına ümid bəsləsə də, bu vasitəçilik heç bir nəticə verməmiş,

[222] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 775



əksinə bir aydan sonra Tehranda yüksək səviyyəli Azərbaycan-Ermənistan görüşü keçirilərkən Azərbaycanın Şuşa şəhəri işğal edilmişdi. Eyni zamanda Ermənistan ordusu Naxçıvan Muxtar Respublikasının sərhəd ərazilərini ələ keçirmək üçün cəhdlər göstərmişdi.

İran İslam Respublikasının XİN-in müavini Vairini Naxçıvanda qəbul edən Ali Məclisin Sədri bildirmişdi ki, biz Tehranda Ermənistan-Azərbaycan rəhbərlərinin görüşünə böyük ümid bəsləyirdik. Lakin həmin günlərdə Şuşada baş verən hadisələr, Azərbaycanın bu qədim mədəniyyət mərkəzinin erməni silahlı qüvvələri tərəfindən işğalı bizi çox pərişan etdi. Bu, Azərbaycan üçün çox faciəli haldır.[223]

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə siyasi, iqtisadi, mədəni əlaqələrin yeni mərhələyə qalxmasında ümummilli lider Heydər Əliyev başda olmaqla muxtar respublikanın nümayəndə heyətinin İran İslam Respublikasına səfərinin mühüm rolu oldu. 1992-ci ilin avqustunda ulu öndər İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayətinin dəvəti ilə bu ölkəyə səfər etdi. Səfər müddətində ulu öndər İran İslam Respublikasının dini lideri C.Ə.Xamneyi, prezident Ə.Ə.Haşimi Rəfsəncani, parlamentin sədri N.Nuri, xarici işlər naziri Ə.Ə.Vilayəti, digər məsul şəxslərlə görüşmüş, Azərbaycanda, Naxçıvanda baş verən proseslər, Dağlıq Qarabağ münaqişəsi haqqında onlara ətraflı məlumat vermişdi. Səfərin yekununda Naxçıvan MR ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında protokollar imzalanmışdı.[224] İmzalanmış protokollarda qarşılıqlı siyası, iqtisadi, ticarət və mədəni əlaqələrin genişləndirilməsini nəzərdə tutan, Naxçıvan MR-in böhran vəziyyətindən çıxarılması və muxtar respublika əhalisinə kömək göstərmək məqsədi ilə bir çox məsələlər üzrə razılıq əldə edilmişdir. Protokolların maddələrində İran İslam Respublikasının Naxçıvanda baş konsulluğunun açılması, ticarət nümayəndəliyinin, birgə

[223] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 633-634
[224] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 658-665

müəssisələrin təşkili nəzərdə tutulur, ticarət qaydalarının yüngülləşdirilməsi, gömrük siyasətinin liberallaşdırılması və s. tədbirlərin həyata keçirilməsi, mədəniyyət, elm, təhsil, məktəb və s. sahələrdə əlaqələrin genişlənməsi, Naxçıvan MR-ə 200 milyon kv/saat enerji verilməsi, yük və sərnişin daşınmasının genişləndirilməsi, vətəndaşların keçidi üçün Qərbi Azərbaycanın Poldəşt və Naxçıvanın Şahtaxtı kəndi yaxınlığında Araz çayı üzərində körpünün açılması, Xoy-Culfa qaz kəmərinin tikintisi, yüklərin avtomobil vasitəsilə Culfa-Xudafərin yolu ilə daşınması, eləcə də Naxçıvan MR əhalisinin ərzaq və yanacaq ehtiyaclarını ödəmək üçün İran İslam Respublikası tərəfindən müvafiq tədbirlər görülməsi öz əksini tapmışdı.[225]

Ulu öndər Heydər Əliyevin İran İslam Respublikasının "Bonyade Mostezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla imzaladığı protokola görə fond tərəfindən Naxçıvanda bir sıra iqtisadi və humanitar layihələrin həyata keçirilməsi nəzərdə tutulmuşdu.[226]

Nəzərdə tutulmuş bütün işlərin maliyyələşdirilməsi bütövlükdə İran tərəfinin üzərinə qoyulmuşdu. Bu isə heç də asan olmamışdı. Yalnız ulu öndərin ağıllı diplomatiyası sayəsində bütün məsələlər Naxçıvan nümayəndə heyətinin irəli sürdüyü təkliflər əsasında öz həllini tapmışdı. Xüsusən Naxçıvana qaz kəmərinin çəkilişi, elektrik enerjisinin verilməsi, İran ərazisindən keçməklə Azərbaycana nəqliyyat vasitələrinin hərəkəti və başqa məsələlərdə Naxçıvan liderinin şəxsiyyətinə İran tərəfi xeyli güzəştə getməli olmuşdu. Ulu öndər Heydər Əliyev Naxçıvanı böhrandan çıxarmaq üçün İran İslam Respublikasının muxtar respublikaya humanitar yardım göstərməsi məsələsini də İran tərəfinin qarşısına qoymuş və onun razılığını almışdı.[227]

[225] HƏM. Eksponat 206, sənəd 144: Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan. 1996, s. 658-662

[226] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan. 1996, s. 658-665

[227] Qasımov Ə.Q. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının inkişaf tarixi (1969-2003-cü illər). Bakı: Turxan NPB, 2013, s. 175



İran İslam Respublikası ilə imzalanmış protokola əsasən, İran ərazisində Naxçıvanla Bakı arasında şose yolu açılmışdı.[228] Təbrizdən Naxçıvana ərzaq yardımı ilə dolu 22 vaqondan ibarət ilk qatar göndərildi.[229] İrandan Naxçıvana 42 meqavoltluq elektrik xətti çəkildi.[230] 1992-ci ilin dekabrın 3-də Şahtaxtı-Poldəşt keçid məntəqəsi açıldı.

Oktyabr-noyabr aylarında İran İslam Respublikasından 520 ton dizel yanacağı, 540 ton mazut, 220 ton kömür, 955 ton kartof, 350 ton un, 97 ton soğan göndərilmişdi. 1992-ci il dekabrın 3-də İran İslam Respublikasından Naxçıvana təqribən 30 mqvt gücündə elektrik enerjisinin verilməsinə başlanılmışdı.[231] İranla Naxçıvan arasında Poldəşt və Culfada müştərək bazarlar açıldı. Ümummilli lider Heydər Əliyevin gərgin əməyi, diplomatik fəaliyyəti sayəsində Naxçıvan Muxtar Respublikasının nəqliyyat, enerji blokadası yarıldı.

Martın 3-də ulu öndər Heydər Əliyev İranın Naxçıvanda Baş konsulu Məhəmməd Sadeq Turini qəbul etdi. M.S.Turi Naxçıvanda Baş konsul təyin edilməsi münasibəti ilə İran İslam Respublikasının XİN-nin məktubunu təqdim etdi. Onlar qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər. Baş konsul hər il Naxçıvandan 300 nəfər tələbənin İran dövlətinin vəsaiti hesabına orada təhsil almasına, naxçıvanlı həkimlərin müəyyən müddətdə İrana göndərilməsi üçün hər iki tərəfdən işin sürətləndirilməsinin vacibliyini qeyd etmişdir.

1993-cü il martın 16-da ulu öndər Heydər Əliyev İranın Xarici İşlər naziri Ə.Ə.Vilayətinin dəvəti ilə İrana rəsmi səfərə yola düşdü. Həmin gün Əli Əkbər Vilayəti, martın 17-də İran prezidenti Əli Əkbər Haşimi Rəfsəncani, Energetika naziri Qulamrza Zəngani, Kooperasiya naziri Qulamrza Şafeyi, "Bonyade Möstezəfan və Canbazane Enqelabe Eslami" fondunun prezidenti Möhsen Rəfiqdustla görüşləri keçirildi. Görüşlərdə

[228] AR MMA, f.2941, siy.1a, iş 1, v. 12

[229] "Şərq qapısı" qəzeti, 1992, 21 oktyabr

[230] Yenə orada, 1992, 9 dekabr

[231] AR MMA, f.2941, siy.1a, iş 1, v. 30-31

İran ilə Azərbaycan arasında əlaqələrin bütün sahələrdə inkişaf etdirilməsi və genişləndirilməsi barədə fikir mübadiləsi aparıldı, İran ilə Naxçıvan arasında bağlanan 24 avqust 1992-ci il tarixli müqavilənin həyata keçirilməsi, Naxçıvanın ağır blokada şəraitində yaşaması ilə əlaqədar yaranmış problemlərin İran vasitəsilə həll olunması yolları müzakirə edilərək razılıq əldə olundu. Görüşdə İrandan Naxçıvana ərzaq məhsulları, xüsusən un və buğda, yanacaq malları göndərilməsi, elektrik enerjisinin müntəzəm verilməsi və artırılaraq 40 meqavata çatdırılması, Bakı ilə Naxçıvan arasında gediş-gəlişi asanlaşdırmaq üçün Araz boyu qısa məsafədə İran ərazisindən keçən yolun inşasının 15-20 günə başa çatdırılması və istifadəyə verilməsi üçün lazımi tədbirlərin görülməsi, yaz tarla işlərinin aparılması məqsədilə Naxçıvana 1500 ton kartof toxumu, 500 ton arpa toxumu, kənd təsərrüfatı ləvazimatları göndərilməsi barədə razılıq əldə olundu.[232] Ulu öndər Heydər Əliyevlə Möhsen Rəfiqdust arasında 1992-ci il avqustun 24-də bağlanan müqavilənin şərtlərinin həyata keçirilməsini sürətləndirərək illik istehsal gücünün 60 mln. ədədə çatan kərpic zavodunun, Naxçıvan şəhərində müasir tələblərə cavab verən məscid binasının tikintisinin aprelin 15-dən başlanması, Naxçıvan şəhərində plastik qablar və xına sexinin tikilib istifadəyə verilməsi, Naxçıvan alt trikotaj fabriki və xalçaçılıq kombinatı üçün müxtəlif çeşiddə xammal göndərilməsi barədə razılıq əldə olundu.[233]

Sonra ulu öndər Heydər Əliyev Təbrizdə olmuş, Şərqi Azərbaycan ostandarı Ə.Əbdüləlizadə ilə martın 18-də əməkdaşlıq protokolu imzalamışdı. Müvafiq razılaşmalar həmçinin 1993-cü ilin mayın 13-də Naxçıvanda Qərbi Azərbaycan ostandarı Qurbanəli Səadətlə də bağlanmışdı.[234]

Ümummilli lider bütün mümkün variantlardan maksimum dərəcədə istifadə edərək, qonşu Türkiyə və İran dövlətləri ilə

[232] Cəfərov H., Mustafayev A. Milli müstəqillik və azadlıq uğrunda mübarizə tarixinin Naxçı-van səhifələri (XX yüzilliyin 80-90-cı illəri). Bakı: Elm və təhsil, 2012, s. 155
[233] Yenə orada, s. 155-156
[234] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 739-741



iqtisadi əlaqələr quraraq Naxçıvanı düşdüyü blokada vəziyyətindən çıxarmağa çalışırdı. Bu məqsədlə hər iki qonşu dövlətə dəfələrlə səfər edərək protokollar imzalamışdı. Bunun nəticəsində də Naxçıvan iqtisadi blokadanı yara bildi. Naxçıvan əhalisinin ərzağa olan tələbatı ödənilmiş oldu. Lakin bu görülən nəhəng işlərə başqa cür don geyindirmək istəyənlər də tapılırdı. Naxçıvan Muxtar Respublikası ümummilli lider Heydər Əliyev İran və Türkiyədən gələn yardımlar haqqında çıxışlarının birində demişdir: "Naxçıvanın bu ağır dövründə kim Naxçıvana hansı yardım göstərə bilərsə biz onu bəyənməliyik, onu alqışlamalıyıq. Bu baxımdan İran və Türkiyənin Naxçıvana yardımını başqa cür hallandırmaq naxçıvanlılara xəyanət etməkdir. Ona görə də mən bu cür şayiələri qərəzli hesab edirəm və bildirmək istəyirəm ki, Muxtar Respublikanın Ali Məclisi və onun sədri burada heç bir xüsusi siyasət yeritmir. Naxçıvanın İran, Türkiyə ilə əlaqələrinin hamısı Azərbaycanın İran və Türkiyə ilə olan əlaqələrinin tərkib hissəsidir. Bunlar hamısı Azərbaycanın Xarici siyasətinin tərkib hissəsidir".[235]

Bu baxımdan 24 avqust 1992-ci il tarixdə İran İslam Respublikası ilə bağlanmış müvafiq protokolları haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 18 sentyabr 1992-ci il tarixli qərarı səciyyəvidir. Həmin qərarın 11-ci maddəsində Naxçıvan MR ilə İran İslam Respublikası arasında bağlanmış əməkdaşlıq protokollarının Azərbaycan Respublikası Prezidentinə, Ali Sovetinə və Nazirlər Kabinetinə təqdim olunması nəzərdə tutulur. 8-ci maddədə isə Azərbaycan Respublikası Nazirlər Kabinetindən protokolların icrası ilə əlaqədar Azərbaycan Respublikasının müvafiq nazirliklərindən muxtar respublikaya lazımi köməklik göstərmələri barədə müvafiq qərarlar qəbul etmələri xahiş olunurdu.[236] 1993-cü ilin martında İran İslam Respublikasında səfərdə olarkən ulu öndər Heydər Əliyev əsl alicənablıq nümayiş etdirərək bütün görüşlər zamanı diplomatik protokol qaydalarına

[235] NMR AMA, f.1, siy.1, iş 57, v.16-17
[236] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 691-692

və etiketə uyğun olaraq Azərbaycan Respublikasının prezidenti Əbülfəz Elçibəyin İran İslam Respublikası rəhbərliyinə salamlarını və xoş arzularını çatdırmışdı.

Ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri işləyərkən Muxtar Respublikanın İran İslam Respublikası ilə mədəni və humanitar sahələrdə də əməkdaşlığa böyük diqqət yetirir, bütün görüşlərində bu sahədə əlaqələrin faydalılığını göstərirdi.

Onun 1992-ci il avqustun 24-də İran İslam Respublikasının xarici işlər naziri Ə.Ə.Vilayəti ilə bağladığı əməkdaşlıq protokolunun 17 maddəsindən 5-i tərəflər arasında mədəni, dini, təhsil əlaqələrinin genişləndirilməsini nəzərdə tuturdu. Burada muxtar respublika gənclərinin İranda, İran gənclərinin isə Naxçıvanda təhsil almaları üçün şərait yaradılması, informasiya mübadiləsi, Naxçıvan dindarlarının İranın müqəddəs yerlərinə ziyarətinin təşkili, Naxçıvan şəhərində məscid binasının tikintisi və digər məsələlərin həyata keçirilməsi daxil idi.[237]

Bağlanmış protokola uyğun olaraq 30 naxçıvanlı gənc İran İslam Respublikasının vəsaiti hesabına qonşu ölkəyə təhsil almağa göndərilmiş, 1993-cü ilin aprelində isə Naxçıvanda məscid tikintisinə başlanmışdı.

Naxçıvan MR-in və İİR-in mədəniyyət kollektivlərinin qarşılıqlı səfərləri intensiv xarakter daşıyırdı. 1992-ci ilin yanvarında Əli Səliminin başçılıq etdiyi "Təbriz" xalq çalğı alətləri orkestri Naxçıvanda konsert proqramı ilə çıxış etmiş, həmin ildə Naxçıvan Dövlət Filormoniyası İİR-də qastrolda olmuşdu.

İran İslam Respublikasının və Azərbaycan Respublikasının milli bayramlarının, dini bayramların birgə qeyd etmək sahəsində də razılıq əldə olunmuşdu. Maku və Urmiya Fərmandarlığı ilə Naxçıvan MR-in Mədəniyyət Nazirliyi arasında müqavilə də imzalanmışdı. Müvafiq razılaşmalara əsasən Maku və Urmiyada Naxçıvan günlərinin, Naxçıvanda isə Urmiya və Maku günlərinin keçirilməsi, muxtar respublika əhalisinə tibbi yardım, Naxçıvan-

[237] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 658-663



da fars dilinin tədrisinə və erməni təcavüzü nəticəsində yaralananların müalicəsi üçün lazımi köməklik göstərilməsi nəzərdə tutulmuşdu.[238]

Naxçıvanda böyük Azərbaycan şairi M.Şəhriyarın xatirəsinə həsr olunmuş beynəlxalq konqresdə (1993, aprel) İran İslam Respublikasının müxtəlif şəhərlərinin nümayəndələri də iştirak etmişlər.

Naxçıvan-İran mədəni, təhsil və elmi əməkdaşlığında Naxçıvan Dövlət Universitetinin İİR-in müxtəlif universitetləri ilə elmi-təhsil əlaqələri xüsusi yer tuturdu. 1991-ci ilin noyabrında Naxçıvan Dövlət Universiteti ilə Zəncan Universiteti arasında bağlanmış elmi-mədəni əlaqələrə dair müqavilə ilə elmi münasibətlərin əsası qoyulmuş, sonralar Təbriz Dövlət, Təbriz Azad İslam, Səhəng, Mərənd, Tehran universitetləri ilə sıx əməkdaşlıq əlaqələri formalaşmışdı.

**Naxçıvanın Qərb dövlətləri və beynəlxalq qurumlarla əlaqəsi.** Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olduğu dövrdə muxtar respublikanın dünyanın digər ölkələri və beynəlxalq qurumları ilə də münasibətlərinin əsası qoyuldu. O, Azərbaycan, onun tərkib hissələri olan Dağlıq Qarabağ və Naxçıvan ətrafında baş verən proseslər, Ermənistanın işğalçılıq siyasəti haqqında dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması, muxtar respublikanın sosial-iqtisadi, humanitar problemlərinə dünya dövlətlərinin, beynəlxalq birliyin diqqətini cəlb edə bildi. Azərbaycana gələn hər bir diplomat Naxçıvana gəlməyə, ulu öndərlə görüşüb onun mövqeyini öyrənməyə çalışırdı. Onun sayəsində Naxçıvan Muxtar Respublikası bütün dünya informasiya vasitələrinin diqqət mərkəzinə çevrilmiş, öz tarixi ərzində heç vaxt xarici diplomat qəbul etməmiş Naxçıvan şəhəri hər gün ulu öndər Heydər Əliyevlə görüşməyə can atan xarici nümayəndə heyətlərini qarşılamağa artıq vərdiş etmişdi.

[238] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 731-740

1991-ci il dekabrın 27-də ABŞ-ın Moskvadakı səfirliyinin əməkdaşları Ense G.Breyter və Obri A.Karlson ulu öndər Heydər Əliyevlə görüşən ilk amerikalı diplomatlar oldular. Heydər Əliyev Naxçıvanda gedən demokratik dəyişikliklər haqqında qonaqlara məlumat vermişdi. Bundan sonra, 1992-ci il aprelin 28-də ABŞ-ın Azərbaycanda ilk səfiri Robert Fin, həmin il iyulun 17-də yeni səfir Riçard Mayls Naxçıvanda Ali Məclisin Sədri ilə görüşmüşdülər. Heydər Əliyev hər iki səfirə Naxçıvanın ağır vəziyyəti haqqında məlumat vermiş və bunun əsas səbəbinin Ermənistanın Azərbaycana hərbi təcavüzü olduğunu qeyd etmişdi. Ali Məclisin Sədri eyni zamanda dünya ictimaiyyətində Azərbaycan, onun Naxçıvan bölgəsi haqqında obyektiv məlumat yayılmasına ehtiyac olduğunu söyləmişdir. Ulu öndər həmçinin Böyük Britaniyanın Azərbaycandaki səfiri H.Fomston, Fransanın səfiri J.Perre, BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səid və digər xarici nümayəndələrlə görüşündə onların diqqətini Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünə, qonşu dövlətin blokadaya saldığı Naxçıvanın ağır vəziyyətinə cəlb edir, böyük dövlətləri Ermənistan-Azərbaycan münaqişəsində obyektiv mövqe tutmağa çağırırdı.

Bill Klintonu Amerika Birləşmiş Ştatlarının Prezidenti seçilməsi münasibəti ilə təbrik edən ümummilli lider 20 yanvar 1993-cü il tarixli məktubla Ermənistanın Naxçıvanı iqtisadi blokadaya alması nəticəsində muxtar respublikada ağır iqtisadi vəziyyət yarandığını onun nəzərinə çatdırmış və ABŞ prezidentindən Naxçıvan MR-ə humanitar yardım göstərilməsini xahiş etmişdi. B.Klinton ulu öndərin bu məktubunu cavabsız qoymamış, Naxçıvana təcili yardım göstərmək barədə qərar qəbul etmişdi. ABŞ muxtar respublikaya 1993-cü ilin martında 1 milyon dollar dəyərində humanitar yardım göndərmişdi.

ABŞ-ın Naxçıvana humanitar yardım göstərməsinin bölgə əhalisinin sosial ehtiyaclarının aradan qaldırılmasına müəyyən köməkliyi ilə bərabər, həm də böyük siyasi əhəmiyyəti var idi. Çünki erməni lobbisinin təsiri altında ABŞ konqresinin Azərbaycana hər hansı yardımını qadağan edən bədnam 907-ci düzəlişi qəbul etməsindən sonra belə qərarın verilməsi ABŞ hökumətinin nüfuzunu bərpa edəcək bir addım olardı. Göstərilən yardımdan əlavə ABŞ-ın bir sıra hökumət və qeyri-hökumət təşkilatlarının nümayəndələri Naxçıvana gələrək vəziyyətlə yerində tanış olmuşdular.

1993-cü il mayın 19-da ABŞ Dövlət Departamentinin nümayəndəsi Robert Puli və ABŞ-ın Azərbaycandakı səfirliyinin şöbə müdiri Robert Silverman Naxçıvana gəlmiş və muxtar respublikaya yardımın davam edəcəyini bildirmişdilər. Bu təşkilatlardan biri – Amerika Beynəlxalq Yardım və İnkişaf Agentliyi Naxçıvana ilk yardım göstərmiş təşkilatlardan biri olmuşdu.[239]

ABŞ-ın Naxçıvana yardım göstərməsi Qərb dövlətlərinin də diqqətini cəlb etmiş, Böyük Britaniya və Fransa dövlətləri də Naxçıvana yardım göstərilməsi ilə bağlı qərar qəbul etmişdilər.[240]

Naxçıvana yardım göstərən ilk beynəlxalq təşkilatlardan olan BMT-nin müvafiq qurumları, birinci növbədə onun İnkişaf Proqramı olmuşdu. 1993-cü il martın 8-də ulu öndər Heydər Əliyevlə görüşən BMT-nin Qaçqınlarla iş üzrə Ali Komissarlığı Azərbaycandakı nümayəndəliyinin proqramlaşdırma məsələləri üzrə rəhbəri Lois Rovira naxçıvanlı qaçqınlara yardım göstəriləcəyi barədə məlumat vermişdi.

Heydər Əliyev BMT, NATO, Avropa Birliyi, ATƏM (indiki ATƏT-red.) və s. beynəlxalq qurumların diqqətini Naxçıvanda yaranmış vəziyyətə cəlb etməyə nail olmuşdu. Bunun nəticəsində BMT Təhlükəsizlik Şurası Ermənistanla yanaşı, Naxçıvana da ərzaq və yanacaq yardımı göstərilməsi ilə bağlı dünya dövlətlərinə müraciət etmişdi.[241]

Dünyanın ən nüfuzlu təşkilatlarından biri olan Avropa Birliyi də Naxçıvanın iqtisadi vəziyyətini öyrənmək və humanitar yardım göstərmək üçün buraya öz nümayəndələrini göndərmişdi.

[239] Məmmədov M. Naxçıvan: dövlət müstəqilliyi uğrunda mübarizənin dayağı. Bakı: Şirvannəşr, 2011. s. 123
[240] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 718-724
[241] Yenə orada, s. 708

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin məqsədyönlü siyasəti, müdrik fəaliyyəti, böyük dövlətçilik təcrübəsi, xalqın ona olan sarsılmaz inamı və dəstəyi Naxçıvanı real erməni işğalından xilas etdi və blokadanın aradan qaldırılmasına, əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına öz müsbət təsirini göstərdi.

### 2.6. Naxçıvanda dövlət çevrilişinə cəhd

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Mövcud siyasi böhran aradan qaldırıldı, iqtisadi islahatlar həyata keçirildi, sahibkarlığın inkişafı üçün müəyyən şərait yaradıldı, hərbi quruculuq məsələlərinə xüsusi diqqət verildi. Naxçıvanda mütəmadi hal almış erməni hücumlarının qarşısı alındı.

Heydər Əliyevin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırdı. AXC hakimiyyəti isə Naxçıvan Muxtar Respublikasında hakimiyyət çevrilişi etmək, qeyri-demokratik yolla hakimiyyəti dəyişmək cəhdləri edirdi. İstər A.Mütəllibov, istərsə də onu əvəz etmiş Ə.Elçibəy hakimiyyəti Naxçıvana ögey münasibətdə idilər. Naxçıvanı taleyin ümidinə buraxmışdılar. Hər iki hakimiyyətin Naxçıvanla bağlı siyasəti siyasi ambisiyalardan uzağa getmirdi.

AXC-Müsavat iqtidarının apardığı uğursuz daxili və xarici siyasət, kadr siyasətindəki kobud səhvlər ölkənin vəziyyətini daha da ağırlaşdırdı. Demək olar ki, bütün dövlət strukturlarına kifayət qədər savad və səriştəyə malik olmayan cəbhəçilər təyin edildi. Onların arasında naşı adamlar daha çox idi. Ulu öndər bunu "nəinki səhv, eyni zamanda xalqın gələcəyi üçün böyük təhlükəyə aparan yol kimi" qiymətləndirir, ölkənin siyasi həyatında, dövlət strukturlarında AXC-nin monopoliyasını qəbuledilməz hesab edirdi.[242]

[242] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 319



AXC-nin ümummilli lider Heydər Əliyevin şəxsiyyətinə, onun Naxçıvanda apardığı tarazlı siyasətinə qarşı qısqanc, qərəzli münasibətinin təzahürləri bu təşkilatın hələ hakimiyyətə gəlməsi ərəfəsində özünü büruzə verməyə başlamışdı. Bu, özünü həm Heydər Əliyevin böyük etimad göstərib Naxçıvanda ali vəzifələrə təyin etdiyi bəzi cəbhəçilərin onun fəaliyyətinə maneçilik göstərmələrində, həm də Bakıdakı cəbhə nümayəndələrinin Naxçıvanda baş verən hadisələri qeyri-obyektiv qiymətləndirərək ictimai rəydə mənfi fikir yaratmaqlarında göstərirdi.

Naxçıvanı Azərbaycan üçün "kor bağırsaq" hesab edən A.Mütəllibov hakimiyyəti əldə saxlamaq üçün antikonstitusion tədbirlərə əl atmış, Azərbaycan Konstitusiyasına (112-ci maddə) və "Azərbaycan Respublikasının prezidentinin seçkiləri haqqında" Qanuna (1-ci və 7-ci maddələr) yaşı 65-dən yuxarı olmayan və son beş ildə respublikada yaşayan şəxslərin prezident seçilmək hüququnu təsbit edən qeyri-humanist maddə saldırmışdı.[243] Hamıya aydın idi ki, bu maddələr xalqımızın böyük oğlu Heydər Əliyevə qarşı nəzərdə tutulmuşdu. A.Mütəllibovun istefasından sonra Azərbaycanda faktiki olaraq hakimiyyətə yiyələnmiş AXC-Müsavat cütlüyü qanunvericilikdə konkret bir şəxsə qarşı yönəlmiş antidemokratik müddəaları qüvvədə saxlayaraq ulu öndərin respublikada ali hakimiyyətə qaytarmaq ideyasına qarşı çıxdılar.

1991-ci ilin iyunun 7-nə təyin edilmiş prezident seçkilərində ümummilli lider Heydər Əliyevin iştirakını istisna edən həmin maddələr cəbhəçilərlə kommunistlərin birgə səyi sayəsində qanunda saxlandı. Lakin Azərbaycanın bütün bölgələrində əhali mitinq və nümayişlər keçirərək respublikanı düşdüyü ağır vəziyyətdən çıxara biləcək yeganə şəxsin Heydər Əliyev olduğunu bildirir, Azərbaycan Ali Sovetindən prezident seçkiləri haqqında qanundan həmin maddələrin çıxarılmasını tələb edir, yekdilliklə böyük siyasətçini Azərbaycan Respublikasının prezidentliyinə namizəd irəli sürürdülər. Müvafiq tələblər Azərbaycan

[243] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s. 92

Ali Sovetinin binası qarşısında həmin ilin aprelin sonu, mayın əvvəllərində keçirilən mitinqlərdə də səsləndirilirdi.[244]

1992-ci il mayın 18-də Azərbaycan Ali Sovetinin növbədənkənar sessiyasında Ali Sovetin sədri seçilərkən bu posta Heydər Əliyevin də namizədliyi irəli sürüldü. Bəzi deputatların təkidi ilə Heydər Əliyevdən parlamentin başçısı vəzifəsinə səsə qoyulmasına razılıq almaq üçün telefon əlaqəsinə cəhd edilsə də, iqtidarda olan qüvvələr əlaqə qurmağın mümkün olmadığını elan etdilər. Cəbhəçi deputatların və keçmiş kommunistlərin gizli birliyi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsinin qarşısını bu yolla aldı.[245]

Cəbhəçilər Naxçıvanda rəhbərliyin fəaliyyətinə mane olmaq üçün bütün vasitələrə əl atırdılar. Onlar 1992-ci il avqustun 8-nə təyin edilmiş Ali Məclisin sessiyasında iştirak etməyərək onun işini pozdular.

AXC Naxçıvanda da hakimiyyəti ələ almaq istəyirdi. Onlar Baş nazir vəzifəsini ələ keçirərək Becan Fərzəliyevin həmin vəzifəyə təyin edilməsinə nail olmuşdular. Lakin bu onları qane etmirdi. Onlar əsas vəzifəyə - Muxtar Respublika Ali Məclisinin sədri vəzifəsinə yiyələnmək istəyirdilər. Ona görə də istər respublika rəhbərliyinin, istərsə də Naxçıvandakı cəbhəçilərin əsas məqsədi Naxçıvanda vəziyyəti gərginləşdirmək, müxtəlif təxribatlar törətmək yolu ilə Heydər Əliyevi Ali Məclisin sədri vəzifəsindən uzaqlaşdırmaq idi. Onların bu cəhdləri boşa çıxandan sonra çevriliş etmək yolunu tutdular. O vaxtkı daxili işlər naziri İsgəndər Həmidov polisin əli ilə bu işi reallaşdırmağa çalışdı.

İyul ayının axırlarından Xalq Cəbhəsi qüvvələrinin müxtəlif yollarla polisi siyasətə cəlb etmək, ondan öz siyasi məqsədləri naminə istifadə etmək cəhdləri göstərildi.[246]

Azərbaycan Respublikasının daxili işlər naziri İsgəndər Həmidov Naxçıvana gəlir və avqustun 20-21-də Naxçıvan MR

[244] "Şərq qapısı" qəzeti, 1992, 30 aprel
[245] Məmmədov M. Naxçıvan: 1992-ci ilin payızı. Dövlət çevrilişinə ilk cəhd /"Azərbaycan" qəz., 1997, 23 oktyabr.
[246] "Azərbaycan" qəzeti, 1997, 23 oktyabr



Ali Məclisində olur.[247] O, Naxçıvan MR Ali Məclisinin Sədri Heydər Əliyevlə görüşüb söhbət edir. Görüşdə İ.Həmidov muxtar respublikanın Daxili İşlər naziri M.Məmmədovun işdən azad olunması, bu vəzifəyə daha təcrübəli, daha bacarıqlı bir adamın təyin edilməsi zərurətindən danışır. Ulu öndər Heydər Əliyev onun bu fikri ilə razılaşır. Söhbət zamanı belə bir razılıq əldə edilir ki, Naxçıvan MR-in Daxili İşlər naziri M.Məmmədov vəzifəsindən azad edilərək Bakıya işə keçirilsin. Muxtar respublikanın Daxili İşlər nazirinin birinci müavini Ə.Ələkbərova nazir vəzifəsi həvalə edilsin.[248] İ.Həmidov isə bu vəzifədə AXC-nin fəal üzvü S.Mustafayevi görmək istəmiş, 18 avqust 1992-ci ildə 1718 nömrəli əmr vermişdi. Heydər Əliyevlə söhbətdən sonra bu vəzifəyə kadr təyin etməyin onun səlahiyyətinə aid olmadığını bilib, bu məsələni hələlik açmamışdı.[249] Heydər Əliyev İranda olarkən İ.Həmidov S.Mustafayevin nazir təyin olunması haqqında əmri Naxçıvan MR DİN-nə göndərmişdir. Naxçıvan Muxtar Respublikası DİN-nin polis əməkdaşları bu təyinatı qəbul etməmişdir. 1992-ci il sentyabrın 1-də Azərbaycan Daxili İşlər nazirinin müavini R.Quliyevin iştirakı ilə Naxçıvan Muxtar Respublikası DİN-in polis əməkdaşlarının iclası keçirilmiş və bu iclasın etiraz bəyanatını Azərbaycan və Naxçıvan MR rəhbərliyinə göndərmişlər.[250] Naxçıvan MR Daxili İşlər Nazirliyinin polis əməkdaşlarının hüquq və şərəfini qoruyan Müdafiə Komitəsi Respublika Prezidentinə, Ali Sovetə və Baş Prokurora müraciət etmişdi.[251]

1992-ci il sentyabrın 15-də muxtar respublikanın Nazirlər Kabineti Naxçıvan MR Daxili İşlər nazirinin müavini, polis polkovniki Ələkbərov Əsgər Ələsgər oğlunun Naxçıvan MR Da-

[247] Səmədov A. Azərbaycanın qurtuluş tarixi. Dörd clddə. I cild. Bakı: Ozan. 2004, s. 242
[248] "Azərbaycan" qəzeti, 1997, 23 oktyabr
[249] Məmmədov M. Naxçıvan: 1992-ci ilin payızı. Dövlət çevrilişinə ilk cəhd /"Azərbaycan" qəz., 1997, 23 oktyabr.
[250] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 383-385
[251] Yenə orada, s. 385-389

xili İşlər naziri vəzifəsinə təyin etmək üçün Ali Məclisə təqdimat verdi.[252]

Naxçıvan MR Ali Məclisinin 1992-ci il 17 sentyabr tarixli sessiyasi Naxçıvan MR Daxili İşlər naziri vəzifəsini müzakirə etdi. Namizədlərin adları gündəliyə salındı. Alternativ qaydada seçki keçirildi. Ə.Ələkbərov 86 səsdən 69 səs, S.Mustafayev isə 3 səs topladı. Ə.Ələkbərov Naxçıvan MR Daxili İşlər naziri vəzifəsinə seçildi.[253] AXC-nin Naxçıvanda DİN rəhbərliyini qeyri-qanuni yolla yiyələnmək üçün polisi ələ keçirməsi taktikası baş tutmadı.

Qeyri-qanuni iddialardan əl çəkməyən İ.Həmidovun 1992-ci il sentyabrın 17-də, 601№-li əmri ilə yeni təyin olunmuş nazir Ə.Ələkbərov da daxil olmaqla nazirliyin bir qrup əməkdaşı daxili işlər orqanlarından xaric edildilər.[254]

1992-ci il oktyabrın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin və Muxtar Respublikanın Nazirlər Kabineti Rəyasət Heyətinin birgə yığıncaqlarında Naxçıvan Muxtar Respublikasının DİN-də yaranmış vəziyyət haqqında məsələ müzakirə edildi.[255] Yığıncaqda qeyd edildi ki, son iki ay müddətində muxtar respublikanın DİN-də, onun yerli orqanlarında yaranmış qeyri-normal vəziyyət polisin cinayətkarlığa qarşı mübarizə sahəsindəki fəaliyyətinə mənfi təsir göstərmiş, Muxtar Respublikada ictimai-siyasi şəraitin gərginləşməsinə səbəb olmuşdur. Haqsız iddialardan əl çəkməyən daxili işlər naziri 14 oktyabrda telefonla Naxçıvan Muxtar Respublikasının DİN-ə zəng vuraraq xəbərdarlıq etmişdi ki, əgər onun əmri ilə işdən çıxarılmış rəhbər polis işçiləri üç gün müddətində tutduqları vəzifədən azad olunmasalar, o, Naxçıvana gələcək və güc tətbiq etməklə istədiyinə nail olacaqdır.

[252] Səmədov A. Azərbaycanın qurtuluş tarixi. Dörd cilddə. I cild. Bakı: Ozan, 2004, s. 247
[253] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 388
[254] Məmmədov M. Naxçıvan: 1992-ci ilin payızı. Dövlət çevrilişinə ilk cəhd /"Azərbaycan" qəz., 1997, 23 oktyabr.
[255] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 390-397



Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabinetinin Rəyasət Heyətləri nazirin bu hədə-qorxusuna qəti etirazını bildirmiş və bəyan etmişdilər ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiya hüquqları toxunulmazdır və muxtar respublika qanuni hakimiyyət orqanları tərəfindən müdafiə olunacaqdır.[256]

Muxtar Respublika DİN-in fəaliyyətinə aid məsələlərin obyektiv müzakirəsində və həllində Azərbaycanın yuxarı instansiyalarının biganəliyi Naxçıvan MR-də sabitliyi pozmaq istəyən Azərbaycanın bəzi dairələrinin qəsdən bu istiqamətə yönəldilmiş cəhdi kimi qiymətləndirilmişdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında muxtar respublikada dövlət quruculuğu, hakimiyyət və idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görüldü. Naxçıvan əhalisinin tam böyük əksəriyyəti Heydər Əliyevin siyasətini dəstəkləyir və ona yaxından kömək göstərirdi. Ulu öndərin müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona olan ümidləri artırırdı.

AXC-Müsavat hökuməti isə onun siyasətini seperatçılıq kimi qiymətləndirir və Naxçıvan MR-də hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd edirdi. Naxçıvanda sifarişi Bakıdan alan qüvvələr öz pozuculuq fəaliyyətlərini daim davam etdirirdilər. Onlar ulu öndər Heydər Əliyevə qarşı təxribat törətmək üçün cəhdlər edirdilər. 1992-ci il oktyabrın 24-də Naxçıvanda xalq cəbhəsinə məxsus silahlı dəstələr Muxtar Respublika Daxili İşlər Nazirliyi, Televiziya və Radio Verlişləri Komitəsi, Rabitə İdarəsi, şəhər elektrik şəbəkəsi binalarını, habelə televiziyanı zəbt edib hakimiyyət əleyhinə bəyanat verdilər.[257] 24 oktyabr çevriliş cəhdinə ümumi rəhbərliyi o vaxt Naxçıvandan Azərbaycan Ali Sovetinə deputat seçilmiş F.Quliyev həyata keçirirdi. Təşkilatçılıq işlərinə və çevrilişçi dəstələrə AXC Naxçıvan şöbəsinin sədri A.Quliyev,

[256] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 396
[257] "Şərq qapısı" qəzeti, 1992, 28 oktyabr

Naxçıvanda Daxili İşlər naziri olmaq istəyən cəbhəçi S.Mustafayev rəhbərlik edirdi.[258] Çevriliş cəhdində AXC Naxçıvan vilayət şöbəsinin 300 nəfərə yaxın silahlı dəstəsi iştırak edirdi.[259] Lakin xalq çevriliş cəhdini dəstəkləmədi. Əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Hətta Nehrəm, Cəhri kəndlərindən adamlar piyada Naxçıvan şəhərinə yürüş etdilər. Qısa bir vaxtda 50 mindən çox adam ulu öndəri müdafiə etmək üçün Ali Məclis binasının qarşısına gəldi.[260] Xalq Cəbhəsi silahlıları parlament binasına hücum etməkdən çəkindilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Xalq Cəbhəsinin rəhbərlərindən öz qanunsuz hərəkətlərinə son qoymağı, tutduqları yerləri boşaltmağı tələb etmişdi. Lakin bu müsbət nəticə verməmişdi.[261] Belə şəraitdə Naxçıvan MR Ali Məclisinin qarşısında izdihamlı mitinq keçirildi. Mitinq iştirakçıları Heydər Əliyevlə həmrəy olduqlarını bildirir, silahlı dəstələrdən Daxili İşlər Nazirliyinin və Televiziya və Radio Verlişləri Komitəsinin binasını boşaltmağı tələb edirdilər. Heydər Əliyev bir neçə dəfə AXC sədri, Azərbaycan prezidenti Ə.Elçibəylə telefonla danışaraq AXC Naxçıvan şöbəsi tərəfindən törədilən təxribata son qoymasını tələb etmişdi: "Oktyabr ayının 24-də Naxçıvanda çevriliş edib məni oradan çıxarmaq istəyəndə mən doqquz dəfə Əbülfəz Elçibəylə telefonla danışdım, dedim, bu adamları yığışdırın, o, mənə deyir, nə cür yığışdırım? Dedim, bunlar Xalq Cəbhəsinin qeyri-qanuni silahlı adamlarıdır. Siz, Xalq Cəbhəsinin sədrisiniz, göstəriş verin yığışdırsınlar. Siz bilirsinizmi ki, o, bu göstərişi vermədi?... Nəhayət, Naxçıvan əhalisi – qoca, cavan, uşaq, qadın, kişi toplaşdılar ora, o camaatı oradan dağıtdılar".[262]

[258] "Xalq qəzeti", 2002. 24 oktyabr
[259] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s. 99
[260] Azərbaycan tarixi. Yeddi clddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s. 310
[261] AR MMA, f.2941, siy. 1a, iş 1, v. 53
[262] Yenə orada, v.54



Ali Məclisin Sədrinin təşəbbüsü ilə sədr müavinləri və eyni zamanda Xalq Cəbhəsinin üzvləri olan Q.Məmmədov və A.Kələntərli prezident Əbülfəz Elçibəylə telefonla danışıb, lazımi ciddi tədbirlər görülməsini xahiş edirlər. Təəssüf ki, bütün bu xahişlər, çağırışlar və tələblər nəticə vermədi, prezident və digər rəhbər şəxslər tərəfindən heç bir qəti tədbir həyata keçirilmədi. Çevriliş cəhdində iştirak edən cəbhəçilərə xəbərdarlıq edildi ki, əgər onlar bir saat ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Televiziya və Radio Verlişləri Komitəsinin binalarını azad etməsələr, silahsız xalq kütləsi özünün təzyiqi ilə buna nail olacaqlar. Camaat Xalq Cəbhəsi silahlılarını dövlət idarələrindən qovub çıxardı. Bakıda hazırlanmış xüsusi cəza dəstəsi Naxçıvana gəlməyə cəsarət etmədi.

Oktyabrın 25-də Ali Məclisin qarşısında keçirilmiş mitinqə toplaşanlar Xalq Cəbhəsinin qanunsuz hərəkətlərinə, Azərbaycanın dövlət hakimiyyət orqanlarının onlara himayədarlıq etməsinə qarşı etirazlarını bildirmiş, qeyri-qanuni silahlı dəstələrin təcili ləğv olunmasını, bütövlükdə AXC-nin fəaliyyətinin dayandırılmasını tələb etmişdilər.[263]

Elə həmin gün Naxçıvan MR Ali Məclisinin fövqəladə sessiyası keçirilmiş, 24 oktyabr dövlət çevrilişi cəhdi pislənilmiş, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin 25 oktyabr tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin, Dövlət Televiziya və Radio Verlişləri Komitəsinin 1992-ci il oktyabrın 24-də Naxçıvan Xalq Cəbhəsi və onun silahlı qüvvələri tərəfindən işğal olunması, bu dövlət orqanlarının işinin bir neçə saat ərzində iflic vəziyyətinə salınması və beləliklə, bütün əhaliyə mənəvi zərbə vurulması Naxçıvan Muxtar Respublikasında dövlət çevrilişi kimi qiymətləndirilmişdi.[264]

Açıq qeyd edilmişdi ki, bu çevriliş cəhdinin əsas məqsədi Muxtar Respublikanın DİN-i və televiziyasını tutmaq deyil, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə və onun rəhbər-

[263] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 411
[264] AR MMA, f.2941, siy. 1a, iş 1, v.63

liyinə qarşı yönəldilmişdi.[265] Ali Məclis AXC silahlı qüvvələrinin üç gün ərzində tərkisilah olunması haqqında qərar qəbul etmişdi. Oktyabrın 27-də Naxçıvandakı Azadlıq meydanında keçirilən ümumrespublika mitinqinin iştirakçıları Azərbaycan prezidentindən Naxçıvana göstərilən zorakılıq hərəkətlərinin qarşısını almağı tələb etmişdilər.

Ali Məclisin qərarından sonra güman etmək olardı ki, nəhayət Naxçıvanda sabitlik yaranacaqdır. Lakin hadisələr gözlənildiyi kimi olmadı. Respublika mətbuatı və televiziyası Naxçıvanda baş verən dövlət çevrilişinə cəhdi tamamilə təhrif edərək xalqa çatdırmağa çalışdı. Onların bu hərəkəti istər-istəməz bu fikri təsdiqləyirdi ki, Azərbaycanın rəsmi dairələri cinayətkarlarla əlbirdir. Oktyabrın 27-də Naxçıvanda vəziyyətin yenidən gərgin xarakter alması deyilənlərə heç bir şübhə yeri qoymadı. Həmin gün Azərbaycan Daxili İşlər naziri İ.Həmidov öz dəstəsi ilə Naxçıvana gəlməyi planlaşdırmışdı. Xalq Cəbhəsinin silahlı dəstələri onu qarşılamaq üçün Naxçıvan aeroportunu tutdular. Xüsusi təlim görmüş 350 nəfərdən ibarət "Boz qurd" silahlı dəstəsi Naxçıvana gətirilirdi. Görülən ciddi tədbirlər nəticəsində İ.Həmidovun Naxçıvanda iğtişaş yaradacaq təhlükəli gəlişinin qarşısı alındı.

## 2.7. Naxçıvanın muxtariyyət statusunun ləğv edilməsinə cəhd

Ümummilli lider Heydər Əliyevi muxtar respublikada hakimiyyətdən uzaqlaşdırmaq üçün iqtidar hətta Naxçıvanın muxtariyyət statusunu ləğv etməyə və ya muxtar respublika Ali Məclisinin hüquqlarını məhdudlaşdırmağa cəhd göstərirdi. Respublikanın dövlət katibi 1992-ci il noyabrın 2-də Bakı Dövlət Universitetində çıxışında və "Müxalifət" qəzetinə verdiyi müsahibədə Naxçıvanın muxtariyyət statusuna qarşı çıxmışdı.[266]

[265] "Şərq qapısı" qəzeti, 1992, 28 oktyabr
[266] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, s. 56



AXC-nin II qurultayında da bu məsələdən bəhs edilmişdi.[267] Respublikanın bir qrup ziyalısı dövlət katibinin bu məsuliyyətsiz çıxışından narahat olmuş və mətbuatda ona cavab verilmişdi.

AXC-Müsavat hakimiyyəti dövründə prezident aparatının hüquq şöbəsinin müdiri Naxçıvanın muxtariyyətinin ləğv olunması məsələsini Ali Sovetin gündəliyinə çıxarmağa cəhd etmişdi. Bütün bunlar Naxçıvanın muxtariyyət statusunu müəyyən edən Moskva və Qars beynəlxalq müqavilələrinə, habelə 1969-cu il Vyana konvensiyasının tələblərinə zidd idi. Naxçıvanın ərazi baxımından Azərbaycandan ayrı düşməsi və ermənilərin Naxçıvanı ələ keçirə bilməməsi üçün ona Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdi və bu, 1921-ci ilin beynəlxalq müqavilələri ilə (Moskva və Qars-red.) rəsmiləşdirilmişdi. Muxtariyyətin ləğvi Naxçıvanın siyasi vəziyyətini pisləşdirər və gələcəyini təhlükə altında qoyardı.

Ulu öndər Heydər Əliyev diplomatik uzaqgörənliyi sayəsində Naxçıvanın muxtariyyət statusu qorunub saxlanıldı. O, 1992-ci ilin martında Türkiyə Respublikasının rəhbərləri ilə görüşərək Moskva və Qars müqavilələrinin prinsipial müddəalarının qüvvədə olduğunu bütün dünyaya bəyan etdi. Muxtar Respublikanın Ali Məclisi 1992-ci il 25 oktyabr tarixli qərarı ilə mövcud şəraitdə AXC-Müsavat iqtidarının muxtar respublikanın statusu ilə bağlı əsassız, zərərli iddialarını qəti rədd etdi. Qeyd edildi ki, "... xüsusi coğrafi və geosiyasi şəraitdə yerləşən Naxçıvanın 70 il bundan əvvəl muxtar respublika statusu əldə etməsi tarixi nailiyyətdir və ona edilən hər hansı bir qəsdi müstəqil Azərbaycanın milli dövlətçiliyinə, Naxçıvan Muxtar Respublikasının hər bir vətəndaşının hüquq və mənafeyinə edilən qəsd kimi qiymətləndirmək lazımdır".[268]

[267] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 322
[268] Yenə orada, s. 414

Ümummilli lider Heydər Əliyev deyirdi: "Naxçıvanın statusunun dəyişdirilməsinə yönəldilən hər hansı cəhdin, onun ərazisinə edilən hər cür qəsdin qarşısı qətiyyətlə alınacaqdır".[269]

Azərbaycanın hakimiyyət orqanlarının bəzi rəhbərləri muxtar respublikaya kömək etmək əvəzinə onun rəhbərliyinə təzyiq göstərməyə cəhd edir, Naxçıvanın Konstitusiya statusunda dəyişiklik etmək və onun Konstitusiya hüquqlarını məhdudlaşdırmaq tədbirinə əl atırdılar. Ali Məclisin Rəyasət Heyəti Naxçıvana qarşı bu qərəzli iddiaları blokada şəraitində olan muxtar respublikada ictimai-siyasi vəziyyəti gərginləşdirməyə və onun problemlərinin həllinə maneçilik yaratmağa xidmət edən faktlar kimi qiymətləndirmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti 1992-ci il dekabrın 7-də "Naxçıvan Muxtar Respublikasında və onun ətrafındakı vəziyyətlə əlaqədar bəzi məsələlər haqqında" qəbul etdiyi qərarda Azərbaycan Respublikasının Prezidentindən, Ali Sovetindən muxtar respublikada sabitliyin pozulmasına yönəlmiş və ağır nəticələr verə biləcək hüquqazidd, antikonstitusion hərəkətlərin qarşısını almaq üçün tədbirlər görməyi tələb etmişdi.[270]

AXC iqtidarının qısamüddətli səriştəsiz hakimiyyəti dövründə ölkənin daxili və xarici vəziyyəti daha da kəskinləşmişdi. Cəbhədəki uğursuzluqların, sosial-iqtisadi həyatındakı böhranlı vəziyyətin günahkarı kimi AXC-nin xalq arasında nüfuzu günügündən aşağı düşürdü. Muxtar respublikanı ağır blokada şəraitində uğurla idarə edən ulu öndər Heydər Əliyevin nüfuzu və mövqeyi isə əksinə, daha da güclənirdi.

Azərbaycan hakimiyyət dairələrinin Naxçıvan Muxtar Respublikasına soyuq münasibətinin davam etməsinə baxmayaraq, Ali Məclisin Sədri Heydər Əliyevin gərgin səyləri nəticəsində 1993-cü ilin əvvəlində Bakı ilə Naxçıvan arasındakı münasibətlərdə müəyyən mülayimləşmə hiss olunmağa başladı. Həmin

[269] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 830
[270] Yenə orada, s. 309-310



il fevralın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti Ə.Elçibəylə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev arasında ilk görüş oldu. Bu, Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra ulu öndər Heydər Əliyevin Bakıya ilk səfəri idi. Söhbətdə müzakirə edilən əsas məsələlərdən biri də Naxçıvanın ağır vəziyyəti və onun bu vəziyyətdən çıxarılması barədə oldu.[271]

AXC iqtidarı Naxçıvanın Konstitusion hüquqlarını məhdudlaşdırmaq, Ali Məclisə təzyiqlər etməyə çalışsa da, ümummilli lider Heydər Əliyevin sarsılmaz və qətiyyətli mövqeyi sayəsində Naxçıvanda aranı qarışdırmaq və vəziyyəti dəyişdirmək üçün atdıqları qeyri-qanuni hərəkətlərlə məqsədlərinə nail ola bilmədilər. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında cəsarətli və məqsədyönlü siyasəti Azərbaycanın bütün regionlarının diqqət mərkəzində idi. Xalqın ona olan inamı və ümidi daha da möhkəmlənirdi.

## 2.8. Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması

Ötən əsrin 90-cı illərinin əvvəllərində zorla hakimiyyətə gələn AXC-Müsavat cütlüyü ölkədəki onsuz da ağır olan siyasi, iqtisadi, mənəvi vəziyyəti daha da ağırlaşdırdı. Bunun da əsas səbəbi respublikada dərinləşməkdə olan hakimiyyət böhranı idi. Bu partiyaların təmsil etdikləri iqtidarın anormal idarəetmə metodları daxili situasiyanı gərginləşdirməklə yanaşı, respublikanın müstəqil dövlət kimi gələcək perspektivlərini ciddi təhlükə altına salmışdı. Cəbhə iqtidarı radikal ictimai islahatlar şüarı ilə hakimiyyətə gəlsə də, siyasi və iqtisadi sistemdə heç bir əsaslı islahat həyata keçirə bilmədi. Vəzifələrə gətirdikləri adamların isə heç bir təcrübəsi və səriştəsi yox idi.

[271] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 330

Uğursuz xarici siyasət Azərbaycanın beynəlxalq vəziyyətini xeyli ağırlaşdırmış, ölkəmiz ətrafında beynəlxalq informasiya blokadası daha da sərtləşmiş, nəticədə Dağlıq Qarabağ münaqişəsində bir çox böyük dövlətlər, beynəlxalq təşkilatlar açıq-aşkar ermənipərəst mövqe tutmuşdular. ABŞ Konqresi isə münaqişədə Azərbaycanı günahkar bilərək, "Azadlıq müdafiə aktı"na 907 №-li əlavə maddə qəbul etmiş və nəticədə ölkəmiz bu dövlətin maliyyə yardımından məhrum edilmişdi.[272]

Yaranmış şəraitlə əlaqədar ölkənin mütərəqqi şəxsiyyətləri, ziyalıları, qabaqcıl, sadə adamları dəfələrlə Naxçıvana, ümummilli lider Heydər Əliyevin yanına gedib Vətənin xilası naminə ondan yenidən böyük siyasətə qayıtmasını xahiş edirdilər.[273] Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının yaranması xalqın çox hissəsinin respublikamızı düşdüyü vəziyyətdən çıxarmaq üçün və artıq mövcud olan partiyalara və təşkilatlara inamları olmadıqlarına görə yeni bir partiyanın yaranması ilə əlaqədar ayrı-ayrılıqda fikirlərinin, arzularının cəmləşməsi və nəhayət, formalaşması nəticəsində olmuşdur. Bir adam, bir qrup adam yox, Azərbaycanın, demək olar ki, bir çox bölgələrində - Bakıda, başqa böyük şəhərlərdə, rayonlarda, yaşayış məntəqələrində ayrı-ayrı adamlar bir-biri ilə əlaqəsi olmadan belə bir fikrə gəlmişdilər.[274]

1992-ci ilin aprel-may aylarında ulu öndər Heydər Əliyevin hakimiyyətə, daha geniş siyasi fəaliyyətə qayıtması uğrunda əsl xalq hərəkatı başlandı. "Heydər Əliyevi biz çağırmalıyıq!" adlı müraciət ölkədə böyük əks-səda doğurdu. Azərbaycanın, demək olar ki, bütün bölgələrində aparılmış ictimai rəy sorğularının nəticələri, Yeni Azərbaycan Partiyası (YAP) Təşkilat Komitəsinə daxil olan minlərlə şifahi və yazılı təkliflər göstərirdi ki, yeni partiyaya rəhbərlik etməyə qadir yeganə şəxs Heydər

[272] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s. 106
[273] "Xalq qəzeti", 1997, 2 dekabr
[274] "Yeni Azərbaycan" qəzeti, 1997, 2 dekabr



Əliyevdir.[275] Respublikanın görkəmli ziyalıları Naxçıvana gəlir, ulu öndər Heydər Əliyevə müraciət edirdilər ki, Bakıya, böyük siyasətə qayıtsın. Lakin ulu öndər bu fikirdə deyildi. O, bütün müraciətlərə ehtiramla yanaşır, lakin təkliflərdən imtina edirdi.[276]

Azərbaycanın 91 tanınmış ziyalısı 1992-ci il oktyabrın 16-da "Səs" qəzeti vasitəsilə ümummilli lider Heydər Əliyevə müraciət etdi. "Azərbaycan Sizin sözünüzü gözləyir" adlanan bu tarixi sənəddə ölkədə yaranmış ağır siyasi, iqtisadi, mənəvi durumun mövcud iqtidarın səriştəsiz, kobud, zora arxalanan siyasəti nəticəsində gündən-günə dərinləşməsi, belə vəziyyətdən demokratik yolla xilas olmaq üçün xalqın bu işə rəhbərlik etməyə qadir yeganə şəxsin – Heydər Əliyevin başçılığı altında Yeni Azərbaycan Partiyasında təşkilatlanmaq arzusu öz əksini tapmışdı.[277] Ulu öndər Heydər Əliyev Azərbaycan ziyalılarının bu çağırışına səkkiz gün sonra, oktyabrın 24-də cavab verdi. Həmin gün Azərbaycanda hakimiyyətdə olan Xalq Cəbhəsinin fitvası ilə Naxçıvanda ona qarşı ilk dövlət çevrilişi cəhdinə əl atıldı. Qəribə paradoks yaranmışdı. Respublika ziyalıları, əhalinin böyük əksəriyyəti ölkənin gələcək taleyini ulu öndər Heydər Əliyevlə əlaqələndirir, onda görürdülər. Xalq Cəbhəsi isə onu Naxçıvanda da hakimiyyətdə görmək istəmirdi. Xalq isə respublika ziyalılarının təklifini dəstəkləyirdi.[278]

Ümummilli lider Heydər Əliyev respublika ziyalılarının 24 oktyabr müraciətinə cavabında mövcud ictimai-siyasi durumu dərindən təhlil etdi, cəmiyyətin bütün qüvvələrini birləşdirməklə yaranmış ağır vəziyyətdən çıxış yollarını göstərdi. Azərbaycanın müharibə vəziyyətindən çıxması, Qarabağ probleminin tezliklə həll olunması, sosial-iqtisadi böhranın aradan qaldırılması, düzgün kadr siyasəti aparılması, səriştəli kadrlardan səmərəli is-

[275] "Səs" qəzeti, 1992, 16 oktyabr
[276] "Azərbaycan" qəzeti, 1994, 22 noyabr
[277] "Səs" qəzeti, 1992, 16 oktyabr
[278] Hacıyev İ.M. Yeni Azərbaycan Partiyasının fəaliyyəti Naxçıvandan başladı. // Yeni Azərbaycan Partiyası 1992-2007. Yeni Azərbaycan Partiyasının 15-ci ildönümünə həsr olun-muş konfransın materialları. Bakı 2007, s. 94

tifadə olunması, respublikada qanunların aliliyinin təmin edilməsi, demokratiyanın ardıcıl inkişafı, siyasi plüralizmə, insan azadlığına şərait yaradılması, yeni, müstəqil dövlət quruculuğu prosesinə vətəndaşların hamısının, əhalinin bütün təbəqələrinin cəlb olunması, heç bir məhdudiyyət qoyulmaması, Azərbaycanın parçalanmasına yönəldilmiş meyllərin qarşısının qətiyyətlə, sivil, demokratik yollarla alınması, dövlətin bütövlüyünün demokratik prinsiplər əsasında qorunub saxlanılması və inkişaf etdirilməsi vacibliyini qeyd etdi. O bildirdi ki, Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə bir partiya Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər".[279] Heydər Əliyev yeni siyasi partiyanın yaradılmasında və fəaliyyətində fəal iştirak etməyə hazır olduğunu bildirdi.

Qısa müddət ərzində Yeni Azərbaycan uğrunda siyasi hərəkat bütün Azərbaycanı bürüdü. Hərəkatın mərkəzi isə Heydər Əliyevin fəaliyyət göstərdiyi Naxçıvan şəhəri oldu. Burada Heydər Əliyevin sədrliyi ilə YAP təşkilat komitəsi yaradılmış, onun bilavasitə iştirakı ilə yeni partiyanın proqram və nizamnamə layihələri hazırlanmışdı.

Yeni Azərbaycan Partiyasının yaranmasında məqsəd Azərbaycan Respublikasını mövcud böhrandan xilas etmək olmuşdur. O vaxta qədər olan və ölkənin həyatında rəhbər mövqelərə yiyələnən heç bir siyasi qüvvə, təşkilat və ya vəzifəli şəxs bu işin öhdəsindən gələ bilmədi.[280] Xalq özünün və Azərbaycan Respublikasının taleyini Heydər Əliyevə və onun rəhbərliyi altında yaradılan partiyaya bağlamalı oldu. İnsanların ona inamı Yeni Azərbaycan Partiyasına bəslənən böyük ümidlərin əsasını təşkil edirdi. Həyat göstərdi ki, xalq ümidlərində yanılmayıbdır.

Ümummilli liderin rəhbərliyi altında partiyanın yaranmasını özlərinin siyasi hakimiyyətinə birbaşa təhlükə hesab edən

[279] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 442-446
[280] Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013, s. 222



mövcud iqtidar prosesi əngəlləmək üçün hər cür vasitəyə əl atmağa başladı. Əsas etibarilə Heydər Əliyevin tərəfdarlarının təqib edilməsi, hədə və birbaşa fiziki və mənəvi təzyiqlər kimi o vaxtkı hakimiyyətin mahiyyətini əks etdirən vasitələr işə salındı. Sözün əsl mənasında, təqiblərə və repressiyalara əl atıldı.

SSRİ-nin süqutunun meydana gətirdiyi demokratiya dalğasında hakimiyyətə yiyələnən Azərbaycan Xalq Cəbhəsi iqtidarı xalqın dəstəklədiyi Yeni Azərbaycan Partiyasının yaradılmasına nəinki icazə vermədi, hətta onu əngəlləmək üçün heç nədən çəkinmirdi. Bu, o vaxtkı hakimiyyətin qeyri-demokratik mahiyyətini bir daha və qabarıq şəkildə nümayiş etdirirdi.

İqtidarın törətdiyi maneələrə baxmayaraq, partiyanın yaradılmasını əngəlləmək mümkün deyildi. Xalqın Heydər Əliyevə inamı və yaradılan partiyaya ümidi bütün maneələrdən və təqiblərdən güclü idi. Azərbaycan Respublikasının bütün bölgələrindən Yeni Azərbaycan Partiyasının konfransına nümayəndələr seçilmişdi. Lakin onun təsis konfransını ölkənin paytaxtı və siyasi mərkəzində - Bakıda keçirmək mümkün olmadı. Nəticədə YAP respublikanın tarixində yeganə partiya oldu ki, paytaxtda deyil, Naxçıvanda təsis edildi.

Azərbaycan Respublikasının bütün bölgələrini təmsil edən 500-dən artıq nümayəndənin iştirakı ilə Yeni Azərbaycan Partiyasının təsis konfransı Heydər Əliyevin sədrliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirildi.[281] Konfransda Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsi qəbul edildi. Ümummilli lider Heydər Əliyev yekdilliklə partiyanın sədri seçildi, partiya sədrinin müavinləri, Siyasi Şura və İdarə Heyəti təsdiq olundu. Beləliklə, müstəqil Azərbaycan tarixində öz üzərinə böyük tarixi missiya götürən və xalqımızın həyatında mühüm hadisəyə çevrilən Yeni Azərbaycan Partiyası yarandı.

Yeni Azərbaycan Partiyası yarandığı gün – noyabrın 21-də özünün ilk bəyanatını qəbul etdi. Bəyanatda partiyanın prinsip-

[281] Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013, s. 228

ləri, proqram məqsədləri, partiyanın siyasi, iqtisadi strategiyası açıqlanmış, bütün siyasi partiyalar və ictimai təşkilatlarla, başqa siyasi mövqedə və əqidədə olanlarla açıq, vicdanlı dialoq və danışıqlara hazır olduğu bildirildi. YAP əmin olduğunu bildirmişdi ki, onun Proqram və Nizamnaməsində irəli sürdüyü bütün müddəalar Azərbaycan Respublikasının vətəndaşları tərəfindən rəğbətlə qarşılanacaq.[282]

Heydər Əliyev Yeni Azərbaycan Partiyasının əsas məqsəd və vəzifələrini belə şərh edirdi: "Yeni Azərbaycan Partiyası parlament tipli partiyadır və qəbul etdiyi proqramına uyğun olaraq aşağıdakıları özünün məqsədləri hesab edir: Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi; milli, dini və dil mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarının bərabər hüquqlara malik olduğu sivilizasiyalı, demokratik, hüquqi dövlət yaradılması. Lakin ön planda Azərbaycanın qarşısında duran ən mühüm və təxirəsalınmaz problemlərin həlli dayanır – hər şeydən əvvəl, respublikanın geniş miqyaslı xarakter almış müharibə vəziyyətindən çıxarılması, Qarabağ probleminin həll olunması, habelə ağır sosial-iqtisadi böhranın dəf edilməsi".[283]

Naxçıvanda əsası qoyulmuş Yeni Azərbaycan Partiyasının ilk təşkilatları da burada yaranmağa başladı. Bir-birinin ardınca Şərur, Babək, Culfa, Şahbuz və b. rayonlarda təsis konfransları keçirilərək YAP-ın rayon təşkilatları yaradıldı. Nəticədə YAP-ın ən mütəşəkkil və fəal dəstəsi Naxçıvan Muxtar Respublikasında formalaşdı. Rayonlarda keçirilən təsis konfranslarında Heydər Əliyev şəxsən iştirak və çıxış etmiş, tövsiyə və tapşırıqlarını vermiş, qarşıda duran vəzifələri geniş şərh etmişdir.

Yeni Azərbaycan Partiyasının tarixində 1992-ci il noyabrın 21-dən 1993-cü il iyunun 15-dək olan dövr ən məsuliyyətli dövrdür. Bu dövrdə YAP mühüm siyasi mübarizə və təşkilatlanma yolu keçmiş, məhz Heydər Əliyev dühası sayəsində müxalifət partiyasından iqtidar partiyasına çevrilmişdir.

[282] Qayıdış (1990-1993). Sənədlər toplusu. Bakı: Azərbaycan, 1996, s. 447-449

[283] Hacıyev İ.M. Yeni Azərbaycan Partiyasının fəaliyyəti Naxçıvandan başladı. //Yeni Azərbaycan Partiyası 1992-2007. Yeni Azərbaycan Partiyasının 15-ci ildönümünə həsr olun-muş konfransın materialları. Bakı 2007, s. 95; Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, s. 309



Ulu öndər Heydər Əliyev təkcə YAP-ın deyil, bütün Azərbaycan xalqının lideri idi. O, öz məsləhətləri ilə xalqı yaxınlaşmaqda olan daha böyük fəlakətdən qurtarmaq üçün iqtidara yol göstərməyə çalışırdı. Uzun müddət bu məsləhətlərə məhəl qoymayıb səriştəsiz siyasəti ilə ölkəni parçalanmaq, vətəndaş müharibəsi həddinə gətirmiş iqtidar, başlanmış təhlükəli proseslərin qarşısını almaqda gücsüzlüyünü görüb son anda kömək üçün Heydər Əliyevə müraciət etdi. Ali Sovetin Sədri seçilən Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalq YAP-ın sədri, ölkə prezidenti Heydər Əliyevin ətrafında daha sıx birləşdi.

Yeni Azərbaycan Partiyası sürətlə inkişaf edib ən böyük partiyaya çevrildi. 1993, 1998, 2003, 2008 və 2013-cü illərin prezident, 1995, 2000, 2005, 2010-cu illərin parlament, 1999, 2004, 2009 və 2014-cü illərin bələdiyyə seçkilərində bu partiya çoxluq əldə etdi və qələbə qazandı. Yarandığı dövrdə 7250 nəfər üzvü olan partiyanın 2001-ci ildə 230 min nəfər,[284] hazırda isə 600 minə qədər üzvü birləşdirir. 2001-ci ildə YAP sədrinin birinci müavini seçilən İlham Əliyev indi ümummilli və ümumxalq xarakteri daşıyan partiyaya uğurla rəhbərlik edir. Ölkə Prezidenti kimi İlham Əliyev hazırda dünyada ən nüfuzlu dövlət rəhbəri kimi tanınır. Ümummilli liderin siyasi kursunu uğurla davam etdirən İlham Əliyev özünün siyasi, iqtisadi, diplomatik, ictimai və siyasi fəaliyyəti ilə nümayiş etdirdi ki, bu yolu davam etdirmək üçün ən layiqli şəxsdir.

Öz yaranışını Naxçıvandan başlayan Yeni Azərbaycan Partiyası çoxpartiyalı sistemdə öz layiqli yerini tutmuş, cəmiyyətin əsas aparıcı siyasi partiyasına – ümumxalq, ümummilli partiyaya çevrilmişdir.

[284] Heydər Əliyev. İki cilddə. 2-ci cild. Bakı: Turxan NPB, 2013, s. 97

# III FƏSİL

## NAXÇIVAN MÜSTƏQİLLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ DÖVRÜNDƏ (1993-2015-ci illər)

### 3.1. Naxçıvanın ictimai-siyasi həyatı

XX əsrin 90-cı illərinin əvvəllərində ölkə rəhbərlərinin səriştəsiz siyasəti vəziyyəti ağırlaşdırdı, qarşıdurma, vətəndaş müharibəsi qaçılmaz oldu, iqtidar təhlükəli proseslərin qarşısını ala bilmədi. Nəticədə kömək üçün ümummilli lider Heydər Əliyevə müraciət olundu. Dövlət başçısının dəfələrlə təkidli müraciətindən sonra ulu öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da hökumətin onun ardınca göndərdiyi təyyarə ilə Bakıya gəldi.[285]

İyunun 15-də Azərbaycan Respublikası Milli Məclisinin fövqəladə sessiyası ulu öndər Heydər Əliyevi Ali Sovetin sədri seçdi. Həmin gün Azərbaycanın müasir dövr tarixinə "Milli Qurtuluş Günü" kimi daxil oldu. 1993-cü ilin 15 iyunu mühüm siyasi hadisə kimi Azərbaycan xalqının tarixində yeni bir dövrün başlanğıcını qoydu. Ümummilli liderin yenidən siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan onu gözləyən fəlakətlərdən xilas oldu.

Ölkədəki ictimai-siyasi gərginlik isə davam edirdi. Siyasi bacarıqsızlığı ilə ölkəni vətəndaş müharibəsi, siyasi pərakəndəlik həddinə gətirib çıxaran AXC-Müsavat iqtidarının başçıları xalqın qəzəbindən qorxaraq, siyasi meydandan qaçıb xarici ölkələrdə gizləndilər, bəziləri isə fəaliyyətlərini "dondurdu". Şəxsi təhlükəsizliyindən qorxan, siyasi gərginliyə dözməyən, güya paytaxtda qardaş qırğınının qarşısını almağa çalışan Prezident Əbülfəz Əliyev iyunun 17-dən 18-nə keçən gecə Bakını gizlicə tərk edərək doğulduğu Kələki kəndinə (Ordubad rayonu) gəldi və ölkəni

[285] "Azərbaycan" qəzeti, 1999, 10 iyun



buradan idarə etmək iddiasında olduğunu bildirdi.[286] Azərbaycan Respublikasının Ali Soveti Prezidentə geri qayıdıb ölkəyə rəhbərlik etməyi təklif etsə də, hər dəfə rədd cavabı aldı. Belə bir şəraitdə iyunun 24-də Azərbaycan Respublikasının Ali Soveti ölkə Prezidentinin səlahiyyətlərinin Ali Sovetin sədri, ulu öndər Heydər Əliyevə verilməsi haqqında qərar qəbul etdi.[287]

1993-cü ilin yayı və payızında hərbi müxalifətin cinayətkar satqınlığı nəticəsində Azərbaycanın müstəqilliyinə qənim kəsilmiş, xaricdən idarə olunan qüvvələrin hakimiyyəti ələ almaq üçün heç nədən çəkinmədiyini görən xalq ulu öndər Heydər Əliyevin ətrafında daha sıx birləşdi. Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə 1993-cü il avqustun 29-da ölkə Prezidenti Ə.Əliyevə (Elçibəyə) etimad haqqında ümumxalq referendumu keçirildi. Referendumda iştirak edənlərin 97,5 faizi Ə.Q.Əliyevə (Elçibəyə) etimadsızlıq göstərdi.[288]

1993-cü il oktyabrın 3-də ümummilli lider Heydər Əliyev alternativ əsasla, səs çoxluğu ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.[289]

Prezident Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ardıcıl və dönməz olduğunu təsdiqləyən uğurlu daxili və xarici siyasəti düşmənləri ciddi narahat edirdi. Onlar paytaxtda və respublikanın digər iri yaşayış məntəqələrində siyasi sabitliyi pozmaq üçün hər vasitəyə əl atırdılar. Düşmənlərin, xarici kəşfiyyat orqanlarının əlində oyuncaq olan hakimiyyət hərisləri qanuni hakimiyyəti devirmək üçün terror aktları, dövlət çevrilişi cəhdləri edirdilər, lakin respublikanın hüquq-mühafizə orqanları bunları qətiyyətlə dəf etdilər. Xalq respublikanın dövlət müstəqilliyinin

[286] AMEA TİEA, f.1, siy. 19, iş 8953, v. 167
[287] Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, s.438
[288] Qətiyyətin təntənəsi (Sənədli xronika). Müəllif-tərtibçi Şakir Yaqubov. Bakı: Səhər, 1995, s.494.
[289] Qayıdış (1990-1993). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: "Azərbaycan", 2008, s. 838

təminatçısı olan Prezident Heydər Əliyevi dəstəkləyir, siyasi yetkinlik, dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirirdi.

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonrakı – itirilmiş illər hakimiyyətsizlik, dağıdıcılıq mərhələsi 1993-cü ildən sonra quruculuq mərhələsi ilə əvəz olundu.[290] Bu vaxtdan etibarən Azərbaycanın əsl müstəqil dövlətçilik tarixi başlandı.[291] Bu dövr müstəqilliyin daha da möhkəmləndirilməsi, daxili irticanın, dövlət çevrilişi cəhdlərinin aradan qaldırılması, Azərbaycanın suverenliyinin və bütövlüyünün bərpa olunması istiqamətində mühüm addımların atılması ilə xarakterikdir. Milli dövlət quruculuğunun üçüncü mərhələsi 1995-ci ilin noyabrında qəbul edilmiş ilk milli Konstitusiyanın qəbul edilməsi ilə əlamətdardır. Bundan sonrakı illərdə, ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi, Azərbaycanda dövlətçilik möhkəmləndirildi, demokratik prinsiplər bərqərar oldu, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi uğurla, sürətlə həyata keçirildi. Bu illərdə və sonrakı dövrdə də daxili və xarici siyasətdə uğurlu nəticələr əldə olundu, müvəffəqiyyətlər qazanıldı.[292]

1993-cü ilin iyunu Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında da dönüş nöqtəsi, yeni tarixi mərhələnin başlanğıcı oldu. Bu dövr Naxçıvan Muxtar Respublikasının yenidən, tamamilə və əbədi olaraq Heydər Əliyev quruculuq xəttinə qayıtdığı dövr, özünün inkişaf istiqamətlərini müəyyənləşdirdiyi tarixi mərhələdir. Bu dövr istər ictimai mühitdə baş verən dəyişikliklərin miqyası, istərsə də sosial-iqtisadi həyatda yaranan sabitləşmə, dönüş və inkişaf baxımından muxtar respublikanın həyatında silinməz izlər buraxıb.

[290] Əliyev Heydər. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2001-ci il. Yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciət. Naxçıvan: Əcəmi NPB. 2001, s. 113.
[291] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr. 2005, s.126
[292] "Respublika" qəzeti, 2001, 24 yanvar



Naxçıvan Muxtar Respublikasının 1993-cü ildən sonrakı inkişaf yolu heç də hamar olmamış, mürəkkəb ictimai-siyasi hadisələrlə zəngin olmuşdur.

Muxtar Respublikanın müasir tarixini şərti olaraq üç mərhələyə bölmək olar: 1991-1993 ilin iyulunadək I mərhələ, 1993-cü ilin iyulundan – 1995-ci ilin dekabrınadək II mərhələ və 1995-ci ilin dekabrından sonrakı dövr III mərhələ. Ümummilli lider Heydər Əliyev Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra muxtar respublikada ictimai-siyasi vəziyyət sabit qalsa da, idarəçilik sahəsində müəyyən boşluqlar, hakimiyyət orqanları arasında anlaşılmazlıqlar yaranmağa başlamış, nəticədə bir çox sahələrdə mənfi hallar baş qaldırmışdı.[293] Bir çox yerlərdə bu səbəbdən özbaşınalıqlar baş alıb getmiş, hərc-mərcliklər çoxalmışdı.[294] Ümummilli lider Naxçıvandan gedəndən sonra burada nizam-intizam pozulmuş, işlər zəifləmişdi. Ulu öndərin tövsiyyəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilmiş N.Həsənov ona göstərilmiş etimadı doğrultmamış, idarəçilik sahəsində problemlər yaranmışdı.[295]

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi vəziyyət ümumən sabit olsa da, burada fəaliyyət göstərən bir sıra siyasi qüvvələr, o cümlədən AXC-nin yerli şöbələri vəziyyəti gərginləşdirmək, sabitliyi pozmaq cəhdlərindən əl çəkmirdilər. Azərbaycan Prezidentinin əhalidə olan qanunsuz silahların təhvil verilməsi barədə fərmanından sonra da AXC nümayəndələri silahları təhvil verməkdən imtina edir, silahlı dəstələr saxlamaqda davam edirdilər. Muxtar respublikanın hüquq-mühafizə orqanları tərəfindən həyata keçirilən əməliyyatlar nəticəsində 1994-1996-cı illərdə onlardan 901 ədəd avtomat, 49 pulemyot, 63 qumbaraatan, 1418 mərmi, 642 mina, 951681 patron müsadirə

[293] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.127.
[294] "Azərbaycan" qəzeti, 1995, 18 dekabr
[295] Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası – 75. Bakı: Azərbaycan . 1999, s. 271.

edildi.[296] Sonrakı illərdə əhalidə olan qanunsuz odlu silahların yığılması davam etmişdir. 2001-ci ildə 281, 2002-ci ildə 2015, 2003-cü ildə 129, 2005-ci ildə 104 odlu silah a°kar edilərək götürülmü°dür.[297]

Ordubad rayonunda AXC nümayəndələrinin yarıtmaz siyasəti rayon əhalisi arasında ciddi narazılıqlar yaradırdı. Ordubadlılar dəfələrlə muxtar respublika və ölkə rəhbərliyindən rayonda baş verən qanunsuzluqları aradan qaldırmaq üçün təcili tədbirlər görməyi tələb edirdilər. Rayonda qayda-qanun yaradılmasına mane olan amillərdən biri də Ə.Elçibəyin 1993-cü ilin iyunundan Ordubadın Kələki kəndində yaşaması və onun ətrafında kriminal xarakterli bəzi adamların olması idi.

Bu rayonda faktiki olaraq prezident hakimiyyəti tətbiq olunmamışdı. Burada hələ də cəbhə hakimiyyəti mövcud idi və onlar müxtəlif təxribatlar törədirdilər. Belə qeyri-normal şərait uzun müddət davam edə bilməzdi. Prezident Heydər Əliyev tərəfindən rayona yeni rəhbər – icra hakimiyyətinin başçısı təyin edildi. Bununla da rayonda həyat tədricən öz axarına düşməyə başladı.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, orada Naxçıvanla bağlı mühüm müddəalar öz əksini tapdı. Azərbaycan və Naxçıvan parlamentlərinə ilk demokratik seçkilər keçirildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1995-ci il dekabrın 16-da keçirilən ilk sessiyasında 45 birmandatlı seçki dairəsindən seçilmiş 41 deputatın mandatı təsdiq edilmiş, muxtar respublikanın Ali vəzifəli şəxsi – Ali Məclisin Sədri seçilmişdi. 36 yaşlı deputat, Naxçıvan Muxtar Respublikası Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini Vasif Yusif oğlu Talıbova Ali

[296] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.128
[297] NMR DA. f.613, siy. 13, iş 618a.



Məclis yekdilliklə etimad göstərərək onu bu mötəbər vəzifəyə seçmişdi.[298]

Bu vəzifəyə seçilərkən deputat həmkarları Vasif Talıbovun ulu öndər Heydər Əliyevin sədaqətli silahdaşı olduğunu, tükənməz enerjiyə, qüvvə və bacarığa malik olduğunu, təşkilatçılıq istedadını, əhali arasında nüfuzlu siyasətçi kimi tanındığını nəzərə almışdılar. Parlament seçkilərində iştirak edənlər arasında o, yeganə şəxs olmuşdu ki, öz namizədliyini həm Azərbaycan parlamentinə, həm də Naxçıvan parlamentinə irəli sürmüş və yekdilliklə qalib gəlmişdi.

Seçicilər çox yaxşı bilirdilər ki, Naxçıvanda Vasif Talıbov qədər Heydər Əliyev məktəbini keçən, həmin məktəbin davamçısı olan başqa bir şəxs olmayıb. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən Vasif Talıbov onun baş köməkçisi kimi bütün xarici səfərlərin, apardığı danışıqların iştirakçısı olmuş, təcrübə və diplomatiya səriştəsinə yiyələnmişdir. Baş nazirin xarici iqtisadi əlaqələr üzrə birinci müavini işlədiyi müddətdə Vasif Talıbovun idarəçilik sahəsində qadir olduğu keyfiyyətlər, qazandığı təcrübə özünü daha parlaq göstərmişdi.[299]

Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi təkcə Ali Məclisin deputatları tərəfindən deyil, muxtar respublika əhalisi tərəfindən də rəğbətlə qarşılanmışdı. Naxçıvanlılar əmin idilər ki, bölgənin ağır şəraitində onu idarə etməyə qadir yeganə şəxs Vasif Talıbovdur. Onun bu məsul vəzifəyə seçilməsi həm də Azərbaycan Prezidenti Heydər Əliyevin ona göstərdiyi etimadın və inamın sayəsində baş vermişdi.

Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən sonra qısa müddət ərzində muxtar respubli-

[298] "Azərbaycan" qəzeti, 1995, 28 dekabr
[299] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.131.

kanın həyatının bütün sahələrində əsl canlanma müşahidə olundu. İctimai-siyasi mühit sağlamlaşdırıldı, quruculuq və abadlıq işləri geniş vüsət aldı. Naxçıvanda hakimiyyət strukturlarının yenidən formalaşması və təşkilatlanması prosesi uğurla həyata keçirilməyə başladı. Yaradılan işgüzar mühit və sağlam iş şəraiti, bütün sahələrdə mütərəqqi dəyişikliklər əhalinin hakimiyyət orqanlarına inamını artırdı. Muxtar respublika rəhbərinin ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda işləyib hazırladığı inkişaf proqramına dönmədən əməl etməsi və onun icrasını uğurla həyata keçirməsi nəticəsində ciddi dəyişikliklər özünü göstərməyə başladı.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə də Naxçıvana qayğısını göstərmiş, muxtar respublikanın sosial, iqtisadi, mədəni problemlərinin həlli üçün bütün imkanlardan istifadə etməyə çalışmışdı. Ulu öndər Azərbaycan prezidenti kimi 1996-cı ilin oktyabrın 29-31-də Naxçıvana ilk səfər etmişdi.

Səfər müddətində o, Hüseyn Cavidin məqbərəsinin açılışında iştirak etmiş, blokada şəraitində muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafı, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlərlə tanış olmaq imkanı əldə etmişdi.

Səfər çərçivəsində Naxçıvanın yeni rəhbərliyi tərəfindən bir il ərzində muxtar respublikada həyata keçirilmiş müsbət dəyişikliklərin şahidi olmuş, onları yüksək qiymətləndirmişdi. Prezident Ali Məclisin deputatları qarşısında çıxış edərək vurğulamışdı ki, Azərbaycan Konstitusiyası qəbul ediləndən, Naxçıvanda seçkilər keçiriləndən, Ali Məclis təşkil olunandan sonra muxtar respublikada işlər normal vəziyyətdədir. Görürəm ki, siz birləşmisiniz, bir yolla gedirsiniz və qısa müddətdə Naxçıvanda çox işlər görülübdür... Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır... Əminəm ki, bundan sonra da dayaq olacaqdır.[300]

[300] Ömrün üç günü. Bakı: Ergün, 1997, s.82



Muxtar respublika rəhbərliyinin ardıcıl, məqsədyönlü və qətiyyətli mövqeyi, idarəetmənin təkmilləşdirilməsi və struktur dəyişikliklərinin tətbiqi nəticəsində muxtar respublikada bütün sahələrdə ciddi dönüşə nail olundu.[301]

Xalqımızın tarixi taleyində mühüm əhəmiyyət daşıyan Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin qeyd edilməsi bölgənin ictimai-siyasi həyatında böyük hadisə idi. 1998-ci il noyabrın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi, bu məqsədlə təşkilat komitəsinin yaradılması haqqında xüsusi fərman verdi.[302]

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının yaranmasının böyük tarixi-siyasi əhəmiyyətini və xalqımızın tarixində özünəməxsus yer tutduğunu nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının yaranmasının 75 illik yubileyinin respublikada geniş qeyd edilməsi, yubiley tədbirlərinin hazırlanıb həyata keçirilməsi üçün Dövlət Komissiyasının yaradılması haqqında 5 fevral 1999-cu ildə fərman imzaladı.[303] Fərmanda deyilir: "Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu... Moskva və Qars müqavilələrində təsbit edildi. Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin 1924-cü il 9 fevral tarixli dekreti ilə Naxçıvan muxtar diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi təsdiq edildi. Bu, Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi böyük tarixi nailiyyət idi".[304]

Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi üzrə tədbirlər planı təsdiq edildi. Tədbirlər planında Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinə həsr olunmuş ümumrespublika təntənəli gecəsinin keçirilməsi, Azərbay-

[301] "Yeni Azərbaycan" qəzeti, 1997, 14 oktyabr
[302] Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədlər. 1996-2011. Naxçıvan: Əcəmi NPB, 2012, s.33-39
[303] "Azərbaycan" qəzeti, 1999, 5 fevral
[304] Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası – 75. Bakı: Azərbaycan, 1999, s. 4.

canın şəhər və rayonlarında muxtar respublikanın yubileyi ilə əlaqədar tədbirlərin təşkil edilməsi, Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş beynəlxalq elmi simpoziumun keçirilməsi, Naxçıvan diyarının, İrəvan xanlığının və Qərbi Azərbaycanın tarixinə dair tədqiqat əsərlərinin nəşr edilməsi, elm və təhsil müəssisələrində elmi sessiya və konfransların keçirilməsi də öz əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə keçirilən bayram şənliklərində iştirak etmək üçün 1999-cu il oktyabrın 10-da Naxçıvana gəldi. O, hələ Binə hava limanında jurnalistlərə verdiyi müsahibəsində qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının yaranması Azərbaycan xalqının, respublikanın həyatında tarixi hadisədir. Bu respublikanı vaxtilə yaradanlar çox müdrik, uzaqgörən insanlar olublar, Azərbaycan torpaqlarının ayrı-ayrı iddiaçılar tərəfindən parçalanmasının qarşısını alıblar.[305]

Azərbaycan Prezidenti Naxçıvanda keçirilən tədbirlərdə - "Kazım Qarabəkir Paşa məscidi"nin, Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun, Ticarət tədris mərkəzinin, C.Naxçıvanski adına hərbi liseyin Naxçıvan filialının, C.Məmmədquluzadənin ev muzeyinin və digər yeni müəssisələrin açılışında iştirak və çıxış etdi.

Oktyabrın 12-də Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr olunmuş təntənəli yubiley iclası keçirildi. Yubiley tədbirində Türkiyə Cümhuriyyətindən, İran İslam Respublikasından gələn rəsmi nümayəndələrlə yanaşı, xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş səfirləri, respublika paytaxtından gəlmiş elm, mədəniyyət xadimləri, şairlər, yazıçılar da iştirak edirdilər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov muxtar respublikanın yaranması, inkişaf tarixi, qazandığı nailiyyətlər haqqında məruzə etdi. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yubiley tədbirində dərin məzmunlu nitq söylədi. Ümummilli lider Heydər Əliyev demişdir: "Naxçıvanın muxtariyyəti tarixi hadisə olubdur. Bu çətin bir dövrdə böyük bir mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Türkiyə Cümhuriyyətinin imzaladığı Qars müqaviləsinin burada böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim çox böyük, əvəzi olmayan bir sənəddir".[306]

[305] Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası – 75. Bakı: Azərbaycan, 1999, s. 12



Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd edilməsi bir daha təsdiq etdi ki, Naxçıvanın yaşamasının, inkişaf etməsinin əsas şərtlərindən biri bu diyara muxtariyyət, dövlətçilik statusunun verilməsi olmuşdur.

"Naxçıvanın beynəlxalq hüquqi təminata malik muxtariyyət statusu bu bölgəyə göz dikən ermənilərə göz dağı olmuşdur".[307]

Naxçıvandakı vəziyyətlə tanış olan Prezident Heydər Əliyev burada mövcud olan ictimai-siyasi mühiti dəyərləndirərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, icra orqanlarının işinə yüksək qiymət vermiş, bu işlərin aparılmasında təşkilati və rəhbər rolu oynayan Vasif Talıbovun işini xüsusi vurğulayaraq demişdir: "Mən məmnuniyyətlə demək istərdim ki, son dörd il içərisində (1995-1999-cu illər) Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxilən bir az fikirləşdim ki, gəncliyinə görə bəlkə də ağır, çətin olar. Ancaq bu dörd il müddətində o, sübut etdi ki, vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı

[306] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 22-ci kitab (sentyabr 1999 – noyabr 1999). Bakı: Azərnəşr, 2007, s.249.
[307] "Bizim əsr" qəzeti, 2004, 14-20 fevral

olmayaraq böyük işlər də görə bilər... Məni ən çox sevindirən... Naxçıvanda yaranmış sağlam ictimai-siyasi mühitdir".[308]

Azərbaycan Respublikası Prezidentinin 2002-ci ildə muxtar respublikaya iki dəfə səfər etməsi bölgənin siyasi həyatında mühüm hadisə oldu. Prezidentin səfərlər müddətində keçirdiyi görüşlər, bölgənin inkişafı ilə bağlı verdiyi tövsiyə və məsləhətlər regionun gələcək inkişafına mühüm təsir göstərdi, bir sıra iri proqramların həyata keçirilməsinin əsasını qoydu.

Azərbaycan Respublikası Prezidentinin Naxçıvana 2002-ci ildəki gəlişi iyunun 15-nə, Milli Qurtuluş Gününə təsadüf etdi. Gəlişinin ilk günü ümummilli lider Heydər Əliyev bildirdi ki, "... blokadada, çətin şəraitdə olan Naxçıvana xüsusi qayğı göstərmək, kömək etmək lazımdır. Naxçıvan blokada şəraitində olduğuna görə, mənim Naxçıvan haqqında siyasətimin bir hissəsi insanların Naxçıvanda məskunlaşması, yaşamasıdır.[309]

Ümummilli lider Heydər Əliyev Naxçıvanda Olimpiya-İdman Kompleksinin açılışında, "N" saylı hərbi hissədə keçirilən tədbirdə iştirak etdi, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında müdavimlərlə görüşdü.

İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Naxçıvan MR-də yerləşən hərbi hissələrin problemləri, qayğıları ilə maraqlandı, dövlət sərhədlərinin daha möhkəm qorunması sahəsində qarşıda duran vəzifələrdən danışdı, hərbçilərə öz əmrlərini və tapşırıqlarını verdi. İyunun 18-də görkəmli Azərbaycan rəssamı Bəhruz Kəngərlinin xatirəsinə yaradılmış muzeyin açılış mərasimində iştirak və çıxış etdi. Muzeyin otaqlarını gəzdi və eksponatlarla tanış oldu. Azərbaycan Prezidenti həmin gün Naxçıvan MR Ali Məclisində muxtar respublikanın dövlət hakimiyyəti orqanlarının nümayəndələri ilə müşavirə keçirdi. Müşavirədə Naxçıvan MR Ali Məclisinin sədri

[308] Qədim Naxçıvanda bayram. Naxçıvan Muxtar Respublikası – 75. Bakı: Azərbaycan, 1999, s.271-272.

[309] "Xalq qəzeti", 2002, 18 iyun



Vasif Talıbov muxtar respublikanın sosial-iqtisadi həyatı haqqında məlumat verdi, bu sahədə görülən işlərdən danışdı.

Azərbaycan Prezidenti müşavirədə geniş nitq söylədi. Dövlət başçısı muxtar respublikanın hakimiyyət orqanları qarşısında duran vəzifələrdən danışdı, tövsiyyələrini və konkret tapşırıqlarını verdi. Bir gün sonra şəhərlə tanış olan, Əcəmi seyrəngahını gəzən Prezident Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında keçirilən tədbirlərdən razı qaldığını bildirdi.

Avqustun 10-da ümummilli lider Heydər Əliyev 2002-ci ildə ikinci dəfə Naxçıvana səfər etdi. Ulu öndər Şahbuz rayonunun zəhmətkeşləri ilə görüşdü, rayonun sosial-iqtisadi vəziyyəti ilə tanış oldu, sakinlər qarşısında çıxış etdi. Ölkə başçısı Kolanı və Biçənək kəndlərinin əhalisi ilə görüşüb söhbət etdi, Batabatda oldu, sonra Naxçıvan MR Ali Məclisində müşavirə keçirildi. Müşavirə Naxçıvan Hava Limanının yenidən qurulmasına həsr olundu. Naxçıvan hava limanı 1974-cü ildə tikilmiş və "YAK-40" təyyarələri üçün nəzərdə tutulmuşdu.1992-ci ildə burada uzunluğu 3300 metr olan ikinci uçuş-enmə zolağı tikilmişdi. Naxçıvan ermənilər tərəfindən blokadaya alındığından, dəmir və şose yolları işləmədiyindən əhali ancaq təyyarələrdən istifadə etməli olurdu. Hazırki hava limanı isə tələbatı ödəmirdi. Müşavirədə beynəlxalq hava limanının tikilməsi müzakirə edildi və bu işin 2003-cü ilin sonunadək başa çatdırılması qərara alındı.

Ümummilli lider Heydər Əliyev avqustun 12-də AMEA Naxçıvan Bölməsinin yaradılması ilə əlaqədar keçirilən müşavirədə iştirak və çıxış etdi. Ölkə başçısı muxtar respublikada böyük bir ərazidə suvarmanın təmin olunmasında mühüm rol oynayacaq Vayxır su anbarında əsaslı yenidənqurma və bərpa işlərinin gedişi ilə yaxından tanış olmaq üçün buraya gəldi. Ulu öndər əraziyə baxdı, mütəxəssislərin rəyini dinlədi, su anbarının tikintisində işlərin sürətləndirilməsi üçün tövsiyələrini verdi. Avqustun 13-də Naxçıvan MR Ali Məclisində Prezident Heydər Əliyevin sədrliyi ilə Vayxır su anbarının tikintisinə həsr olunmuş müşavirə keçirildi. Qeyd olundu ki, Vayxır su anbarı 1981-ci ildə layihə-

ləşdirilib, 1982-1983-cü illərdə inşaat işlərinə başlanılıb. 40 metr hündürlüyündə torpaq bənd çəkilmiş, 25 milyon kubmetr su tutan su anbarı yaradılmış, su buraxıcı qurğunun qapıları, tuneli, qəza su tullayıcısının şaxtası və tuneli başa çatdırılıb və istismara verilib.[310] Vayxır su anbarının inşası 1989-cu ildə dayandırılıb. Müşavirədə Vayxır su anbarının layihə gücünə çatdırılması, üzərində 4,5 meqavat gücündə hidroelektrik stansiyasının tikilməsi, görüləcək bütün işlərin yüksək keyfiyyətlə aparılması diqqətə çatdırıldı. Naxçıvanın xüsusi qayğıya ehtiyacı olduğu göstərilməklə, bu qayğıdan, köməkdən, yardımdan səmərəli istifadə edilməsi də xüsusi qeyd edildi.

Azərbaycan Prezidenti Naxçıvan MR-in Sədərək, Şərur və Babək rayonlarının sakinləri ilə görüşlər keçirdi, onların problemləri ilə maraqlandı, həlli üçün konkret tapşırıqlar verdi. Ölkə başçısının Azərbaycan Respublikası ilə Ermənistan Respublikasının sərhəddində yerləşən Sədərək rayonu ərazisində Ermənistan prezidenti ilə təkbətək görüşü oldu.

Ölkə başçısı Naxçıvanda görülən işləri, həyata keçirilən tədbirləri, quruculuq və abadlıq işlərini yüksək qiymətləndirdi, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyindən razı qaldığını bildirdi.

Naxçıvanlılar Muxtar Respublika rəhbərliyinin həyata keçirdiyi quruculuq və islahatlar siyasətini daim müdafiə edir və dəstəkləyirlər. Bunu Naxçıvanda keçirilmiş seçkilərin nəticələri də göstərir.1999, 2004, 2009 və 2014-cü ildə Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilmiş seçkilərdə əhali Heydər Əliyev siyasi kursunu muxtar respublikada uğurla həyata keçirənləri dəstəklədiklərini bir daha sübut etdi. Seçkilər göstərdi ki, muxtar respublika əhalisinin mütləq əksəriyyəti 1995-ci ildən bölgədə uğurla aparılan quruculuq və inkişaf tədbirlərinin əsas təşəbbüskarı və rəhbəri olan Ali Məclisin sədri Vasif Talıbovu və onun komandasını

[310] "Azərbaycan" qəzeti, 2002, 16 avqust



müdafiə edir. Məhz buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə yerlərin əksəriyyətini bu komandanın üzvləri tutmuş, Vasif Talıbov isə artıq beşinci dəfə yenidən Ali Məclisin Sədri, muxtar respublikanın rəhbəri seçilmişdi (1995, 2000, 2005, 2010, 2015).

Vasif Talıbovun yenidən Ali Məclisin Sədri seçilməsi həm də onun göstəricisi oldu ki, naxçıvanlılar onun rəhbərliyi altında regionun ictimai-iqtisadi və siyasi həyatında baş verən müsbət dəyişikliklərin davam etdirilməsini istəyirlər.

Naxçıvanda müxalifətin xalq tərəfindən dəstəklənməməsinin əsas səbəbi də məhz bundadır. Bu gün muxtar respublikada bir çox siyasi partiyaların, əsasən də müxalif siyasi partiyaların yerli şöbələri fəaliyyət göstərsə də, onların muxtar respublikanın ictimai-siyasi həyatına təsir imkanları çox aşağı səviyyədədir. Azərbaycanın iqtidar partiyası YAP Naxçıvanda ən mütəşəkkil siyasi təşkilat olmaqla, eyni zamanda həyata keçirilən islahatların əsas aparıcı qüvvəsidir. Bu gün muxtar respublikada YAP-ın 51 mindən çox üzvü, bütün yaşayış məntəqələri üzrə 797 ərazi ilk partiya təşkilatı fəaliyyət göstərir.[311]

Ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında ümummilli lider Heydər Əliyevin siyasi kursuna uyğun olaraq uğurla aparılan demokratikləşmə, vətəndaş cəmiyyəti quruculuğu, sosial-iqtisadi inkişaf və dövlət quruculuğu siyasəti partiya işinin əsas ideoloji hədəfi olmuşdur.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında, dövlətin idarə olunmasında gənclərin rolu ilbəil artır və onlar cəmiyyət həyatında daha fəal iştirak edirlər. Xüsusən Azərbaycan Prezidentinin imzaladığı 29 iyul 1999-cu il tarixli "Dövlət Gənclər siyasəti haqqında" fərmanı gənclərə göstərilən diqqət və qayğının təzahürü kimi qiymətləndirilə bilər. Bu fərman respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətinin gənclik prob-

[311] "Şərq qapısı" qəzeti, 2014, 22 noyabr

lemlərinin həllinə yönəldilməsi baxımından olduqca qiymətli sənəddir və bu gün də Azərbaycan gənclər təşkilatlarının fəaliyyət proqramı kimi ardıcıllıqla həyata keçirilir. Bu fərmandan sonra muxtar respublikada gənclərin qanunverici və icraedici hakimiyyət orqanlarında ən məsul vəzifələrə irəli çəkilməsi, gənc kadrlara etimad göstərilməsi artmışdır.

Ali Məclis Sədrinin fərmanı ilə müxtəlif illərdə gənclərin nümayəndələri, nazir, komitə sədri, icra hakimiyyətinin başçısı, baş prokuror və başqa vəzifələrə təyin olunublar. Gənclər rəhbər vəzifələrə irəli çəkilərkən ədalət prinsipinə, irəli çəkilən gənclərin qabiliyyət və bacarığına, peşəkarlığına üstünlük verilir. Son illərdə muxtar respublikanın əldə etdiyi uğurlar da göstərir ki, kadr siyasəti sahəsində aparılan islahatlar, o cümlədən kadrların yerləşdirilməsi və gənclərin irəli çəkilməsi özünü doğrultmuşdur.

Yeniyetmə və gənclər siyasəti ilə bağlı həyata keçirilən tədbirlərdə ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsi, gənclərdə hərbi vətənpərvərlik və vətəndaşlıq hislərinin aşılanması, elmə, təhsilə marağın artırılması, asudə vaxtlarının səmərəli təşkili, gənclərin ölkədə, o cümlədən muxtar respublikada həyata keçirilən islahatlar və proqramların gerçəkləşdirilməsinə səfərbər edilməsi, onların yüksək sosial, mənəvi, fiziki inkişafını təmin edən fəaliyyət sahələrinə istiqamətləndirilməsi ön planda olmuşdur.

Muxtar respublikada ondan çox gənclər təşkilatı, ictimai birlik və federasiya fəaliyyət göstərir. 1996-cı ildə gənclər təşkilatlarının muxtar respublika üzrə Milli Şurası yaradıldıqdan sonra Azərbaycan və xarici ölkələrin milli və beynəlxalq gənclər təşkilatları ilə əlaqələri möhkəmlənmişdi. Naxçıvan gənclərinin nümayəndələri Azərbaycan gəncləri ilə birlikdə dünyanın bir sıra ölkələrində keçirilən konqreslərdə, tədbirlərdə, yarışlarda iştirak etmişlər.

Muxtar respublikada yaradıcı gənclərin aşkar edilməsi, onlara diqqət və qayğının artırılması istiqamətində görülmüş işlər də diqqəti cəlb edir. 1999-cu ilin sentyabrında Gənclər və İdman



Nazirliyinin kollegiyasında "Yaradıcı gənclər üçün mükafatların təsis edilməsi haqqında" məsələ müzakirə edilmiş və qəbul edilmiş qərara uyğun olaraq müxtəlif sahələr üzrə istedadlı gənclərə mükafatlar təqdim edilmişdir.

Muxtar respublikanın əhalisinin 62,3 faizini 35 yaşadək olan gənc nəsil təşkil edir. Muxtar respublikada gənclərin asudə vaxtlarının səmərəli təşkili, yaradıcılıq potensialının üzə çıxarılması diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)"nın uğurla icra olunması bu sahədə həyata keçirilən tədbirlərin mühüm tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli fərmanı və 2013-cü il 15 yanvar tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması muxtar respublikada gənclərə göstərilən yüksək diqqət və qayğının əyani ifadəsidir. Dövlət gənclər siyasəti cəmiyyətin əsas hərəkətverici qüvvəsinə çevrilən gənclərin ictimai-siyasi, iqtisadi və mədəni həyatda fəal iştirakını, onların sosial problemlərinin həllini ehtiva edir. Bu məqsədlə 2014-cü ildə ölkə başçısının muxtar respublikaya səfəri zamanı Naxçıvan şəhərində Gənclər Mərkəzi istifadəyə verilmişdir. Hazırda binada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yerləşir və aid təşkilatlarla birlikdə gənclərin fəallığının artırılması, onların qüvvə və enerjisindən, bilik və bacarığından səmərəli istifadə olunması istiqamətində uğurla fəaliyyət göstərir.

Muxtar respublikada gənclər arasında bədən tərbiyəsi və idmanın inkişafı sahəsində də mühüm nailiyyətlər qazanılmışdır. İdmançılar bir çox beynəlxalq yarışlarda iştirak edərək yüksək nəticələr göstərmişlər. Naxçıvan idmançıları 1993-2013-cü illər-

də yerli və beynəlxalq əhəmiyyətli yarışlarda 713 medal qazanmışlar. Naxçıvan idman məktəbinin yetirməsi Hüseyn Həsənov 2012-ci ildə Londonda keçirilən XIV Yay Paralimpiya Oyunlarında bürünc mükafat qazanmışdır.[312]

Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da sosial-iqtisadi həyatın, mənəvi-mədəni mühitin yaxşılaşdırılmasında qadınların roluna, onların cəmiyyətdəki sosial mövqeyinə ciddi əhəmiyyət verilir. Müstəqillik dövründə qadın hərəkatı daha da genişlənmişdir. Qadınlarla bağlı dövlət siyasəti beynəlxalq norma və prinsiplər nəzərə alınaraq ümummilli lider Heydər Əliyevin tövsiyə və məsləhətlərinə uyğun aparılır. Muxtar respublikada bütün təbəqələrdən olan qadınların ictimai-siyasi həyata cəlb olunmasında, onların sosial fəallığının artırılmasında 1995-ci ildə yaradılmış Naxçıvan Muxtar Respublikasının Qadınlar Məclisi mühüm rol oynamışdır.[313] Qadınlar Məclisi muxtar respublika qadınlarının ictimai-siyasi həyatda daha fəal olması üçün bir sıra tədbirlər hazırlayıb həyata keçirmişdir. Naxçıvan qadınları dünyanın müxtəlif ölkələrində keçirilmiş mötəbər qadın məclislərində iştirak etmişlər. Onlar Pekin Beynəlxalq Qadınlar Konfransında, Şimali Kiprdə "Gəlişən və gedişən dünyada türk dövlətləri qadınlarının problemləri" mövzusunda keçirilən konfransda iştirak etmişlər.[314]

Naxçıvanda qadın hərəkatının inkişafında 1997-ci ilin oktyabrında "Sevil" Qadınlar Məclisinin xətti ilə Naxçıvan şəhərində keçirilmiş "Azərbaycan qadını XXI əsrin astanasında" beynəlxalq konfransı mühüm rol oynadı. Konfransda qonşu dövlətlərdən gəlmiş qadınların iştirakı muxtar respublika qadınlarının beynəlxalq qadın təşkilatları ilə daha sıx iş birliyinin yaradılmasına təkan verdi.[315] Konfransda muxtar respublika qadınla-

[312] Naxçıvan 2003 -2013: hədəflər, inkişaf, nəticələr. Naxçıvan, 2014, s.148
[313] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.141
[314] "Şərq qapısı" qəzeti, 1997, 12 mart
[315] Yenə orada, 1997, 15 oktyabr



rını düşündürən bir çox problemlər geniş müzakirə edilmiş, qadın hərəkatının inkişafı ilə bağlı vəzifələr müəyyənləşdirilmişdi.

Qadınların sosial fəallığını, ictimai-siyasi həyatda iştirakını artırmaq üçün son vaxtlar onlar idarəetmə strukturlarına daha geniş cəlb olunurlar. Muxtar respublikada ən yüksək inzibati və təsərrüfat vəzifələrində qadınlar uğurla fəaliyyət göstərirlər.

Bu istiqamətdə "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" Azərbaycan Respublikası prezidentinin 6 mart 2000-ci il tarixli fərmanı və qadın siyasəti ilə bağlı digər qəbul edilmiş sənədlər mühüm rol oynamışdı.[316] Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 28 sentyabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması və fəaliyyətinin təmin olunması ilə qadınların muxtar respublikanım ictimai-siyasi həyatında fəallıqları artırılmışdır.

Bununla belə müstəqilliyin ilk illərində qadınların muxtar respublikanın ictimai-siyasi həyatında iştirakı kişilərlə müqayisədə çox aşağı səviyyədə olmuşdu. Bunu muxtar respublikaya aid statistik göstəricilər və tədqiqatlar da sübut edir. Sosial və siyasi fəallığın ən əsas göstəricilərindən olan seçkilərdə iştirak məsələsində də qadınların aktivliyi zəif olmuşdur. Muxtar respublikada yerli özünüidarə orqanları – bələdiyyələrin tərkibində qadınlar çox az olmuşdur. Qadınların bu sahədə passivliyini göstərən daha bir fakt budur ki, 2000-ci ildə Ali Məclisin 45 üzvündən yalnız biri qadın idi. Lakin son illərdə muxtar respublika rəhbərliyinin qadın siyasəti ilə bağlı həyata keçirdiyi məqsədyönlü tədbirlər qadınların ictimai-siyasi, sosial-mədəni həyatdakı iştirakı və fəallığı xeyli artmışdır. Qadınlar istər icra, istər qanunvericilik, istərsə də məhkəmə hakimiyyəti orqanlarında geniş təmsil olunur, yüksək və məsul vəzifələrə irəli çəkilirlər. Seçki orqanlarında qadınlar xüsusilə fərqlənirlər. Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisində 6 nəfər qadın

[316] "Azərbaycan" qəzeti, 2000, 7 dekabr

deputat fəaliyyət göstərib. 2009-cu ildə keçirilmiş bələdiyyə seçkilərində 375 qadın səs toplayaraq muxtar respublikanın yerli özünüidarəetmə orqanlarında təmsil olunmuşlar ki, bunlardan da 8-i bələdiyyə sədri, 2-si bələdiyyə sədrinin müavini vəzifələrində çalışıb.[317] 2014-cü il seçkilərində isə 171 bələdiyyəyə 1453 nəfər üzv seçilmişdir ki, bunun da 285-i qadınlar olmuşdur. Qadınlardan 14-ü bələdiyyə sədri, 2-si sədr müavini, qalanları isə üzv kimi fəaliyyət göstəriblər.

Azərbaycan Respublikasında keçirilmiş prezident seçkilərində naxçıvanlılar fəal iştirak etmiş və onların tam əksəriyyəti Heydər Əliyev dövlətçilik məktəbinin layiqli müdavimi, bu siyasi kursun davamçısı İlham Əliyevə səs vermişlər.

Ölkə prezidenti seçildikdən sonra İlham Əliyevin yeritdiyi siyasət, xüsusən Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına yönələn tədbirlər seçicilərin öz seçimlərində yanılmadıqlarını göstərdi. 2008 və 2013-cü il prezident seçkilərində də Naxçıvan seçiciləri İlham Əliyevin yeritdiyi siyasətin alternativi olmadığını göstərdilər və ona səs verdilər. Regionların hərtərəfli inkişafına nail olunması üçün prezidentin 11 fevral 2004-cü il tarixli fərmanı ilə təsdiq edilən Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramında Naxçıvan Muxtar Respublikasının inkişafına da əhəmiyyətli yer ayrılmışdır.[318] Ölkə prezidenti blokada şəraitində muxtar respublikanı daim himayə edir və ona qayğı göstərir. Bununla əlaqədar Prezident İlham Əliyev demişdir: "...Naxçıvana daim diqqət və qayğı olmalıdır. Naxçıvan blokada şəraitində yaşayır. Azərbaycanın əsas hissəsindən ayrı yaşayır və hər bir qurum, hər bir nazirlik, hər bir təşkilat Naxçıvana xüsusi diqqət və qayğı göstərməlidir. Bu, Heydər Əliyevin siyasəti olubdur, mənim siyasətimdir və mən onu bundan sonra da davam etdirəcəyəm".[319]

---

[317] "Şərq qapısı" qəzeti, 2014, 22 noyabr
[318] Azərbaycan 2013-2003. Əsrə bərabər illər. Regional inkişaf: modernləşmə və sahəvi ənənələrin qorunması. Bakı: Şərq-Qərb, 2013
[319] Əliyev İlham. İnkişaf məqsədimizdir. 14-cü kitab (oktyabr 2005 - dekabr 2005). Bakı: Azərnəşr, 2013, s.224-225



Azərbaycan Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 80 illik yubileyinin keçirilməsi haqqında" 2004-cü il fevralın 9-da sərəncam imzaladı. Sərəncamda Naxçıvanın tarixinin tədqiq edilməsinin vacibliyinin, Naxçıvan Muxtar Respublikasının yaradılmasının və bu əlamətdar tarixin qeyd olunmasının Azərbaycan üçün böyük tarixi-siyasi əhəmiyyəti vurğulanır və 1999-cu ildə Prezident Heydər Əliyevin imzaladığı "Naxçıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında" geniş məzmunlu fərmanın tarixi əhəmiyyəti qeyd olunur. Sərəncamda deyilir: "Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan bu diyarının tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir".[320]

Ölkə Prezidentinin sərəncamına uyğun olaraq Naxçıvan MR-in yaradılmasının 80 illik yubileyi respublikada, onun ayrı-ayrı şəhər və rayonlarında, elm və təhsil müəssisələrində qeyd edildi, elmi konfranslar keçirildi, mətbuatda məqalələr çap edildi. AMEA Naxçıvan Bölməsində keçirilən "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" elmi konfransı Naxçıvan MR-in 80 illiyinə həsr edildi. Naxçıvan Dövlət Universitetində keçirilən konfransın materialları çap edildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2004-cü il 27 fevral tarixi sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı.[321] Azərbaycan Prezidenti 2004-cü il

---

[320] "Azərbaycan" qəzeti, 2004, 10 fevral
[321] "Respublika" qəzeti, 2004, 28 fevral

martın 19-da Şərur və Babək rayonlarının əraziləri hesabına Kəngərli rayonunun yaradılması haqqında qanunu imzaladı.[322]

Naxçıvan Muxtar Respublikası mayın 12-14-də özünün əlamətdar və tarixi günlərini yaşadı. İlham Əliyev Azərbaycan Prezidenti kimi bu qədim diyara səfər etdi. 12 may 2004-cü ildə Naxçıvan Beynəlxalq Hava Limanının açılışı həyata keçirildi.[323] Dövlət başçısı nitq söylədi və hava limanının rəmzi açılışını bildirən lenti kəsdi. Müasir memarlığın ən mühüm elementlərini özündə cəmləşdirən bu yaraşıqlı hava limanı kompleksi bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır, onun xeyir-duası, qayğı və himayəsi ilə tikilib ərsəyə gəlmişdi. Tikinti işlərinə 2002-ci il oktyabrın 1-də başlanılmış və bu işləri Türkiyənin "Eren port" şirkəti aparmışdı. Layihənin ümumi dəyəri 193,5 milyon manat idi.[324] Muxtar respublikanın iqtisadi və sosial həyatında mühüm rol oynayacaq bu beynəlxalq standartlara uyğun hava limanını tikmək üçün yerli mütəxəssislərlə yanaşı, Türkiyədən və Avropa ölkələrindən də gəlmiş mütəxəssislər iştirak etdilər. Lazımi avadanlıq, cihaz və ləvazimatlar isə İngiltərədən, Fransadan, Danimarkadan, Almaniyadan, Rusiyadan, İrandan, Koreyadan, Çindən, Yaponiyadan və Türkiyədən gətirildi. Ən böyük və ağır yüklü "Boinq – 747" tipli təyyarələri qəbul edə bilən Naxçıvan Beynəlxalq Hava Limanı Naxçıvan Muxtar Respublikasının beynəlxalq aləmə daha sıx inteqrasiya olunması üçün imkan yaratdı. Hava limanının açılış mərasimində naxçıvanlıları təbrik edən ölkə Prezidenti İlham Əliyev dedi: "Naxçıvan hava limanına beynəlxalq status verilibdir. Bu statusdan istifadə edib digər marşrutlar üzərində işləmək mümkün olacaqdır".[325]

Prezident İlham Əliyevin Naxçıvan səfəri tədbirlər planının zənginliyi ilə diqqəti cəlb etdi. Beynəlxalq aeroportla yanaşı, Naxçıvan Dövlət Universitetinin elektron kitabxanasının,

[322] Yenə orada, 2004, 20 mart
[323] Azərbaycanın regionları. Yeni inkişaf dövrü. Üç cilddə, I cild. Bakı, 2014, s.116-119
[324] "Xalq qəzeti", 2004, 19 may
[325] Yenə orada



AMEA-nın Naxçıvan Bölməsi üçün yeni inzibati binanın, Əlillərin Bərpa Mərkəzinin açılışında iştirak və çıxış etdi. Heydər Əliyev adına məktəbin, sənaye kompleksinin, Vayxır su anbarının tikintisi ilə tanış oldu, "N" saylı hərbi hissədə əsgər və zabitlərlə görüşdü, Ali Məclisdə müşavirə də keçirdi.

Naxçıvan MR Ali Məclisinin binasında keçirilən geniş müşavirədə Prezident İlham Əliyev muxtar respublikada müşahidə edilən sosial-iqtisadi inkişaf tempindən razı qaldığını və genişmiqyaslı quruculuq işlərindən məmnun olduğunu bildirdi. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın (2004-2008-ci illər) icrasına toxunan Prezident Dövlət Proqramının Naxçıvanda uğurla həyata keçirildiyini qeyd etdi, muxtar respublikada gedən inkişaf prosesini, quruculuq işlərini yüksək qiymətləndirdi: "Naxçıvanda gedən proseslər çox uğurludur... sosial-iqtisadi islahatlar, quruculuq işləri, yeni müəssisələrin yaradılması-bütün bunlar çox müsbət haldır. Mən çox şadam, çox sevinirəm ki, Naxçıvan belə yüksək ahənglə inkişaf edir".[326]

Prezidentin səfərinin üçüncü günü muxtar respublikanın yaradılmasının 80 illiyi münasibətilə tədbir keçirildi. Təntənəli mərasimdə ölkə başçısı İlham Əliyev çıxışında Azərbaycanın qədim diyarı olan Naxçıvanın sürətlə inkişaf etməsini və inamla irəliləməsini fərəh hissi ilə qeyd etdi: "Mən çox sevinirəm ki, Naxçıvanda gözəl quruculuq və abadlıq işləri aparılır. Blokada şəraitində yaşayan, Azərbaycanın əsas hissəsindən ayrı düşmüş Naxçıvan yaşayır, güclənir və irəliyə doğru inamla addımlayır. Fürsətdən istifadə edərək mən Naxçıvan rəhbərliyinə və şəxsən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova görülən bütün işlərə görə öz dərin minnətdarlığımı bildirirəm".[327]

Dövlət başçısının qədim torpağa səfəri zamanı, muxtar respublikanın sakinləri ilə səmimi görüşləri, xoş ünsiyyətləri

[326] "Azərbaycan" qəzeti, 2004, 11 iyun
[327] "Azərbaycan" qəzeti, 2004, 16 may

yaddaşlarda dərin izlər saldı, Naxçıvan Muxtar Respublikasının hərtərəfli yüksəlişinə təkan verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbin açılış mərasimində iştirak etmək üçün 2004-cü il sentyabrın 2-də Naxçıvana gəldi.

Yeni istifadəyə verilən məktəb binasının önündə ümummilli lider Heydər Əliyevin heykəlinin açılışı oldu. Təməli ulu öndər tərəfindən qoyulan 1206 yerlik 3 mərtəbəli məktəbdə 67 sinif otağı, kompüter sinfi, hərbi hazırlıq otağı, laboratoryalar, kitabxana, idman salonu, basketbol və futbol meydançaları, tibb məntəqəsi, bufet-yeməkxana şagirdlərin istifadəsinə verildi.[328] Mərasimdə qeyd edildi ki, 2003-cü ildə Naxçıvan Muxtar Respublikasında 2390 şagird yeri olan 10 məktəb istifadəyə verilmişdir. Hazırda isə 3274 yerlik 11 yeni məktəb binası tikilir, 2600 yerlik 5 məktəb binasında isə əsaslı təmir və yenidənqurma işləri aparılır.[329]

Ölkə Prezidenti Heydər Əliyev adına tam orta məktəbin açılışında nitq söylədi. Təhsil islahatının həyata keçirilməsi, yeni məktəblərin tikilməsi, 2005-2007-ci illərdə ölkənin məktəblərində kompüter siniflərinin yaradılması kimi məsələləri önə çəkən İlham Əliyev, Azərbaycanda gənclərin müasir biliklərə və texnologiyalara yiyələnməsi üçün hər cür şərait yaradıldığını bildirdi.

Ölkə başçısı Naxçıvan şəhərində Mülki Müdafiə və Üzgüçülük Mərkəzlərinin açılış mərasimlərində də iştirak etdi.

Azərbaycan Prezidentinin iştirakı ilə Naxçıvan MR Ali Məclisində keçirilən geniş müşavirə isə muxtar respublika əhalisinin üzləşdiyi bir sıra problemlərin həlli baxımından əlamətdar idi. İlham Əliyev Naxçıvanın mavi yanacaqla, elektrik enerjisi ilə təchizatının daha da yaxşılaşdırılması üçün aidiyyəti dövlət

[328] "Şərq qapısı" qəzeti, 2004. 3 sentyabr
[329] "Azərbaycan" qəzeti. 2004. 3 sentyabr



orqanlarına konkret tapşırıqlar verdi. Müşavirədə həmçinin bildirildi ki, 2005-ci ilin sonunda Naxçıvana ilk qaz veriləcəkdir.[330]

Azərbaycan Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına növbəti səfəri 2005-ci il dekabrın 19-20-də oldu. Səfərin ilk günündə Naxçıvan şəhərində Diaqnostika-Müalicə Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak edən Prezident şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü. Heydər Əliyev adına Hərbi Liseydə kursantlar qarşısında çıxış etdi. Əsası 1980-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qoyulan Heydər Əliyev Su Anbarının istifadəyə verilməsi mərasimində iştirak etdi. 100 milyon kubmetr su tutumu olan bu anbarın sayəsində 16 min hektar əkin sahələri suvarılacaqdır. Ölkə Prezidenti Şahbuz rayonunun Ayrınc kəndində tikilmiş orta məktəb binasının açılışında da iştirak etdi. Naxçıvan şəhərində Kitab evinin və Gənclik Mərkəzinin rəmzi açılışını bildirən lentləri kəsdi.

Dekabrın 20-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad Naxçıvan Muxtar Respublikasına səfərə gəldi.

Azərbaycan Prezidenti İlham Əliyev və İran Prezidenti Mahmud Əhmədinejad "Azərbaycan Respublikası və İran İslam Respublikası arasında energetika sahəsində əməkdaşlıq haqqında" memorandumu imzaladılar. Azərbaycan Respublikasının Hökuməti və İran İslam Respublikasının Hökuməti arasında memorandum da imzalandı.

Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində müşavirə oldu. Müşavirədə muxtar respublikada görülmüş işlər və qarşıda duran vəzifələr təhlil edildi. Ölkə Prezidentinin nitqində Naxçıvan Muxtar Respublikasında əldə olunan nailiyyətlər yüksək qiymətləndirildi: "Keçən il mən iki dəfə Naxçıvanda olmuşdum. Bir ildən artıqdır ki, gəlmirdim buraya və bu müddətdə böyük dəyişiklikləri görürəm: yeni tikintilər, müasir. çox böyük zövqlə tikilmiş bina-

[330] "Xalq qəzeti", 2004, 4 sentyabr

lar, abadlıq, quruculuq işləri. Blokada şəraitində yaşayan respublikanın belə böyük uğurlar əldə etməsində, əlbəttə ki, sizin hamınızın, hər birinizin əməyi var. Xüsusilə mən Naxçıvan Muxtar Respublikasının rəhbərini, Vasif Talıbovu bu münasibətlə təbrik etmək, ona minnətdarlığımı bildirmək istəyirəm".[331]

Regionların sosial-iqtisadi inkişafına çox böyük əhəmiyyət verən Azərbaycan Prezidenti İlham Əliyev üçüncü səfərindən bir il sonra – 2006-cı il dekabrın 20-21-də yenidən Naxçıvan Muxtar Respublikasına səfər etdi.

Ölkə rəhbəri Naxçıvan şəhərinin mərkəzində xalqımızın ümummilli liderinin abidəsinin və Heydər Əliyev Muzeyinin açılışı mərasimində iştirak etdi. Muzeydə 1103 eksponat nümayiş etdirilirdi. Hazırda eksponatların sayı 4552-yə çatmışdır. Burada ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, onun xalqımızın tarixinə, mədəniyyətinə, incəsənətinə göstərdiyi diqqət və qayğını əks etdirən fotoşəkillər, ulu öndər haqqında yazılmış kitablar, ümummilli liderin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən istifadə etdiyi əşyalar, eləcə də bütün xarici səfərlərini əks etdirən materiallar toplanmışdır.

Təməli Prezident İlham Əliyev tərəfindən qoyulmuş Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin açılışı oldu. Mərkəzin açılışında Ölkə Prezidenti geniş nitq söylədi: "Bu gözəl mərkəz həm xarici görünüşünə, həm də daxili təchizatına görə dünyanın ən yüksək standartlarına cavab verir. Bu bir memarlıq abidəsidir və əminəm ki, burada göstəriləcək xidmət ən yüksək səviyyədə olmalıdır və olacaqdır. Çünki burada quraşdırılmış avadanlıq dünyanın ən öndə gedən tibb firmalarının istehsalıdır və ən qabaqcıl texnologiyaları əks etdirir. Biz düz bir il bundan əvvəl bu mərkəzin təməlqoyma mərasimini bərabər keçirdik və o vaxt da mən əmin olduğumu bildirmişdim ki, qısa müddət ərzində bu mərkəz tikilib istifadəyə veriləcəkdir. Çox şadam ki, düz bir il

[331] "Azərbaycan" qəzeti, 2005, 22 oktyabr



ərzində biz buna nail ola bildik və bu gün bu mərkəz naxçıvanlıların sərəncamına verilir".[332]

"Gəmiqaya" şirkətinin gözəl memarlıq üslubunda inşa etdiyi, ən müasir standartlara cavab verən bu mərkəzin ümumi sahəsi 1385 kvadrat metrdir. Zirzəmi qatından və beş mərtəbədən ibarət bu səhiyyə müəssisəsi dünyanın qabaqcıl ölkələrində ən son texnologiyalar əsasında istehsal edilmiş cihaz və avadanlıqlarla təchiz olunmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev ölkə miqyasında, eləcə də Naxçıvan Muxtar Respublikasında əhalinin, sənaye müəssisələrinin enerji ilə təminatı, enerji təhlükəsizliyi məsələsinə xüsusi əhəmiyyət verir. Prezident bu səfərində üç mühüm elektrik stansiyasının açılışını həyata keçirdi. Bununla əlaqədar ölkə Prezidenti çıxışında demişdir: "Naxçıvan özü enerjiyə olan tələbatını ödəyəcəkdir. 87 meqavat gücündə modul elektrik stansiyasının tikintisi, 50 meqavat gücündə elektrik stansiyasının bərpası, Heydər Əliyev Su Anbarında tikilmiş 4,5 meqavat gücündə Vayxır elektrik stansiyası – bütün bunlar son müddət ərzində görülmüş işlər, Naxçıvanın enerji təhlükəsizliyini təmin edən məsələlərdir".[333]

Azərbaycanın bütün bölgələri kimi, Naxçıvan da çox sürətlə inkişaf edir. Prezidentin regionlara səfərləri də sosial-iqtisadi inkişafa təkan verir. Son illərdə Naxçıvan Muxtar Respublikasında 100-dən artıq yeni məktəb binası tikilmiş və ya əsaslı təmir olunmuşdur. Azərbaycan Prezidenti Naxçıvan şəhərindəki 792 yerlik 7 nömrəli orta məktəbin və Ordubad şəhərində internat-məktəb kompleksinin açılışında iştirak etmişdir. 430 şagird yerlik Ordubad internat-məktəb kompleksinə yataqxana korpusu, 204 yerlk yeməkxana, idman salonu və meydançası, dərziçilik, çəkməçilik, xalçaçılıq sənətlərini öyrənmək üçün peşəyönümlü kabinələr, laboratoriyalar və yardımçı tikililər daxildir.

[332] "Azərbaycan" qəzeti, 2006, 21 dekabr
[333] "Azərbaycan" qəzeti, 2006, 21 dekabr

Prezident bu səfərində akademik Y.Məmmədəliyevin Ordubad şəhərindəki ev-muzeyi ilə, Naxçıvan şəhərində "Cahan Holdinq" şirkətlər qrupunun istehsal sahələri ilə tanış olmuş, "Duzdağ" mehmanxanasının təməlini qoydu. Səfərin yekununda Prezident İlham Əliyevin sədrliyi ilə Naxçıvan MR Ali Məclisində geniş müşavirə keçirilmiş, əldə olunan uğurlar və qarşıda duran vəzifələr təhlil edilmişdir. Ölkə Prezidenti Naxçıvanda aparılan quruculuq, abadlıq işlərindən, sosial infrastrukturun yeniləşməsindən razı qaldığını bildirmişdir.

Ölkə Prezidenti İlham Əliyev 2007-ci il oktyabr ayının 17-də və 2008-ci ilin iyun ayının 3-4-də Naxçıvanda səfərdə olmuşdur. Səfərlərdə Prezident İlham Əliyev Naxçıvan Dövlət Universitetinin Konseravatoriyasının, Culfa və Şərur rayon Mərkəzi Xəstəxanalarının açılışında iştirak və çıxış etmişdir. Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan iyunun 4-də (2008) Naxçıvana rəsmi səfəri çərçivəsində Prezident İlham Əliyevlə görüşmüşdür. Görüşdə Azərbaycan ilə Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunmuş, ölkələrimizin qlobal layihələri birgə uğurla həyata keçirməsi, beynəlxalq aləmdə bir-birinin mövqelərini tam dəstəkləməsi, regional əməkdaşlıqla fəal iştirakı bildirilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisində keçirilən birgə mətbuat konfransında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan bəyanatla çıxış etmişlər. Ölkə rəhbərləri Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyi ilə tanış olmuş, "Duzdağ" Fizioterapiya Mərkəzinin açılışında iştirak etmişlər. Prezident İlham Əliyev Şahtaxtı-Poldəşt sərhəd keçid məntəqəsinin açılışında iştirak etmiş, "N" saylı hərbi hissədə olmuş, Dədə Qorqud meydanı və Turizm Mərkəzi, Zərifə Əliyeva adına Şahtaxtı kənd orta məktəbi ilə tanış olmuş, Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin – Doğum Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri, muxtar respublikanın sosial-iqtisadi, ictimai-mədəni inkişafına müsbət təsirini göstərdi.

Heydər Əliyev siyasəti Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir və öz müsbət təsirini göstərir. Muxtar respublika dinamik inkişaf yolundadır və infrastruktur baxımından müasirləşir.

Naxçıvan Muxtar Respublikasının yubileylərinin qeyd olunması xüsusi yer tutur. Ötən dövrlər ərzində Naxçıvanın muxtariyyət bayramı 8 dəfə (1949, 1964, 1974, 1984, 1999, 2004, 2009 və 2014) qeyd edilmişdir. Muxtar respublikanın yubileyləri ulu öndərin Azərbaycana birinci və ikinci rəhbərliyi dövründə daha yüksək, səviyyədə keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında" 2009-cu il fevralın 6-da Sərəncam imzalamışdır. Həmin sərəncamda Naxçıvanın Azərbaycan tarixində oynadığı rol və istiqlaliyyət yolundakı əvəzsiz xidmətləri yüksək qiymətləndirilmişdir: "Azərbaycanın qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda parlaq inkişaf yolu keçmişdir...Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına... dəyərli töhfələr verir".[334]

Naxçıvan Muxtar Respublikasının yubileylərinin keçirilməsinin böyük siyasi, tarixi və elmi əhəmiyyəti vardır. 85 illik yubileyin ölkəmizdə geniş şəkildə qeyd olunması muxtar respublikaya göstərilən dövlət qayğısının daha bir ifadəsidir. Ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi quruculuq yolu ilə ge-

[334] "Azərbaycan" qəzeti, 2009, 7 fevral

dən Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi sahədə böyük inkişafa nail olmuş, intibah və dirçəlişə qovuşmuşdur. Ümummilli lider Heydər Əliyev şəxsiyyəti olmasaydı, Naxçıvan yaşayaraq bu günkü günə gəlib çata, onun muxtariyyəti və ərazisi qorunub saxlanıla bilməzdi.

Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn ölkə Prezidenti İlham Əliyevi muxtar respublika sakinləri çox böyük coşqu və yüksək əhval-ruhiyyə ilə qarşıladılar. Prezident İlham Əliyev Heydər Əliyev sarayının yenidən qurulmasından sonrakı vəziyyəti ilə tanış olmuş, Doğum Mərkəzinin, Badamlı Mineral Sular Zavodunun, Şərur Olimpiya İdman Kompleksinin açılışında iştirak və çıxış etmişdir. Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyi tədbirlərində iştirak edən Prezident İlham Əliyev geniş məruzə etmiş, Naxçıvanın muxtariyyət dövründə keçdiyi tarixi yolu və qazandığı uğurları yüksək qiymətləndirmiş, diyarın qorunub saxlanılmasında və muxtariyyət statusunun möhkəmləndirilməsində ulu öndər Heydər Əliyevin tarixi rolundan bəhs etmişdir. Prezident çıxışında həm də Naxçıvanın son illərdəki uğurlarında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin və muxtar respublika əhalisinin fəaliyyətinə yüksək qiymət vermişdir.

Naxçıvan Muxtar Respublikasının 85 illiyinin siyasi və tarixi əhəmiyyəti nəzərə alınaraq bununla bağlı elmi konfranslar Rusiya Federasiyasının paytaxtı Moskva və Sankt-Peterburq şəhərlərində keçirilmişdir. "Rusiya-Azərbaycan münasibətləri: keçmişi, bu günü, gələcəyi" mövzusunda keçirilən konfrans Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr edilmişdi. Konfransda Azərbaycandan getmiş nümayəndələrlə yanaşı, Moskva və Sankt-Peterburqdan olan alim və ziyalılar da çıxış etmişlər.[335]

Naxçıvan Muxtar Respublikasının son illərdəki dinamik inkişafı, quruculuq və müasirləşmə baxımından böyük infrastruktur layihələrinin həyata keçirilməsi bir sıra beynəlxalq tədbirlərin

[335] "Azərbaycan" qəzeti, 2010, 15 may



burada keçirilməsinə əsas verir. Bu mənada Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsi təsadüfi deyildi. Türk dövlət başçılarının zirvə toplantısının Naxçıvanda keçirilməsinin çox böyük geosiyasi, ideoloji mənası və tarixi əhəmiyyəti vardır.

Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşü 2009-cu il oktyabrın 2-3-də Naxçıvan şəhərində keçirildi. Əvvəlki zirvə görüşləri 1992-ci ildə Ankarada, 1995-ci ildə Bişkekdə, 1996-cı ildə Daşkənddə, 1998-ci ildə Astanada, 2000-ci ildə Bakıda, 2001-ci ildə İstanbulda və 2006-cı ildə Antalyada keçirilmişdi.[336] Bu zirvə görüşü sayca 9-cu idi. Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşündə iştirak etmək üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Abdulla Gül, Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev, Qırğızıstan Respublikasının Prezidenti Kurmanbek Bakiyev oktyabrın 2-də Naxçıvana gəldilər. Oktyabrın 3-də isə Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Xıdır Saparlıyev zirvə toplantısında iştirak etmək üçün Naxçıvana gəldi. Ölkə Prezidentləri oktyabrın 2-də türk dünyasının böyük oğlu, ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət etdilər, əklil qoydular və Heydər Əliyev Muzeyi ilə tanış oldular. Prezidentlər "Əcəmi" seyrəngahı ilə tanış oldular, burada ulu öndər Heydər Əliyevin büstünü ziyarət etdilər. Sonra Prezidentlər "Əcəmi" seyrəngahında Açıq Səma Altındakı Muzeyin eksponatlarına baxdılar, Möminə Xatın türbəsi ilə tanış oldular. Türkdilli xalqların milli musi- qisindən ibarət olan konsert dövlət başçılarında böyük maraq doğurdu. Heydər Əliyev Sarayında təşkil olunan konsert proqramı türk xalqlarının birliyi ideyasını ideoloji çalarlarla ifadə etdi. Oktyabrın 3-də "Duzdağ" mehmanxanasının konfrans zalında zirvə görüşü keçirildi. 2 və 3 oktyabr tarixlərində keçirilən möhtəşəm tədbirlər silsiləsi türk dünyasının birliyi, həmrəyliyi, bu günü və gələcəyi baxımından çox mühüm töhfələrlə yadda

[336] "Azərbaycan" qəzeti, 2009, 4 oktyabr

qaldı. Türk xalqları arasındakı mədəni və iqtisadi əlaqələri dərinləşdirmək, qarşılıqlı əməkdaşlığı artırmaq, ortaq tarixi, milli-mənəvi dəyərləri öyrənmək, qorumaq və təbliğ etmək, türkdilli ölkələrin beynəlxalq sülh və sabitliyə xidmət edən müsbət fəaliyyətlərini artırmaq, ölkələrin yerləşdiyi coğrafiyanı əməkdaşlıq, sabitlik və sülh bölgəsinə çevirmək, onların beynəlxalq siyasi arenada ortaq maraqlarından çıxış etməsini təmin etmək IX zirvə görüşünün əsas mahiyyəti kimi nəzərə çarpdı.

Dövlət başçıları tərəfindən yeni təkliflər də səsləndi. Ölkə başçısı İlham Əliyev TÜRKSOY Fondunun, Qazaxıstan prezidenti Nursultan Nazarbayev Türkdilli Akademiyanın yaradılmasını, Türkiyə prezidenti Abdulla Gül ənənəvi türk idman oyunlarının da yer aldığı idman tədbirlərinin keçirilməsini məqsədəuyğun hesab etdilər.[337] Qırğızıstan prezidenti Kurmanbek Bakiyev iqtisadi layihələrin, xüsusilə də energetika, nəqliyyat və turizm sahəsində ümumi səylərin möhkəmləndirilməsini təklif etdi.[338]

Sonda Prezidentlər Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasının yaradılması haqqında Naxçıvan sazişini imzaladılar. Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün yekunu olaraq Naxçıvan bəyannaməsi qəbul edildi.

Aparılan müzakirələr, irəli sürülən məsələlər və qəbul edilən qərarlar baxımından əvvəlki sammitlərdən fərqlənən IX zirvə görüşünün ən böyük xüsusiyyəti heç şübhəsiz tədbirin Naxçıvanda keçirilməsi oldu. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu qədim yurd yeri tarixində ilk dəfə bu qədər dövlət rəhbərini, xarici qonağı qarşıladı. Burada ilk dəfə türk dövlətlərinin bayraqları birgə dalğalandı.

Türk dünyası, bütün dünya Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində blokada vəziyyətinə düşmüş muxtar respublikanın necə inkişaf etdiyini, nələrə qadir olduğunu gördü.

[337] "Şərq qapısı" qəzeti, 2009, 9 oktyabr
[338] "Azərbaycan" qəzeti, 2009, 4 oktyabr



Ölkə başçısı Türkdilli ölkələrin dövlət başçılarının IX zirvə görüşünün Naxçıvanda keçirilməsini çox gözəl və əlamətdar hadisə hesab edərək bu qədim diyarın türk dünyasında çox böyük və xüsusi yeri olduğunu göstərərək dedi: "Naxçıvan çox böyük tarixə malik olan diyardır. Naxçıvanın strateji əhəmiyyəti, tarixi, mədəniyyəti, tarixi abidələri bizim dəyərimizdir, böyük sərvətimizdir. O da həqiqətdir ki, Azərbaycanın müstəqilliyinin formalaşması, müstəqilliyinin bünövrəsinin qoyulması da məhz Naxçıvanda həyata keçirilmişdir. O vaxt, hələ Sovet İttifaqı zamanında ümummilli lider Heydər Əliyevin fəaliyyəti nəticəsində Naxçıvanda, burada görülən işlər bütövlükdə Azərbaycanın müstəqilliyi üçün böyük əhəmiyyət daşıyırdı. Azərbaycanın üçrəngli bayrağı böyük fasilədən sonra, hələ Sovet İttifaqı zamanında ilk dəfə olaraq məhz Naxçıvanda ucaldılmışdır".[339]

Zirvə görüşünün təşkili ilə bağlı Türkdilli ölkə liderlərinin dövlət başçılarının söylədikləri xoş sözlər, səmimi Naxçıvanda görülmüş işlərə verilmiş yüksək qiymət oldu. Tədbir elə təşkil olunub keçirildi ki, hər şeydə Naxçıvanın özünəməxsusluğu, qonaqpərvərliyi öz əksini tapdı.

Beləliklə, müstəqillikdən sonrakı illərdə Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslərin təhlili və ümumiləşdirilməsi göstərir ki, blokada vəziyyətinə düşən muxtar respublika ümummilli lider Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində qorunub saxlanılmış və inkişaf etdirilmişdir. Bu inkişaf strategiyası ölkə Prezidenti İlham Əliyev tərəfindən yaradıcılıqla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun gərgin əməyi sayəsində Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ən inkişaf etmiş bölgəsinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 2014-cü il yanvarın 14-də sərəncam imzala-

[339] "Şərq qapısı" qəzeti, 2009, 9 oktyabr

mışdı.[340] Bu sərəncamın icrasını Naxçıvan Muxtar Respublikasında təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2014-cü il yanvarın 17-də imzaladığı Sərəncamla "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı"nı təsdiq etmişdir.[341] Tədbirlər planına uyğun olaraq bir sıra tədbirlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2014-cü il aprelin 7-9-da Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Azərbaycan Respublikasının Prezidenti səfər çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanının inzibati binasının, Gənclər Mərkəzinin, Hərbi Prokurorluğun yeni inzibati binasının, Naxçıvan - Şahbuz - Batabat magistral avtomobil yolunun, Naxçıvan şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksinin, Kəngərli Rayon Mərkəzi Xəstəxanasının, "Arpaçay-1" və Arpaçay-2" Su Elektrik stansiyalarının açılışında iştirak etmiş, Naxçıvan Biznes Mərkəzində yara-dılan şəraitlə və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuş, muxtar respublika ərazisində yerləşən hərbi hissələrə verilmiş yeni texnika və silahlara baxmışdır. 2014-cü il aprelin 8-də Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin iştirakı ilə Heydər Əliyev Sarayında Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli yubiley tədbiri keçirilmişdir.

Yubiley tədbirində Azərbaycandakı diplomatik korpusun, muxtar respublika hakimiyyətinin və ictimaiyyətinin nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri iştirak etmişlər.

Təntənənli mərasimdə dövlət başçısı İlham Əliyevin nitqi tədbir iştirakçıları tərəfindən alqışlarla qarşılanmışdır. Prezident İlham Əliyev demişdir: "Naxçıvan sürətlə inkişaf edir. Naxçıvanda bütün məsələlər uğurla icra edilir. Bu səfər mənim Naxçıvana son 10 il ərzində 11-ci səfərimdir. Deməк olar ki, hər il

[340] Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.4

[341] Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2014. Naxçıvan: Əcəmi NPB, 2015, s.8-14



Naxçıvana gəlirəm, burada gedən inkişafla tanış oluram və çox sevinirəm. Sevinirəm ki, bu gün Naxçıvan çiçəklənən bir diyardır".[342]

Yubiley tədbirində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvanın muxtariyyət əldə etməsi uğrunda mübarizəsindən, Naxçıvan Muxtar Respublikasının təşkilindən, 90 illik inkişaf tarixinin mərhələlərindən, çətinliklər və uğurlardan geniş bəhs etmişdir.

2014-cü il muxtar respublikada "Muxtariyyət ili" elan olunmuşdur. "Muxtariyət ili" ilə əlaqədar muxtar respublikada, ölkəmizdə və bir sıra xarici ölkələrdə-Türkiyədə, Rusiyada, Polşada, Serbiyada, Cənubi Afrika Respublikasında, Bolqarıstanda, Rumıniyada konfranslar, simpoziumlar, forumlar keçirildi.

Muxtar respublikanın 90 illiyi münasibətilə 2014-cü il oktyabrın 23-24-də Naxçıvan şəhərində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu və Türkdilli Dövlətlərin Biznes Şurasının 3-cü toplantısı iqtisadi sahədə yeni əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsi baxımından faydalı olmuşdur. Forumda türkdilli ölkələrin ticarət-sənaye palatalarının, sahibkar birliklərinin rəhbərləri, 75 xarici şirkətin təmsilçiləri, eləcə də Azərbaycanın dövlət rəsmiləri və 120-dən çox yerli sahibkar iştirak etmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2015-ci il dekabrın 1-də Naxçıvanda səfərdə olmuşdur.[343] Səfər zamanı Ölkə Prezidenti Naxçıvan Beynəlxalq Hava Limanının Şərq terminalı ilə tanış olmuş, Naxçıvan şəhər Uşaq Musiqi məktəbinin, Nehrəm kənd 2 saylı tam orta məktəbin, Sənaye kompleksinin, Günəş Elektrik stansiyasının, Babək rayonundakı dairəvi yolun, Naxçıvan Muxtar Respublika Xəstəxanasının açılışlarında iştirak etmişdir. Prezident İlham Əliyev Respublika Xəstəxanasının açılışındakı çıxışında demişdir: "Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Naxçıvan rəhbərliyi çox uğur-

[342] "Azərbaycan" qəzeti, 2004, 9 aprel

[343] "Azərbaycan" qəzeti, 2015, 2 dekabr

la, səmərəli işləyir. Naxçıvanın siması dəyişir. Bu gün Naxçıvan nəinki Azərbaycanda, bölgədə, dünya miqyasında ən abad şəhərlərdən biridir. Təkcə şəhərdə yox, bütün bölgələrdə də quruculuq, inkişaf işləri gedir. Bu gözəl uğurlar münasibətilə sizi təbrik edirəm".[344]

Mühüm geostrateji əhəmiyyətə malik olan Naxçıvanın sosial-iqtisadi, mədəni inkişafı onu həm də beynəlxalq səviyyəli tədbirlərin keçirildiyi məkana çevirib. Ölkə başçısı İlham Əliyevin qeyd etdiyi kimi, bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməklə ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir.

Gürcüstan Prezidenti Mixeil Saakaşvilinin, Türkiyə Cümhuriyyəti İğdır Vilayətinin valisi Davut Hanerin, İran İslam Respublikasının Qərbi Azərbaycan Vilayətinin ostandarı Qurbanəli Səadətin Naxçıvana səfərləri, Naxçıvan MR Ali Məclisinin sədri Vasif Talıbovla görüşləri dost, qonşu ölkələrlə, onların yaxın bölgələri ilə muxtar respublika arasındakı əlaqələrin inkişafında əhəmiyyətli rol oynadı. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 3-cü Biznes Forumu, Türkiyə Cümhuriyyətinin, Gürcüstan Respublikasının və Azərbaycan Respublikasının müdafiə nazirlərinin üçtərəfli görüşü, Gürcüstanın Acarıstan Muxtar Respublikası Ali Sovetinin sədri Avtandil Beridzenin Naxçıvana səfəri, Avropa Şurası Parlament Assambleyasının Avropa Şurası üzv Dövlətləri Tərəfindən Öhdəliklərin Yerinə Yetirilməsi üzrə Komitəsinin həmməruzəçiləri Pedro Aqramunt və Cozef Debono-Qrexin, Norveç Krallığının, Yaponiyanın, Belarus Respublikasının, Pakistan İslam Respublikasının, ABŞ-ın, Koreya Respublikasının, Türkiyə Cümhuriyyətinin, İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfirlərinin, müvəqqəti işlər vəkillərinin muxtar respublikamıza səfərləri Naxçıvanın iqti-

[344] "Azərbaycan" qəzeti, 2015, 2 dekabr



sadi, siyasi, mədəni baxımdan regional mərkəzə çevrildiyinin göstəricisidir.

## 3.2. Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi

1993-cü ilin oktyabrında Azərbaycanda yeni Konstitusiya hazırlanması üçün təşəbbüs edilmişdi. Lakin siyasi vəziyyətin gərginləşməsi, xüsusən də, 1994-cü il oktyabr – 1995-ci il mart hadisələri, eləcə də qarşıya çıxan başqa təxirəsalınmaz vəzifələrin həyata keçirilməsi bu təşəbbüsü bir qədər ləngitmişdi. Azərbaycanın dövlətçiliyinə qarşı yönəlmiş qəsdlərin qarşısı alındıqdan sonra 1995-ci ilin iyul ayının 2-də Milli Məclisin iclasında Prezident Heydər Əliyevin sədrliyi ilə Azərbaycan Respublikası Konstitusiyasını hazırlayan Dövlət Komissiyası təşkil edildi. Komissiya Azərbaycan xalqının milli xüsusiyyətlərini nəzərə almaqla, qabaqcıl demokratik ölkələrin təcrübəsi əsasında "Azərbaycan Respublikasının Konstitusiyası" layihəsini hazırladı. Layihə 1995-ci il oktyabrın 15-də ümumxalq müzakirəsi üçün mətbuatda dərc edildi və cəmiyyətdə böyük maraqla müzakirə olundu. "Azərbaycan Respublikasının Konstitusiyası" – müstəqil Azərbaycan dövlətinin ilk Əsas Qanunu 1995-ci il noyabrın 12-də referendumla qəbul olundu. Referendumda 4 milyona yaxın seçici korpusunun 86 faizi iştirak etdi. Onların 94,8 faizi Konstitusiya layihəsini bəyəndiyini bildirdi.[345] Ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş 5 bölmə, 12 fəsil, 158 maddə və 12 keçid müddəalarından ibarət olan Konstitusiya 1995-ci il 27 noyabrdan qüvvəyə mindi.

Azərbaycan Respublikasının yeni Konstitusiyasının VIII fəsli (Maddə 134-141) Naxçıvan Muxtar Respublikasına həsr edilib:

134. Naxçıvan Muxtar Respublikasının statusu.
135. Naxçıvan Muxtar Respublikasında hakimiyyətin bölünməsi.

[345] Azərbaycan Respublikası 1991-2001. Bakı: XXI –Yeni Nəşrlər Evi, 2001, s.127

136. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi.
137. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi.
138. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müəyyən etdiyi ümumi qaydalar.
139. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin həll etdiyi məsələlər.
140. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti.
141. Naxçıvan Muxtar Respublikasında yerli icra hakimiyyəti.

Azərbaycan Respublikası Konstitusiyası Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində Muxtar Dövlət statusu verdi.[346] Naxçıvanın coğrafi xüsusiyyətləri, Azərbaycan Respublikasının əsas hissəsi ilə onun ümumi sərhəddinin olmaması bu bölgə üçün muxtar idarəetmə sisteminin təsis olunmasını tələb edirdi. Naxçıvan Muxtar Respublikasında dövlət idarə etməsi parlament hakimiyyəti üsulu ilə həyata keçirilir. Ali Məclisin sədri muxtar respublikanın Ali vəzifəli şəxsidir. İcra hakimiyyəti Ali Məclis tərəfindən formalaşdırılır və onun qarşısında hesabat verir. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, məhkəmələri qanunla və prezident fərmanları ilə onların səlahiyyətinə aid edilmiş məsələlərin həllində müstəqildirlər. Muxtariyyətin mövcud olduğu illər ərzində Naxçıvan heç zaman belə yüksək statusa malik olmayıb.[347] Muxtar dövlətə xas olan bütün əlamətlər nəzərə alınıb.

Müstəqil Azərbaycanın Konstitusiyası əsasında Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının hazırlanması zərurətini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi özünün 23 noyabr 1995-ci il tarixli qərarı ilə muxtar respublikanın yeni Konstitusiyasının layihəsini hazırlayan komissiya yaratdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərlik etdiyi komissiyanın hazırladığı ilkin variantda 12 fəsil, 146 maddədən ibarət olan muxtar respublika Konstitusiyasının layihəsi Azərbaycan Respublikasının

[346] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2009, s.54
[347] "Azərbaycan" qəzeti, 1999, 20 iyun



Prezidenti Heydər Əliyevin sədri olduğu Azərbaycanın yeni Konstitusiya layihəsini hazırlayan Komissiyada ayrı-ayrı vaxtlarda dörd dəfə müzakirə olundu. Konstitusiya layihəsi üzərində üç ilə yaxın ən müxtəlif səviyyələrdə müzakirələr aparıldı. Bir sıra müxalif qüvvələr Naxçıvanın muxtariyyət statusu əleyhinə çıxdılar. Ölkə əhalisinin fikrinə, beynəlxalq təşkilatların rəyinə və dünya təcrübəsinə görə unitar dövlətin tərkibində də muxtar qurum ola bilər. Beynəlxalq ekspertlərin rəyincə Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsi demokratik, hüquqi, dünyəvi dövlət quruluşuna təminat verir, demokratik dövlətin siyasi və hüquqi təşkili prinsiplərinə uyğundur. Bu, muxtariyyətin əsaslarının müasir tələblərə uyğun qurulmasına zəmin yaradır. Muxtar respublikanın Konstitusiya layihəsi 1921-ci il Moskva və Qars beynəlxalq müqavilələri ilə müəyyən edilmişdir və Azərbaycan dövlətinin ayrılmaz, toxunulmaz və bölünməz tərkib hissəsi olan Naxçıvanın coğrafi-siyasi vəziyyətinə uyğundur. Bu layihə Azərbaycan dövlətinin öz ərazisində tam suveren hakimiyyətə malik olduğunu təsdiq edir. Konstitusiya layihəsi Naxçıvanın siyasi və sosial xüsusiyyətlərini, tarixi ənənələrini özündə əks etdirir. Layihə Naxçıvanın dövlət quruluşunu, onun təşkilini, ali hakimiyyət orqanlarının səlahiyyətlərini müəyyən edir, muxtar dövlətin qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı əlaqələrini, Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları ilə münasibətlərini tənzimləyir.[348]

Azərbaycan Respublikası Konstitusiya Komissiyasının 1998-ci il yanvarın 14-də keçirilən iclasında Naxçıvanın muxtariyyət statusunun qorunub saxlanılmasının böyük əhəmiyyət kəsb etdiyinə toxunan ölkə prezidenti, komissiyanın sədri Heydər Əliyev deyirdi: "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona

[348] "Azərbaycan" qəzeti, 1998, 16 yanvar

xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq".[349]

Naxçıvan Muxtar Respublikasının Konstitusiya layihəsinin son variantı prezident Heydər Əliyevin 1998-ci ilin 12 aprel tarixli məktubu ilə müzakirə edilmək üçün Naxçıvan Muxtar Respublikası Ali Məclisinə göndərildi. Konstitusiya layihəsi daxil olan təkliflərlə birlikdə Naxçıvan Muxtar Respublikası yeni Konstitusiyası layihəsini hazırlayan komissiyanın 23 aprel 1998-ci il tarixli iclasında müzakirə edildi. 1998-ci il aprelin 28-də Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyası Muxtar Respublikanın Ali Məclisində qəbul edildi. Naxçıvan Muxtar Respublikasının sayca dördüncü olan Konstitusiyası dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisində təsdiq edildi və elə həmin gün Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev tərəfindən imzalandı. Naxçıvan Muxtar Respublikasının 6 fəsil, 50 maddədən ibarət olan yeni Konstitusiyası 1999-cu il yanvarın 8-də dərc edilərək qüvvəyə mindi.

Bu Konstitusiya muxtariyyətin əvvəlki konstitusiyalarından bir sıra cəhətlərinə görə əsaslı şəkildə fərqlənir. Əvvəlki konstitusiyalardan fərqli olaraq bu Əsas Qanun müstəqil Azərbaycan dövlətinin tərkib hissəsi olan muxtar dövlətin Konstitusiyasıdır. Bu Konstitusiya daha lakonikdir, burada hüquqi norma və göstərişlər daha aydın və birbaşa əks olunmuşdur. İlk dəfə olaraq Konstitusiyanın özündə onun ən yüksək və birbaşa hüquqi qüvvələrinin olduğu göstərilmiş, qanunvericilik sisteminə daxil olan aktların əhatə dairəsi müəyyənləşdirilmişdir.[350]

Konstitusiyanın preambula hissəsi genişdir və ilk dəfə olaraq Əsas Qanunda muxtariyyətin əsaslarının hazırda qüvvədə olan 16 mart 1921-ci il tarixli Moskva və 13 oktyabr 1921-ci il tarixlı Qars beynəlxalq müqavilələri ilə qoyulduğu, həmin müqavilələrdə Naxçıvanın Azərbaycanın tərkib hissəsi olmasının

[349] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 14-cü kitab (dekabr 1997- fevral 1998). Bakı: Azərnəşr, 2005, s.89
[350] Cəfərli E.Y. Naxçıvan Muxtar Respublikası Konstitusiyalarda. Bakı: Elm və təhsil, 2014, s. 126.



bəyan edildiyi və Naxçıvanın ərazi hüdudlarının dəqiqləşdirildiyi öz əksini tapmışdır. Preambula hissəsində Naxçıvanın muxtar respublika statusunun təşəkkülü və onun əvvəlki konstitusiyalarının qəbulu məsələsi də verilmişdir. Diqqətəlayiqdir ki, bu Konstitusiya qəbul edilərkən ilk ülvi niyyət kimi "Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq" amalı bəyan edilir.

Bu məram Konstitusiyanın ayrı-ayrı maddələrində daha da inkişaf etdirilir. Konstitusiyaya görə, Naxçıvan muxtar dövləti Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi, dünyəvi muxtar respublikadır.[351] Naxçıvan Muxtar Respublikasının səlahiyyətlərinə aid edilən məsələlərin həllində o, Azərbaycan Respublikasının ümumi mənafeləri ilə bağlıdır. Naxçıvan Muxtar Respublikasının dövlət sərhədləri hüdudunda vahiddir, toxunulmazdır və bölünməzdir.

Yeni Konstitusiyada ilk dəfə olaraq dövlət hakimiyyətinin "hakimiyyətlərin bölünməsi prinsipi"[352] əsasında həyata keçirildiyi konstitusion norma olaraq əks olunmuşdur. Qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

Konstitusiya muxtar dövlətin başçısı statusunda "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi" institutunu təsis edir.[353] Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi həm qanunvericilik, həm də icra hakimiyyəti sahələrində səlahiyyətlərə malikdir. Konstitusiya prezidentli respublika olan Azərbaycan dövlətinin tərkibində parlamentli muxtar respublika modelini yaradır. Belə ki, "Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir".[354] Yaşı otuzdan aşağı olmayan, Naxçıvan Muxtar

[351] Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan: Əcəmi NPB, 2012, s.5
[352] Yenə orada s. 6-7
[353] Yenə orada, s.8-12
[354] Yenə orada, s. 8

Respublikasının ərazisində beş ildən az olmayaraq daimi yaşayan, başqa dövlətlər qarşısında öhdəliyi olmayan, ali təhsilli, ikili vətəndaşlığı olmayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin hər bir deputatı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilə bilər (Maddə 29, II bənd).

Konstitusiyanın II fəsli Qanunvericilik hakimiyyətinin həyata keçirilməsi, formalaşması və Ali Məclisin fəaliyyətinə həsr edilmişdir. Naxçıvan Muxtar Respublikasında qanunvericilik hakimiyyətini majoritar seçki sistemi əsasında, 45 deputatdan ibarət tərkibdə 5 il müddətinə seçilən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi həyata keçirir. Muxtar respublika ərazisində daimi yaşayan, yaşı 25-dən aşağı olmayan hər bir Azərbaycan Respublikası vətəndaşı qanunla müəyyən edilmiş qaydada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilə bilər.[355] Konstitusiya Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə passiv seçki hüququ ilə iştirakına qadağa qoyulanların da əhatə dairəsini müəyyənləşdirir. Seçkilərin nəticələrinin düzgünlüyünü Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi yoxlayır və təsdiq edir. Hər il iki növbəti sessiyaya yığılmalı olan Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 deputatın səlahiyyətləri təsdiq edildikdə səlahiyyətlidir.[356]

Naxçıvan Muxtar Respublikası Ali Məclisində qanunvericilik təşəbbüsü hüququ Ali Məclisin deputatlarına, Naxçıvan Muxtar Respublikasının Baş nazirinə, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinə və Naxçıvan Muxtar Respublikası Prokurorluğuna mənsubdur.

Konstitusiyanın III fəsli İcra hakimiyyətinə həsr olunmuşdur (Maddə 34-42). Naxçıvan Muxtar Respublikasında icra hakimiyyətini muxtar respublikanın yuxarı icra orqanı olan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti həyata keçirir. Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikası Ali Məclisinə tabedir və onun qarşısında hesabat verir. Nazirlər Kabinetinin

[355] Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan: Əcəmi NPB, 2012, s.15-16
[356] Yenə orada, s.17



tərkibinə Naxçıvan Muxtar Respublikasının Baş naziri, onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər. Nazirlər Kabinetinin tərkibini Naxçıvan Muxtar Respublikası Baş nazirinin təklifi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi təsdiq edir. Naxçıvan Muxtar Respublikasının Baş nazirini Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Naxçıvan Muxtar Respublikasının Ali Məclisi təyin edir.[357]

Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə yaşı 30-dan aşağı olmayan, Baş nazirin müavini, nazir, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə isə yaşı 25-dən aşağı olmayan, ali təhsilli, seçkilərdə iştirak etmək hüququna malik, başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşı təyin edilir.

Hakimiyyətin üçüncü istiqaməti olan Məhkəmə hakimiyyəti də Konstitusiyada öz əksini tapmışdır (IV fəsil, Maddə 43-46). Naxçıvan Muxtar Respublikasında məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi, ümumi və ixtisaslaşdırılmış məhkəmələr həyata keçirirlər. Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi muxtar respublika ərazisində apelyasiya qaydasında ədalət mühakiməsini həyata keçirir, Konstitusiya nəzarətini təmin edir. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələri qanunla səlahiyyətlərinə aid edilmiş işlər üzrə birinci instansiya məhkəmələridir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Azərbaycan Respublikasının Prezidentinə verilmiş təklifi və Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Azərbaycan Respublikasının Milli Məclisi təyin edir. Naxçıvan Muxtar Respublikasının ümumi və ixtisaslaşdırılmış məhkəmələrinin hakimlərini Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təklifi ilə Azərbaycan Respublikasının Prezidenti təyin edir.

[357] Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan: Əcəmi NPB, 2012, s. 32

Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri və paytaxtı əvvəlki Konstitusiyalardan fərqli olaraq Yeni Konstitusiyanın son maddələrində deyil, "Ümumi müddəalar" adlanan ilk fəslinin son iki maddəsində (Maddə 9-10) əks olunmuşdur. Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhəridir. Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Naxçıvan Muxtar Respublikasının digər normativ hüquqi aktları arasında ən yüksək və birbaşa hüquqi qüvvəyə malikdir və Naxçıvan Muxtar Respublikası qanunvericilik sisteminin əsasını təşkil edir. Qanunvericilik sisteminə Naxçıvan Muxtar Respublikasının Konstitusiyası, qanunları, Naxçıvan Muxtar Respublikası Ali vəzifəli şəxsinin fərmanları, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərarları və muxtar respublika mərkəzi icra hakimiyyəti orqanlarının normativ aktları daxildir.

Konstitusiyanın VI fəsli Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklərə əlavələrin qəbul edilmə qaydaları ilə bağlıdır. Konstitusiyaya dəyişikliklər və əlavələr Naxçıvan Muxtar Respublikası Ali Məclisində 35 səs çoxluğu ilə qəbul edildikdən sonra təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilir. Belə dəyişikliklər və əlavələr haqqında təklif Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2 dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 3 ay sonra keçirilir.[358]

Konstitusiyaya əlavə edilmiş dörd keçid müddəasında 1998-ci il Əsas Qanunun qüvvəyə minməsindən sonra 1978-ci il Konstitusiyasının qüvvədən düşməsini elan edir, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçiriləcək yeni seçkilərlə bağlı və o dövrdə qüvvədə olan qanunların və digər normativ hüquqi aktların qüvvəsini saxlamasına dair məsələləri tənzimləyir.

[358] Naxçıvan Muxtar Respublikasının Konstitusiyası. Naxçıvan: Əcəmi NPB, 2012, s.45



Azərbaycan Respublikasının Konstitusiyası ilə bağlı keçirilən referendumlarda edilən əlavə və dəyişikliklər, habelə müasir siyasi-hüquqi inkişaf tendensiyası Naxçıvan Muxtar Respublikası Konstitusiyasına da əlavə və dəyişikliklərin edilməsini zəruri etmişdi. 2005 və 2006-cı illərdə muxtar respublika Konstitusiyasına edilən əlavə və dəyişikliklərlə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin səlahiyyəti artırılmış, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) İnstitutu təsis olunmuş, 2009-cu il iyulun 30-da üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyası zamanı Konstitusiyanın 10 maddəsinə 20 əlavə və dəyişikliklər edilmişdir. Dəyişikliklərin mahiyyətini aşağıdakı şəkildə qruplaşdırmaq olar: **Birinci qrup** dəyişikliklər Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsi ilə bağlıdır. Belə ki, Konstitusiyanın 5-ci maddəsinə təklif olunan yeni 11-ci bəndə əsasən Ali vəzifəli şəxs Naxçıvan Muxtar Respublikasının yerli icra hakimiyyətləri başçılarının vəzifəyə təyin və vəzifədən azad edilməsinə dair Azarbaycan Respublikasının Prezidentinə təqdimat verir. Bu müddəa Azarbaycan Respublikasının digər qanunvericilik aktlarında olsa da, Ali vəzifəli şəxsin səlahiyyəti ilə bağlı olduğundan Naxçıvan Muxtar Respublikası Konstitusiyasına da daxil edilməlidir.

Həmin maddəyə əlavə edilməsi nəzərdə tutulan yeni 12-ci bənd Ali vəzifəli şəxsin ali xüsusi rütbələrin verilməsinə dair təkliflər verməsini, 21 -ci bəndə edilən dəyişiklik isə Azərbaycan Respublikasının dövlət təltifləri ilə təltif edilməsinə dair təkliflər verməsini nəzərdə tutur. Təcrübədə istifadə olunan bu səlahiyyətlərin Konstitusiya normasına çevrilməsi mühüm əhəmiyyətə malikdir.

**İkinci qrupa** Ali Məclisin fəaliyyəti, iş qaydaları, qanunvericilik təşəbbüsü hüququ ilə bağlı dəyişikliklər daxildir. Konstitusiyanın 18-ci maddəsinə edilən əlavə ilə Ali Məclisin sessiyalarının açıq iclasla yanaşı, qapalı iclaslarının da keçirilməsi nəzərdə tutulur. Lakin qapalı iclaslar istənilən vaxt yox, Ali

Məclisin 31 deputatının tələbi və ya Ali vəzifəli şəxsin təklifi ilə keçirilə bilər.

Konstitusiyaya təklif olunan digər bir dəyişiklik isə hakimiyyətin bölünməsi prinsipinin təkmilləşdirilməsi ilə bağlıdır. Əsas Qanunumuzun 19-cu maddəsində nəzərdə tutulmuş əlavəyə görə Ali Məclisin deputatı icra və məhkəmə hakimiyyəti systemlərində qulluq etdikdə, din xadimi olduqda, elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla, başqa ödənişli fəaliyyətlə məşğul olduqda deputat mandatından məhrum edilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik funksiyasını həyata keçirməyə yardım edən komissiyalarını, onun daxili fəaliyyətini təmin edən, lakin qanunvericilik funksiyası ilə əlaqəsi olmayan komissiyalardan fərqləndirmək məqsədilə Konstitusiyanın 22-ci maddəsinə dəyişiklik edilməklə Ali Məclisin fəaliyyətinin təkmilləşdirilməsinə xidmət edən yeni təsisatın – komitələrin yaradılması da təklif olunan maddələr arasındadır.

Konstitusiyanın 25-ci maddəsinə edilən əlavə Ali vəzifəli şəxsin təklifi ilə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin təyin edilməsini Ali Məclisin həll etdiyi məsələlər sırasına daxil edir ki, bununla da həmin norma konstitusion status alır və qanunvericilikdəki boşluq aradan qaldırılır.

25-ci maddənin ikinci hissəsinə edilən dəyişikliklər də mühüm əhəmiyyətə malikdir. Belə ki, maddələrin mövcud variantda digər məsələlərlə yanaşı Ali Məclisin işinin təşkili (reqlament) və dövlət büdcəsinin təsdiqinə dair Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarlar qəbul etməsi təsbit olunmuşdur. Bu isə həm mövcud praktikaya və qanunvericiliyə ziddir, həm də Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin ikinci hissəsinə uyğun deyildir. Təklif olunan dəyişikliklə qeyd edilən məsələlərə dair Ali Məclisin qanunlar qəbul etməsi nəzərdə tutulur.



Qeyd olunmuşdur ki, Konstitusiyanın 26-cı maddəsinə təklif olunan dəyişiklik Naxçıvan Muxtar Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsini nəzərdə tutur. Qanunvericiliyin tətbiqi ilə bağlı ortaya çıxan boşluqların, çatışmazlıqların aradan qaldırılması üçün Prokurorluğa verilən bu səlahiyyət çox əhəmiyyətlidir. Maddəyə əlavə edilən altıncı hissə qanunvericilik təşəbbüsündən istifadə edən subyektlər üçün əlavə məsuliyyət müəyyən etməklə, hazırlanan qanun və qərar layihələrini əsaslandırmağı və onların qəbul edilməsinin məqsədlərini göstərməyi tələb edir.

**Üçüncü qrupa** məhkəmə hakimiyyətinin fəaliyyətinin təkmilləşməsinə xidmət edən dəyişikliklər daxildir. Belə ki, qüvvədə olan qanunvericiliyə görə Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi apelyasiya instansiyası funksiyalarını həyata keçirir. Bu isə Konstitusiyada öz əksini tapmamışdır. Qanun layihəsində Konstitusiyanın Ali Məhkəməyə aid olan 44-cü maddəsinin birinci hissəsində Ali Məhkəmənin nəzarət funksiyasının çıxarılması və onun yalnız ümumi və ixtisaslaşdırılmış məhkəmələrin işləri üzrə apelyasiya instansiyası məhkəməsi kimi təsbit olunması təklif edilir. Qeyd edilən dəyişiklik son dövrdə həyata keçirilmiş məhkəmə islahatlarının mahiyyətinə tam uyğundur.

44-cu maddəyə əlavə edilən yeddinci hissə isə Ali Məhkəmənin qərarlarının dərc edilməsini nəzərdə tutur. Ali Məhkəmə mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır, eyni zamanda Naxçıvan Muxtar Respublikasında Konstitusiya nəzarətini həyata keçirir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir. Bu baxımdan Ali Məhkəmənin qərarları digər məhkəmələr və ictimaiyyət üçün böyük əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikası Prokurorluğunun fəaliyyətini tənzimləyən 46-cı maddəyə edilən dəyişiklik də zərurətdən irəli gəlmişdir. Hazırda prokurorluğun nəzarət funksiyaları yalnız ibtidai istintaqa, təhqiqata və əməliyyat-axtarış fəaliyyətinə şamil edilir.

**Dördüncü**, texniki xarakterli dəyişikliklərdir ki, onlar da Konstitusiyada işlənən müddəaların, ayrı-ayrı ifadələrin dəqiqləşməsinə yönəldilmişdir (Konstitusiyanın giriş hissəsinə, 1-ci və 43-cü maddələrinə edilən dəyişiklik və əlavələr). Burada da məqsəd Konstitusiyanın mətnini daha da təkmilləşdirməkdir.

Ümumilikdə, Konstitusiyaya təklif olunan hər bir dəyişiklik muxtar respublikada inkişafın davamlılığının təmin edilməsinə, dövlət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına, demokratik prinsiplərin inkişafına yönəlmişdir.

2010-cu il 30 sentyabr tarixli Konstitusiya Qanunu ilə isə Ali vəzifəli şəxsin səlahiyyətləri artırılmış, Naxçıvan MR Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Həm bu, həm də 2011-ci il noyabrın 15-də muxtar respublika Konstitusiyasına edilən dəyişikliklərlə məhkəmə hakimiyyətinin fəaliyyəti təkmilləşdirilmiş, Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi hakimlərinin, ümumi və ixtisaslaşdırılmış məhkəmələrin hakimlərinin təyin edilməsi proseduru dəqiqləşdirilmişdir.

Əsas Qanunda ilk dəfə olaraq muxtar respublika rəhbərinə konstitusion səviyyədə xarici siyasətlə bağlı müəyyən hüquqlar verilir. Belə ki, Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsinə Konstitusiyanın 5-ci maddəsinin 8-ci bəndində Naxçıvan Muxtar Respublikasını xarici dövlətlərlə və beynəlxalq təşkilatlarla, habelə başqa fiziki və hüquqi şəxslərlə münasibətdə təmsil etmək, həmin maddənin III hissəsində isə Naxçıvan Muxtar Respublikasının mənafeləri ilə bağlı iqtisadi və mədəni məsələlərdə Naxçıvana Muxtar Respublikanın Konstitusiyası və Azərbaycan Respublikasının qanunları ilə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının beynəlxalq münasibətlərində Naxçıvan Muxtar Respublikasını təmsil etmək səlahiyyəti verilmişdir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi zamanın, ictimai-siyasi həyatın tələbi kimi ortaya çıxdı və bunlar vaxtında müzakirə olunaraq qəbul edildi.



## 3.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi

Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etməsi və yeni Konstitusiyasını qəbul etməsi ölkədə demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu üçün hüquqi əsas yaratdı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə mojaritor və proporsional sistemlə ilk seçkilər keçirildi.[359] Həmin gün Naxçıvan MR Ali Məclisinə də demokratik seçkilər keçirildi. Seçki dairələrində 45 nəfərə qarşı 153 nəfər deputatlığa namizədliyini irəli sürdü.[360] Keçirilən seçkidə 36 seçki dairəsi üzrə seçkilər baş tutdu. Muxtar respublikada səsvermə hüququ olan vətəndaşlardan 176236 nəfər, yəni ümumi seçicilərin 89,9 faizi iştirak etdi.[361] 8 seçki dairəsində seçkilər baş tutmadığından təkrar seçkilər noyabrın 26-da keçirildi.

1995-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası oldu. Sessiyada digər məsələlərlə yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin seçilməsi məsələsinə baxıldı. Naxçıvan Muxtar Respublikası Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini Vasif Talıbov yekdilliklə Ali Məclisin sədri seçildi.

1995-2000-ci illərdə Naxçıvan MR Ali Məclisinin 7 sessiyası keçirildi. Burada muxtar respublikanın dövlət quruculuğu, büdcə və maliyyə məsələləri, ictimai-siyasi, sosial-mədəni inkişaf və başqa mühüm əhəmiyyətli məsələlər müzakirə edildi və qərarlar qəbul edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun problemlərin həlli istiqamətində gündəlik nəzarəti, qayğısı və köməkliyi muxtar respublikanın iqtisadiyyatının, sənayesinin, sosial sahələrin, tikinti, abadlıq işlərinin aparılmasına, infrastrukturun digər sahələrinə əsaslı təsir etdi, həlli çatmış problemlərin, çətinliklərin tez bir zamanda operativ

[359] Azərbaycan tarixi. Yeddi clddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm. 2008, s.351
[360] NMR DA, f.613, siy. 13, iş 697
[361] Naxçıvanda seçkilərin tarixi (1937-2002). Ensiklopedik toplu. Bakı: Qanun. 2003, s.501

həll edilməsinə zəmin yaratdı, muxtar respublika inkişaf və tərəqqi yollarında inamla addımlamağa başladı.

2000-ci ilin noyabrında Azərbaycan Respublikasında yeni parlament seçkiləri təşkil olundu. Mərkəzi Seçki Komissiyasında 17 siyasi partiya və bir seçki bloku qeydiyyatdan keçdi. Demokratik konqresə üzv partiyaların demək olar ki, hamısı seçkilərdə iştirak etdi. Xalqın fəal iştirakı ilə 2000-ci il noyabrın 5-də keçirilən parlament seçkiləri nəticəsində Azərbaycan Respublikasının yeni parlamenti yarandı və qanunvericilik fəaliyyətinə başladı.[362]

Naxçıvan MR Ali Məclisi Sədrinin 31 iyul 2000-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər 2000-ci il noyabr ayının 5-nə təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 5 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı. 210 min seçicini əhatə edən 259 seçki məntəqəsi yaradıldı.[363] 5 seçki dairəsində 16, 45 seçki dairəsində isə 95 nəfərin namizədliyi qeydə alındı.

Seçki günü seçici siyahılarında 209412 nəfər seçici olmuş, onlardan 164892-si yaxud 78,7 faizi seçkilərdə iştirak etdi. Naxçıvan MR Ali Məclisinə seçkilərin nəticələrini Naxçıvan MR Ali Məhkəməsi 20 noyabr 2000-ci il, Naxçıvan MR MSK 21 noyabr 2000-ci il tarixli qərarları ilə 45 birmandatlı dairə üzrə deputatların seçildiyini təsdiq etdi.[364]

2000-ci il dekabrın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirildi. Sessiyada Vasif Talıbov ikinci dəfə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi. 1995-2000-ci illərdə Naxçıvan Muxtar Respublikasına rəhbərlik etmiş Vasif Talıbovun məqsədyönlü, düşünülmüş, səriştəli idarəetmə taktikası, prinsipial mövqeyi, dövlətçiliyə sədaqəti, bacarığı və enerjisi, Naxçıvan diyarının

[362] Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər). Bakı: Elm, 2008, s.380
[363] Naxçıvanda seçkilərin tarixi (1937-2002). Ensiklopedik toplu. Bakı: Qanun, 2003, s.524
[364] "Şərq qapısı" qəzeti, 2000, 22 noyabr



ərazi bütövlüyünün qorunub möhkəmləndirilməsi məsələlərini bacarıqla həll etməsi onun həmin vəzifəyə yekdilliklə seçilməsi ilə nəticələndi. Sessiyada Naxçıvan Muxtar Respublikasının 2001-ci il Dövlət büdcəsi təsdiq edildi, Ali Məclisin 6 daimi komissiyası yaradıldı.[365]

2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altı sessiyası keçirilmiş, burada muxtar respublikanın daxili həyatı, dövlət quruculuğu, ictimai-siyasi, sosial-iqtisadi inkişafı, Dövlət büdcəsi və onun icrası haqqında və başqa məsələlər müzakirə edilmişdir. 2003-cü il yanvarın 7-də ikinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasında "2003-cü ilin Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ili elan edilməsi haqqında" qərar qəbul edildi. Qərarda deyilir: "Xalqımızın əvəzedilməz liderinin 35 ilə yaxın bir müddətdə Azərbaycanın rəhbəri kimi siyasi fəaliyyəti, milli və müstəqil dövlət quruculuğu təcrübəsi müasir tariximizin ən mühüm mərhələsini təşkil edir... Tarixdə tək-tək şəxsiyyətlərə qismət olubdur ki, xalqının sonsuz və dərin məhəbbətini qazana bilsin, həyatı, əməlləri öz ölkəsinin həyatı ilə bağlı olsun, vəhdət təşkil etsin. Möhtərəm Heydər Əliyevin dövlət quruculuğu sahəsində həyata keçirdiyi tədbirlər, daim xalqının milli maraqlarından çıxış etməsi, beynəlxalq sistemdə cüzi dəyişikliyi belə nəzərə almağı bacaran planetar təfəkkür sahibi olması onu nəinki iyirminci yüzilliyin, eyni zamanda iyirmi birinci yüzilliyin də dahi şəxsiyyəti kimi bütün dünyaya tanıtmışdır. Azərbaycan xalqı qarşısında tarixi xidmətlərini və anadan olmasının 80 illiyini nəzərə alaraq... 2003-cü il Naxçıvan Muxtar Respublikasında Heydər Əliyev ili elan edilsin".[366]

2004-cü il yanvarın 6-da ikinci çağırış Naxçıvan Muxtar Respublika Ali Məclisinin beşinci sessiyasında Heydər Əliyev ili elan edilən 2003-cü ilin əsas yekunları təhlil edildi. "2003-cü ildə muxtar respublikada cari qiymətlərlə 610 milyard manata yaxın,

[365] "Şərq qapısı" qəzeti, 2000, 9 dekabr
[366] Yenə orada, 2003, 9 yanvar

yaxud 2002-ci illə müqayisədə 16 faiz artıq ümumi məhsul istehsal edilmişdir".[367] 300-ə qədər yeni sosial obyektlər istifadəyə verildi və ya əsaslı bərpa edildi, ordu quruculuğu sahəsində ciddi işlər görüldü, tikinti-energetika kompleksi hərəkətə gətirildi, geniş abadlıq və quruculuq tədbirləri davam etdirildi, suvarma-meliorasiya işləri artırıldı.

Üçüncü çağırış Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 4 iyul 2005-ci il tarixdə sərəncam imzaladı və Azərbaycan Milli Məclisinə seçkilər 2005-ci il noyabrın 6-na təyin edildi. Bu sərəncama uyğun olaraq Naxçıvan MR Ali Məclisi sədrinin 25 iyul 2005-ci il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər də 2005-ci il noyabr ayının 6-na təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 7 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı.

Hələ 7 iyun 2005-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində seçkilərə hazırlıqla bağlı qarşıda duran vəzifələr geniş müzakirə olundu. Ali Məclisin sədri Vasif Talıbov Azərbaycanın digər bölgələrindən fərqli olaraq Naxçıvanda 6 noyabrda həm ölkə Parlamentinə, həm də Muxtar Respublika Ali Məclisinə seçkilərin keçiriləcəyini xatırlatdı, bu şərəfli və məsuliyyətli siyasi tədbirin yüksək səviyyədə, tam demokratik şəkildə, qanunvericiliyə uyğun qaydada təşkilini bütün aid qurumların qarşısında qəti vəzifə kimi qoydu. 9 iyul 2005-ci il tarixdə 2-ci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan MR Qanunu qəbul olundu. 13 fəsildən, 105 maddədən ibarət bu qanunda[368] ümumi, bərabər, azad, gizli, birbaşa seçki prinsipləri təsbit olundu, bunun üçün müvafiq hüquqi baza yaradıldı. Ali Məclisin həmin

[367] "Şərq qapısı" qəzeti, 2004, 8 yanvar
[368] Naxçıvanda parlament seçkiləri (Tərtib edən M.Qasımov). Bakı: Nasir, 2006, s.187-282



sessiyasında Naxçıvan Muxtar Respublikası MSK-nın hamısı bitərəf olmaqla 7 nəfərdən ibarət yeni tərkibi də təsdiq edildi.

Azərbaycan Milli Məclisinə 7 dairə üzrə 42 namizəd qeydə alınmış, seçkilərdə 32 namizəd iştirak etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə 45 dairə üzrə müxtəlif siyasi partiyalara mənsub, yaxud bitərəf olan 145 namizəd qeydə alınmışdı.

Ölkə Prezidenti İlham Əliyevin imzaladığı "Seçki praktikasının təkmilləşdirilməsinə dair" 11 may 2005-ci il və "Azərbaycan Respublikası Milli Məclisinə seçkilərin hazırlanması və keçirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" 25 oktyabr tarixli sərəncamları seçkilərin azad, şəffaf və demokratik keçirilməsinə, seçicilərin öz iradələrini sərbəst şəkildə ifadə etmələrinə imkan yaratdı.

Azərbaycanda keçirilən parlament seçkilərində ilk dəfə olaraq "exit-poll"un təşkili ilə əlaqədar müddəalara da xüsusi diqqət yetirildi.

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının məlumatına görə 125 seçki dairəsi üzrə 5137 seçki məntəqəsi yaradılmış və həmin məntəqələr üzrə 4 milyon 660 min seçici qeydə alınmışdır.

Naxçıvan Muxtar Respublikası üzrə Azərbaycan Respublikasının Milli Məclisinə 7 seçki dairəsi üzrə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 45 seçki dairəsi üzrə 275 mülki və 23 qapalı seçki məntəqələri yaradıldı ki, bu seçki məntəqələrində də 236441 nəfər seçici siyahılarına daxil edildi.[369]

Naxçıvan Muxtar Respublikasında seçki dairələri üzrə seçicilərdən 137143-ü, yəni 58,1 faizi seçkilərdə iştirak etdi. Ölkəmizin seçki tarixində ilk dəfə olaraq keçirilən "exit-poll"un nəticələri Mərkəzi Seçki Komissiyasının nəticələri ilə üst-üstə düşdü. Azərbaycan üzrə "exit-poll" keçirilmiş 65 dairədən 58-də, Naxçıvan MR-də isə seçki dairələrinin hamısında ümumi

[369] Naxçıvanda parlament seçkiləri (Tərtib edən M.Qasımov). Bakı: Nasir, 2006, s.19.

göstərici mərkəzi Seçki Komissiyasının ilkin nəticələri ilə adekvat idi.

Seçkinin nəticələrinə görə dairələrin böyük əksəriyyətində YAP təmsilçiləri qalib gəldi. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində deputat yeri əldə etmiş 45 nəfərdən 39-u (86,7 faiz) YAP-ı, 2-si (4,4 faiz) AXCP-ni təmsil edir. Seçilmiş deputatlardan 4-ü (8,9 faiz) isə bitərəfdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi 21 noyabr 2005-ci il tarixdə 45 seçki dairəsi üzrə seçkilərin nəticələrini bütövlükdə təsdiq etdi.

2005-ci il noyabrın 28-də üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I sessiyası keçirildi. Sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, sədrin müavinlərinin, Daimi Komissiya sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, 2006-cı il Dövlət büdcəsinin təsdiqi, "Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əlavə və dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu və digər məsələlər təsdiq edildi.[370] Heydər Əliyev dövlətçilik məktəbinin layiqli yetirməsi, tanınmış ictimai-siyasi xadim Vasif Talıbov yenidən – üçüncü dəfə açıq səsvermə yolu ilə yekdilliklə Muxtar Respublika Ali Məclisinin sədri seçildi.

Üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquz sessiyası keçirilmiş, bu sessiyalarda muxtar respublikanın iqtisadi həyatı, müxtəlif illərdə (2005-2010-cu illərdə) Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları, İnsan hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) seçilməsi, Ombudsmanın hesabatları, müxtəlif illər üzrə Dövlət büdcəsinin təsdiqi və icrası vəziyyəti kimi məsələlər müzakirə edilmiş, qərarlar qəbul edilmişdir.

2006 və 2007-ci illərdə muxtar respublikada çox böyük quruculuq tədbirləri həyata keçirilmiş, ümumi daxili məhsul 2005-ci illə müqayisədə 2006-cı ildə 27 faiz artmış (405657 min manat təşkil etmişdir), 29 istehsal müəssisəsi fəaliyyətə başlamış,

[370] "Şərq qapısı" qəzeti, 2005, 29 noyabr



sənaye istehsalının həcmi müvafiq olaraq 64 faiz artmış (70444 min manat olmuşdur), 2006-cı ildə 8044 yeni iş yeri açılmış, 757 obyektdə tikinti, əsaslı təmir, yenidənqurma, bərpa və təmir işləri görülmüşdür.[371] 2007-ci il muxtar respublikada sənayenin, tikintinin, kənd təsərrüfatı, meliorasiya, kommunikasiya və sosial-mədəni sahələrin, maliyyə-bank sektorunun inkişafı baxımından da yaddaqalan olub. İl ərzində 793 obyektdə tikinti, əsaslı təmir, yenidənqurma və bərpa işləri aparılıb ki, bu da təxminən hər gün ərzində 2,5 obyektin istifadəyə verilməsi demək idi.[372] 2008-ci il Naxçıvan Muxtar Respublikasında "İnkişaf və tərəqqi" ili elan edilmişdir. Bu ildə muxtar respublikada ümumi daxili məhsul istehsalı 35,5 faiz artaraq 795764 min manat olmuşdur. Sənaye məhsulu istehsalı 26,7 faiz, kənd təsərrüfatı məhsulları istehsalı 11,5 faiz artmışdır. Ümumiyyətlə, 2008-ci ildə muxtar respublika üzrə müxtəlif təyinatlı 854 obyekt istifadəyə verilmiş, 91 obyektdə isə tikinti-quraşdırma və təmir işləri davam etdirilmişdir.[373]

Naxçıvan Muxtar Respublikasında 2009-cu il "Nizam-intizam ili" elan edilmişdir. Bu, təkcə əmək intizamının gücləndirilməsi kimi başa düşülməmiş, hər bir işçinin ona tapşırılan sahədə məsuliyyətinin gücləndirilməsi, işə və onun nəticəsinə şüurlu münasibət, idarəetmə və icra mədəniyyətinin artırılması kimi dərk edilmiş və tətbiq olunmuşdur.[374] Muxtar respublikada 2009-cu il ilk növbədə sosial-iqtisadi sahədə yeniləşmə və quruculuq tədbirlərinin daha da dərinləşməsi dövrü kimi yadda qalmışdır. 2004-2008-ci illər üzrə regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icrası ilə bağlı həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikada 37 mindən çox yeni, o cümlədən 23675 daimi iş yeri açılmış, 1236 yeni istehsal və xidmət sahələri yaradılmış, 334 yeni sənaye müəssisəsi istifadəyə verilmişdir. Əgər 1995-ci ildə muxtar respublikada 56

[371] "Şərq qapısı" qəzeti, 2007, 11 yanvar
[372] "Azərbaycan" qəzeti, 2009, 22 yanvar
[373] "Şərq qapısı" qəzeti, 2009, 8 fevral
[374] Yenə orada 2009, 29 dekabr

sənaye müəssisəsi vardısa, ötən 15 il ərzində bu müəssisələrin sayı 420-yə çatmışdır. 2009-cu ildə ümumi daxili məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini üstələmiş, adambaşına düşən həcmi isə 2435 manat təşkil etmişdir.[375] "Yeniləşmə ili" olan 2010-cu ildə də Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri ictimai həyatın bütün fəaliyyət istiqamətlərində əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir. Məhz bu baxımdan hazırki dinamik inkişaf muxtar respublikanın tarixinin intibah mərhələsi kimi yaddaşlara həkk olunmaqdadır. Həyata keçirilən irimiqyaslı islahatların nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası iqtisadi fəallıq üzrə öz statusunu aqrar bölgədən sənaye regionuna dəyişməklə yeni imic qazanmışdır. Muxtar respublikanın təbii ehtiyatlarının və istehsal imkanlarının səfərbər edilməsi ilə iqtisadi və sosial inkişafda yeni uğurlu nəticələr əldə edilmişdir.

Muxtar respublikada həyata keçirilən quruculuq tədbirləri ilə yerindəcə tanış olan ölkə Prezidenti İlham Əliyev demişdir: "Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvan rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm".[376]

Dördüncü çağırış Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərin keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 3 sentyabr 2010-cu il tarixdə sərəncam imzaladı və Azərbaycan Milli Məclisinə seçkilər 2010-cu il noyabrın 7-nə təyin edildi. Bu sərəncama uyğun olaraq Naxçıvan MR Ali Məclisi sədrinin 4 sentyabr 2010-cu il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər

[375] "Azərbaycan" qəzeti, 2009, 30 dekabr
[376] Yenə orada, 2009, 5 avqust



də 2010-cu il noyabr ayının 7-nə təyin edildi. Milli Məclisə keçirilən seçkilərdə Naxçıvan MR-in ərazi vahidləri üzrə 7 seçki dairəsi, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər üzrə isə 45 seçki dairəsi yaradıldı. Respublikada seçkilərin demokratik, şəffaf, azad və ədalətli keçirilməsi üçün həm seçki ərəfəsində, həm də təbliğat-təşviqat dövründə bir sıra tədbirlər həyata keçirildi. Aprel ayında Bakıda "Azərbaycanda 2010-cu il parlament seçkiləri: daha demokratik, daha şəffaf" mövzusunda beynəlxalq konfrans keçirildi. Respublikada seçki praktikasının daha da təkmilləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və qabaqcıl dünya təcrübəsinin tətbiq olunması üçün Seçki Məcəlləsinə bir sıra əlavələr və dəyişikliklər edildi. Sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində Azərbaycan Respublikasının Milli Məclisi və Naxçıvan MR-in Ali Məclisi seçkilərinə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirə keçirildi. Müşavirədə seçkilərin Azərbaycan Respublikası Seçki Məcəlləsinin və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun tələblərinə uyğun təşkil edilməsi aid təşkilatlardan tələb edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, muxtar respublika Mərkəzi Seçki Komissiyasının təşkilatçılığı və ATƏT-in Bakı ofisinin təşəbbüsü ilə Naxçıvanda "Seçki prosesinə qeyri-qanuni müdaxilənin yolverilməzliyi" mövzusunda sessiya keçirildi.

Azərbaycan Milli Məclisinə 125 dairə üzrə 690, o cümlədən Naxçıvan Muxtar Respublikasında 7 dairə üzrə 38 nəfər namizədliyini irəli sürdü. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərdə 45 dairə üzrə müxtəlif siyasi partiyalara mənsub, yaxud bitərəf olan 140 namizəd qeydə alındı. Azərbaycan Respublikasında yaradılmış 5414 seçki məntəqələri üzrə 4928594 seçici qeydə alınmış, bunlardan 2442365-i səsvermədə iştirak etmişdir (50,14 faiz).

Naxçıvan Muxtar Respublikası üzrə Ali Məclisə seçkilərin keçirilməsi üçün yaradılmış 316 seçki məntəqəsi üzrə 256317

nəfər seçici siyahısına daxil edilmiş, onlardan 174780-i, yəni 68,2 faizi səsvermədə iştirak etmişdir.

Səsvermənin gedişini 1000-dən artıq beynəlxalq müşahidəçi və 47 minə qədər yerli müşahidəçi izləmişdir. Naxçıvan Muxtar Respublikasının seçki məntəqələrində isə namizədlərin vəkil etdiyi 127 nəfər şəxs, 273 nəfər yerli müşahidəçi, həmçinin 33 nəfər beynəlxalq və 32 nəfər müxtəlif siyasi partiyaların müşahidəçiləri seçkilərin gedişini və səslərin hesablanmasını izləmişlər. 118 dairədə "exit-poll" həyata keçirilmiş, seçkilərin nəticələri elektron-seçki sistemi ilə hesablanmışdır.

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 29 noyabr 2010-cu il tarixdə 125 seçki dairəsi üzrə seçkilərin nəticələrini təsdiq etdi. Naxçıvan MR-in Ali Məhkəməsi 19 noyabr 2010-cu il tarixdə muxtar respublikada seçkilərin nəticələrini müzakirə edərək qəbul etdi. Beləliklə, Azərbaycan Respublikası Milli Məclisinə 125, Naxçıvan MR Ali Məclisinə 45 nəfərin deputatlığı qəbul edildi.

3 dekabr 2010-cu il tarixdə dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin I sessiyası keçirildi. Sessiyanın gündəliyində Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, sədr müavinlərinin, daimi komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi, "Naxçıvan Muxtar Respublikası Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanunu, 2011-ci il Dövlət büdcəsinin təsdiqi kimi məsələlər daxil edildi. Görkəmli ictimai-siyasi xadim, Naxçıvan Muxtar Respublikasının inkişafında müstəsna xidmətləri olan Vasif Talıbov yenidən – dördüncü dəfə yekdilliklə Muxtar Respublika Ali Məclisinin Sədri seçildi.

Ümumiyyətlə, dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on bir sessiyası keçirilmiş (2010-2015), bu sessiyalarda muxtar respublikanın müxtəlif illərdəki sosial-iqtisadi inkişafının yekunları, dövlət büdcələrinin təsdiqi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi, Naxçıvan MR-in İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı, Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresində Azərbaycan nümayəndə heyətinin məlumatı kimi məsələlər müzakirə edilmiş, uyğun qərarlar qəbul edilmişdir.



2012-ci ilin iyul və dekabr aylarında Naxçıvan MR Ali Məclisinin beşinci və altıncı sessiyaları keçirildi. "Milli dəyərlər ili" elan edilən 2012-ci ildə həyatın bütün sahələrində olduğu kimi, milli dəyərlər sahəsində də böyük nailiyyətlər əldə edilmiş, xalqımızın dili, adət-ənənəsi, mədəniyyəti, folkloru, xalq yaradıcılığı nümunələri qorunmuş və inkişaf etdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunlarından bəhs edərək qeyd etmişdir ki, yola saldığımız ildə ötən dövrlərdə qazanılan nailiyyətlər daha da möhkəmləndirilmiş, əksər sahələr üzrə qarşıya qoyulmuş vəzifələr icra edilmiş, inkişafın artan dinamikası qorunub saxlanılmış, iqtisadi və sosial həyatın bütün sahələrində tərəqqiyə nail olunmuşdur.[377] 2012-ci ildə ümumi daxili məhsulun həcmi bir il öncəyə nisbətən 12 faiz artaraq 2 milyard 14 milyon manata çatmış, 796 milyon manatlıq sənaye, 316 milyon manatdan çox kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.[378]

Sessiyada müstəqil Azərbaycanın qurucusu olan ulu öndər Heydər Əliyevin 90 illik yubileyi ilə əlaqədar 2013-cü il Naxçıvan Muxtar Respublikasında "Heydər Əliyev ili" elan edilmişdir. Ali Məclisin Sədri vurğulamışdır ki, ümummilli liderin quruculuq konsepsiyası 2013-cü ildə - "Heydər Əliyev ili"ndə də muxtar respublikada inkişafın əsas hərəkətverici qüvvəsi olacaqdır.

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yeddinci sessiyasında (2013, 23 iyul) 2013-cü ilin birinci yarısında Naxçıvan MR-in sosial-iqtisadi inkişafının yekunları və 2012-ci il dövlət büdcəsinin icrası müzakirə edilmiş və uyğun qərarlar qəbul edilmişdir. Dekabrın 28-də keçirilən səkkizinci

[377] "Azərbaycan" qəzeti, 2012, 25 dekabr
[378] "Şərq qapısı" qəzeti, 2012, 23 dekabr

sessiyada "Heydər Əliyev ili"ndə əldə edilən uğurlar təhlil edildi. Naxçıvanın inkişafdan intibaha qovuşması ilə xarakterizə olunan 2013-cü il düzgün idarəetmənin, vətən sevgisinin, yurd sahibliyinin nəticəsində əldə edilmişdir. "Heydər Əliyev ili"ndə Naxçıvan Muxtar Respublikasında sosial həyatın bütün sahələrində qazanılan uğurların başlıca səbəbi isə ulu öndərin yoluna sədaqət və bu yolun davam etdirilməsi olmuşdur. 2013-cü ildə muxtar respublikada ümumi daxili məhsulun həcmi 2.337 milyon manatdan çox olmuşdur ki, bu da bir il əvvəlki müvafiq göstərici ilə müqayisədə 10 faizdən çoxdur.[379]

2014-cü ilin iyun və dekabrında dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu və onuncu sessiyaları keçirildi. Sessiyalarda 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları, muxtar respublikanın 2015-ci il üçün dövlət büdcəsinin təsdiqi, "Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi, Naxçıvan MR-in İnsan Hüquqları üzrə Müvəkkilinin hesabatı və digər məsələlərin müzakirəsi keçirilmişdir.[380]

"Muxtariyyət ili"ndə təhsil, mədəniyyət, səhiyyə, rabitə, energetika və digər sahələr də daxil olmaqla müasir tələblərə cavab verən yeni obyektlər istifadəyə verilmiş, yollar salınmış, körpülər tikilmiş, istehsal, xidmət sahələrinin yaradılması istiqamətində işlər davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Naxçıvan Muxtar Respublikasına ümumilikdə 25 milyon manat vəsaitin ayrılması burada gedən quruculuq işinə böyük töhfə olmuşdur.[381] Əldə olunmuş nəticələr sosial-iqtisadi inkişafa davamlı xarakter vermişdir. 2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi 2388 milyon manatdan çox olmuşdur. Özəl bölmənin xüsusi çəkisi 87 faizə yüksəlmişdir.

---
[379] "Azərbaycan" qəzeti, 2014, 6 fevral
[380] "Şərq qapısı" qəzeti, 2014, 24 iyun; 2014, 28 dekabr
[381] "Xalq qəzeti", 2014, 28 dekabr



Muxtar respublikada 352 növdə məhsul istehsal edilmişdir. 892 milyon manatlıq sənaye, 355 milyon manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur.[382]

Dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin on birinci sessiyasında (2015, 21 iyul) 2015-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları və 2014-cü il dövlət büdcəsinin icrası müzakirə edilmiş və uyğun qərarlar qəbul olunmuşdur. Sessiyada "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilmişdir.

Naxçıvana səfəri zamanı Azərbaycan Prezidenti demişdir: "Bu gün Naxçıvanın gələcək inkişafı ilə bağlı əlavə sözlərə ehtiyac yoxdur. Çünki bütün işlər burada ən yüksək səviyyədə görülübdür. Bundan sonra ancaq bu uğurlara yeni uğurlar əlavə etmək lazımdır".[383]

2015-ci il noyabrın 1-də beşinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər keçirilmişdir. Azərbaycan Respublikası Milli Məclisinə aid yaradılmış 125 seçki dairəsi üzrə 767 nəfər deputatlığa namizəd mübarizə aparmışdır. Seçki dairələrindən 2.894.515 nəfər seçici səsvermədə iştirak etmişdir.[384] Nəticədə, 124 seçki dairəsi üzrə səsvermə baş tutmuş və 124 nəfər Milli Məclisə deputat seçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilər üçün 45 seçki dairəsi yaradılmış və seçkilərdə seçicilərdən 205.166 nəfəri (76,4%-i) iştirak etmişdir.[385] 45 seçki dairəsi üzrə 135 nəfərin namizədliyi qeydə alınmış, səsvermənin nəticəsinə görə 45 nəfər, o cümlədən 8 nəfər qadın deputat seçilmişdir.[386] 2015-ci il noyabrın 18-də beşinci çağırış Naxçıvan Muxtar

---
[382] "Şərq qapısı" qəzeti, 2014, 28 dekabr
[383] Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.74
[384] "Azərbaycan" qəzeti, 2015, 27 noyabr
[385] Yenə orada, 2015, 18 noyabr
[386] "Şərq qapısı" qəzeti, 2015, 12 noyabr

Respublikası Ali Məclisinin birinci sessiyasında Vasif Talıbov yekdilliklə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir. Sonra sədrin müavinləri, komitə sədrləri, komitə sədrlərinin müavinləri və üzvləri seçilmişlər. Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci və üçüncü sessiyalarında 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları, 2015-ci və 2016-cı illər üçün dövlət büdcəsinin təsdiqi, 2016-cı ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları və başqa məsələlər müzakirə edilərək təsdiq edilmişdir. Sessiyalarda müzakirə olunan məsələlərdən aydın olur ki, Naxçıvan Muxtar Respublikası bütün sahələrdə ciddi irəliləyişə nail olmuş və mühüm nailiyyətlər qazanmışdır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Milli Məclisinə, Naxçıvan MR Ali Məclisinə keçirilən seçkilər Seçki Qanununun tələblərinə uyğun demokratik, şəffaf və azad surətdə, seçicilərin yüksək fəallığı şəraitində keçirilmiş və ən layiqli namizədlər deputat seçilmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi muxtar respublikanın qarşısında duran vəzifələrin uğurla yerinə yetirilməsi üçün lazımi siyasi, sosial-iqtisadi və təşkilati tədbirləri həyata keçirmişdir.

## 3.4. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

### 3.4.1. Sosial-iqtisadi inkişafın səciyyəsi

Son illərdə Azərbaycanın bölgələrinin tarazlı və hərtərəfli inkişafında, iqtisadi fəallığın yüksəlməsində, iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasında, iş yerlərinin və yeni müəssisələrin yaradılmasında, əhalinin məşğulluğunun yaxşılaşmasında, ümumilikdə respublikanın dayanıqlı və sürətli inkişafının təmin olunmasında regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramlarının icrası mühüm əhəmiyyət kəsb edir. Regionların



sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət iqtisadi tərəqqinin əsas amilinə, sistemli və dayanıqlı inkişafın dövlət tənzimlənməsinin mütərəqqi bir metoduna çevrilib. Bu siyasət respublikada sosial infrastrukturun, kommunal xidmət sektorunun, enerji və nəqliyyat sisteminin etibarlı təminatını, təhlükəsizliyini möhkəmləndirib. Regionların inkişafına dair həyata keçirilən proqramlar Azərbaycanın iqtisadi siyasətinin ümumi tərkib hissəsi olmaqla uzunmüddətli və davamlı inkişafa, gələcəyə hesablanmış "Yol xəritəsi"dir.

Əslində Azərbaycanın regionlarının inkişafının prioritetləri və bu siyasətin konturları ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf konsepsiyasına əsaslanır. Ümummilli lider Heydər Əliyev deyirdi ki, ölkənin sosial-iqtisadi inkişafı bilavasitə regionların tərəqqisi ilə bağlıdır. Regionların inkişafı ölkə iqtisadiyyatında həlledici rol oynayır.

Ulu öndər Heydər Əliyevin 1993-2003-cü illərdə həyata keçirilən uzaqgörən iqtisadi siyasəti regionlarda kənd təsərrüfatı, emal, sənaye və istehsal sahələrinin yaradılmasına, bölgələrin hərtərəfli inkişafına əlverişli zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" imzaladığı Fərman sosial-iqtisadi inkişafın konturlarının müəyyən edilməsində və birinci Dövlət Proqramının hazırlanmasında baza sənədi oldu. Sənəd respublikada sosial-iqtisadi inkişafın sürətləndirilməsi, Azərbaycanın hərtərəfli inkişafı və iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilməsindən ibarət yeni sosial-iqtisadi inkişaf strategiyasını formalaşdırdı.

Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi altında işlənib hazırlanmış və ardıcıllıqla həyata keçirilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)" bu dövrə aid vəzifələrin yerinə yetirilməsində həlledici mərhələ oldu.

2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, əhalinin rifahının yaxşılaşdırılmasına səbəb oldu, bununla da ölkənin strateji inkişaf hədəflərinə, müəyyən edilmiş məqsədlərə çatmasına əhəmiyyətli töhfəsini verdi.

Ötən illərin təcrübəsi göstərir ki, ölkənin sosial-iqtisadi inkişafında prioritet kimi müəyyən edilmiş və neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə regional tarazlığın təmin edilməsində regional inkişaf üzrə Dövlət Proqramları mühüm rol oynayıb. Dövlət Proqramları çərçivəsində Azərbaycanın iqtisadi qüdrəti yüksəlib, ölkədə işgüzar fəallıq artıb, regionlarda sahibkarlıq fəaliyyəti daha da genişlənib, ölkəmizin bütün coğrafi hüdudlarını əhatə edən iri infrastruktur layihələri həyata keçirilib.

Dövlət Proqramlarının icrası ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşmasına səbəb olub, bu dövrdə (2004-2014-cü illər ərzində) Ümumi Daxili Məhsul (ÜDM) 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım 12,9 faiz təşkil etmişdir. Strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə,[387] dövlət büdcəsinin gəlirləri 16 dəfə, orta aylıq əmək haqqı 5,5 dəfə, pensiyalar 9,6 dəfə, əhalinin əmanətləri 27 dəfə artıb. Minimum əmək haqqının məbləği ötən on ildə 11,7 dəfə artıb, yoxsulluğun səviyyəsi 2003-cü ildəki 44,7 faizdən 2013-cü ildə 5,3 faizə düşüb.[388] Hazırda Cənubi Qafqazın ümumi iqtisadiyyatının dörddə üçü Azərbaycanın payına düşür.

Son on bir ildə regionlara bütün mənbələr hesabına 55 milyard manatdan artıq vəsait yönəlib. Görülmüş tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi

[387] "İki sahil" qəzeti, 18 aprel 2015

[388] Naxçıvan 2003 -2013: hədəflər, inkişaf, nəticələr. Naxçıvan, 2014. s.11



iş yeri açılıb, 55,6 min yeni müəssisə yaradılıb. İş yerlərinin 80 faizə yaxını regionların payına düşür.

Hazırda icrası davam etdirilən "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynamaqdadır.

Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransdakı nitqində əldə olunan uğurlardan və qarşıda duran vəzifələrdən bəhs edərək demişdir: "Azərbaycanda keçən il ərzində bütün işlər müsbət istiqamətdə getmişdir. Azərbaycan inamla irəliyə gedir, dayanıqlı inkişaf təmin edilmişdir. Regionlar sürətlə inkişaf edir. Bu gün dünyada nadir Azərbaycan inkişaf modeli var. Artıq biz bu barədə də danışa bilərik, çünki bu model, doğrudan da bir nümunə kimi hər bir ölkə üçün maraqlı olmalıdır. Siyasi, iqtisadi islahatlar müstəqil siyasət, dinlərarası dialoq, yüksək səviyyəli milli-dini tolerantlıq, dözümlülük, sosial-siyasət və görülən işlər göz qabağındadır...Azərbaycan bundan sonra da uğurla inkişaf edəcəkdir".[389]

Naxçıvan Muxtar Respublikasının iyirmi illik inkişaf dövrünün yarısından çoxu regionların sosial-iqtisadi inkişaf dövrünə təsadüf edir. Bütünlükdə Naxçıvan Muxtar Respublikasının son iyirmi ildəki sosial-iqtisadi inkişafı böyük inkişaf və tərəqqi illəri, inkişafdan intibaha qədər yol kimi səciyyələndirilir.[390] Bu illərdə muxtar respublikada gedən quruculuq, abadlıq işlərinin, iqtisadiyyatda, mədəni həyatda, insanların güzəranında baş verən dəyişikliklərin kökündə bir tərəfdən Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, ikinci tərəfdən isə düzgün idarəetmə

[389] "Azərbaycan" qəzeti, 2015, 28 yanvar

[390] Yenə orada, 2015, 14 yanvar

dayanır. Bu dövrdə muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, 1996-cı ildən başlanan sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyllər daha da möhkəmləndirilmişdir.

Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ilə burada iqtisadiyyatın mühüm sahələrinin dirçəldilməsi, genişmiqyaslı islahatların həyata keçirilməsi, işgüzar mühitin yaradılması sahəsində böyük işlər görüldü. Keçirilən iclaslarda xalq təsərrüfatının ayrı-ayrı sahələrindəki vəziyyət mütəmadi müzakirə olunur, problemlərin həlli üçün vəzifələr müəyyənləşdirilir və onların aradan qaldırılması üçün konkret tədbirlər görülürdü. İcra orqanlarının, idarəetmə strukturlarının işə məsuliyyətli münasibəti artırılır, onlara əməli köməklik göstərilirdi. Xalq təsərrüfatının bütün sahələrinə ciddi diqqət yetirilir, quruculuq və abadlıq işləri geniş vüsət alırdı.

Muxtar respublikada 1995-2015-ci illərdə aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahələrdəki irəliləyişlər diyarı Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirmişdir. Sənayedə, tikintidə, kənd təsərrüfatında, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar qazanılmışdır.

Naxçıvan Muxtar Respublikasında ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsi nəticəsində Naxçıvan tamamilə dəyişilmiş, yenidən qurulmuş, alınmaz bir qalaya çevrilmişdir. Ali Məclis Sədrinin ümummilli liderimizin dövlətçilik ideyalarına sədaqəti, ardıcıl və yorulmaz fəaliyyəti sayəsində regionda əldə edilmiş mühüm nəticələr əslində Azərbaycanın tərkibində yeni bir Naxçıvanı ərsəyə gətirmişdir.

Ümummilli lider Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi siyasi kurs ölkə Prezidenti İlham Əliyevin Heydər Əliyev ideyalarına sədaqəti və yaradıcılıqla həyata keçirməsi, Ali Məclisin Sədri Vasif Talıbovun səfərbəredici və təşəbbüskar rəhbərliyi Naxçıvanın hərtərəfli inkişaf və tərəqqisini təmin etmişdir. Naxçıvan diyarındakı sürətli və hərtərəfli inkişaf Ali Məclis



Sədrinin ardıcıl və yorulmaz fəaliyyətinin, məqsədyönlü və qətiyyətli mövqeyinin, fədakar işinin konkret və uğurlu nəticəsidir.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında çox böyük uğurlar əldə edilmişdir. Problemlərə bələdlik, insanlarla işləmək qabiliyyəti, torpaq və vətən sevgisi, sözlə işin, əməllə əqidənin birliyi Vasif Talıbovu xalqın gözündə ucaltmış, ona inam və yüksək hörmət yaratmışdır. Ölkə Prezidenti İlham Əliyev Naxçıvana hər səfərində burada görülən işlərdən, həyata keçirilən tədbirlərdən razı qaldığını dönə-dönə qeyd etmişdir: "Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir, çox sevindirir. Naxçıvan ən müasir şəhərə çevrilibdir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır... Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir... Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm".[391]

Naxçıvan Muxtar Respublikasında 1995-2015-ci illər sosial-iqtisadi inkişaf baxımından mühüm mərhələ təşkil edir. Bu dövrdə Ermənistan tərəfindən blokadada saxlanılmasına baxmayaraq, muxtar respublika dinamik inkişaf etmiş, həyatın və xalq təsərrüfatının bütün sahələrində əsaslı uğurlar əldə edilmiş, iqtisadiyyatdakı müsbət meyillər daha da inkişaf etdirilmişdir.

Muxtar respublikada iqtisadi islahatların həyata keçirilməsi, dövlət büdcəsinin sabitləşməsi, vergi-bank sisteminin təkmilləşdirilməsi, iqtisadiyyatın idarə olunması sahəsində islahatların həyata keçirilməsi dövlət vəsaitinə xeyli qənaət olunmasına və dövlət büdcəsinin mədaxil hissəsinin yerinə yetirilməsinə müsbət təsir göstərmişdir. 1996-98-ci illərdə muxtar respublika

[391] "Azərbaycan" qəzeti, 2009, 5 avqust

büdcəsinin mədaxil hissəsi plandan artıq, məxaric hissəsi isə qənaətlə yerinə yetirilmişdir.[392]

Sonralar aparılan iqtisadi islahatlar büdcə daxilolmalarına müsbət təsir göstərmişdir. Muxtar respublikanın dövlət büdcəsinə 2005-ci ildə bütün mənbələr hesabına 21,0 milyon manat vəsait daxil olmuşdur ki, bu da 2000-ci ildə olduğundan 16,8 milyon manat, yaxud 5 dəfə çoxdur.[393] 2009-cu ildə isə dövlət büdcəsinə nəzərdə tutulan 28,5 milyon manatdan 2,3 dəfə çox, yəni 65,9 milyon manat vəsait daxil olmuşdur. Ümumi Daxili Məhsul 1994-cü ildəki 37.287,7 min manatdan 2009-cu ildə 973.649,3 min manata yüksəlmişdir, yəni 26,1 dəfə artmışdır. Ümumi Daxili Məhsulun həcmi 2010-cu ilin 6 ayında 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 20,8 faiz artaraq 512 milyon manatdan çox olmuşdur. Muxtar respublikada ilk dəfə olaraq 2009-cu ildə Ümumi Daxili Məhsulun həcmi 1 milyard ABŞ dolları səviyyəsini ötmüşdür.[394] Həmin dövrdə adambaşına düşən Ümumi Daxili Məhsulun həcmi isə 21,5 dəfə çoxalaraq 113,4 manatdan 2434,7 manata çatmışdır.[395] 2011-ci ildə Ümumi Daxili Məhsulun həcmi 1995-ci ilə nisbətən 38 dəfə artmışdır.[396] 2010-cu ildə iqtisadiyyatın əsas sahələrinin inkişafı istiqamətində həyata keçirilmiş məqsədyönlü tədbirlər öz bəhrəsini vermiş, əldə olunmuş uğurlu nəticələr sosial-iqtisadi inkişafı xarakterizə edən və əsas makroiqtisadi göstərici olan Ümumi Daxili Məhsulun həcminin artmasına zəmin yaratmışdır. Özündə ciddi nəticələr əks etdirən bu artımın səciyyəvi xüsusiyyətləri ondan ibarətdir ki, 2010-cu ildə muxtar respublikanın tarixində ilk dəfə olaraq Ümumi Daxili Məhsulun həcmi 1 milyard manat səviyyəsini keçmişdir.[397] Bu

[392] "Dirçəliş-XXI əsr" jurnalı. 1999-cu il, №21-22, s.82
[393] NMR DA. f.613, siy. 13, iş 632
[394] 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB.
2010, s.6
[395] Yenə orada
[396] Naxçıvan: inkişafın 16 ili. Naxçıvan: Əcəmi NPB, 2011, s.5
[397] 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, s.5



göstərici əvvəlki illə müqayisədə 17 faiz artaraq 1 milyard 171 milyon manata, onun hər bir nəfərə düşən həcmi isə 18 faiz artaraq 2883 manata çatmışdır.[398]

2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi 2013-cü illə müqayisədə 1,3 faiz artaraq 2 milyard 391 milyon manatdan çox olmuşdur. Onun hər bir nəfərə düşən həcmi 5465,2 manat təşkil etmişdir.[399] 2015-ci ildə Ümumi Daxili Məhsul istehsalı 1995-ci ildəkinə nisbətən 56,4 dəfə artaraq 2 milyard 467 milyon 422 min manat təşkil etmiş, hər bir nəfərə düşən ÜDM istehsalı 42 dəfə artmışdır.[400] 2016-cı ilin birinci yarısında isə ÜDM istehsalının həcmi 1 milyard 144 milyon 207 min manatdan artıq olmuşdur ki, bu da bir il öncəki müvafiq göstəricidən 2 faiz çoxdur.[401] Ötən dövrlər ərzində muxtar respublikada qəbul olunmuş mühüm dövlət proqramlarının uğurlu icrası nəticəsində iqtisadiyyatın diversifikasiyasına, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına nail olunmuşdur. Əldə olunmuş sosial-iqtisadi inkişaf səviyyəsini qorumaq və daha da möhkəmləndirmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir.[402]

Sosial-iqtisadi inkişaf sahəsində qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin uğurla icra edilməsi makroiqtisadi göstəricilərin daha da yaxşılaşmasına, sahibkarlığın və özəl sektorun inkişafına, investisiya qoyuluşlarının artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, sosial infrastruktur təminatının güclənməsinə, əhalinin məşğulluğunun

[398] 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, s.5
[399] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.5
[400] Hacıyev İ., Cəfərov K. Naxçıvan Muxtar Respublikası müstəqillik illərində. Naxçıvan: Əcəmi NPB, 2016, s. 6
[401] "Şərq qapısı" qəzeti, 2016, 30 iyul
[402] Yenə orada, 2014, 2 sentyabr

və həyat səviyyəsinin yüksəlməsinə təkan vermişdir. Nəticədə, sosial-iqtisadi inkişafla bağlı qəbul edilmiş dövlət proqramlarının icrası nəticəsində muxtar respublika iqtisadiyyatı inkişafın yeni mərhələsinə yüksəlmişdir.

### 3.4.2. Sənayenin inkişafı. Yeni sənaye sahələrinin yaradılması

1990-95-ci illərdə muxtar respublikada sənaye müəssisələrinin əksəriyyəti öz fəaliyyətini dayandırmış, 90-cı illərin ortalarında muxtar respublikada 56 sənaye müəssisəsi mövcud olmuşdur. Ancaq 1996-97-ci illərdən başlayaraq aparılan ardıcıl və məqsədyönlü fəaliyyət nəticəsində muxtar respublikada iqtisadi inkişafda yeni mərhələyə qədəm qoyulmuş, sənaye müəssisələrinin istehsal fəaliyyəti tədricən bərpa olunmağa başlamışdır. Muxtar respublika rəhbərliyinin bu sahəyə ciddi diqqət yetirməsi sayəsində 1999-cu ildə muxtar respublikada 163 sənaye müəssisəsi fəaliyyət göstərmiş,[403] sənaye müəssisələrində 2883,9 min manatlıq məhsul istehsal edilmiş, 15 adda məhsul istehsalı təmin olunmuşdur. 2000-2005-ci illər ərzində muxtar respublika sənayesində 229 yeni təsərrüfat subyektinin fəaliyyətə başlaması öz növbəsində bu dövr ərzində sənaye məhsulu həcminin üç dəfə artmasına zəmin yaratmışdır.[404] Nəticədə muxtar respublikada sənaye məhsulunun həcmi 2004-cü ildə 25,6 milyon manat,[405] 2005-ci ildə isə 41,2 milyon manat olmuşdur.[406] Bu da 2000-ci illə müqayisədə üç dəfə çoxdur. Sənaye məhsulu həcminin artması mövcud istehsal müəssisələrinin öz fəaliyyətini bərpa etməsi ilə yanaşı, həm də yeni istehsal müəssisələrinin istifadəyə verilməsi nəticəsində mümkün olmuşdur. Belə ki, təkcə 2005-

[403] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm. 2001, s.111

[404] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, s. 10

[405] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında. Bakı: Elm, 2005, s.65

[406] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, s.10



2006-cı illərdə 44 istehsal müəssisəsi fəaliyyətə başlamışdır. 2005-ci ildə sənayedə çalışanların sayı 3,3 min, 2007-ci ildə isə 5,9 min nəfərə çatmışdır. 2007-ci ildə 32, 2008-ci ildə isə 37 sənaye müəssisəsi məhsul istehsal etməyə başlamışdır. 2006-cı ildə 70,4, 2007-ci ildə isə 122,7 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir.[407] 2008-ci ildə muxtar respublikada 164,5 milyon manatlıq sənaye məhsulu istehsal olunmuşdur ki, bu da 2007-ci ildə istehsal olunan 122,7 milyon manatlıq məhsuldan müqayisəli qiymətlərlə 26,7 faiz çoxdur.[408]

Həyata keçirilən məqsədyönlü islahatların nəticəsində sənaye muxtar respublikada dinamik inkişaf edən sahələrdən birinə çevrilmişdir. Sənaye müəssisələrinin işinin bərpası, istehsal olunan məhsulun həcminin və çeşidinin artırılması istiqamətində aparılan tədbirlərin uğurlu nəticəsi kimi 2009-cu ildə 212,5 milyon manatlıq məhsul istehsal edilmişdir ki, bu da 2008-ci ildəki göstəricini 24,5 faiz üstələmişdir.

Sənaye sahəsində həyata keçirilən irimiqyaslı islahatların uğurlu yekunudur ki, 1995-2010-cu illərdə muxtar respublikada 364 yeni sənaye müəssisəsi işə başlamışdır. Əgər 1996-cı ilin əvvəlində muxtar respublikada 56 sənaye müəssisəsi mövcud idisə, 2010-cu ilin sonunadək bu müəssisələrin sayı 423-ə (11 dəfə çox) çatmışdır. 2010-cu ildə sənaye sektorunda 24 istehsal sahəsi yaradılmışdır.2009-cu ildə muxtar respublikada 239 adda sənaye məhsulu istehsal edilir. İstehsal edilmiş sənaye məhsulunun ümumi dəyəri 212,5 milyon manat olmuş,[409] 62,2 milyon ABŞ dolları dəyərində sənaye məhsulları xarici ölkələrə və respublikanın digər bölgələrinə ixrac olunmuşdur ki, bu da 2008-ci illə müqayisədə 2,9 dəfə çoxdur. 2010-cu ildə muxtar respub-

[407] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, s.65

[408] 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2009, s.5-6

[409] 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2010, s.7

likada 318,6 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu illə müqayisədə 44 faiz çoxdur.[410] Sənaye məhsulu həcminin 91 faizini istehsal, 9 faizini isə xidmət sahələri təşkil etmişdir. Sahibkarlığın inkişafına, qeyri-dövlət sektorunun davamlı yüksəlişinə yönəlmiş kompleks tədbirlərin nəticəsidir ki, istehsal olunan sənaye məhsulunun 88 faizi, yaxud 279,5 milyon manatı özəl sektorun payına düşmüşdür ki,[411] bu da 2009-cu illə müqayisədə 50 faiz çoxdur.

Yeni sənaye müəssisələrinin yaradılması həm istehsal olunmuş yeni məhsul növlərinin, həm də bu sektorda işləyən işçilərin say tərkibinin artmasına ciddi təsir göstərmişdir. Belə ki, əgər 1988-ci ildə muxtar respublikanın sənaye müəssisələrində 1620 işçi çalışırdısa, 2010-cu ildə bu göstərici 8 dəfə artaraq 12855-ə çatmışdır.[412]

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatında prioritet sahə kimi qəbul edilən sənaye aparıcı rola malikdir. Muxtar respublikada əhali tərəfindən daha çox tələb olunan əmtəələri istehsal edən sahələrdə bazara uyğunlaşa bilən yeni və müxtəlif formalı təsərrüfat subyektlərinin yaradılması davam etdirilir. Sənayenin yüksək templi inkişafının təmin edilməsində əsas diqqət sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasına yönəldilir. Çünki istehsalın texnoloji baxımdan yeniləşdirilməsi əmək məhsuldarlığının əhəmiyyətli artımını və yerli resurslardan daha səmərəli istifadəni təmin etməyə imkan verir.

Son illərdə muxtar respublikada sənaye potensialının müntəzəm əsasda gücləndirilməsi, yeni təsərrüfat subyektlərinin formalaşdırılması və bu sahədə səmərəli idarəetmənin təşkili sənaye infrastrukturunun formalaşmasını şərtləndirir. Naxçıvan Muxtar Respublikası sənaye məhsulu istehsalının artım tempinə görə, sənayenin ümumi məhsulunun tərkibində qeyri-dövlət

[410] "Şərq qapısı" qəzeti, 2011, 29 yanvar
[411] 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, s.7
[412] "Şərq qapısı" qəzeti, 2011, 29 yanvar



sektorunun xüsusi çəkisinə və hazır məhsul qalığının minimum həddə olmasına görə Azərbaycan Respublikasının iqtisadi rayonları arasında ilk yerdədir.

Naxçıvan Muxtar Respublikasında bir sıra müəssisələr tikilib işə salınmışdır. Meyvə qurutma sexi, çay və siqaret istehsalı fabriki, şərab emalı müəssisəsi, süd və balın karton paketlənməsi müəssisəsi, "Alt Trikotaj" Açıq Səhmdar Cəmiyyətində, "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətində, "Badamlı Mineral Sular Zavodu" Məhdud Məsuliyyətli Cəmiyyətində yeni avadanlıqlar quraşdırılmaqla su keçirməz əlcək, şəbəkəli şüşə, plastik qapı və pəncərə, məişət avadanlıqlarının istehsalına başlanılmışdır. Dövlət yardımı nəticəsində muxtar respublikada 40-dan çox sənaye müəssisəsi tikilərək istifadəyə verilmişdir. Həmin sənaye müəssisələri su boruları, üzlük material (saydinq), mineral gübrə, boya, karton tara, pivə, çaxır, mismar, əlvan metal, çərçivə və baqet, qapı-pəncərə, mebel, santexnika avadanlıqları, karamel, şəkərli qənnadı məhsulları, quş əti, ət və süd məhsulları, kişmiş, kostyum, köynək və başqa məhsullar istehsal edir. Ümumiyyətlə, muxtar respublikada sənaye məhsullarının artımı 2004-cü ildə 29,7 faiz, 2005-ci ildə 56,2 faiz, 2006-cı ildə 64,2 faiz, 2007-ci ildə 66 faiz artmışdır.[413]

Muxtar respublika iqtisadiyyatının başqa sahələrində olduğu kimi sənaye sahəsində də qeyri-dövlət sektorunun payı ildən-ilə artır. Belə ki, 2007-ci ildə muxtar respublikada sənayenin dövlət sektorunda 28,7 milyon manatlıq, qeyri-dövlət sektorunda isə 73,5 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir.[414] 2006-cı ilə nisbətən məhsul istehsalı dövlət sektorunda 2,5 dəfə, qeyri-dövlət sektorunda isə 38,8 faiz artmışdır.

2003-cü illə müqayisədə 2013-cü ildə sənaye məhsulunun həcmi 49 dəfə artmışdır. 2013-cü ildə sənaye 29 faizlik payla Ümumi Daxili Məhsulun tərkibində ilk yerə sahib olmuş, isteh-

[413] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, s.65
[414] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, s.88

salın həcmi bir il öncəki illə müqayisədə artaraq 863 milyon manata çatmışdır. Bunun da 93 faizə qədəri, yaxud 799 milyon manatdan çoxu özəl bölmənin payına düşür.[415] 2014-cü ildə isə 892 milyon manatlıq sənaye məhsulları istehsal edilmişdir.[416] 2015-ci ildə 917 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 1995-ci ildəki göstəricidən 100, 4 dəfə çoxdur.

Sənaye sahəsinin aparıcı mövqedə olduğu müasir iqtisadiyyatın qurulması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində son illər ərzində ciddi iqtisadi uğurlar qazanılmış, sürətli inkişaf üçün zəngin potensial formalaşmış, azad sahibkarlığın inkişafına əlverişli şərait yaradılmışdır. Aparılan iqtisadi siyasətin davam etdirilməsini və sənayenin modernləşməsini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 6 iyun tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq olunmuşdur. Muxtar respublikada sənaye parklarının yaradılması istiqamətində görülən işlər gələcəkdə sənayenin daha sürətli inkişafı üçün geniş imkanlar açacaqdır.

2003-cü ilin sonunda muxtar respublikada 66 sənaye müəssisəsi fəaliyyət göstərirdisə, 2013-cü ilin sonunda bu göstərici 7 dəfə artaraq 438-ə çatmışdır.[417] Sənaye müəssisələrində 15385 nəfər işçi çalışmışdır ki, bu da 2003-cü ildəki müvafiq göstəricini 5,4 dəfə üstələmişdir. Sənayedə işçilərin sayı 2015-ci ildə 15752-yə çatmışdır.

Müasir texnologiyalara əsaslanan yeni sənaye müəssisələrinin işə salınması daxili tələbatı yüksək keyfiyyətli məhsullarla təchiz etməklə yanaşı, onların ixrac potensialını da artırmışdır. Bu istiqamətdə görülən işlərin nəticəsidir ki, cari ilin ötən dövründə 241 milyon manatlıq sənaye məhsulu ixrac olunmuşdur.[418]

2014-cü il ölkəmizdə "Sənaye ili" elan edilmişdir. Bundan sonra "Azərbaycan Respublikasında sənayenin inkişafına dair

---

[415] "Şərq qapısı" qəzeti, 2013, 29 dekabr
[416] Yenə orada. 2014, 28 dekabr
[417] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.77.
[418] "Şərq qapısı" qəzeti, 2013, 29 dekabr



2015-2020-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuş,[419] sənayenin modernləşdirilməsi və strukturunun təkmilləşdirilməsi, yüksək əlavə dəyər yaradan rəqabət qabiliyyətli, elmtutumlu və innovativ istehsalın genişləndirilməsi yeni istehsal sahələri ilə bağlı ixtisaslı kadrların hazırlanması üçün tədbirlər görülmüşdür. "Sənaye ili" çərçivəsində 200-dək, o cümlədən 40-dan çox orta və iri müəssisə açılmışdır.

Naxçıvan Muxtar Respublikasında sənayeləşmənin həyata keçirilməsi ilə əlaqədar sənaye müəssisələrinin yaradılmasına və inkişafına xüsusi fikir verilmişdir. Yaradılan sənaye müəssisələri daxili bazar üçün məhsul istehsal etməklə yanaşı, ixrac yönümlü məhsulların istehsalını da gücləndirmişdir.

Xüsusilə son illərdə qurulan "Gəmiqaya" Şirkətlər Qrupuna aid müəssisələr, Naxçıvan Avtomobil Zavodu, "Badamlı" Mineral Sular Zavodu, "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının müəssisələri, Kərpic Zavodu, Mebel Fabriki, "Dizayn" MMC-in müəssisələri, "Şərab -2 Yeddilər Aqrar Sənaye Kompleksi" MMC, "Sirab" Mineral Sular Zavodu, Metallurgiya Zavodu, Sement Zavodu ən yüksək standartlar səviyyəsində məhsul istehsal edirlər.

Bu sahədə Naxçıvan Avtomobil Zavodunun işini xüsusi ilə qeyd etməliyik. Avtomobil istehsalı iqtisadiyyatın ən mühüm göstəricilərindən biridir. 2010-cu ildən fəaliyyət göstərən Naxçıvan Avtomobil Zavodu ilbəil öz istehsal imkanlarını artırır. İllik istehsal gücü 5000 ədəd avtomobil olan zavodda 9 modeldə avtomobil istehsal olunur. Bunlar "NAZ-Lifan-320", "NAZ-Lifan-330" (xetcbektipli), "NAZ-Lifan-620", "NAZ-Lifan-630" və "NAZ-Lifan-720" (sedantipli), "NAZ-Lifan X-60" (krossovertipli), "NAZ-Lifan LF-1022" (yük-bortlu), "NAZ-Lifan LF-5028" (yük-furqonlu) və "NAZ-Lifan-820" (mikroavtobus 1+6 nəfər) markalı avtomobillərdir.

---

[419] "Azərbaycan" qəzeti, 2015, 23 may

Daha 2 modeldə avtomobillər buraxılmasına hazırlıq işləri görülür. Avtomobillərin xarici ölkələrə ixrac olunması planlaşdırılır. Bunun üçün bir neçə dövlətlə müqavilə bağlanıb.

Beləliklə, muxtar respublikada sənaye sahəsində reallaşdırılan islahatların başlıca məqsədi mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulmasından, dünya standartlarına cavab verən sənaye məhsullarının istehsalından, sənayenin dayanıqlı və davamlı inkişafını təmin etməkdən ibarət olmuşdur. Tarixən aqrar region kimi formalaşan Naxçıvan Muxtar Respublikasının aqrar-sənaye regionuna çevrilməsi üçün ciddi əsaslar yaradılmışdır.

### 3.4.3. Tikinti-quraşdırma və abadlıq işləri

Azərbaycan Respublikasında yaranmış sabitlik, iqtisadi sahədə əldə olunmuş nailiyyətlər muxtar respublikada 1995-ci ildən başlayaraq tikinti-quraşdırma və abadlıq sahəsində də əsaslı işlər görməyə şərait yaratmışdır.

Naxçıvan Muxtar Respublikasının yeni inkişaf mərhələsi öz başlanğıcını Ali Məclisin 1995-ci il dekabrın 16-da keçirilmiş sessiyasından götürür. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmiş Vasif Talıbov 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq və inkişaf xəttinin konkret bir regionda – ağır blokada şəraitində yaşayan, davamlı olaraq enerji qıtlığı keçirən, kommunikasiya əlaqələrinin olmaması ucbatından mal, material və xammal gətirilməsində ciddi problemlərlə üzləşən muxtar respublikada fəal yaradıcı gücə malik olduğunu öz əməyi və gərgin işi ilə sübut etdi. Ötən 20 il ərzində həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan Muxtar Respublikası davamlı sosial-iqtisadi yüksəliş və ictimai həyatdakı nailiyyətləri fonunda keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Muxtar respublikanın uzunmüddətli dövrdə dayanıqlı və tarazlı inkişafının təmin edilməsində investisiyaların cəlbi xüsusi



rol oynayır. İnvestisiyaların tələb olunan həcm və keyfiyyətinin təmin edilməsi məqsədilə investisiya mühitinin daha da yaxşılaşdırılması əsas vəzifələrdən biri kimi müəyyənləşdirilmiş, 1993-2003-cü illər ərzində muxtar respublikada əsas kapitala 147394 min manat həcmində investisiya yönəldilmişdir[420]

1996-cı ildən sonra muxtar respublikanın inkişafının əsas göstəricilərindən biri də tikinti-quruculuq, abadlıq və digər infrastruktur işlərinin ön planda olmasıdır. Aparılan tikinti işlərinin əksəriyyətini sosial təyinatlı obyektlər təşkil etmişdir.

1996-2000-ci illərdə muxtar respublikada 45 orta ümumtəhsil məktəbi tikilmiş, 18-i əsaslı təmir edilmiş və yenidən qurulmuş, 4 uşaq bağçası, 2 musiqi məktəbi, 3 kompüter mərkəzi, 3 nəşriyyat və mətbəə istifadəyə verilmiş, 37 səhiyyə obyekti tikilmiş və əsaslı təmir edilmişdir.[421] Tikilmiş və təmir olunmuş mədəniyyət obyektlərinin sayı bu dövrdə 37-yə çatmış, 20 park və xiyaban təmir olunmuş və ya yeni salınmış, 15 sosial xidmət obyekti, 10 məscid tikilmiş və ya əsaslı bərpa və təmir edilmişdir.[422]

1993-2004-cü illərdə muxtar respublikada 15 inzibati bina, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16038 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, əlil, məcburi köçkün, qaçqın, şəhid ailələri, təbii fəlakətlərdən zərər çəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verilmişdir.[423]

XX əsrin son on ilində tikilmiş və bərpa edilmiş sosial obyektlər sırasına Naxçıvan şəhərində Olimpiya kompleksi və

---

[420] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.68

[421] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.150

[422] Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, s.76-88

[423] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s. 69

digər idman kompleksləri də daxildir. On il ərzində muxtar respublika ərazisində 965 paqonometrlik 32 yeni körpü tikilmiş, 956 paqonometrlik 17 körpü əsaslı təmir olunmuş, 196,3 km uzunluğunda avtomobil yolları tikilmiş, bərpa edilmiş və yenidən qurulmuşdur.[424]

1996-2001-ci illərdə dövlət kapital qoyuluşu və əhalinin şəxsi vəsaiti hesabına muxtar respublika üzrə 71,4 min kvadratmetr yaşayış evi tikilmişdir ki, bunun da 9463 mini əhalinin öz şəxsi vəsaiti hesabına olmuşdur. 2003-cü ildə muxtar respublikada əhalinin şəxsi vəsaiti hesabına 12,7 min kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir.[425]

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1970-ci illərdə salınmış qəsəbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 23 mart tarixli Qərarına əsasən, Sədərək kəndinin tərkibindən ayrılaraq müstəqil inzibati vahidə - Heydərabad qəsəbinə çevrilmişdir. Muxtar respublikada quruculuq işlərinin mühüm istiqaməti sərhəd rayonların və kəndlərin inkişafı ilə bağlı olmuşdur. Şərur rayonunun Havuş, Babək rayonunun Yuxarı Buzqov, Gərməçataq, Ordubad rayonunun Pəzməri sərhəd kəndlərində yeni məktəb binaları tikilmiş, Şahbuz rayonunun sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq üçün müvafiq kreditləşdirmə proqramının keçirilməsinə başlanmışdır.

Muxtar respublikada 2004-cü ildə bütün mənbələr hesabına 400989 milyon manat həcmində investisiyadan istifadə edilmişdir.[426] 2003-cü illə müqayisədə bu rəqəm 31,4 faiz çoxdur. Bu investisiyaların 353538 milyon manatı tikinti-quraşdırma işlərində istifadə edilmişdir ki, onların 48 faizi istehsal təyinatlı, 52 faizi qeyri-istehsal təyinatlı obyektlərin tikintisinə yönəldilmişdir.

[424] Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, s.84-85

[425] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.69

[426] 2004-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2005, s.18



2000-2005-ci illərdə yeni tikilmiş və ya təmir edilmiş obyektlərin sayı artıq 500-ü ötmüşdür. İstifadəyə verilmiş obyektlərin 85 faizi sosial xarakterli olmuşdur.

Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq və abadlıq işləri ildən-ilə genişlənir. Yüksək zövqlə, peşəkarlıqla, şərq və qərb memarlıq elementlərindən ustalıqla və yerli-yerində istifadə etməklə tikilən binalar, təmir olunan və yenidən qurulan inzibati və sosial obyektlər, salınan gülkarlıqlar, yaradılan səliqə-sahman böyük quruculuq və abadlıq işlərinin yüksək səviyyədə görüldüyünü təsdiq edir. Bütün bu işlərə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov diqqət və həssaslıqla yanaşır, hər bir tikinti, quruculuq və abadlıq işlərinin ən yüksək səviyyədə, keyfiyyətlə aparılmasına nəzarət və rəhbərlik edir. Bütün bunlara görə Ali Məclisin Sədri tariximizə qurucu və yaradıcı rəhbər kimi daxil olmuşdur.

Ölkə Prezidenti İlham Əliyev Naxçıvan muxtar respublikasına hər səfərində burada görülən işləri, həyata keçirilən tədbirləri yüksək qiymətləndirmişdir. 2004-cü ildə Muxtar Respublikaya səfərində görülmüş işlərlə tanış olduqdan sonra demişdir: "Siz Naxçıvanda işlərin düzgün qurulması, Naxçıvanın rəhbərliyinin, Ali Məclisin sədri Vasif Talıbovun fəaliyyəti nəticəsində bütün bu uğurlara nail olmusunuz. Azərbaycanın digər bölgələri də inkişaf edir. Amma sizə deyə bilərəm ki, bu baxımdan Naxçıvan Azərbaycanda liderdir və ümid edirəm ki, siz gələcəkdə də liderliyi saxlayacaqsınız. Bunu-abadlıq-quruculuq işlərini, yeni binaların yüksək zövqlə, səliqə ilə, diqqətlə tikilməsini Naxçıvana gələn hər bir vətəndaş, qonaq görür. Hiss olunur ki, bu işlər böyük məhəbbətlə görülür. Bu da əsas şərtdir. Bəzən sual verirlər ki, uğurlu siyasətin əsas səbəbi nədir? Mən hesab edirəm ki, xalqa olan məhəbbətdir. Doğma torpağa olan məhəbbətdir. Əgər bu varsa, deməli, rəhbərlikdə olan şəxslər də öz doğma xalqına ləyaqətlə, məhəbbətlə xidmət edirlər. Bu, Naxçıvanda var və məni çox sevindirir".[427]

[427] "Azərbaycan" qəzeti, 2004, 15 may

Son illərdə yeni və müasir bir Naxçıvan qurulmuş, quruculuq və abadlıq işləri muxtar respublikanın paytaxtı ilə yanaşı ən ucqar sərhəd kəndlərini də əhatə etmişdir.

Naxçıvan Muxtar Respublikasında tikinti-quruculuq və abadlıq işləri sənaye sahəsindən sonra inkişaf proqramının əhəmiyyətini əks etdirən mühüm göstəricilərdən biridir.

Heydər Əliyev idarəetmə məktəbinin sədaqətli davamçısı olan Ali Məclisin Sədri 90-cı illərin ortalarından muxtar respublikada başladığı quruculuq işləri nəticəsində yüzlərlə obyekt tikilib istifadəyə verilmiş, yenidən qurulmuş, təmir edilmiş, yollar çəkilmiş, körpülər salınmış, parklar, xiyabanlar və gülkarlıqlar yaradılmışdır. Nəticədə Naxçıvanın siması tamamilə dəyişmişdir.

Naxçıvan Muxtar Respublikasında 2000-ci ildə 12449,9 min manatlıq tikinti-quruculuq işləri aparılmışdı ki, bu da 1995-ci ilə nisbətən 4 dəfə çoxdur. 2005-ci ildə muxtar respublikanın tikinti təşkilatları 102 milyon manatlıq iş görmüşdür.[428] 2000-2005-ci illər muxtar respublikanın tikinti həyatında dəyərli və bənzərsiz binaların, sosial və ictimai obyektlərin, elm, təhsil və mədəniyyət müəssisələrinin tikilməsi, yenidən qurulması və təmiri kimi xarakterizə edilir. Bu illərdə 59 orta məktəb, 48 səhiyyə obyekti, 28 körpü, 62 inzibati bina, 9 mədəniyyət obyekti, 9 abidə və dini obyekt tikilmiş, 23 orta məktəb binası, 35 səhiyyə obyekti, 23 körpü, 39 nasos stansiyası, 98 inzibati bina, 22 mədəniyyət obyekti və yüzlərlə müxtəlif xarakterli obyektlər əsaslı təmir olunmuşdur.[429]

2006-2010-cu illərdə də muxtar respublika böyük tikinti meydanına çevrilmişdir. Belə ki, 2006-cı ildə 757 obyekt, 2007-ci ildə isə 669 müxtəlif xarakterli obyektlər tikilib, yaxud əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilib. 2007-2010-cu illərdə muxtar respublikada 284 yaşayış binasında istilik xətləri yeniləri ilə əvəz edilmiş, 35 lift quraşdırılmışdır. 2010-cu ilin ilk

[428] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, s.115

[429] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, s.19-20



yarımilində 258 müxtəlif təyinatlı obyekt istifadəyə verilmiş, 286 obyektin isə tikintisi və ya əsaslı təmiri davam etdirilmişdir.[430] Kəndlərin, qəsəbələrin ictimai tərəqqisi, bu yaşayış məntəqələrində mərkəzlə paralel infrastruktur quruculuğu tədbirlərinə də xüsusi diqqət yetirilmişdir. Kənd əhalisinə göstərilən xidmətin səviyyəsinin yaxşılaşdırılması, bu sahədə idarəetmənin səmərəliliyini daha da artırmaq məqsədilə 1996-2010-cu illərdə 52 kənd, 3 qəsəbə mərkəzi istifadəyə verilib.

Ümumiyyətlə, 1996-2010-cu illərdə Naxçıvan Muxtar Respublikasının şəhər və kəndlərində 231 elm və təhsil ocağı, 173 səhiyyə müəssisəsi, 272 mədəniyyət obyekti, 393 inzibati bina, 119 yeni körpü, 353 subartezian quyusu, 153 nasos stansiyası, 3374 yeni istehsal, xidmət və əlavə infrastruktur obyektləri tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Bir cəhəti qeyd etməliyik ki, muxtar respublikanın rayonlarında, qəsəbə və kəndlərində, xüsusilə sərhəd kəndlərində tikinti-abadlıq işlərinə böyük diqqət və qayğı göstərilmişdir. Tədqiq edilən dövrdə istifadəyə verilən orta ümumtəhsil məktəblərinin 35,5 faizi, səhiyyə obyektlərinin 71,4 faizi ucqar dağ və sərhəd kəndlərində inşa edilmişdir. Bütövlükdə bu dövrdə muxtar respublikanın şəhər və rayon mərkəzlərində, habelə kəndlərində abadlıq işləri geniş vüsət almışdır.

Görülən işlərin həcminin artması öz növbəsində tikinti sektoruna qoyulan sərmayənin həcminin ildən-ilə artmasına səbəb oldu. Əgər 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına bütün maliyyə mənbələri hesabına 126510 min manatlıq investisiyadan istifadə edilmişdirsə, 2006-cı ildə tikinti sektorunda 191767 min manatlıq sərmayədən istifadə olunmuşdur.[431] 2007-ci ildə bu məqsədlə 222948 min manat,[432] 2008-ci ildə 309.598 min

[430] "Şərq qapısı" qəzeti, 2010, 24 iyul

[431] 2006-cı ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB. 2007, s.9

[432] 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB. 2008, s.6

manat,[433] 2009-cu ildə 411522 min manat[434] vəsait xərclənmişdir. 2010-cu ildə 501106 min manat[435] vəsaitdən istifadə olunmuşdur ki, bu da əvvəlki ilin müvafiq göstəricisindən 22 faiz çoxdur. İnvestisiya qoyuluşlarının 443426 min manatı və ya 88 faizi tikinti-quraşdırma işlərində istifadə edilmişdir.

Muxtar respublikada makroiqtisadi sabitliyin qorunub saxlanılmasına ciddi diqqət yetirilmiş, nailiyyətlərin miqyası davamlı olaraq genişləndirilmişdir. İnkişafda əsas makroiqtisadi göstərici hesab olunan Ümumi Daxili Məhsulun həcmi 2011-ci ildə 2010-cu illə müqayisədə 49,5 faiz artaraq 1.786.342 min manat təşkil etmişdir.[436]

Naxçıvan Muxtar Respublikasında iqtisadi yüksəlişin ilbəil dinamik xarakter almasını yüksək qiymətləndirən ölkə başçısı İlham Əliyev demişdir: "Naxçıvanda çox böyük quruculuq işləri aparılır. Burada gedən quruculuq-abadlıq işləri, yeniləşmə, infrastruktur layihələri – bütün bunlar göstərir ki, Azərbaycanın qədim torpağı Naxçıvan çox sürətlə inkişaf edir və naxçıvanlılar ölkəmizin hərtərəfli inkişafına öz töhfələrini verirlər".[437]

Son illər tikintidə müşahidə olunan əsas istiqamətlərdən biri də yeni yaşayış binalarının tikilməsidir. Təbii ki, bu sahədə də dövlət gənc ailələrə öz köməkliyini göstərir. Belə ki, 2012-ci ildə mənzil almaq istəyən gənc ailələrə dəstək məqsədilə İpoteka Fondunun vəsaiti hesabına 718 min manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur.

Tikinti sektorundakı fəaliyyətin bir xüsusiyyəti onun çoxşaxəli olması, yəni müxtəlif sahələri əhatə etməsidirsə, digər xarakterik xüsusiyyəti tikintinin qəsəbə və kəndlər arasında

[433] 2008-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2009, s.8
[434] 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2010, s.10
[435] 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, s.8
[436] 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.4
[437] "Azərbaycan" qəzeti, 2012, 6 may



mütənasib şəkildə aparılmasıdır. Muxtar respublikada kənd və xidmət mərkəzlərinin tikintisinə diqqət artırılmış, 2011-ci ildə 15, 2012-ci ildə 14, 2013-cü ildə 20, 2014-cü ildə 8 kənd mərkəzi istifadəyə verilmişdir. Kənd mərkəzləri ilə yanaşı xidmət mərkəzləri də tikilmişdir. 2011-2014-cü illərdə 57 xidmət mərkəzi kənd və qəsəbə sakinlərinin ixtiyarına verilmişdir.

2011-2014-cü illərdə də tikinti sektoruna ayrılan vəsait artmışdır. 2011-ci ildə əsas kapitala yönəldilən investisiyanın həcmi 815 milyon manat, 2012-ci ildə 982 milyon manat, 2013-cü ildə 1.038 milyon manat olmuşdur. Həmin illərdə müvafiq olaraq 539, 724, 592 obyekt tikilərək, əsaslı bərpa və ya təmir olunaraq istifadəyə verilmişdir.[438] Görülən işlərin əhatə dairəsinin ildən-ilə genişlənməsi hesabına tikinti-quraşdırma tədbirlərinə sərf olunan maliyyə vəsaitlərinin həcmi də artmışdır. 2011-ci ildə əsas kapitala investisiya qoyuluşlarının 89 faizi (874 milyon manatı), 2012-ci ildə 89 faizi (919 milyon manatı) tikinti-quraşdırma işlərinə sərf olunmuşdur. 2014-cü ildə Ümumi Daxili Məhsulun həcmi də artaraq 2391 milyon manatdan çox olmuşdur.[439] Onun hər bir nəfərə düşən həcmi 5465.2 manat təşkil etmişdir.

Son illərdə muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri nəticəsində Naxçıvan şəhəri, rayon mərkəzləri, qəsəbə və kəndlər göz oxşayır, şərq və qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyara gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir. Heydər Əliyev Sarayı, Naxçıvan Beynəlxalq Hava Limanı, "Duzdağ" və "Təbriz" mehmanxanaları, Diaqnostika-Müalicə Mərkəzi, Doğum Evi, Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Xarici Dillər fakültəsinin

[438] 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.11; 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, s.10; 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, s.11
[439] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.5

yerləşdiyi korpus, Universitet Konservatoriyası, Elektron Kitabxana, Tələbə Evi, Hüseyn Cavidin türbəsi, Nuh peyğəmbərin türbəsi və yüzlərlə göz oxşayan sosial obyektlər, memarlıq abidələri tikilmiş, yüksək peşəkarlıqla təmir və bərpa edilmişdir. Xan Sarayı, Zaviyyə mədrəsə binası, Came məscidi, Qarabağlar memarlıq kompleksi, İmamzadə kompleksi, Buzxana, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi, Xanəgah abidəsi kompleksi, Möminə Xatın və Yusif Küseyir oğlu türbələri restavrasiya olunmuşdur. Hazırda Əlincəqala və Gülüstan türbələrində təmir, bərpa və restavrasiya işləri aparılır Bu gün Naxçıvanda tarixi-memarlıq abidələrində şərq elementləri ilə müasirlik qovuşur, bu elementlər isə şəhərə xüsusi yaraşıq verir, onu daha da gözəlləşdirir. Bütün bunlar Ali Məclis Sədrinin zövqündən, şəhərsalma sahəsindəki səriştəsindən, memarlıq biliyindən, qurub-yaratmaq həvəsindən xəbər verir.

### 3.4.4. Kənd təsərrüfatının inkişafı

Kənd təsərrüfatı muxtar respublika iqtisadiyyatının mühüm sahələrindən biridir. O, əhalinin ərzaq məhsullarına, emal sənayesi sahələrinin xammal və materiallara olan tələbatının ödənilməsində mühüm yer tutur. Muxtar respublikada il ərzində yaradılan əlavə dəyərin orta hesabla üçdə bir hissəsi kənd təsərrüfatının payına düşür.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatında kənd təsərrüfatı hər zaman öncül mövqeyə malik olmuşdur. Muxtar respublikada əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahatların ardıcıl həyata keçirilməsi, kənd təsərrüfatında aparılan struktur dəyişiklikləri aqrar bölmənin inkişafı üçün möhkəm zəmin yaratdı.

Ümummilli lider Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən 1992-ci il aprelin 6-da "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında" qərar qəbul edilmişdir.



İqtisadi islahatların birinci növbədə kənd təsərrüfatında, xüsusilə də dağ və dağətəyi ərazilərdə yerləşmiş kolxoz və sovxozlarda aparılması muxtar respublikanın gələcək iqtisadi inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. 1992-ci il aprelin 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci bir qərarı da qəbul edildi. Bu qərarda rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər verilmişdir. Hər iki qərar yerli şəraitə uyğun olaraq verilmiş və elmi cəhətdən əsaslandırılmış tövsiyyələrin həyata keçirilməsini nəzərdə tutur və öz əhatəliyinə görə kənd təsərrüfatında əsaslı islahat proqramlarıdır.[440]

Naxçıvan Muxtar Respublikasında torpaq islahatı və özəlləşdirmə prosesi ardıcıl olaraq aparılmışdır. 1992-ci ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan MR-in Culfa rayonunda respublikada ilk dəfə olaraq ictimai təsərrüfatlarda islahata başlanılmış və yeni özəl təsərrüfat qurumları yaradılmışdır. Bu təcrübə sonralar 1993-cü ildə respublikada aqrar islahatların aparılmasına hazırlıq dövründə nümunə rolunu oynadı və müxtəlif bölgələrdə kəndlilərin birləşdiyi kəndli (fermer) təsərrüfatlarının yaradılması ilə nəticələndi. 2005-ci ildə muxtar respublikanın 205 kəndindən 198-də, 132 təsərrüfatda torpaq islahatı başa çatdırılmış, 54,9 min hektar torpaq sahəsi xüsusi mülkiyyətə verilmişdi. Muxtar respublikada özəlləşdirmə prosesi 1996-cı ildən başlamış və beş il ərzində 2145 müəssisə və obyekt özəlləşdirilmişdir. Özəlləşdirilmiş obyekt və müəssisələrin satışından dövlət büdcəsinə 315,7 milyon manat vəsait daxil olmuşdur. 2005-ci ilə qədər isə 3457 kiçik müəssisə və obyekt özəlləşdirilmiş, 46 dövlət müəssisəsi isə səhmdar cəmiyyətə çevrilmişdir. 2007-ci ildə özəlləşdirmədən 351,4 milyon manat vəsait əldə edilmişdir.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün əkin sahələrinin strukturunda dəyişikliklər edilir, əkin

[440] Nadırov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm, 2000, s. 60

sahələri artırılırdı. 1999-cu ildən başlayaraq muxtar respublikada əkin sahələrinin ümumi sahəsi artmağa başladı. Əkin sahələri 2003-cü ildə 1990-cı ilə nisbətən 3,2, 1995-ci ilə nisbətən isə 49 faiz artmışdı. Bu artım əsasən birillik əkmələr hesabına olmuşdu. 2006-cı ildə əkin sahələri 49,3 hektar təşkil etmişdi.

Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasında aqrar islahatlar həyata keçirilmiş, kolxoz və sovxozlar ləğv edilmiş, onların torpaq və əmlakı kəndlilərə paylanmışdı. Aparılan islahatlar, həyata keçirilmiş tədbirlər kənd təsərrüfatında tənəzzülün qarşısını almış, 1995-ci ildən bu sahədə inkişaf başlamış və bu inkişaf 2000-ci ildə torpaqların özəlləşdirilməsi başa çatdıqdan sonra davamlı xarakter aldı. Əgər 1995-ci ildə muxtar respublikada kənd təsərrüfatı məhsulunun 57 faizi özəl sektorun payına düşürdüsə, 2000-ci ildən bu göstərici 100 faiz təşkil etdi.[441]

Muxtar respublikada uğurla həyata keçirilən aqrar islahatlar nəticəsində özəl mülkiyyətə əsaslanan aqrar münasibətlərin formalaşması prosesinin ilk mərhələsi 2000-ci ildə uğurla başa çatmış, ləğv olunan kolxoz və sovxozların yerində yeni özəl qurumlar yaradılmışdı.

Kənd təsərrüfatının inkişafı istifadəsiz qalmış yararlı torpaqların mənimsənilməsi, mövcud su ehtiyatlarından səmərəli istifadə edilməsi və suvarmanın təkmilləşdirilməsindən asılıdır. Araz çayı üzərində hidrotexniki kompleksin, Arpaçay, Sirab su anbarlarının, Sədərək, Naxçıvan, Əlincəçay suvarma sistemlərinin işə salınması, Nehrəm su anbarının tikilməsi və genişmiqyaslı meliorasiya-irriqasiya işlərinin görülməsi sayəsində kənd təsərrüfatının suvarma imkanları və təchizatı yaxşılaşmışdır. Vayxır su anbarında tikinti işləri sürətləndirildi. Babək rayonunun Qaraçuq-Nehrəm kanalı bərpa olundu. 1996-2005-ci illər ərzində 37 yeni nasos stansiyası tikilmiş, 239-dan artıq nasos stansiyalarında təmir işləri aparılaraq işlək vəziyyətə gətirilmiş,

[441] 2000-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2001, s.25



su çıxmayan ərazilərdə əkin sahələrinin suvarılması üçün mühüm rol oynayan 234-dən artıq subartezian quyuları qazılmış, region üçün ənənəvi su mənbəyi olan bir çox kəhrizlər yenidən bərpa olunaraq istifadəyə verilmişdir.[442] Sonrakı illərdə də meliorasiya-irriqasiya işləri davam etdirilmişdir. 2007-ci ildə 5 nasos stansiyası tikilmiş, 25 nasos stansiyasında əsaslı təmir və bərpa işləri aparılmış, 6 kəhriz bərpa edilmiş, 19 subartezian quyusu qazılmışdır.[443] 2011-ci ildə 4 nasos stansiyası, 15 subartezian quyusu, 43 kəhriz,[444] 2012-ci ildə müvafiq olaraq 5, 11 və 32,[445] 2013-cü ildə 4, 3 və 11[446] və 2014-cü ildə isə 2 nasos stansiyası tikilmiş və 9 kəhriz təmir olunmuşdur.[447]

Aqrar sahədə əməkçilərin zəruri kənd təsərrüfatı texnikası ilə təchizatını yaxşılaşdırmaq məqsədi ilə "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti (ASC) və onun rayonlarda xidmət bazaları yaradıldı. 2006-cı ildə muxtar respublikaya 82 ədəd, 2007-ci ildə 180 ədəd, 2008-ci ildə 84 ədəd, 2009-cu ildə 108 ədəd, 123 ədədi 2010-cu ildə olmaqla cəmi 577 ədəd müxtəlif təyinatlı texnika alınaraq[448] muxtar respublikaya gətirilmiş, onlardan 298-i lizinq yolu ilə məhsul istehsalçılarına verilmişdir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 194-ü 2012-ci ildə olmaqla, cəmi 879 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilmişdir. 2012-ci ildə 185 ədəd kənd təsərrüfatı texnikası lizinq yolu ilə məhsul istehsalçılarının istifadəsinə verilmiş, bununla

[442] 2007-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2008, s.19

[443] Yenə orada, s.15-16

[444] 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.10

[445] 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, s.10

[446] 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, s.8

[447] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.8

[448] 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, s.11

yanaşı məhsul istehsalçıları 3950 ton mineral gübrə ilə təmin olunmuşdur.[449] 2013-cü ildə 348 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası, 124 ton gübrə, 2014-cü ildə isə 260 ədəd texnika, 3867,3 ton mineral gübrə məhsul istehsalçılarına verilmişdir.[450]

Aqrar sahənin inkişafı üçün müxtəlif layihələr, o cümlədən "Azərbaycanın kənd investisiyası" layihəsi, "Dağ və yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi" proqramı həyata keçirildi.

Muxtar respublikada kənd təsərrüfatını inkişaf etdirmək üçün əkin sahələrinin strukturunda dəyişikliklər edilmiş, əkin sahələri artırılmışdır. 2000-ci ildə muxtar respublikada kənd təsərrüfatına yararlı torpaqlar 148,4 min hektar olmuşdur. Bunun 30 min hektarı əkin sahəsi, 18 min hektarı çoxillik bitkilər, 21 min hektarı xam və dincə qoyulmuş torpaqlar, 79 min hektarı biçənək, çimənlik və otlaqlardır.[451] Əkin sahələri 2003-cü ildə 1995-ci ilə nisbətən 83,1 faiz artmışdı. 2006-cı ildə əkin sahələri 49275 hektar təşkil etmişdir. 2010-cu ilin məhsulu üçün 59204 hektar sahədə əkin aparılmışdır ki, bu da 1988-ci ilin məhsulu üçün əkilmiş 15328 hektar sahədən 43876 hektar və ya 4 dəfə çoxdur.[452] Muxtar respublikada tarixi ənənələrə malik olan kənd təsərrüfatının inkişafına göstərilən qayğının nəticəsidir ki, 2011-ci ilin məhsulu üçün 60 min hektardan çox, 2012-ci ildə 60118 hektarda, 2013-cü ildə 60127 hektarda, 2014-cü ildə 60829 hektar sahədə əkin aparılmışdır.

Muxtar respublikada kənd təsərrüfatının ümumi məhsulunun strukturunda ciddi dəyişikliklər baş vermişdir. Aparılmış islahatlar kənd təsərrüfatı istehsalı sahəsində mövcud potensialın səmərəli şəkildə reallaşdırılmasına imkan yaratdı. Hər bir rayonun spesifik xüsusiyyətlərinə uyğun kənd təsərrüfatı strukturunun

[449] 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, s.8-9
[450] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.8
[451] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s.120
[452] "Şərq qapısı" qəzeti, 2011, 29 yanvar



formalaşmasını şərtləndirdi. Bu, özünü kənd təsərrüfatı məhsulları istehsalının strukturunda da göstərdi. Görülən tədbirlər nəticəsində muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsalı xeyli artdı. 1995-2003-cü illərdə taxıl istehsalı 2,5, kartof istehsalı 5,5, tərəvəz istehsalı 2,7, meyvə və giləmeyvə istehsalı 3,4, bostan məhsulları 7,9 dəfə artmışdır. 2005-ci ildə 98,3 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunmuşdursa, 2006-cı ildə bundan 10750 min manat çox – 109 milyon manatlıq məhsul istehsal edilmişdir.[453] 2009-cu ildə 185 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 2008-ci illə müqayisədə 13,4 faiz artıma nail olunmuşdur. Həyata keçirilən kompleks tədbirlər nəticəsində muxtar respublikanın kənd təsərrüfatı sahəsində dinamik artım davam etdirilmişdir. 2010-cu ildə 247 milyon manatlıq kənd təsərrüfatı məhsulu istehsal edilmişdir ki, bu da 2009-cu il üzrə müvafiq göstəricini 13 faiz üstələmişdir. Kənd təsərrüfatının inkişafı ilə bağlı görülən tədbirlər aqrar sektorda məhsul istehsalının həcmini də ilbəil artırmışdır. Kənd təsərrüfatı məhsulları istehsalının həcmi 2011-ci ildə 319 milyon manata yaxın, 2013-cü ildə 337 milyon manatdan çox, 2014-cü ildə isə 355157 min manata çatmışdır.[454]

Muxtar respublika rəhbərliyinin **taxılçılığa** mühüm əhəmiyyətli sahə kimi yanaşması nəticəsində bu sahədə yüksək artıma nail olunmuşdur. Belə ki, 2000-ci ilə nisbətən 2005-ci ildə taxıl əkini sahəsi 59,3 faiz, məhsul istehsalı isə 71,3 faiz artmışdır. Ümumiyyətlə, muxtar respublikada 1995-ci ildə 23,6 min ton, 2000-ci ildə 54,4 min ton, 2005-ci ildə 93,2 min ton, 2009-cu ildə 94,7 min ton taxıl yığılmışdır. 2010-cu ildə isə taxıl zəmilərindən 96 min ton məhsul toplanmışdır ki, bu da 2009-cu illə müqayisədə 2,4 faiz çoxdur. 1988-ci illə müqayisədə taxıl istehsalının həcmi 2009-cu ildə 67 min ton artmışdır. 2011-ci ildə

[453] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyası həyatı, sosial-iqtisadı və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan. Əcəmi NPB, 2011, s.120
[454] "Şərq qapısı" qəzeti, 2015, 19 may

101 min ton, 2012-ci ildə 101848 ton, 2013-cü ildə 102960 ton, 2014-cü ildə 103070 ton məhsul toplanmışdır.[455]

Kənd təsərrüfatının inkişafında taxıl anbarlarının, elevatorların, soyuducu anbarların inşası da mühüm yer tutur. Bu zərurət nəzərə alınaraq 2009-cu ildə 18 min ton taxılı uzun müddətə, 20 min ton taxılı isə qısa müddətə saxlamaq gücünə malik Naxçıvan Muxtar Respublikası Taxıl Ehtiyatı anbarı yaradılmışdır. Anbar kompleksi bir tərəfdən məhsul istehsalçılarının taxıl tədarükü zamanı rastlaşdıqları problemləri aradan qaldırırsa, digər tərəfdən muxtar respublikada taxıl ehtiyatlarının yaradılmasında müstəsna rol oynayır. 2012-ci ildə tutumu 2 min ton olan daha bir soyuducu anbar fəaliyyətə başlamış, nəticədə anbarların sayı 15-ə, həcmi isə 11720 tona çatdırılmışdır.[456] Hazırda muxtar respublikada taxılı uzun müddətə saxlamağa imkan verən anbarların həcmi 27 min tona, kənd təsərrüfatı məhsullarının saxlanılması və satışını təmin edən soyuducu anbarların sayı 20-yə, ümumi tutumu isə 12250 tona çatdırılmışdır.

Muxtar respublikada məhsuldar və keyfiyyətli buğda toxumlarının istehsalının stimullaşdırılması və daxili tələbatın ödənilməsi məqsədilə 2 min hektar torpaq sahəsi ayrılmış və toxumçuluq təsərrüfatı üçün yeni kompleksin inşasına başlanılmışdır. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının əkininin və satışının da həyata keçirilməsi nəzərdə tutulur.

Muxtar respublikada taxılçılıqla yanaşı **kartofçuluğun** da inkişafına xüsusi diqqət yetirilmişdir. 2005-ci il aprelin 11-də təsdiq olunmuş 2005-2010-cu illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında kartofçuluğun inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası nəticəsində idxaldan asılılığın aradan qaldırılmasında mühüm irəliləyiş əldə olunmuş-

[455] "Şərq qapısı" qəzeti, 2014, 28 dekabr; 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.8.
[456] 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, s.8



dur. Həyata keçirilən tədbirlər nəticəsində 2010-cu ildə 2740,5 hektar sahədə kartof əkilmişdir. Kartof əkini keçirilmiş sahələrdən 37901 ton məhsul tədarük edilmişdir ki, bu da 2004-cü illə müqayisədə 2,2 dəfə və ya 20843 ton, 1988-ci illə müqayisədə isə 38 dəfə və ya 36896 ton artıq deməkdir.[457] Sonrakı illərdə də bu sahə diqqətdə saxlanılmış, 2014-cü ildə 2962 hektar sahədə kartof əkilmiş, əkin sahələrindən 41405,5 ton məhsul tədarük olunmuşdur.[458]

Muxtar respublika özünün həmişə ekoloji cəhətdən saf və təmiz **meyvə-tərəvəz** məhsulları ilə tanınıb. 2012-ci il fevralın 14-də qəbul olunmuş "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin icrası bu sahəyə olan marağı daha da artırmışdır. 2013-cü ildə tərəvəz məhsullarının istehsalı məqsədilə 387 min manat, bağçılıq təsərrüfatının inkişafı üçün isə 538 min manat kredit verilmişdir. Görülmüş işlərin nəticəsidir ki, məhsuldarlıq artmış, əkin sahələrindən 67 min tona yaxın tərəvəz, meyvə bağlarından 43 min tondan çox meyvə, 15 min tondan çox üzüm toplanmışdır.[459] 2014-cü ildə isə 6125 hektar sahədə tərəvəz əkilmiş, sahələrdən 66731,4 ton məhsul yığılmışdır.

Əhalinin ilin bütün fəsillərində tərəvəz məhsulları ilə təchizatı üçün istixana komplekslərinin yaradılması da davam etdirilmiş, 2014-cü ildə 6 yeni istixana kompleksi fəaliyyətə başlamışdır. İstixana komplekslərinin ümumi sahəsi 105 min kvadratmetrdən çoxdur.[460]

2015-ci il mayın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində əkinəyararlı torpaqlardan istifadənin və əhaliyə göstərilən xidmətlərin vəziyyəti barədə müşavirə keçirilib.

[457] 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2011, s.13
[458] "Şərq qapısı" qəzeti, 2015, 19 may
[459] 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, s.9
[460] "Şərq qapısı" qəzeti, 2015, 19 may

Müşavirədə aqrar sahədəki vəziyyət və qarşıda duran vəzifələr geniş müzakirə edilib. Kənd təsərrüfatı texnikalarının və mineral gübrələrin güzəştlə əkinçilərə satışının həyata keçirilməsi bu sahənin inkişafına səbəb olduğu vurğulanmışdır. Qeyd olunmuşdur ki, muxtar respublikanın malik olduğu 550275 hektar torpaq sahəsinin 164269 hektarı və ya 30 faizə yaxını kənd təsərrüfatına yararlıdır.[461] Bunun da 40959 hektarı və ya 78 faizi suvarılan torpaqlardır. Əkinə yararlı torpaq sahələrindən düzgün istifadə olunmalı və onlar tam həcmdə əkin dövriyyəsinə cəlb olunmalıdır.

Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatının inkişafında **heyvandarlığın** xüsusi rolu vardır. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü tədbirlər nəticəsində bu sahədə də böyük nailiyyətlər əldə edilmişdir. Bu sahəyə göstərilən diqqət və qayğının nəticəsidir ki, həm heyvanların baş sayında və heyvandarlıq məhsullarının istehsalında artıma nail olunmuşdur. 1994-cü ilə nisbətən 1998-ci ildə iri buynuzlu mal-qaranın, o cümlədən inək və camışların sayı müvafiq olaraq 24 faiz, qoyun və keçilərin sayı 46 faiz artmışdır. Eyni zamanda kənd təsərrüfatında ümumi məhsul istehsalı və məhsuldarlıq yüksəlmişdir. 1993-cü ilə nisbətən 1998-ci ildə ət istehsalı 10 faiz, süd 59 faiz, yumurta 94 faiz, yun istehsalı 2 dəfə artmışdır.[462] Heyvanların müxtəlif xəstəliklərdən qorunması, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması istiqamətində tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 noyabr tarixli Fərmanı ilə Dövlət Baytarlıq Xidməti yaradılmışdır. 2000-ci ildə xırdabuynuzlu heyvanların sayı 425,4 min baş olmuşdur ki, bu da 1995-ci illə müqayisədə 146,7 min baş və ya 1,5 dəfə çox idi. Bu artım iribuynuzlu mal-qaranın artımında da özünü göstərirdi. 1995-ci ildə qaramalın baş sayı 55,5 min olduğu halda, 2000-ci ildə bu göstərici artaraq 74 min

[461] "İki sahil" qəzeti. 2015. 6 may

[462] Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı: Elm. 2000. s. 63



başa çatmışdır ki, bu da 1995-ci ildəkindən 18,5 min baş çox idi. 2007-ci ildə xırdabuynuzlu heyvanların sayı 563897-ə, iribuynuzlu heyvanların sayı 94044-ə çatmışdır. 2010-cu ilin əvvəllərində muxtar respublikada qaramalın sayı 98,8 min baş, xırdabuynuzlu heyvanların sayı isə 589603 baş olmuşdur. 2011-ci ilin əvvəlində muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qaramalın sayı 101160 baş, qoyun və keçilərin sayı isə 603018 baş olmuşdur ki, bu da müvafiq olaraq 2010-cu ilin göstəricilərini 2,4 və 2,3 faiz üstələmişdir. Bu dövr ərzində ət istehsalı 4 dəfə, süd istehsalı isə 3 dəfə artmışdır. 2015-ci ilin məlumatına görə, muxtar respublika üzrə iribuynuzlu malların baş sayı 114137, xırdabuynuzlu heyvanların baş sayı isə 701 min olub.[463] Keçən ilin müvafiq dövrü ilə müqayisədə iribuynuzlu mal-qarada 1550 baş, xırdabuynuzlu heyvanlarda isə 12792 baş artım olmuşdur.

Heyvandarlıqda məhsuldarlığın yüksəldilməsini, mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasını və damazlıq işinin inkişafını təmin etmək üçün 2010 və 2011-ci illərdə muxtar respublikaya 280 baş cins mal-qara gətirilərək lizinq yolu ilə fermerlərə verilmişdir. Ümumiyyətlə, son illərdə muxtar respublikaya 1678 baş yüksək məhsuldarlığa malik cins mal-qara gətirilmiş və lizinq yolu ilə satışı həyata keçirilmişdir.[464]

Muxtar respublikada **quşçuluğun** inkişafı da diqqət mərkəzində saxlanılmışdır. Burada 2005-ci ildə 703485 baş kənd təsərrüfatı quşları olmuşdur ki, bu da 2000-ci ilin göstəricilərindən 61,5 faiz çoxdur.[465] 2010-cu ildə quşçuluq sahəsində 7 təsərrüfat subyekti fəaliyyətə başlamışdır. Bundan başqa, ətlik və yumurtalıq istiqamətində daha 5 quşçuluq təsərrüfatı yaradılmışdır. 2012-ci ildə quşçuluğun inkişafı məqsədilə sahibkarlıq

[463] "Şərq qapısı" qəzeti. 2015. 19 may

[464] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB. 2015. s.10

[465] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf Naxçıvan: Əcəmi NPB. 2006. s. 46-47

subyektlərinə 2647 min manatdan çox kredit verilmişdir.[466] Görülmüş tədbirlərin nəticəsində 2012-ci ildə 9, 2013-cü ildə 14, 2014-cü ildə 4 quşçuluq təsərrüfatı yaradılmışdır. Beləliklə, quşçuluq təsərrüfatlarının sayı 64-ə çatdırılmışdır.[467] 2010-cu ilin sonunda quşların sayı 901 min başdan çox olmuşdur. Bu göstərici isə 1989-cu ilin göstəricisindən 3 dəfə çoxdur.

Muxtar respublikada **arıçılığın** inkişafına maraq getdikcə artır. 2005-ci ildə 23083 arı ailəsi olmuşdur ki, bu da 2000-ci ildəkindən 83,3 faiz çoxdur.[468] 2010-cu ilin sonuna muxtar respublikada 52685 arı ailəsi mövcud olmuşdur ki, bu da əvvəlki illə müqayisədə 52 faiz çoxdur. Yeni arıçılıq təsərrüfatlarının yaradılması məqsədi ilə 2014-cü ildə sahibkarlıq subyektlərinə 525 min manat həcmində kredit verilmişdir. Balın emalı və qablaşdırılması ilə məşğul olan istehsalçıların sayı 2012-ci ildə 3270-ə çatmışdır. 2011-ci ildə 710 ton, 2012-ci ildə isə 1175 ton, 2013-cü ildə 1300 tondan çox bal istehsal edilmişdir.[469] 2014-cü ildə muxtar respublikada 94 arıçılıq təsərrüfatı fəaliyyət göstərib. Arı ailələrinin sayı 69 minə çatmışdır.[470]

Muxtar respublikanın zəngin su ehtiyatları **balıqçılığın** inkişafı və qiymətli balıq cinslərinin yetişdirilməsi üçün əlverişli şərait yaradır. Təkcə 2009-cu ildə 5, 2010-cu ildə isə 2 balıqyetişdirmə təsərrüfatı istifadəyə verilmişdir. Ümumilikdə isə hazırda muxtar respublikada 12 balıqçılıq təsərrüfatı fəaliyyət göstərir.

Bütün bunlar bir daha göstərir ki, muxtar respublika rəhbərinin ardıcıl və məqsədyönlü aqrar siyasəti öz müsbət nəticəsini vermiş, kənd təsərrüfatının bütün sahələrində yüksək nəticələr qazanılmışdır. Belə ki, 1995-ci illə müqayisədə 2014-cü ildə taxıl

[466] 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, s.9
[467] "Şərq qapısı" qəzeti, 2014, 28 dekabr
[468] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: "Əcəmi" NPB, 2006, s.47
[469] "Şərq qapısı" qəzeti, 2013, 29 dekabr
[470] Yenə orada, 2014, 28 dekabr



istehsalı 4,4 dəfə, kartof istehsalı 103,5 dəfə, tərəvəz istehsalı 51,6 dəfə, bostan məhsulları istehsalı 85 dəfə, meyvə və giləmeyvə istehsalı 1,9 dəfə, ət istehsalı 95,9 faiz, süd istehsalı 2,3 dəfə, yumurta istehsalı 82,3 faiz, yun istehsalı 89,4 faiz artmışdır. 2015-ci il Azərbaycanda, eləcə də muxtar respublikada "Kənd təsərrüfatı ili" elan edilmişdir. "Kənd təsərrüfatı ili"ndə təsərrüfat işçilərinin qarşısında daha ciddi və məsul vəzifələr dayanır. Aprelin 6-da "Naxçıvan Aqrolizinq" ASC-də muxtar respublikada "Kənd təsərrüfatı ili"ndə qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilmişdir. Müşavirədə Ali Məclisin Sədri Vasif Talıbov qarşıda duran vəzifələrdən bəhs etmişdir.[471]

Göründüyü kimi, son 20 il ərzində muxtar respublikanın sosial-iqtisadi həyatının bütün sahələrində, eləcə də kənd təsərrüfatında da çox böyük nailiyyətlər əldə edilmişdir.

### 3.4.5. Nəqliyyat və rabitə

Muxtar respublikanın sosial-iqtisadi inkişafının sürətlənməsində nəqliyyat və rabitə sahələrinin də xüsusi yeri vardır. Muxtar respublikada **dəmiryol nəqliyyatının** rolu mühümdür. Araz çayı boyunca Bakı-Yerevan dəmiryolu Naxçıvan Muxtar Respublikasında 190 km-dən artıqdır. Ermənistanın təcavüzkarlıq siyasəti nəticəsində vaxtilə ümumittifaq şəbəkəsinə daxil olan, muxtar respublikanı Azərbaycanla bağlayan dəmiryol xətti 1992-ci il aprelin 24-də tamamilə kəsildi.[472] Avtomobil yolları ilə də əlaqə pozuldu. Həmin vaxtdan Naxçıvan Azərbaycandan təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşayır. Lakin buna baxmayaraq, muxtar respublikada dəmir yolu infrastrukturu qorunub saxlanılır və inkişaf etdirilir.

Muxtar respublika ərazisi daxilində dəmir yolu ilə yüklərin daşınması həyata keçirilməklə bərabər İran İslam Respublikası

[471] "Şərq qapısı" qəzeti, 2015, 7 aprel
[472] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s.126

ilə Culfa dəmiryolu vasitəsilə iqtisadi əlaqələr davam etdirilir, yükdaşıma əməliyyatları həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası daxilində Qızılburun, Şərur, Culfa, Ordubad dəmiryolu stansiyaları daxili və xarici yük daşımanın tənzimlənməsində mühüm əhəmiyyət kəsb edir. Əsas yük yaradan mənbələr muxtar respublikanın daxili yük axınları hesabınadır. Daşınan yüklərdən tikinti materialları və kənd təsərrüfatı məhsulları üstünlük təşkil edir. Dəmir yolunun muxtar respublika daxilində yük və sərnişin daşıma əməliyyatlarını yerinə yetirməklə bərabər, sosial-iqtisadi inkişafın formalaşmasında müsbət təsiri vardır. 2000-ci ildə Azərbaycan Dövlət Dəmir Yolu Naxçıvan bölməsi tərəfindən təqribən 1,2 milyon ton yük göndərilmiş, 24455 vaqon boşaldılmışdır. Naxçıvan-Ordubad, Naxçıvan-Şərur, Naxçıvan-Təbriz marşrutları üzrə qatarların hərəkəti təmin edilmiş, yük və sərnişin daşınmışdır.

Dəmir yolunun inkişafı istiqamətində son dövrlər ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində Naxçıvan, Şərur, Şahtaxtı, Culfa sərnişin vağzalı binalarında, Naxçıvan, Dərəşam, Nehrəm, Vəlidağ, Qıvraq, Dəstə, Şahtaxtı, Culfa stansiyaları idarəetmə mərkəzlərində, "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyətinin inzibati binasında, əlavə olaraq 20-yə yaxın inzibati və yardımçı binada əsaslı təmir işləri aparılmışdır.[473]

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 16 mart tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2011-2015-ci illər üzrə İnkişaf Proqramı" dəmir yolu nəqliyyatının inkişafına təkan vermişdir. İnkişaf Proqramına uyğun olaraq, mühüm dəmiryol qovşağı olan Culfa stansiyasında Yük və Sərnişin Daşımaları İdarəsinin inzibati binası, Culfa Lokomotiv Deposu, Lokomotiv Briqadalarının İdarəedilməsi Mərkəzi və Radio-Rabitə sexi binası əsaslı təmir edilmişdir.

[473] "Şərq qapısı" qəzeti, 2013, 12 oktyabr



Naxçıvan Muxtar Respublikasının iqtisadi əlaqələrinin inkişaf etdirilməsində **hava nəqliyyatı** xüsusi əhəmiyyət kəsb edir. Naxçıvanda ilk hava limanı 1974-cü ildə tikilmişdi. O dövrdə hava limanı 1800 metrlik uçuş-enmə zolağına malik idi.[474]

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, hələ keçən əsrin 90-cı illərinin əvvəllərində Naxçıvanda da iqtisadi-siyasi vəziyyət çox ağır idi. İqtisadiyyat dərin böhran içərisində idi. Dəmir yolu işləmirdi. Avtomobil yollarının xarici aləmlə əlaqəsi tamamilə dayandırılmışdı və muxtar respublika Ermənistan Respublikası tərəfindən blokada vəziyyətinə salınmışdı. Naxçıvanın blokada şəraitində olması hava nəqliyyatından daha səmərəli istifadə etmək zərurətini doğurmuşdur.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışan ulu öndər hava limanının uçuş-enmə zolağının yenidən qurulması təşəbbüsünü irəli sürmüş və bu iş yerli mütəxəssislər cəlb olunmaqla qısa müddət ərzində həyata keçirilmiş, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı istifadəyə verilmişdir.[475] O vaxta qədər hava limanı kiçik təyyarələri qəbul edirdisə, uçuş-enmə zolağının yenidən qurulması nəticəsində iritutumlu təyyarələri qəbul etməyə başladı ki, bu da gün ərzində 800-1000 nəfərin hava limanının xidmətindən istifadə etməsi demək idi.

Lakin Azərbaycanın regionda durmadan artan nüfuzu və ölkəmizə olan beynəlxalq maraq respublikamızda müasir tələblərə cavab verən yolların, hava və dəniz limanı komplekslərinin inşasını zərurətə çevirirdi. Bu istiqamətdə son illər ərzində ciddi nailiyyətlər qazanılsa da, Naxçıvan kimi strateji əhəmiyyət kəsb edən bir yerdə müasir hava limanının olmaması və gücünün zəif olması ciddi narahatçılıq yaradırdı. Hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi dövrdə bütün bunları nəzərə alan

[474] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, s.183

[475] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB. 2014, s.65

ümummilli lider Heydər Əliyev 2002-ci il avqustun 11-də muxtar respublikanın Ali Məclisində keçirdiyi xüsusi müşavirədə demişdir: "Mən çoxdan bu fikirdə idim ki, Naxçıvan hava limanını yenidən quraq, yeni bir hava limanı tikək. Birincisi, gərək elə edək ki, təyyarələr buradan təkcə Bakıya, Gəncəyə yox, bir çox istiqamətlərə uçsun. İkincisi də, Naxçıvan öz coğrafi vəziyyətinə görə elə yer tutur ki, burada beynəlxalq standartlara uyğun hava limanının olması təkcə Naxçıvan üçün yox, bütün qonşu ölkələr üçün də çox əhəmiyyətli olacaqdır".[476]

2002-ci il oktyabrın 1-də inşasına başlanan hava limanında bölgənin sərt iqlim şəraiti nəzərə alınaraq tikinti-quraşdırma işləri ən müasir tələblər səviyyəsində həyata keçirildi.

Ulu öndərin Naxçıvanda müasir hava limanı yaratmaq haqqındakı fikirləri kerçəkliyə çevrilmiş və 2004-cü il mayın 12-də Naxçıvan Beynəlxalq Hava Limanının təntənəli açılışı olmuşdur. Açılışda nitq edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev demişdir: "Bu hava limanı bütün yüksək dünya standartlarına cavab verir. Burada gözəl aerovağzal kompleksi, uçuş-enmə zolağı, digər infrastruktur obyektləri tikilmişdir və bunlar yüksək səviyyədə inşa olunmuşdur... Bu hava limanı, eyni zamanda Naxçıvanı digər yerlərlə, şəhərlərlə bağlayacaqdır".[477]

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan hava limanına beynəlxalq status verilmişdir. Bu status Naxçıvandan dünyanın istənilən ölkəsinə uçuşlar yerinə yetirməyə imkan yaratmışdır.

Beynəlxalq hava limanı Türkiyənin "Eren port" şirkəti tərəfindən yüksək səviyyədə, beynəlxalq standartlara uyğun tikilmişdir. Hava limanında eni 45, uzunluğu 3300 metr olan uçuş-enmə zolağı monolit betonla yenidən qurulmuş, müasir işıqlandırma sistemi ilə təchiz olunmuşdur. Mütəxəssislərin fikrincə, belə tikinti işləri MDB məkanında ilk dəfə burada tətbiq edil-

[476] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 40-cı kitab (iyul 2002 – sentyabr 2002). Bakı: Azərnəşr, 2012. s.202
[477] Əliyev İlham. İnkişaf məqsədimizdir. 4-cü kitab (aprel 2004 – iyun 2004). Bakı: Azərnəşr, 2009. s. 92-93



mişdir. Aerovağzal binası saatda 300 sərnişinə xidmət göstərməyə imkan verəcəkdir. Hava limanında uçuşların idarəetmə məntəqəsi, sahəsi 2 min kvadrat metr olan yük terminalı, hərəsi 400 tonluq iki yanacaq anbarı, iki istilik mərkəzi tikilmiş, transformatorlar, dizel generatoru quraşdırılmışdır. 2014-cü ilin aprelində isə hava limanı ərazisində inzibati bina və gömrük işçiləri üçün bina istifadəyə verilmişdir.

Beləliklə, doğma diyarın öz qapılarını dünya dövlətlərinin üzərinə açdığı bir dövrdə nəqliyyat sisteminin, hava limanının, avtovağzalların müasir tələblərə cavab verməsinin əhəmiyyəti bir qədər artıb, Naxçıvan Beynəlxalq Hava Limanının rolu və əhəmiyyəti xeyli yüksəlib. Həm xarici ölkələrə (Rusiya Federasiyası, Türkiyə Cümhuriyyəti) həm də respublikanın Bakı, Gəncə kimi şəhərlərinə gedən sərnişinlər bu limanın xidmətindən istifadə edirlər. Naxçıvan Beynəlxalq Hava Limanı öz gözəlliyi, müasirliyi və rahatlığı ilə sərnişinləri razı salır. Naxçıvanlıların Azərbaycan Respublikası ilə əlaqələri yalnız hava nəqliyyatı ilə həyata keçirilir. Hava limanının yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanının tikilib istifadəyə verilməsi ağır yüklü nəqliyyat təyyarələrinin qəbul olunmasına imkan vermişdir.

Qeyd edildiyi kimi, Naxçıvan Muxtar Respublikasının başqa regionlarla nəqliyyat əlaqələri əsas etibarilə hava nəqliyyatı ilədir. Ona görə də bu nəqliyyat vasitəsilə həm sərnişindaşımalar, həm də yükdaşımalar ildən-ilə artır. Naxçıvan hava limanından təkcə 2000-ci il ərzində 204,9 min sərnişin, 4,8 min ton yük daşınmışdır.[478] Sonrakı illərdə sərnişin və yük daşınmasının sayı və həcmi artmışdır. 2002-ci ildə muxtar respublikada hava nəqliyyatı ilə 206,3 min sərnişin, 4,3 min ton yük, 2004-cü ildə isə 266 min sərnişin, 5 min ton yük daşınmışdır.[479] 2003-cü ilə nisbətən sərnişin daşınması 14 faiz, yük daşınması isə 31 faiz

[478] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s.128
[479] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, s.188-189

artmışdır. Əldə edilən gəlir isə əvvəlki illə müqayisədə 30 faiz artaraq 24 milyard manatdan çox olmuşdur.

Ölkə prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 80 illiyinə həsr edilmiş təntənəli iclasda demişdir: "Artıq Naxçıvanın bütün beynəlxalq standartlara cavab verən hava limanı vardır. Deməliyəm ki, bu hava limanı çox yüksək səviyyədə tikilmişdir. Mən dünyanın bir çox ölkələrində olmuşam və təbii ki, hava limanlarını görmüşəm. Ona görə də deyə bilərəm ki, Naxçıvan hava limanı çox yüksək səviyyədədir və bəlkə də Avropada bir çox hava limanlarından daha keyfiyyətli və gözəldir".[480]

Muxtar respublikanın sosial-iqtisadi inkişafında, təbii və əmək resurslarının səmərəli istifadəsində **avtomobil nəqliyyatının** və yolların mühüm rolu vardır.

Muxtar respublikada yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, yeni yollar salınmış, körpülər tikilmişdir. 1995-ci ildə cəmi 16 km asfalt yol çəkilmişdirsə, 2010-cu ildə bu 198,6 km-ə çatmışdır. İstifadəyə verilmiş yolların 88,4 km-i magistral, 110,2 km-i isə yerli əhəmiyyətli yollardır. Naxçıvan-Sədərək, Naxçıvan-Culfa, Naxçıvan-Batabat avtomobil yolları ən yüksək səviyyədə qurulmuşdur. 1993-2003-cü illər ərzində muxtar respublikada həyata keçirilmiş tədbirlər nəticəsində 1856 km uzunluğunda yeni avtomobil yolları salınmış və ya əsaslı təmir olunmuş, 34 körpü tikilmiş, 32 halda isə körpülər əsaslı təmir olunmuşdur.[481]

1995-2010-cu illərdə 119 körpü tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir. Bunların arasında beynəlxalq əhəmiyyətli "Ümid" körpüsünün, Şahtaxtı-Poldəşt körpüsünün çox böyük əhəmiyyəti vardır. Sədərək, Culfa və Şahtaxtı Gömrük idarələrinin sərhəd-keçid komplekslərinin istifadəyə verilməsi, "Bakı-Naxçıvan-Bakı" müntəzəm avtobus marşrutunun açılması

---

[480] Əliyev İlham. İnkişaf məqsədimizdir. 4-cü kitab (aprel 2004 – iyun 2004). Bakı: Azərnəşr, 2009, s. 125

[481] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.72.



nəqliyyat və iqtisadi əlaqələrin genişlənməsində mühüm mərhələ olmuşdur. 2006-cı ildə 118 km-ə yaxın qəsəbə və kənd yollarına asfalt-beton salınmış, əsaslı bərpa işləri aparılmışdır. Bu yolların 34-km-i şəhər və qəsəbələrin, 84 km-i isə kənd yollarının payına düşmüşdür.[482]

2010-cu ildə yol infrastrukturunun inkişafı ilə bağlı əhəmiyyətli tədbirlər həyata keçirilmiş, 277 km uzunluğunda yeni yollar salınmışdır. İstifadəyə verilmiş yolların 167 km-i magistral, 110 km-i isə yerli əhəmiyyətli yollardır.[483] 8 yeni körpü tikilmiş, 5 körpü bərpa edilmişdir. Böyük İpək yolunun üstündə yerləşən 8 km-dən artıq uzunluğa malik Naxçıvan şəhərətrafı dairəvi yolunun tikintisi başa çatdırılmışdır. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 2 sentyabr tarixli Sərəncamı ilə 57,6 km uzunluğunda Çeşməbasar-Boyəhməd və 39,2 km uzunluğunda Təzəkənd-Çalxanqala-Qıvraq avtomobil yolunun yenidən qurulması üçün 5 milyon manat vəsait ayrılmışdır.[484] Həmin yollar vaxtında və yüksək keyfiyyətlə çəkilmişdir.

Yol-nəqliyyat kompleksinin yenilənməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir, magistral yollar yenidən qurulur. Artıq muxtar respublikada magistral yolların əksəriyyəti yenidən qurulmuşdur. Belə ki, 88 km-lik Naxçıvan-Sədərək magistralı, 2012-ci ildə bu tədbirlərin davamı olaraq 32 km uzunluğunda Naxçıvan-Culfa magistral yolu istifadəyə verilmişdir. 2012-ci ildə muxtar respublikada 139 km uzunluğunda yeni yollar salınmış, 8 körpü tikilmiş, 3 körpü isə yenidən qurulmuşdur.[485]

---

[482] Əhmədov N.H. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı: Sabah, 2008, s.176

[483] "Şərq qapısı" qəzeti, 2011, 29 yanvar

[484] "Azərbaycan" qəzeti, 2001, 3 sentyabr; 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.12

[485] 2012-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2013, s.12

Bu gün magistral yolların böyük əksəriyyətinin yenidən qurulduğu muxtar respublikada kənddaxili və kəndlərarası yolların da abadlaşdırılması diqqətdən kənarda qalmır, bu məqsədlə xüsusi maliyyə vəsaitlərinin ayrılması təmin edilir. Ölkə Prezidenti 2013-cü il 5 mart tarixli Sərəncamla Babək rayonunun 13 yaşayış məntəqəsini əhatə edən 25,6 km uzunluğunda Hacıvar-Vayxır-Sirab yolunun tikintisinə 6,3 milyon manat vəsait ayırmışdı.[486] Sərəncam icra olunmuş, tikinti işləri başa çatdırılmışdır. Ümumilikdə isə 2013-cü ildə muxtar respublikada 164 km uzunluğunda yollar salınmış və ya əsaslı təmir olunmuş, 21 körpü tikilərək, 12 körpü isə təmir olunaraq istismara verilmişdir.[487] 2014-cü ildə muxtar respublikada 73 km uzunluğunda asfalt yollar salınmış, 5 körpü tikilmişdir.[488]

Son illər yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalı üçün möhkəm zəmin yaradılmış, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilmişdir.

Naxçıvan şəhərində şəhərdaxili marşrutlarda sərnişinlərə xidmətin səviyyəsi günbəgün yaxşılaşmaqdadır. Belə ki, bu marşrutlarda işləmək üçün son illər beynəlxalq standartlara uyğun 37 ədəd yeni markalı avtobuslar gətirilmişdir. Hazırda muxtar respublikanın rayon mərkəzlərinə və kəndlərinə 297 ədəd marşrut avtobusları işləyir. Əhalinin rahatlığını təmin etmək üçün Naxçıvan, Şərur, Ordubad, Culfa və Şahbuz şəhərlərində yüksək standartlara uyğun avtovağzallar tikilərək sərnişinlərin xidmətinə verilmişdir.

Ümumiyyətlə, Naxçıvanda 1 beynəlxalq hava limanı, 5 avtovağzal kompleksi, 50 körpü, 797 km uzunluğunda yeni

486 "Şərq qapısı" qəzeti, 2013, 29 dekabr

487 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, s.13

488 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.12-13



avtomobil yolları çəkilmişdir.[489] Muxtar respublikada nəqliyyat sektorunda yük daşınması 2003-cü illə müqayisədə 2,6 dəfə, sərnişin daşınması isə 2,5 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasının **rabitə** sisteminin rolu da xeyli artmışdır. 1995-2015-ci illərdə muxtar respublikada rabitənin inkişafı yüksək xətlə getmişdir. 1998-ci ildə Cənubi Koreyanın "DEU Telekom" şirkəti ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikada yaşayış məntəqələri telefonlaşdırılaraq abonentlər birbaşa Beynəlxalq Telefon rabitə sisteminə çıxma imkanı əldə etmişlər. Telekommunikasiya sistemində aparılan yenidənqurma işlərinin nəticəsində 35 mindən yuxarı elektron tipli xətt və nömrə, eyni zamanda mobil telefon şəbəkəsi istifadəyə verilmişdir. Ötən dövrdə muxtar respublikada telekommunikasiya sahəsində çox işlər görülüb, əhalinin yeni texnologiyalara olan tələbatı xeyli yüksəlib. Bu gün muxtar respublika üzrə fərdi kompyuterlərin sayı 303 minə çatmış, internetdən istifadə edənlərin sayı 353 mindən çox olmuşdur.[490] Naxçıvanın özünün müstəqil "Naxtel" mobil rabitə sistemi mövcuddur və bunun vasitəsilə muxtar respublika ərazisinin 83 faizi simsiz internetlə təmin olunur. Muxtar respublikada aktiv istifadə olunan mobil telefonların sayı hazırda 358 min ədəddən çoxdur.[491] Əhalinin hər 100 nəfərinə 104 mobil telefon düşür. Hazırda muxtar respublokada mobil telefon abunəçilərinə xidmət edən 4 mobil operator fəaliyyət göstərir və bu da yaşayış ərazilərinin 93 faizindən çoxunu mobil rabitə ilə təmin edir.

Muxtar respublika ərazisində mövcud olan rabitə müəssisələri modernləşdirilmiş, yeni rabitə müəssisələri yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 28 fevral 2004-cü il tarixli fərmanı ilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin yaradılması muxtar respublikada görüləcək işlərin daha dinamik, ardıcıl və

489 Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, s.10

490 "Şərq qapısı" qəzeti, 2015, 16 may

491 "Şərq qapısı" qəzeti, 2015, 29 yanvar

sistemli şəkildə həyata keçirilməsinə imkan vermişdir. 2005-ci ildə muxtar respublikada 9 rabitə müəssisəsi və 79 poçt şöbəsi mövcud olmuşdur. Rabitə xidmətindən gələn gəlirlər xeyli artmışdır. 2000-ci il ərzində muxtar respublikanın rabitə müəssisələri tərəfindən7,8 milyon manatlıq rabitə xidməti göstərilmişdir ki, bu da 1995-ci illə müqayisədə 3,7 dəfə çox idi. 2007-ci ildə rabitə xidmətlərinin həcmi 16,2 milyon manata çatmışdır.[492] 2009-cu il ərzində 3055 yeni telefon çəkilişi aparılmış, poçt və rabitə xidmətlərinin həcmi 2008-ci illə müqayisədə 34 faiz artaraq 31,1 milyon manat təşkil etmişdir. İnformasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi rabitə xidmətlərinin həcminin də artmasına müsbət təsir göstərmiş, 2010-cu ildə muxtar respublikada informasiya və rabitə xidmətlərinin həcmi 36 milyon manatdan çox olmuşdur ki, bu da 2009-cu illə müqayisədə 18 faiz artım deməkdir. Ümumi rabitə xidmətinin 86 faizi və ya 31.442 min manatı mobil rabitənin payına düşmüşdür.[493] 2013-cü ildə informasiya və rabitə xidmətlərinin həcmi 45052 min manat olmuşdur ki, bu da 2003-cü ildəki müvafiq göstəricilərdən 10,3 dəfə çoxdur.[494]

Son illər muxtar respublikada informasiya və rabitə texnologiyalarının inkişafı, poçt xidmətlərinin modernləşdirilməsi və yeni xidmət növlərinin istifadəyə verilməsi istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür. 2011-ci ildə muxtar respublikanın bütün ərazisində stasionar telefonların 7 rəqəmli nömrəyə keçidi təmin olunmuş, Yeni Nəsil Telekommunikasiya şəbəkəsinin tətbiqi istiqamətində işlər davam etdirilmişdir. Həyata keçirilmiş tədbirlər öz növbəsində informasiya və rabitə xidmətlərinin

[492] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB. 2011, s.125.

[493] 2010-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB. 2011. s.18.

[494] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.95



də həcmini artırmış, 2011-ci ildə bu xidmətlərin həcmi 39 milyon manatdan çox olmuşdur.[495]

2012-ci ildə Naxçıvan şəhəri, Babək rayon mərkəzi, Nehrəm və Yarımca kəndlərində, Şərur və Sədərək rayonlarında yeni nəsil telefon stansiyaları qurulmuş, üçüncü nəsl avtomat telefon stansiyalarından istifadə edənlərin sayı 37 mindən çox olmuşdur. Bu da ümumi nömrə tutumunun 58 faizini təşkil edir. Həyata keçirilən islahatlar rabitə xidmətlərinin keyfiyyətini yaxşılaşdırmaqla bərabər onun həcminə də müsbət təsir göstərmişdir. 2012-ci ildə, ümumilikdə rabitə və informasiya xidmətlərinin həcmi 42 milyon manatdan artıq olmuşdur.

Rabitə və kommunikasiya texnologiyaları sahəsində hər 100 ailəyə düşən stasionar telefon aparatlarının sayı mühüm göstərici sayılır. Həm də bu göstərici əhalinin yaşayış standartlarını xarakterizə edir. Qeyd edək ki, 2010-cu il yanvarın 1-nə hər 100 ailəyə düşən stasionar aparatların sayı 67-yə, mobil telefonların sayı isə 104-ə çatmışdır. Ölkəmizdə 2013-cü il "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir. Naxçıvan Muxtar Respublikasında bununla bağlı tədbirlər planı təsdiq olunmuş və həyata keçirilmişdir. İnformasiya cəmiyyətinin formalaşmasında xüsusi əhəmiyyətə malik olan "Elektron hökumət"in qurulması istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Naxçıvan Muxtar Respublikasında "Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən, dövlət orqanlarının göstərəcəyi elektron xidmətlərin reqlamentləri təsdiq edilmiş, reyestr kodları verilmiş və internet saytlarında yerləşdirilmişdir. Dövlət orqanlarının elektron xidmətlərindən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili məqsədilə "Elektron hökumət" portalı yaradılmış, 34 dövlət orqanının xidmətləri portala inteqrasiya edilmişdir.

[495] 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.13

Muxtar respublikada keyfiyyətli televiziya və radio yayımının təşkili məqsədilə tədbirlər görülmüş, yaşayış ərazilərində rəqəmli yayım təşkil edilmişdir. "Kanal – 35" televiziyasının və "Naxçıvanın səsi" radiosunun fəaliyyətə başlaması, Naxçıvan MR Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin maddi-texniki bazasanın gücləndirilməsi və efir vaxtının artırılması muxtar respublikada informasiya və kommunikasiya texnologiyalarının ictimai həyatımıza sürətli inteqrasiyasını təmin etmişdir. Azərbaycan-Türkiyə optik kabel magistralının Naxçıvan seqmentinin yaradılması hesabına böyüktutumlu və keyfiyyətli rabitə əlaqəsinin həyata keçirilməsi mümkün olmuşdur. Naxçıvan şəhərində, bir sıra qəsəbə və kəndlərdə yeni nəsil avtomat telefon stansiyaları quraşdırılmışdır. 64 telefon stansiyasında birləşdirici xətt əlaqəsi yaratmaq məqsədilə 554,2 km uzunluğunda radiorele xətti və 119 km fiberoptik kabellərdən istifadə etməklə 7470 telefon kanalı yaradılmış, 61 antena qülləsi tikilmişdir.

Poçt xidmətlərinin müasir tələblər səviyyəsində qurulmasını, ənənəvi xidmətlərlə yanaşı, əhaliyə yerlərdə poçt-maliyyə xidmətlərinin də göstərilməsini və kommunal xidmət haqlarının poçtlar vasitəsilə yığılmasını təmin etmək, eləcə də bu sahədə idarəetməni təkmilləşdirmək məqsədi ilə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır. 2002-ci ildən etibarən muxtar respublikada 114 poçt bölməsi, 115 avtomat telefon stansiyası yeni binaya köçürülmüşdür.[496] Poçt bölmələrindən 74-ü yeni fəaliyyətə başlamış, avtomat telefon stansiyalarından isə 78-i yeni istifadəyə verilmişdir. 2002-ci ildən 2014-cü ilin yanvar ayının 1-nə kimi muxtar respublikada yeni elektrontipli avtomat telefon stansiyalarının və "Naxtel" simsiz rabitə şəbəkəsi üzrə yeni baza stansiyalarının yaradılması ilə 31710 ədəd yeni telefon nömrəsi istismara verilmişdir.

Muxtar respublikanın telekommunikasiya şəbəkəsi beynəlxalq Trans-Asiya-Avropa fiber-optik kabel magistralına qoşul-

[496] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB. 2014. s.91



muş, ilk dəfə Naxçıvanın tranzit telekommunikasiya imkanları yaradılmışdır. Magistralın Naxçıvan-Ordubad, Naxçıvan-Sədərək və Naxçıvan-Şahbuz hissələri üzərində qurulan optik rəqəmsal şəbəkələr elektron hökumət və genişzolaqlı xidmətlərin həyata keçirilməsinə şərait yaratmışdır. Hazırda muxtar respublikanın mövcud telekommunikasiya şəbəkəsinin 94 faizi optik şəbəkəyə birləşdirilmişdir. Optik şəbəkənin genişləndirilməsi evlərə də optik kabelin çəkilməsinə imkan vermiş, 2012-ci ilin avqust ayından etibarən Naxçıvan şəhərində "Evədək optika" layihəsinin icrasına başlanmışdır. Telekommunikasiya əlaqələrinin alternativliyinin təmin edilməsi məqsədilə Naxçıvan-Türkiyə-Gürcüstan-Bakı istiqamətində optik kabel üzərindən rabitə kanalları yaradılmış, Naxçıvan-İran-Bakı istiqamətində yeni STM-16 səviyyəli telekommunikasiya əlaqələri təşkil edilmişdir. 242 km olan Ordubad-Sədərək arası böyüktutumlu fiber-optik kabel magistral xətti çəkilmişdir.[497]

Muxtar respublikanın yaşayış ərazilərinin 93 faizində genişzolaqlı internet, 83 faizində isə simsiz internet xidmətləri göstərilir. Muxtar respublikaya daxil olan internet kanalının sürəti 512 kb/san-dən 2 gb/san-dək artırılmış, internet xidmətlərinin faizləri aşağı salınmışdır.

Beləliklə, son iyirmi il ərzində Naxçıvanın blokada vəziyyətində olmasını nəqliyyat sektoru, informasiya-kommunikasiya texnologiyalarının inkişafı aradan qaldırmış, muxtar respublikanın sürətli inkişafı təmin edilmişdir.

### 3.4.6. Elektroenergetikanın yenidən qurulması, əhalinin və müəssisələrin qazla təmin edilməsi

Ölkəmizdə elektroenergetikanın inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Onun Azərbaycana rəhbərliyi dövründə bu sahənin inkişafına xüsusi diqqət yetirilmiş, enerji təminatı ödənilmişdir.

[497] "Şərq qapısı" qəzeti, 2015,16 may

Əvvəllər Naxçıvan Muxtar Respublikası elektrik enerjisi ilə Zaqafqaziyanın vahid energetika sistemindən 220 kilovoltluq Ararat-Babək, 110 kilovoltluq Ararat-Şərur, Araz Su Elektrik Stansiyası vasitəsi ilə təchiz edilirdi. Ermənistan Respublikasının həyata keçirdiyi blokada siyasəti nəticəsində 1990-cı ildən etibarən muxtar respublikaya elektrik enerjisi verilişi dayandırıldı, yalnız Araz SES-də istehsal edilən 20 meqavat gücündə elektrik enerjisi şəbəkələrə ötürüldü.

1991-92-ci illərdə yaranmış çətin şəraitə baxmayaraq, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə blokadada olan Naxçıvan Muxtar Respublikasını elektrik enerjisi ilə təchiz etmək məqsədilə Türkiyədən 154 kilovoltluq və İrandan Naxçıvana 132 kilovoltluq yüksək gərginlikli elektrik verilişi xətləri çəkildi.[498] Türkiyədən və İrandan elektrik enerjisi alınmağa başlandı. 1993-cü ilin ortalarında muxtar respublikaya Türkiyə Respublikasından 63 meqavat, İran İslam Respublikasından isə 42 meqavat gücündə elektrik enerjisi daxil olurdu.[499] Muxtar respublikanın elektrik şəbəkələrinin 120 meqavata qədər güclü elektrik enerjisini paylaşdırmaq üçün texniki imkanları yaranmışdır.

Azərbaycan Prezidentinin "Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 2005-ci il 2 may tarixli Sərəncamına uyğun olaraq, muxtar respublikada kompleks tədbirlər həyata keçirilmiş. 2006-cı ilin dekabrında ümumi gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası, Heydər Əliyev Su Anbarı üzərində ümumi gücü 4,5 meqavat olan su elektrik stansiyası və 2010-cu ilin oktyabr ayında Ordubad rayonu ərazisində - Gilançay üzərində gücü 22 meqavat olan Biləv Su Elektrik Stansiyası istifadəyə verilmişdir.

Ümumi gücü 50 meqavat olan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla iş rejiminə keçirilməsindən sonra istismara verilməsi də bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib

[498] "Azərbaycan" qəzeti, 2010, 20 oktyabr
[499] "Şərq qapısı" qəzeti, 2010, 20 oktyabr



hissəsidir. Bu da nəinki Naxçıvanın elektrik enerjisi ilə təchizatının idxaldan asılılığını aradan qaldırmış, hətta muxtar respublikanın elektrik enerjisi ixrac etməsinə geniş imkanlar açmışdır.

1990-cı illərin ortalarından başlayaraq muxtar respublikaya daxil olan elektrik enerjisinin paylanılmasını yaxşılaşdırmaq, itkiləri azaltmaq, enerji təchizatının etibarlılığını yüksəltmək üçün bir sıra mühüm tədbirlər həyata keçirildi. İlk növbədə "Koroğlu", "Araz", "Culfa", "Çeşməbasar", "Arpaçay", "Sədərək", "Xalxal" yarımstansiyaları tikilib quraşdırılmış və onların gücü artırılmışdır. 2010-cu ildə Naxçıvan şəhərində "Xalçaçılıq", "Xətai" və "Sənaye qovşağı" elektrik yarımstansiyaları qurulmuşdur. Ümumilikdə bu dövr ərzində muxtar respublika üzrə 36 ədəd müxtəlif güclü transformator yarımstansiyasının quraşdırılması və 55,1 km uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılmışdır.[500]

Muxtar respublika əhalisini və istehsal sahələrini elektrik enerjisi ilə təmin etmək üçün 2006-cı ildə görülən tədbirlərin əhəmiyyəti daha böyük olmuşdur. 2005-ci ildə muxtar respublikaya təbii qazın verilməsi yeni elektrik stansiyalarının işə salınmasına səbəb olmuşdur. 2010-cu il oktyabr ayının 5-də Biləv Su Elektrik Stansiyasının açılışında iştirak edən ölkə başçısı İlham Əliyev deyib: "Bu gün Azərbaycan enerji təhlükəsizliyi məsələlərində nəinki bölgədə, eyni zamanda qitədə öz rolunu oynayır. Bu rol artır və getdikcə imkanlarımız daha da genişlənəcəkdir. Biz artıq ölkə daxilində enerji təhlükəsizliyi məsələlərini yüz faiz həll etmişik... Bu gün Biləv Su Elektrik Stansiyasının açılışı, sadəcə olaraq, görülən işlərin yeni mərhələsidir. Bu stansiyanın çox böyük əhəmiyyəti vardır. Düzdür, Naxçıvanın enerji təhlükəsizliyi tam şəkildə təmin edilibdir. Naxçıvanda enerji potensialının həcmi tələbatdan bir neçə dəfə artıqdır. Ancaq su elektrik stansiyalarının öz xüsusiyyətləri vardır. O, təbiətdən qaynaqlanan

[500] Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, s. 104

bir enerjidir, gücdür. Əminəm ki, gələcəkdə bu sahədə əlavə tədbirlərin görülməsi nəticəsində Naxçıvandan qonşu ölkələrə daha da böyük həcmdə elektrik enerjisinin ixracı mümkün olacaqdır".[501]

Muxtar respublikada təbii resurslardan səmərəli istifadə yeni elektrik stansiyalarının tikintisinə geniş imkanlar açıb. 2011-ci ilin fevralında Şərur rayonu ərazisindəki Arpaçay üzərində gücü 20,5 meqavat, illik elektrik enerjisi istehsalı 60 milyon kilovat-saat olacaq Arpaçay Su Elektrik Stansiyasının tikintisinə başlanılıb.[502] Arpaçay Su Elektrik Stansiyası Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq olunmuş "2008-2013-cü illər üzrə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində inşa olunmuş və 2013 il sentyabrın 9-da istifadəyə verilmişdir.[503] Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Arpaçay SES-in açılışında çıxış edərək demişdir: "Hər bir ölkə üçün elektrik enerjisi strateji sahə hesab edilir. Bu gün dünya ölkələrində ərzaq və enerji təhlükəsizliyi üzrə proqramlar qəbul olunaraq icra edilir. Enerji, ərzaq təhlükəsizliyi təmin olunan ölkələrin iqtisadiyyatı isə sabit və davamlı inkişaf edir. Azərbaycan Respublikasında da ərzaq və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ardıcıl tədbirlər görülür. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Muxtar respublikada yeni elektrik stansiyaları tikilir, əhalinin və iqtisadiyyatın enerjiyə olan tələbatı etibarlı şəkildə ödənilir. Artıq Naxçıvan elektrik enerjisi idxal edən muxtar respublikadan elektrik enerjisi ixrac edən muxtar respublikaya çevrilmişdir. Enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir".[504]

---

501 "Azərbaycan" qəzeti, 2010, 6 oktyabr
502 "Şərq qapısı" qəzeti, 2013, 14 sentyabr
503 Yenə orada, 2013, 10 sentyabr
504 "Şərq qapısı" qəzeti, 2013, 10 sentyabr



Qeyd olunduğu kimi, gücü 20,5 meqavat olan su elektrik stansiyası suqəbuledici qurğu, stansiya binası, tunel və transformator yarımstansiyalarından ibarətdir. Suqəbuledici saniyədə 37 kubmetr su buraxmaq gücünə malikdir. Diametri 3,9 metr olan tunelin uzunluğu isə 1100 metrdir. Tuneldən suyu turbinlərə ötürmək üçün 145 metr uzunluğunda yüksəktəzyiqli boru xətti çəkilmiş, 45 metr dərinliyi olan havaboşaldıcı inşa edilmişdir. Stansiya binasında müasir iş otaqları və idarəetmə mərkəzi yaradılmışdır. Stansiya binasında Avstriyanın "Andritz" şirkətinin istehsalı olan 7,75 meqavat gücə malik 2 ədəd və gücü 5 meqavat olan 1 ədəd Françesktipli turbin quraşdırılmış və onlara üfüqi şəkildə bağlanmış müvafiq güclü generatorlar qoşulmuşdur. Bütün emal prosesi avtomatlaşdırılmış şəkildə həyata keçirilir.

İstehsal olunmuş elektrik enerjisini şəbəkəyə ötürmək üçün 30 meqavoltamper gücə malik transformator yarımstansiyası qurulmuş, 11 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətləri çəkilmişdir.[505]

2012-ci ildə Arpaçayın aşağı qolu üzərində tikintisinə başlanmış 1,4 meqavat güclü su elektrik stansiyası da istismara verilmişdir.[506] 2014-cü il martın 14-də Azərbaycan Respublikasının Prezidenti Naxçıvan Muxtar Respublikasında "Arpaçay-2" Su Elektrik Stansiyasının tikintisinin maliyyələşdirilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncama əsasən, "Arpaçay-2 SES-in tikintisini başa çatdırmaq məqsədilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikasının Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 4 milyon manat vəsait ayrılmışdır.[507] 2014-cü ildə ölkə başçısının iştirakı ilə gücü 20,5 meqavat olan "Arpaçay-1" və gücü 1,4 meqavat olan "Arpaçay-2" su elektrik stansiyalarının istifadəyə verilməsi

---

505 "Azərbaycan" qəzeti, 2013, 12 sentyabr
506 "İki sahil" qəzeti, 2014, 10 noyabr
507 "Şərq qapısı" qəzeti, 2015, 22 yanvar

elektrik enerjisinə olan tələbatın bərpa olunan enerji mənbələri hesabına ödənilməsinə şərait yaratmışdır.

Hazırda Ordubad rayonu ərazisində - Araz çayı üzərində gücü 36 meqavat, illik elektrik enerji istehsalı 190 milyon kilovat-saat olacaq derivasiya tipli Ordubad Su Elektrik Stansiyasında tikinti işləri davam etdirilir. Stansiyanın tənzimləyən bəndi Dəstə kəndində, binası isə Ordubad şəhəri yaxınlığında yerləşəcəkdir. Stansiyada hər birinin gücü 12 meqavat olan 3 hidroaqreqat quraşdırılması, elektrik enerjisinin şəbəkələrə ötürülməsi üçün 80 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xəttinin çəkilməsi nəzərdə tutulmuşdur.[508] Ordubad rayonu ərazisində - Gilançayın Tivi qolu üzərində 14 meqavat gücündə derivasiya tipli su elektrik stansiyasının tikilməsinin texniki iqtisadi əsaslandırılması sənədləri də hazırlanmışdır. Hazırda layihə işləri yekunlaşmaq üzrədir.

Muxtar respublikanın təbii şəraiti burada külək və günəş elektrik stansiyalarının da tikilib quraşdırılmasına imkan verir. Babək rayonu ərazisindəki Xalxal meşəsi yaxınlığında günəş elektrik stansiyasının tikintisinə başlanılıb. Culfa rayonu ərazisində - Araz çayının kənarında külək elektrik stansiyasının tikilməsi məqsədəuyğun hesab edilib.

Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, muxtar respublikanın elektrik enerjisinə olan tələbatının su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi hesabına ödənilməsi mümkün olacaq və yaxın gələcəkdə Naxçıvan Muxtar Respublikası daha çox elektrik enerjisi ixrac edəcəkdir. 1970-ci ildən istismar olunan 22 meqavat gücə malik Araz Su Elektrik Stansiyası nəzərə alınmaqla ümumi istehsal gücü 206 meqavat olan elektrik stansiyalarında hazırda tələbata uyğun olaraq 80-90 meqavat gücündə elektrik enerjisi istehsal olunur.

Yay aylarında nasos stansiyalarının işləməsi ilə əlaqədar olaraq muxtar respublikanın elektrik enerjisinə tələbatı 75-80 meqavat, qalan aylarda isə 45-50 meqavat olur.

[508] "İki sahil" qəzeti, 2014, 8 yanvar



İstehsal olunan elektrik enerjisi nəinki daxili tələbatı ödəyir, hətta 25-30 meqavat elektrik enerjisi ixrac etməyə imkan verir. Bu sahədə müvafiq işlər görülmüş, son illər İran İslam Respublikasının "Pars Sakhtar" şirkəti ilə bağlanmış müqaviləyə əsasən, Naxçıvan Modul Elektrik Stansiyası ilə Naxçıvan Qaz-Turbin Elektrik Stansiyası arasında dəyəri 1 milyon 680 min avro təşkil edən 24 kilometr uzunluğunda 110 kilovoltluq elektrik verilişi xətti çəkilmişdir. Xəttin istismara verilməsi muxtar respublikanın elektrik şəbəkələrinin dayanıqlığının xeyli yüksəlməsinə, həmçinin qonşu dövlətlərlə enerji mübadiləsinin yaxşılaşdırılmasına texniki imkanlar yaratmışdır. Hazırda İran İslam Respublikası ilə enerji mübadiləsi aparılır, Türkiyə Respublikasına 20-30 meqavat elektrik enerjisi ixrac edilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvanın enerji ilə təminatı məsələsi dəfələrlə müzakirə edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmiş və muxtar respublikanın elektrik enerjisi ixrac edən bir bölgəyə çevrilməsi məsələsi qoyulmuşdur. Artıq muxtar respublikada enerji təhlükəsizliyi təmin edilmişdir. Sovet hakimiyyəti illərində cəmi 1 elektrik stansiyası olan muxtar respublikada bu gün 7 elektrik stansiyası fəaliyyət göstərir. 1988-ci ildə muxtar respublikada 86 milyon kilovat-saat elektrik enerjisi istehsal olunmuşdursa, 2010-cu ildə bu göstərici 6 dəfə artaraq 534 milyon kilovat-saata çatmışdır.

Muxtar respublikada 11 kilometr uzunluğunda 35 kilovoltuq, 83 kilometr uzunluğunda 10 və 0,4 kilovoltluq yeni elektrik verilişi xətlərinin çəkilişi başa çatdırılmış, 42 ədəd müxtəlif güclü transformator yarımstansiyası quraşdırılmışdır.[509]

Ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının uğurlu davamının məntiqi nəticəsidir ki, ölkənin ayrı-ayrı bölgələrində olduğu kimi, muxtar respublikada da irimiqyaslı layihələr reallaşır, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilir. Görülən işlərin bir hissəsini də muxtar respublikada əhalinin və təsərrüfat subyektlərinin **təbii qazla**

[509] "Şərq qapısı" qəzeti, 2015, 22 yanvar

təmin olunması istiqamətində həyata keçirilən layihələr təşkil edir. Muxtar respublikaya Ermənistan ərazisi vasitəsi ilə 1991-ci ildə qaz verilməsi dayandırıldıqdan sonra əhalinin qazla təmin edilməsində problemlər yaranmışdı. Muxtar respublikanı vəziyyətdən çıxarmaq üçün 1992-ci il avqustun 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev İran İslam Respublikasında səfərdə olarkən prezident Əli Əkbər Haşimi Rəfsəncani ilə görüşmüş, iqtisadi əlaqələrin genişləndirilməsi, həmçinin muxtar respublikanın qaz tələbatını təmin etmək barədə söhbətlər aparmış və razılıq əldə etmişdi.

İran tərəfi Xoy-Culfa qaz kəmərinin tikintisini öz üzərinə götürmüşdü. Kəmər istifadəyə verildikdən sonra muxtar respublikaya sutkada 1 milyon ton kub metr qaz verilməli idi. Lakin müəyyən səbəblərdən qaz çəkilişi bir qədər yubandı. İran İslam Respublikası Naxçıvan MR-ə ayda 100 ton maye qaz göndərməyi öhdəsinə götürmüşdü. 1998-ci ildə maye qazla qazlaşdırılmış mənzillərin sayı 46274-ə çatdırıldı. Muxtar respublikanın həyatında baş verən ən əlamətdar hadisə uzun illərin fasiləsindən sonra ölkə Prezidenti İlham Əliyevin bilavasitə himayə və qayğısı nəticəsində 2005-ci ildə İran İR-dən mübadilə yolu ilə Naxçıvan MR-ə təbii qaz kəmərinin çəkilişi oldu. Qısa müddət ərzində Culfa-Naxçıvan yüksək təzyiqli, Naxçıvan-Cəhri orta təzyiqli magistral, Naxçıvan şəhər orta təzyiqli dairəvi qaz kəmərinin çəkilişi başa çatdırıldı.

Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasındakı razılıq əsasında əldə olunmuş layihənin – qazın Naxçıvan Muxtar Respublikasına verilməsi ilə bağlı tənətənəli açılış mərasimində iştirak etmək üçün İran Prezidenti Mahmud Əhmədinejadın başçılığı ilə nümayəndə heyəti 2005-ci il dekabrın 20-də Naxçıvana gəldi. Prezidentlərin görüşləri olmuş, birgə mətbuat konfransında bəyanatla çıxış etmişlər. Dekabrın 20-də hər iki ölkənin prezidentləri Naxçıvan Muxtar Respublikasına İran ərazisi ilə təbii qazın verilməsi münasibətilə keçirilən təntənəli mərasimdə iştirak və çıxış etmişlər. Prezident İlham Əliyev



demişdir: "Bu gün çox tarixi bir gündür. Uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi bərpa olundu, 15 ildən sonra Naxçıvana qaz verildi... Naxçıvana qazın verilməsi iki ölkə arasında olan əlaqələrin təzahürüdür, onun nəticəsidir. İranla Azərbaycan arasında çox yaxın münasibətlər vardır. Bu gün keçirdiyimiz görüşdə bir daha əmin olduq ki, həm siyasi, həm iqtisadi, mədəni, həm də bütün başqa sahələrdə bizim aramızda qarşılıqlı anlaşma var, inam var, gözəl əməkdaşlıq var... Məhz bu münasibətlərin nəticəsində birgə layihələr icra olunur, birgə məsələlər öz həllini tapır".[510]

Təntənəli mərasimdə İran Prezidenti Mahmud Əhmədinejad çıxış edərək dedi: "Çox şadam ki, indi burada qaz şölələndi və bundan sonra Naxçıvan əhalisi bu nemətin rahatlığından tam istifadə edəcəkdir. Mənim burada olmağım iki ölkə arasında olan möhkəm, dərin əlaqələrin daha da genişlənməsini göstərir. Bu əlaqələr nəticəsində iki ölkənin xalqları, hökumətləri arasında münasibətlərin günbəgün genişlənməsinin şahidi olacağıq".[511]

Qısa müddət ərzində Naxçıvan qazlaşdırıldı, Culfa-Ordubad və Şahbuz-Sədərək ötürücü qaz kəmərinin təmiri və bərpası tamamlandı. 2005-ci ildə 6770 mənzilə və 195 fərdi evə qaz çəkildi. Sonrakı illərdə qazlaşdırma prosesi çox sürətlə aparıldı və muxtar respublikada əhalinin və təsərrüfat subyektlərinin qazla təchizatı başa çatdırıldı. 2011-ci ilin yanvarınadək 220 yaşayış məntəqəsində 78157 mənzil qazlaşdırılmış, abunəçilərə pulsuz olaraq mətbəx sobaları verilmiş, qaz sayğacları quraşdırılmışdır. 2011-ci ilin sonunda isə ən ucqar dağ kəndləri də əhatə olunmaqla muxtar respublikanın bütün ərazisi tamamilə qazlaşdırılmışdır.[512] İstehlakçıların təbii qazla fasiləsiz təmin edilməsi ilə yanaşı, bu sahədə infrastrukturun təkmilləşdirilməsi məsələləri də diqqət mərkəzində saxlanılır, mövcud qaz xətlərində təmir işləri aparılır, istismar müddəti başa çatan xətlər yeniləri ilə əvəz

---

[510] "Azərbaycan" qəzeti, 2005, 21 dekabr
[511] Yenə orada
[512] 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.13-14

olunur. 2012-ci ildə uzunluğu 27 kilometr olan Cəhru-Şahbuz orta təzyiqli qaz xəttində, uzunluğu 81,6 kilometr olan Naxçıvan-Sədərək yüksək təzyiqli qaz xəttində tikinti işləri başa çatdırılmışdır.[513]

### 3.4.7. Ekologiya və yaşıllaşdırma tədbirləri

Muxtar respublikada təbii meşə ehtiyatlarının az olması, son illərdə sənaye potensialının inkişafı, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, keçən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikanın blokadaya düşməsi nəticəsində yanacağın çatışmaması ucbatından ağacların kütləvi şəkildə qırılması muxtar respublikanın ekologiyasına ciddi ziyan vurmuşdu. Ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyərkən təbiətə dəyən ziyanın aradan qaldırılması üçün ardıcıl tədbirlər müəyyənləşdirmiş, yaşıllaşdırma aylığının keçirilməsini taleyüklü məsələ kimi irəli sürmüşdü. Həmin illərdə blokadanın çətinliklərinə baxmayaraq, ümummilli liderin səyi nəticəsində burada yaşıllaşdırma iməciliklərinin keçirilməsinə başlanılmış, təbiətin, yaşıllıqların qorunması və bərpası işlərinə diqqət artırılmışdır.

1996-cı ildən muxtar respublikada ümummilli liderin müəyyənləşdirdiyi quruculuq xəttinə, o cümlədən yaşıllaşdırma aylığının keçirilməsi barədə qəbul etdiyi qərara ardıcıl əməl edilməsi nəticəsində təbii meşə sahələri artırılmış, parklar, yaşıllıq zolaqları, gülkarlıqlar salınmış, həmişəyaşıl ağaclar əkilmişdir. Qeyd etməliyik ki, Naxçıvan Muxtar Respublikasının ərazisi flora müxtəlifliyinin zənginliyinə görə Azərbaycan florasının 62,4 faizini təşkil edir. Amma bununla yanaşı burada meşə ehtiyatları olduqca azdır.

[513] 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, s.15



Ulu öndərin 2001-ci il 23 may tarixli Sərəncamına əsasən, ölkəmizdə ekoloji siyasəti həyata keçirən vahid dövlət idarəetmə strukturunun – Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması bu sahəyə göstərilən dövlət qayğısının daha bir ifadəsinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 2001-ci il 1 mart tarixli Sərəncamını xüsusilə qeyd etmək lazımdır. Həmin sərəncamdan sonra muxtar respublikada hər ilin yaz və payız aylarında yaşıllaşdırma, təmizlik və abadlıq aylığı elan olunmuş, iməciliklərin keçirilməsi ənənə halını almışdır. Həmçinin, Ali Məclis Sədrinin "2007-ci ilin yazında və payızında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 2007-ci il 24 fevral tarixli Sərəncamı ilə əlavə tədbirlər keçirildi. Keçirilən iməciliklərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etməsi, müvafiq tapşırıqlar verməsi bu gün muxtar respublikanın yaşıllıqlar diyarına çevrilməsində böyük rol oynadı. 2009-cu ildə yaşıllaşdırma tədbirlərinin uğurla davam etdirilməsi nəticəsində muxtar respublika ərazisində 497,3 hektar sahədə meşəsalma, meşəbərpa tədbirləri həyata keçirilmişdir ki, bu da 2008-ci illə müqayisədə 2 faiz çoxdur. Həyata keçirilən yaşıllaşdırma tədbirlərində 206718 ədəd meşə tingi, 280140 ədəd meyvə tingi, 12983 ədəd həmişəyaşıl ağac, 49430 ədəd bəzək və gül kolu olmaqla 549271 ədəd ting əkin dövriyyəsinə daxil edilmişdir. Naxçıvan diyarının iqlim şəraiti nəzərə alınaraq damcı üsulu ilə suvarmanın tətbiqinə başlanılmışdır. 2009-cu ildə Naxçıvan-Sədərək magistral yolunun 6-10 kilometrliyində yeni salınmış 50 hektarlıq yaşıllıq sahəsi, Culfa rayonu ərazisində 26 hektar sahə damcı üsulu ilə suvarılır. Ümumiyyətlə, 156 hektar sahədə damcı üsulu ilə suvarmadan istifadə edilir ki, bu da su itkisini aradan qaldırır. 2001-ci ildən yeni yaşıllıq zolaqlarının yaradılması, yaşıllaşdırma tədbirlərinin görülməsi təsdiq olunmuş plan əsasında aparılmış, muxtar respublikada 522,5 hektar sahədə meşəsalma və

meşəbərpa işləri aparılmış, 585 mindən çox ağac və bəzək kolu əkilmişdir.[514]

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 25 may tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi də muxtar respublika ərazisində təbiətin qorunması, əlverişli ekoloji mühitin yaradılması və mövcud ekoloji tarazlığın saxlanılması sahəsində mühüm tədbirlər həyata keçirir. Nazirlik tərəfindən təkcə 2009-cu ildə 145,2 hektar sahədə yeni yaşıllıqlar, meşə massivləri, meyvə bağları salınmış və meşəbərpa tədbirləri həyata keçirilmişdir. Bütövlükdə, muxtar respublikada ekoloji vəziyyətin daha da yaxşılaşdırılması istiqamətində 2004-2013-cü illər ərzində 8480 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 5 milyon 512 mindən çox ağac və gül kolu əkilmişdir.[515] Yaşıllaşdırma tədbirlərinə sonrakı illərdə də diqqət yetirilmişdir. 2013-cü ildə 531 hektar sahədə meşəsalma və meşəbərpa işləri aparılmış, 400 mindən çox ağac və gül kolu əkilmişdir. 2014-cü ildə isə müvafiq olaraq bu, 536,5 hektar və 440,7 min ədəd olmuşdur.[516]

Muxtar respublikada həyata keçirilən yaşıllaşdırma, meşəsalma və meşəbərpa tədbirləri öz nəticəsini vermiş, yaşıllıq ərazilər artmışdır. Belə ki, əgər 1990-cı ilin əvvəllərində yaşıllıq sahələri muxtar respublika ərazisinin cəmi 0,6 faizini təşkil edirdisə, 2014-cü ildə bu göstərici 11 faizə yaxın olmuşdur. Bu müddətdə adambaşına düşən yaşıllığın həcmi isə 0,012 hektardan 0,21 hektara yüksəlib. Halbuki ölkə ərazisində adambaşına 0,14 hektar meşə örtüyü düşür. Son 15 ildə muxtar respublika ərazisində təkcə dövlət strukturlarının dəstəyi ilə 10124 hektar sahədə

[514] "Şərq qapısı" qəzeti, 2011, 29 yanvar
[515] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.90
[516] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.11



yaşıllıqlar – meşə massivləri, meyvə bağları, yaşıllıq zolaqları salınmışdır.[517]

Naxçıvan Muxtar Respublikasında ətraf mühitin mühafizəsi, nadir nəsli kəsilmək təhlükəsi olan flora və fauna növlərinin, təbiət kompleksləri və abidələrin qorunub saxlanılması, insanların ətraf mühitdən sağlamlıq, istirahət və turizm məqsədilə istifadəsinin təmin edilməsi üçün xüsusi mühafizə statuslu təbiət ərazilərinin genişləndirilməsi və inkişaf etdirilməsinə əhəmiyyət verilir.

Naxçıvan Muxtar Respublikasında ilk xüsusi mühafizə olunan təbiət ərazisi ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı ilə 1969-cu ildə yaradılmış Ordubad Dövlət Yasaqlığıdır. Muxtar respublikanın xüsusi mühafizə olunan təbiət ərazilərinin inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 16 iyun tarixli Sərəncamı ilə Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu yaradıldı.[518]

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə "Arazboyu" Dövlət Təbiət Yasaqlığı (ərazisi 9118 hektar), 2009-cu il 22 iyun tarixli Fərmanı ilə "Arpaçay" Dövlət Təbiət Yasaqlığı (ərazisi 68911, 18 hektar) yaradıldı.[519]

Muxtar respublika ərazisində mövcud olan ekoturizm potensialından səmərəli istifadə edilməsi, elmi-tədqiqat işlərinin aparılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 25 noyabr tarixli Sərəncamı ilə Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkı yaradıldı. Milli Parkın ərazisinə Akademik Həsən Əliyev adına Ordubad Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Culfa və Ordubad rayonlarının inzibati

[517] Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, s. 127
[518] "Xalq qəzeti", 2010, 10 oktyabr
[519] Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, s. 128-129.

ərazilərində olan dövlət meşə fondu və Şahbuz, Culfa, Ordubad rayonlarının inzibati ərazisində yerləşən yay otlaqlarının torpaqları daxil edildi. Beləliklə, 1995-ci illə müqayisədə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi 3,7 dəfədən çox artdı. Nəticədə muxtar respublikanın 148816,6 hektar ərazisi xüsusi mühafizə olunan təbiət əraziləridir. Bu göstərici öz növbəsində beynəlxalq normaları da üstələyir.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə 2010-cu il ölkəmizdə "Ekologiya ili" elan edilmişdir. "Ekologiya ili"ndə muxtar respublikada yaşıllaşdırma, təmizlik və abadlıq sahəsində həyata keçirilən tədbirlər daha geniş miqyasda davam etdirilmişdir. 2010-cu ilin yaz əkini dövründə yeni yaşıllıq zolaqları yaradılmış, yaşıllaşdırma tədbirləri aparılmış, muxtar respublika üzrə 248 hektar sahədə meşəsalma və meşəbərpa işləri həyata keçirilmiş, 250 mindən çox ağac əkilmişdir.

Yaşıllaşdırma, təmizlik və abadlıq sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın simasını tamamilə dəyişib. Bu dəyişikliklərin ilkin şərti isə təmizlik və yaşıllıqdır.

Naxçıvan Muxtar Respublikasında əlverişli ekoloji mühitin yaradılması sahəsində ardıcıl tədbirlər görülür. Görülən işlərin nəticəsidir ki, beynəlxalq ekoloji təşkilatlar tərəfindən muxtar respublikada həyata keçirilən tədbirlər yüksək qiymətləndirilir. Belə ki, muxtar respublika ərazisinin 27 faizindən çoxunun xüsusi mühafizə olunan ərazi olması, fauna ehtiyatlarının qorunması məqsədilə ova qadağaların qoyulması, yaşıllıqların artırılması sahəsində görülən işlər nüfuzlu təşkilat və ekspertlər tərəfindən nümunə kimi qəbul edilir. Ona görə də ABŞ, Rusiya, Fransa, Almaniya, İtaliya və başqa ölkələrin alimləri Naxçıvanın biomüxtəlifliyinin zənginliyinə görə Naxçıvana gəlmiş, yerli alimlərlə müştərək tədqiqatlar aparmışlar. Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun Qafqaz Təmsilçiliyinin direktoru Georgi Sanadiradze Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə ünvanladığı məktubda muxtar respublikada təbiəti mühafizə



sahəsində görülən işlərə yüksək qiymət verərək qeyd etmişdir ki, " Muxtar respublikada ova qoyulmuş moratoriumun 10 ilə yaxın müddətdə fəaliyyətdə olması, xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması və gücləndirilməsi, yerli əhalinin məlumatlandırılması tədbirləri, təbiət komplekslərinin tədqiqi və monitorinqi artıq öz bəhrələrini verməkdədir... Akademik Həsən Əliyev adına Zəngəzur Milli Parkında keçirilən biomüxtəlifliyin monitorinqi nadir və nəsli kəsilməkdə olan növlərin artım dinamikasında baş verən müsbət meyilləri göstərir... Bütün bu faktlar Naxçıvan Muxtar Respublikasında Sizin tərəfinizdən həyata keçirilən təbiəti mühafizə siyasətinin düzgünlüyünü bir daha təsdiq edir".[520]

Muxtar respublika təbiətinin zənginliyi həm də burada nadir bitki və heyvan növlərinin mövcudluğu ilə ölçülür. AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun əməkdaşları muxtar respublika ərazisində nadir bitki və heyvan növlərini müəyyənləşdirmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 15 avqust tarixli Sərəncamına əsasən ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının flora və faunasına dair iki cilddən ibarət "Qırmızı kitab" çap edilmişdir. Bu da sayı azalmaqda olan növlərin mühafizə edilməsi və artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

### 3.4.8. Əhalinin sosial müdafiəsinin təmin edilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə görülən işlər, həyata keçirilən tədbirlər əhalinin sosial problemlərinin həll edilməsinə kömək etmişdir. Əhalinin işlə təminatı sahəsində əməli addımlar atılmağa başlanılmış, sənaye müəssisələrinin bərpası sayəsində minlərlə yeni iş yerləri açılmışdır. Əhalinin pul gəlirləri, işçilərin orta aylıq əməkhaqqı və müavinətlər durmadan artmışdır. Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın müxtəlif sahələri üzrə muzdla işləyənlərin

[520] "Şərq qapısı" qəzeti, 2014, 5 iyun

orta aylıq əməkhaqqı 1998-ci ildə 163,2 manat təşkil etmişdi ki, bu da 1995-ci ildəki müvafiq göstəricidən 83,7 manat və ya 2,1 dəfə yüksək idi. 2005-ci ildə sənayedə işləyənlərin nominal əmək haqqı 221 manat, tikintidə 210,9 manat, rabitədə 220,2 manat təşkil etmişdi ki, bu da 1995-ci ildəkindən 2,2 dəfə yüksək idi. 2005-ci ildə 2000-ci ilə nisbətən əhalinin nominal pul gəlirləri 2,7 dəfə, adambaşına düşən pul gəliri isə 2,6 dəfə artmışdı.[521] Əhalinin real gəlirlərinin artmasını belə bir göstərici də sübut edir ki, 1995-ci ildə əhalinin istifadəsində 11760 ədəd avtomobil var idisə, 2001-ci ildə şəxsi avtomobillərin sayı 17 min, 2014-cü ildə isə 38541 ədəd olmuşdur. Görülən məqsədyönlü tədbirlər əhalinin rifahının və gəlirlərinin yüksəlməsinə səbəb olmuşdur. 2009-cu ildə bir işçiyə hesablanmış orta aylıq əmək haqqının məbləği 2008-ci ilə nisbətən 15,8 faiz çox olmuşdur. 2010-cu ildə orta aylıq əməkhaqqının məbləği 303 manat olmuşdu. Ümumiyyətlə, 1994-cü illə müqayisədə 2009-cu ildə əhali gəlirlərinin həcmi 36 dəfə artaraq 25,6 milyon manatdan 913,4 milyon manata çatmışdır.[522]

Əhalinin tələbatını ödəmək üçün 2010-cu ildə muxtar respublikada 108 növdə, 319 çeşiddə ərzaq, 184 növdə, 461 çeşiddə qeyri-ərzaq olmaqla, cəmi 292 növdə, 780 çeşiddə məhsul istehsal olunmuşdur.[523]

İstehsal olunan 89 növdə ərzaq, 158 növdə qeyri-ərzaq olmaqla, cəmi 247 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilmişdir. Bu gün isə muxtar respublikada 352 növdə məhsul istehsal olunur, 107 növdə ərzaq, 229 növdə qeyri-ərzaq məhsulları olmaqla, ümumilikdə, 336 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir.[524]

---

[521] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, s. 65

[522] 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2010, s.26

[523] "Şərq qapısı" qəzeti, 2011, 29 yanvar

[524] Yenə orada, 2014, 16 dekabr



Muxtar respublika üzrə iqtisadi sahədə əldə edilmiş inkişaf meyilləri əhalinin rifah halının da yüksəlməsinə səbəb olmuşdur. Belə ki, 2003-cü ildə muxtar respublikada əhalinin gəlirləri 1993-cü ilə nisbətən 10,5 dəfə artaraq 170397 min manata, onun hər bir nəfərə düşən həcmi isə 9 dəfəlik artımla 458 manata çatmışdır.[525] Sonrakı illərdə əhali gəlirləri daha da artmışdır. 2010-cu ilə nisbətən 2011-ci ildə əhali gəlirlərinin həcmi 44 faiz artaraq 1446 milyon manat təşkil etmişdir.[526] Əhali gəlirlərinin həcminin artmasına "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa edilmiş dəyişikliklər də öz təsirini göstərmişdir. Həmin dəyişikliklərə əsasən muxtar respublika ərazisində 2010-cu il yanvarın 1-dən pensiyaya çıxmış şəxslərdən 80 faizinin pensiyalarının məbləği orta hesabla 40 faizədək artmışdır. Bir işçiyə orta aylıq əməkhaqqının məbləği isə 13 faiz artaraq 341 manat olmuşdur. Minimum əməkhaqqının və müxtəlif sahələrdə çalışan işçilərin əməkdaşlarının 10 faiz artması da əhali gəlirlərinə müsbət təsir göstərmişdir. Yeni istehsal və xidmət sahələrinin yaradılması da öz təsirini göstərmişdir. 2013-cü ildə muxtar respublikada əhalinin gəlirləri 2012-ci ilə nisbətən 7 faiz artmış və 1737 milyon manatdan çox olmuşdur.[527] Əhali gəlirləri üzrə müsbət dinamika davam etməkdədir. 2015-ci ilin yanvar-aprel aylarında muxtar respublikada əhalinin gəlirləri 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz artaraq 466985 min manat, onun hər bir nəfərə düşən həcmi isə 3,2 faiz yüksələrək 1060,4 manat təşkil etmişdir.[528] Qeyd olunan dövrdə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 392,2 manat təşkil etmiş və bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,7 faiz artmışdır.

---

[525] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB. 2014, s.73

[526] 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.15

[527] 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2014, s.16

[528] "Şərq qapısı" qəzeti, 2015, 21 may

Muxtar respublika iqtisadiyyatında əldə olunmuş sabit artım tempi səmərəli məşğulluğun təşkili və yeni iş yerlərinin yaradılması üçün də əlverişli mühit formalaşdırmışdır. 1993-cü ildən 2003-cü ilin sonunadək olan dövr ərzində muxtar respublikada 21851 yeni iş yeri yaradılmışdır ki, bunun da 11377-si və ya 52,1 faizi daimi iş yerləridir. 2000-2005-ci illər ərzində məşğulluq mərkəzləri tərəfindən 6915 nəfər işlə təmin olunmuşdur.[529] Sonrakı illərdə bu məsələyə daha böyük diqqət yetirilmişdir. 2006-cı ildə 8044 yeni iş yeri, 2007-ci ildə 5827, 2008-ci ildə 6434, 2009-cu ildə 4742, 2010-cu ildə 3556 yeni iş yerləri açılmışdır. Ümumiyyətlə, 1995-2010-cu illərdə 64 mindən çox yeni iş yeri yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 30 may 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" müvəffəqiyyətlə yerinə yetirilmişdir. 2003-2013-cü illərdə 58460 yeni iş yeri açılmışdır.[530] İqtisadi fəal əhalinin sayı 24,7 faiz, məşğul əhalinin sayı isə 30,1 faiz artmışdır. 2014-cü ildə 3805 iş yeri açılmışdır ki, bunun da 97,5 faizi və ya 3709-u daimi iş yerləridir.

Muxtar respublika sakinlərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, içməli su ilə təchizatı məsələsinə də xüsusi əhəmiyyət verilmişdir. Bu illərdə muxtar respublikanın əhalisi 70 min nəfər artmışdır. 2003-2013-cü illərdə əhalinin sayı 57,7 min nəfər artaraq 2013-cü il iyulun 1-nə 431618 nəfər olmuş, ömür uzunluğu 4,5 yaş artaraq 75,9 yaşa çatmışdır. Hazırda Naxçıvan Muxtar Respublikasının əhalisi 441 min nəfərdən çoxdur. 1991-2000-ci illərdə muxtar respublikada 152,9 min kv metr mənzil sahəsi tikilmişdi. 2007-ci ildə muxtar respublika əhalisi 66,6 min kv metr yaşayış evləri inşa etmişdir. 2011-ci ildə əhalinin şəxsi vəsaiti hesabına ümumilikdə 339468 kv metr yaşayış sahəsi

[529] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, s. 65

[530] Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, s.10



tikilmişdir ki, bu da 2010-cu illə müqayisədə 80054 kv metr və ya 31 faiz çoxdur.[531] Ümumiyyətlə 2003-2013-cü illərdə 1451 min kvadratmetr olan yeni evlər inşa edilmişdir.[532] Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 36 mənzilli yaşayış binası və 116 fərdi ev tikilmişdir. Böyük Vətən müharibəsi veteranları, Qarabağ müharibəsi və Çernobıl əlillərinə 429 minik avtomobili verilmişdir.

Son illərdə inzibati, sosial və yaşayış binalarının təmirinə, yenidən qurulmasına, su, istilik və kanalizasiya sistemlərinin dəyişdirilməsinə və çəkilməsinə çox böyük diqqət yetirilir. 2003-cü ildə dövlət, ictimai və mənzil-tikinti kooperativləri mənzillərinin su kəməri ilə təminatı 94 faiz, mərkəzi istilik sistemləri ilə təminatı 81,1 faiz, qaz kəməri ilə təminatı 92 faiz, kanalizasiya ilə təminatı 91,2 faiz olmuşdur.

Naxçıvan Muxtar Respublikasının, onun şəhər, qəsəbə və kəndlərinin böyük əksəriyyətinin su sistemi tamamilə yenidən qurulmuş, əsaslı təmir işləri görülmüşdür. Şərur-Naxçıvan su kəməri bərpa edilmiş, Naxçıvan şəhərinə yeni su xətti çəkilmiş, Ordubad şəhərinin su xətti bərpa edilmişdir. Onlarla kəndə (Nehrəm, Sirab, Bənəniyar, Qarababa, Göydərə, Əlincə, Xoşkeşin, Xanəgah, Ərəfsə, Əylis, Düylün və b.) içməli su xətti çəkilmişdir. 1993-2001-ci illərdə rayonlarda 32 su nasos stansiyası tikilmiş, çoxlu sayda subartezian quyuları qazılmışdır. Əhalinin içməli suya və suvarma suyuna tələbatını ödəmək üçün son illərdə 148 nasos stansiyası qurulmuş, 331 subartezian quyusu qazılmışdır. 2000-2005-ci illərdə Şərur, Babək, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonunun 18 kəndinə (Tənənəm, Qaraxanbəyli, Çalxanqala, Qabıllı, Parağa, Dəstə, Zeyvə, Aşağı Yaycı, Bulqan, Tumbul, Qarabağlar, Yuxarı Əylis və s.) içməli su xətləri çəkilmiş, kəhrizlər bərpa edilmişdir. 2009-cu il ərzində 14 nasos stansiyası, 22 subartezian quyusu və 22 kəhriz istifadəyə

[531] 2011-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2012, s.16

[532] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.11

verilmişdir. Naxçıvan şəhərində Su anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilmiş, 1 yanvar 2015-ci il tarixə Naxçıvan şəhərində 214 kilometr məsafədə kanalizasiya və 224,4 kilometr məsafədə içməli su xətləri çəkilmişdir.[533] Bundan əlavə rayon mərkəzləri və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya şəbəkələrinin tikintisi layihələri üzrə, ümumilikdə, 542 kilometr məsafədə içməli su və 331 kilometr məsafədə kanalizasiya xətləri çəkilmişdir.

Muxtar respublika əhalisinin sosial müdafiəsi və təminatına çəkilən xərclər 55,1 dəfə artmışdır. Əhalinin gəlirləri 9,5 dəfə, əməkhaqqı 9,5 dəfə yüksəlmişdir. Onların əmanətləri 17,1 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 35,1 faizdən 4,5 faizə, yoxsul əhalinin sayı 6,8 dəfə azalmışdır.

Muxtar respublikada pensiyaçı və müharibə əlillərinin, şəhid və aztəminatlı ailələrin sosial müdafiəsinə diqqət xeyli artırılmışdır. 2000-ci ildə muxtar respublikada 52254 pensiyaçı var idi. Onlar hər cür diqqət və qayğı ilə əhatə olunmuş, aztəminatlı və sosial müdafiəyə ehtiyacı olan vətəndaşlara da qayğı göstərilmişdir. Əvvəlki illərdə olduğu kimi, 2009-cu ildə də müharibə və hərbi əlillərdən, veteranlardan 50 nəfərinə avtomobil, 152 nəfərə isə müxtəlif sanatoriya və pansionatlara göndəriş verilmişdir. 2009-cu ildə ailələrə 3447 min manatdan artıq ünvanlı dövlət sosial yardımı ödənilmişdir.[534] Ünvanlı dövlət sosial yardımının verilməsinə başlanılmış 2006-cı ildən 2013-cü ilin sonuna olan dövr ərzində muxtar respublikada hər bir nəfərə düşən aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə 22331 min manatdan çox ünvanlı dövlət sosial yardımı ödənilmişdir.[535] 2014-cü ildə isə 34430 min manat olmuşdur. Ünvanlı dövlət sosial yardımı alanların sayı ümumi əhalinin 2,7 faizini təşkil etmişdir.

[533] "Şərq qapısı" qəzeti, 2015, 22 yanvar

[534] 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2010, s.35

[535] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.101.



**Səhiyyə.** Son 20 ildə muxtar respublikada bütün sahələr öz dinamik yüksəlişi ilə diqqəti cəlb edir. Belə sahələrdən biri də səhiyyə sistemidir. Səhiyyə sisteminin yenidən qurulmasını, əhalinin sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları muxtar respublikada uğurla həyata keçirilir. 1996-cı ildən başlayaraq muxtar respublikanın sosial-iqtisadi həyatında baş verən müsbət irəliləyişlər səhiyyə sisteminin fəaliyyətinə də təsir göstərmiş və əhaliyə göstərilən tibbi xidməti yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirilmişdir.

Səhiyyənin inkişafı, insanların sağlamlığının qorunması ilk növbədə müasir tələblərə cavab verən, lazımi maddi-texniki imkanları və ixtisaslı həkimləri olan səhiyyə müəssisələrinin olmasıdır. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər görülmüş, müasir tibb mərkəzləri, xəstəxanalar, ambulatoriyalar, dispanserlər, feldşer-mama məntəqələri və digər xarakterli səhiyyə müəssisələri tikilmiş, yaxud yenidən qurulmuş və təmir olunmuşdur. 1995-2015-ci illərdə muxtar respublikada 230 səhiyyə obyekti tikilərək, yaxud yenidən qurularaq istifadəyə verilmişdir. Bu illərdə Naxçıvan Muxtar Respublikasında Duzdağ Fizioterapiya Mərkəzi, Doğum Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi, Onkoloji Mərkəz, Əlillərin Bərpa Mərkəzi, Uşaq Bərpa Mərkəzi, Kardioloji Mərkəz, Yoluxucu Xəstəliklər Mərkəzi, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayon Mərkəzi xəstəxanaları, Ə.Əliyev adına Naxçıvan MR Mərkəzi Uşaq Xəstəxanası, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası və ümumilikdə 175 səhiyyə obyektinin tikintisi, 52 səhiyyə obyektinin isə yenidən qurulması və ya əsaslı təmiri başa çatdırılıb.[536] 1995-2000-ci illərdə 21 səhiyyə müəssisəsi əsaslı şəkildə təmir edilərək istifadəyə verilmişdir. 2013-cü ildə isə 22 səhiyyə müəssisəsi tikilmiş və yenidən qurulmuşdur.[537]

[536] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB. 2014, s.146-147

[537] "Şərq qapısı" qəzeti, 2014, 17 yanvar

1994-97-ci illərdə ABŞ-ın "AMOKO" şirkəti ilə "Amerikez" xeyriyyə cəmiyyəti Naxçıvan Muxtar Respublikasında yoluxucu xəstəliklərə qarşı planlı "Soyuq zəncir" adlı immunlaşdırma proqramı həyata keçirmişlər. İmmunlaşdırma proqramı sayəsində muxtar respublikada difteriya, poliomelit, göyöskürək xəstəliklərinin və idarə olunan digər yoluxucu xəstəliklərin miqdarı kəskin surətdə azaldı. 1998-ci ildən vərəm xəstəliyinə qarşı mübarizəni gücləndirmək məqsədilə "AMOKO" neft şirkəti ilə "Amerikez" xeyriyyə cəmiyyəti vasitəsilə 110 min doza tuberkulin şirəsi Naxçıvana gətirildi. Bundan başqa həmin il Türkiyə Cümhuriyyətinin Naxçıvandakı Baş Konsulluğunun vasitəsi ilə 50 min doza tuberkulin, 1999-cu ildə isə 30 min ABŞ dolları dəyərində vərəmə qarşı spesifik dərman preparatları alındı. 1998-ci ildə 80 min nəfərdən artıq 1-17 yaşadək uşaqlara tuberkulin sınağı aparıldı.

1998-ci ildə Şərur rayonunda ilk dəfə olaraq "Əfsanə" özəl müayinə və diaqnostika müəssisəsi açıldı. 1999-cu ilin noyabrında Naxçıvan şəhərində "Şəfa" özəl sağlamlıq ocağı-xəstəxana fəaliyyətə başladı. Zərifə Əliyeva adına Naxçıvan şəhər poliklinikası, onkoloji və nevroloji dispanserlər, şəhər xəstəxanası əsaslı təmir olunmuş, bu müalicə ocaqları müasir diaqnostik və digər avadanlıqlarla təmin olunmuşdur. Xəstəxanalar kompleksinə tranzit elektrik xətti çəkilmiş, bütün xəstəxanalar mərkəzləşmiş istilik sisteminə qoşulmuşdur.

Ölkə Prezidenti Heydər Əliyev prezidentin ehtiyat fondundan 700 min manat vəsait ayırmış, ən müasir rentgen aparatı alınaraq quraşdırılmışdır. Respublika xəstəxanasında hemodializ aparatı qurulmuş, ultrasəslə müayinə kabineti yaradılmışdır. Rayon mərkəzi xəstəxanalarına ən müasir ultrasəs tibbi müayinə aparatı, avadanlıqlar, təcili yardım maşını verilmişdir. Muxtar respublikanın iri yaşayış yerlərində, kənd və qəsəbələrində xəstəxanalar, əksər kəndlərində isə feldşer-mama məntəqələri yaradılmışdır.



2001-2005-ci illərdə muxtar respublikada Özəl Tibb Mərkəzi, Gigiyena və Epidemiologiya Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanseri, "İmplant-dent" Stomatoloji Klinikası, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsi üçün tədris binası və xəstəxana tikilmiş və ya əsaslı surətdə yenidən qurularaq istifadəyə verilmişdir. Ümumiyyətlə, 2001-2005-ci illərdə 48 səhiyyə obyekti tikilmiş, 35 səhiyyə obyekti əsaslı təmir olunmuşdur.[538]

2001-ci ildə tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması məqsədilə kardioloji, endokrinoloji, dəri-zöhrəvi dispanseri, göz xəstəxanası tibb şəhərciyinə, vərəm əleyhinə dispanser isə yeni təmir edilmiş binaya köçürülmüşdür. Naxçıvan MR Narkoloji dispanserinə alkometr aparatı, Respublika Göz xəstəxanasına oftolmoloji mikroskop alınmış, 2002-2003-cü illərdə yeni cihaz və avadanlıqların alınması davam etdirilmiş, Respublika xəstəxanasına USM aparatı, 2 dializ, 1 kompyuter tomoqraf, 2 ədəd rentgen aparatı alınmış və quraşdırılmış, Naftalanla müalicə şöbəsi yaradılmışdır. 15 ədəd QAZEL tipli avtomaşınlar alınmış, tibb müəssisələrinə verilmişdir.

2005-ci ildə Darıdağ arsenli su müalicəxanası üçün yeni bina tikilib istifadəyə verilmiş, avadanlıqlarla təchiz edilmişdir. Muxtar respublikanın tibb müəssisələrinə 20 ədəd sanitar avtomobili verilmişdir. Ağciyər xəstəlikləri dispanserinə səyyar flüoroterapiya aparatı, laboratoriya alətləri verilmişdir.

Dövlət başçısı İlham Əliyevin himayəsi ilə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin istifadəyə verilməsi səhiyyəyə göstərilən qayğının nəticəsidir. 2014-cü ildə də muxtar respublikada səhiyyənin inkişafı diqqətdə saxlanılıb. Yenidən qurulması davam etdirilən Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması məqsədilə ölkə başçısı İlham Əliyevin 2014-cü il 11 aprel tarixli Sərəncamı ilə 2014-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat

[538] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, s.171

fondundan Naxçıvan MR Nazirlər Kabinetinə 9 milyon manat vəsait ayrılıb.[539] Bütün göstərilən faktlar onu deməyə əsas verir ki, Azərbaycanda, o cümlədən Naxçıvanda səhiyyə sektorunun inkişafı ilə bağlı aparılan davamlı və kompleks islahatlar ulu öndərin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.

2006-cı ildə səhiyyə müəssisələrinin əsaslı təmiri və tikintisi davam etdirilmiş, bir müalicə və diaqnostika mərkəzi, bir xəstəxana, kəndlərdə 11 həkim ambulatoriyası, 2 feldşer-mama məntəqəsi tkilmiş, 2 xəstəxana əsaslı şəkildə yenidən qurulmuşdur.[540] Ambulatoriya, hemodializ aparatı, "Dopler" aparatı və başqa avadanlıqlar alınaraq səhiyyə müəssisələrinə verilmişdir. Onlarla kənddə (Tənənəm, Xıncab, Bənəniyar, Qaraqala, Mahmudoba və b.) feldşer-mama məntəqəsi yaradılmış, avadanlıqlarla təchiz edilmişdir.

1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkədə səhiyyənin qanunvericilik bazası təkmilləşdirilmiş, tibb müəssisələrinin ən yeni texnologiyalarla təmin edilməsi ön plana çəkilmişdir. Bu proses Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirilmişdir. Son altı ilə nəzər salsaq görərik ki (2009-2015-ci illər), dövlət büdcəsinin cari xərclərində səhiyyə xərcləri 70 faizədək artmışdır. 2010-cu ildə səhiyyəyə dövlət büdcəsindən ayrılan xərclər 429,2 milyon, 2011-ci ildə 493,4 milyon, 2012-ci ildə 725,6 milyon, 2013-cü ildə 669,2 milyon, 2014-cü ildə 725,6 milyon manat artmışdır. Səhiyyə xərcləri üçün 2015-ci ilin dövlət büdcəsində 777,7 milyon manat,[541] 2014-cü illə müqayisədə 52,1 milyon manat və ya 24,6 faiz çox vəsait ayrılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yüksək diqqət və qayğısı nəticəsində səhiyyə sistemində həyata

[539] "Azərbaycan" qəzeti, 2014, 12 aprel
[540] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, s. 41
[541] "Azərbaycan" qəzeti, 2015, 17 iyun



keçirilən islahatlar özünün keyfiyyətcə yeni mərhələsinə yüksəlmişdir. Əhalinin sağlamlığının qorunması, səhiyyə xidməti səviyyəsinin daha da yaxşılaşdırılması, yeni səhiyyə müəssisələrinin istifadəyə verilməsi muxtar respublikada uğurla həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biridir. Tikilən yeni xəstəxanaların, həkim anbulatoriyalarının, feldşer-mama məntəqələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi əhalinin sağlamlığının qorunması işində əsaslı dönüş yaratmışdır. Səhiyyə müəssisələrində keyfiyyətli dərman və tibbi preparatlarla təchizat yaxşılaşdırılmış, ixtisaslı kadrların hazırlanması, əhali arasında yoluxucu xəstəliklərin profilaktikası, ana və uşaqların, ahıl vətəndaşların sağlamlıqlarının qorunması prioritet məsələyə çevrilmişdir.

Naxçıvan səhiyyəsinin intensiv inkişaf dövrü kimi xarakterizə olunan 1995-2015-ci illərdə istifadəyə verilən səhiyyə müəssisələri bütün yaşayış məntəqələrini əhatə etmişdir. Ölkədə ilk dəfə olaraq pullu tibbi xidmətin məhz muxtar respublikada ləğv edilməsi, əhalinin sağlamlığının qorunması istiqamətində həyata keçirilən mühüm islahatlar öz faydasını verməkdədir.

Ötən müddətdə səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yeniləşdirilməsi diqqət mərkəzində saxlanılmış, dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsaitlərin ildən-ilə artırılması tibb müəssisələrinin fəaliyyətinin, ümumilikdə, tibb xidmətinin səviyyəsinin yüksəldilməsinə səbəb olmuşdur.

Muxtar respublikada 56 xəstəxana, 5 poliklinika, 49 ambulatoriya, 123 feldşer-mama məntəqəsi, 8 gigiyena və epidemiologiya mərkəzi, 5 təcili-tibbi yardım köməkçi stansiyası, 62 aptek və aptek məntəqəsi vardır. Tibb xidməti müəssisələrində 762 həkim, 2891 orta tibb işçisi çalışır.[542] Əhalinin hər 10 min nəfərinə 102 xəstəxana çarpayısı, 19 həkim, 80 orta tibb işçisi düşür. Xəstəxana çarpayılarının 24,4 faizi kəndlərdə, 75,6 faizi şəhər və rayonların mərkəzlərindədir.

[542] "Şərq qapısı" qəzeti, 2013, 18 yanvar

Səhiyyə sahəsinə göstərilən qayğı sonrakı illərdə də davam etmişdir. Bunun nəticəsidir ki, muxtar respublikada Doğum Mərkəzi, Onkoloji Mərkəz, Psixi Xəstəliklər Dispanseri, Yoluxucu Xəstəliklər Mərkəzi tikilib istifadəyə verilmişdir. Bu səhiyyə müəssisələri içərisində öz möhtəşəmliyi və gözəlliyi ilə diqqəti cəlb edən Doğum Mərkəzinin binasıdır. Ölkə başçısı İlham Əliyev binanın açılış mərasimində iştirak etmişdir. Bu mərkəzdəki şöbələr, kabinələr, kabinetlər, əməliyyat otaqları dünya standartları səviyyəsində qurulmuşdur. Son 15 ildə 173 səhiyyə obyektinin istifadəyə verilməsi[543] səhiyyənin inkişaf səviyyəsi haqqında hər şeyi deyir.

Naxçıvan Muxtar Respublikasında səhiyyə sahəsində dövlət siyasətinin mühüm bir istiqaməti də yüksək ixtisaslı həkim briqadalarının muxtar respublikaya gətirilməsi və xüsusilə aztəminatlı ailələrdən olan xəstələrin dövlət vəsaiti hesabına müayinəsinin və cərrahiyyə əməliyyatlarının təşkilidir. Bunun üçün muxtar respublikada hər cür şərait yaradılmış, ən müasir cihaz və avadanlıqlarla təchiz edilmiş Müalicə və Diaqnostika Mərkəzi istifadəyə verilmişdir. Türkiyə Cümhuriyyətindən və Bakı şəhərindən Mərkəzi Neftçilər xəstəxanasının həkim və orta tibb işçiləri Naxçıvana gəlir, xəstələrin müayinə və müalicəsində iştirak edirlər. Təkcə 2013-cü ildə yüksəkixtisaslı həkim heyəti tərəfindən, ümumilikdə, muxtar respublikada 319 cərrahi əməliyyat, o cümlədən 67 xəstədə açıq ürək, 7 xəstədə periferik damar, 77 xəstədə angioqrafiya, 75 xəstədə göz və 64 xəstədə müxtəlif əməliyyatlar aparılmışdır.[544]

Tibb işçilərinin peşə səviyyələrinin artırılmasına həmişə diqqət yetirilmişdir. Bu məqsədlə 2014-cü ilin birinci yarısında Bakı şəhərinə, Türkiyə Cümhuriyyətinə təkmilləşdirmə kurslarına göndərişlər davam etdirilmişdir. 30 həkim, 8 orta tibb işçisi Türkiyə Cümhuriyyətinin müxtəlif xəstəxanalarına, 28 həkim,

[543] Həbibbəyli İ., Hacıyev İ., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB, 2014, s. 115

[544] "Şərq qapısı" qəzeti, 2014, 05 aprel



1 orta tibb işçisi Bakı şəhərinə, 203 orta tibb işçisi Naxçıvan Tibb Kollecinə təkmilləşdirmə kursuna göndərilmişdir.

Ölkə Prezidendi cənab İlham Əliyevin əhalinin kütləvi tibbi müayinədən keçirilməsi barədə verdiyi tapşırığa əsasən, muxtar respublikanın səhiyyə müəssisələri xüsusi iş rejimində fəaliyyət göstərir. 2014-cü ilin fevral ayında başlanan kütləvi müayinələr zamanı muxtar respublikada 273555 vətəndaş tibbi müayinədən keçirilmişdir.[545]

Ümumiyyətlə, muxtar respublikada səhiyyə sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və bu sahədə aparılan islahatlar əhalinin sağlamlığının etibarlı qorunmasına şərait yaratmışdır.

### 3.4.9. Beynəlxalq əlaqələrin inkişafı

Naxçıvan Muxtar Respublikası müstəqillik illərində bütün sahələrdə olduğu kimi, beynəlxalq əlaqələrin, xüsusilə də xarici iqtisadi əlaqələrin genişlənməsində mühüm nailiyyətlər əldə etdi.

Türkiyə Cümhuriyyəti ilə birgə "Ümid körpüsü"nün tikilib istifadəyə verilməsi, muxtar respublika ilə Türkiyə və İran arasında üç gömrükxananın və keçid məntəqələrinin yaradılması əlaqələrin genişlənməsinə əsaslı təsir göstərdi. Həmin ölkələrdən Naxçıvan Muxtar Respublikasına yüksək gərginlikli elektrik xətləri sistemi qoşulmuş və enerji nəql olunması təmin edilmişdir. Cənubi Koreyanın "DEU Telekom" şirkəti ilə bağlanmış müqaviləyə əsasən muxtar respublikanın bütün yaşayış məntəqələri telefonlaşdırılmış və abonentlər birbaşa beynəlxalq telefon rabitəsi sisteminə çıxmaq imkanı əldə etmişlər.

XX əsrin 90-cı illərinin əvvəllərində Naxçıvan Muxtar Respublikasının xarici əlaqələri daha çox qonşu dövlətlərin muxtar respublikaya humanitar və digər yardımları formasında inkişaf edirdisə, 1995-ci ildən başlayaraq bu əlaqələr praktiki xarakter almış, Naxçıvana xarici investisiyalar daxil olmağa,

[545] Şərq qapısı" qəzeti, 2014, 05 aprel

birgə layihələr həyata keçirməyə başlanmışdı. Muxtar respublikada iqtisadi əlaqələrin inkişafı da müsbət təsir göstərirdi. 1995-ci ilin payızında o vaxt Muxtar Respublika Baş nazirinin xarici iqtisadi əlaqələr üzrə birinci müavini işləyən Vasif Talıbovun rəhbərliyi ilə Türkiyənin müvafiq şirkətləri ilə işgüzar əlaqələr öz nəticəsini vermiş, Türkiyənin "Tekel" firması ilə Muxtar Respublikanın Nazirlər Kabineti arasında bağlanmış protokola əsasən emal müəssisələrində mövcud olan 400 min dekalitr susuz spirt hesabı ilə xam və konyak məhsullarının kənara satılması haqqında razılığa gəlinmişdir.

Vasif Talıbovun Ali Məclisin sədri kimi ilk rəsmi səfəri 1996-cı il martın 12-17-də Türkiyə Cümhuriyyətinə oldu. V.Talıbovun səfər müddətində Türkiyənin bütün ali rəhbərliyi tərəfindən yüksək səviyyədə qəbul edilməsi dost ölkənin muxtar respublikaya olan diqqət və qayğısının sübutu oldu.

Səfər müddətində qarşılıqlı əlaqələrin konkret istiqamətləri müəyyənləşdirilmiş, Naxçıvana humanitar yardımın gücləndirilməsi, enerji probleminin həlli, şəkər zavodunun tikilməsi barədə razılıq əldə edilmişdi.[546]

V.Talıbovun Türkiyənin "Qızıl Ay" cəmiyyətində, Xarici İşlər Nazirliyinin Qafqaz idarəsindəki görüşlərində humanitar yardım imkanları, siyasi və iqtisadi əməkdaşlıq məsələləri geniş müzakirə edilmiş, türk iş adamları ilə söhbətlərdə onları Naxçıvan iqtisadiyyatının müxtəlif sahələrinə sərmayə qoymağa dəvət etmişdi. Türkiyə İş Birliyi İnkişaf Agentliyinin müdiri Umid Arıq, Türk İşçi Bankının müdiri İnal Korukçu ilə görüşlərdə muxtar respublika bank-maliyyə, telekommunikasiya sisteminin inkişafı, sənaye müəssisələrinin tikintisi və b. sahələr üçün maliyyə, texniki yardım göstərilməsi barədə razılıq əldə edilmişdi.

Türkiyə ilə iqtisadi əməkdaşlığın ən uğurlu nəticələrindən biri muxtar respublikada şəkər çuğunduru istehsalının inkişafı olmuşdur. 1992-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə bu qiymətli bitkinin istehsalına başlanmış, həmin il 290 ton məhsul, 1995-ci

[546] "Şərq qapısı" qəzeti, 1996, 25 mart



ildə 7951 ton, 2000-ci ildə 45 min ton çuğundur tədarük edilmişdir.[547] 2003-cü ildə isə rekord miqdarda – 129 min ton məhsul götürülmüşdür.[548] Xammal əsasən Türkiyənin Ağrı və İranın Xoy şəkər zavodlarına göndərilir, əvəzində muxtar respublikaya şəkər tozu gətirilir.

Türkiyə ilə genişlənən iqtisadi əlaqələr kənd təsərrüfatının digər sahələrinə də müsbət təsir göstərmişdir. Muxtar respublika qonşu dövlətlərdən toxum, mineral gübrə, səpin aqreqatları, sudartan nasoslar, traktor və kombaynlar almışdır.

1998-ci ildə Türkiyənin müvafiq dövlət orqanları ilə bağlanmış 35 milyard manatlıq müqavilə əsasında Alt Trikotaj Paltarları Fabrikinin işi bərpa edilmiş və 500 adam burada işlə təmin edilmişdir.[549] Naxçıvan Muxtar Respublikasında bir neçə istehsal müəssisəsinin müştərək işlədilməsinə başlanılmışdır. Litvanın elektrotexnika müəssisələrindən çoxlu avadanlıq alınmışdır. 1999-cu ildə muxtar respublikada xarici ticarət dövriyyəsi 15,2 milyon ABŞ dolları təşkil etmişdir.[550]

2000-ci ildə muxtar respublikaya xalq təsərrüfatına və əhalinin tələbatına uyğun müxtəlif texniki və istehlak təyinatlı məhsullar idxal edilmiş, buradan isə şəkər çuğunduru, qurudulmuş lobya, xammal və materiallar ixrac olunmuşdur. Bütövlükdə, 32130,7 ton mal ixrac olunmuş, 750623 ton mal isə idxal olunmuşdur.[551] Aparılan məqsədyönlü tədbirlər Naxçıvan Muxtar Respublikasının xarici ticarət dövriyyəsinin genişlənməsinə, ticarət tərəfdaşlarının artmasına səbəb olmuşdur. 2005-ci ildə muxtar respublikada fəaliyyət göstərən müəssisə və təşkilatlar, fiziki şəxslər tərəfindən xarici dövlətlərlə aparılan ticarət əməliyyatları nəticəsində 53535,6 min ABŞ dolları həcmində xarici ticarət

[547] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.169
[548] 2003-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2004, s. 28
[549] "Xalq qəzeti", 1998, 10 noyabr
[550] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s.131
[551] Yenə orada

dövriyyəsi yaranmışdır. 2004-cü ilin müvafiq dövrü ilə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 37 faiz artmışdır.[552]

Ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışından sonra İran-Azərbaycan əlaqələrində dönüş baş verdi. Onun İran İslam Respublikasının ali rəhbərləri ilə müntəzəm görüşləri, qarşılqlı səfərlər bu əlaqələrin bərabərhüquqlu əməkdaşlıq səviyyəsinə qalxmasına səbəb oldu.

Azərbaycan – İran münasibətlərinin yaxşılaşması Naxçıvan – İran əlaqələrinin də inkişafına təkan verdi. Bu istiqamətdə mühüm addım 1994-cü ilin fevralında Naxçıvanda İran İslam Respublikası Baş Konsulluğunun açılması oldu. Açılış mərasimində İran İslam Respublikasının xarici işlər nazirinin müavini M.Vaizi, İranın Azərbaycandakı səfiri Nahavəndiyan, Azərbaycan Xarici İşlər Nazirliyinin rəhbərləri iştirak etmişdilər. Konsulluğun açılışı İran-Naxçıvan iqtisadi, mədəni əlaqələrinin inkişafına, gediş-gəliş, viza məsələlərinin operativ həllinə şərait yaratdı.

Azərbaycan – İran, Naxçıvan – İran əlaqələrinin inkişafına Azərbaycan prezidenti Heydər Əliyevin 1994-cü il 28 iyun – 2 iyul tarixində qonşu ölkəyə səfəri də mühüm təsir göstərdi. Səfərdə Heydər Əliyevi Naxçıvan Muxtar Respublikası rəhbərliyinin müşaiyət etməsi, İranın ali rəhbərliyi ilə muxtar respublikanı elektrik, qaz, nəqliyyat, ərzaq problemlərinin müzakirəsi göstərdi ki, Naxçıvanla bağlı məsələlər İran – Azərbaycan münasibətlərinin prioritet istiqamətlərindən biridir. Yüksək səviyyədə keçirilən görüşlərdə Naxçıvanın enerji problemi ən çox müzakirə olunan məsələlərdən idi.

1994-cü ildə İran parlamentinin sədri İ.Nuri, neft naziri Q.Ağazadə, sənaye naziri Ə.Nemətzadə Azərbaycanda səfərdə olarkən Naxçıvanın neft, qaz, elektrik təchizatı, eləcə də muxtar

[552] 2005-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2006, s.48



respublikaya qaz kəmərinin çəkilməsi, sement zavodunun tikilməsi ilə bağlı bir sıra razılaşmalar əldə edilmişdi.[553]

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 1996-cı ilin iyununda İran İslam Respublikasında səfərdə olmuş, ölkə rəhbərləri ilə görüşmüş, İran İslam Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında ikitərəfli əməkdaşlığın genişləndirilməsinə dair niyyət protokolu imzalanmışdı. Səfər zamanı Xoy-Naxçıvan qaz kəmərinin çəkilməsi, Naxçıvana verilən elektrik enerjisinin həcminin artırılması, İran ərazisindən yüklərin daşınması məqsədi ilə tranzit keçidin sadələşdirilməsi və s. məsələlər müzakirə edilmişdi.[554] Naxçıvan tərəfinin təklifi ilə Naxçıvan-Mərənd-Təbriz və əks istiqamətdə qatarların fəaliyyətə başlaması barədə maddə də protokola salınmışdı. 1997-ci il fevralın 9-da Naxçıvan-Təbriz qatarı fəaliyyətə başladı. Qatarın ilk sərnişinləri muxtar respublikanın rəhbərləri oldu.[555]

Niyyət protokolunun bir sıra maddələri qısa müddətdə yerinə yetirilmiş, muxtar respublikanın əhalisinə pasport verilməsi İranın baş konsulluğu tərəfindən təmin edilmiş, sərhədyanı müştərək bazarların fəaliyyəti genişləndirilmiş, muxtar respublikaya elektrik enerjisi 10 meqavat artırılmışdı.

Ali Məclisin Sədri Vasif Talıbov 1997-ci ilin fevralında İran İslam Respublikasında işgüzar səfərdə oldu. Səfər dövründə o, İran rəsmiləri – prezident Ə.Ə.Haşimi-Rəfsəncani, parlamentin sədri İ.Nuri, xarici işlər naziri Ə.Ə.Vilayəti, neft naziri Q.Ağazadə, xarici işlər nazirinin müavini Mürsəli, koordinasiya naziri Şəfai ilə görüşmüş, müzakirələr aparmış və bir sıra razılaşmalar əldə edilmişdi. Səfərin sonunda Ali Məclisin Sədri Vasif Talıbov və İran İslam Respublikasının xarici işlər nazirinin müavini M.Vaizi arasında əməkdaşlıq haqqında protokol imzalanmışdı.[556]

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikasının şimal əyalətləri ilə əlaqələrinə xüsusi diqqət yetirilirdi. Bu

[553] "Xalq qəzeti", 1994, 12 noyabr
[554] "Şərq qapısı" qəzeti, 1996, 15 iyul
[555] Yenə orada, 1997, 11 fevral
[556] Yenə orada, 1997, 22 fevral

əyalətlər arasında Şərqi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə əlaqələrinin xüsusi rolu var idi. İki tərəf arasında əməkdaşlıq haqqında bir neçə müqavilə bağlanmış, onların bir çox müddəaları yerinə yetirilmişdi.

Ali Məclisin Sədri 1997 və 1999-cu illərdə Təbrizə səfər etmiş, Şərqi Azərbaycan ostandarı isə Naxçıvanda olmuşdu. Ötən dövr ərzində Culfa gömrükxanasının iş rejimi 24 saata qədər uzadılmış, sərhəd bazarının fəaliyyəti genişlənmişdir.[557]

Şahtaxtı gömrük postunun açılması Culfa gömrükxanasında sıxlığın azalmasına, Naxçıvan Muxtar Respublikasının Şərur, Sədərək rayonlarının xarici əlaqələrdə daha da yaxından iştirakının təmin olunmasına, İranın Qərbi Azərbaycan ostandarlığı ilə əlaqələrin formalaşmasına şərait yaratmışdır.

Muxtar respublikada 1996-2000-ci illər planlı xarici ticarətin formalaşdırılması ilə səciyyələnir. Lakin bu dövrdə əhalinin istehsal sahələrinə olan marağı, dövlət tərəfindən sahibkarlığa yaradılan şərait çoxnövlü və çoxçeşidli yerli məhsul istehsalına rəvac verməkdəydi. 1996-2000-ci illərdə ixrac əməliyyatlarının əsasını şəkər çuğunduru və emal müəssisələrinin məhsulları olan xam spirt, tütün, qara metal məmulatları təşkil etmişdir.

Naxçıvanın İranla iqtisadi əlaqələrində Azərbaycan – İran dövlətlərarası müştərək komissiyası xüsusi rol oynayırdı. Komissiyada Naxçıvanla bağlı məsələlər müzakirə edilirdi. 1997-ci il noyabrın 21-də Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasında əməkdaşlığın genişləndirilməsi haqqında memorandum imzalanmışdı.[558] 1999-cu ilin iyulunda ikinci memorandum imzalanmış və onların bir sıra müddəaları öz həllini tapmışdı.

Muxtar respublikada 2001-ci ildən xarici ticarət əlaqələrində qanunvericiliyin təkmilləşməsi, gömrük işinin kompüterləşməsi, yerli sahibkarlığın nəzərə alınması və daxili bazarın qorunması, idxalın istehlak yönümlülüyünün avadanlıq və xammala

[557] "Xalq qəzeti", 1999, 24 iyun; 1999, 13 avqust
[558] "Şərq qapısı" qəzeti, 1997, 27 noyabr



dəyişdirilməsi prosesi başlanmışdır. Bu dövrdə muxtar respublika iqtisadiyyatı, ona bilavasitə təsir göstərən xarici ticarət əlaqələrilə paralel surətdə inkişaf etmişdir.

Muxtar respublikanın xarici ticarət dövriyyəsinin artan templə böyüməsi və şaxələnməsi Naxçıvanın dinamik sosial-iqtisadi inkişafı, dünyaya açılması, yerli istehsal məhsulları ilə yaxın və uzaq ölkələrin sahibkarlarının maraq dairəsinə düşməsi, yerli sahibkarlığın inkişafı ilə müstəqil iqtisadiyyatın formalaşması fonunda baş vermişdir. Məhz 2001-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 31,9 milyon ABŞ dolları olduğu halda, 8 il sonra bu göstərici 3,3 dəfə artaraq 103,7 milyon ABŞ dollarına çatmışdır.[559] İlk dəfə olaraq 2009-cu ildə xarici ticarət dövriyyəsində müsbət saldo yaranmışdır.[560]

Muxtar respublikada aparılan sənayeləşmə və ixracyönümlü məhsul istehsalı uğurlu nəticələr vermişdir. 2009-cu ildən başlayaraq ixracın həcminin idxalı üstələməsi sonrakı dövrlərdə də davam etmişdir. Kənd təsərrüfatı regionu olan Naxçıvan Muxtar Respublikasında sənaye istehsalının genişlənməsi, öz növbəsində, 2009-2015-ci illərdə ixracın da həcminin sürətlə artmasına və xarici ticarət əlaqələrinin arealının genişlənməsinə müsbət təsir göstərmişdir. Belə ki, 2009-cu ildə muxtar respublikanın xarici ticarət dövriyyəsi 220 milyon olduğu halda, 2013-cü ildə bu göstərici 2,3 dəfə artaraq 512 milyon ABŞ dolları olmuşdur. Bu dövrdə ixracın həcmi 3,6 dəfə artdığı halda, idxalın həcmi cəmi 1,7 faiz artmışdır. Bir il sonra – 2014-cü ildə isə muxtar respublikada xarici ticarət dövriyyəsinin həcmi 517427 min ABŞ dollarına çatmışdır[561] ki, bu da bir il öncəki müvafiq göstəricidən 1,1 faiz çoxdur. Xarici ticarət dövriyyəsinin 408640 min ABŞ dollarını və ya 79 faizini ixrac, 108787 min ABŞ dollarını və ya 21 faizini isə idxal təşkil etmiş və 299853 min ABŞ dolları

[559] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB. 2014, s.154
[560] Əhmədov N.H. Müstəqillik illərində Azərbaycanın xarici iqtisadi əlaqələri və onun regional problemləri. Bakı: Elm, 2012. s.305
[561] "Şərq qapısı" qəzeti, 2015, 22 yanvar

həcmində müsbət saldo yaranmışdır.[562] Son bir il ərzində ixracın həcmi 1,5 faiz artmış, idxalın həcmi isə 0,7 faiz azalmışdır. Xarici ticarət əlaqələrində iştirak edən dövlətlərin sayı beş il ərzində artaraq 45-ə çatmışdır. Özəl sektor və fiziki şəxslərin xarici ticarət dövriyyəsində payı 2009-cu ildə 90,3 faiz olduğu halda, 2013-cü ildə 80,8 faiz olmuşdur.[563]

Muxtar respublikada bazarın tənzimlənməsinə baxmayaraq, həyata keçirilən böyük quruculuq işləri idxalın həcminin çoxalması ilə dövlət büdcəsinə köçürülən gömrük ödənişlərinin artan dinamika ilə inkişafını təmin edir. Dövlət büdcəsinə toplanan gömrük rüsumu və vergilərin həcmi 1992-ci ildə 7326 manat olduğu halda, bu göstərici 2013-cü ildə 8354793 manat olmuş, 1140 dəfə artım müşahidə edilmişdir.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş muxtar respublikanın dünyanın aparıcı dövlətləri, beynəlxalq iqtisadi qurumları ilə əlaqələri 1993-cü ildən sonra çoxşaxəli istiqamət almışdı. Naxçıvan Muxtar Respublikası intensiv şəkildə dünya bazarına çıxmağa başlamışdı.

1996-cı ildə BMT-nin İP Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi problemlərinin həlli məqsədi ilə regional inkişaf planı hazırlanmışdı. Bu məqsədlə Ekspert qrupu 1997-ci ilin martında Naxçıvana gəlmiş, muxtar respublikanın rəhbərliyi ilə görüşmüşdü. Proqramda kənd yerlərində kiçik və orta müəssisələrin yaradılmasına yardım göstərilməsi, özəl fermerlərə mikrokreditlərin verilməsi nəzərdə tutulmuş, muxtar respublikaya 1.200 min ABŞ dolları kredit ayrılmışdı.[564]

1998-ci ilin sentyabrında muxtar respublikada keçirilmiş "Naxçıvan. Açıq qapı" tədbirinin təşkili muxtar respublikanın xarici ölkələrlə, beynəlxalq iqtisadi qurumlarla əlaqələrinin inkişafında xüsusi rol oynadı. BMT-nin Azərbaycandakı rezident

[562] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.15

[563] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.154-155

[564] "Azərbaycan" qəzeti, 1997, 17 may



əlaqələndiricisi Murad Ercanın başçılıq etdiyi 120 nəfərlik heyətə ölkəmizdə akreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların nümayəndələri daxil idi. Tədbirin əsas məqsədi onları muxtar respublika ilə ətraflı tanış etmək, bölgə iqtisadiyyatına investisiyaya cəlb etməkdən ibarət idi. Ali Məclisdə qonaqlara diyarın iqtisadi və mədəni həyatı barədə məlumat verilmiş, biznes qurumlarının nümayəndələrinə muxtar respublikada hansı sahələrə sərmayə qoyulmasına ehtiyac olduğu izah edilmişdi.

BMT İP çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatı ilə Naxçıvan Muxtar Respublikası hökuməti arasında 956 min dollarlıq layihə sənədi imzalanmışdı. Əsas məqsəd muxtar respublickada infrastrukturun yaradılması, yeni iş yerlərinin açılması və kənddə yaşayan imkansız ailələrə köməklik göstərilməsindən ibarət idi.

1999-cu ilin sonunda Naxçıvanda Beynəlxalq Miqrasiya Təşkilatının nümayəndəliyi yaradıldı. Əsas məqsədi muxtar respublikada miqrasiyanın qarşısını almaq olan bu təşkilat muxtar respublikada fermerlərə və iş adamlarına kreditlərin verilməsi ilə məşğul olurdu. ABŞ-ın ADRA təşkilatı da muxtar respublikada öz nümayəndəliyi vasitəsilə əhaliyə mikrokredit verirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyətinin Demokratiya Mərkəzi İnstitutunun dəvəti ilə 1997-ci ilin yayında ABŞ-a səfəri bu ölkədə Naxçıvan haqqında obyektiv məlumat yayılmasında mühüm rol oynadı. Səfər müddətində Konqresin, Senatın üzvləri ilə görüşlər keçirilmiş, Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi, Naxçıvan Muxtar Respublikasının düşdüyü vəziyyət barədə əsl həqiqət onların diqqətinə çatdırılmışdı.

Ötən dövrlərdə ABŞ-ın Azərbaycandakı səfirləri Naxçıvanda olmuş, muxtar respublikaya humanitar yardımların göstərilməsi, investisiya qoyuluşu imkanlarını nəzərdən keçirmiş, muxtar respublikanın rəhbərləri, ictimai təşkilatlarla bölgənin digər problemləri müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikasında aqrar islahatların uğurla başa çatdırılmasında beynəlxalq maliyyə təşkilatları yaxından iştirak edirdilər. Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) və Beynəlxalq Kənd Təsərrüfatının İnkişafı Fondu (BKTİF), Dünya Bankı, Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti bu işə fəal yardım göstərirdi. Dünya Bankı muxtar respublikada kəndli təsərrüfatlarının yaradılmasına 3 milyon dollar ayırmış,[565] Regional Məsləhət Mərkəzinin açılmasında iştirak etmişdi.

Naxçıvanın beynəlxalq əlaqələrində ABŞ, Avropa ölkələri ilə siyasi, iqtisadi əlaqələr getdikcə önəmli yer tutmağa başlayırdı. Həmin ölkələrin Azərbaycandakı səfirlərinin muxtar respublikaya səfərləri, muxtar respublikanın rəhbərləri ilə görüşləri artıq ənənə halını almışdır.

Naxçıvanın beynəlxalq əlaqələrinin mühüm sahəsini regionun elektrik enerjisi ilə təmin edilməsi və telekommunikasiya sisteminin modernləşdirilməsi təşkil edirdi. Kiçik həcmli SES-lərin tikilməsi üçün Fransanın "Entropose LTD", İsrailin "Betmen", Yaponiyanın "Tohoko", "Hippon Koel" şirkətlərinin nümayəndələri Naxçıvanda olmuş və araşdırmalar aparmışlar.[566] Muxtar respublikanın telekommunikasiya sistemini modernləşdirmək üçün 1996-cı ildə yerüstü peyk stansiyası quraşdırılmış, Naxçıvan-Bakı birbaşa peyk rabitəsi təşkil olunmuşdu. 1998-ci il fevralın 18-də Muxtar Respublikanın Ali Məclisində telekommunikasiya sisteminin modernləşdirilməsi barədə üçtərəfli – "DEU Telekom" (Cənubi Koreya), Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası hökumətləri arasında müqavilə imzalandı. Dəyəri 16.500 min ABŞ dolları həcmində olan müqavilə vaxtında yerinə yetirilmiş və 34.136 nömrəli yeni stansiya muxtar respublika əhalisinin telefon rabitəsinə olan ehtiyacını tam ödəmişdir.[567]

XX əsrin 90-cı illərinin ortalarından Naxçıvan Muxtar Respublikasının xarici əlaqələrinin mühüm istiqamətlərindən birini

[565] "Şərq qapısı" qəzeti, 1997, 27 mart
[566] Məmmədov M. Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər (1988-2005-ci illər). Bakı: Şirvannəşr, 2005, s.178
[567] "Xalq qəzeti", 1997, 10 oktyabr



yenə əvvəlki kimi elmi, mədəni sahələrdə əməkdaşlıq təşkil edirdi. Naxçıvanlı alimlər dünyanın bir sıra ölkələrinin elm və təhsil mərkəzləri ilə sıx əlaqələr yaradır, elmi ezamiyyətlərdə olur, konfrans və simpoziumlarda elmi məruzələrlə çıxış edirlər. ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, İtaliya, Türkiyə, Rusiya, Ukrayna, İrandan gələn alimlər Naxçıvanda keçirilən beynəlxalq simpoziumlara qatılır, elmi məruzələr edirlər. Artıq on ilə yaxındır ki, ABŞ, Fransa, Türkiyə arxeoloqları Naxçıvanda aparılan arxeoloji tədqiqatlarda iştirak edirlər. Böyük Britaniya, İtaliya, Rusiya ornitoloqları naxçıvanlı alimlərlə birgə tədqiqat işləri aparırlar. Atatürk Araşdırmalar Mərkəzi, Amerika ilə Əlaqə Mərkəzi, Amerika Beynəlxalq Tədqiqatlar və Mübadilə Mərkəzi, Fransa Elmi-Tədqiqat Mərkəzləri ilə yaradılan elmi əlaqələr hər iki tərəf üçün faydalı olmuşdur. Naxçıvanın elm və ali təhsil müəssisələri ilə onlarla xarici ölkənin elm və təhsil mərkəzləri arasında işbirliyi protokolları imzalanmışdır. Müştərək elmi tədqiqatlar, müəllim və tələbə mübadiləsi, idman və mədəni tədbirlərin keçirilməsi haqqında razılaşmalar əldə edilmiş və onlar ardıcıl olaraq yerinə yetirilmişdi.

Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələrində mədəni əlaqələrin özünəməxsus yeri vardır. Muxtar respublikanın ən iri incəsənət kollektivləri Türkiyə və İran İslam Respublikasında mədəni tədbirlərdə iştirak etmiş, maraqlı proqramlarla çıxış etmişlər. Naxçıvanlı rəssamlardan Fəxrəddin Qəhrəmanov, Telman Abdinov və b. əsərləri Türkiyənin İzmir və Qars şəhərlərində nümayiş etdirilmişdi.

Türkiyə və Naxçıvanın folklor kollektivlərinin qarşılıqlı səfərləri ənənəvi xarakter daşımışdır. "Araz", "Firuzə", Şərur yallısı, Naxçıvan Dövlət Kukla Teatrının kollektivi qonşu ölkədə Naxçıvan mədəniyyətini layiqincə təmsil etmişlər. Dost ölkənin teatr kollektivləri də öz növbəsində Naxçıvan teatrsevərləri qarşısında çıxış etmişdilər.

Naxçıvanın beynəlxalq əlaqələrində qonşu dövlətlərin sərhəd vilayətləri ilə muxtar respublika arasında yaradılan münasibətlərin və keçirilən tədbirlərin mühüm əhəmiyyəti olmuşdur.

1998-ci ilin oktyabrında İqdır şəhərində təşkil edilmiş "XXI əsrin ərəfəsində tarixə nəzər: türk-erməni münasibətləri" mövzusunda beynəlxalq simpoziumda naxçıvanlı tədqiqatçılar da iştirak və çıxış etmişlər. Həmin ilin dekabrında yenə İqdır vilayəti rəhbərlərinin də qatıldığı Türkiyə-Naxçıvan əlaqələrinin tarixi, müasir vəziyyəti, gələcək perspektivləri təhlil edilmiş, əlaqələrin daha da yaxşılaşdırılması üçün tövsiyələr irəli sürülmüşdü.

Naxçıvan Muxtar Respublikasının İran İslam Respublikası ilə, onun Naxçıvana yaxın bölgə və şəhərləri ilə elmi və mədəni əlaqələri genişlənmişdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun qonşu ölkəyə səfərləri bu əlaqələrin genişlənməsinə əsaslı təsir göstərmişdir. AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Dövlət Universitetinin İranın elmi mərkəzləri və universitetləri ilə elmi əməkdaşlığı genişlənmişdir. Naxçıvanlı alimlər İran İslam Respublikasının Tehran, Şiraz, Təbriz, Urmiya və b. şəhərlərində keçirilən beynəlxalq səviyyəli konfranslarda iştirak etmişlər. Naxçıvan Dövlət Universitetinin bir qrup tələbəsi Təbriz şəhərindəki traktor zavodunda istehsalat təcrübəsi keçmişlər. İranlı alimlər Naxçıvanda keçirilən "Nəsrəddin Tusi və müasirlik", "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan", "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" konfranslarda iştirak etmişlər.[568]

İran İslam Respublikasının "Sivilizasiyalararası dialoq" mərkəzinin 2000-ci ildə keçirdiyi musiqi festivalında rəsm və kitab sərgilərində Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin nümayəndələri də iştirak etmişdilər. İranın bir çox xeyriyyə cəmiyyətləri, xüsusən "İmam Xomeyni adına İmdad komitəsi" muxtar respublikanın imkansız təbəqələrinə, əlillərə, uşaq evlərinə humanitar yardım göstərilməsində fəal iştirak edirdilər. Öz növbəsində naxçıvanlılar da İranın Ərdəbil və Xorasanda təbii fəlakət zamanı öz din qardaşlarına mümkün köməyi əsirgəmədilər.[569]

---

[568] "Xalq qəzeti", 2001, 31 yanvar
[569] "Şərq qapısı" qəzeti, 1997, 5 mart



Naxçıvan-İran dini və mədəni əlaqələrində müqəddəs yerlərə ziyarətlərin təşkili, idman, səhiyyə əlaqələri, qadın təşkilatları, gənclər təşkilatları arasında əlaqələr də inkişaf edirdi. Ədəbi-mədəni əlaqələr nəticəsində Azərbaycan və fars dillərində naxçıvanlı şairlərin şeirlərindən ibarət antologiyalar nəşr edilmişdi.

Naxçıvan Muxtar Respublikasının beynəlxalq təşkilatlarla, xarici ölkələrlə mədəniyyət, elm, təhsil sahəsində əlaqələrin inkişafı 90-cı illərin ikinci yarısına təsadüf edir. Bu dövrdə dünyanın bir çox xeyriyyə təşkilatları Naxçıvanda öz bölmələrini açaraq, bir sıra sosial proqramlar həyata keçirməyə başlamışdılar. Bu təşkilatlar içərisində ABŞ-ın "ADRA", "Amerikares" xeyriyyə təşkilatları, Fransanın "Ekilibr", İngiltərənin "Leonard Çeşar" xeyriyyə fondları, "Beynəlxalq memorial" fondu mühüm yer tuturdu. "ADRA" təşkilatı aztəminatlı ailələrə, əlillərə müxtəlif xeyriyyə yardımı göstərmiş, "Amerikares" isə muxtar respublikada immunlaşdırma kampaniyasında iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramına uyğun olaraq BMT İP və YUNESKO tərəfindən Naxçıvanda kompüter mərkəzinin yaradılması üzrə layihə hazırlanmış və 1999-cu ilin sentyabrında Mərkəzin açılışı olmuşdu.[570]

Naxçıvan Dövlət Universitetinin Avropanın bir sıra universitetləri ilə "TEMPUS" (Ali Təhsil sahəsində "Avropa" əməkdaşlıq proqramı) xətti əlaqələri genişlənmiş, müəllim və tələbə mübadiləsi həyata keçirilmiş, Avropa elmi və təhsilin ən müasir naliyyələri ilə tanış olmuş, ingilis və fransız dili müəllimləri kurslara cəlb olunmuş və ali məktəblərdə təcrübə keçmişlər.

Xarici ölkə mütəxəssislərinə ehtiyac olan sahələr üzrə universitetdə mühazirə oxumaq üçün müəllimlər dəvət olunurdular. Amerikanın Perdu Universitetinin müəllimləri Harri Lepinski, Camal Hüseyn, Fonibi Tobias, Tobison, İngiltərənin Brayti Universitetinin müəllimi Ceyms Moklokinq müxtəlif vaxtlarda iqtisadiyyat, biznez, tibbdən mühazirə oxumuşlar. Fransa, Britaniya səfirləri, İranın Naxçıvandakı baş konsulları kitab zalları, fənn kabinələri,

---

[570] Yenə orada, 1999, 15 sentyabr

siniflərin müasir texnika ilə təchiz olunmasında iştirak etmişlər. Amerika, Fransa, Türkiyə, İran ilə mədəni əlaqələrin səviyyəsi günbəgün inkişaf edirdi. Amerika ilə Əlaqə Mərkəzi, Fransız dili və ədəbiyyatı mərkəzi bu əlaqələrin inkişafında xüsusi rol oynayırdı.

Naxçıvanın mədəniyyət xadimləri və onların təmsil olunduqları mədəniyyət kollektivləri – filarmoniya, dram teatr, musiqi və özfəaliyyət kollektivləri bir çox ölkələrdə - ABŞ-da, Rusiyada, İraqda, Fransada, Türkiyədə, İranda öz ustalıqlarını nümayiş etdirmişlər.

Beynəlxalq əlaqələrin yaradılmasında idman yarışlarının özünəməxsus yeri vardır. Naxçıvanlı idmançılar dünyanın bir sıra ölkələrində keçirilən idman yarışlarına qoşulmuş, müvəffəqiyyətlə çıxış etmişlər.

Naxçıvanda keçirilən idman yarışlarına isə xarici ölkələrin onlarla idmançısı qatılmışlar. Burada şahmatla bağlı keçirilən və bir növ ənənə şəklini almış Beynəlxalq şahmat və güləş yarışları ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilir. 2015-ci ildə keçirilmiş bu idman yarışında 13 ölkədən 360 nəfər şahmatçı iştirak etmişdir.[571] Bu yarışlar naxçıvanlı şahmatçılardan beynəlxalq qrossmeyster, beynəlxalq dərəcəli hakim və FİDE ustası yetişməsinə imkan vermişdir.

Muxtar respublikanın gənclər təşkilatlarının, qadın cəmiyyətlərinin beynəlxalq əlaqələri də intensiv xarakter almışdır. Naxçıvanlı gənclər Lissabonda keçirilmiş dünya gənclər festivalında, qadınlar isə Qadınların Beynəlxalq Pekin Konfransında iştirak etmişlər.

Naxçıvan Muxtar Respublikasının beynəlxalq və xarici iqtisadi əlaqələri ildən-ilə artır, dərinləşir və onun coğrafiyası genişlənir. Şərqlə-Qərbi birləşdirən tarixi Böyük İpək Yolunun bərpası beynəlxalq əlaqələr sahəsində Naxçıvan Muxtar Respublikasının rol və əhəmiyyətini artıracaq və bu əlaqələrdən bəhrələnmək üçün yeni imkanlar yaranacaqdır.

---

[571] "Şərq qapısı" qəzeti, 2015, 3 may



# IV FƏSİL

# NAXÇIVAN MƏDƏNİYYƏTİ MÜSTƏQİLLİK İLLƏRDİNDƏ

## 4.1.Təhsil

Təhsil hər bir millətin gələcəyini müəyyən edir. Millət təhsillə irəli gedir, milli şüuru artır, intellektual potensialı yüksəlir. Dünyanın inkişaf etmiş ölkələrinin tarixi təcrübəsi təsdiq edir ki, təhsilə böyük əhəmiyyət vermiş hər hansı millət daha çox inkişaf etmiş, irəli getmiş hesab olunur.

Xalqların və dövlətlərin sürətli inkişaf yolu təhsildən keçir. Təsadüfi deyildir ki, hələ vaxtı ilə ulu öndər Heydər Əliyev cəmiyyət həyatında təhsilin rolunu yüksək qiymətləndirərək demişdir ki, təhsil millətin gələcəyidir. Ölkə Prezidenti İlham Əliyev təhsilə "Azərbaycanın gələcəyini müəyyən edən prioritet sahə" kimi yüksək dəyər vermişdir. Təhsilə, onun inkişafına xüsusi əhəmiyyət verən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 2015-ci il martın 14-də "Naxçıvan Muxtar Respublikasında elm və təhsilin vəziyyəti və qarşıda duran vəzifələr" mövzusunda keçirilən müşavirədə həmin sahələrin vəziyyətini geniş təhlil edərək demişdir: "Təhsil elə səviyyədə olmalıdır ki, o, insanlara yeni texnologiyaları çevik mənimsəmək, əmək bazarında və şəxsi həyatda layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə və cəmiyyətdə gedən proseslərə münasibətdə düzgün mövqe seçmək imkanı yaratsın".

1990-cı illərin əvvəllərindən başlayaraq muxtar respublikanın ümumtəhsil məktəbləri sistemində müəyyən dəyişikliklər baş verdi, liseylər, gimnaziyalar, kolleclər yaradıldı. Naxçıvan şəhərində Naxçıvan Qızlar Liseyi (1992), Babək rayonunun Zeynəddin kəndində Kənd təsərrüfatı təmayüllü məktəb-müəssisə kompleksi (1993), C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı fəaliyyətə başladı (1998).

1993-cü ildə yenidən hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev gənc, müstəqil Azərbaycan Respublikasının üzləşdiyi böyük çətinliklərə baxmayaraq, təhsil sahəsindəki mövqeyini xalq arasında belə bəyan etdi: "Məktəb, maarif, təhsil işi ilə həmişə sıx bağlı olmuşam. Hesab edirəm ki, cəmiyyət harada olursa-olsun, nədən olursa-olsun kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir".

Heydər Əliyev təhsilin milli tərəqqinin gerçək amilinə çevrilməsi üçün geniş islahatların həyata keçirilməsi vəzifəsini qarşıya qoydu. Bu baxımdan 1999-cu ilin iyununda imzalanmış "Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı" xüsusi əhəmiyyət kəsb edir. Belə ki, bu proqram Azərbaycanın milli təhsil sisteminin aydın strategiya və konsepsiyasını, təhsilin idarə olunmasında yeni prinsiplərin tətbiq olunmasını, onun beynəlxalq normalara uyğunlaşdırılmasını və dünya təhsil sisteminə inteqrasiyasının sürətləndirilməsini özündə əks etdirir. İslahat proqramının tələblərinin yerinə yetirilməsinin təmin olunması, onun səmərəliliyinin yüksəldilməsi və təhsil sisteminin strukturunun yeniləşdirilməsi məqsədilə ulu öndər Heydər Əliyev "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun tarixində 349 nömrəli Fərman imzalamışdır. Bu fərman təhsilin inkişaf istiqamətlərini müəyyən etməklə təhsil işçilərinin fəaliyyəti üçün stimul yaratmışdır.

Ümummilli lider Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun tarixli, "Azərbaycan əlifbası, Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanları və digər qərarlar təhsilin və elmin inkişafında, milli şüurun formalaşmasında müstəsna əhəmiyyətə malikdir.

Muxtar respublikada təhsilin məzmunca yeniləşdirilməsi və keyfiyyətə nail olunması, təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, təhsil sahəsində müxtəlif proqramların həyata keçirilməsi istiqamətində fəal iş aparılır



və nəticədə zəngin biliyə, hərtərəfli intellektual səviyyəyə malik, fiziki və mənəvi cəhətdən sağlam gənclər yetişir.

Naxçıvan Muxtar Respublikasının hərtərəfli və sürətli inkişafında təhsilin xüsusi yeri vardır. Muxtar respublikanın rəhbəri diyarı irəli aparmaq, modernləşdirmək üçün məqsədyönlü, irimiqyaslı, ardıcıl təhsil siyasəti aparır. İlk növbədə təhsil müəssisələri üçün yeni binalar tikməyə başlanılmış, təmir olunmuş və onların maddi-texniki bazası möhkəmləndirilmişdir. Muxtar respublikada yeni məktəblərin tikilməsi, onların texniki və kadr təminatının yaxşılaşdırılması, təhsil müəssisələrinin informasiya-kommunikasiya texnologiyaları və pulsuz dərsliklərlə təmin edilməsi sahəsində ardıcıl iş aparılmışdır.

Müstəqilliyin ilk on ili ərzində muxtar respublikada 45 yeni orta ümumtəhsil məktəbi üçün bina tikilmiş, 16 məktəb binası isə əsaslı şəkildə yenidən qurulmuşdur.[572] Həmin illərdə 3 uşaq bağçası üçün bina tikilmiş, 1-i isə əsaslı təmir edilmişdir. 2000-2005-ci illərdə isə tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı 17770 nəfər olmuşdur.[573] Məktəb tikintisi sonrakı illərdə də davam etdirilmişdir. 2003-2013-cü illərdə muxtar respublikada 84 ümumtəhsil məktəbi, 226 yerlik 11 məktəbəqədər təhsil müssisəsi tikilmişdir.[574]

Təkcə 2014-cü ildə 19 tam orta məktəb binasında tikinti, yenidənqurma və əsaslı təmir işləri həyata keçirilmişdir.[575] Ümumiyyətlə, 1995-ci ildən ötən dövr ərzində muxtar respublikada 40182 şagird yerlik 129 ümumtəhsil məktəbi tikilmiş, 34024 şagird yerlik 52 ümumtəhsil məktəbi, eləcə də 19 məktəbəqədər təhsil müəssisəsi, 23 uşaq musiqi və bədii sənətkarlıq məktəbi və

---

[572] Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Naxçıvan: Əcəmi NPB, 2001, s.76-77

[573] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006.s.19.

[574] Naxçıvan 2003 -2013: hədəflər, inkişaf, nəticələr. Naxçıvan. 2014. s. 10

[575] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.16

3 orta ixtisas təhsil müəssisəsi yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur.[576]

1995-2010-cu il ərzində muxtar respublikada yeni təhsil obyektlərinin inşası prosesinin yüksək dinamikası ümumilikdə cəmiyyətimizin tərəqqisi ilə bağlı pozitiv meylləri konkret faktlarla xarakterizə etməyə imkan verir. 1995-2010-cu illərdə muxtar respublikada ümumilikdə 225 təhsil ocağı, o cümlədən 8 ali təhsil infrastruktur obyekti, 68374 şagird yerlik 168 orta məktəb, 1835 yerlik 15 uşaq bağçası, 20 musiqi məktəbi və 14 digər təhsil ocağı tikilərək, yenidən qurularaq və ya əsaslı təmir olunaraq istifadəyə verilmişdir.[577]

2003-cü ildə muxtar respublikada 232 gündüz ümumtəhsil məktəbi fəaliyyət göstərirdi ki, bunun da tərkibində 10 ibtidai, 19 əsas, 202 orta təhsil və 1 xüsusi məktəb var idi. Şagirdlərin sayı isə 72179-a çatırdı.[578]

Hazırda isə muxtar respublikada 215 ümumtəhsil, 6 peşə təhsili və peşə tədrisi mərkəzi, 19 məktəbəqədər, 44 məktəbdənkənar tərbiyə və təhsil müəssisəsi, 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi və Heydər Əliyev adına Hərbi Lisey fəaliyyət göstərir.[579]

Təhsildə keyfiyyət dəyişiklikləri hər il artmaqda davam edir. Bunlar ali məktəblərə qəbulda və bu zaman yüksək bal toplayan abituriyentlərin sayında özünü göstərir. 2004-2005-ci tədris ilində 5409 nəfər məzun olmuş, bunlardan 3074-ü ali məktəblərə sənəd vermiş, 1024-ü qəbul olmuşdur (33,3 faiz). 2006-cı ildə 3312 abituriyentdən 1110-u (35 faizi), 2007-ci ildə 3099-dan 1183-ü (38 faizi) tələbə adını qazanmışdır. 2008-ci ildə muxtar respublikanın ümumtəhsil məktəblərinin 4714 məzunundan 3216-sı ali məktəblərə sənəd vermiş və onlardan 1270-i (35,6

[576] "Şərq qapısı" qəzeti. 2015. 15 mart
[577] Həbibbəyli İ.Ə. Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Naxçıvan: Qeyrət, 2002. s.154
[578] Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil. 2011. s.106-107
[579] "Şərq qapısı" qəzeti. 2015. 15 mart



faizi) ali məktəblərə qəbul olmuşdur. 2009-cu ildə 4390 məzundan 3230-u ali məktəblərə sənəd vermiş və onlardan 1348-i (41,7 faizi) qəbul olmuşdur.[580] 2010-cu ildə 4341 məzundan 3293-ü ali məktəblərə sənəd vermiş və 1622-si (49 faizi) tələbə adına layiq görülmüşdür.[581]

2013-cü ildə ümumtəhsil məktəblərini 4186 məzun bitirmiş, onlardan 3238-i ali məktəblərə sənəd vermiş və 1676-sı qəbul olmuşdur (51,8 faizi).[582] 2014-cü ildə 3993 nəfər məzun olmuş, bunlardan 3115-i ali məktəblərə sənəd vermiş və qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 1725-i ali məktəblərin, 519-u isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışlar.[583]

2015-ci ildə 3331 nəfər məzun bitirmiş, onlardan 2638-i ali məktəblərə sənəd vermiş və 1582-si tələbə adına layiq görülmüşdür.[584] Ümumiyyətlə, son 20 ildə ümumtəhsil məktəblərini 89305 şagird bitirmiş, onlardan 52265-i ali təhsil müəssisələrinə sənəd vermişdir. Sənəd verənlərin 23405-i tələbə adını qazanmışdır. Göründüyü kimi, ilbəil tələbə adını qazanan abituriyentlərin sayı artmışdır. Bu isə şagirdlərin bilik səviyyəsinin artdığını göstərir. Gətirilən müqayisə deyilənləri daha əyani sübut edir. 1995-1996-cı tədris ilində ümumtəhsil məktəblərini bitirmiş 3512 məzundan 1301-i ali təhsil müəssisələrinə sənəd vermiş və onlardan 401-i ali məktəblərə qəbul olmuşdur. Göründüyü kimi, 2014-cü illə müqayisədə fərq çox böyükdür.

Keyfiyyət dəyişiklikləri ali məktəblərə qəbulda yüksək bal toplayan abituriyentlərin sayında da özünü göstərir. Əgər 1996-cı ildə 500-700 arası bal toplayan abituriyentlərin sayı 5 nəfər

[580] Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil. 2011. s.161
[581] "Şərq qapısı" qəzeti. 2010. 20 avqust
[582] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB, 2014, s.117
[583] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.16-17
[584] "Şərq qapısı" qəzeti, 2015, 22 avqust

olmuşdursa, 2014-cü ildə bunların sayı 347-yə çatmışdır.[585] 2004-cü ildə 64, 2005-ci ildə 87, 2006-cı ildə 135, 2007-ci ildə 160, 2008-ci ildə 219, 2009-cu ildə 232, 2010-cu ildə 280, 2011-ci ildə 296, 2012-ci ildə 267, 2013-cü ildə 312, 2014-cü ildə 347 abituriyent ali məktəblərə qəbul imtahanlarında 500-700 arası bal toplamışdır.

2010-cu ildə yüksək bal toplayan tələbələrdən 9-u, 2011-ci ildə 8-i, 2012-ci ildə 7-si, 2013-cü ildə 6-sı, 2014-cü ildə 2-si, 2015-ci ildə 8 nəfəri Prezident təqaüdünə layiq görülmüşdür. Ümumiyyətlə, muxtar respublikadan 61 məzun Prezident təqaüdü almışdır. Keyfiyyət dəyişiklikləri orta ümumtəhsil məktəblərini bitirəndə də özünü göstərir. Belə ki, 1995-2010-cu illər ərzində 1557 məzun fərqlənmə attestatına, 2011-2013-cü illər ərzində isə təhsili yüksək nailiyyətlərlə başa vuran 71 məzun "qızıl" və "gümüş" medallara layiq görülmüşdür.[586]

Həmin şagirdlər onlara göstərilən etimadı doğrultmuş və ali məktəblərə qəbulda yüksək nəticələrə nail olmuşlar. Azərbaycan Prezidenti tərəfindən 2004-cü il 21 avqust tarixində təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı" və 2008-ci il 10 iyun tarixində təsdiq olunmuş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" ölkəmizdə, o cümlədən muxtar respublikada yeni informasiya texnologiyalarından istifadə olunmaqla təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən və dünya təhsil sisteminə inteqrasiya imkanı verən vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyətinə hazırlamaq məqsədi daşımışdır. Bu dövr ərzində muxtar respublikada təhsilin maddi-texniki bazası gücləndirilmiş, o cümlədən yeni müasirtipli məktəb binaları inşa edilmiş, mövcud təhsil ocaqları isə yenidən qurulmuş və ya

[585] "Şərq qapısı" qəzeti, 2015, 15 mart
[586] Hacıyev İ., İsmayılov B. Naxçıvan Muxtar Respublikası – 90. Naxçıvan: Əcəmi NPB. 2014, s.118



əsaslı təmir olunmuşdur. Son illərdə muxtar respublikanın şəhər, qəsəbə və kəndlərində hər cür avadanlıqlarla təchiz edilən, ən yeni kompyuter dəstləri ilə təmin olunan 322 təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq şagirdlərin istifadəsinə verilmişdir.

Təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramına uyğun olaraq 1 yanvar 2015-ci il tarixə muxtar respublikanın ümumtəhsil məktəblərində 3640 dəst kompyuter quraşdırılmış, hər 13 şagird bir dəst kompyuterlə təmin olunmuşdur.

İstifadədə olan həmin kompyuterlərin 3057-si və ya 84 faizi internetə qoşulmuşdur.[587] Bununla yanaşı, təhsilin informasiya mühitinin yaradılması məqsədilə ümumtəhsil məktəblərində 600-ə yaxın elektron lövhə quraşdırılmışdır. "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar olaraq 2014-2015-ci tədris ilindən etibarən muxtar respublikanın ümumtəhsil məktəblərində Azərbaycan tarixi və mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr yaradıldı ki, bu da şagirdlərin biliklərinin və milli-mənəvi irsimizə marağının artmasında mühüm rol oynayır.

Muxtar respublikada məktəblərə, məktəblilərə, onların hərtərəfli inkişafına hər cür qayğı göstərilir. Məktəb kitabxanaları zənginləşdirilir, məktəblilər pulsuz dərsliklərlə təmin olunur. 2005-2009-cu illərdə məktəb kitabxanalarına 1013539 nüsxə dərslik, 394 adda 539639 ədəd bədii ədəbiyyat, 1450 ədəd Azərbaycan Milli Ensiklopediyasının xüsusi nəşri, 450 ədəd Naxçıvan abidələri ensiklopediyası, 15 fənn üzrə 140 adda 74510 ədəd əyani vəsait, 440 ədəd "Naxçıvan xanlığı" kitabı verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diq-

[587] 2014-cü ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2015, s.16

qət və qayğısı sayəsində 2005-ci il avqust ayından ümumtəhsil məktəblərinin I-XI sinif şagirdləri dərsliklərlə pulsuz təmin edilmişdir. Sonrakı illərdə də bu iş davam etdirilmişdir. Ali Məclis Sədrinin təşəbbüsü və şəxsi himayəsi sayəsində bir neçə ildir ki, valideyn himayəsindən məhrum olan uşaqlara hədiyyələr verilir. Ata və ana nəvazişindən məhrum olan kimsəsiz şagirdlər geyim, dərslik və digər ləvazimatlarla təmin olunurlar.

Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərinin vahid məktəbli forması ilə təmin olunması muxtar respublika rəhbərliyinin həmişə diqqət mərkəzində olmuşdur. Muxtar respublikanın ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri və şagirdləri uyğun formadan istifadə edirlər. Bu da öz növbəsində həm təlimdə, həm də tərbiyədə müsbət rol oynayır.

2005-ci ildən başlayaraq hər il muxtar respublikada təhsil yarmarkaları keçirilir. Həmin il keçirilən təhsil yarmarkasında 119 gənc mütəxəssis işlə təmin olunmuş və ucqar dağ kəndlərinə göndəriş almışdır. 2006 və 2007-ci illərdə də belə yarmarka keçirilmişdir. 2007-ci il təhsil yarmarkasına 178 ixtisaslı mütəxəssis müraciət etmiş, bunlardan 144-ü kənd məktəblərində işlə təmin olunmuşlar.

Naxçıvan Muxtar Respublikasında məktəbəqədər tərbiyə müəssisələrinin – körpələr evi uşaq bağçalarının geniş şəbəkəsi mövcud olmuşdur. 1994-cü ildə Naxçıvan şəhərində 15, Şərur rayonunda 38, Babək rayonunda 11, Ordubad rayonunda 18, Şahbuz rayonunda 14, Culfa rayonunda 10, Sədərək rayonunda 2, bütövlükdə muxtar respublikada 108 belə müəssisə olmuşdur.[588] 1995-2010-cu illərdə məktəbəqədər müəssisələrin geniş şəbəkəsi yaradılmış, yeni binalar tikilmiş və ya mövcud olanlar əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir.

Məktəbəqədər müəssisələrin 87 faizi yenidən qurulmuşdur. 2003-2013-cü illərdə 2260 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi tikilmişdir.[589] Son illər muxtar respublikada 17 məktəbəqə-

[588] Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMR DA), f. 32, siy.2, iş 37
[589] Naxçıvan 2003 -2013: hədəflər, inkişaf, nəticələr. Naxçıvan, 2014, s. 10



dər təhsil müəssisəsi istifadəyə verilmişdir. 17-ci məktəbəqədər təhsil müəssisəsi 2015-ci il 25 iyunda Şahbuz şəhərində uşaqların istifadəsinə verilmişdir. Burada 13 qrupda 242 uşaq təlim-tərbiyə alacaq, məktəbə hazırlıq kursları keçəcəklər.[590]

Şahbuz şəhər Uşaq Bağçasının açılışında iştirak və çıxış edən Ali Məclisin Sədri demişdir: "Uşaq bağçalarının yaradılması, onların fəaliyyətinin təmin olunması məktəbəqədər təhsilin düzgün təşkili ilə yanaşı, həm də ailələrə dəstəkdir. Valideyinləri işləyən uşaqlar eyni zamanda xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən uşaqlar bağçada təlim-tərbiyə alır, onların məktəbəqədər tərbiyəsi düzgün təşkil olunur. Bu mənada bağçaların yaradılması və fəaliyyətinin təmin edilməsi həm də işləyən və xüsusi qayğıya ehtiyacı olan ailələrə göstərilən dövlət qayğısı kimi mühüm əhəmiyyət daşıyır. Ona görə də kollektiv uşaqların məktəbə hazırlığına, qidalanmasına və sağlamlığına xüsusi diqqət yetirməlidir".[591] Muxtar respublikada 44 məktəbdənkənar uşaq müəssisəsi, o cümlədən gənc təbiətçilər, rəsm, idman, şahmat məktəbləri və başqa müəssisələr fəaliyyət göstərir. Bu müəssisələrdə çoxlu sayda şagird müxtəlif maraq sahələri üzrə qruplara cəlb olunmuşdur. Şahbuz şəhərində Uşaq Yaradıcılıq Mərkəzi, Şahmat məktəbi, Şərur və Culfa rayonlarında Şahmat məktəbi tikilmiş və müasir avadanlıqlarla təchiz olunmuşdur. Bunlardan başqa muxtar respublikada Texniki Yaradıcılıq, Turist-Diyarşünaslıq və Ekoloji Tərbiyə Mərkəzlərinin daha yaxşı fəaliyyəti üçün müvafiq binalar ayrılmış, onlar yüksək səviyyədə təmir edilərək şagirdlərin ixtiyarına verilmişdir. Muxtar respublikada 8 məktəbdənkənar tədris müəssisəsi tikilmiş və ya yenidən qurulmuşdur. Naxçıvan şəhərindəki Şahmat mərkəzində beynəlxalq yarışların keçirilməsi üçün hər cür şərait vardır. Artıq 5 ildir ki, burada ulu öndər Heydər Əliyevin xatirəsinə həsr edilmiş beynəlxalq şahmat yarışları keçirilir. 2015-ci il yarışlarında dünyanın

[590] "İki sahil" qəzeti, 2015, 26 iyun
[591] "Şərq qapısı" qəzeti, 2015, 26 iyun

13 ölkəsindən 350-ə qədər şahmatçı bu turnirdə iştirak edib.[592] Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin, Naxçıvan Regional Peşə-Tədris Mərkəzinin binaları yenidən qurularaq istifadəyə verilmişdir. 2010-cu ilin sentyabrında Culfa şəhərində 2 məktəb, 1 uşaq bağçası və 1 məktəbdənkənar müəssisə tikilmiş və ya əsaslı təmirdən sonra istifadəyə verilmişdir. Texniki Yaradıcılıq Mərkəzində, Ekoloji Tərbiyə

Mərkəzində və Uşaq Yaradıcılıq Mərkəzində hər cür şərait yaradılmışdır. Muxtar respublikada 27 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində 7204 şagird və 1679 müəllim, texniki peşə və peşə tədris müəssisələrində 874 şagird, 46 müəllim və 39 istehsalat-təlim ustası təhsilə və tədris prosesinə cəlb olunmuşdur.[593]

Respublikamızda ümumtəhsil məktəbləri müəllimlərinin həyat səviyyəsi və onların əməyinin qiymətləndirilməsi də dövlətimizin diqqət mərkəzində saxlanılır və onlara qayğı göstərilir. Son bir neçə ildə təhsil işçilərinin əmək haqları bir neçə dəfə artırılmışdır. Ən qabaqcıl 50 məktəb və 100 müəllim ölkə rəhbəri tərəfindən mükafatlandırılmışdır. 2007-ci ildən bügünədək muxtar respublikadan 21 məktəb ölkə Prezidentinin sərəncamı ilə "İlin ən yaxşı ümumtəhsil məktəbi" və 35 müəllim isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi adına layiq görülərək mükafatlandırılmışdır. Həmçinin müəllimlərdən 65-i "Azərbaycan Respublikasının Əməkdar müəllimi", 83-ü "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş, 60 müəllim isə "Tərəqqi" medalı ilə təltif edilmişdir.[594]

Naxçıvan Muxtar Respublikasının elm, ali və orta ixtisas təhsili müəssisələri ilə ümumtəhsil məktəbləri arasında əlaqələrin artırılmasına xüsusi əhəmiyyət verilir. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov 2015-ci il 14 martda Sərəncam imzalamışdır.[595] Sərəncama görə

[592] "Şərq qapısı" qəzeti, 2015, 3 may
[593] Yenə orada, 2015, 15 mart
[594] Yenə orada, 2015, 6 oktyabr
[595] Yenə orada, 2015, 15 mart



Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin, ali və orta ixtisas təhsili müəssisələrinin professor-müəllim heyətinin iştirakı ilə muxtar respublikanın ümumtəhsil məktəblərində ayda bir dəfə nümunəvi dərslərin aparılması nəzərdə tutulmuşdur.

Təhsil müəssisələri arasında Heydər Əliyev adına Hərbi Liseyin öz yeri vardır. Bu Lisey ulu öndər Heydər Əliyevin 1998-ci il 13 mart tarixli sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı kimi yaradılmışdı.[596]

1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illiyi münasibətilə yubiley şənliklərinə gəlmiş ümummilli lider Hərbi Liseyin Naxçıvan filialının da açılmasında iştirak etmiş, işlərin gedişi ilə tanış olmuş, qarşıya çıxan problemlərlə maraqlanmış, yaxın gələcəkdə bu tədris ocağının ərazisini daha da genişləndirmək, kontigent sayını artırmaq barədə tövsiyə və tapşırıqlarını vermişdir.

Ümummilli lider Heydər Əliyev C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılmasının əhəmiyyətindən danışarkən demişdir: "Naxçıvanın Azərbaycandan aralı düşməsi və bir çox sahələrdə əlaqələrin çox çətin olması, əlbəttə, buradakı gənclərin gedib Bakıdakı Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olması üçün çətinliklər yaradır.... Hərbi Liseyin burada filialın yaradılması zərurəti bir də ondan irəli gəlir ki, tarixən naxçıvanlı gənclər zabit peşəsinə yiyələnməyə meyilli olublar. Tarixi vərəqləyin, görün Naxçıvandan vaxtilə nə qədər böyük sərkərdələr çıxıbdır. Elə XIX-XX əsrlərin tarixini götürək. Naxçıvan xanları – Kəngərlilər sülaləsindən çar Rusiyasının ordusunda altı general var idi. Onlardan sonuncusu Cəmşid xan Naxçıvanski idi. Əgər sonrakı dövrü, Sovet hakimiyyəti dövrünü götürsək, Naxçıvandan yüksək rütbəli, çox dəyərli zabitlər çıxıbdır. ... Ona görə də burada olan gəncləri hərbi peşəyə cəlb etmək üçün Hərbi Liseyin filialının yaradılması çox zəruri idi".[597]

[596] "Şərq qapısı" qəzeti, 2010, 27 fevral
[597] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 39-cu kitab (iyun 2002 – iyul 2002). Bakı: Azərnəşr, 2012, s 147, 149-150

2001-ci ildə Naxçıvan filialının ilk buraxılışı oldu. 50 məzundan 49-u ali hərbi məktəblərə daxil oldu. Buraxılışa həsr olunmuş təntənəli mərasimdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov ilk məzunları, onların valideynlərini, müəllimləri və zabit heyətini təbrik etdi. Fərəhli haldır ki, Ali Məclis Sədrinin hər il buraxılış günündə məzun-kursantlarla, o cümlədən müəllim və zabit heyətilə görüşü həmin vaxtdan bir ənənəyə çevrilmişdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Azərbaycan Respublikasının Silahlı Qüvvələri üçün hərbi kadr hazırlığı sistemini təkmilləşdirmək və Milli Ordunun peşəkar kadrlara olan tələbatının ödənilməsi işini yaxşılaşdırmaq məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında" 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının bazasında müstəqil Hərbi Lisey yaradıldı.[598]

2005-ci il dekabrın 19-da ölkə başçısı İlham Əliyev Liseydə olmuş, burada yaradılan şəraitdən razılığını bildirmiş, kursantlara öz tövsiyyələrini verərək demişdir: "Bu liseydə dərs alan, təhsil alan gənclər gələcəkdə bizim ordumuzda xidmət edəcəklər. Azərbaycanın müstəqilliyinin keşiyində duracaqlar, lazım gələrsə, Azərbaycanın ərazi bütövlüyünün hərb yolu ilə bərpa olunmasında iştirak edəcəklər.[599]

2005-ci ildə Hərbi Liseyi qurtaran 30 məzunu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri qəbul etdi. Görüşdən razılığını bildirən Ali Məclisin Sədri demişdir: "Azərbaycan torpağına hər birimiz harada xidmət etməyimizdən, işləməyimizdən, yaşamağımızdan asılı olmayaraq müqəddəs baxmalıyıq və onun inkişafı üçün, qorunmağı üçün əlimizdən gələni əsirgəməməliyik.

---

[598] "Azərbaycan" qəzeti, 2004, 28 fevral
[599] Əliyev İlham. İnkişaf məqsədimizdir. 14-cü kitab (oktyabr 2005 - dekabr 2005). Bakı: Azərnəşr, 2013, s.235



Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı yaranan zaman sizinlə - ilk qəbul olunanlarla və sizin ilk buraxılışınızla da görüşdük. Bu filial yarananda mən bilirdim ki, bunun çətinlikləri var, qarşıda problemlərimiz olacaq. Hərbi məktəb yaratmaq adi məktəb yaratmaq kimi asan deyil. Hərbi məktəbə birinci, gərək vətənpərvər uşaqlar seçilsin, ikincisi, onlara digər məktəblərdən fərqli olaraq daha yaxşı təhsil verilsin, üçüncüsü isə kursantlara diqqət, qayğı göstərilsin, şərait yaradılsın".[600] On ildən çoxdur ki, müstəqil fəaliyyət göstərən Heydər Əliyev adına Hərbi Lisey ötən dövr ərzində böyük inkişaf yolu keçmişdir.

Ötən dövrdə Hərbi Liseyi bitirən 2161 kursantdan 2027-si ali hərbi məktəblərə qəbul olmuşdur.[601] Liseyin məzunlarından 1000-ə yaxını Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi xidmət edirlər. Hazırda Liseydə 657 kursant təhsil alır. 2015-2016-cı tədris ilində Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmaq üçün 977 gənc sənəd vermiş, onlardan 603-ü qəbul imtahanlarında iştirak etmək hüququ qazanmışdır.

1996-cı ildən orta ixtisas və ali təhsil müəssisələrinin inkişafına da diqqət artırılmış, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə fikir verilmişdir.

Muxtar respublikada Naxçıvan Tibb Kolleci, Naxçıvan Musiqi Kolleci və Naxçıvan Dövlət Texniki Kolleci fəaliyyət göstərir. Naxçıvan Tibb Kolleci Tibb Texnikumunun bazası əsasında yaradılmışdır. Naxçıvan Tibb Texnikumu isə 1931-ci il sentyabrın 5-də təsis edilmişdir. Bu təhsil müəssisəsi 1931-1932-ci tədris ilində feldşer ixtisası ilə fəaliyyətə başlayıb. Texnikuma ilk qəbul olanlar isə 32 nəfər idi. 1933-1934-cü tədris ilində 3 yeni şöbə açılır: mamalıq, tibb bacısı və farmaseft.

Texnikumda 4 şöbədə 89 nəfər təhsil alırdı. 1935-ci ildə Tibb Texnikumu Tibb Bacısı Məktəbi adlandırılmışdır. 1936-1937-ci ildə 144, 1940-1941-ci ildə 124 tələbə təhsil almışdı. 1947-ci ildə Naxçıvan Tibb Bacısı Məktəbi Feldşer Məktəbi,

---

[600] "Şərq qapısı" qəzeti, 2010, 27 fevral
[601] Yenə orada, 2015,18 iyun

1954-cü ildə Feldşer-Mamalıq məktəbi adlandırılmışdır. 1946-1956-cı illərdə feldşer ixtisasını 455 nəfər, mamalıq ixtisasını isə 161 nəfər bitirmişdi.

1974-cü ilin ortalarında Naxçıvan MSSR-in 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gəlmiş ümummilli lider Heydər Əliyev Naxçıvan Tibb Məktəbində də olmuşdur.

Tibb məktəbinin yerləşdiyi binada əvvəllər Naxçıvan Pedaqoji Texnikumu fəaliyyət göstərmişdir.

Ümummilli lider Heydər Əliyev isə Naxçıvan Pedaqoji Texnikumunun məzunu olmuşdur. Ulu öndər oxuduğu sinfə gəlmiş, tələbə olarkən oturduğu partada oğlu İlhamla birlikdə şəkil çəkdirmiş, keçən günləri xatırlamışdır. Heydər Əliyev məktəbdə tədrisin səviyyəsi və dərslərin keyfiyyəti ilə maraqlanmış, Naxçıvan Tibb Məktəbinin Naxçıvanda, eləcə də Azərbaycanda orta ixtisaslı tibb kadrlarının hazırlanmasında müstəsna rolunu qeyd etmişdir. 1956-1976-cı illərdə - 20 il ərzində Naxçıvan Tibb Məktəbini bütün şöbələr üzrə 1115 tələbə bitirmişdir. Bunlardan 247-si feldşer və feldşer-laborant, 314-ü mamalıq və 555-i isə tibb bacısı şöbələrinin məzunları olmuşlar.

1980-1990-cı illərdə məktəbdə 3 ixtisas üzrə kadrlar hazırlanmış, onların təlim-tərbiyəsi ilə 21 müəllim, 67 həkim məşğul olmuşdur.

2001-ci ildə Naxçıvan Tibb Məktəbinin 70 illik yubileyinin keçirilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Sərəncam imzalamış, həmin il oktyabrın 2-də yubiley qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Naxçıvan Tibb Məktəbinin 70 illik yubileyini təbrik etmişdir: "Yetmiş il bundan əvvəl təsis edilmiş Naxçıvan Tibb Məktəbi Muxtar Respublikada səhiyyənin inkişafında və orta ixtisaslı tibb kadrlarının hazırlanması işində xüsusi rol oynamışdır. Bütün bu illər ərzində onun yetirmələri xalqımızın sağlamlığının keşiyində durmaqla əhali arasında



sanitar-maarifi işinin gücləndirilməsində böyük xidmətlər göstərmişlər".

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyun tarixli sərəncamı ilə Naxçıvan Tibb Məktəbi – Naxçıvan Tibb Kolleci adlandırılmışdır. 2009-2010-cu tədris ilindən Kollecdə "Ortopedik stomotologiya" ixtisası açılmışdır. Kollecdə aşağıdakı ixtisaslar üzrə mütəxəssislər hazırlanır: Müalicə işi, Mamalıq işi, Əczaçılıq, Tibb bacısı işi, Ortopedik stomotologiya. Kollecdə 3 laboratoriya, 2 şöbə, 9 fənn kabinəsi, 7 fənn birləşməsi, tyutorlar və qrup rəhbərləri fəaliyyət göstərir.

Naxçıvan Musiqi Kolleci 1975-ci il aprelin 18-də Naxçıvan Orta İxtisas Musiqi Məktəbi adı ilə fəaliyyətə başlamışdır. 1992-ci ildən Naxçıvan Musiqi Texnikumu, 2005-ci ildən isə Naxçıvan Musiqi Kolleci kimi Naxçıvan musiqi mədəniyyətinə dəyərli töhfələr verir. Dörd ixtisas ("fortepiano", "xalq çalğı alətləri", "xalq mahnıları və muğam", "simli alətlər") üzrə fəaliyyətə başlayan Musiqi Məktəbində 1995-ci ildə 6, 2005-ci ildə 8, 2014-cü ildə isə 11 ixtisas üzrə kadrlar hazırlanır. Bu gün Musiqi Kollecində 552 tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 181 müəllim və konsertmeyster məşğul olur.[602] 1975-ci ildən ötən dövr ərzində Naxçıvan Musiqi Kollecinin 2500-dən çox məzunu olub. Kollecdə xalq çalğı alətləri, simfonik, nəfəs alətləri, estrada orkestrləri, qədim musiqi alətləri, "Dilrüba muğam", "Gənclik" instrumental ansamblları, xor kollektivi, "Naxçıvanqala" ritm qrupu, sazçalanlar ansamblı və yallı qrupu fəaliyyət göstərir.[603]

2001-ci ildən kollecdə "fortepiano", "xalq çalğı alətləri", "musiqi nəzəriyyəsi" ixtisasları üzrə qiyabi şöbə fəaliyyətə başlayıb. Kollec 2000 və 2004-cü illərdə keçirilən VIII və IX respublika müsabiqələrində Naxçıvanı yüksək səviyyədə təmsil edib. Son 20 ildə kollecin 17 müəllimi Azərbaycan Respublikası-

---

[602] "Şərq qapısı" qəzeti, 2015, 9 iyul
[603] Yenə orada, 2015, 3 aprel

nın və Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülüb.

Naxçıvan Dövlət Texniki Kolleci 1925-ci ildə yaradılan Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun bazası əsasında 2002-ci ildə yaradılıb. Həmin dövrdə Kollecdə 2 ixtisas - Aqronomluq və Kənd təsərrüfatının mexanikləşdirilməsi ixtisasları üzrə kadrlar hazırlanırdı. Bu təhsil müəssisəsi 37 tələbə ilə fəaliyyətə başlayıb. Hazırda Kollecdə əyani və qiyabi şöbələr üzrə 6 ixtisas mövcuddur: Baytarlıq, Nəqliyyatda daşınmaların təşkili (dəmiryol nəqliyyatı), Nəqliyyat vasitələrinin texniki istismarı, Yol hərəkətinin təşkili, Mühasibat uçotu, Bank işi. Əyani şöbənin 6 ixtisasında 306, qiyabi şöbənin 1 ixtisasında 56 tələbə təhsil alır. Onların təlim-tərbiyəsi ilə 33 müəllim məşğul olur. Vaxtı ilə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu bitirmiş məzunlar arasından görkəmli elm adamları, müharibə və əmək qəhrəmanları çıxmışdır.

Orta ixtisas məktəblərində 1642 tələbə və 218 müəllim təhsilə və tədris prosesinə cəlb olunmuşdur.[604]

Son 20 ildə muxtar respublikada ali təhsil müəssisələrinin həyatında da ciddi dəyişikliklər baş vermişdir. 1967-ci ildən Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi yaranan, 1972-ci ildən müstəqil ali təhsil müəssisəsinə - Naxçıvan Dövlət Pedaqoji İnstitutuna çevrilən və 1990-cı ildən Naxçıvan Dövlət Universiteti adlandırılan bu təhsil ocağının inkişafı ulu öndər Heydər Əliyevin qayğısı nəticəsində baş vermişdir.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 iyun tarixli sərəncamı ilə Naxçıvan Dövlət Universiteti yüksək özünüidarəetmə, muxtariyyət statusu qazanmışdır.[605]

Universitetin yaradılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dahi lider Heydər Əliyev dörd dəfə Naxçıvan Dövlət Universitetində olmuşdur. Bu ali təhsil ocağı Naxçıvan Muxtar Respublikasının əsas elm, təhsil, ictimai

[604] "Şərq qapısı" qəzeti, 2015, 15 mart
[605] "Azərbaycan" qəzeti, 2002, 13 iyun



fikir və mədəniyyət mərkəzlərindəndir.[606] Naxçıvan Dövlət Universiteti Azərbaycan elminə, dövlət quruculuğuna və milli ali təhsilinə sanballı töhfələr vermişdir.

Naxçıvan Dövlət Universiteti 1967-ci ildə cəmi 3 ixtisas üzrə təhsil alan 102 tələbə və 3 müəllimlə fəaliyyətə başlamışdır.[607] Hazırda universitetin 12 fakültəsində 58 ixtisas üzrə 5 mindən artıq bakalavr, magistr və doktorant təhsil alır. Bu ali təhsil ocağında 12 ölkədən 300-dən çox tələbə təhsil prosesinə cəlb olunmuşdur. Universitetdə elmi-pedaqoji fəaliyyətini davam etdirən 407 müəllimdən 3-ü AMEA-nın həqiqi üzvü (akademik), 10-u müxbir üzvü, 35-i elmlər doktoru, professor, 177-si isə fəlsəfə doktoru, dosentdir.[608]

Naxçıvan Dövlət Universitetinin əsl inkişaf dövrü 1996-cı ildən sonra baş vermişdir. Vasif Talıbov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildikdən sonra bu ali təhsil müəssisəsinin həyatında ciddi dəyişiklik baş vermişdir. 1996-cı ilin oktyabrında prof. İsa Həbibbəylinin (hazırda AMEA-nın vitse-prezidenti, akademik) universitetin rektoru təyin edilməsi ilə ali təhsil müəssisəsinin gələcək uğurları üçün əsas yaradılmışdır. Ali Məclis Sədrinin dəfələrlə universitetə gəlməsi, problemlərlə tanış olması, kollektiv üzvləri ilə görüşməsi, tövsiyyə və tapşırıqlarını verməsi universitetin inkişafını sürətləndirmişdir. Onlarla yeni tədris korpusları – 1600 yerlik əsas korpus, Tibb fakültəsi, Sosial-idarəetmə və hüquq, Xarici dillər və beynəlxalq münasibətlər korpusları, Olimpiya-İdman Kompleksi, Konservatoriya, Elektron kitabxana üçün binalar tikilmiş, Magistratura, Memarlıq və Mühəndislik, Baytarlıq, Xarici tələbələr, Pedaqoji və Kənd təsərrüfatı fakültələrinin yerləşdiyi binalar isə yenidən qurularaq əsaslı təmir edilmişdir. Naxçıvan Dövlət Universi-tetinin 108 hektarlıq ərazisində 12 tədris korpusu, Elektron kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Universitet kli-

[606] "Naxçıvan" jurnalı, 2007, №5, s.9
[607] Naxçıvan Dövlət Universiteti. Bakı: Elm və təhsil, 2014, s.15
[608] Yenə orada, s.17; "Şərq qapısı" qəzeti, 2015, 15 mart

nikası, 2 stadion, Botanika bağı, "Qeyrət" nəşriyyatı, Universitet televiziyası, Media Mərkəzi, 3 internet mərkəzi və bir neçə muzey yerləşir. Tələbələrin yaşayış və məişət şəraitinin yaxşılaşdırılması üçün 462 yerlik Tələbə yataqxanası, Sosial Xidmət Mərkəzi və Qonaq evi ən yüksək səviyyədə tikilərək və yenidən qurularaq tələbələrin və müəllimlərin istifadəsinə verilmişdir. Universitetin maddi-texniki bazası möhkəmləndirilmiş, yeni-yeni kabinə və laboratoriyalar, ixtisaslaşdırılmış otaqlar yaradılmışdır.

Naxçıvan Dövlət Universiteti geniş beynəlxalq əlaqələrə malikdir. Universitet dünyanın 80-dən çox universitet və beynəlxalq elm və təhsil mərkəzləri ilə sıx əlaqə saxlayır. Həmin universitet və mərkəzlərlə formalaşan çoxcəhətli əlaqələr dünya təhsil sistemi ilə inteqrasiyanın genişləndirilməsinə və regionda müstəqil Azərbaycanın yeni tipli mütəxəssislər nəslini formalaşdırmağa təkan verir. Universitet onlarla beynəlxalq layihələrdə iştirak edir.

Naxçıvan Dövlət Universitetinin 30 və 40 illik yubileyləri böyük təntənə ilə qeyd edilmişdir.

Ümummilli lider Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli Sərəncamı ilə Azərbaycan Müəllimlər İnstitutu və bölgələrdə filialları yaradıldı. Naxçıvan Müəllimlər İnstitutu da həmin dövrdə Azərbaycan Müəllimlər İnstitutunun filialı kimi təsis edildi. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə bu filial 2003-cü ildə müstəqil ali məktəbə çevrildi.

İki ixtisasla fəaliyyətə başlayan Naxçıvan Müəllimlər İnstitutunda hazırda 5 ixtisas üzrə (İbtidai sinif, Məktəbəqədər təlim və tərbiyə, Riyaziyyat və informatika, Təhsildə sosial-psixoloji xidmət və Təsviri incəsənət) yüksək ixtisaslı kadrlar hazırlanır. İnstitutun əyani və qiyabi şöbələrində 1067 tələbə təhsil alır. İnstitutda magistr hazırlığı da həyata keçirilir. İki ixtisas üzrə (İbtidai sinif müəllimliyi və Təhsildə sosial-psixoloji xidmət) 29 magistr yüksək ixtisaslı kadrlar kimi formalaşır. Onların təlim-tərbiyəsi ilə 89 professor-müəllim heyəti məşğul olur.



Müəllimlərdən 8-i elmlər doktoru, 38-i fəlsəfə doktorudur. Professor-müəllim heyətinin tərkibində 5 professor, 27 dosent vardır. Son illərdə institutun maddi-texniki bazası möhkəmləndirilmiş, onun beynəlxalq əlaqələri artmışdır.

Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" elmi-metodik jurnalı çap olunur. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas elmi nəticələrinin dərc olunması tövsiyyə edilən elmi nəşrlər siyahısına daxil edilmiş və beynəlxalq kod almışdır.

"Naxçıvan" Univerisiteti 1994-cü ildə Bakı Özəl Ali Kollecinin Naxçıvan Filialı kimi fəaliyyətə başlayan, 11 sentyabr 1999-cu ildən müstəqil ali təhsil müəssisəsi kimi dövlət qeydiyyatına alınan, 2015-ci il yanvarın 22-dən "Naxçıvan" Universiteti kimi fəaliyyət göstərən universitetdə ali təhsilin bakalavriatura və magistratura səviyyələri üzrə mindən çox tələbə təhsil alır. Bakalavr hazırlığı 15 ixtisas üzrə aparılır (Azərbaycan dili və ədəbiyyat, xarici dil (ingilis), riyaziyyat və informatika, tarix, coğrafiya, informatika, beynəlxalq münasibətlər, maliyyə, iqtisadiyyat, dinşünaslıq və s.). Dörd ixtisas üzrə magistr hazırlığı aparılır (Azərbaycan dili və ədəbiyyat müəllimliyi, tarix müəllimliyi, pedaqogika, iqtisadiyyat). Universitetdə 4 fakültə fəaliyyət göstərir (Pedaqoji, xarici dillər, iqtisadiyyat və idarəetmə fakültələri). Həmin fakültələrdə 9 kafedra fəaliyyət göstərir ki, burada 80 professor-müəllim heyəti çalışır. Azərbaycan Respublikasının Nazirlər Kabineti 2016-cı ildə "Naxçıvan" Universitetinə doktorantura üzrə kadr hazırlamaq səlahiyyəti verilmişdir.

Tədris prosesinin səmərəli təşkilində 5 şöbə, 5 mərkəz, 7 kabinə və laboratoriyalar da iştirak edir.

Bugünədək universiteti 3245 nəfər bitirmişdir. Məzunların əksəriyyəti öz ixtisasları üzrə, həmçinin muxtar respublikanın dövlət və idrəetınə orqanlarında çalışır.

"Naxçıvan" Universiteti yüksək dünya standartlarına uyğun maddi-texniki bazaya malikdir. Universitetin 4 hektara yaxın özəlləşdirilmiş ərazisində 7 binadan və idman qurğularından

ibarət müasir universitet şəhərciyi yerləşir. Eyni vaxtda iki min nəfər tələbənin təhsil ala biləcəyi tədris korpusları, rektorluq binası, dünya standartlarına uyğun müasir idman kompleksi, kitabxana, yüksək zövqlə tikilmiş sosial mərkəz binası, ən müasir tələblərə cavab verən çoxmərtəbəli yataqxana binası bu kampusa daxildir.

Universitetdə tədrisin təşkili yüksək texnologiyalar üzərində qurulmuş elektron təhsil infrastrukturu əsasında aparılır. 350-dən çox kompüter, 20 ədəd elektron lövhə, virtual tədris və distant təhsil avadanlıqları olan auditoriya və kabinələr, geniş zolaqlı internet xidməti, müasir rəqəmsal avadanlıqlara malik mətbəə tələbə və müəllimlərin istifadəsinə verilmişdir.

Universitetin geniş beynəlxalq əlaqələri vardır. O, "Qafqaz Universiteti Birliyi", "Avraasiya Universitetlər Birliyi" və "Şərqi Asiya Universitetlər Birliyi"nin üzvüdür. TEMPUS xətti ilə indiyədək iki layihə partnyor universitet olaraq qazanılmışdır.

Universitet dünyanın 51 universiteti ilə əməkdaşlıq edir. "Mövlana" mübadilə proqramı üzrə 20 universitetlə əlaqə saxlayır. Almaniyanın Lüdviq Maksimilians Universiteti ilə eyniləşdirilmiş proqramla alman filologiyası üzrə mütəxəssis hazırlığı aparılır. Tədrisə yüksək ixtisaslı xarici mütəxəssislərin cəlbi təcrübəsindən istifadə edilir.

Ümumiyyətlə, muxtar respublikada 3 ali təhsil müəssisəsi fəaliyyət göstərir. Hazırda ali təhsil müəssisələrində 66 ixtisas üzrə 7420 tələbə təhsil alır ki, onların təlim-tərbiyəsi ilə 462 professor-müəllim heyəti məşğul olur.[609] Əgər 1995-ci ildə muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində, ümumilikdə 43 ixtisas üzrə kadr hazırlanırdısa, son iyirmi ildə bu təhsil müəssisələrində 41 yeni ixtisas açılmışdır. Hazırda muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrində 84 ixtisas

[609] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi NPB, 2011, s.166



üzrə kadr hazırlanır.[610] Ali və orta ixtisas təhsili məktəblərində 534 professor-müəllim heyəti fəaliyyət göstərir.

Bütövlükdə, Naxçıvan Muxtar Respublikasında yeni ali məktəblərin yaranması və universitet quruculuğunun sürətlə inkişaf etdirilməsi burada yüksək ixtisaslı, milli və bəşəri dəyərləri vəhdətdə daşıyan, geniş dünyagörüşə malik mütəxəssislərin, yeni elmi nəsillərin yetişib formalaşmasına ciddi təkan verir.

Ümumumiyyətlə, bu gün muxtar respublikanın bütün pillədən olan təhsil müəssisələrində 58 minə yaxın uşaq, şagird, tələbə və kursant, 10 minə yaxın müəllim vardır.[611]

## 4.2. Elm

XX əsrin 90-cı illərinin ortalarında ölkə iqtisadiyyatında baş verən müsbət irəliləyişlər elm sahəsində də mühüm dəyişikliklərin baş verməsinə səbəb oldu. Azərbaycan milli elminə həmişə hamilik etmiş ümummilli lider Heydər Əliyev respublika rəhbərliyinə qayıdandan sonra elmə dövlət qayğısı artdı. 1997-ci il yanvarın 31-də ulu öndər Heydər Əliyev Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi və aparıcı alimlərin bir qrupu ilə görüşərək elm sahəsində mövcud problemləri müzakirə etdi: "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı. Alimlərin əmək haqqı artırıldı. 1997-ci ilin fevralında əmək haqqı Elmlər Akademiyasında 50 faiz, habelə Akademiyanın həqiqi və müxbir üzvlərinin elmi rütbə haqqı 10 dəfə yüksəldi. Sonrakı illərdə də elm sahəsi ilə məşğul olan işçilərin əmək haqqı artırıldı. 2002-ci ilin iyul ayından Akademiya əməkdaşlarının əmək haqqı orta hesabla iki dəfə, akademiklərin 3 dəfə, müxbir üzvlərinin isə 3 dəfədən çox artırıldı.

Ölkə Prezidentinin 2001-ci il 15 may tarixli fərmanına əsasən Azərbaycan Elmlər Akademiyası "Azərbaycan Milli

[610] "Şərq qapısı" qəzeti, 2015, 15 mart
[611] Yenə orada

Elmlər Akademiyası" adlandırıldı.[612] Prezidentin sərəncamı ilə Akademiya üzvlərinin ümumi sayı 200 nəfər müəyyən edildi.[613] Həmin il iyunun 29-da Akademiyaya yeni seçkilər keçirildi: 29 nəfər həqiqi üzv (akademik) və 89 nəfər müxbir üzv seçildi. Naxçıvan Dövlət Universitetinin rektoru İsa Həbibbəyli müxbir üzv seçilənlər arasında idi. Naxçıvanda yaşayıb fəaliyyət göstərən alim ilk dəfə idi ki, akademiyanın müxbir üzvü seçilirdi. 2003-cü ilin əvvəllərində Azərbaycan MEA-da 60 akademik, 113 müxbir üzv, 4318 işçi, 446 elmlər doktoru və 1932 fəlsəfə doktoru çalışırdı.[614]

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında bir sıra elmi müəssisələr fəaliyyət göstərirdi: Naxçıvan Regional Elmi Mərkəzi, Naxçıvan Kompleks Zona Təcrübə Stansiyası, Naxçıvan "Araz" Elm İstehsalat Birliyi, Naxçıvan Elmi-Tədqiqat Baytarlıq Stansiyası, Elm və Texnika Mərkəzi, Şamaxı Asrtofizika Rəsədxanasının Batabat Stansiyası. Muxtar respublikanın elmi idarə və müəssisələrində fundamental elmin müxtəlif sahələri üzrə tədqiqatlar aparılmış, faydalı elmi nəticələr əldə edilmişdi. Bununla belə, elmi müəssisələrin maddi-texniki bazalarının məhdudluğu, bütün sahələr üzrə ixtisaslı kadrların olmaması elmi-tədqiqat işlərinin səviyyəsinə mənfi təsir edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təşəbbüsü və rəhbərliyi ilə 1996-cı ilin iyulunda "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumun keçirilməsi Naxçıvanda elmi mühitin inkişafına əsaslı təsir göstərdi, Naxçıvanın hərtərəfli və elmi cəhətdən öyrənilməsinə təkan verdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simpozium iştirakçılarına göndərdiyi təbrik məktubunda deyilirdi: "Öz əlverişli coğrafi mövqeyi, təkrarolunmaz mədəniyyət və

612 Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı. Bakı: Elm, 2003, s.6
613 Yenə orada, s.38
614 Qaffarov T.B. Azərbaycanın ən yeni tarixi. XX əsrin sonları – XXI əsrin əvvəlləri. Bakı: GİSO Enterprise KRİNB, 2005, s.236



incəsənət abidələri, istedadlı alim və ədibləri ilə seçilən bu diyar dünyanın bir çox tarixçi, səyyah və alimlərinin diqqətini cəlb etmiş, onların əsərlərində dərin iz qoymuş və özünəməxsus yer tutmuşdur. Həmin qaynaqların araşdırılması, onlarda Naxçıvan haqqında qeyd olunmuş məlumatların toplanıb tədqiq və nəşr olunması Azərbaycan tarixinin obyektiv, elmi şəkildə işlənib hazırlanması üçün misilsiz əhəmiyyət kəsb edir".[615]

Məhz bundan sonra Naxçıvan Dövlət Universitetində, Naxçıvan Regional Elmi Mərkəzində qədim diyarın hərtərəfli araşdırılması, xüsusən tarix və mədəniyyət sahələri üzrə geniş miqyaslı tədqiqatların aparılması sahəsində ciddi dirçəliş və irəliləyiş dövrü başlanmışdır. Qısa müddətdə "Azərbaycan tarixində Naxçıvan", "Naxçıvan tarixinin səhifələri" məqalələr toplularının nəşr olunması, tarix üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsi, çoxsaylı kitabların, elmi məqalələrin meydana çıxması regionda elmin inkişafında böyük potensialın mövcudluğunu aşkara çıxartmışdır. Sonrakı illərdə də beynəlxalq səviyyəli simpozium və konfranslar keçirildi. "Naxçıvanda ilk məktəbin yaranması və maarifçilik hərəkatının inkişafı" (1997), "Uluslararası Dədə Qorqud simpoziumu" (1998, Van Yüzüncü il Universiteti ilə birlikdə), "Yaxın tariximizdə Naxçıvan və Qars" (1999, Qars Qafqaz Universiteti ilə birlikdə), "Naxçıvanda kiçik biznesin və sahibkarlığın inkişafı" (2000, ABŞ-ın Perdu Universiteti ilə birlikdə), "Naxçıvan Muxtar Respublikasının təbii ehtiyatları və onlardan istifadənin səmərəli yolları" (2001, Azərbaycan Respublikasının Elm və Texnika Komitəsi ilə birlikdə), Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2007), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011), "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012), "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" (2014), "Naxçıvanda Dədə Qorqud"

615 Milli Elmlər Akademiyası bizim milli sərvətimizdir – onu qoruyub saxlamalıyıq. "Elm" qəzetinin xüsusi buraxılışı. Bakı: Elm, 2003, s.115

(2015), "Naxçıvan qalaları: tarixdə və günümüzdə" (2016) kimi beynəlxalq simpozium və konfranslar elmin müxtəlif problemlərinə həsr edilmiş, elmi əlaqələrin genişlənməsinə səbəb olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri Vasif Talıbovun elmin, təhsilin və mədəniyyətin inkişafına üstün münasibəti və həmin istiqamətdə regionda apardığı fədakar iş müəyyən olunmuş dövlət siyasətinin uğurla həyata keçirilməsinə səbəb olmuşdur. Azərbaycan Milli Elmlər Akademiyası sistemində olan elmi-tədqiqat müəssisələrinin strukturunun təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verildi. AMEA-nın Rəyasət Heyəti Ölkə Prezidentinin tövsiyələrini rəhbər tutaraq Elmlər Akademiyasında islahatların aparılması, onun idarəetmə və təşkilat sisteminin təkmilləşdirilməsi, elmi-tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması, elmi idarə və elmi xidmət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi məqsədi ilə bir sıra qərarlar qəbul etdi və tədbirlər həyata keçirdi; "Elmin strateji inkişafı və Azərbaycan Milli Elmlər Akademiyasında islahatların konsepsiyası" hazırlandı.

"Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə Dövlət Komissiyasının tədbirlər planı haqqında" Azərbaycan Prezidentinin 12 fevral 1999-cu il tarixli sərəncamı müvafiq olaraq AMEA-nın Rəyasət Heyətinin 4 mart və 8 sentyabr 1999-cu il tarixli qərarları ilə Rəyasət Heyəti nəzdində "Naxçıvan ensiklopediyası"nın 7 nəfərdən ibarət redaksiya heyəti və Tarix İnstitutunun nəzdində 5 nəfərdən ibarət Naxçıvan tarixini və mədəniyyətini tədqiq edən elmi qurum yaradıldı.

1999-cu ildə yaradılmış Naxçıvan Elm və Texnika Mərkəzində muxtar respublikada yayılmış dərman bitkilərinin toplanması, öyrənilməsi, onlardan dərman pereparatları, tibbdə və məişətdə geniş istifadə edilən cövhər, krem və yağlar, habelə bölgənin mineral xammallarının kimyəvi emalı yolu ilə müxtəlif tərkibli duzlar alınması sahəsində önəmli tədqiqatlar aparılmış, nəticələr əldə olunmuşdur. Elmi kadrlar hazırlanmasına da başla-



nılmışdı. Bu məqsədlə 1998-ci ildə Naxçıvan Dövlət Universitetndə dörd ixtisas üzrə Dissertasiya Şurası yaradıldı.

Naxçıvan Dövlət Universitetinin prorektoru İsa Həbibbəyli Nizami adına Ədəbiyyat İnstitutunda "Azərbaycan ədəbiyyatı" ixtisasından (10.01.03) "Cəlil Məmmədquluzadə: mühiti və müasirləri" mövzusunda elmlər doktoru dissertasiyası müdafiə etdi. İ.Həbibbəylinin sədri olduğu Dissertasiya Şurası Naxçıvanda yüksək ixtisaslı elmi kadrların hazırlanmasında böyük rol oynadı. 1999-cu ildə Fizikadan və Vətən tarixindən doktorluq dissertasiyası müdafiəsi üçün Naxçıvan Dövlət Universitetinə birdəfəlik Dissertasiya Şurası verilmişdir. Universitetin prorektorları Zöhrab Vəliyev və İsmayıl Hacıyev doktorluq dissertasiyaları müdafiə etmişlər. Hər iki şuranın işində Ali Attestasiya Komissiyasının sədri akademik Azad Mirzəcanzadə iştirak etmişdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvanda elmi qurumların statusunun artırılması, Naxçıvanın hərtərəfli öyrənilməsi üçün yeni elmi müəssisənin yaradılması ilə bağlı ölkə prezidentinə müraciət etmişdi. Müraciət və təklif təqdir olunmuş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə AMEA Naxçıvan Bölməsi yaradıldı.[616]

Bu bölmənin yaradılması strateji məqsədlərə hesablanmış və muxtar respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açmışdır. Naxçıvan Bölməsinin yaradılmasına sərəncam verən ulu öndər həm də onun qarşısında ciddi vəzifələr qoyaraq demişdir: "Mən bununla Naxçıvan Muxtar Respublikasının indiyə qədər çox az öyrənilmiş qədim tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının yenidən dərindən araşdırılması və onlar haqqında elmi əsərlərin, populyar kitabların, yaxud başqa nəşrlərin hazırlanması məqsədi daşıyıram. Eyni zamanda, Naxçıvanın özünəməxsus təbiəti, təbii sərvətləri, torpağı, təbii abidələri də, təəssüf olsun ki, indiyə qədər lazımi dərəcədə öyrənilməyib,

[616] "Ədəbiyyat" qəzeti, 2002, 8 avqust

bəlkə də düz olardı deyim ki, heç öyrənilməyibdir. Bunlara, mənim irəli sürdüyüm məsələlərin öyrənilməsinə böyük ehtiyac var. Ona görə ki, Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsi olaraq, Azərbaycan xalqının tarixində, ümumiyyətlə, Azərbaycan anlayışında çox böyük yer tutur".[617]

AMEA Naxçıvan Bölməsinin tərkibində "Tarix, Etnoqrafiya və Arxeologiya", "İncəsənət, Dil və Ədəbiyyat", "Təbii Ehtiyatlar", "Bioresurslar" institutları, Əlyazmalar Fondu və Batabat Astrofizika Rəsədxanası yaradıldı. AMEA Naxçıvan Bölməsinin yaradılması Naxçıvanda elmi mühitin canlanmasına və elmin inkişafına əsaslı təsir göstərdi. Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinin professor-müəllim heyətinin üzvləri də Naxçıvanda elmin inkişafında, elmi kadrların hazırlanmasında yaxından iştirak edirlər.

Elmin inkişafı bilavasitə yüksək ixtisaslı elmi kadrların səviyyəsindən, onların elmi fəaliyyətindən asılıdır. Naxçıvan Dövlət Universitetində və AMEA Naxçıvan Bölməsində doktorantura və dissertantura yolu ilə elmi kadrların hazırlanmasına diqqət yetirilmişdir. 1998-ci ildən Naxçıvan Dövlət Universitetində 4 ixtisas (Azərbaycan ədəbiyyatı, Vətən tarixi, Dilçilik, Ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi) üzrə Dissertasiya Şurasının fəaliyyəti yüksək ixtisaslı elmi kadrların hazırlanmasına öz müsbət təsirini göstərmişdir. 1998-2010-cu illərdə bu Şurada 104 nəfər namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir.[618] Həmin Şurada və bu Şuranın əsasında yaradılan Birdəfəlik Dissertasiya Şurasında Hüseyn Həşimli, Fərman Xəlilov, Sevindik Vəliyev, Sədaqət Həsənova, Əbülfəz Quliyev, Akif İmanlı, Həmid Arzulu, Qadir Qədirzadə, Fəxrəddin Səfərli, Həmzə Cəfərov, Oruc Həsənli, Məhərrəm Cəfərov, Yusif Səfərov elmlər doktoru dissertasiyası müdafiə etmişlər. İsmayıl Əliyev

[617] "Dirçəliş – XXI əsr" jurnalı. 2002, №54, s.11
[618] Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011, s.228-240



(pedaqogikanın nəzəriyyəsi və tarixi), Vəli Baxşəliyev (Arxeologiya), Adil Bağırov (Azərbaycan dili) isə doktorluq dissertasiyalarını müvafiq olaraq Azərbaycan Dövlət Pedaqoji Universitetində, Arxeologiya və Etnoqrafiya İnstitutunda, Nəsimi adına Dilçilik İnstitutunda müdafiə etmişlər. İqdisadi nəzəriyyə, xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi ixtisasları üzrə Asif Şirəliyev, Nazim Əhmədov, Ağarza Rüstəmov doktorluq dissertasiyalarını müvəffəqiyyətlə başa çatdırmışlar. Müxtəlif elm sahələrinin nümayəndələri də apardıqları elmi-tədqiqat işlərini yekunlaşdırmış və doktorluq dissertasiyaları müdafiə etmişlər: biologiya üzrə Tariyel Talıbov, Saleh Məhərrəmov, Əliyar İbrahimov, kimya üzrə Əliəddin Abbasov, Bayram Rzayev, Yasin Babayev, Tofiq Əliyev, fizika üzrə Vəli Hüseynov, riyaziyyat üzrə Sadıq Vəliyev, Yaqub Məmmədov, fəlsəfə üzrə Məmməd Rzayev, Qərib Allahverdiyev, Azərbaycan ədəbiyyatı üzrə Əsgər Qədimov, Azərbaycan dilinin tədrisi metodikası üzrə Elbəyi Maqsudov və b.

2006-cı ildən isə AMEA Naxçıvan Bölməsində 3 ixtisas (Vətən tarixi, Müəssisələrin təşkili və idarə edilməsi, Arxeologiya) üzrə Dissertasiya Şurası yaradılmışdır. Fəaliyyəti dövründə bu şurada 75 nəfər fəlsəfə doktoru, o cümlədən 10 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir. 2013-cü ildən həmin şuraya doktorluq Müdafiə Şurası səlahiyyəti verilmişdir. Bu şurada muxtar respublikanın elmi iş aparan tədqiqatçıları da fəlsəfə doktoru və elmlər doktoru dissertasiyasının müdafiəsi həyata keçirilmişdir.

1998-2010-cu illərdə muxtar respublikamızda yaşayan tədqiqatçılardan 102-si namizədlik dissertasiyası müdafiə edərək elmi dərəcə almışlar. 16-sı isə doktorluq dissertasiyası müdafiə etmişdir. Hazırda muxtar respublikada 35 elmlər doktoru, 178 fəlsəfə doktoru fəaliyyət göstərir.[619] Azərbaycan Milli Elmlər Akademiyasına 2003, 2007 və 2014-cü illərdə keçirilən seçki-

[619] 2000-2005-ci illərdə Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişaf. Naxçıvan: Əcəmi NPB, 2006, s.70

lərdə Naxçıvandan olan elm adamlarından 3-ü akademik, 13-ü müxbir üzv seçilmişdir.[620]

Elmi-tədqiqat işlərinin səmərəliliyi onun üçün yaradılmış maddi-texniki baza ilə bilavasitə əlaqədardır. Müasir elm texnika və texnologiyanın ən son nailiyyətlərinə istinad ediləndə uğur qazana bilir. Bu cəhətdən həm Naxçıvan Bölməsində, həm də ali təhsil müəssisələrində, xüsusilə Naxçıvan Dövlət Universitetində olan şöbə və laboratoriyaların cihaz və avadanlıqlarla təchizi məsələsi diqqəti cəlb edir. Artıq hər bir elmi işçinin kompüter texnologiyası ilə təmin edilməsi, internet şəbəkəsindən istifadə etməsi ən son istehsal edilmiş cihazlar əsasında tədqiqat aparmaq imkanları reallaşır. Hər il bu məqsədlə xeyli vəsait sərf edilir. Təkcə 2010-cu ilin I yarısında AMEA Naxçıvan Bölməsinin Kimya və Biokimya laboratoriyaları üçün 32 adda cihaz və avadanlıq alınmışdır.[621] Naxçıvan Bölməsinin və Naxçıvan Dövlət Universitetinin tədqiqatçıları üçün ən yaxşı təchiz edilmiş şöbə və laboratoriyalar qurulmuşdur.

AMEA Naxçıvan Bölməsinin 6 elmi-tədqiqat müəssisəsinin 100-ə yaxın elmi işçisi, ali təhsil müəssisələrinin 420 professor-müəllim heyəti elmi-tədqiqat işləri ilə bu və ya digər səviyyədə məşğuldurlar. Onların apardıqları elmi-tədqiqat işlərinin nəticələri dünyanın müxtəlif ölkələrinin ən nüfuzlu jurnallarında, ölkəmizin və muxtar respublikamızın elmi jurnallarında, "Xəbərlər"ində dərc edilir. 1995-2015-ci illərdə muxtar respublika tədqiqatçılarının 208 monoqrafiyası, 750-yə yaxın kitabı, 320-dən çox dərslik, dərs və tədris vəsaiti, 18342 məqalə və tezisi nəşr edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin təsis etdiyi "Naxçıvan" (ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik) jurnalı, AMEA Naxçıvan Bölməsinin "Xəbərlər"i, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat

[620] Azərbaycan Milli Elmlər Akademiyasının 2014-cü ildəki fəaliyyəti haqqında hesabat. Bakı: Elm, 2015. s.119-121; Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011. s.215

[621] Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2010-cu ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxşıvan: Tusi, 2010, s.101-102



İnstitutunun "Axtarışlar"ı, Naxçıvan Dövlət Universitetinin "Elmi əsərlər"i və Naxçıvan Müəllimlər İnstitutunun "Xəbərlər" jurnalı həm beynəlxalq kod almış, həm də Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qəbul etdiyi dövri nəşrlər siyahısına daxil edilmişdir.

Naxçıvanlı alimlər hər il dünyanın müxtəlif nüfuzlu jurnallarında elmi məqalələrini nəşr etdirirlər. Bir sıra jurnalların xüsusi nömrələri Naxçıvana həsr olunur.

Ali Məclis Sədrinin bilavasitə dəstəyi, qayğısı və himayəsi ilə Naxçıvan Muxtar Respublikasının tarixinin, abidələrinin, folklorunun, ədəbi-mədəni mühitinin, biomüxtəlifliyinin, təbii sərvətlərinin öyrənilməsi istiqamətində tədqiqat işləri aparılmış, bir sıra ümumiləşdirici əsərlər, kitab və monoqrafiyalar çap edilmişdir. Naxçıvanlı tədqiqatçıların yaxından iştirakı ilə 2002-ci ildə "Naxçıvan ensiklopediyası" nəşr olundu. Bir neçə ildən sonra AMEA Naxçıvan Bölməsi həmin ensiklopediyaya xeyli əlavələr etməklə yenidən işlədi və iki cilddə işıq üzü gördü. "Naxçıvan abidələri" ensiklopediyası (Azərbaycan və ingilis dillərində), "Naxçıvan: tarixi və abidələri" (Azərbaycan və ingilis dillərində), "Naxçıvanın Tarixi Atlası", "Naxçıvanın Folklor Antologiyası" (üç cilddə), "Naxçıvan teatrının salnaməsi" (1883-2008-ci illər), Naxçıvan Muxtar Respublikası flora və faunasının "Qırmızı kitab"ları (I və II cildlər), "Naxçıvan Muxtar Respublikasının ampeloqrafiyası", "Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri: mövcud vəziyyəti və perspektivləri", "Naxçıvan dialektləri", "Naxçıvan Muxtar Respublikasının dərman bitkiləri", "Naxçıvan arxeologiyası", "Naxçıvan tarixi" (üç cilddə) və başqaları elmi ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. Elm və ali təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin nəticələri geniş müzakirə edilir, uğurlar təqdir edilir, "İlin alimi" adına layiq görülən tədqiqatçılar mükafatlandırılır, nöqsanların, çatışmazlıqların aradan qaldırılması yolları müəyyənləşdirilir. İlk dəfə olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin kollegiya iclası və AMEA Rəyasət Heyətinin üzvlərinin iştirakı ilə

AMEA Naxçıvan Bölməsinin 2008-ci ilin elmi və elmi-təşkilati fəaliyyətinin yekunlarına həsr edilmiş hesabat yığıncağı 2009-cu ilin fevralında və AMEA Rəyasət Heyətinin səyyar iclası 2015-ci ilin iyulunda Naxçıvanda keçirilmişdir.

Hər iki iclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov proqram xarakterli çıxış etmişdir. AMEA Rəyasət Heyətinin səyyar iclasında çıxış edən Ali Məclis Sədri demişdir: "Elmi tədqiqatlar o vaxt ideyadan əməli işə keçir ki, onun reallaşmasına şərait yaradılsın. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə və onun Naxçıvan Muxtar Respubikasında elm infrastrukturu tamamilə yenidən qurulub. Azərbaycan elmi qabaqcıl dünya təcrübəsi əsas götürülərək inkişaf etdirilir. Naxçıvan Muxtar Respublikasında da elmin iqtisadiyyata tətbiqi dayanıqlı inkişafın əsas şərtidir. Artıq muxtar respublikada həyata keçirilən iqtisadi islahatlar ciddi elmi-nəzəri əsaslara söykənir".[622]

AMEA-nın prezidenti akademik Akif Əlizadə çıxışında qeyd etmişdir ki, son illər Akademiyanın Naxçıvan Bölməsinin maddi-texniki bazasının gücləndirilməsi, strukturunun, elmi prioritetlərinin müəyyənləşdirilməsi sahəsində də kompleks tədbirlər görülmüşdür.

Artıq Naxçıvan Bölməsinin elmi nəticələrinin məhsulu olan akademik nəşrləri ölkəmizdə rəğbətlə qarşılanan qiymətli elmi əsərlərdir. Burada elmdən təcrübəyə istiqamətində görülən işlər bir nümunə gücündədir.[623] Naxçıvanda elmi mühitin yaranması, yüksək ixtisaslı elmi kadrların formalaşması müxtəlif elm sahələrinin inkişafına səbəb olmuşdur.

Naxçıvan elm adamlarının fəallığı Naxçıvanın tarixi, arxeologiyası, etnoqrafiyası, mədəniyyəti, ədəbiyyatı, dialekt və şivələri, təbii və bioloji müxtəliflikləri, təbii sərvətləri və sair sahələri dərin araşdırmalara cəlb etmişdir. Aparılan ciddi elmi fəaliyyətlər Naxçıvanda tarix, ədəbiyyat, dilçilik, arxeologiya,

[622] "Şərq qapısı" qəzeti, 2015, 7 iyul
[623] Yenə orada



botanika və başqa sahələrdə məktəblərin formalaşmasına da uyğun töhfələrini vermişdir. Alimlərin ciddi tədqiqatlarının nəticəsidir ki, Naxçıvanın tarixi və arxeologiyası sahəsində daha sanballı nəticələr əldə edilmiş, Naxçıvanın yaşayış tarixi 500-300 min ilə, ilkin şəhər mədəniyyətinin yaranmasının 5 min ildən artıq tarixə malik olması, Naxçıvanın Kür-Araz mədəniyyətinin ilk beşiklərindən biri, boyalı qablar mədəniyyətinin bu ərazidə formalaşması, eləcə də bu mədəniyyəti yaradan tayfaların Naxçıvan ərazisində yaşaması,[624] Naxçıvan ərazisində II Kültəpə, Şahtaxtı, Nuhdaban, Oğlanqala və Naxçıvan şəhər dövlətlərinin, Duzdağın mədən üsulu ilə dünyada duz çıxarılan (e.ə.V-IV minillik) ilk duz mədəni, Naxçıvan ərazisində çoxsaylı tarix və mədəniyyət abidələrinin aşkar edilməsi və başqalarını göstərə bilərik. Xüsusilə qeyd etmək lazımdır ki, ulu öndərimizin böyük tarixi məkan hesab etdiyi və həmişə vurguladığı, alimlərə tövsiyə edərək bildirdiyi Gəmiqaya abidələrində alimlərimizin apardığı araşdırmalar, habelə Naxçıvandakı Ovçulartəpəsi, Oğlanqala, Qızqalası, I Kültəpə, Xaraba Gilan, Duzdağ, Sirab ətrafı və başqa ərazilərdə aparılmış arxeoloji tədqiqatlar zamanı tarixi əhəmiyyət kəsb edən maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Uğurlu tədqiqatlar aparan naxçıvanlı alimlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında", "Naxçıvan şəhərindəki "Əcəmi seyrangahı"nda Açıq Səma Altında Muzey yaradılması haqqında", "Naxçıvan Muxtar Respublikasının ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında", "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" və başqa sərəncamlarından irəli gələn vəzifələrin yerinə yetirilməsində mühüm rol oynamışlar. Naxçıvan ərazisində bizə hələlik məlum olan tarix və mədəniyyət abidələri müəyyənləşdirilmiş, öyrənilmiş və pasportlaşdırılmışdır. Muxtar respublika ərazisində

[624] "Şərq qapısı" qəzeti, 2015, 26 iyun

bu günədək 1202 tarix və mədəniyyət abidəsi qeydə alınmışdır.[625] Dünya və ölkə əhəmiyyətli 550-yə yaxın abidə əsasında "Naxçıvan abidələri" ensiklopediyası hazırlanmışdır.

Əvvəlki illərdə olduğu kimi, 2001-2015-ci illərdə də beynəlxalq və respublika səviyyəli elmi konfranslar, simpoziumlar keçirilmiş, bu elmi tədbirlərdəki məruzələr toplu halında nəşr edilmişdir. "Naxçıvanın tarixi, maddi və mənəvi mədəniyyəti, təbii sərvətlərinin öyrənilməsi" (2004), "Azərbaycanda elmin inkişafı və regional problemlər" (2005), "Naxçıvan: tarixi gerçəklik, müasir durum, inkişaf perspektivləri" (2006), "Naxçıvan Muxtar Respublikasının yaranması: tarix və müasirlik" (2007), "Naxçıvan bu gün: islahatlar, perspektivlər" (2008), "Nuh peyğəmbər, dünya tufanı və Naxçıvan" (2009), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" (2011), "Naxçıvan: ilkin şəhər və Duzdağ" (2012), "Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir" (2014) mövzusunda keçirilən elmi konfrans və simpoziumlar elmin inkişafına, bir sıra fakt və hadisələrin dəqiqləşdirilməsinə təsir etmişdir. Naxçıvanda elmin qayğıkeşi və himayəçisi olan Ali Məclisin Sədri bu simpoziumların keçirilməsinə dəstək verdiyi kimi, həmin tədbirlərin bir çoxunda iştirak etmiş və proqram xarakterli çıxışlar etmişdir. Çıxışlarda əldə olunan uğurlar qeyd edilməklə yanaşı, çatışmazlıqlar da göstərilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.[626] Ali Məclis Sədrinin çıxışlarında elmi-tədqiqatların faydalı iş əmsalının daha da artırılması, yeni elmi istiqamətlərin müəyyənləşdirilməsi, elmi tədqiqatların davamlı və sistemli xarakter alması mühüm vəzifə kimi tədqiqatçıların qarşısında qoyulmuşdur.

[625] Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 1996-2011. Naxçıvan: Əcəmi NPB, 2012, s. 380-501; Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2014. Naxçıvan: Əcəmi NPB, 2015, s. 15

[626] Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 1996-2011. Naxçıvan: Əcəmi NPB, 2012, s. 234-240, 404-410, 514-515; Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2012. Naxçıvan: Əcəmi NPB, 2013, s. 40-43; Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2014. Naxçıvan: Əcəmi NPB, 2015, s.104-108



Naxçıvanda elmin inkişafı elmi əlaqələrin də genişlənməsinə səbəb olmuşdur. Naxçıvanın elm adamları dünyanın müxtəlif ölkələrində keçirilən elmi tədbirlərdə, beynəlxalq səviyyəli simpoziumlarda iştirak və çıxış edirlər. Naxçıvanlı alimlərdən hər il 70-75 nəfərə yaxını 60-a yaxın beynəlxalq simpoziumlara qatılırlar. Təkcə belə bir faktı qeyd etməliyik ki, AMEA Naxçıvan Bölməsinin əməkdaşlarından son üç ildə 102 nəfər 142 beynəlxalq səviyyəli elmi simpoziumlara qatılmış və maraqlı məruzələrlə çıxış etmişlər.[627] Bu isə elmi əlaqələrin genişlənməsinə və elmi potensialın inkişafına müsbət təsir göstərir. Son illərdə Naxçıvanda 50-dən çox beynəlxalq simpozium keçirilmiş, həmin simpoziumlarda ABŞ, Rusiya, Ukrayna, Türkiyə, İran, Gürcüstan, Fransa və b. ölkələrdən gələn alimlər iştirak etmişlər.

Ümummilli lider Heydər Əliyev həm 70-80-ci illərdə, həm də ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra həmişə elm adamlarının, respublika ziyalılarının rəğbətləndirilməsinə diqqət və qayğı göstərmişdir. Ulu öndərin bu siyasəti ölkə rəhbəri İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilmişdir. Naxçıvanın maarifçi ziyalıları və elm adamları dövlətimizin göstərdiyi qayğını daim hiss etmişlər. Naxçıvanın bir qrup elm və təhsil işçisi orden və medallarla təltif olunmuş, yüksək fəxri adlara layiq görülmüş, 2 nəfəri Azərbaycan Respublikası Milli Məclisinə, 15 nəfəri isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə deputat seçilmişdir. 6 nəfər Azərbaycan Respublikasının "Əməkdar elm xadimi", 2 nəfər "Şöhrət" və "Şərəf" ordenlərinə, onlarla tədqiqatçı "Tərəqqi" medalına və fəxri adlara layiq görülmüşdür.

Ölkə Prezidenti İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun ziyalılara, elm adamlarına göstərdiyi diqqət və qayğı Azərbaycanın hər yerində, o cümlədən muxtar respublikada yeni mərhələdə elmin, milli ziyalılığın inkişafına öz müsbət təsirini göstərməkdədir.

[627] Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin 2012-ci ilə aid elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat. Naxçıvan: Tusi, 2012, s. 120

## 4.3. Mədəni-maarif

Qədim tarixə, zəngin mədəniyyətə malik Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir. İnkişaf səviyyəsinə görə muxtar respublikanın heç bir dövrünü 1996-2015-ci illərlə müqayisə etmək olmaz. Bu, mədəni-maarif müəssisələrinin inkişafına da aiddir. Muxtar respublika rəhbərliyinin apardığı məqsədyönlü işin nəticəsidir ki, bu tərəqqi mədəniyyətin inkişafında da özünü göstərməkdədir. Bu illərdə muxtar respublikada mədəni-maarif müəssisələrinin geniş şəbəkəsi yaradılmışdır. Naxçıvan Muxtar Respublikasının mədəni-maarif müəssisələri, tarix və mədəniyyət abidələri heç vaxt indiki qayğını görməmiş və bu səviyyədə nə inkişaf etmiş, nə də qorunmuşdur. Tarixi-mədəni irsin qorunması və təbliği, mədəni potensialın daha da inkişaf etdirilməsi son illər ərzində diqqət mərkəzində saxlanılmış, mədəniyyət obyektlərinin inşası və yenidən qurulması davamlı xarakter almışdır. Ümummilli liderimizin xatirəsini əbədiləşdirmək məqsədilə möhtəşəm abidələr ucaldılmışdır. Muxtar respublikanın şəhər və rayonlarında yeni parklar, bulaq-abidə kompleksləri, mədəniyyət evləri, klub və kitabxanalar, şəhidlərin xatirələrinə ucaldılmış abidələr istifadəyə verilmişdir.

Muxtar respublikada kitabxanalar və orada saxlanılan kitab və jurnal fondu artmışdır. 1970-ci ildə muxtar respublikada 1286 min kitab və jurnal fondu olan 232 kütləvi kitabxana var idisə, 2000-ci ildə bu, 2399 min nüsxə kitab və jurnal fondu olan 295-ə çatmış və ya 1970-ci illə müqayisədə müvafiq olaraq 28,4 faiz və 1,9 dəfə artmışdır.[628] Kitabxanaların 88,6 faizi, onlardakı kitab və jurnalların isə 66,6 faizi kənd yaşayış məntəqələrinin payına düşür. Kitabxanalar hər il 150-160 min nəfərə kitabxana xidməti göstərir.

Muxtar respublikanın bölgələrində inşa olunan 100-dən çox kənd mərkəzlərində kitabxanalar üçün nümunəvi şərait yaradılmışdır. 2009-cu ildə inşa olunmuş kənd mərkəzlərində 11

[628] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s. 147



kitabxana, 11 mədəniyyət evi və klub əhalinin istifadəsinə verilmişdir.[629] 2005-ci ildən başlayaraq Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 12 yanvar tarixli sərəncamı ilə nəşr olunan latın qrafikalı 400 mindən çox kitab kitabxanalara hədiyyə olunmuşdur.[630] 2006-cı ildə 139293, 2007-ci ildə isə 46650 nüsxə latın qrafikalı kitab və digər çap məhsulları kitabxanalara paylanmışdır. Ölkə Prezidenti İlham Əliyevin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 2007-ci il 20 aprel tarixli Sərəncamının nəticəsi olaraq, əksər ölkə kitabxanaları kimi muxtar respublika kitabxanalarının da inkişafında yeni üfüqlər açılmışdır.

Muxtar respublikanın kitabxanaları içərisində 93 illik tarixi olan M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanası fəaliyyəti ilə diqqəti həmişə cəlb etmişdir. 1922-ci ildə Azərbaycan Xalq Maarif Komissarlığı tərəfindən Naxçıvan Şəhər Kitabxanası təsis edilmiş, 1930-cu ildə həmin kitabxananın bazasında Naxçıvan Muxtar Respublika Kitabxanası yaradılmışdır.[631] Kitabxanaya 1953-cü ildə görkəmli ədib Məmməd Səid Ordubadinin adı verilmişdir. Kitabxananın indiki binası 1957-ci ildə tikilmişdir. Kitabxana binası əsaslı təmir və yenidənqurmadan sonra 2007-ci il sentyabrın 17-də istifadəyə verilmişdir. Elə həmin il kitabxanaya "Respublika əhəmiyyətli kitabxana" statusu verilmişdir.

Kitabxanada 4 bölmə və 10 şöbə: Metodika və biblioqrafiya, İnformasiya-resurs, Komplektləşdirmə, Kitabişləmə və kataloqlaşdırma, Musiqi-not və Abonoment, Xidmət, Kitabsaxlayıcı, Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması, Kütləvi iş şöbələri, Oxu, Dövri mətbuat və elektron oxu zalları, Depozitor fond fəaliyyət göstərir.[632] 2014-cü ilin dekabrında Miniatür kitab şöbəsi açılmışdır ki, burda 1000-dən çox miniatür

[629] 2009-cu ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının qısa xülasəsi. Naxçıvan: Əcəmi NPB, 2010, s.36

[630] "Şərq qapısı" qəzeti, 2014, 25 aprel

[631] "Şərq qapısı" qəzeti, 2012, 28 sentyabr

[632] Yenə orada, 2012, 28 sentyabr

kitabın sərgilənməsi təşkil edilib.[633] Hazırda kitabxanada 285 mindən artıq kitab saxlanılır. Kitabxananın 57 əməkdaşı 21 min oxucuya xidmət göstərir.[634]

Muxtar respublikada bütün sahələr kimi, kitabxanalar da qayğı ilə əhatə olunub. Kitabxanalar yeni kitablarla zənginləşdirilir, onların maddi-texniki bazaları yaxşılaşdırılır, yeni elektron kitabxanalar yaradılır. Naxçıvan Muxtar Respublika Kitabxanasında, Ali Məclisin Naxçıvanşünaslıq Mərkəzində, Naxçıvan Dövlət Universitetində, Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunda elektron kitabxanaların, həmçinin Naxçıvan Regional İnformasiya Mərkəzində məhdud fiziki imkanlılar üçün audio və elektron kitabxana xidmətinin yaradılması muxtar respublikada kitabxanalara, kitab mütaliəsinə göstərilən diqqət və qayğının əyani ifadəsidir. Mədəni-maarif müəssisələri arasında klubların özünəməxsus yeri vardır. Muxtar respublikada klubların fəaliyyəti canlandırılmış və onların işi təmin edilmişdir.

1970-ci ildə muxtar respublikada 166 klub müəssisəsi fəaliyyət göstərirdisə, 2000-ci ildə onların sayı 265-ə çatmış və ya həmin illərlə müqayisədə 1,6 dəfə artmışdır. Klubların 19-u, yaxud 7,2 faizi şəhərlərdə, 246-sı, yaxud 92,8 faizi kənd yerlərindədir.[635]

Muxtar respublikada 1996-2010-cu illərdə 272 mədəniyyət obyekti tikilmiş və ya əsaslı təmir olunmuşdur.[636] Bu illər ərzində mədəniyyət müəssisələrinin şəbəkəsinin genişləndirilməsi ilə bağlı mühüm addımlar atılmışdır. Belə ki, 1997-2002-ci illər ərzində muxtar respublikada 8 muzey yaradılmış, muzeylərin sayı

[633] "Şərq qapısı" qəzeti, 2014, 19 dekabr
[634] "Azad Azərbaycan" qəzeti, 2012, 24 aprel
[635] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s. 147-148.
[636] Həbibbəyli İ.Ə. Hacıyev İ.M., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəm NPB, 2011, s. 158.



13-dən 28-ə çatdırılmış,[637] maddi-mədəniyyət nümunələrinin sayı 80 mindən 110 minə qaldırılmışdır.[638]

Naxçıvan şəhərində Heydər Əliyev Muzeyi, Heydər Əliyev Sarayı, Xatirə Muzeyi, Xalça Muzeyi, Naxçıvan Dövlət Tarix Muzeyi, C.Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi, Hüseyn Cavidin, Cəlil Məmmədquluzadənin, Cəmşid Naxçıvanskinin, Məmməd Səid Ordubadinin, Yusif Məmmədəliyevin ev muzeyləri, Bəhruz Kəngərli Muzeyi, Babək və Sədərək rayonlarında tarix-diyarşünaslıq muzeyləri, "Xan Sarayı" Dövlət-Tarix-Memarlıq, Mömünə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və b. yaradılmış, yaxud yenidən qurulmuşdur. C.Məmmədquluzadənin ev muzeyinin və Bəhruz Kəngərli Muzeyinin açılışında ulu öndər Heydər Əliyev iştirak etmi° və geni° nitq söyləmi°dir.[639]

Muzeylər üçün yeni binaların ayrılması, təmiri və yenidən qurulması sonrakı illərdə də davam etdirilmişdir. Muzeylər tarixi keçmişimizi gələcəyə aparan əsas vasitədir. Bu vasitə hər cür qorunmalı və inkişaf etdirilməlidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyul tarixli Sərəncamı ilə Əcəmi Seyrangahında Açıq Səma Altında Muzey yaradıldı.[640]

Muzeyin yaradılmasında əsas məqsəd isə qədim tarixə malik olan diyarımızın daş kitabələri, qoç heykəlləri, qəbirüstü daşları mühafizə və nümayiş etdirmək, mədəniyyət nümunələri vasitəsilə tariximizin qədimliyini göstərməkdir. Muzey 80 eksponatla fəaliyyətə başlasa da, bu gün onların sayı 300-dən çoxdur.

[637] "Şərq qapısı" qəzeti, 2015, 21 aprel
[638] Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan. Əcəmi NPB. 2011, s.176; "Şərq qapısı" qəzeti. 2014, 25 aprel
[639] Kəngərli S.F. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxçıvan: Əcəmi NPB, 2003, s.53-61, 67-76
[640] Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 1996-2011. Naxçıvan: Əcəmi NPB, 2012, s. 118

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli Sərəncamı ölkəmizdə bu sahənin inkişafına əlavə stimul vermişdir. Muxtar respublikada muzeylərin şəbəkəsinin genişləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, Naxçıvan Dövlət Tarix Muzeyi, Ordubad, Kəngərli, Şahbuz və Heydərabad qəsəbələrindəki tarix-diyarşünaslıq muzeyləri, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyi yeni binalara köçürülmüş, bir sıra muzeylər əsaslı təmir olunmuş, ekspozisiyaları yenidən qurulmuşdur.

Ölkə başçısı 22 may 2009-cu il tarixdə "Azərbaycanın regionlarında fəaliyyət göstərən muzeylərin müasir standartlara uyğun təmirinə, yeni avadanlıq və zəruri eksponatlarla təchizatına dair xüsusi tədbirlər planının təsdiq edilməsi haqqında" Sərəncam imzalamışdır.

Həmin sərəncamdan sonra Ordubad şəhərində M.S.Ordubadinin ev muzeyi yenidən qurulmuşdur. Naxçıvan Dövlət Xalça Muzeyi yeni binaya köçürülmüş, Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilərin ev muzeyi yaradılmışdır. Muzeylərin işindən bəhs edən Ali Məclisin Sədri demişdir: "...İş muzeylərin yaranması ilə bitmir, onların daim zənginləşdirilməsi, tamaşaçıların muzeylərə cəlb olunması işinə də ciddi diqqət yetirilməlidir. Çünki muzey eksponatları bizim tariximizdir, tariximizi qorumaq, öyrənmək, təbliğ etmək isə ən vacib məsələlərdən biridir".[641]

2010-cu ildə muxtar respublikada 2 muzey yaradılmışdır. Ali Məclis Sədrinin 2010-cu il 9 fevral tarixli Sərəncamı ilə yaradılan Şahtaxtinskilər Muzeyi, 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılan "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi qədim yurdun görkəmli şəxsiyyətlərinə ehtiramın ifadəsidir. Muxtar respublikamızda dəniz səviyyəsindən 3906 metr yüksəklikdə Gəmiqaya Muzeyi yaradılmışdır. Ali Məclis

[641] "Şərq qapısı" qəzeti, 2010, 20 mart



Sədrinin 2013-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", yenə həmin il 28 iyunda "Xalq şairi Məmməd Arazın ev muzeyinin yaradılması haqqında", 2014-cü il 11 fevralda "Əlincəqala" tarixi abidələrinin bərpa edilməsi haqqında", 2014-cü 17 sentyabrda "Görkəmli maarifçi Məhəmməd Tağı Sidqinin ev muzeyinin yaradılması haqqında" sərəncamları bu sahədə aparılan işlərin ardıcıllığını və davam etdirildiyini göstərir.[642]

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" 2014-cü il 19 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada "Muzey günləri"nin təşkil olunması bu baxımdan böyük əhəmiyyət daşıyır. Muzeylər elə ünvanlardır ki, buraya üz tutanlar mənsub olduqları xalqın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında mütləq yeni məlumatlar əldə etmək imkanı qazanırlar. Bu amil nəzərə alınaraq muxtar respublikada keçirilən "Muzey günləri"ndə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, müxtəlif təşkilatların əməkdaşları muzeylərə gedir, görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətini, tariximizi, mədəniyyətimizi, milli dəyərlərimizi özündə əks etdirən eksponatlarla tanış olurlar.

Son illər muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, mədəni irsimizin qorunması işinə diqqət artırılmışdır. Muxtar respublikada xalçaçılıq sənətinin yaşadılması istiqamətində görülən işlər bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Naxçıvan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin edilmiş, 2013-cü

[642] Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 1996-2011. Naxçıvan: Əcəmi NPB, 2012, s. 474, 482; Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2013. Naxçıvan: Əcəmi NPB, 2014, s. 10-11,16; Naxçıvan Muxtar Respublikası Ali Məclisi. Rəsmi sənədləri. 2014. Naxçıvan: Əcəmi NPB, 2015, s. 15-16

ildə isə muzeyin ekspozisiyası yenidən qurulmuşdur. Hazırda muzeydə 3292 eksponat vardır.[643]

Mədəni-maarif müəssisələri arasında teatrların öz yeri və rolu vardır. Teatrlarımıza dövlət qayğısını muxtar respublikamızda fəaliyyət göstərən sənət ocaqlarının timsalında aydın görmək mümkündür. Naxçıvanın mədəni həyatında mühüm rol oynayan teatrlarımız yüksək dövlət qayğısı ilə əhatə olunmuşdur. Muxtar respublikamızda teatrın zəngin ənənələrinin qorunması, milli teatr sənətinin davamlı inkişafının təmin edilməsi, teatrların maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2005-ci ildə muxtar respublikada 2 peşəkar teatr (C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı və M.T.Sidqi adına Naxçıvan Kukla Teatrı), Naxçıvan Ordubad və Şərur xalq teatrları, Hüseyn Cavid poeziya teatrı fəaliyyət göstərmişdir. "Şərur" Xalq Yallı Ansamblı müxtəlif illərdə Türkiyədə, Misirdə, "Şərur qönçələri" yallı qrupu isə bir sıra ölkələrdə ölkəmizi müvəffəqiyyətlə təmsil etmişlər. Naxçıvan Dövlət Musiqili Dram Teatrı bu illərdə Türkiyə Respublikasının, İran İslam Respublikasının müxtəlif şəhərlərində, Bakı şəhərində, respublikamızın digər bölgələrində dəfələrlə qastrol səfərlərində olmuşdur.

Prezident İlham Əliyevin 2008-ci il 31 yanvar tarixli Sərəncamı ilə C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illiyi təntənə ilə qeyd edilmişdir. Teatr kollektivinin bir qrup əməkdaşı ən yüksək mükafatlara, fəxri adlara layiq görülmüşdür. Ş.Abutalıbov, R.Hüseynov, R.Xudiyev, T.Mövləvi,Y.Ramazanova Azərbaycan Respublikasının xalq artisti, Y.Allahverdiyev, Ə.Əliyev, E.Kərimova, V.Rəcəbli Azərbaycan Respublikasının əməkdar artisti, H.Ağasoy, N.Xudiyeva, K.Quliyev isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur.[644] 2012-ci

[643] "Şərq qapısı" qəzeti, 2015, 30 iyun

[644] Qəhrəmanov Ə., İbrahimov S., Səfərov F. Naxçıvan teatrının salnaməsi. Naxçıvan: Əcəmi NPB, 2010, 736 s.7-8



il fevralın 3-də teatrın binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 4 oktyabr tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Teatrı ölkəmizdə fəaliyyət göstərən 2 uşaq teatrından biri kimi balaca tamaşaçıların sevimli ünvanına çevrilmişdir. Qısa zaman ərzində bu teatr muxtar respublikanın mədəni həyatında layiqli yer tuta bilmişdir.

Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı müxtəlif illərdə Bakıda, İran və Türkiyənin müxtəlif şəhərlərində qastrol səfərlərində olmuşdur.

Naxçıvan Dövlət Universitetinin Tələbə teatr studiyası, Tələbə opera studiyasının hazırladığı tamaşalar və operalar Azərbaycan tamaşaçıları ilə yanaşı, Rusiya, Türkiyə və Gürcüstan tamaşaçılarına da yüksək səviyyədə təqdim edilmişdir.

Ümumiyyətlə, 1950-ci ildə Naxçıvanda 1 teatr fəaliyyət göstərmişsə, artıq bu gün Naxçıvan Muxtar Respublikasında 3 dövlət teatrı və 4 xalq teatrı, 1 dövlət filarmoniyası, 1 uşaq dövlət filarmoniyası, Aşıqlar Birliyi fəaliyyət göstərir.[645]

Naxçıvan Muxtar Respublikasının ərazisi tarix və mədəniyyət abidələri ilə zəngindir. Tarix və mədəniyyət abidələri özlərinin ikinci həyatını yaşayır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 6 dekabr 2005-ci il tarixli Sərəncamından sonra bu sahəyə diqqət artırılmışdır. Naxçıvan diyarının tarixi və arxeologiyasının öyrənilməsi ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20-yə yaxın fərman və sərəncamı olmuşdur. "Uluslararası qaynaqlarda Naxçıvan" mövzusunda simpoziumun keçirilməsi haqqında" (1996, 24 mart), "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" (2001, 26 aprel), "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin

[645] Həbibbəyli İ.Ə, Hacıyev İ.M., İsmayılov B. İntibahın 15 ili. Naxçıvan: Əcəmi NPB. 2011, s. 158-159

bərpa edilməsi haqqında" (2006, 28 iyun), "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında" (2010, 23 oktyabr), "Nuh peyğəmbər: dünya tufanı və Naxçıvan" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" (2003, 10 fevral), "Naxçıvan: ilk yaşayış və şəhərsalma yeri kimi" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" (2011, 7 iyun), "Naxçıvan: ilkin şəhər və Duzdağ" mövzusunda beynəlxalq simpoziumun keçirilməsi haqqında" (2012, 20 aprel), "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə" (2012, 6 avqust), "Naxçıvanqala" Tarix-Memarlıq Kompleksinin yaradılması haqqında" (2013, 5 iyun), "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" (2014, 11 fevral) sərəncamları tariximizə, tarix və mədəniyyət abidələrimizə qayğı və diqqətin ən bariz nümunəsidir. Bu sərəncamlardan sonra 50-dən artıq tarixi abidə bərpa və restavrasiya edilmişdir. Bunlara Möminə Xatın və Qarabağlar memarlıq kompleksini, Əshabi-Kəhf, İmamzadə, Buzxana abidələrini, Came məscidini, Zaviyyə mədrəsə binasını, İsmayılxan hamamını, Yusif Küseyr oğlu türbəsini, Xan Sarayını, Ordubadda Aza körpüsünü, Şərq hamamını, qədim Zorxana (Qeysəriyyə) abidəsini, Buzxananı, Culfadakı Xanəgah kompleksini və b. aid etmək olar. Naxçıvan şəhərində Heydər Əliyevin, Dədə Qorqudun, Babəkin, Koroğlunun, Cəlil Məmmədquluzadənin, Əcəmi Naxçıvaninin, Mustafa Kamal Atatürkün abidələri ucaldılmış, abidələrin yerləşdiyi meydanlar yenidən qurulmuş, "Nuh peyğəmbər"in məzarüstü türbəsi bərpa olunmuş, Hüseyn Cavidin möhtəşəm məqbərəsi tikilmiş, "Ana dili" abidəsi, Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılmışdır. Naxçıvan şəhərində qədim Qala tarixi abidəsi bərpa edilmiş, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır.

Mədəniyyət və istirahət parkları təmir olunmuş, yenidən qurulmuşdur. Naxçıvan şəhərində Heydər Əliyev Sarayı, Heydər Əliyev Mədəniyyət və İstirahət Parkı, Şərur şəhərində Heydər Parkı və bir sıra ev muzeylərinin tikintisi başa çatdırılmışdır.



Beləliklə, mədəni-maarif sahəsindəki dəyişikliklər və inkişaf Muxtar Respublika Ali Məclisi Sədrinin məqsədyönlü fəaliyyətinin, qətiyyətli və prinsipial mövqeyinin və fədakar işinin nəticəsi kimi ortaya çıxmışdır.

### 4.4. Ədəbiyyat

Naxçıvan diyarı zəngin ədəbi ənənələrə malikdir. Xalq ədəbiyyatında Naxçıvan motivləri əhəmiyyətli yer tutur. "Kitabi-Dədə Qorqud" dastanının boylarında Naxçıvan bölgəsi ilə səsləşən süjetlərə və yer-yurd adlarına rast gəlinir.[646]

Naxçıvan folklorunda Azərbaycan şifahi xalq ədəbiyyatının bütün janrları təmsil olunmuşdur. Əsasən, bu diyara xas olan janrlara aid xeyli nümunələr də var. Diyarda xalq ədəbiyyatının mühüm qollarından olan aşıq sənəti də inkişaf etmişdir.

XIX əsrdə maarifçilik hərəkatının geniş yayılması bu bölgədə də ədəbiyyat və mədəniyyətin sürətli inkişafına təkan vermişdi. XIX əsrin 80-ci illərindən Naxçıvan ədəbi-mədəni mühitinə başçılıq edən Eynəli bəy Sultanov "Ziyalı məclisi", "Müsəlman şiə dram incəsənəti cəmiyyəti" yaratmış və yerli ziyalılar həmin cəmiyyətlərin ətrafında toplaşmışdı.

XX əsrdə Naxçıvan diyarı Azərbaycan ictimai, ədəbi-bədii fikrinə və mədəniyyətinə Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, Əliqulu Qəmküsar, İslam Səfərli, Məmməd Araz kimi böyük şəxsiyyətlər, dahi yazıçı, dramaturq, şair bəxş etmişdir.

Azərbaycan yazıçılarının böyük bir dəstəsi Naxçıvanda yaşayıb yaradır. Azərbaycan Yazıçılar Birliyinin Naxçıvan şöbəsinin yaradılması, "Şərq qapısı" qəzetinin nəşri, yerli radio və televiziya verlişləri Naxçıvanda ədəbi mühitin canlanmasına ciddi təkan vermişdir. XX əsrin 80-ci illərində ədəbiyyata yeni qüvvələr gəlmişdir. Elmira Qasımova, Validə Hüseynova, Adil Qasımov, Güllü Məmmədova, Akif Axundov, Həmid Arzulu,

[646] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s.157.

Altay Tağızadə, Həsən Valeh, Elman Həbib, Bayram İsgəndərli, Muxtar Qasımzadə, Vaqif Məmmədov, Asim Yadigar, Rafiq Babayev, Məmməd Tahir, Rahilə Elçin, Fərəc Fərəcov, Həsənəli Eyvazlı, İbrahim Yusifoğlu, Cavanşir Eloğlu, Budaq Təhməzov, İnqilab Orxan, Vaqif Kərimov və başqaları bu illər ərzində mərkəzi və yerli qəzetlərdə çıxışlar edir, bəziləri ilk kitablarını oxucuların ixtiyarına verirlər. Bu illərdə "Odlu ürəklər", "Arazın işıqları", "Arazın nəğmələri", "Arpa çayı aşdı-daşdı" almanaxları çap olunur.[647] Həmin almanaxlarda yaşlı şair və yazıçılarla yanaşı, adlarını yuxarıda qeyd etdiyimiz müəlliflərin də şeir və hekayələri işıq üzü görür.

80-ci illərdə artıq Naxçıvanda yeni ədəbi qüvvələr yetişirdi. Bu dövrdə ədəbiyyata Kəmaləddin Qədim, Xanəli Kərimli, Allahverdi Aqil, Rafiq Oday, Səhlab Məmmədov, Nəriman Zeynalzadə, Elbəyi Maqsudov, Sərdar Zeynalov, Kəmalə Nəsrin, Sərvər Məsum, Zeyqəm Vüqar, Hüseyn Bağır, Maarif Təmkin kimi istedadlı qələm sahibləri gəlirlər.

Həmin dövrdə şöbədə ayda bir dəfə "Gənc istedadlar klubu"nun məşğələsi keçirilirdi. Bəyənilən yazılar "Araz-1", "Araz - 2", "Araz - 3", "Yaşıl pöhrələr", "Qoy tanısın dünya səni" almanaxlarında çap edilirdi. XX əsrin 90-cı illərində və sonra Xalq yazıçısı Hüseyn İbrahimovun qayğısı ilə "Şəhidlik – ömrün nur çayı", "Araz - 4", "Tərənnüm", "Səhər nəğmələri" almanaxları çap olunub.

1980-ci illərdə SSRİ Yazıçılar İttifaqının Naxçıvandan cəmi 13 nəfər üzvü var idi. 1998-ci ildə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi müstəqil təşkilat kimi fəaliyyətə başlayıb. Birliyə yeni üzvlər qəbul olunub. Hal-hazırda Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin 80 üzvü vardı.[648] Sovet dövründə Naxçıvanda yaşayıb-yaradan şair və yazıçıların 150-yə

[647] "Şərq qapısı" qəzeti, 2014, 8 fevral
[648] Yenə orada, 2014, 8 fevral



qədər kitabı çap olunduğu halda, son 15-20 ildə 800-ə qədər kitab işıq üzü görüb.[649]

80-ci illərin sonu –90-cı illərin əvvəllərində respublikanın qarşılaşdığı hadisələrlə əlaqədar ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatındakı geriləmələr ədəbi mühitə də öz mənfi təsirini göstərmişdi. Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə həyatın bütün sahələrində dəyişikliklər baş verdi, mədəni həyatımız canlandı.

70-80-ci illərdə olduğu kimi, müstəqillik dövründə də ümummilli lider Heydər Əliyev yaradıcı adamların fəaliyyəti üçün lazım olan şəraiti yaradırdı. 80-ci illər ədəbiyyatının əsas vəzifəsi xalqı öz ardınca irəli aparmaq idi. Ulu öndərimiz ədəbiyyatımızın bu vəzifənin öhdəsindən gəldiyini xüsusi vurğulayaraq deyirdi: "Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa, xalqı irəli aparmağa çalışmışlar. Milli özünüdərk, milli dirçəliş prosesləri xalqımıza birinci növbədə ədəbiyyatdan keçib".[650]

Artıq uzun əsrlər boyu Azərbaycan ədəbiyyatında tərənnüm olunan və xalqın ürəyində yaşadılaraq nəsildən-nəsilə ötürülən dövlət müstəqilliyi arzudan həqiqətə çevrilmişdir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin konfransında "Müstəqillik dövrünün özünəməxsus ədəbiyyatı olmalıdır" – deyən Ali Məclisin Sədri bildirmişdir ki, bu dövr əvvəlki dövrlərdən tamamilə fərqlənir. Əsas fərq bundan ibarətdir ki, sovetlər birliyi dövründəki kimi indi ədəbiyyatın üzərində senzura yoxdur. Müxtəlif mövzular üzrə dövlət sifarişləri aradan qaldırılmış, mövzu seçimində tam sərbəstlik verilmişdir. İkinci fərq budur ki, bu gün bədii yaradıcılıqda "Vətən" anlayışı öz real məzmununa qovuşmuş, Azərbaycan müstəqil dövlət olmuşdur. Əgər əvvəllər şair və yazıçı "Vətən" deyərkən fikrində xəyali

[649] "Azərbaycan" qəzeti, 2012, 21 oktyabr
[650] Yenə orada, 2012, 21 oktyabr

sərhədlər cızır və ya keçmiş sovetlər birliyini nəzərdə tuturdusa, bu gün real sərhədlər hüdudunda müstəqil Azərbaycanımız – öz doğma Vətənimiz mövcuddur.[651]

Müstəqillik illərində Naxçıvan ədəbi mühiti xeyli canlanmış, təcrübəli şair və yazıçı, tənqidçilərlə yanaşı gənc ədəbi simalar da ədəbiyyata gəlmiş, öz sözü və qələmi ilə yaradıcılıq qabiliyyətini göstərmişdir. Naxçıvan ədəbi mühitində şeir həmişə üstünlüyə malik olmuşdur. Hüseyn Razi, Kəmalə Ağayeva, Adil Qasımov, Ramiq Muxtar, Elmira Qasımova, Həsən Valeh, Elman Həbib, Vaqif Məmmədov, Xanəli Kərimli, Muxtar Qasımzadə, Əhməd Sədərəkli, İnqilab Orxan, Budaq Təhməz, Vaqif Əsrər, Əbülfəz Ülvi, Qafar Qərib və başqalarının şeir və poemaları ümumazərbaycan poeziyasında özünəməxsus yer tutmuşdur.

Naxçıvan ədəbi mühitində yetişən Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi Hüseyn Razi (1924-1998) özünəməxsus duyum və deyim tərzi ilə seçilən şairlərimizdəndir. Onun yaradıcılığında vətən mövzusu, təbiət təsvirləri, Araz həsrəti əsas motivlərdən biridir. H.Razinin əsərlərində Azərbaycan təbiətinin füsunkar gözəlliyi, tarixi abidələrimizin möhtəşəmliyi, başı göydən nəm çəkən dağların vüqarı, qalaların canına hopan igidlərin nərələri vəsf edilmişdir. Respublikamızın elə guşəsi yoxdur ki, şair onları vəsf etməsin, qələmi ilə, sənətkarlıq qüdrəti ilə ona söz çələngi düzməsin.

Vətən aşiqi olan şairin 14 sanballı şeir kitabı[652] çapdan çıxıb, 6 dram əsəri tamaşaya qoyulub, publisist əsərləri və qəzəlləri oxucu marağına səbəb olub. Müxtəlif nəşriyyatlar tərəfindən "Kəndimizin səhəri", "Ana məhəbbəti", "Ömür yolları", "Səslənən dağlar", "Həmişə bahar", "Araz sahilində", "Canlı tonqal", "Ayrılmaram", "Sevək bu torpağı..." şeir kitabları, povest və pyeslərdən ibarət "Buludlar arasında", "Həyəcanlı gecə", "Tarla

[651] "Şərq qapısı" qəzeti, 2012, 20 oktyabr
[652] Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, s.142



gözəli" topluları çapdan buraxılıb.[653] Onun son qələm məhsullarından olan "İnsanlar, tələsin xeyirxahlığa" poeması görkəmli elm xadimi, dünya şöhrətli Yusif Məmmədəliyevin ömür yoluna həsr edilmişdir. H.Razinin poeziyasında həm incə, zərif lirika var, həm də düşündürən dərin həyat fəlsəfəsi. Şairin həyat yolu görüb eşitdikləri ilə bağlı şeirləri bir silsilə təşkil edir. Onun etiraz motivləri isə həyatın özündən doğmuşdur. Ermənilər Qarabağda fitnə-fəsad törətdikləri, azərbaycanlıları dədə-baba torpaqlarından qovub çıxartdıqları "böyük Ermənistan" yaratmaq xülyalarını həyata keçirmək üçün hər cür çirkinliklərə əl atırdılar. Başabəla rəhbərlərimiz isə bizi təmkinli olmağa çağırırdı.

Hüseyn Razi bu hadisələri nigarançılıqla izləyir, susmur, narahat duyğularını belə ifadə edirdi.

...Misri qılınc pas atıbdır qınında,
Mərdlik susar namərdliyin yanında.
Qara iblis ehtiyaclar donunda
Əjdahalar qabağına çıxan yox.
... Səksəkələr odundadır zaman da
Qalacayıq çox həsrətdə, amanda.
Nə qədər ki, gözlərimiz dumanda
Üfiqlərdə şimşək kimi çaxan yox.

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, şairə, dramaturq Kəmalə Ağayevanın (1936) yaradıcılığında müasirlərimizi düşündürən sosial-mənəvi problemlər bədii əksini tapmışdır. O, bir neçə poemanın, tarixi və müasir mövzularda 11 pyesin müəllifidir. Onun ən gözəl əsərləri ötən əsrin səksəninci və doxsanıncı illərində qələmə alınmışdır: "Daş piyalə", "Gül yarpağı", "O dağlarda gözüm qaldı", "Tanrıya heyranam mən" və başqaları. Şairənin "Əlixan məhəlləsi" kitabında uşaqlıq

[653] Axundov A., Əfəndiyev E. İşıqlı adamlar (Naxçıvanın görkəmli adamları haqqında). Bakı: Hüquq ədəbiyyatı, 2002, s.387

xatirələri, ilk qələm təcrübələrindən nümunələr və seçmə şerlər toplanmışdır.

Kəmalə Ağayevanın yaradıcılığında vətən, ana, sevgi anlayışlarına elə bənzətmələr, təsvir vasitələri gətirilir ki, oxucu qəlbi onunla həyat eşqi yaşayır. Vətən torpağının bir hissəsinin düşmən tapdağı altında qalması, verdiyimiz itkilər Kəmalə Ağayevanın da şair qəlbini sızladır. O, Şuşa, Kəlbəcər, Sədərək uğrunda canlarını qurban edənlərin adlarını uca tutur, onların müqəddəs ruhu qarşısında baş əyir:

Bu millətin qeyrət adı tacı var,
Bu şöhrətin dövrəsində acı var.
Qəlbi yara neçə ana-bacı var
Şərbətini acı içən şəhidlər.
Torpaq üçün ölənlərə ölüm yox,
Qəlbimizə yaş tökürəm, gülüm yox.
Yanınıza gəlmək üçün yolum yox,
Ürəyimə axıb keçir şəhidlər.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, şair Elman Həbib (Elman Hacıyev – 1949-2010) əsas əsərlərini 90-cı illərdə və XXI əsrin əvvəllərində qələmə almışdır. Şair Asim Yadigarın qeyd etdiyi kimi, doğma Naxçıvanın tərənnümü Elman Həbibin yaradıcılığından qırmızı xətlə keçir. Onun "Ömrümün göy qurşağı", "Hərənin öz işi", "Ömrüm, günüm mənim", "Sənli, sənsiz günlərim", "Sevən ömrü", "Məmləkətim, məhəbbətim" kimi poetik topluları ona şöhrət qazandırmışdır. Şairin müxtəlif illərdə işıq üzü görən "Günəşin vətəni", "Həqiqət günəşi", "Bu, mən görən şəhər deyil", "Mənəmliyin süqutu", "Naxçıvannamə", "Heydərnamə", "İlham – xalqın İlhamı" kitablarında qədim Naxçıvan, onun tarixi keçmişi, bu günü, sabahı övlad sevgisi ilə qələmə alınmış, bu qədim diyarın gündən-günə gözəlləşməsində, yeniləşməsində ümummilli lider Heydər Əliyevin böyük zəhməti, yurda sonsuz sevgisi böyük ilhamla tərənnüm olunmuşdur. Şair öz kitablarında ulu öndərin quruculuq missiyasını böyük sevgi və məhəbbətlə davam etdirən ölkə



Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun doğma torpağımızın simasının başdan-başa dəyişilməsində həyata keçirdikləri genişmiqyaslı quruculuq və abadlıq işlərini səmimi yazıları ilə bir daha oxuculara çatdırmışdır. Şair Elman Həbibin 2009-cu ildə çapdan çıxan "Naxçıvan Muxtar Respublikası: 85 ilin 15 ili" kitabı muxtar respublikanın yaradılmasının 85 illiyinə ən gözəl töhfə olmuşdur. Müəllif kitaba daxil olunan yazıları "Ədəbi-publisistik düşüncələr, statistik həqiqətlər" kimi oxucuya təqdim edir.

Elman Həbib doğma torpağın əsrarəngiz gözəlliklərini, orada yaşayan insanların saflığını böyük məhəbbətlə tərənnüm edirdi. Onun şeirlərini oxuyan hər bir oxucu şairin doğulduğu el-obaya ürəklə bağlılığının, vətənpərvərliyinin, torpaqsevərliliyinin şahidi olur.

Elman Həbib sözdən məharətlə, yerində istifadə edən şair idi. Sözün qədir-qiymətini bilən şair ana dilimizin çox böyük dəyərə malik olduğunu, bu dili qorumağın, inkişaf etdirməyin şan-şöhrət işi olduğunu göstərirdi. Bu cəhətdən "Dilimizdə danışmağı utanmayaq" şeri xüsusi əhəmiyyətə malikdir.

Doğma ana laylasından mayalanıb,
Qopuzların havasından mayalanıb,
Qılıncların davasından mayalanıb
Ana dilim!
Hər vaxt onu şərəf sayaq.
Dilimizdə danışmağa utanmayaq.
Daş dilimdir "Gəmiqaya"m, "Qobustan"ım,
Tufanlardan qorumuşdur onu qanım.
Namusumdur, şərəfimdir, həm vicdanım,
Keşiyində kişi kimi duraq oyaq, -
Dilimizdə danışmağa utanmayaq.

Ədəbi yaradıcılığa keçən əsrin 70-ci illərində başlayan Muxtar Qasımzadə (1951) ilk şerlərindən oxucuların diqqətini cəlb etmişdir. Müasir ədəbiyyatımızın orta nəslinə mənsub olan

Muxtar Qasımzadənin yaradıcılığında Naxçıvan ədəbi mühitini düşündürən məsələlərin daha geniş mənzərəsi müşahidə edilir.

Şairin ilk kitabı "Bu həmin sevgidir" adlanır. Bu kitabdakı şerlərdə poetik mükəmməllik, ahəngdarlıq, lirik-fəlsəfi duyum oxucu ilə şair arasında etibarlı körpü yaradır, onlar 80-ci illər Naxçıvanda yazılan şeirlərə örnək kimi qiymətləndirilir.

Sadəlik, lakoniklik, düşündürücülük Muxtar Qasımzadənin "Sənə sarı gələn səs" (1999) kitabının başlıca məziyyətləridir. Kitabdakı şerlərin ayrı-ayrılıqda öz söz mühiti vardır. Bu mühitdə ilhamlı bir şair sözə bəndəlik edir; onun içində həsrət ağrısı, hicran nisgili var, yaralı bir sevda var. Hisslərin tufanı, duyğuların tüğyanı, həyəcan seli Muxtar Qasımzadə şeirlərinə hopmuş fikir və düşüncələridir.

Şair tarixi həqiqətlərə "Yaddaş çırağı" (2000) kitabının işığında üz tutur, Gəmiqaya yüksəkliyindən, Əshabi-Kəhf qüdsiyyətindən, Əlincə dönməzliyindən, Gülüstan gözəlliyindən bəhs edir (Y.Axundlu).

Öz poetik imkanlarını ölçüb-biçən, sözə tələbkarlıq və qənaətlə yanaşan şair kimi tanıdığımız Muxtar Qasımzadənin "Gülü xəlvət açan dünya" (2004) kitabı şairin yeni uğuru kimi qiymətləndirilir. Buradakı şeirlər mövzularına uyğun olaraq "Gülü xəlvət açan dünya", "Ləçəklərə yazılan sevgi", "Nuhçıxandan gəlirəm", "Uşaqlar üçün", "Təbiət şeirləri", "Ədəbi fraqmentlər" başlıqları altında qruplaşdırılıb. Kitabın "Nuhçıxandan gəlirəm" bölməsi isə başdan-başa tarixi mövzuya həsr edilmişdir. Həmin kitab barədə rəyini bildirən şair Adil Cəmil bu bölmə ilə bağlı düşüncələrini belə ifadə edir: "Kitabın "Nuhçıxandan gəlirəm" adlı bölməsi mənə görə daha artıq maraq doğurur. Özünəməxsus etnotoponimiya və etnoqrafiyaya malik Naxçıvan torpağında bütün dünyanın diqqətini çəkən Gəmiqaya, Əshabi-Kəhf, Duz sarayı, Çalxanqala, Əlincə, Xaraba Gilan, Gülüstan, Qarabağlar türbəsi kimi çox qədim və dəyərli tarixi abidə və ziyarətgahlara ayrılıqda həsr olunmuş şeirlər məzmunlu və təsirli poetik parçalar kimi yadda qalır...".



Vətən və xalq taleyi Muxtar Qasımzadə yaradıcılığının əsas mövzusudur. Ulu diyarın təbiəti, uca dağları, tarixi yadigarları, füsunkar gözəllikləri yaradıcılığa başlayan dövrdən şairin ilham mənbəyinə çevrilmişdir. Vətən mövzusunda yazdığı şeirlərdə şair Vətən sevgisini ən böyük dövlət hesab edir:

Qorunub həmişə yer kürəsində,
Yaşayır hər kəsin öz nəfəsində,
Ürəyin məhəbbət xatirəsində
Ən böyük dövlətdir Vətən sevgisi.

Muxtar Qasımzadənin son kitablarından biri "Nuhçıxandan gəlirəm" (2013) adlanır. Bu kitab şairin oxuculara yeddinci ədəbi töhfəsidir. "Yaddaş çırağı", "Günəş çəkə bilmirəm", "Daşar gözəllikdən daşar bu yerlər" və "Məqalələr" başlığı altında qruplaşdırılan şeir və məqalələr M.Qasımzadə yaradıcılığına işıq salır, ədəbiyyatımızda onun yeri və rolunu göstərmiş olur.

Naxçıvanda yaşayıb, yazıb-yaradan şairlər arasında Vaqif Məmmədov (1948-2016) öz dəsti-xətti, deyim tərzi, sözlə işləmək bacarığı ilə həmişə diqqəti cəlb etmiş, oxucu hörməti qazanmışdır. Vaqif Məmmədovun yaradıcılığını izləyənlər, onun "bənzərsiz sənətkarlıq imkanları, özünəməxsus istedad və ilham, ədəbiyyata, şeirə-sənətə vaqiflik" (İsa Həbibbəyli) keyfiyyətlərini görməmiş deyillər. Vaqif Məmmədovun şeirlərinin əsas leytmotivini Vətən, torpaq sevgisi və insan həyatı təşkil edir. Onun üç cilddə olacaq "Seçilmiş əsərləri"nin iki cildində verilmiş şeir və poemalarının bir qismi müstəqillik illərində qələmə alınmışdır.

V.Məmmədovun bədii yaradıcılığı əsasən ictimai motivlər üstündə köklənmişdir. Bunun da əsas səbəbi onun Araz çayının sahilində yerləşən qədim Sədərək kəndində yaşayıb-işləməsi, bu coğrafiyanın doğurduğu milli və ictimai düşüncələrin əsasında formalaşması ilə bağlıdır. Mənfur düşmən Sədərəyi top-tüfəngə tutmuş, yüzlərlə vətən övladı namərd güllısinə tuş gəlmişdir. V.Məmmədovun "cəbhə şeirləri" həmin hadisələrin canlı şahidi kimi düşmən gülləsinin səsi altında qələmə alınmışdır. "Sədərək

harayı" (1994), "Qeyrət qalası" (1999), "Heydər Əliyev və Sədərək rayonu" (2003), "Sədərəkdə yazılan gündəlik" (2010) kimi əsərləri "qeyrət qalası" (Heydər Əliyev) adlandırılan Sədərəkdə baş verən hadisələr şairin fikir və düşüncələri fövqündə təqdim edilir. Hadisələrin qaynar dövründə - 1992-ci ildə Xalq şairi Bəxtiyar Vahabzadə Vaqif Məmmədovun "cəbhə şeirləri"ndən bəhs edərkən demişdir: "Sədərəkdən Vaqif Məmmədovdan bir məktub aldım. İçində bir neçə şeir vardı. Ah dolu, aman dolu bu şeirlərdən üzümə alov vurdu, varaqlar əlimi yandırdı. Bu şeirlər Sədərəyin bugünkü müsibətinin sabah üçün tarixidir. Bu gün başımıza gətirilən müsibətlərin bədii aynası olan bu şeirləri biz indi çap etməli, gələcək nəslə yadigar qoymalıyıq ki, onlar da dədələrimiz və bizim kimi unutqan olmasınlar".

Akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, Vaqif Məmmədovun Azərbaycanın müstəqilliyi uğrunda Vətən sərhədlərində gedən döyüşlərə, aparılan mübarizəyə həsr olunmuş şeirlərinin uğurlu olmasının bir səbəbi şairin özünün həmin prosesin ön cərgəsində olması ilə bağlıdır.

Vaqif Məmmədov geniş yaradıcılıq və iş qabiliyyətinə malik təcrübəli pedaqoq, ciddi tədqiqatçı, qəzet redaktoru, nəşriyyat rəhbəri, şair və publisistdir. Bütün bunlar onun yaradıcılığında izsiz keçmir.

Vaqif Məmmədov ictimai motivli şeirlərində mövzunun aktuallığının arxasında gizlənmir, əksinə aktual həyat hadisəsini poetik biçimdə təqdim etməyə üstünlük verir. İctimai mətləbləri poetikləşdirmək, obrazlı düşüncə vasitəsilə mənalandırmaq V.Məmmədovun şeir yaradıcılığının əsasını təşkil edir. O, yetkin ictimai baxışlara malik olan milli təfəkkürlü Azərbaycan şairidir.

V.Məmmədovun "Salam, oğuz elləri" (2001), "Arazdan keçə bildim" (2002), "Mənə çiçək borclusan" (2003), "Bu dünyanın sevinci nə, qəmi nə? (2004) və başqa şeir və publisistik əsərləri onun yetkin, püxtələşmiş bir şair və nasir olduğunu təsdiq edir. O, hansı mövzuya müraciət etməsindən asılı olmayaraq onun dili sadə, axıcı və qəlbəyatandır. Təsadüfi deyildir ki, hələ



vaxtı ilə Xalq şairi Nəbi Xəzri Vaqif Məmmədovdan söz açarkən demişdir: "Dil, üslub və ifadə orijinallığı, poetik təfəkkür lazımi profesional səviyyədədir. Vaqif Məmmədovun... yaxşı qələm təcrübəsi var. Şeirin sirlərinə vaqifdir".

Asim Yadigar (1954) qırx ildən artıqdır ki, bədii yaradıcılıqla məşğuldur. Onun 30-a qədər qəzet və jurnalda, 20-dən çox ədəbi almanaxda şeirləri dərc olunub. Şairin indiyə qədər 9 kitabı işıq üzü görüb. O, 20-yə qədər poemanın (bunun 10-dan çoxu müstəqillik illərində yazılıb), 6 dram əsərinin (hamısı müstəqillik illərində qələmə alınıb) müəllifidir.

Naxçıvanlı şairlər arasında öz istedadı ilə seçilən, böyük sənət yolunda qürurla addımlayan Asim Yadigarın ilk kitabı "Zirvə yolu" (1988) adlanır. Çoxsaylı əsərləri və burada toplanan maraqlı şeirləri ilə diqqəti cəlb edən Asim Yadıgarın yaradıcılığı mövzu rəngarəngliyi ilə həmişə seçilmişdir. Poeziyanın neçə-neçə naxışından biri olan həssaslıq, incə, saf duyğular, vətəndaşlıq pafosu Asim Yadigarın bütün şeirlərinin ana xəttini təşkil edir.

Asim Yadigarın "Unut bu sevdanı" (2001) kitabında qəlb oxşayan şeirlər kifayət qədərdir. Şair şeirlərində mənəviyyatı çox üstün tutur və insanlarda bu keyfiyyətləri görmək arzusundadır. "Mən böyük adamam" şeiri şairin özünü nişan verən, şəxsiyyətini açan bir nəzm parçası olsa da, bütövlükdə insanlarda görmək istədiyi ləyaqətliliyə çağırışdır. Bu cəhətdən şeir böyük tərbiyəvi xarakterə malikdir.

> Bir qarın çörəkçin alçalmamışam,
> Alçağa züy tutub əl çalmamışam.
> Alçala-alçala ucalmamışam,
> Mən böyük adamam, atam balası.

Şairin "Qisas qiyamətə qalmaz", "Mənə söz verin", "Bir gecənin ağrısı", "Bir bayraq altında", "Bahar", "Naxçıvanım – göz nurum", "Mən vətənin oğluyam" kimi poemalarında tarixi şəxsiyyətlər, tarixi hadisələr, Azərbaycan övladının əməyə bağlılığı və vətənpərvəlik duyğuları şair hissiyatı ilə qələmə

alınmışdır. "Bir nurlu heykəl yarat" kitabı şairin oxucularla 9-cu görüşüdür. Kitab "Heydər zirvəsi", "Sevgi nağılı", "Poemalar" və "Mənzum dramlar" başlığı altında verilmişdir.

Asim Yadıgar Naxçıvan televiziyasında redaktor, baş redaktor vəzifələrində çalışıb (1989-2007). O, 2007-ci ildən Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədridir. Asim Yadigar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, əməkdar mədəniyyət işçisidir. O, Prezident mükafatına və "Tərəqqi" medalına layiq görülmüşdür.

Azərbaycan şairlərindən Bəxtiyar Vahabzadə, Məmməd Araz, Hüseyn Razi şeirlərinin mahiyyətində, cövhərində dünyanı dərk etmək, həyat hadisələrini düzgün qiymətləndirmək kimi məsələlər xüsusi yer tutmuşdur. Onları filosof şair kimi də yüksək qiymətləndirirlər. Bu sıraya Naxçıvanda yaşayıb fəaliyyət göstərən şair Xanəli Kərimlini də aid etmək olar. Xanəli Kərimli (1951) şeir yaradıcılığı ilə çox erkən məşğul olsa da, ilk kitabı 1998-ci ildə işıq üzü görüb. "Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldır" (2004) şeir və poema topluları nəşr olunmuşdur. X.Kərimli həm bir alim, həm bir şair kimi sözün məsuliyyətini dərindən dərk edən, özünə və sözünə tələbkarlıqla yanaşan şairlərdəndir. Onun şeirləri sadə və səmimidir. Gördüklərini, duyduqlarını şeirə çevirməyi bacarır, yeni söz deyə bilir. Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir (İsa Həbibbəyli). "Vətəndaşlıq lirikası təkcə mövzu xüsusiyyətlərinə görə deyil, eyni zamanda vətəndaşlıq haqqı qazanmış dilin üslubu imkanlarından bacarıqla istifadə etmək yolu ilə yaranır".[654] X.Kərimlinin şeirlərində xalq dilinin üslubu imkanları həmişə təzə və yeni çalarlarla təzahür etdiyindən poetik dili canlı və təravətlidir. Çünki o, bir şair kimi hər bir sözün daxili anlamına, gizli qatlarına müraciət etməyi bacarır. O, sözlə insanla davranan kimi davranır.

[654] Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, s.182



X.Kərimlinin yaradıcılığı xalqımızın milli-mənəvi dəyərlərinin tarixi yaddaşının yaşantısıdır. Şairin şəhidlərimizlə bağlı yazdığı "Ağrı", "Bütövlük", tariximizin və günümüzün gerçəkliklərini əks etdirən "İnam", "Təbil" poemaları və bir çox şeirləri bu reallığı əks etdirir. Onun "Azərbaycan bayrağı" şeirində dövlətimizin atributlarından olan bayrağımızın simasında xalqımızın milli qürur və əzəməti ön plana çəkilir.

Şairin ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi "Onu zaman doğmuşdu" şeiri də bu mövzuda yazılmış şeirlər sırasında milli-mənəvi yaddaşımızı əks etdirən layiqli poetik nümunələrdən biridir.

O, dünyaya gələndə
Təkcə özü ağladı.
Dünyadan köçəndəsə,
Cahan qara bağladı.

...Heydər kimi bir düha
Yetiribdirsə xalq,
Bu xalqa ölüm yoxdur,
Əbədi yaşayacaq.

Ədəbi tənqidin fikrincə X.Kərimli poeziyası, sözün gerçək mənasında əbədiyaşar poeziyadır. Xanəli Kərimlinin yaradıcılığı haqqında S.Bəşirovun "Xanəli Kərimli: bir ömrün nağılı" (2011) monoqrafiyası, "Şairə məktub" (2007) və "Xanəli Kərimli: sözün Əlincə qalası" (2011) məqalələr toplusu çap edilmişdir.

Naxçıvan ədəbi mühitində iki gənc şair deyim tərzi, öz sözləri, dəsti-xətti, fəlsəfi yozumları ilə fərqlənir. Bunlar Qafar Qərib (1976) və Elxan Yurdoğludur (1980). Hər ikisi Naxçıvan Dövlət Universitetinin məzunudur. Qafar Qəribin "Gözlərsən məni" (1998) ilk şeir kitabı tələbəlik illərində işıq üzü görüb. Q.Qərib bəlkə də çox universitetlərin tarixində tələbə ikən kitabı çıxan çox azsaylı tələbə-şairlərdən biridir (İ.Həbibbəyli). Gənc şairin ilk kitabındakı şeirlərdən aydın duyulurdu ki, zaman onu bu keçməkeşli dövrdə xalqının dərdinə şərik göndərib. Siyasi-

ictimai həyatın, etnik dəyərlərimizin, əxlaqımızın elə sahəsi yoxdur ki, gənc şair o barədə öz sevincini-qüssəsini tərənnüm etməmiş olsun.

Q.Qəribin "Gözümə döydüyüm şəkil" (2000) adlı ikinci kitabı onun birinci kitabındakı Vətən duyğulu misraların bir növ davamıdır. Kitabda toplanan şeirlər bir daha sübut edir ki, Vətən dərdini şair öz dərdi hesab edir. Şairin "İçimizdəki qəhrəman" (2002), "Dünya üçbucaq imiş" (2004) kimi kitablarında özünə yer almış şeirləri ilə şair mövzu rəngarəngliyi, fikir lakonikliyi ilə ədəbiyyatda müəyyən qədər öz yolunu seçmişdir. Onun şeirləri özünəməxsus xüsusiyyətləri, səmimiliyi və yüksək şeriyyəti ilə diqqəti cəlb edir. Q.Qəribin yaradıcılığında "Vətənpərvərlik mövzusu, ictimai-siyasi mövzulu şeirlər, həyat fəlsəfəsi, sevgi-məhəbbət şeirləri, ilahi şeirlər, təbiət mövzusu" qırmızı xətt kimi keçir. Şair milli mətbuatın 140 illiyi bayram edildiyi günlərdə "Tərəqqi" medalı ilə təltif edildi.

Tələbəlik illərində "Qızlar gözlərində sevgi gəzdirir" (2002) kitabını çap etdirən Elxan Yurdoğlu mövzu rəngarəngliyi ilə diqqəti cəlb etmişdir. Müəllifin 2004-cü ildə "Mən sevginin bəndəsiyəm", 2008-ci ildə "Ən gözəl sevgidi ölüm", 2013-cü ildə "20+13" adlı şeir kitabları nəşr olunub. Həmin əsərlərdə toplanan şeirlər Elxan Yurdoğlu yaradıcılığını geniş təhlil etməyə imkan verir. Onun 2015-ci ildə işıq üzü görən növbəti kitabı "Ömrüm - ədəbi kitab" adlanır. Gənc tədqiqatçı, şair və publisist E.Yurdoğlunun bu kitabında onun daha çox ədəbi-bədii məqalələri, portret yazıları, bir neçə hekayə və essesi özünə yer almışdır. Buradakı yazılarla Elxan Yurdoğlu həm də özünün istedadlı publisist, folklorşünas olduğunu təsdiq edir. E.Yurdoğlu "Azərbaycan" qəzetinin bölgə müxbiridir. O, ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görüldü.

90-cı illərdə və sonrakı dövrdə Kəmaləddin Qədim, İbrahim Yusifoğlu, Budaq Təhməz, Ələddin Eyvazov, Məmməd Tahir, Nadir Əlincə, Əbülfəz Muxtaroğlu, Maarif Təmkin, Əbülfəz Ülvi, Zeyqəm Vüqar, Səhlab Məmmədov, Cavanşir Eloğlu,



Elbəyi Maqsudov, Hüseyn Bağıroğlu, Rahil Tahirlinin şeirləri dərin məzmunu və lirizmi ilə fərqlənir. Günümüzün aktual problemləri, cəmiyyəti düşündürən mövzular, Vətən, təbiət, Azərbaycana tükənməz sevgi şairlərin yaradıcılığında özünün dolğun əksini tapırdı. Pedaqoji elmlər doktoru Elbəyi Maqsudovun "Ürək bir dünyadır" (2001), "Poetik-praktik Azərbaycan dili" (2012) kitablarında ana, Vətən, vətənpərvərlik, dil, millət, sevgi motivli şeirləri üstünlük təşkil edir. E.Maqsudov şeirlərində dilimizin müxtəlif bölmələri poetik şəkildə verilmiş, dillə, nəzəri və elmi biliklərlə poeziya nümunələrinin sintezi yeni, düşündürücü formada oxucuya təqdim olunur. Onun şeirlərində bir saitin iştirak etdiyi bayatılar, qoşmalar, dodaqdəyməzlər, paronimlər və omonimli yanıltmacalar oxucuda böyük maraq doğurur.

Naxçıvanın qadın şairlərindən Aləmzər Sadıqqızı, Mətanət Hüseynxanqızı, Kamilə Dönməz və b. yaddaqalan şeirləri ilə oxucuların rəğbətini qazanıblar. Aləmzərin 1998-ci ildə "Bu gün toyundur sənin", 1999-cu ildə "Qəmi özündən böyük", Mətanətin 1997-ci ildə "Gündoğana gedən karvan", 2000-ci ildə "Payız yarpağı", Kamilə Dönməzin həmin ildə "Qardaş həsrəti" kitabları çapdan buraxılmışdır. Nazlı Hacılının, Sədaqət Nemətin, Aybəniz Güllərin, Nafilə Həsənəliyevanın, Rəna Rüstəmovanın, Səbinə Əlincənin, Güllər Qəmlinin və başqalarının da uğurlu, yaddaqalan şeirləri az deyildir.

XX əsrin 70-80-ci illərindən başlayaraq naxçıvanda bir neçə dəfə Azərbaycan Yazıçılar İttifaqının səyyar plenumlarının keçirilməsi, diyarın ədəbi qüvvələrinə diqqətin artırılması, Naxçıvanın şair və yazıçılarının əsərlərindən ibarət müxtəlif almanaxların buraxılması, ədəbi məcmuələrdə və nəşriyyatlarda Naxçıvan yazıçılarına geniş yer ayrılması sayəsində qədim diyar öz ədəbi inkişafında yeni mərhələyə qədəm qoymuşdu. Naxçıvan yazıçılarının sırası ədəbiyyata yeni gələn gənclər hesabına da get-gedə möhkəmlənməkdə idi.

Azərbaycan ədəbiyyatının inkişafında unudulmaz xidmətləri olan Hüseyn İbrahimov (1919-2008) ömrü boyu Naxçıvan-

dan ayrı düşməyib. O, Naxçıvanda yazıb-yaradıb, buradakı ədəbi qüvvələrin dayağı olub. "Onun yaradıcılığı "məhəlli ölçü" tanımır. O, bütöv Azərbaycan yazıçısıdır" (Süleyman Rəhimov).

H.İbrahimov 1941-1975-ci illərdə Naxçıvanda komsomol, partiya, dövlət orqanlarında və mətbuat sahəsində çalışmışdır. 1980-ci ildən Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsinin məsul katibi, Naxçıvan Yazıçılar Birliyinin sədri olmuşdur.[655] H.İbrahimovun müxtəlif illərdə yazdığı hekayə, novella, povest, kinopovest, sənədli povest, tarixi və müasir romanlar onun nəsr yaradıcılığı sahəsindəki özünəməxsus ideya-sənətkarlıq imkanlarını bütün gücü ilə nümayiş etdirir. Yazıçının 80 illiyi qeyd olunanda onun 19 kitabı, 70-dən çox hekayə və novellası, 9 povesti, 6 romanı oxucuların mütaliəsində möhkəm yer tuturdu.[656]

H.İbrahimov həyatının müdrik dövründə - 1998-ci ildə Hüseyn Cavidə həsr etdiyi "Böhtan" romanını və "Qu quşları öləndə oxuyurlar" (1998) povestini yazmışdır. Nəsr sahəsində çox böyük uğurlar qazanan Hüseyn İbraimovun bu əsərləri Azərbaycan nəsrinin nailiyyətlərindəndir.

Hüseyn İbrahimov Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə 1994-cü ildə "Şöhrət" ordeni ilə təltif olunmuş, 1998-ci ildə isə "xalq yazıçısı" fəxri adına layiq görülmüşdür. O, 2003-cü ildən Prezident təqaüdçüsü idi.[657]

1980-1990-cı illərdə nəsr sahəsində diqqətəlayiq əsərlər yaranmışdır. Möhsün Möhsünov, Həmid Arzulu, Novruz Nehrəmli ən maraqlı hekayə və povestlərini bu illərdə yazmışdır. Həmid Arzulu şeir və dramaturgiya ilə yanaşı, nəsrlə də məşğul olmağı davam etdirmişdir. Onun "Sevgi nağılı" povesti, "Qaçaq Quşdan", "Qara xəncər" tarixi romanları oxucular və ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. O, "Əlincə qalası", "Məhəbbət mərhəmət deyil" adlı pyeslər də yazmış, onlar müvəffəqiyyətlə Naxçıvan teatrında tamaşaya qoyulmuşdur. Novruz

[655] Naxçıvan ensiklopediyası. İki cilddə. c.1. İstanbul: Bakanlar Medya, 2005, s.260
[656] "Ədəbiyyat" qəzeti, 1999, 28 may
[657] Naxçıvan ensiklopediyası. İki cilddə. c.1. İstanbul: Bakanlar Medya, 2005, s.260



Nehrəmlinin "Zülmətdə işıq" povesti, "Vətən həsrəti", "Narahat ürək", "Ləyaqət" və digər kitablarına daxil olan əsərləri yığcam süjeti, obrazlılığı ilə diqqəti cəlb edir.[658]

Ötən iyirmi ildə Naxçıvanda nəsrlə yazan qələm sahiblərinin sırası xeyli genişlənmişdir. Onlardan Bayram İsgəndərli, Akif Axundov, Güllü Məmmədova, Rafiq Babayev və başqaları Azərbaycan nəsrinə yeni nəfəs gətirmişlər.

Bayran İsgəndərlinin "Bir payız günü"ndən başlanan yaradıcılıq yolu "Günəş həmişə olacaq", "Balaca nağılçı", "Yeddi ilin ayrılığı" və "Vaxtla üz-üzə"dən keçən yazıçı taleyi ona həmişə uğur gətirib. Onun bütün hekayələri nikbin bir sonluqla bitir.

Yazıçının "Sevgi məktubları" onun oxucularla altıncı görüşüdür. Lirik düşüncələr üzərində köklənən yeni kitabında da yazıçı öz yaradıcılıq ənənəsinə sadiq qalır, insana, insanlığa olan dərin sevgisini bir az da qabarıq verməyə çalışır.

Akif Axundov hekayə janrı ilə yaradıcılığa başlamış və "Axşam düşürdü" kitabında onun hekayələri toplanmışdır. Sonrakı illərdə onun povest və hekayələrdən ibarət "Ömrün üç anı", "Yüksəliş", "Molla-Nəsrəddin-2000", "İşıqlı adamlar" kitabları nəşr edilib. "Çətin günün dostu" (2003) kitabı yazıçının sayca 6-cı əsəridir. Mirzə Cəlil ənənələrinə söykənən Akif Axundov özünəməxsus sənətkarlardandır. İnsan psixologiyasını gözəl bilən yazıçının əsərləri təbii və səmimidir. Yazıçı nikbin dünyagörüşə malik bir ziyalıdır. Bu nikbinlik onun əsərlərinə də hopub. "İnad bəlası", "Ağ göyərçin", "Çətin günün dostu", "Miras", "Gərəkli adam" və digər hekayələri, "Bal arısının şəhər sərgüzəşti", "Ömrün üç günü", "Sənsiz də səninləyəm", "Fatmanın hekayələri", povestləri, uşaqlar və böyüklər üçün yazdığı pyeslər, satirik və fantastik mövzularda yazdığı əsərlər mövzu rəngarəngliyindən xəbər verir. Sonrakı illərdə yazıçının daha iki kitabı – "Sənsiz də səninləyəm" və "Qisas" kitabları çapdan buraxılıb.

İstedadlı nasir Rafiq Babayev keçən əsrin 70-ci illərindən hekayələrini çap etdirir. "Axırıncı axşam" adlı ilk kitabı 1986-cı

[658] Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, s.163

ildə işıq üzü görüb. Rafiq Babayevin maraqlı hekayələri oxucular tərəfindən həmişə rəğbətlə qarşılanır. Rafiqin heç bir əsərini həyacansız oxumaq olmur. Onun hekayələrində və "Yolçu daşı", "Zühur" kitablarında verilən povestlərində daxili təhkiyə olduqca güclüdür. Dərin müşahidə qabiliyyətinə malik olan Rafiq Babayev dövrün gerçəkliklərini məharətlə əks etdirməyi bacarır. Sadə insanların zəngin mənəvi aləminin bədii təsviri onun bütün əsərlərinin başlıca qayəsidir. Müəllif 2013-cü ildə "Ölüm mələyi" romanını və əvvəllər yazdığı "Təkbətək" povestini oxucuların mühakiməsinə verib. Hər iki əsərdə fərqli taleli adamların adi həyat dramlarının qeyri-adi tərəflərindən söz açılır.

Yazıçı Güllü Məmmədovanın imzası ədəbi ictimaiyyətə yaxşı tanışdır. Onun nəsri üçün lirik-psixoloji üslub daha səciyyəvidir. İstedadlı yazıçının yaradıcılıq diapazonu son illərdə daha da genişlənmiş, o, epik növün daha irihəcmli janrlarında – povest və roman sahəsində də uğurlu sənət axtarışları aparmağa başlamışdır. Bu baxımdan G.Məmmədovanın son illərdə qələmə aldığı üç əsərini ayrıca qeyd etmək gərəkdir. Bunların hər üçü tarixi mövzuda olub, bədii nəsrimizin demək olar ki, müraciət etmədiyi tarixi sahəyə və şəxsiyyətlərə həsr olunmuşdur. "Qaçaq Quşdan" povesti sovet hakimiyyətinin ilk illərində Naxçıvanda rus işğalına qarşı mərdliklə mübarizə aparan el qəhrəmanına, şahbuzlu Qaçaq Quşdanın ömür yoluna həsr olunmuşdur.

"Qarabəkir əfsanəsi" tarixi sənədli roman (2001) və "Kalbalı xan" tarixi romanı (2007) Güllü Məmmədovanın tariximizə marağından və Azərbaycana qarşı haqsız iddiaların əsassızlığının ortaya çıxarılmasından irəli gəlmişdir. Birinci romanda hadisələr əsasən XX əsrin 20-ci illərindən, "Kalbalı xan" romanında isə XVIII-XIX əsrlərin siyasi hadisələrindən bəhs edilir. Muxtariyyət ərəfəsində Naxçıvanda baş verən siyasi-hərbi proseslər, erməni basqını, belə bir məqamda həmvətənlərinin köməyinə çatan qardaş türk ordusu, onun Kazım Qarabəkir paşa kimi qeyrətli rəhbərlərinin Naxçıvanın xilası naminə fədakar fəaliyyəti romanda dolğun, bədii təqdimini tapmışdır. "Kalbalı xan" romanında isə



Naxçıvan xanlığının tarixi, rus ordusunun Azərbaycanı, eləcə də Naxçıvanı işğal etməsi, Naxçıvan xanı Kalbalı xanın ağıllı siyasəti öz dolğun həllini tapmışdır.

Naxçıvanda ədəbi tənqidin inkişafında tədqiqatçı alimlərdən Yavuz Axundlunun, İsa Həbibbəylinin, Əbülfəz Quliyevin, Əjdər İsmayılovun, Hüseyn Həşimlinin, Akif İmanlının, Əsgər Qədimovun, Fərman Xəlilovun, Əbülfəz Əzimlinin, Fərqanə Kazımovanın, İman Cəfərlinin, Hikmət Mehdiyevin, Elxan Məmmədovun və başqalarının böyük xidmətləri olmuşdur. Onların Naxçıvan ədəbi mühitinin tarixinə, çağdaş ədəbi prosesə dair uğurlu tədqiqatları diqqəti cəlb edir.

Naxçıvanda filologiya üzrə elmi mühitin, ədəbiyyatşünaslğın ağsaqqalı sayılan professor Yavuz Axundlu elmə sədaqəti, zəhmətsevərliyi ilə bütöv bir nəslin taleyində mühüm rol oynamışdır. Y.Axundlu ədəbiyyatşünaslığa dair 15-dən çox kitabın, 120-yə qədər məqalənin müəllifidir. Onun 1997-ci ildə "İstiqlalın əzablı yolu" iri həcmli kitabı Ankarada türk dilində çap edilmişdir.

Akademik İsa Həbibbəylinin adı ölkəmizdə və bir sıra xarici ölkələrdə çox məhşurdur. O, uzunmüddətdir ki, (1980-2015) ədəbiyyat tarixi, ədəbiyyatşünaslıq, ədəbiyyat nəzəriyyəsi və başqa istiqamətlərdə ciddi və nəzəri əsərləri ilə şöhrət qazanmışdır. İ.Həbibbəyli XIX əsrin 50-ci illərindən elə bir ədəbi simamız olmamışdır ki, onun haqqında elmi və nəzəri fikirlərini söyləməsin, ona əsər həsr etməmiş olsun. O, ədəbiyyatşünaslığa dair qeyri-adi sayda əsərlərin müəllifidir. "İsa Həbibbəyli hazırda Azərbaycan ədəbiyyatşünaslığının elmi fikrinin əsas yükünü çəkən, ciddi qayğıları ilə yaşayan aparıcı nümayəndələrindən biridir" (Əziz Mirəhmədov).

Ümumiyyətlə, müstəqillik illərində Naxçıvanda ədəbi mühit inkişaf etmiş, görkəmli şair və yazıçılar, tədqiqatçı alimlər, tənqidçilər formalaşmışdır.

## 4.5.Mətbuat

Əhalinin maariflənməsində, mədəni səviyyəsinin yüksəlməsində, ictimai-siyasi fəallığının artmasında mətbuat əhəmiyyətli rol oynayır. Bu cəhətdən muxtar respublikada nəşr olunan "Şərq qapısı" qəzeti və digər mətbu orqanlar üzərinə düşən vəzifələri şərəflə doğruldur. "Şərq qapısı" qəzeti 1980-1990-cı illərdə "Sovet Naxçıvanı" və "Sovetskaya Naxiçevan" adları ilə Azərbaycan və rus dillərində çıxmışdı.[659] 1996-cı ildən Naxçıvan şəhər İcra Hakimiyyətinin "Nuh yurdu" qəzeti nəşr edilir. 30-cu illərdən muxtar respublikada yaradılmış inzibati rayonlarda da müvafiq olaraq Rayon İcra Hakimiyyətlərinin orqanı olan "Şərurun səsi" (Şərur), "El həyatı" (Ordubad), "Şərqin səhəri" (Babək), "Arazın səsi" (Culfa), "Oğuz səsi" (Şahbuz), "Oğuz yurdu" (Sədərək), "Yeni həyat" (Kəngərli) qəzetləri çıxır. Muxtar respublika mətbuatı diyarın ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatını işıqlandırır, onun tərəqqisində əhəmiyyətli rol oynayır. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov demişdir: "Mətbuat dövrün güzgüsüdür. Gələcək nəsillər tariximizi öyrənmək üçün indiki qəzetlərə, televiziya verilişlərinə müraciət edəcəklər. Odur ki, tariximiz öz əksini düzgün tapmalıdır. Hər bir kütləvi informasiya vasitəsi işçisi bilməlidir ki, o, bu günün gələcək nəsillərə daşıyıcısıdır. Ona görə də hər günün tarixi yazılmalı, gedən proseslər düzgün işıqlandırılmalıdır...".[660]

Bu cəhətdən mətbu orqanlar qəzeti muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatını vaxtında və əhatəli verə bilmişdir.

"Şərq qapısı" qəzeti ulu öndər Heydər Əliyevin müstəqillik illərində Naxçıvandakı həyat və fəaliyyətinin güzgüsü olmaqla yanaşı, onun müharibə şəraitində Naxçıvanda blokadanın

[659] Şahverdiyev Z., Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı: Qismət, 2002, s.68

[660] Seyid Surə. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. Bakı: Elm və təhsil, 2010, s.4



yaratdığı ağır sosial-iqtisadi durumdan yaxa qurtaran tədbirlərini, imzaladığı fərman və sərəncamları, apardığı beynəlxalq səviyyəli danışıqları dolğun əks etdirmişdir.

Ümummilli lider Heydər Əliyevin "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi haqqında" 2000-ci il 27 mart tarixli fərmanını rəhbər tutaraq Muxtar Respublika Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasının Dövlət Mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 29 mart 2000-ci il tarixdə sərəncam vermişdir. Sərəncamda muxtar respublikanın aparıcı mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin maddi-texniki vəziyyətinin yaxşılaşdırılması ilə yanaşı, şəhər və rayon icra hakimiyyətlərinin orqanları olan qəzetlərin də bu sahədəki problemlərinin həlli istiqamətində müəyyən tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu.

Naxçıvan mətbuatının inkişafına yönəlmiş tədbirlər – qəzet redaksiyalarının maddi texniki bazasının gücləndirilməsi, mətbuat işçilərinin sosial vəziyyətlərinin yaxşılaşdırılması, onlara fəxri adların və mükafatların verilməsi ardıcıl olaraq həyata keçirilirdi. 2005-ci ildən jurnalistlərin səmərəli fəaliyyətini təşkil etmək, bu sahədə mövcud problemləri həll etmək üçün Naxçıvan Mətbuat Şurası yaradıldı.[661]

"Şərq qapısı" qəzetinin yubileylərinin qeyd edilməsi, bununla əlaqədar Ali Məclis Sədrinin qəzetin əməkdaşları ilə görüşlərində, mətbuatın rol və əhəmiyyətinin artması qeyd edilmiş, onun bir universitet və məktəb qədər cəmiyyət həyatı üçün əhəmiyyətindən söz açılmışdır.

Naxçıvanda mətbuatın maddi təminatına, mətbuat işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına ardıcıl qayğısı və diqqəti ilə fərqlənən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov gördüyü işlərə və mətbuata himayəsinə görə 2010-cu ildə Naxçıvan Muxtar Respublikası

[661] Seyid Surə. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. Bakı: Elm və təhsil, 2010, s.63

Mətbuat Şurası tərəfindən "Mətbuatın dostu" fəxri adına layiq görülmüşdür.[662]

Azərbaycan milli mətbuatının 135 və 140 illik yubileyləri münasibətilə Azərbaycan Respublikası Prezidentinin, Naxçıvan MR Ali Məclisi Sədrinin sərəncamları ilə Naxçıvan MR kütləvi informasiya vasitələrinin əməkdaşlarından 9-u "Tərəqqi" medalı, 3-ü Azərbaycan Respublikasının "Əməkdar jurnalisti" və 3-ü isə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adlarına layiq görülmüşdür.[663] Naxçıvan MR Ali Məclisi Sədrinin sərəncamı ilə 3 nəfər "Əməkdar jurnalist", 5 nəfər isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşdur.[664]

Muxtar respublikada Naxçıvan şəhər Poliqrafiya Müəssisəsi fəaliyyət göstərirdi. 1991-ci ildə mətbəədə ofset dəzgahı quraşdırılmış, muxtar respublika qəzetlərinin bu üsulla çapına başlanmışdır.1997-ci ildən isə müəssisə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi kimi fəaliyyət göstərir. 2010-cu ildə "Şərq qapısı" qəzeti redaksiyası, "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi yeni binaya köçmüşdür. Nəşriyyat ən müasir avadanlıqlarla təchiz edilmişdir. Ötən beş ildə "Əcəmi" NPB-də yüzlərlə kitab və jurnal, minlərlə qəzet nüsxələri keyfiyyətlə çap olunmuşdur. 2015-ci ildə nəşriyyata Almaniya istehsalı olan ikinci ən müasir çap maşını alınaraq quraşdırılmışdır. Bundan əlavə, AMEA Naxçıvan Bölməsinin "Tusi", Naxçıvan Dövlət Universitetinin "Qeyrət", Naxçıvan Müəllimlər İnstitutunun "Məktəb" və özəl "Qızıl dağ" mətbəə-nəşriyyatları da fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikasında yerli radio verilişlərinə 1930-cu ildən başlanılmış, iki ildən sonra Radio Verilişləri Komitəsi yaradılmışdır. 1963-cü ildən televiziya mərkəzi işə salınmışdır. Həmin ildə muxtar respublika Nazirlər Sovetinin qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Televiziya və Radio Verilişləri Komitəsi yaradılmışdır. Komitə fəaliyyət göstərdiyi

[662] Seyid Surə. "Şərq qapısı" qəzeti və Naxçıvanda ədəbi mühit. Bakı: Elm və təhsil, 2010, s.66

[663] Yenə orada; "Şərq qapısı" qəzeti, 2015, 23 iyul

[664] "Yeni fikir" qəzeti, 2015, 23 iyul



dövrdə muxtar respublikanın ictimai-siyasi, iqtisadi, sosial və mədəni həyatının işıqlandırılmasında mühüm rol oynamış, 1988-1990-cı illərdə informasiya blokadasını yararaq, Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmışdır. Komitənin yerləşdiyi bina əsaslı sürətdə yenidən qurulmuş və təmirdən sonra müasir səviyyəyə gətirilmişdir. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin verilişləri ilə yanaşı, tamaşaçı və dinləyicilərə hər gün televiziya ilə 17 saat, radio ilə 16 saat rəngarəng yerli proqramlar təqdim edilir. 2001-ci ildə "Lider" televiziyası və radio kanallarının, "Space" televiziya kanalının peyk vasitəsilə muxtar respublikaya translyasiyası təmin olundu. "Naxçıvanın səsi" radio kanalı və elmi-publisistik proqramları nümayiş etdirən "Kanal-35" televiziya kanalı müstəqil yayıma başladı. Televiziya və radio yayımları Naxçıvan Muxtar Respublikasını əhatə etməklə maraqlı verilişlər ilə tamaşaçıların və dinləyicilərin qəlbinə daxil olurlar. Naxçıvan Televiziya və Radiosu 2003-cü il iyun ayının 15-də - Milli Qurtuluş Günündə öz verilişlərini müstəqil kanal vasitəsilə yayımlamağa başlamışdır.

2009-cu ildən quraşdırılmış yeni avadanlıq verilişlərin texniki səviyyəsini və keyfiyyətini xeyli yüksəltməyə imkan yaratmışdır. 2011-ci ildən isə yeni nəsil teleradio avadanlıqları quraşdırılmış, daha müasir iş və efir şəraiti yaradılmışdır. Burada 12 kanallı rəqəmsal videomikser, 24 kanallı səs mikseri, 2 dəst efirin avtomatlaşdırılması sistemi, efirə göndərilən siqnalların keyfiyyətinə nəzarət edən rəqəmsal qurğular quraşdırılmışdır. Televiziyada yeni quraşdırılan avadanlıqların mərkəzi idarəetmə sistemi, 15 montaj avadanlığı, qrafik və animasiya keçidlərinin hazırlanması üçün 2 dəst kompüter bazalı sistemi, 40 terebayt həcmində rəqəmsal arxiv sistemi istifadəyə verilmişdir. Yeni televiziya avadanlıqları HD formatlı yüksək keyfiyyətli son texnologiyaya əsaslanır. Müasir dövrdə HD formatı televiziyalarda yüksək keyfiyyətli ən yeni standart hesab olunur. Naxçıvan

televiziyasının iki studiyasında 7 çəkiliş pavilyonu vardır ki, onlardan biri virtual studiyadır.

Ölkəmizdə, o cümlədən muxtar respublikamızda baş verən ən mühüm hadisələri, xəbərləri peşəkarlıq və operativliklə tamaşaçı və dinləyicilərə təqdim edən teleradio jurnalistləri həm də Naxçıvanın sosial-iqtisadi inkişafının, tarixinin, elminin, təhsilinin, mədəniyyətinin, xalq yaradıcılığının təbliğatçısına çevrilmişdir.

1997-ci ildə quraşdırılmış yeni avadanlıq verilişlərin texniki səviyyəsini və keyfiyyətini xeyli yüksəltməyə imkan yaratmışdır.

2001-ci ildə Ordubad rayonunda quraşdırılan yeni ötürücü Ordubad və Culfa rayonları ərazisində Azərbaycan televiziyasının birinci kanalı və Naxçıvan televiziyası proqramlarının yayım keyfiyyətini daha da yaxşılaşdırmağa imkan vermişdir.

Son illərdə yeni televiziya ötürücüləri quraşdırılmış, Azərbaycan radiosunun FM dalğasında yayımlanmasına başlanılmışdır. Bunların və birbaşa İnternetə qoşulmaq imkanı verən kompüter-təfris mərkəzinin istifadəyə verilməsi ilə muxtar respublikanın informasiya blokadasına son qoyulmuşdur.

## 4.6.İncəsənət

Müstəqillik illərində Azərbaycan incəsənətində formaca ənənəyə bağlılıq və müasirlik, məzmunca milli və bəşəri dəyərlərin tərənnümü üstünlük təşkil edirdi. Muxtar respublika əhalisinin dünyagörüşünün genişlənməsində və mədəni səviyyələrinin daha da yüksəlməsində incəsənət müəssisələri mühüm rol oynayırdı.

Bu dövrdə Naxçıvan Muxtar Respublikasında C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Kukla Teatrı, Naxçıvan, Ordubad və Şərur Xalq Teatrları, Hüseyn Cavid Poeziya Teatrı kimi incəsənət müəssisələri səmərəli fəaliyyət göstərirdi. C.Məmmədquluzadə adına Naxçıvan Musiqili Dram Teatrında bu dövrdə M.Quliyev, Z.Həmzəyeva, S.Hüseynova, Ə.Qardaşbəyov, A.Şahsuvarov, R.Cəfərxanova, İ.Məmmədov, T.Məmmədova, H.Ağayev, K.Quliyev, Y.Haqverdiyev, İ.Bənəniyarlı, T.Mövləvi, M.Səfərov, N.Həmzəyev və başqa görkəmli səhnə ustaları və gənc istedadlı aktyorlar çalışırdı.



Naxçıvan Dövlət Kukla Teatrı muxtar respublikada uşaq və yeniyetmələrin milli, mənəvi-əxlaqi dəyərlər uğrunda tərbiyəsində, dünyagörüşlərinin formalaşmasında mühüm rol oynayır. Bu illər ərzində teatrda Ə.Abbasovun "Keçinin qisası", T.Ağayevin "Cırtdanın kələyi", Ç.Ələsgərovun "İbrət dərsi", C.Məmmədquluzadənin alleqorik "Çay dəstgahı", Ə.Qasımovun "İnanmayaq tülkülərə", K.Ağayevanın "Göyçək fatma", "Tıq-tıq xanım" və "Məlikməmməd", C.Kərimovun "Nəğməkar bülbül", A.Ağaqızının "Tənbəl Əhməd", V.Rzayevin "Cəsur dovşan" əsərləri tamaşaya qoyulmuşdur.

Müstəqillik dövründə Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı musiqidə də özünü göstərirdi. Bu isə insanlarda musiqi mədəniyyətini formalaşdırırdı.

Musiqi mədəniyyətinin inkişafı isə musiqi təhsilindən və peşəkar musiqi kollektivlərinin yaranması ilə əlaqədardır. 1937-ci ildə Naxçıvan şəhər uşaq musiqi məktəbinin, sonralar isə bir çox şəhər və kəndlərdə uşaq musiqi məktəblərinin açılması Naxçıvanda musiqi mədəniyyətinin formalaşmasına təsir göstərdi. 1975-ci ildə Ü.Hacıbəyli adına Naxçıvan orta-ixtisas musiqi məktəbinin, 1988-ci ildə Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutunda "Musiqi" kafedrasının açılması peşəkar musiqiçilərin yetişməsinə imkan yaratdı. 1994-cü ildən Naxçıvan Dövlət Universitetində musiqi ixtisası üzrə mütəxəssislər hazırlanmağa başlandı.[665] 1998-ci ildə universitetin İncəsənət fakültəsi nəzdində konservatoriya açılmışdır. Konservatoriyanın fortepiano, skripka, xalq çalğı alətləri, ifaçılıq sinifləri, konsert salonu var idi. 2000-ci ildən burada opera studiyası fəaliyyət göstərirdi.

[665] Naxçıvan Muxtar Respublikası. Bakı: Elm, 2001, s. 190

Hər bir xalqın musiqisi həmin xalqın tarixinin səslər vasitəsilə əks etdirilməsidir. Musiqi mədəniyyətinin inkişafında xalq yaradıcılığının – xalq mahnı və rəqs havalarının, aşıq sənətinin mühüm rolu olmuşdur. Xalq mahnıları, habelə toy mərasimi ilə bağlı haxıştalar, gülümeylər, rəqs havaları, xüsusilə xalq yaradıcılığının sintetik janrı, vokal və instrumental musiqini özündə birləşdirən yallı və mahnılar geniş yayılmışdı. Xalq yaradıcılığında özünəməxsus yeri olan aşıq sənəti, əsasən, Şərur və Şahbuz rayonlarında yayılmışdı.

Naxçıvan musiqi mədəniyyətinin əsas inkişaf dövrlərindən biri şərq üçlüklərinin fəaliyyətləri ilə sıx bağlı olmuşdur. 50-ci illərdə tarzən Rəşid Məmmədovun üçlüyü (xanəndə Abdulla Babayev, kamança çalan Aydın Camalbəyov idilər), 70-ci illərdə xanəndə Zöhrab İsmayılovun üçlüyü (tarda Zöhrab Axundov, kamançada isə Kamal Əliyev çalırdılar) və bir sıra şərq üçlükləri fəaliyyət göstərirdi. Müstəqillik illərində xanəndə Qurban Qasımovun yaratdığı şərq üçlüyü, xüsusilə diqqəti cəlb edirdi. Şair Əbülfəzin "Qurbanın səsi" adlı yazdığı şeir Qurbanın sənətinə böyük mükafat, gələcəyinə etibar, inam kimi səslənirdi. Üçlüyün, Qurban kimi istedadlı musiqiçiləri olan tarzən Elman Əliyev və kamança çalan Nizami Hüseynovun hər biri ayrı-ayrılıqda professional musiqiçilərdir. Üçlüyün repertuarını əsasən muğam dəsgahları və qədim, unudulmaqda olan el havaları bəzəyirdi. 90-cı illərdə və sonrakı dövrdə bir sıra yaddaqalan ifaçılar Naxçıvan musiqi mədəniyyəti tarixinə adlarını yazmışlar. Xalq artistləri Abdulla Babayev, Əzizağa Məmmədov, əməkdar artistlər Qurban Qasımov, Vilayət İsmayılov, istedadlı müğənni Hünər Əliyev və başqaları peşəkar ifaçılar kimi xalqın rəğbətini qazanmışlar. Onların istər xalq çalğı alətləri orkestri, istərsə də kamera orkestri ilə çıxışları əsl sənət nümunələri idi.

Xanəndə Abdulla Babayevin adı 1950-ci illərdən başlayaraq xalq şənliklərində, konsert salonlarında tez-tez səslənirdi. Geniş səs diapozonuna malik xanəndə, dəfələrlə Naxçıvan xanəndəlik sənətini Bakı şəhərində keçirilən Naxçıvan günlərində,



eləcə də ittifaqın bir çox böyük konsert salonlarında alqışların sədası altında nümayiş etdirmişdir. Onun heyranlıqla oxuduğu C.Cahangirovun "Koroğlu" kino filminə yazdığı "Dəli Həsənin mahnısı", M.Cavadovun "Naxçıvan", V.Axundovun "O Naxçıvandır", Ş.Əbdülkərimovun "Təki sən səslə məni" mahnıları, "Qatar", "Zabul-segah" muğamları, eləcə də bir çox xalq mahnıları və təsnifləri, bir sözlə, xalqın sevimli xanəndəsi Abdulla Babayevin səsi tamaşaçılar tərəfindən həmişə hörmətlə qarşılanmışdır. Azərbaycan Respublikasının xalq artisti, "Şöhrət" ordenli A.Babayevin yaradıcılığı gənc xanəndələr üçün əsl mənada örnək olmuşdur.

Azərbaycan Respublikasının xalq artisti Əzizağa Məmmədov oxuduğu muğam, təsnif, bəstəkar və xalq mahnıları onu dinləyən tamaşaçı və dinləyicilər tərəfindən rəğbətlə qarşılanır. Ölməz bəstəkarımız Üzeyir bəy Hacıbəylinin "Sənsiz", "Sevgili canan" romansları, Tofiq Quliyevin "Qızıl üzük" və "Sənə də qalmaz" mahnıları Əzizağanın repertuarının əsas özəyini təşkil edir. O, oxuduğu Azərbaycan bəstəkarlarının mahnılarına yeni nəfəs, yeni təravət gətirib. Əzizağanı dinləyənlər qeyd edirlər ki, o, xalq mahnılarını həm gözəl oxuyur, həm də onları yaşadır. "Aman ovçu, vurma məni", "Ay bəri bax", "Almanı atdım xarala", "Süsən", "İrəvanda xal qalmadı"... kimi xalq mahnıları Əzizağanın ifasında məlahətlə səslənir. Ə.Məmmədov Naxçıvan Dövlət Filarmoniyasının ən öncül solistlərindən biridir.

Naxçıvanda bəstəkarlıq sənəti də inkişaf etmişdi. Gənc musiqiçilər, musiqi aləmində ilk sözlərini cəsarətlə deməyə hazır olan Nəriman Məmmədov, Ramiz Mirişli, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Səfər Rəcəbov, Vahid Axundov ilk, sonradan populyar olan əsərlərini yaradırdılar.

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Nəriman Məmmədov yaradıcılığının Azərbaycan musiqi mədəniyyətinin, eləcə də Naxçıvan musiqi mədəniyyətinin inkişafında xüsusi yeri vardır. O musiqinin müxtəlif janrlarında əsərlər yazmışdır. Bəstəkar –

balet, 7 simfoniya, simfonik poema, 3 musiqili komediya, fortepiano və orkestr üçün 5 konsert, tar və orkestr üçün konsert, iki oratoriya, xalq çalğı alətləri orkestri üçün "simfoniyyetta", süitalar, kamera musiqisi janrında bir sıra əsərlər, 25-dən artıq dram tamaşalarına musiqi, 300-dən artıq mahnı və romansların müəllifidir.[666]

1996-cı ildə bəstəkar dahi şair Məhəmməd Füzulinin 500 illik yubileyi münasibətilə "Məhəmməd Füzuli" oratoriyasını bəstələmişdir. O, musiqişünas və pedaqoq kimi də şöhrət qazanmışdır.

Naxçıvan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən biri də Ramiz Mirişlidir. O, bir sıra fortepiano üçün prelüdiyalar, variasiyalar, pyeslər, simli kvartetlər yaratmışdı. Sonralar isə kamera orkestri üçün "Simfoniya", "Tar və kamera" orkestri üçün "Konsert" və bir sıra iri həcmli əsərlərini yaratmasına baxmayaraq, mahnı janrı bəstəkar R.Mirişlinin yaradıcılığında əsas yer tutur.

R.Mirişli Naxçıvan musiqi həyatının inkişafında, 1994-1998-ci illərdə Naxçıvan Bəstəkarlar İttifaqının formalaşmasında və bir çox yubiley konsertlərinin hazırlanmasında xidmətlər göstərmişdir. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının səhnəsində qoyulan tamaşalar üçün yaddaqalan musiqilər yaratmışdır.

Naxçıvan bəstəkarlıq məktəbinin tanınmış nümayəndələrindən Rəşid Məmmədov, Nazim Quliyev, Səidə Məmmədova, Əkrəm Məmmədov, Nizami Məmmədov, Yaşar Xəlilov, Kamal Əhmədov, Şəmsəddin Qasımov, Yusif Məmmədov və başqaları yeni-yeni əsərlər yaratmışlar.

Bəstəkar, drijor, tarzən-pedaqoq Rəşid Məmmədov bir sıra musiqi əsərlərinin müəllifi, Naxçıvanın musiqi həyatı üçün istedadlı musiqiçilər yetirən görkəmli müəllim kimi tanınmışdır. O, mahnı janrına xüsusi diqqətlə yanaşmış və demək olar ki, mahnı janrı onun yaradıcılığında mühüm yer tutmuşdur. Onun

[666] Quliyev N. Naxçıvan musiqi mədəniyyəti tarixindən (XX əsr). Bakı: Elm, 1999, s 85



"Doğma Naxçıvan", "Ürək pıçıldayır", "Küsmə, ay qız", "Baxma oğlan" mahnıları "Naxçıvan təranələri" adlı not məcmuəsinə daxil edilmişdir. Bəstəkarın mahnı yaradıcılığında əmək qəhrəmanları Əli Əliyev, İsa Əliyev, Yusif İsmayılov, Zakir Nəsirov, Tərlan İmamverdiyeva haqqında bəstələdiyi mahnılar əmək coşğunluğu yaratmış, onları əməyə, quruculuğa səsləmişdir.

Bir neçə süitanın, xor əsərlərinin müəllifi olan R.Məmmədov C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının bir sıra tamaşalarına ("Səyavuş", "Od gəlini", "Odlu diyar", "Alınmaz qala", "İtilənən xəncərlər") musiqi bəstələmişdir.[667]

1999-cu ildə Rəşid Məmmədovun Həmid Arzulunun və Aşıq Şəmkirin sözlərinə yazdığı mahnılar Azərbaycan üzrə keçirilən müsabiqədə I və III mükafata layiq görülmüşdür. R.Məmmədov 1996-2001-ci illərdə Naxçıvan şəhər Mədəniyyət şöbəsinə rəhbərlik etmişdir. R.Məmmədov 1999-cu ildə Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür.

1998-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun yaradıcı ziyalılarla görüşündən sonra Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan təşkilatının fəaliyyətində ciddi dönüş yarandı. Üç bəstəkar və dörd müsiqişünası öz ətrafında birləşdirən təşkilat 2001, 2005, 2007 və müvafiq olaraq sonrakı illərdə hesabat konserti keçirmişdir.

Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının üzvü olan bəstəkar və musiqişünaslar yaradıcılıq imkanlarından geniş istifadə edərək milli musiqi mədəniyyətimizin inkişafı naminə var qüvvələrini sərf edirlər.

Kamal Əhmədov professional təhsilli bəstəkardır. O, Dövlət Filormoniyasının Xalq Çalğı Alətləri orkestrinin bədii rəhbəri və baş drijoru vəzifəsində fəaliyyətə başlamışdır. 1985-1997-ci illərdə qeyd olunan orkestrin formalaşmasında və inkişafında böyük zəhmət çəkmişdir. O, hazırda Bəstəkarlar Təşkilatının

[667] Naxçıvan ensiklopediyası. İki cilddə. c.2. İstanbul: Bakanlar Medya, 2005, s.34

məsul katibi və Naxçıvan Dövlət Universitetinin müəllimidir. Prezident mükafatçısıdır.

Kamal Əhmədov musiqinin bir çox janrlarında əsərlər yazmışdır. Mahnı yaradıcılığında əsasən naxçıvanlı şairlərin sözlərinə müraciət etmişdir: "Qızlar bulağı" (M.Nəsirli), "Qoşa çinar" (H.Valeh), "Gözlərinə baxan zaman" (Y.Şirinoğlu), "Milli ordumuz" (R.Əhmədov), "Bənövşə" (T.Şükür qızı) və b. Onun "Cəngi", "Süita", "Naxçıvan eskizləri", "Rekviyem" kimi orkest əsərləri öz orijinallığı ilə fərqlənir. O, bir sıra vokal, instrumental və simfonik əsərlərə müraciət etmişdir. Bəstəkarın kamera orkestri üçün yazdığı "Simfoniya" İstanbul-Borusan Oda Orkestri tərəfindən səslənmiş və orkestrin daimi repertuarına salınmışdır. Onun son illərdə Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan "Dəli yığıncağı", "Dirilən adam", "Fərhad və Şirin" tamaşalarına yazdığı orijinal musiqilər rəğbətlə qarşılanmışdır.

Əsasən lirik mahnıları və xor əsərləri ilə tanınan bəstəkar Şəmsəddin Qasımovun yaradıcılığında mahnı janrı mühüm yer tutur. Tanınmış şairlərin sözlərinə yazılmış mahnılarda bəstəkar doğma Vətəni, onun gözəlliklərini, bu yurdun şəhid övladlarını, əməksevər insanlarını vəsf etməklə yanaşı, lirik məhəbbət mövzularına da geniş yer vermişdir.

Şəmsəddin Qasımovun yaradıcılığının böyük bir hissəsini teatr tamaşalarına yazılan musiqi təşkil edir.

O, Naxçıvan Şəhər Gənclik Xalq Teatrında tamaşaya qoyulan 8 əsərə, Naxçıvan Dövlət Kukla Teatrının 10-dan çox tamaşasına, Naxçıvan Dövlət Uşaq Teatrının bir tamaşasına orijinal musiqilər bəstələmişdir. Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan 15 əsərə musiqi yazmış və musiqi tərtibatı vermişdir.

Ş.Qasımov bəstəkarlıq işi ilə yanaşı pedaqoji fəaliyyətini Naxçıvan Dövlət Universitetində davam etdirir. O, həm də Azərbaycan Bəstəkarlar İttifaqı Naxçıvan Muxtar Respublika Təşkilatının sədridir.



Naxçıvan bəstəkarları içərisində Yaşar Xəlilovun son illərdəki yaradıcılığı xüsusi ilə diqqəti cəlb edir. Y.Xəlilov musiqinin müxtəlif janrlarında yazdığı əsərlər bəstəkarın profesional yaradıcılığından xəbər verir. Bəstəkar simfonik xalq çalğı alətləri, kamera orkestrləri və həmçinin xor və instrumental alətlər üçün yazılan bir sıra yaddaqalan əsərlərin müəllifidir. 1991-ci ildə yazdığı tar və orkestr üçün "Konsert"də xalq yaradıcılığından bəhrələnən bəstəkarın özünəməxsus musiqi dili, üslubu, fərdi yaradıcılıq prinsipləri özünü parlaq şəkildə göstərir.

Naxçıvanın musiqi mədəniyyəti tarixində qadın musiqiçilərin böyük əməyi olmuşdur.

Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, professor, drijor Səidə Məmmədova Naxçıvanda ilk xor kollektivinin əsasını qoymuş [81, s.64], bu sənətin inkişafına xeyli əmək sərf etmişdir. O, 1994-cü ildən Naxçıvan Dövlət Universitetində "İfaçılıq" kafedrasının müdiridir. S.Məmmədova Azərbaycan Dövlət sinfonik orkestrinin yüksək tərkibli heyətinə drijorluq edən ilk qadın idi. Onun bir sıra mahnıları – "Sevirəm yurdumu", "Ürəkdir sevən məni", "Ayrılıq", "Ölkəmiz", "Könlümdəsən həmişə", "Görüş" – ilə də könülləri fəth etməyi bacarmışdır.

Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq namizədi, dosent Əqidə Ələkbərova Naxçıvanın ilk qadın musiqişünasıdır. O, bəstəkar Məmməd Ələkbərovun ailəsində dünyaya göz açıb. Ə.Ələkbərova 1983-1999-cu illərdə Naxçıvan orta ixtisas musiqi məktəbində müəllim, şöbə müdiri, direktor vəzifələrində çalışıb. 1996-cı ildən isə Naxçıvan Dövlət Universitetində müəllim, dekan müavini və dekan işləyib. O, Naxçıvan yallıları haqqında tədqiqatlar aparmış və 1994-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə Kanadada "Heyvagülü" adlanan kompakt diskini yazdırmışdır.

Naxçıvan Muxtar Respublikasında bəstəkar kimi formalaşan Nazim Quliyev, Vaqif Allahverdiyev, musiqişünaslardan

Sevda Əliyeva, Vasif Allahverdiyev, Jalə Əliyeva hazırda Bakı şəhərində yaradıcılıq fəaliyyətlərini davam etdirirlər.

Naxçıvanda musiqi mədəniyyətinin inkişafında "Araz" Dövlət Mahnı və Rəqs Ansamblının xüsusi rolu olmuşdur. "Araz" Mahnı və Rəqs Ansamblı 1991-ci ildə Türkiyənin İstanbul şəhərində keçirilən I Ümumdünya Folklor festivalında, 1994-cü ildə Avstriyanın Vyana şəhərində, 1995-ci ildə İsveçrədə, 1996-cı ildə Almaniyanın Köln şəhərində, Orta Asiyada və bir çox geniş konsert salonlarında çıxış edərək sənət uğurları qazanmışdır.

Naxçıvan Dövlət Filarmoniyasının fəaliyyəti Naxçıvan Muxtar Respublikasının mədəni həyatında özünəməxsus yer tutur. Dövlət qayğısı sayəsində filarmoniyanın maddi-texniki bazası möhkəmlənmiş, filarmoniya üçün səs avadanlıqları, musiqi alətləri, musiqi ədəbiyyatı, geyimlər alınmışdır. 2001-ci ildən Naxçıvan Dövlət Filarmoniyasına rəhbərlik edən Əməkdar incəsənət xadimi Arif Quliyevin təşəbbüsü ilə filarmoniyanın musiqi kollektivləri Türkiyə Respublikasında, Rusiya Federasiyasında, Türkmənistan Respublikasında keçirilən müxtəlif tədbirlərdə uğurla çıxış etmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 10 yanvar 2012-ci il tarixli "Naxçıvan Dövlət Filarmoniyası Estrada Orkestrinin yaradılması haqqında" Sərəncamından sonra Estrada Orkestrinin yaradılması başa çatmış və orkestrin repertuar zənginliyinə diqqət artırılmış, kollektiv üçün 20 dəst geyim alınmışdır. Xalq artisti Çingiz Axundovun rəhbərliyi ilə Estrada Orkestri formalaşmış və bir sıra rəsmi dövlət tədbirlərində özünü ən yüksək səviyyədə təsdiq etmişdir. 2012-ci ildə Respublika Günü ərəfəsində Naxçıvan teatrı ilə filarmoniya kollektivinin Ü.Hacıbəylinin "Koroğlu" operası əsasında birgə hazırladığı kompozisiya mədəniyyət hadisəsi kimi dəyərləndirilmişdir.[668]

Ali Məclis Sədrinin 19 aprel 2010-cu il tarixli Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyası musiqi

[668] "Şərq qapısı" qəzeti, 2014, 25 aprel



mədəniyyətimizdə mühüm hadisədir. Qeyd edək ki, filarmoniyanın xalq çalğı alətləri, kamera orkestrləri, mahnı və rəqs ansamblı, xor kollektivi istedadlı uşaqları öz ətrafında birləşdirmişdir.

Naxçıvan Muxtar Respublikasında uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə göstərilən qayğı və diqqəti xüsusilə qeyd etmək lazımdır. Muxtar respublikada gedən quruculuq işləri bu mədəniyyət ocaqlarını da əhatə etmiş, son illərdə 20-dən çox uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbləri üçün yeni binalar tikilərək və ya yenidən qurularaq istifadəyə verilmişdir.

Qədim diyarda mədəniyyətin və incəsənətin bütün sahələri qayğı ilə əhatə olunmuşdur. 1970-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi yaradılmışdır. Birlik 2005-ci ildə Azərbaycan Rəssamlar İttifaqının 17 üzvünü öz ətrafında birləşdirmişdi.[669] Hazırda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50-dən çox üzvü vardır. Moskvada (1985), Türkiyənin Qars şəhərində (1993), İğdır şəhərində (2001), İran İslam Respublikasının Urmiya, Xoy, Mehabad şəhərlərində (1995), Azərbaycan Respublikasının bir çox şəhər və rayonlarında Naxçıvan rəssamlarının əsərlərindən ibarət sərgilər nümayiş etdirilmişdir.

Naxçıvan şəhərində "Naxçıvan – bəşəriyyətin beşiyi" mövzusunda 2012-ci I, 2014-cü ildə isə II Beynəlq Rəsam Festivalı keçirilmişdir. Naxçıvanda boyakar rəssamlardan Yuran Məmmədov, Mircəlil Seyidov, Şəmil Mustafayev, Məmməd Şirzadov, Sabir Qədımov, Məmmədəli Ələkbərov, Telman Abdinov və başqaları öz ardıcıllarını yetirmişlər. Xalq rəssamı Hüseynqulu Əliyevin "Göygöl" (2007), Qədrulla Bağırovun "Əshabi-Kəhf" (1999), Həmzə Sadiqovun "Əlincə qalası" (2009), Telman Abdinovun "Darı dağ" (2005), Məmmədəli Ələkbərovun "Yuxu" (2009), Əli Səfərlinin "Gəmiqaya" (2007) əsərləri Naxçıvanın daha çox tarixi ziyarətgahları, qalaları, tarixi yerləri haqqında bənzərsiz təsvirləri təqdim edirlər.

[669] Naxçıvan ensiklopediyası. İki cilddə. c.2. İstanbul: Bakanlar Medya, 2005, s.155

Əməkdar artist Mircəlil Seyidovun "Melodiya" (1994), "Günorta" (1998), "Həyacanlı gün" (2001), "Xatirə" (2003), "Emalatxana" (2004), "Bürkü" (2005), "Yay" (2005), "Dialoq" (2006) kimi rənglər dünyası insanı dünyanı dərk etməyə səsləyir.[670]

Naxçıvan Dövlət Universitetində "Təsviri incəsənət" və "Memarlıq" ixtisaslarının olması bu sahənin inkişafına əsaslı təsir etmişdir. Xüsusilə həmin ixtisasları bitirmiş Ülviyyə Həmzəyeva, Həbibə Allahverdiyeva, Cavid İsmayılov və başqaları özlərini sənətdə təsdiq edə bilmişlər.

Ülviyyə Həmzəyeva qısa müddət ərzində rəssamlıq mühitində özünü təsdiq etmişdir. O, 2002-ci ildə Naxçıvanda soyqırım qurbanlarının xatirəsinə ucaldılan abidələrin layihə müəllifidir. Əsərləri bir çox beynəlxalq və ölkəmiqyaslı müsabiqələrdə ən yüksək mükafata layiq görülmüşdür. 2009-cu ildə Azərbaycan Respublikasının əməkdar rəssamı fəxri adına layiq görülmüşdür.[671] Naxçıvan Dövlət Universitetinin baş müəllimi, Naxçıvan Rəssamlar Birliyinin sədridir (2011). Əsərlərində əsasən millilik, qədimlik, mifologiya və real həyatın fəlsəfəsi özünəməxsus tərzdə əks olunur. "Həyat həqiqəti" (2009), "Həyat ağacı" (2009), "Naxçıvan bəşəriyyətin beşiyidir" (2011), "İtmiş cənnət" (2011), "Məqam" (2012) kimi əsərləri fəlsəfi dərinliyi ilə tamaşaçını düşündürür.

Ü.Həmzəyevanın Türkiyə Respublikasının Fırat və Van Universitetlərində, bir sıra əsərləri ABŞ-da keçirilən tədbirlərdə - Avrasiya Konfransında (2001), Dünya Ticarət Birliyində (2001), Ticarət Sərgisində (2001), Ford Xatirə Kitabxanasında (2000), V.Səmədova adına sərgi salonunda (2011, 2012), Naxçıvan Rəssamlar Birliyi B.Kəngərli adına sərgi salonunda sərgilənmişdir.

Naxçıvan rəssamlıq məktəbinin yetirməsi, Naxçıvanda qadın rəssamlar arasında Azərbaycan realist rəssamlıq üslubunun ən layiqli nümayəndələrindən biri də Həbibə Allahverdiyevadır. Reallığı istədiyi kimi görən, özünəməxsus kaloriti, üslubu olan Həbibə Allahverdiyeva bu dövr incəsənətinin müasir rəssamıdır.[672] O, portret, mənzərə, natürmort, tematik rəsmlər janrındakı yaradıcılığı ilə milli rəssamlıq məktəbinin inkişafında özünəməxsus üslubu və orjinallığı ilə seçilən istedadlı rəssamdır. Onun yaradıcılığında ümummilli liderin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Cəlil Məmmədquluzadənin portretləri, təbiət mənzərələri, tarixi yerlər və abidələrə həsr etdiyi şəkillər istedadlı rəssamın fırçasından çıxmış nadir sənət əsərləridir. Onun əsərləri ABŞ-da keçirilən bir sıra tədbirlərdə nümayiş etdirilmişdir. 2001 və 2008-ci illərdə Naxçıvan Dövlət Universitetində rəssamın fərdi sərgisi keçirilmişdir. 2009-cu ildə Türkmənistan Respublikasında, 2011-ci ildə Bakıda keçirilən qarışıq sərgilərdə iştirak etmişdir. H.Allahverdiyeva 2005-ci ildən Naxçıvan Dövlət Universitetinin müəllimi, 2010-cu ildən isə Azərbaycan Rəssamlar İttifaqının üzvüdür.

Naxçıvan Dövlət Universitetinin digər bir məzunu Cavid İsmayılov yaradıcılığı ilə sənət adamlarının diqqətini cəlb etmişdir. Onun "Ömür yollarında" (2009) əsəri ulu öndərimiz Heydər Əliyevə və onun ömür-gün yoldaşı, akademik Zərifə Əliyevaya həsr edilmişdir. Rəssamın "Yaranış" (2008), "Yeniləşən Naxçıvan" (2009), "Böyük quruculuğun memarı" (2009), "Əli və Nino" (2011) kimi əsərləri onun peşəkar bir rəssam olduğunu təsdiq edir.

Qədim diyarda mədəniyyətin və incəsənətin bütün sahələri qayğı ilə əhatə olunmuşdur. Bu da həmin sahələrin inkişafına şərait yaradır. 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 40 illik yubileyi dövlət səviyyəsində qeyd edilmişdir. 2013-cü ildə isə Rəssamlar Birliyinin yeni binası və Bəhruz Kəngərli adına Sərgi Salonu istifadəyə verilmişdir.

Beləliklə, müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında elm, təhsil, ədəbiyyat, mətbuat, mədəni-maarif müəssisələri ən yüksək səviyədə inkişaf etmiş, nəticədə bu sahələrin mükəmməl və peşəkar nümayəndələri fomalaşmışdır.

670 Mehdiyeva T. Mircəlil Seyidovun rənglər dünyası. Naxçıvan: Əcəmi NPB, 2011, s. 80
671 Həmzəyeva Ü. Nöqtədən nöqtəyə. Naxçıvan: "Əcəmi" NPB, 2012, s.3

672 Axundov A., Vəliyev S. Naxçıvan ədəbi mühiti. Bakı: Nurlan, 2008, s.4

# NƏTİCƏ

Əsrlər boyu xalqımız müstəqillik qazanmaq, azad və suveren dövlətdə yaşamaq arzusunda olub. Lakin zəngin təbii sərvətləri, əlverişli geosiyasi mövqeyi ilə seçilən Azərbaycanı dünyanın bir sıra böyük dövlətləri öz təsir dairəsində saxlamış, müstəqil ölkə kimi mövcudluğuna imkan verməmişdir. Bununla belə, xalqımız heç zaman azadlıq və müstəqillik niyyətindən əl çəkməmişdir. Doğrudur, XX əsrin əvvəllərində belə bir imkan yaranmış, 1918-ci ildə Azərbaycan xalqı öz müstəqilliyini elan etmişdir. Lakin Xalq Cümhuriyyətinin ömrü çox qısa çəkmiş, cəmi 23 ay yaşaya bilmişdir. Öz müstəqilliyindən məhrum edilən ölkəmiz yetmiş il keçmiş ittifaqın tərkibində müttəfiq respublika kimi fəaliyyət göstərmişdir. Elmi, maarifi, mədəniyyəti, iqtisadiyyatı inkişaf etsə də onun müstəqilliyi olmayıb. Keçmiş SSR-də və bütün dünyada 80-ci illərin ortalarından başlayaraq gedən ictimai-siyasi proseslərin labüd nəticəsi olaraq digər müttəfiq respublikalar kimi Azərbaycan da öz müstəqilliyinə nail oldu, dövlət müstəqilliyi yenidən qazanıldı.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, bu çox mühüm siyasi aksiya tarixi qərar sayılsa da hələ müstəqilliyin özü deyildi. Müdrik siyasətçi Heydər Əliyevin sonradan söylədiyi sözlərlə desək, müstəqilliyin əldə olunması nə qədər çətin idisə, onu qoruyub saxlamaq ondan da çətin imiş. Sonrakı illərdə müstəqilliyin reallığa çevrilib möhkəmlənməsi üçün gərgin mübarizə aparılmışdır. Çünki həmin dövrdə məkrli qonşularımız Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüş və buna nail olmaq üçün silahlı yola əl atmışdır. Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanda ictimai-siyasi vəziyyəti kəskinləşdirmişdi. Xalq qazandığı azadlığı və müstəqilliyi qoruyub saxlamaq və məhv olmaqdan xilas etmək üçün üzünü Naxçıvana tutdu. O vaxtlar idi



ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan həqiqətən də Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq uğrunda gedən mübarizənin dayağı idi. Milli dövlətçilik prosesləri məhz ilk dəfə Naxçıvanda formalaşırdı. Heydər Əliyevin Naxçıvanda yaşayıb işlədiyi illərdə Naxçıvan Muxtar Respublikasının ali qanunverici hakimiyyət orqanı da dövlət atributlarının bərpası sahəsində bir çox konkret addımlar atmış, xalqımız üçün taleyüklü məsələlərdə tarixi əhəmiyyətli qərar və hüquqi sənədlər qəbul etmişdir. Ümummilli lider Heydər Əliyev də sonralar bu barədə belə demişdir: "Naxçıvan Azərbaycanda dövlət müstəqilliyi, milli azadlıq yolunda gedən mübarizənin dayağı olmuşdur. Və bu gün də dayağıdır. Gələcəkdə də belə olacaqdır".

Həmin dövrdə ulu öndər Heydər Əliyevi milli dövlətçiliyimizin taleyi çox ciddi narahat edirdi. O, artıq Azərbaycanın müstəqilliyi uğrunda qətiyyətli mübarizəyə başlamışdı. Dünyanın tanınmış siyasətçilərindən birinin o vaxt dediyi sözlərdə böyük həqiqət gücünün olduğunu zaman özü sübut etdi: "Müstəqilliyə nail olmaq üçün tarixi şans, bu müstəqilliyi qoruyub saxlamaq üçünsə tarixi şəxsiyyət lazımdır".

Naxçıvan Muxtar Respublikasını xilas edən ulu öndəri xalqımız təkidlə Azərbaycanda siyasi hakimiyyətə gəlməsini xahiş edirdilər. 1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə qayıdışı ölkəmizin müstəqilliyinin qorunub saxlanılmasının əsasını qoydu. Yalnız müdrik rəhbər, dünya şöhrətli siyasətçi Heydər Əliyev yenidən ölkə rəhbərliyinə qayıtdıqdan sonra Azərbaycanın əsl müstəqilliyinin təmin edilməsi sahəsində qlobal işlər görüldü, irəliyə doğru mühüm addımlar atıldı. Azərbaycan dövləti öz inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoydu. Dövlətin dayaqlarının möhkəmlənməsi və ictimai-siyasi sabitliyin bərqərar edilməsi dövlət quruculuğu işlərinin, əsaslı sosial-iqtisadi dəyişikliklərin həyata keçirilməsinə imkan yaratdı. Məhz bu dövrdən etibarən Azərbaycanda demokratik, hüquqi dövlət

quruculuğu vəzifələrinin yerinə yetirilməsi istiqamətində köklü siyasi, sosial-iqtisadi və hüquqi islahatların ardıcıl şəkildə həyata keçirilməsi işinə başlanıldı. Ulu öndərin Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ən dinamik və sürətli inkişaf kimi tarixə çevrilmiş, respublikamız planetin siyasi xəritəsində özünəlayiq yer tutmuş, regionun və beynəlxalq aləmin qlobal problemlərinin həllində təsirli və əhəmiyyətli mövqe qazanmışdır. Az bir zamanda çox böyük işlər görülmüşdür. Bu işlərdən ən böyüyü, əlbəttə, demokratik sistemli Azərbaycan Respublikasının yaradılmasıdır.

Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş dövlət siyasi müstəqilliyin sonrakı illərində Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcılıqla davam etdirilir. Ölkə Prezidentinin qeyd etdiyi kimi, "Azərbaycan Heydər Əliyev siyasətini zənginləşdirir, müasir dövrün çağırışlarını nəzərə alaraq bu dövrə uyğunlaşdırır, ancaq ümumi siyasi xətdən kənara çıxmır. Bizim siyasi xəttimiz müstəqilliyin möhkəmləndirilməsidir".

Dövlət müstəqilliyinin əldə olunmasında və qorunub möhkəmlənməsində Naxçıvan Muxtar Respublikasının mühüm rolu olmuşdur. Azərbaycan Respublikasının dövlət siyasəti Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir. Bunun nəticəsidir ki, həyatın bütün sahələrində çox böyük uğurlar qazanılmış, inkişafın "Naxçıvan modeli" formalaşmış, inkişafdan intibaha doğru sürətli inkişaf təmin edilmişdir. Qısa bir müddətdə belə bir yüksəlişə və yeniləşməyə nail olmaq çox çətindir. Muxtar Respublikada müstəqillik illərində həyata keçirilən tədbirlər, aparılan quruculuq, abadlıq və yenidənqurma işləri Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin, onun siyasi kursunu davam etdirən İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adları, düşünülmüş və məqsədyönlü fəaliyyətləri ilə sıx bağlıdır.



Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası Azərbaycanın tərkib hissəsi kimi ölkəmizin ictimai-siyasi, iqtisadi-mədəni həyatı ilə həmahəng şəkildə özünün tarixi inkişaf yolunu uğurla davam etdirir. Muxtar respublika bu gün də dövlət müstəqilliyinin möhkəmləndirilməsi və milli dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verməkdədir.

Azərbaycan 25 ildir müstəqil dövlət kimi yaşayır və inkişaf edir. Bu inkişaf ölkəmizin bütün guşələrində, o cümlədən Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. Müstəqillik dövründə muxtar respublikanın keçdiyi yolu xarakterizə etmək, inkişaf dinamikasını görmək üçün real həyata baxmaq kifayətdir. Əldə olunanlar dövlət müstəqilliyinin bəhrələridir.

Hər bir Azərbaycan vətəndaşı çalışmalıdır ki, dövlət müstəqilliyimizi göz bəbəyi kimi qorusun. Çünki müstəqilliyimiz bizim ən dəyərli milli sərvətimizdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, "Bugünkü Azərbaycan Azərbaycan xalqının zəhmətinin, istedadının nəticəsidir. Bu ölkəni biz qurmuşuq, Azərbaycan xalqı qurubdur. Biz elə etməliyik ki, hər bir vətəndaş gündəlik işində elə etməlidir ki, öz fəaliyyəti ilə bu müstəqilliyi gücləndirsin, əbədi, dönməz etsin və bundan sonra əsrlər boyu Azərbaycan xalqı azad, müstəqil yaşasın".

MÜNDƏRİCAT


GİRİŞ ........ 3

I FƏSİL. NAXÇIVANIN İCTİMAİ-SİYASİ VƏ SOSİAL-İQTİSADİ HƏYATI (1988-1990-cı illər) ........ 9
1.1. Dağlıq Qarabağ münaqişəsi və bunun Naxçıvanın ictimai-siyasi həyatına təsiri ........ 9
1.2. Sosial-iqtisadi həyat ........ 22
1.3. "Sərhəd hərəkatı" ........ 27
1.4. Naxçıvana erməni təcavüzü. Naxçıvanlıların ermənilərə qarşı mübarizəsi ........ 34
1.5. Naxçıvan MSSR-in SSRİ tərkibindən çıxması ........ 42
1.6. Görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı ........ 47
1.7. Naxçıvanda xalq hərəkatı ........ 50
1.8. Naxçıvanda həyata keçirilən ilk demokratik dəyişikliklər ........ 53

II FƏSİL. NAXÇIVAN MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ (1991-1993-cü illər) ........ 63
2.1. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi ........ 63
2.2. İqtisadi islahatlar ........ 68
2.3. Naxçıvan Muxtar Respublikasının erməni təcavüzündən müdafiəsi ........ 72
2.4. Naxçıvandan rus qoşunlarının çıxarılması və milli ordunun formalaşması ........ 85
2.5. Blokadanın aradan qaldırılması və Naxçıvan Muxtar Respublikasının beynəlxalq əlaqələri ........ 90
2.6. Naxçıvanda dövlət çevrilişinə cəhd ........ 112
2.7. Naxçıvanın muxtariyyət statusunun ləğv edilməsinə cəhd ........ 120
2.8. Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması ........ 123

III FƏSİL. NAXÇIVAN MÜSTƏQİLLİYİN MÖHKƏMLƏNDİRİLMƏSİ DÖVRÜNDƏ (1993-2016-cı illər) ........ 130
3.1. Naxçıvanın ictimai-siyasi həyatı ........ 130
3.2. Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi ........ 165





3.3. Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi ........ 177
3.4. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ........ 190
3.4.1. Sosial-iqtisadi inkişafın səciyyəsi ........ 190
3.4.2. Sənayenin inkişafı. Yeni sənaye sahələrinin yaradılması ........ 198
3.4.3. Tikinti-quraşdırma və abadlıq işləri ........ 204
3.4.4. Kənd təsərrüfatının inkişafı ........ 212
3.4.5. Nəqliyyat və rabitə ........ 223
3.4.6. Elektroenergetikanın yenidən qurulması, əhalinin və müəssisələrin qazla təmin edilməsi ........ 235
3.4.7. Ekologiya və yaşıllaşdırma tədbirləri ........ 244
3.4.8. Əhalinin sosial müdafiəsinin təmin edilməsi ........ 249
3.4.9. Beynəlxalq əlaqələrin inkişafı ........ 261

IV FƏSİL. NAXÇIVAN MƏDƏNİYYƏTİ MÜSTƏQİLLİK İLLƏRİNDƏ ........ 275
4.1 Təhsil ........ 275
4.2 Elm ........ 295
4.3 Mədəni-maarif ........ 308
4.4 Ədəbiyyat ........ 317
4.5 Mətbuat ........ 336
4.6 İncəsənət ........ 340

NƏTİCƏ ........ 352

**İsmayıl Hacıyev**

# Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında

*«Elm və təhsil»* **nəşriyyatının direktoru:**
*professor* **Nadir MƏMMƏDLİ**

Dizayn: Zahid Məmmədov
Texniki redaktor: Tünzalə Vahabova

Çapa imzalanmış **22.08.2016.**
Şərti çap vərəqi **22, 5.** Sifariş № **356.**
Kağız formatı **70x100 1/16.** Tirajı **500.**

*Kitab «**Elm və təhsil**» nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
***E-mail: nurlan1959@gmail.com***
*Tel: 497-16-32; 050-311-41-89*
**Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.**

Az 2016/544